AZƏRBAYCAN

ƏDƏBİ-BƏDİİ JURNAL

5

2010

AZƏRBAYCAN

5'2010

1923-cü ildən çıxır

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN
AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

Baş redaktor: İntiqam QASIMZADƏ

Baş redaktor müavini: Vaqif YUSİFLİ
Məsul katib: Tofiq MAHMUDOV

REDAKSİYA HEYƏTİ: Afaq Məsud, Ağamusa Axundov, Elçin, Əjdər Olı, Əkrəm Əylisli, Ədalət Əsgəroğlu, İsa Hüseynov, Məmməd Oruc, Mövlud Süleymanlı, Musa Yaqub, Saday Budaqlı, Salam, Vilayət Quliyev, Yaşar, Yusif Həsənbəy

Redaksiyanın ünvanı:
Bakı - Az1000
Xaqani küçəsi, 25

Telefonlar:
Redaksiya -
498-78-10
438-51-89
493-75-81
Mühasibat -
493-29-41

Yığılmağa verilib:
19.04.2010
Çapa imzalanıb:
24.05.2010
Sifariş 1450
Tiraj 1000
Kağız formatı
70x108 1/16 - 6,0
kağız vərəqi
12 çap vərəqi
16,8 şərti çap vərəqi

E-mail:
azerbaijan@ayb.az

Qiyməti
1 manat 50 qəpik

Bakı şəhəri,
"Azərbaycan"
nəşriyyatının
mətbəəsində ofset üsulu
ilə çap olunur.

Redaksiya çap olunmuş yazıları qəbul etmir.

1848

BU SAYIMIZDA:

RƏSUL RZA - 100

RƏSUL RZA - Etiraf (şeirlər) 3
İNTİQAM QASIMZADƏ - İkinci yüzilinə xoş gəldin! 10
VAQİF YUSİFLİ - "Pəncərəmi açdım sabaha..." 12
RÜSTƏM KAMAL - Rəsul Rza: Günün işıq fəlsəfəsi 22
SƏDAQƏT HƏSƏNOVA - Rəsul Rza və ədəbi dilimiz 25

YENİ TƏRCÜMƏLƏR

CORC ORUELL - 1984 (roman - sonu) 30

POEZİYA

MƏMMƏD İSMAYIL - Şeirlər 68
NAZİR RÜSTƏM - Şeirlər 126
ƏLİRZA HƏSRƏT - Şeirlər 130
MİNA RƏŞİD - Şeirlər 132
XALİD MAHMUD - Şeirlər 135
QƏŞƏM ÇIRAQLI - Şeirlər 138

NƏSR

ANAR - Zəfərin mübarək, Nazım! 76
ANAR - Kərəm kimi (roman - əvvəli) 78

MAKSUD İBRAHİMBƏYOVUN 75 YAŞI

SÜDABƏ AĞABALAYEVA - Tarix, ritm, Karpentyer və İbrahimbəyov fraqmentləri 123

YAZIÇININ ARXİVİNDƏN

HƏSƏN SEYİDBƏYLİ - Xəzər (roman - sonu) 140

YENİ TƏRCÜMƏLƏR

Zbiqnev Herbert - Şeirlər 163

TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

ASİF RÜSTƏMLİ - Cəfər Cabbarlı və cabbarlışünaslıq (1917-1934-cü illər) 169
YAQUB BABAYEV - Məhəbbət və gözəllik hökmdar qələmində 179

KİTABLAR, RƏYLƏR

ZAHİD SARITORPAQ - O, həm də dərdlə barışdırır 185

KİTAB RƏFİ 187

Rəsul RZA

ETİRAF

O GECƏ

Gecədir.
Kimsə yox.
Bir sən, bir də mən.
Zülmət asılmışdır pəncərələrdən.
Otağımda sükut,
göylərdən dərin.
Bir mənəm,
bir sükut,
bir də gözlərin.

SƏN DEDİN

Deyirsən: az söylə olub keçəni!
Bu uzun gecəni,
məhzun gecəni,
ötən xatirata həsr eyləyək, gəl.
Kim bilir,
bəlkə də yaxındır əcəl.
Deyirsən: illərlə soruşmamışam,
könlümdə əriyən maraq adlı şam
yandırıb qəlbimi,
ancaq, yenə mən,
o keçən ömründən,
keçən günündən
xəbər almamışam.
İndi söylə, gəl!
Bəlkə yalan deyil,
bəlkə var əcəl.
Mən dedim:
Sən, ömrün yolunda mənə rast gəlib,
könlümü eşq ilə çəkib bağlayan!
Sən, təmiz adıyla başım yüksəlib,
namərd tənəsindən məni saxlayan!
Sən, nəcib qəlbində
dərdi, məlalı,
küləkdən qoruyan məhəbbətimi.
Pərişan baxışı,
məhzun xəyalı
sınaqdan keçirən sədaqətimi.
Sən, dərdli günümdə
dərdimi bilən,
ağır yollarımın
sadiq yolçusu!
Ağlarkən ağlayan,
gülərkən gülən.
Sən, yanar qəlbimə sözü -
sərin su.
Könül dedikləri
bağlı otaqdır.
İnsan bilmir
onu kim açacaqdır.
Onun gizlin qalan yüz qapısı var:
sevincdən açılar,
qəmdən açılar.
Bəzən bağlı qalan bu qapılardan
birini də
açmaq olmayır, inan!
Bəzən də açarkən qapını,
heyhat,
yol yarımçıq qalır,
qırılır həyat...

Dolaşıq yaranıb ömrün dastanı.
Gəncliyi qaytaran bir qüvvət hanı?

SƏBİRSİZ

Mən deyirdim,
illər sovuşub keçər,
qocalar qəm-hicran,
qocalar kədər.
Gənclik günlərini aradıqca biz,
bükülər yollarda bir gün belimiz.
Onda otururıq yan-yana
bir gün,
bir yerdə yaşayıb,
ömür sürdüyün
yolçu, başlar sənə
hekayətini:
qəlbinin dərdini, şikayətini.
Açıb nəql eləyər, o uzun-uzun,
macəralarını qoca yolsuzun.

DEYİRLƏR

Məhəbbət elə bir ismət evidir,
onun qapıları bağlı gərəkdir.
Onun sığındığı etibarlı yer
insan sinəsində
adi ürəkdir.
Ürək süfrə deyil
gəlib gedənə
açasan,
var-yoxum bax, budur, - deyə,
Məhəbbət çeşməsi qardan yaranmır,
töküb dağıdasan
bir sudur - deyə.

Yüz sözü, yüz sirri
dosta desən də,
məhəbbət sirrini özündə saxla!
O tək səndə deyil,
səninki deyil,
açıb saçacaqsan söylə,
nə haqla!

DEYİRƏM

Bəlkə bu etiraf özü köhnədir.
Yoxsa bu qocalmış,
nimdaş təşbihlər,
hardandır, nədir?!

Köhnəlik nə yaşda,
nə də ildədir.
Cavan qocalar var,
qocalmış - cavan.
Həvəs,
arzu,
bütün sirr
könüldədir.
Köhnəlir
həyatda
gərəksiz olan.

İSRAR

Ancaq deyirsən ki, indi deyim mən,
sevmədiklərimdən,
sevdiklərimdən.

Kim məni aldatdı,
mən kimi atdım.
Kimdən qan ağladım,
kimi ağlatdım.
Kimin həsrətilə qaldım yuxusuz.
Yandırdı qəlbimi
hansı hərcayi,
hansı uğursuz?!
Kimə yalvarmışam,
kimdən qaçmışam.
Kimə qorxa-qorxa könül açmışam?!
Hansı afət olub qurbanım mənim?!
Harda başlamışdır
nigaranlığım,
harda qurtarmışdır
mehribanlığım!
Uzunmu sürmüşdür
hicranım mənim?!
Çoxmu ağlamışam
çoxmu gülmüşəm.
Kimlərdən yan durub,
uzaq dolanıb,
kimlərlə dərdimi
yarı bölmüşəm?!
İlk gənclik günümdən
bu vaxta qədər,
nə sərgüzəşt olub,
nə macəralar,
başla, bir-bir
mənə nəql et! - deyirsən.
Ey gənclik həvəsi
rüzgartək əsən!

DEYİM, DİNLƏ

Gəl, otur!
Bax, belə!
Yaxın otur, gəl!
Möhlət verməyəcək bəlkə də əcəl.
Köhnə görünsə də bu söz nə qədər,
insan ürəyindən çıxmır şübhələr.
Əcəl quru sözdür,
ölüm-həqiqət.
Olumdan başlayır yolumuz,
fəqət,
olumdan ölümə yoldur ömrümüz;
acılı-şirinli
əyri, dolay, düz,
şəfqətli, kinli.
Qulaq as!
Çırpınma!
Diqqətlə dinlə!
Qəlbimdir danışan indi sənlə,
Mən rüzgar olmadım həyatımda,
yox!
Doğrudur,
başımın macərası çox,
ömrümün dastanı
dor-dolaşıqdır.
Ancaq, hər yarpağı
göz qabağında
aydın işıqdır.
Qoyma şübhə səni sorğuya çəkə!
Məhəbbət, sədaqət götürməz ləkə.
İnsan şübhələrlə yaranmış ekiz,
doğrudur, amma,
şübhələr də gərək olmaya yersiz.
Bəlkə sevgi özü bir imtahandır.
Sorğusuz qısqanclıq
qəmdir, hicrandır.

SƏN VARSAN

Bəlkə?
Bəlkə?
Bəlkə?
Bu şübhə nədir?
Yoxsa həqiqətdir, bir əfsanədir?
Yox!
İnsan dünyası böyük, genişdir.
Heç kəs bu kitabı ilk varağından
son varağa kimi dərk etməmişdir.
Füzulidən soruş:
məhəbbət nədir?

Leylanın göz yaşı,
Məcnunun ahı
hələ qəlbimizi necə göynədir?!
O sayıb keçdiyin dəcəlliklərı,
yuxusuz gecəni,
yorğun səhəri,
dolaşıq yolları,
həsrəti, dərdi
sənsiz
hansı ürək qəbul edərdi!

İNAN

Bütün ehtiraslar bir külək kimi,
qanadı zər tozlu kəpənək kimi,
könlümə, qəlbimə
köçəri gəldi,
hərcayi həvəslə, keçəri gəldi;
Tez getdi
baharın dumanı kimi,
ümidsiz bir qəlbin gümanı kimi.

GÖRMƏDİM

Çox gözlərə baxdım
səmavi, siyah,
qonur gözlərindən qəşəng
görmədim.
Bağlarda gül azdı,
dağlarda lalə,
dodaqların kimi çiçək
görmədim.
Hərcayi insanlar çox vədə verdi,
onlarda saf ürək, dilək
görmədim.
Çox qumaşa baxdım,
atlaza baxdım,
qumral saçın kimi ipək
görmədim.
Ürəklərə baxdım,
bir sərraf oldum,
qəlbin kimi böyük ürək,
görmədim.

Yer salıb könlümdə sağalmaz izi,
varmı bir qüvvət ki,
ayırsın bizi?

OXŞARLIQ

Yadlar söhbətindən sıxıldı qəlbim,
könlümün həsrəti
şirin dilədir.

Göylər təmiz olur tufan keçəndə;
ürək də,
könül də,
inan, belədir.
Bağda yüz gül açsın, yüz nadir çiçək,
bülbülün həsrəti
qızıl gülədir.
Xoşdur mənə sözün,
xoşdur söhbətin.
Sevinc gözlərimdə gilə-gilədir.

HAŞİYƏ

Vərdişin təsiri gör nə böyükdür.
Hələ də gül, bülbül,
ipək və lalə
mətləbə yükdür.
Nə gülə düşmənəm, nə bülbülə mən.
Ancaq düşünürəm: yolumuz əgər
Bakıdan birbaşa Muğanadırsa,
niyə keçək gərək,
biz Bülbülədən?..

İNAM

Hansı sualın var cavabsız qala?
Ümidlə, həvəslə bax istiqbala!
Səhvimiz olsa da ömür yolunda;
enişi, yoxuşu çoxdur yolun da.
Büdrəmək man deyil
bu yolda əgər
əslində deyilsə yolçu ağciyər.
İnadını onun qırmazsa müşkül.
Yüyürən yıxılar,
bu heç man deyil.
Yoxuşlardan qalxıb zirvəyə yetsən,
sanma yeganəsən,
sanma igidsən.
Arxana, önünə nəzər sal bir an,
görərsən, nə ilkçi,
nə sonuncusan.
Hərdən gözlərinə çökərsə kədər,
uzun sürməz o da,
sovuşub gedər.
İnamla yaşayır dünyada insan,
İnsana,
İnsana,
İnsana,
İnan!

1938

İntiqam QASIMZADƏ

İKİNCİ YÜZİLİNƏ XOŞ GƏLDİN!

2010 - cu ilin ilk günlərində Azərbaycan Prezidenti İlham Əliyev böyük Azərbaycan şairi Rəsul Rzanın anadan olmasının 100 illiyi ilə əlaqədar 14 yanvar tarixli Sərəncamını imzaladıqdan sonra Rəsul Rza poeziya ilinə sanki rəsmi şəkildə start verildi və Ölkəmizin hər yerində -- şəhərlərdə, kəndlərdə, ayrı - ayrı müəssisə və təşkilatlarda, universitetlərdə sevimli şairimizin xatirəsinə həsr olunmuş yubiley tədbirləri keçirilməyə başlandı. Bu tədbirlər onun parlaq yaradıcılığına məhəbbətin, şəxsiyyətinə ehtiramın parlaq nümayişidir.

Rəsul Rza mənim də ən çox sevdiyim şairlərdən biridir. Biz, 60 - cı illərin gəncləri hər gün mətbuatı diqqətlə izləyər, gözümüz jurnal və qəzetlərdə onun yeni şeirlərini, poemalarını arayıb - axtarardıq. Rəsul Rzanın hər yeni əsəri oxucuların qızğın müzakirə və mübahisə predmetinə çevrilərdi. "Bir gün də insan ömrüdür", "Rekviyem", "Dəniz nəğmələri", "Qızıl gül olmayaydı", "Rənglər" silsiləsi əl-ələ gəzərdi. Ağız büzənlər, ağa qara deyənlər də olurdu. Onlar növbənöv idilər: paxıllar, qısqanclar, xəbislər, qısırlar, bir də nadanlar. Amma dəxli yox idi, Rəsul müəllim hamısına cavab verməyi, yerinə oturtmağı bacarırdı. O, özündən çox, o zamankı müasir ruhlu, savadlı, sağlam təfəkkürlü, istedadlı gəncləri qərəzli hücumlardan müdafiə edir, onlara arxa, dayaq olurdu. Rəsul Rza müasir Azərbaycan şeirinin sabahını düşünür, sərhədləri aşıb Dünyaya çıxmasını, Dünyada tanınmasını istəyirdi. Onun qəti qənaətinə görə, sənət əsəri, o cümlədən də şeir insanın ruhunu oxşamaqla yanaşı, ona təzə bir söz deməli, Dünya, həyat, cəmiyyət, Vətən torpağı, xalqın taleyi barədə düşündürməlidir.

Klassik poeziyamızda, xalq şeirində bu yoxdumu məgər? Əlbəttə, vardı! Amma sözün təsirli olması üçün, müasir insanla müasir dildə danışmaq, qəfil təşbehlər, qeyri - adi bənzətmələrlə şok - terapiya üsulundan istifadə etmək lazımdır. Bir də ki, hər əsrin sənətində o dövrün ritmi, psixoloji durumu, təfəkkür tipi, bir sözlə, dövrün möhürü olmalıdır.

Ağ hörümçək toru sallanıb havadan.
Bulud qara, yer qara, tor ağ.
Yarpaqlar titrəşir, pıçıldaşır:
yağış, yağ! yağ!
Südəmər uşaq kimi,
marçhamarç,
buludları əmir topraq.

"Susuzluq"

Təəssüf ki, bəziləri hətta bu gün də Rəsul Rza şeirinin yeniliyini yalnız zahiri xüsusiyyətlərində axtarırlar, sərbəst vəzndə yazmasında görürlər. Amma o, yeni məzmuna, müasir poetik obrazlara, təşbihlərə uyğun vəzn seçib, məzmunu, poetik fikri qabartmaqçün bəzən, sadəcə, misranı qırıb, bu da yaramayanda isə, vəzni sərbəst şeirlər yazıb; özü də gözəl yazıb. Yeri gəlmişkən, xatırladım ki, hər atasının gözü kor olan Koroğlu olmadığı kimi, hər misranı qıran da Rəsul Rza olmur. Misranı qırmağın, pilləli misralarla vəzni sərbəst şeir yazmağın da öz qanunları var. Ümumiyyətlə, şeir texnikası çox incə məsələdir və şairin sənətkarlıq məharətinə dəlalət edir.

Rəsul Rza şeirlərinin birində açıq və aydın şəkildə özündən əvvəlki şairlərdən ən çox Füzulini, bir də Sabiri sevdiyini deyir. O, həqiqətən hər iki şairi özünə ustad bilib. Amma heç birini təqlid etməyib, heç birinə bənzəməyə səy göstərməyib. Füzulinin də, Sabirin də poetik cazibəsindən qopub, tam orijinal, bənzərsiz bir şair kimi adını poeziyamızın min illik tarixinə yazıb. Və yəqin ki, Vaqifi də (Vaqif Səmədoğlunu - İ.Q) istedadından əlavə, ona bənzəmədiyi üçün sevib:

Babam da şeiri sevərdi.
Mən də sevirəm.
O, Qumrunu, Racini sevərdi.
Mən Füzulini, Sabiri
və balaca Vaqifi.
Nə o bu günün adamı idi,
nə mən o günün.

Bu günün adamı, bu günün şairi olmaq - yaşamağın, yaratmağın ən çətin, əzablı yoludur. O, bu yolu seçdi. Və bu yoldan ömrünü sonunadək dönmədi, epiqonçuluğa, ədəbi bütlərə, bir də cəhalətə, nadanlığa qarşı aramsız mübarizə apardı.

Rəsul Rzanın ölümündən 30 ilə yaxın bir vaxt keçir; daha dəqiq desək, 29 il. Bizi ondan ayıran bu illər arxasından sevimli şairimizin böyüklüyü, əzəməti daha aydın görünür. 100 illik yubileyi ərəfəsində "Azərbaycan" jurnalının portfelindəki ona həsr olunmuş yazıları gözdən keçirib düzümünü müəyyənləşdirmək istəyəndə hiss etdim ki, nəsə çatışmır. Və birdən hər şey aydın oldu mənə; yubiley səhifəsi Rəsul Rzanın öz əsəri ilə açılmalıdır. Şairin özü görünməlidir. Beşcildliyini təkrar - təkrar vərəqlədim, bəzi əsərlərini yenidən oxudum. Bir poema xüsusilə diqqətimi çəkdi. Tarixinə baxdım: 1938 - ci il. Düz 72 il əvvəl, 28 yaşında yazıb şair bu poemanı. Amma elə bil bu gün yazılıb; yarımbaşlıqlardan ibarət, maraqlı struktura malik, İnsan, onun daxili hiss və həyəcanları, sevgisi, tərəddüdləri, həyatın mənası haqqında sözçülükdən uzaq, olduqca yığcam fəlsəfi düşüncələrdir "Etiraf" poeması.

Rəsul Rza ilk gənclik illərindən bu günədək mütəmadi oxuduğum, sevdiyim, sənətinin gücünə bələd olduğum şairdir. Bununla belə, heyrət etdim; necə də müasir, necə də təzədir! Budur əsl poeziya! Doğrudan da, öz zamanında novatorcasına yazılmış əsərlər heç zaman köhnəlmir, poetik dəyərini itirmir. Rəsul Rza yaradıcılığında bu cür, mən deyərdim, həmişəyaşar əsərlər az deyil. "Dəniz nəğmələri", "Rənglər", "İnsan şəkli", "Həyat eşqi", "Vaxt var ikən", "Bir gün də insan ömrüdür", "Füzuli" və adlarını çəkmədiyim neçə - neçə şeir və poema illərin sınağından çıxıb. İnanıram ki, əsrlərin də sınağından çıxacaq. İnanıram, çünki şairin gələcəyə nikbin baxışı buna inandırır bizi:

Biz bir yerdə qarşılayacağıq
Neçə min neçədə gələcək
qoynu nəğmə - nəğmə,
sinəsi çiçək - çiçək
yeni baharı!

Rəsul Rza qədər həyat məramı da, sənət məramı da aydın, sabit, ardıcıl və yetkin olan şairlər çox azdır. Onun poeziyası gah bir dalğanın, gah da başqasının qoynuna atılan bər - bəzəkli qayıq deyil, ağır tonnajlı nəhəng tankerdir; okean sularını yara - yara yükünü mənzil başına aparır.

Okean dedim, "dənizlərdən xəbərsiz" (Nazım Hikmət), qapalı dəniz Xəzər düşdü yadıma. Rəsul Rza Xəzəri çox sevərdi: "Dənizi görməsəm bu gün, elə bil acam. Hər gün onu görsəm də, mən dəniz təşnəsiyəm, mən dənizə möhtacam"- deyərdi. Xəzərə, dənizə çoxlu şeirlər həsr etmişdi. Onların içində "Dəniz nəğmələri" silsiləsi məni hələ yazıldığı zaman valeh etmişdi, bu gün də o nəğmələrdən bəziləri və ayrı-ayrı misralar xatirimdədir. Nəğmələrdən biri belədir:

Bu gecə öpdüm dənizi;
sahildən ayrılanda.
Dodaqları duzlu idi;
göz yaşım kimi.
Düşündüm: niyə öpdüm onu?..
Yaxşı deyil.
Düşündüm: yaxşı ki,
dəniz göz yaşı deyil.

Rəsul Rza şeiri quru çöl havası kimidir; insanın ciyərlərini təmizləyir, ruhunu təzələyir... dağ çayı kimidir - pak edir səni, energetik gücü var - beyinə qida verir, ətalətdən, süstlükdən çıxarır, hərəkətə gətirir insanı.

Bəli, Rəsul Rza dövrünün, zamanının böyük şairi idi. Amma Rəsul Rza həm də müasir şairdir - bizim günlərin, XXI əsrin şairidir. O, keçən əsrin sonuna hələ xeyli qalmış, 71 yaşında dünyasını dəyişsə də, sənətinin gücü ilə XXI əsrə də adladı, 100 yaşını da haqladı və ikinci yüzilinə qədəm qoydu.

Qədəmlərin mübarək, ustad!

Vaqif YUSİFLİ

"PƏNCƏRƏMİ AÇDIM SABAHA..."

Pəncərəmi açdım sabaha;
gördüm insanlar keçib gedir;
illər üstündən,
aylar üstündən.
Sərhəd direklərindən körpülər salınıb;
dənizlər üstündən,
çaylar üstündən.
Mən də onların içindəydim,
siz də.
Çağırdım: ey qardaşlar!
- Qardaş - deyə səsləndi min bir ağız.
Danışdıq, danışdıq, danışdıq
tərcüməsiz, dilmancsız.
İnan bu sabaha,
oğlum, qızım,
bacım, qardaşım - İnsan!
Atam, anam - İnsan!
Yaşamaq olarmı,
inanmasan?

Bu şeiri Rəsul Rza 1961-ci ildə, keçmiş Yuqoslaviyanın Ohrid şəhərində, avqust ayında qələmə almışdı. O zaman Rəsul Rza əlli bir yaşını keçmişdi və yaradıcılığının müdriklik çağlarına qədəm qoyurdu. İlk misrasından son misrasına qədər insana, onun sabahına böyük inam aşılayan bu şeir öz nikbin pafosuna görə R.Rza poeziyasında nə birinci, nə də axırıncı idi.

Böyük Nazim Hikmət Rəsul Rza yaradıcılığına həsr etdiyi üç məqaləsindən birində yazır: "Şair (Rəsul Rza - V.Y.) sadə və gündəlik məsələləri elə təsvir edə bilir ki, ətrafındakı hər şey onun poeziyasının güclü işığına qərq olur. Axtaran şair xoşbəxtdir. O, həyatın və bizim özümüzün səadətini kəşf edir".

Doğrudan da, bu poeziyaya baş vurduqda səndə elə bir inam yaranır ki, XX əsr tarix kitablarından öncə Rəsul Rzanı (eləcə də bizim digər böyük şairləri) oxumaq lazımdır. Təkcə XX əsr yox, bəşəriyyətin keçmişi, bu keçmişin ictimai-siyasi mənzərələri, insanlığın keçdiyi yol Rəsul Rza poeziyasında öz əksini tapmışdır. Lakin heç şübhəsiz, R.Rza poeziyasının qəhrəmanı, əsas mövzusu və əsas predmeti böyük hərflərlə yazılan İNSANDIR. İNSAN adına layiq nə varsa (qəhrəmanlıq, mərdlik, ağıl, hünər, mübarizlik, inam, qətiyyət) bu obrazda öz əksini tapır. Şair məqalələrinin birində yazırdı ki, "insan mürəkkəb, böyük mənalı, mübhəm, zəngin, heç bir zaman sona qədər dərk edilə bilməyəcək bir varlıqdır. Əgər bu varlığın heç olmasa, bir hissəsini anlamaq, duymaq, başqalarına nağıl etmək üçün bir ömür lazımdırsa, bunu məmnuniyyətlə etmək bir şərəfli iş deyilmi?"

Rəsul Rzanın təsvir etdiyi insan ən ali, humanist duyğularla yaşayır. Bu haqda çox söz demişlər və təkrara ehtiyac yoxdur. Ancaq bir məsələni incələmək lazımdır - Rəsul Rzanın böyük məharətlə təsvir etdiyi insan öz milli varlığından qətiyyən təcrid olunmur.

Gecə keçmiş, ulduzlar ağ, göy, qara:
Söykənmişəm qocaman bir ağaca,
Gecə qara... durdum, düşündüm bir az.
Dedim: - nədən ulu çinar yıxılmaz,
Birdən çinar dilə gəldi: - dedi, bax!
Bu torpaqda dərindən kök salaraq
Hər tərəfə ucaltmışam qolumu,
Övladlarım bürüyüb sağ, solumu.
Belə məğrur dayanmağa haqlıyam,
Mən köküməm, bu torpağa bağlıyam.

"Kök" deyəndə şair mənsub olduğu xalqın böyük tarixini və milli-mənəvi dəyərləri nəzərdə tuturdu. Lakin bu insan həm də bəşəridir, o, bəşərilikdə isə millilik itmir, ərimir. Rəsul Rzanın insan və dünya, insan və zaman paralelləri üzərində qurulan silsilə şeirləri bunu bir daha sübut edir.

Üz qoyardım ən adi, tozlu-torpağına,
Yurdum! - deyə - Anam! -deyə -
Mən sənin oğlunam,
Yerdə kölelik zəncirini.,
Göydə imkan hasarını qıram,
İnsanam - deyə.
Planetim mənim!

Rəsul Rzanın humanizm konsepsiyasında böyük bəşəri mənalar bəzən adi, amma gözlənilməz hadisə və olaylarda reallıq kəsb edirdi və bu vəhdət səni heyrətə gətirirdi:

Gözlərimi qapadım,
Söndürdüm son ulduzu...
Hamletin səsi gəldi qulağıma;
İstədim yaxınlaşam ona,
Qurğuşun asıldı ayaqlarımdan,
Gedə bilmədim.
İstədim deyəm, - Hamlet !
Çırpınma belə.
Atanın qatili öz əmindir.
Deyə bilmədim,
Gözlərimi açdım.
Pəncərədə yandırdım günəşi.
İstədim çağıram Hamleti də,
Layerti də
deyəm, balalarım !
Atın ədavəti, kini!
Xəbəriniz varmı,
dünən dolu vurub
dağ ətəklərində əkini.

Rəsul Rzanın ayrıca "İnsan" silsiləli şeirləri olmasa da, onun müxtəlif illərdə yazdığı bir çox şeirləri belə bir silsilədə cəm etmək olar. Əlbəttə, bu silsilədə ayrı-ayrı şeirlər var ki, onlar nəinki R.Rza poeziyasının, ümumən XX əsr Azərbaycan poeziyasının uğurlarıdır. Və nəinki uğurlarıdır, həm də müəyyən mənada bu poeziyanın axarını, istiqamətini müəyyənləşdirməkdə böyük rol oynayır.

Rəsul Rzanın "Ömür keçdi, gün keçdi" adlı avtobioqrafik səciyyəli bir şeiri var. Lakin bu təkcə bir insan ömrünün poetik tərcümeyi-halı deyil, XX əsr insanının keçdiyi tarixi yolun bədii salnaməsi kimi oxuna bilər.

Soruşdular:
- Bir girvənkə daş ağır olar,
bir girvənkə pambıq?
- Bir girvənkə daş! - dedim -
sevinə-sevinə.
Xoşbəxt idim.
.....
Kvant nəzəriyyəsi!
Nisbət nəzəriyyəsi!
Bölünən atomların fəsadı!
Cavablarım elmi, dürüst.
Hər suala bir dəftər dolduraram
yaza-yaza!
Yazıq sənə, yazıq!
Rəsul Rza!

Şeir təzadlar üzərində qurulub. Ancaq bu təzadlar insanın bütün ömrü boyu keçdiyi tarixi yolun, dünyanı sadədil anlamağından onu dərk edənə qədər yaşadığı ömrün tarixidir. Ağıl, zəka böyük tərəqqiyə, elmi kəşflərə, fütuhatlara yol açıb, lakin bəşəriyyətin özünün yaratdıqları indi özünə qarşı çevrilir. Bir zamanlar acanda, susayanda, bir yeri ağrıyanda, anasının qucağına can atanda, külək bərk əsəndə, əl uzatdığı kəpənək uçanda, yuxusu qaçanda ağlayan KÖRPƏ xoşbəxt idi, amma indi... yaşının ixtiyar çağında ağlaya bilmir. Raketlər xərabə qusur, ölüm ömrü pusur, kirəc damarlarını bərkidir... nə atası var, nə anası... ağlaya bilmir.

Bu şeir də altmışıncı illərdə yazılıb. Bəşəriyyətin müharibələr, üsyanlar, inqilablarla əhatə olunduğu, atom fəlakətinin qorxu törətdiyi, "raketlərin xərabə qusduğu" bir dövrdə...

...Əlimdə mürəkkəbi qurumuş qələm.
Dirsəklərimin altında
masamın sığallı üzü.
Lampamın telləri külə dönüb.
Lampa bitirdi ömrünü,
son saniyəsinə qədər yana-yana!
Biz necə bitirəcəyik ömrümüzü?
Ayaq basmadan ən yaxın bir ulduza?!
Yazıq sənə, yazıq
Rəsul Rza!

Rəsul Rza həmin şeirində "ən dəhşətli nüsxə insanlar içindədir" deyir. Məsələ burasındadır ki, dünyanın mənzərəsi müxtəlif olduğu kimi, insanların da çeşid-çeşid növləri var. "İnsan var ki, dedikləri həqiqətdir. Acı olsa sözü, yenə qədir bilən insanlara bir nemətdir. İnsan var ki, cır arıtək sancır; demir, bu da candır, bu da ətdir". R.Rzanın təsvir etdiyi müxtəlif insan tipləri ilə üzləşəndə nədənsə yadıma böyük şairimiz Mirzə Ələkbər Sabirin yaratdığı obrazlar düşür.Burada bir haşiyə çıxmağı lazım bilirəm: XX əsr Azərbaycan şairləri içərisində ruhən Sabirə ən doğma şairlərdən biri Rəsul Rza olmuşdur. R.Rza yazırdı: "Mənim ilk əsərlərimə ən dərin təsiri bizim milli ədəbiyyatımız və, ilk növbədə, Sabir yaradıcılığı göstərmişdir. Bu da çox təbiidir... Sabiri çox sevirəm. Bəlkə də "sevirəm" sözü, hər dəfə bu əziz adı çəkdiyim zaman duyduğum həyəcanı ifadə edə bilmir. Bu ad qəlbimdə xalqım üçün bir iftixar hissi oyadır. Onun şeirlərində elə cəsarət, elə mətanət, elə kədər, elə ağrı, elə təsir gücü var ki, bəzən heyrət edirsən, belə bir şair ucqar bir şəhərdə, böyük bir ailə qayğısı altında, gecə-gündüz işləməyə, sabun bişirməyə məcbur olmuş, dərs deməklə məşğul olmuş, bir parça çörək qazanmaq üçün çarpışmış bir adam, yalnız öz əsarətdə inləyən xalqının tarixi taleyini deyil, dahiyanə surətdə anlamaq deyil, eyni zamanda Yaxın Şərq ölkələrində, İranda, Türkiyədə yaşayan milyonlarla insanların arzu və əməllərini necə gözəl anlamışdır". Bu mənada R.Rza öz böyük sələfinin yolunu uğurla davam etdirib. Sovet dövründə Sabir ənənələrini yaşadan bir-iki şair vardısa, onlardan biri də R.Rza idi. Çünki Sabirdən sonra satirik şairlərimiz daha çox xırda nöqsanları, eyib və qüsurları "ifşa" edirdilər. Amma R.Rzanın şeirlərində məhz Sabirdən gələn bir cəsarət vardı. Məsələn, çox şair rüşvətxorluğu tənqid edirdi, amma R.Rza "Damğa" şeirində rüşvətxorun külünü göyə sovurub və indinin özündə də bu şeiri istənilən rüşvətxorun və onun daha da ələ-qana dolmuş, şişmiş, özünə sığmayan xələfinin-korrupsionerin üzünə oxumaq olar:

Yəni, sən də kişisən!
Gözünə girsin o maaş!
Bilirsənmi, ən layiq adın
nədir, sənin?!
Aşın müqəyyəd qafiyəsi!
Anladınmı?!
Qulaq as!
Dara-bara salma!
Sus!
Rüşvət puluna külfət saxlayan
dəyyus!

R.Rzanın "Sabir sağ olsaydı" silsiləsindən qələmə aldığı "Qorxuram" şeiri də elə bil bu günlər üçün yazılıb... Yerlipərəstliyin, regionçuluğun meydan suladığı, bəzən vəzifələrin, karyeraların istedada, ağıla və professionallığa görə deyil, "sən də bizim kəndlisən" prinsipinə görə müəyyənləşdirildiyi bir çağda "Qorxuram" şeirini heç nədən qorxmayıb oxumaq istəyirsən:

Taksi maşınla çıxıram yollara,
şoferi lülxan görürəm, qorxmuram.

Gah zooparkda gəzirəm səllimi,
hər cürə heyvan görürəm, qorxmuram.

Modaya vurğun bala meymunları
az qala üryan görürəm, qorxmuram.

...Sözləri əzbər, quru natiqləri
kürsüyə qalxan görürəm, qorxmuram.

Böylə şücaətlə, sözün doğrusu,
neyləyim...
Qoy olanı söyləyim:
Yerlipərəstlikdə hünər göstərən
arxalı nadan görürəm, qorxuram.

Bisəbəb qorxmuram, vəchi var -
Fikrini qan-qan görürəm, qorxuram.
Dəyməsələr onlara, mikrob kimi
günbəgün artan görürəm, qorxuram.
Qorxuram, qorxuram, qorxuram...

II

Rəsul Rza poeziyasında Dünya bütün təzadları: kosmik və kibernetik yenilikləri, qanlı müharibələr və azadlıq uğrunda gedən mübarizələri, xalqların tərəqqisi və patriarxal geriliyi, sülh arzusu və Xirosima - atom faciəsi ilə əks olunur. O zaman bütün şairlər artıq ənənəyə çevrilmiş beynəlxalq mövzuda şeirlər, poemalar yazırdılar və təbii ki, R.Rza da bu cərgədən geridə qala bilməzdi. Amma gəlin, həmin mövzuda ən azı 70 il ərzində yazılan poeziya nümunələrinə diqqət yetirək. Əksəriyyətinin dövrün sifarişindən yarandığı qənaətinə gəlirsən. Amma yaşayan şeirlər də var və R.Rzanın keçən əsrin otuzuncu illərindən ta ömrünün sonuna qədər bu mövzuda yazdığı bir sıra şeirlər nə aktuallığını itirib, nə də bədii təravətini...

Budur... nəfəsi qaynar, göyləri ulduzlu bir yay. Uşaq pəncərədə oturub, ana otaqda. Bir gurultu eşitdilər. İki ürək həyəcanla döyündü.

Uşaq bağırdı:
- Ana! Ana!
Kim söndürdü çırağı?
Ana dinmədi,
dinə bilmədi.
Uşaq qışqırdı:
- Hardasan, ana?
Su tök, qoyma gözlərim yana!
O gündən,
sanki badam gözlərin yası,
qara bir matəm olub
çökdü bütün cahana.

Bu misralar "Xirosima!... Xirosima!..." şeirindəndir. Onda nə patetika var, nə də sovet təbliğat kampaniyasından gələn şüar ...İki insanın - ana-balanın və bir ölkənin (Yaponiya) faciəsi əks olunub bu şeirdə. R.Rzanın "Hindistan dəftərindən", "Suriya dəftərindən", "İraq xatirələri", "Yaponiya motivləri", "Praqa xatirələri", "Qara dəniz sahilində düşüncələr" silsilələrində dünyanın təzadları filosof-şair düşüncəsindən keçir.

Budur, hind şəhəri Çaypur... Şəhərin küçələri ilə ağır-ağır addımlayan fil... Bəlkə bu fil Çaypurdan çox-çox qocadır, başını aşağı salıb, hər şeyə biganə addımlarla gedir fil. Üstündə filban. O, istəsə, "xıx" deyib, fili dizi üstə çökdürər, istəyəndə toxmaqla vurar başına. Fil belindəki bu yüklə ömrünü saat-saat, əsr-əsr çürüdür. Ovsarı filbanın əlində.

Rəsul Rza, Əziz Nesin və Çingiz Aytmatov

Düşünürəm yana-yana,
göynəyə-göynəyə.
Gözlərimdən gəlib keçir
Tarix, həyat varaq-varaq.
Görürəm ki,
Zülmə qarşı mütilikdir dayanan
Ən qədim, ən modern
kölelik təməlində.

Ümumiyyətlə, R.Rza mütiliyə, əsarətə, mənəvi əsirliyə, zülmə, haqsızlığa qarşı dözümsüz idi və bu dözümsüzlük onun əksər şeirlərində müxtəlif tərzdə ifadə olunmuşdur. Ranqunda, zooparkda gördüyü, mil-mil dəmir qəfəs içində gördüyü filin acınacaqlı halı onda necə hiddət oyadırdısa, Şərq boyda ucsuz-bucaqsız məmləkətlərdə axıdılan göz yaşları, oxunan yanıqlı, kədərli nəğmələr də elə bir qəzəb oyadırdı onda. "Ağlama, Şərq, ağlama! Yanğıları göz yaşı söndürməz. Doğra yanıqlı nəğmələrini; bir cərrah kimi doğra: çıxart onlardan kədəri, qəmi, ümidsizliyi; göz yaşını çıxart!".

III

Rəsul Rza haqqında yazılan monoqrafiyaların birində belə bir fikir var ki, R.Rzanın İNSANı sosializm realizminin prinsip və tələblərinə cavab verən və konkret sosialist ideologiyalı insandır. Bu İNSAN doğma Abşeronu və Lənkəranı gəzəndə də, Afrikanın qumlu səhralarına müxtəlif ölçülü ləpirlərlə yazılmış tarixini oxuya-oxuya dolaşdığı zaman da, "mədəniyyət silahlı" avropalıların Şərqdəki "fəaliyyətlərini" müşahidə edəndə də, Əlcəzair meydanında qanı axıdıldıqda da, hindli paltarı geyəndə də - hər yerdə və hər zaman məhz həmin ədəbi cərəyanın və ideologiyanın qabaqcıl nümayəndəsi olduğunu unutmur. (A.Abdullazadə)

R.Rzanı sovet dövründə yaşadığı üçün "sosializm realizminin prinsip və tələblərinə cavab verən" şair kimi səciyyələndirən müəlliflər çox olub. Lakin gəlin məsələyə bir başqa aspektdən yanaşaq. Yetmiş illik bir dövr arxada çaldı, sosializm və onun ədəbiyyatda inikası olan sosializm realizmi nəzəriyyəsi də tarixin yaddaşına köçdü. Lakin mənəvi dəyərlər yaşayır. O mənəvi dəyərlər ki, əsrlər boyu insanlığın keçdiyi məşəqqətli yolda öz saflığını itirməyib, nə feodalizm dövründə, nə Azərbaycanın iki yerə parçalandığı XIX əsrdə, nə çarizmin, nə də Qırmızı imperiyanın istilası zamanında... Hansı dövr, hansı istilaçı hökmdar, hansı imperiya və hansı ideologiya ədəbiyyatın qanından, canından,

şah damarından vətənpərvərlik hissini, xalqa, torpağa, insana, öz doğma dilinə, mədəniyyətinə, dininə, Allahına sevgisini məhv edə bilərdi? Bax, indi, XXI əsrin ilk onilliyində yetmiş illik sovet dövrünün ədəbiyyatına sırf ideologiya nöqteyi-nəzərindən deyil, ancaq və ancaq sənət baxımından yanaşdıqda heç də bədbinliyə qapılmırıq. Gəlin, Azərbaycanda Sovet hakimiyyəti uğrunda gedən mübarizələri əks etdirən inqilabi-tarixi romanlarımızı da, o dövrün əmək qəhrəmanlarına həsr olunan şeirləri də, poemaları da inkar etməyək, pioner nəğmələrini də, komsomol marşlarını da, leninnamələri, stalinnamələri də... Bunlar yazılıb, oxunub, milyonlarla insanların şüuruna hakim kəsilib, "sovet adamı"nın formalaşmasında müəyyən rol oynayıb, amma illər keçib və zamanın hökmü ilə tədricən yaddaşlardan silinməyə üz qoyub. Onları sadəcə ədəbi fakt kimi xatırlatmaq lazımdır.

Biz mənəvi sərvətlərdən söz açdıq və təbii ki, bu mənəvi sərvətlərin yaşanmasında ən böyük missiya ədəbiyyatın, xüsusilə, poeziyanın üzərinə düşür... Bu mənada Rəsul Rzanın Azərbaycan ədəbiyyatı və mədəniyyətinə verdiyi töhfələr, qiymətli sənət inciləri heç də az deyildir.

Anar Rəsul Rzaya həsr etdiyi "Çinar ömrü" adlı məqaləsində yazır: "Rəsul Rza yalnız doğuluş və ölüm tarixinə, yaradıcılıq illərinə görə deyil, sənətçi varlığının bütün mahiyyəti etibarilə XX əsr şairidir, yəni əsrin bütün təzadlarını, yüksəlişini, ümidlərini, eyni zamanda ümidlərin tar-mar olmasını, dövrün dərdlərini, faciələrini, xəyal qırıqlığını yaşamış və əsərlərində gah birbaşa, açıq, gah da içində ömür sürdüyü şəraitin yasaqlarına görə, örtülü şəkildə, dolayısıyla - Ezop dililə əks etdirmişdir".

Rəsul Rzanı bu mənada insanlığın tarixi faciələrini əks etdirən filosof-şair kimi də səciyyələndirmək olar.

Bu fikri əyaniləşdirən misallar o qədər çoxdur ki, ilk növbədə, müəyyən təsnifata da ehtiyac duyulur. Amma yox! İstərdim ki, şəxsən bir oxucu və ədəbiyyat adamı kimi yaddaşımda əbədi yaşayan bəzi nümunələrə müraciət edim.

Səs düşdü Göytəpə kəndinə:
"Sarı dana xəstələnib".

Sosializm dövrünün əmək qəhrəmanlarını deyil, əməkçi insanının faciəsini əks etdirən "Dana və balaca qız" şeiri R.Rzanın ən tragik şeirlərindən biridir.

Sədr gəldi,
partkom gəldi,
baytar, bir də briqadir.
Hər gələn soruşdu:
- Azarı nədir?

İlk baxışda komik görünən bu səhnə getdikcə misra-misra dramatikləşir, ciddi ahəng alır, nəhayət, faciəli sonluqla bitir. Sarı dananın xəstələnməsi az qala rayonun bütün rəhbərlərini fermaya çəkib gətirir. *"Tənzif, pambıq verin! Qarnını bağlayaq, İsti su gətirin ayaqlarına! Damcı dərman da lazımdır qulaqlarına. Nüsxə yazdı bir qarış. Handan-hana qoca mühasib gəldi. Baxdı, ah çəkdi. Dedi: yazığın gəlsin bizə, sarı dana. Amandır bu zülmü eləmə illik plana!"*. Rəsul Rza bu şeiri 1959-cu ildə yazıb. Elə bir dövrdə ki, sosializm öz apogeyinə, zirvə nöqtəsinə çatmışdı, hər yerdə "kommunizmə doğru" şüarı səslənməkdə idi. Lakin bu şüar yalanlar, boş vədlər, şişirdilmiş rəqəmlər, öhdəliklər içində bağırtıdan başqa bir şey deyildi. *"Partkom günə bir dəfə xəbər aldı: - Necədir sarı dana? Əhvalat uzundur, nə deyim. Bəsdir bunu desəm Dana ölmədi bu azardan. Ancaq Gülxaranın qarağöz kiçik qızı... Beşcə qulac bez aldılar bazardan"*.

Rəsul Rzanın bu şeiri bütün poeziyasında təsvir etdiyi insan faciələrindən ancaq birini əhatə edir. İnsana, onun sabahına inam ifadə edən bir poeziyada bu tipli şeirlərin də olması nəyə dəlalət edirdi? Deyə bilərik ki, R.Rza insana sevgini, humanist münasibəti heç vaxt mücərrəd şəkildə ifadə etməyib, onun şeir və poemalarında bu inamla yanaşı, çeşid-çeşid insan faciələri ilə də üz-üzə gəlirik. "Dana və balaca qız" da XX əsrin faciəsini əks etdirir. Və bu facia heç də dünyanın başı üstünü alan atom təhlükəsindən, qanlı müharibələrdən, savaşlardan, qətllərdən az əhəmiyyət daşımır.

Quyruğunu qoyub belinə
qaçır, tullanır
sarı dana indi.
Ancaq, soruşan yoxdur,
yaşıl otlar içindəki
o balaca qəbir kimindir?

1987.

Rəsul Rza da ölümlərdən çox yazıb. Dostu, görkəmli kinorejissor Lətif Səfərovun qəfil ölümünə həsr etdiyi "Rekviyem" şeirini xatırlayın. Bu, nə mərsiyədir, nə elegiya, bu, hüznlü bir fəlsəfi monoloqdur. Deyərdim ki, insan və ölüm problemi Azərbaycan poeziyasının bir sıra gözəl örnəkləri də daxil olmaqla bu əsərdə də öz dolğun bədii həllini tapıb. Rəsul Rzanın fikrincə, hər bir sənət adamının ölümü bir ailənin, onun qohum-qardaşlarının və saysız dost-tanışlarının itkisi deyil: *"Yoxluğunla bitmədi sənət, bitməyəcək. Yaradacaqlar: bəlkə səndən yaxşı, bəlkə, pis. Lakin sən yarada biləcəyin yaranmayacaq sənsiz"*. Onun qəhrəmanlıqla həlak olmuş dəniz neftçilərinin xatirəsinə həsr etdiyi "Ölümdən güclülər", məşhur neftçi Ağa Nemətullaya, əmək qəhrəmanı Bəsti Bağırovaya həsr etdikləri şeirlər də "Rekviyem"dəki ideya ilə səsləşir: İnsan ölümdən güclüdür!

Böyük türk şairi Nazim Hikmətlə Rəsul Rzanın dostluğu haqqında çox yazıblar. Təkrar etmək niyyətim yoxdur. Amma deməliyəm ki, onların dostluğu poeziyadan başlamışdı. Öz poeziyasının siqlətinə, məna yükünə və novatorluğuna görə dünya şairləri sırasında seçilən Nazim Hikmət R.Rza yaradıcılığını yüksək qiymətləndirirdi. "Mənim dostum Rəsul Rza", "Aydındır şeirin dili" və "İkinci nəfəs" məqalələrini o, R.Rza yaradıcılığına həsr etmişdi. "Rəsul Rza Azərbaycan poeziyasının novatorlarından biri, özünəməxsus orijinal şair, xalq şeirinin, klassik poeziyanın böyük pərəstişkarıdır" - bu sözlərin müəllifi Nazim Hikmətdir.

Üfüqdə göy gözlərin sarı həsrəti.
Bir səs:
- Oğlum, oğlum! - deyə
çağırır Məməti...
Miz üstü-bir işıq gölü.
Dəftər, kağız miz üstünə tökülü.
Qara dənizin üstündən
qara yellər əsdimi?
Məmət gecikdimi?
Çağıran tələsdimi?
...Üfüqdə göy gözlərin sarı həsrəti.
Səhifələrdə yaralı qəlbin məhəbbəti.
Məmət dərs oxuyur
Lehistanın baş kəndində.
Şəkərim, qardaşım, ustad!
Bir də çağırma,
çağırma Məməti!

Bu da Rəsul Rzanın "Qara dəniz sahilində düşüncələr" şeirindəndir... Amma R.Rza Nazim Hikmətə ayrıca, ona qədər şeir həsr edib. Və bu şeirlərdə Nazim itkisi böyük ürək yanğısı ilə təsvir olunur. Bir şeir Nazimin dəfn olduğu məzarlıqda yaranıb, bir şeir "Gülxanə parkında bir ceviz ağacı var" adlanır: *"Onun qəlbindəydi ceviz ağacının pöhrəli baharı. Ceviz ağacındaydı canı mavi gözlü divin... Hanı ceviz ağacı? Qurudu dedilər. Sənə əl çatmaz, şəkərim! Keçdiyin dünyadan həsrətin getməz, getməz, şəkərim"*. Və bütün bu şeirlərdə Nazim Hikmət və Türkiyə, Nazim Hikmət və qürbət motivləri paraleldir. Bir dahi insanın faciəsi R.Rza təsvirində göynəklidir.

IV

Rəsul Rzanın müasiri, unudulmaz İlyas Əfəndiyev yazırdı: "Rəsul Rzanın poeziyasında qılınc kimi kəskin həqiqətlər vardır. O, heç bir zaman zahiri gözəlliyə, heç bir zahiri effektə aludə olmayıb. Onun hisslərində bəzən Sabirin incə qəlbi duyulur. O, sözün həqiqi mənasında inqilabçı, novator bir sənətkardır". Rəsul Rza novatorluğunun mahiyyətini həm də bu "qılınc kimi kəskin həqiqətlər"də axtarmaq lazımdır. Əgər Füzuli klassik formada - qəzəldə misilsiz bir ustalıq göstərmişsə, lirik "mən" - aşiq obrazının sevgi dünyasından böyük dünyaya bir pəncərə açmışsa, Sabir elə klassik formalarda oyanan əsrin ruhunu ifadə etmişsə, Rəsul Rza həm formada, həm də məzmunda novatorluq etmişdir. Dahi rus tənqidçisi Belinski Puşkinə həsr etdiyi məqalələrinin birində yazırdı: "Şairin yaradıcılıq fəaliyyətinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhundadır, buna görə də onun əsərlərinin, ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır".

Mən istəyirəm:
buludlar ağlasın,
uşaqlar ağlamasın;
analı ya anasız.
Mən istəyirəm:
güllər açılsın,
güllələr açılmasın,
amanlı ya amansız.
Mən istəyirəm:
qapılar qapanmasın,
soyuq olanda hava
gözlər qapanmasın.
Mən istəyirəm
yanğınlar sönsün,
ümidlər sönməsin.
Meyvələr dəysin öz fəslində
Ürəklərə söz dəyməsin.
...hər şey insana baxsın
insan ələ baxmasın.
...mən istəyirəm
sevinc, səadət bol olsun
Ürəkdən - ürəyə
ölkədən - ölkəyə
Açıq yol olsun.

Bu şeirdə Rəsul Rza şəxsiyyəti XX əsrin böyük humanisti obrazı ilə həmahəngir. Bu böyük humanist "mən kökümlə bu torpağa bağlıyam" deyir - onun 25 yaşında gəldiyi bu qənaət bütün yaradıcılığı boyu dəyişilməz qaldı. Və beləcə, Azərbaycan torpağı bütün rəngləri, çalarları ilə Rəsul Rza şeirində görünməkdə idi. O, "Qarabağ - baba yurdum" silsiləsində yazırdı:

Adım qədimdir,
Xalqımın mübarizə tarixi kimi.

Çünki o, erməni tarixçilərinin və millətçilərinin məkrli niyyətlərindən xəbərdar idi. R.Rza bir şeirində Andraniki lənətləmişdi, başqa bir şeirini Stepanakertdə "məhkəmədən" sonra vəhşicəsinə diri-diri yandırılmış üç nəfər azərbaycanlıya həsr etmişdir:

Burda torpaq yanmışdı qapqara,
Tonqal tüstüsü yayılmışdı
yaxınlara, uzaqlara.
...Keçdi bir neçə gün,
Tonqal yerində çiçək əkdilər.
Ancaq deyən olmadı, burda
qırmızı qərənfillər
Tonqaldan qabaq gərəkdilər,
yanıq ət qoxusundan qabaq,
qurbanlıq qoxusundan qabaq.
Soruşan olmadı,
Tonqalı kimlər qaladı,
çiçəkləri kimlər əkdi?

Rəsul Rzanın "Ömürdən səhifələr" adlı bir şeiri də var. Bu şeirdə şair, uşaqlıq illərini xatırlayır, anasıyla bağlı keçirdiyi nisgilli anları yada salır. Rəsul Rzanın uşaqlıq və gənclik illərinin narahat və həyəcanlı günləri bu şeirdə son dərəcə dəqiq ifadəsini tapıb, lakin həmin şeirdə bizi maraqlandıran bir anımı qeyd etmək istəyirik. Şair "Ömürdən səhifələr"də Fransaya etdiyi səfəri də xatırlayır, bu təəssüratların avtobioqrafik səciyyəli bir şeirə gətirilməsi heç də bizi əsas mətləbdən yayındırmır, elə bu da ömürdən səhifələrdir. Budur:

...Per-Laşez!
Kommunarlar divarı.
Hörmətlə açıram başımı.
Bəs o kimdir at üstündə,
özündən razı.
Kimə oxşayır, allah,
kimə?
Elə bil ki, qaba əl toxunur
incə simə.
Gözlərimdə canlanır
Naxçıvanın Arazı.
Söndürülmüş ocaqlar.
Əbədi susdurulmuş uşaqlar.
Qanlı üzlər keçir gözlərimdən,
min-min azı.
Bağırmaq istəyirəm
- Hardan gəldi bura
bu dələduz!
Daşa dönmüş daş ürəkli quduz!

"Bəs o kimdir at üstündə, özündən razı" - Rəsul Rza bunu deyərkən cəllad Andraniki nəzərdə tuturdu. Yerevanda isə artıq bundan xəbər tutmuşdular və, deyilənə görə, Rəsul Rzanı bir daha Ermənistana buraxmayacaqdılar. Deməli, sovet dönəmində yaşasa da, Rəsul Rza erməni daşnaqlarının Azərbaycanda törətdikləri faciələrdən xəbəri vardı və o dövrdə bu misraları yazmaq və Andraniki "dələduz" və "quduz" adlandırmaq da hünər tələb edirdi.

Rəsul Rza Azərbaycan tarixində qanla yazılmış qəhrəmanlıq səhifələrini - Babək və Nəsimi səhifələrini poeziyada yüksək sənətkarlıqla canlandırmışdır. Xüsusilə, Babəkin ölüm səhnəsinin təsviri qeyri-adi poetik detallarla əks olunmuşdur.

İki on ildən artıq
Xilafəti titrətdi
qoç Babək,
babəkçilər.
Bir gün gəldi
gözəl ömrün
faciəli sonucu.

Babəkin ölüm səhnəsi son dərəcə sarsıdıcıdır və iyirmi iki il ərəb işğalçılarına qarşı qəhrəmanlıqla döyüşmüş bu igid sərkərdə və xalq qəhrəmanının necə amansızlıqla qətlə yetirilməsi bir çox tarixi və bədii əsərlərdə öz əksini tapmışdır. Xüsusilə, Əli Kərimin "Babəkin qolları" şeiri necə də sarsıdır insanı... Rəsul Rzanın "Babək" poeması da xalq qəhrəmanına daha möhtəşəm poeziya abidəsi ucaltmışdır desək, həqiqəti ifadə etmiş olarıq.

Bir ovuc qan götürdü
sağ əlilə
Çəkdi üzünə.
Saralan rəngi görünməsin deyə
düşmənlərin gözünə.
Dişlərində çeynədi, boğdu
canının göyüm-göyüm,
sızım-sızım ağrısını.
Dərin yarğan, yarasından
süzülürdü qan.
Gözlərini pərdə-pərdə örtürdü
qırmızı bir duman.
Kəsdilər sağ qolunu da.
Ona elə gəldi ki,
qol deyil,
qılıncı düşdü yerə.

Babək nə uf dedi,
nə aman istədi.
Sanki uzaq-uzaqlardan,
qara kəhər atının
kişnərini eşitdi.
Qan qurumuş dodağından
İki kəlmə qopdu.
Gəlmələr!
İtlər!
Bu nifrəti təkrarladı
Qolu bağlı babəkçi igidlər.

Azərbaycan ədəbiyyatında ŞƏHİDLİYİN ZİRVƏSİ olan dahi Nəsimiyə də şeirlər, poemalar həsr olunub. İsa Muğanna "Məhşər" romanını yazıb. B.Vahabzadə "Fəryad" pyesini qələmə alıb. Qabilin "Nəsimi" poema-dastanı var. Əli Kərimin "Şəhidliyin zirvəsi" şeiri var. R.Rza isə Nəsiminin ölümqabağı son gecəsini təsvir edən poemanın müəllifidir... Assosiativ planda qələmə alınan bu poemada zindan təsvirindən tutmuş sabahkı edamı gözləyən Nəsiminin həyat, ölüm, varlıq, yoxluq, dünya haqqında düşüncələrinə qədər ...sanki hər şey saniyə-saniyə, dəqiqə-dəqiqə bizi Nəsimiylə bərabər o edama aparır. Amma poemada bu dəhşətli səhnə təsvir olunmur (Əli Kərimin məlum şeirində olduğu kimi). Nəsimi düşünür:

Nədən,
insanlığın iztirab yolu
belə uzun, belə sonsuzdur.
Əsrlər boyu
güc ədaləti susdurur.
...İlahi!
Mən ki səni danmamışam.
Səni dərk etmişəm özümdə.
Yalanlara, riyalara
fikir köləliyinin
müqəddəsliyinə inanmamışam.
...Məndə iki cahan sığdı,
sığa bilmədim bu cahana.
Yaşadım insana məhəbbətlə
İçimdən yana-yana.

...Bu yazıda böyük Azərbaycan şairi Rəsul Rzanın yaradıcılığında ancaq bir mövzu - İnsan mövzusundan söz açdım. Amma onun poeziyası o qədər çoxşaxəli, geniş və əhatəlidir ki, saatlarla, günlərlə bu haqda danışmaq olar. Cildlərlə kitablar, elmi əsərlər yazmaq olar.

Sənətkarı yaşadan, ilk növbədə, onun hansı bir cəmiyyətdə yaşaması deyil, onu yaşadan əsərləridir. Rəsul Rza müdriklik çağlarından birində yazmışdı:

Sabirdən səkkiz yaş böyüyəm,
Koroğludan on dörd yaş.
Ancaq hələ
nə Sabir deyəni
deyə bilmişəm,
nə Koroğlu eləyəni
eləyə bilmişəm.
Deyirəm, bəlkə,
çatanda Nizami yaşına
mən də bir şey verə bildim
insanlığın
səadət uğrunda savaşına.

İndi qətiyyətlə demək olar ki, Rəsul Rza öz əsərləri ilə "insanlığın səadət uğrunda savaşına" çox şey verə bildi.

Rüstəm KAMAL

Rəsul RZA: GÜNÜN İŞIQ FƏLSƏFƏSİ

Yer üzündə səadət -
ana dilimin
ən gözəl şeirini
yaratmaq...
R.Rza

Ədəbiyyat tarixi, əslində, etnik intonasiya – emosiya obrazlarının dəyişməsi və bir-birini əvəzlənməsi tarixidir. Bu tarixdə (Subyektiv ədəbi təsnifatım belədir: "Kitabi - Dədə Qorqud", Nəsimi, Xətai, Vaqif, H.Cavid, S.Vurğun, R.Rza...) Rəsul Rza da sözünün intonasiyası eşidiləndir!

R.Rza poeziyası Dao qanunlarından birini yadıma salır: "Bərk və möhkəm" - məhv olandır: o şey ki, yaşamağa başlayır, - "zərifdir." Poeziyada (ədəbiyyatda) "möhkəm və bərk" olanı mənimsəmək, öyrənmək olar. "Zərif" olanın da üslubun fiziki müqaviməti güclü olur.

Rəsul Rza şeirində sözün qəribə bir azadlığı var. Söz azadlığı yuxu azadlığı kimi baş verir. Onun şeirimizə gətirdiyi effekt iç nitqinin səslənmə möcüzəsidir.

Biz duyğuların dilə (sözə, deyimə) çevrilməsini, onların plastikasını, özünəməxsus harmoniyasını görürük. Sözlər dərkolunmaz məntiqlə bir-birini əvəz edir. Sözlərin sıralanma məntiqi imitasiyaya yer qoymur.

Onun poeziyasında az qala beş duyğunun beşi də işləyir: həm ulduzları görür, həm küçədən keçən arabanın səsini eşidir, həm də yamacda çiçəyin ətrini duyur...

Rəsul Rza metafizikası sözlə rəngin vəhdəti üstündə qurulur. S. Bəhlulzadə ilə bağlı dedikləri bilavasitə özü haqqındadır: "Bəhlulzadənin ən gözəl lövhələri rənglərin ahəngindən, şəfəqlərin oyanmasından, kölgələrin titrəməsindən doğan nəğmələrdir."

Sözdə və rəngdə ifadəsini tapmayan həyat, əslində, poeziyadan (şeiriyyətdən) məhrumdur.

Ömrün mənası görünməzləri "görümlü" etməklə əldə edir. Yaşantılar rəngin, səsin, yəni işığın hesabına və işığın adına söylənilir.

Qamçıladı yenə işıq
göz qapaqlarını.
Pəncərəmdən axdı, keçdi
sarı bir duman.

Onun simvolik düşüncəsi İşıqla bağlıdır. Sanki şair ikona fizikasından yararlanır; işıq sadəcə işıq deyil, həm də mənəvi-ruhi enerji mənbəyidir. O, ömrü boyu işığın "macərasını" seyr etməklə, "şəfəqi pusquda" izləməklə məşğul olub. Rəsul Rzanın "işıq dili"ni bilməklə onun ömür kitabını oxumaq olar.

Şüşəbənddən düşən
qürub işığı
yavaş-yavaş
döşəmədən qalxdı divara.

Ancaq işıq filosofu görə bilər ki:

Pəncərə şüşəsində
Nəm işıqlar titrəyir.

və ya:

Şəfəq bir an parladı
sarı sabun parçası kimi
sürüşdü, düşdü pəncərəmdən.
Qaranlıq uddu onu
zil qara bir pişik
sarı bir pərvanəni udan kimi.

Məhz işıq düşüncəsi imkan verir ki, predmetdən, cismdən (bədəndən) ayrılan, düşən kölgəni görəsən, ruhlar aləmi ilə bağlı olasan gərək.

Durnalar keçir qatar - qatar.
Kölgələri düşür suya,
Şəttülərəb!

yaxud

Günəş günortadan çoxdan əyilib
Kölgələr uzanıb minarələrdən.

R.Rza yaxşı bilirdi ki, rəngləri dəyişdirən zamandır. Ömürdə hər günün öz rəngi var.

Şeirdə hər bir rəngin mənası kontekstindən asılıdır, hər bir rəng çaları başqa tonun qonşuluğunda yaradılır.

Yaşanılan (yaşanılmış) günün ovqatında hər rəngin öz yeri var.

Şairin ümumi baxış strategiyasında "sarı"nın yeri o qədər önəmlidir ki, sarı həm peyzaj elementidir, həm də fəal poetik fiqur kimi çıxış edir.

Azərbaycan şeirində Rəsul Rza yeganə şairdir ki, sarı rəng təhtəlşüurda üstün və fərqli mövqeyə (mənalara) malikdir, yəni "sarı"nın ayrıca hipnoz – magik təsiri var.

Bütün rəng çeşidləri və rəng tonallığı - "sarı"dan törəmədir.

Söylə, Mayakovski,
O qaynar qəlbində
bu köhnə,
sarı günlərin,
sarı xəzan axşamı kimi xəstə,
bir fikri necə bəslədin?

"Sarı" funksional detal kimi müxtəlif simvollara çevrilə bilər. Hər bir simvol ifadə etdiyi mənalara bizdə inamı artırır.

Evimizdə bir kitab vardı
köhnə,
vərəqləri sapsarı

heyva qoxusundan bəhs tesə də, metonimik olaraq "sarı"nı görürük.

Payız vaxtı hər kəs bağına getsə,
heyva qoxusundan tez sərxoş olar.

yaxud

Bu bahar axşamı
mavi qaranlıqda
üfüqə yayılıb
Tənhalıqdan gələn
işıq sarısı.

Qəti inanır (və inandırır) ki, tənhalığın, qəm-kədərin rəng çaları da sarıdır:

Tənhalığın, qüssənin
rəngi varsa,
sarıdır.

Böyük şairin təbiət fəlsəfəsində panteizmlə, fransız impressionizmi, yapon hokkusu ilə yaxınlığını görsəniz, təəccüblənməyin. Belə düşüncə və yazı tərzi təsvirdə ilin fəsillərinə, mövsümlərə işarənin (söz) olmasını tələb edir.

Göylərində at oynadır şimşəklər,
Bir an olur gur yağışı, dolusu.
Əlvan çiçək xalıları yamacda,
Baş qaldırır nərgiz, gözü dolu su.

"Uzaq" -- R.Rzanın (üfüq ,qürub işığı, dəniz sonsuzluğu, İraq...) sevdiyi məkan obrazıdır. Onun baxışları uzaqlara yönəlir. Hər günün dərki uzaqdakıların seyrindən başlayır.

Hərdən buludlar axır
durna qatarı kimi.
sallanırlar üfüqdən.
geniş, mavi göylərin
gümüş hasarı kimi.

Bəlkə bu şeirlərin vizual məqsədi uzaqda olanları yaxına gətirmə istəyilə bağlı olub? Uzaqlıq həsrətin, ayrılığın adıdır. Kərküklə bağlı məşhur yazısında ("Uzaq ellərin yaxın töhfələri") ilk cümləni xatırlayın: "İraq sözü nədənsə həmişə fəraq sözünü mənim yadıma salır".

"Uzaqlıq" sonsuzluğun, heçliyin başqa bir adıdır. R.Rzada dəniz sonsuzluğu kvadrat formasına malikdir. Maleviçin "Kvadratı" kimi.

Pəncərəmdən görünən
bir dənizdir
kvadrat içində
bir də... göylərin sonsuzluğu.

Onun təhtəlşüurunda göylərin sonsuzluğu ilə dənizin sonsuzluğu eynidir, çünki göylə dəniz mifoloji düşüncədə əkizdir.

Üstündə göygöz səma
ulduz-ulduz çiçəkli
Ətəyində göy dəniz
dalğalarla bəzəkli.

Azərbaycan şairi R.Rza sinekdoxa və sinesteziyanı birləşdirməyin ustasıdır.

Məsələn, səs və ətir qıcıqlanmasının qarşılıqlı təsiri rəng obrazını ortaya çıxardır. Yəni bir rəngdən, səsdən, yaxud ətirdən, daddan başqasına ötürülmə – keçid (bu hadisəni fransız simvolistləri "korrespondensiya" adlandırırlar) hadisəsi baş verir.

Çöldə yağış yağır,
mən onu görmürəm,
ancaq duyuram;
küçədən keçən maşınların
təkər səsindən,
bir də pəncərəmin sol çəkisindəki
sarı nərgizin
əsəbi insan kimi diksinib titrəməsindən.

Elə bu parça da kifayətdir ki, Rəsul Rza şeirlərinin sonosferasına xüsusi fikir verək: Ömrü - günü səslərlə doludur. Gün işıq və səs peyzajından başlayır. Səs obrazları poetik assosiasiyalar oyadan ovsunlu təsir gücünə malikdir. Yuxuda da səsi eşitmək olarmış!

Bu gecə yuxu gördüm.
Gördüm,
Çörək dadı kimi tanış bir otaq.
Nənnidə bir uşaq.
Nənnidə uşaq mən idim.
Layla səsi gəlirdi...

Rəsul Rza üçün həm ötən günün səsi kədərli nəğməyə dönür. Hər səs mahiyyətcə nəğmədir. R.Rza bir şeirində yazanda ki, "quşlar nəğmələnir" ("quşlar oxuyur" yerinə) - bu, daha dürüstdür.

Onu da qeyd edək ki, dünyanı qavramanın başqa zahiri formalarından fərqli olaraq, iy-qoxu - ətir mədəniyyətimizdə müstəqil semantikaya (simvolikaya) malik deyil. Yaddaş torpağın qoxusunu, çörəyin ətrini xatırlamaq gücündədir.

İndi də torpağın qoxusu
burnumdadır.
İndi də xatırlayanda
ağzım torpaq dadır.

Uşaqlıq dünyası yalnız səslə, rənglə deyil, həm də qoxu yaddaşı ilə bərpa olunur.

Gəl təndir çörəyinə
ipisti, yumyumşaq.
sapsarı.

"Ana torpaq" obrazının açması necə ustalıqla verilir:

Tanıyıram ayaq basdığı
torpağın qoxusundan.

Meteotəsvirlər ömrün-günün fəlsəfəsini anlamaq üçündür. Aşağıdakı parçada meteo-metafora şeirin emosional faktura sını dəqiq müəyyənləşdirir:

Yollarına gecə - gündüz
Çiskin - çiskin kədər yağır.

Mənim üçün Rəsul Rza çox yumşaq şairdir. Şeirlərindəki "yumşaq" sözü, sadəcə, sərtliyin antinomiyası deyil, həm də sərtliyin zərif (yumşaq), yumşaqlığın isə sərt olmasını bildirir.

əllərinin nəfəsi
elə yumşaq, elə işıqlı
dedim yəqin
gül üşümür.
yaxud
O günlərdən ancaq
xatirimdə
balaca kağız gəmimin
ağ yelkəni qalıb,
bir də geri dönməyən, cocuqluq illərinin
yumşaq tikəni qalıb.

Bu poeziya ilə təmasa girən hər bir oxucu (tənqidçi, ədəbiyyatşünas...) onun dünyasında öz obrazı ilə rastlaşa bilir və bu, oxucunun özü ilə həmin şeirlərə gətirdiyi yaşantı obrazı olacaq.

Rəsul Rzanın 1945-ci ildə yazdığı məqalədə bir cümlə diqqətimi çəkmişdi: "Milli iftixar hissi milli şüurun doğrudan-doğruya bir nəticəsidir."

Elə bu fikri bir qədər dəyişib yazını yekunlaşdırmaq da olar:

Rəsul Rza kimi böyük şairlərlə qürur duymaq milli ədəbi düşüncənin mahiyyətidir.

Sədaqət HƏSƏNOVA

RƏSUL RZA və ƏDƏBİ DİLİMİZ

Azərbaycan dili dünyanın qədim və zəngin dillərindən biridir. Onun özünəməxsus leksik, semantik və qrammatik qaydaları, normaları var. Gözəl şairimiz Əli Kərimin təbirincə desək: "Bu gözəl dilini yaratmış güman, İlahi damağı çağ olan zaman". Dilimizin türk dilləri ailəsində özünəməxsusluğu ilə seçilməsində, üslubi baxımdan daha da zənginləşməsində ayrı - ayrı söz ustalarının böyük rolu, olmuşdur.

Belə sənətkarlardan biri də xalq şairi Rəsul Rzadır. Rəsul Rza Azərbaycan poeziyasında novator şair kimi tanınır. Onun poeziyası həm də ədəbi dilimizin zənginləşməsində böyük rol oynamışdır.

Rəsul Rza xalq dili xəzinəsinə açar salmağı bacaran, bu xəzinədən yetərincə istifadə edən, ona öz payını verən sənətkarlardandır. Bu fikri onun çoxcəhətli poeziyası təsdiq edir. Şairin söz dünyasına bələd olduqca onun dilimizə nə qədər qayğı, ehtiram və məhəbbətlə yanaşdığını görürük.

Mövzu və ifadə forması seçməkdə, əsrlər boyu işlənən sözlərə yeni məna çalarları aşılamaqda onun böyük rolu olmuşdur. Rəsul Rzanın yaradıcılığında söz ecazkar bir qüvvəyə malikdir. Tədqiqatlar haqlı olaraq onun poeziyasında fikirlə hissin vəhdətdə olduğunu qeyd edir, şairin poeziyasını "əsrin novator poeziyası" adlandırırlar: "Məhz R.Rza birinci olaraq cəmiyyətin həyatında, düşüncəsində, əhvali-ruhiyyəsində baş verən yeniləşməni əks etdirməyə başladı. Şair bir çox poetik nümunələrində, məsələn, "Yaz gəlir", "Bir anlıq səadət", "Həyat", "Qədim əlyazması", "Divar daşı", "Novruzgülü", "Nərgiz" və s. kimi şeirlərində adi, sadə, ilk baxışda mühüm olmayan həyat təzahürlərindən, predmet və hadisələrdən yazırdı, lakin o, bu kiçik, adi təfərrüat vasitəsi ilə yeni bir fikir, əhvali-ruhiyyə ifadə edirdi" (Şamil Salmanov). R.Rza yaradıcılığının başlıca məziyyətini bu şəkildə xülasə etmək olar: bədii dəyər, özünəxas obrazlı düşüncə, yaradıcı ehtiras, söz-ifadə axtarışları və kəşfi, həyata yeni baxış, lirik qavram, miqyası geniş duyum, anlam yeniliyi, ifadə özəlliyi və s.

Sözlərim sığallı deyil,
Şəkərli, ballı deyil.
Nə mey məclisinə,
Nə qız albomuna
yarayır onlar.
Onların başqa, yeni,
ayrı gərəkliyi var.

Doğrudan da, R.Rza öz yaradıcılığı ilə Azərbaycan ədəbi dilinə fərqli keyfiyyətlər gətirdi. O vaxta qədər dilimizdə işlənməyən, lakin dilimizin maddi bazasından istifadə yolu ilə yeni yaradılan sözlər, ayrı-ayrı sözlər əsasında düzəldilən birləşmələr, müəllif frazeologiyası və s. həmin keyfiyyətlərin əsasında dayanır.

R.Rza məqalələrinin birində yazırdı: "Aydındır ki, şüurun əsas elementi olan dil ictimai dəyişikliklər, tarixi inkişaf nəticəsində şüurun özü kimi dəyişir və irəliləyir". Şairin yaşadığı dövr ictimai dəyişikliklərin müxtəlifliyi ilə səciyyəvidir. Bu baxımdan, həmin dövrdə dilə münasibət də müxtəlif olmuşdur. Belə ki, əsrin əvvəllərində ədəbi dil məsələsi, ortaq türk dili ideyası, bir qədər sonra dilin alınma sözlərdən təmizlənməsi problemi, ənənəçiliyə aludəlik, yeniliklərin asanlıqla qəbul edilməməsi və s. məsələlər fikir ayrılıqlarına səbəb olurdu. Rəsul Rza dilə münasibətdə obyektiv mövqedə dayananlardan idi. Hələ 1939 - cu ildə Azərbaycan Sovet Yazıçıları İttifaqı tərəfindən çağırılmış dil müşavirəsində "Azərbaycan dilinin bugünkü vəziyyəti və gələcək vəzifələri haqqında" mövzusundakı çıxışında deyirdi: "Biz ərəb, fars, osmanlı dillərinin təsiri ilə mübarizə deyəndə, o dillərin vaxtilə dilimizə soxulmuş ruhu ilə mübarizə məsələlərindən danışırıq, "şayani-diqqət", "hissi-qəblilvüqu" və bu kimi xalqımıza yad olan, xalq tərəfindən mənimsənməmiş, xalqın dilinə girməmiş, dilimizin ruhuna uymamış sözlərin və ifadələrin dildən qovulmasından danışırıq. Bu işdə solçuluq edənlər və məsələnin mahiyyətini anlamayıb Azərbaycan dilini ancaq Azərbaycan sözlərindən ibarət bir dil eləmək istəyənlər zərərli iş görürlər. Dilimizin lazım olmayan kəlmələrlə zibilləndiyindən danışmaq heç də dili qara qıfıl altında saxlayaraq ona heç bir yeni kəlmə və terminin gəlməsinə yol vermək demək deyil". Bu anlamda, R.Rza həm dildə yeni sözlərin yaradılmasını, həm də gəlişinə ehtiyac duyulan neologizmləri zəruri hesab etmişdir.

Dildə sadəlik məsələsi R.Rzanın daha çox önəm verdiyi problemlərdəndir. O, sadəliyi zənginliyin əsası kimi qiymətləndirirdi: "Bir dilin zənginliyi o dilin ayrı - ayrı anlayışları, fikri daha sadə verə bilməsi və şüurun inkişafını doğru əks etdirə bilməsindədir.

Bəzi adamlar ərəb və fars dillərinin təsiri ilə mübarizə pərdəsi altında dilimizi anlaşılmaz sözlərlə doldururlar. Mən soruşuram: kasıb, ağıllı, sovqat, fəhlə, fabrik, vaqon, xoruz, dilxor, məktəb, adam, dünya, kolxoz, dəsmal, sovet və yüzlərlə belə sözləri işlədəndə kim bu sözlərin Azərbaycan sözü olmadığı haqqında düşünür? Kim bu sözləri anlamır? Dilin qüdrəti bir də orasındadır ki, onillər sürən ərəb istilası, fars təzyiqi, osmanlı təsirləri altında öz ruhunu saxlamışdır. Xalqımız ərəblərdən, farslardan, osmanlılardan və başqa millətlərdən aldığı sözləri özünün dil süzgəcindən keçirərək, onları Azərbaycan dilinin ahənginə, qanunlarına uyğunlaşdıraraq elə bir hala salmışdır ki, indi çox çətinliklə o sözlərin ibtidai halını axtarıb tapmaq olar". R.Rza uzun yüzillər, onilliklər boyu dildə yaşayan, dilin ruhuna uyğunlaşan sözləri bəyənsə də, dildə milli qarşılığı olan sözlərin alınmasına qarşı çıxırdı: "Ayrı - ayrı qəzetlərimiz, tərcüməçilərimiz bu və ya başqa sözü dilimizə gətirəndə, iş ancaq o sözün gəlməsi ilə qurtarmır. O söz özü ilə bərabər yeni şəkilçilər də gətirir. İndi bu saat çox yerdə "traktorçu" yerinə "traktorist" yazırlar. "Uçot" sözünü yazanda "uçotçik" sözünü də yazırıq. Nə üçün gözəl "yedək" sözümüz varkən "buksir" yazmaq lazımdır. Bizim qoca analarımız deyərlər ki, "başına yüz min qəza gəldi". Yaxud "Görəsən, yazığa bir qəza üz verdimi?". Bunun yerinə bizim qəzetlər "qəza" deyil, "avariya" yazırlar".

Alınma sözlərin dildə əhəmiyyəti böyükdür. Dilin leksik baxımdan zənginləşməsi, sinonim bolluğu, məna dolğunluğu və s. baxımdan alınmaların özünəxas mahiyyəti var. Lakin bir sözün dildə bir və ya bir neçə variantı ola-ola həmin sözü ifadə edən hər hansı bir alınma sözün dilə gətirilməsi ona zərər vurmaqdan başqa bir şey deyil. Bu baxımdan. R.Rza bir sıra "sovet" sözlərinin (sosializm quruluşu ilə bağlı dilə keçən sözlərin) qəbulunu məqbul hesab etmirdi. Ümumiyyətlə, R.Rza Azərbaycan dilinin milliliyinə uyğun olmayan, bu dilin ruhunu oxşamayan hər cür alınmalara qarşı çıxırdı : "...bir qardaş xalqdan və ya başqa millətlərdən aldığımız sözlər mütləq Azərbaycan dilinin öz qanununa, Azərbaycan dilinin qrammatikasına, Azərbaycan dilinin bütün incə xüsusiyyətlərinə tabe edilərək işlənməlidir. Birdəfəlik anlamaq lazımdır ki, dilin qanunu, dilin ruhu sözlər üzərində hakim olmalıdır. Əgər hər yeni aldığımız sözə görə bir qanun, bir qayda düzəltsək, o zaman on il sonra Azərbaycan dilindən nə qalar?".

XX yüzilin 30 - cu illərində ziyalılar içərisində başqa dillərdən alınmış sözləri eynilə qəbul etmək fikrində olanlar da var idi. Onlar sözün mənsub olduğu dildəki formasının qəbul edilməsini, bizim dildə həmin leksik vahidlər üzərində heç bir əməliyyat aparılmamasını (dilimizin qrammatik qayda-qanunlarına uyğunlaşdırılmamasını), istəyirdilər. R.Rza dildə bu səhv istiqaməti görür və həmin fikirlərə qarşı çıxırdı: "Mən "büdcet" sözünün "byüdcet" yazılmasına, "Şedrin"in "Şşedrin" yazılmasına və bunlar kimi sözlərin bəkarətini saxlamaq uğrunda canfəşanlıq göstərənlərə qarşı qəti etiraz edirəm. Mən yüzillərlə xalqımızın işlətdiyi və alışdığı "Ərəbistan", "Hindistan", "Almaniya" və bu kimi sözlərin "Araviya", "İndiya", "Germaniya" kimi yazılmasına etiraz edirəm". R.Rzanın bu fikirləri indi də aktuallığını itirməmişdir. Belə ki, indi də son orfoqrafiya lüğətimizdə bəzi sözlərin "bəkarəti" saxlanılaraq dilimizə uyğunsuzluğu nəzərə alınmamışdır. Məsələn, orfoqrafiya lüğətində "kompyuter" kimi qəbul edilən söz tələffüzdə "kompüter" kimi deyilir və bu variant dilimizə daha uyğundur. Nəyə görə həmin sözün "kompüter" variantını qəbul etməyək? Əslində, həmin sözün türk mənşəli variantı var və o, daha gözəl səslənir və milliliyi ilə daha məqbuldur: bilgisayar. Əgər həmin söz beynəlmiləlliyi nəzərə alınaraq orfoqrafiya lüğətimizə daxil edilmişdirsə, onda yenə də dilə yatımlı forması (kompüter) daha asan və gözəl səslənir. Çünki artıq el arasında həmin söz "özümləşərək" "kompüter" şəklində formalaşmışdır. R.Rzanın təbirincə desək: "Alınma, "gətirmə" sözləri bəkarətini saxlamaq "prinsipi" əsasında deyil, dilimizə yatımı, deyimi, hamarı əsasında işlətmək yaxşı olar".

Məlumdur ki, ümumxalq dili ilə yazılı ədəbi dil arasında onları bir -birindən ayıran əlamətlər olmuşdur. Ədəbi dilə əsas materialı xalq dili versə də, bütün zamanlarda onlar arasında ayrıntılar az və ya çox dərəcədə özünü göstərmişdir. Bu məsələdə ən gözəl və dəyərli iş yazılı ədəbi dili xalq dilinə yaxınlaşdırmaq və ya əksinə, şifahi danışığı yazılı ədəbi dilə gətirməkdir. Rəsul Rza yaradıcılığı bu baxımdan da diqqəti cəlb edir. O, xalqın dilinə dərindən bələd olan və onu sevib dəyərləndirən bir sənətkar kimi özünü xalqa, onun zəngin dil materialına tutmuşdur. Bu baxımdan, şairin dilində ümumxalq dilinin bir qolu olan dialektlərin üslub məqamları maraqlı və əhəmiyyətlidir. Dialektlər ədəbi dil materialı olmasa da, bədii üslubda özünəməxsus mövqeyə malikdir. Onlar nitqin təbiiliyini artıran, dildə milliliyi gücləndirən dil faktı olaraq bədii əsərlərə bir canlılıq gətirir. Lakin onlara ehtiyatla yanaşmaq lazımdır. Çünki "əsərdə şivə sözlərinə çox yer vermək əsərin dilində duzluluq yox, artıq duzluluq - şorluq yaradır" (Ə.Dəmirçizadə). R.Rzanın yaradıcılığında maraqlı və bu gün alınma sözlərin qarşılığı kimi ədəbi dilimizdə işlənməyə layiq dialektlər var. Bu baxımdan, hazırda Avropa mənşəli sözlərin çox sürətlə dilimizə girməsinin qarşısının alınması üçün dialektlərimizə müraciət etmək daha optimal yoldur. Bu bir bəla və illətdir ki, yad dillərdən yalnız terminlər alınmır, lüzumsuz söz və ifadələr də nitqimizə daxil olur və fərqinə varmadan onlardan istifadəni savadlılıq əlaməti hesab edənlər var. Bunun yanlış yol olduğunun fərqinə varmaq zamanıdır, çünki bu proses bir qədər də irəliləsə, yəqin ki, gələcəkdə milli sözlərin faizi aşağı həddə düşəcək. Bu məsələ dilin gələcək yaşamını sual işarəsi altında qoyur. Dilimizin milliliyini, təmizliyini qorumaq üçün yad təsirlərdən uzaqlaşmaq, tənqid əvəzində isə, ya yeni söz yaratmaq təcrübəsindən istifadə etmək, ya da dialektlərdən faydalanmaq lazımdır. Bir vaxt dialekt örnəyi olan "kəhriz" sözünün hazırda ədəbi dil faktı kimi işlənməsi həmin fikrin əsassız olmadığını göstərir. Görkəmli tənqidçi M.Cəfərin bir fikrini xatırladaq: "Dünyanın bütün söz ustaları məhz ləhcə və dialektlərdən münasib sözlər alıb işlətməklə ədəbi-bədii dilin zənginləşməsinə kömək etmişlər.

Belə bir axtarış, seçmə, əvəzetmə, sözlərə yeni məna vermə Azərbaycan yazıçısı, alimi üçün xüsusilə vacibdir. Ona görə ki, məlum olduğu üzrə, ötən əsrlərdə dilimizə daxil olan bir çox lüzumsuz əcnəbi söz, ifadə, tərkiblər dilimizin öz doğma sözlərini sıxışdırıb unutdurmuş, üstü örtülmüş xəzinə halına salmışdır. Bu nöqteyi-nəzərdən, Azərbaycan yazıçısının, aliminin lazım olduğu yerdə ləhcə, şivə və dialektlərə müraciət etməsi vacibdir". Bu baxımdan, Rəsul Rzanın dilində də maraqlı dialekt örnəkləri vardır. Məsələn, idim (forma), yüyrük (beşik), gənimək (rəngi qaçmaq), köbər (dik yer), bəllamək (müəyyənləşdirmək) və s. Rəsul Rzanın yaradıcılığı təsdiq edir ki, bədii dildə dialektlərə müəyyən qədər yer vermək dilin axıcılığına, rəvanlığına səbəb olur və yeri gəldikcə gizli xəzinə materialı olan dialektləri üzə çıxarmaq faydalı nəticələr verir.

Söz yaradıcılığı dilin çətin, ancaq həm elmi, həm də praktik cəhətdən maraqlı hadisələrindən biridir. Bu prosesin əsas dəyəri ondadır ki, o, bir tərəfdən dilin leksikasını zənginləşdirir, digər tərəfdən, alınma sözlərin milli sözlərlə əvəz olunmasını təmin edərək onların sıxışdırılmasına səbəb olur və beləliklə də, dildə milliliyi gücləndirir.

XX yüzildə ədəbi dilimiz söz yaradıcılığı baxımından, digər dövrlərlə müqayisədə xeyli irəli getmişdir. Antroponimlərlə bağlı yeni sözlərin yaranması (Sevil, Dönüş, Gündüz, Gülüş və s. - C.Cabbarlı; Elçin - M.Hüseyn; Aygün, Aybəniz - S.Vurğun; Anar - R.Rza və s.), dialekt və şivələrin ədəbi dilə gətirilməsi (S.Vurğun, S.Rəhimov, R.Rza, Ə.Vəliyev, İ.Şıxlı və b.) həmin prosesi daha da gücləndirmişdir. "Bədii üslub və ya başqa cür deyildiyi kimi, bədii əsərlərin dili müəyyən mənada və dərəcədə yeni söz yaratmaq üçün, necə deyərlər, təcrübə sahəsində sınaqdan çıxmış sözlərin ədəbi dilə daxil olması tamamilə təbii sayılmalıdır. Bir də ki, dilin taleyi, gələcəyi barədə yazıçıdan çox kim düşünməlidir?" (Ağamusa Axundov). Bu prosesdə seçilən sənətkarlardan biri də Rəsul Rza olmuşdur. R.Rza bu barədə yazırdı: " Nə üçün bizim keçmişdən qat-qat maraqlı və zəngin olan həyatımız yeni ənənələr yarada bilməz və yaratmamalıdır? Milli kolorit, şeirin üslubu və cümlələr haqqında da həmin sözü demək olar. Belə düşünmək ki, mil-

Rəsul Rza və Nigar Rəfibəyli

lətlər nə yarada bilərlərsə, artıq yaratmışlar, sənətdə milli xüsusiyyət isə çoxdan tapılmışdır, burada axtarmalı bir şey yoxdur" - məncə, tamamilə səhvdir. Bizim həyatımızda, müxtəlif xalqların həyatının bu qədər bir - birinə yaxından bağlı olduğu bir dövrdə, bu xalqların böyük tarixi əməlləri birgə mübarizədə həyata keçirdikləri bir zamanda, onlar elə xüsusiyyətlər kəsb edirlər ki, milli olduqları halda, daha çox beynəlmiləl ünsürlər daşıyırlar. Milli xarakterin elə cəhətləri meydana çıxır ki, keçmişdə, başqa ictimai-iqtisadi şəraitdə bu cəhətlər meydana çıxa bilməzdi. Bütün bunları nəzərə almadan, ənənələri, koloriti və dili inkişafdan məhrum olan, dəyişməyən cansız bir şey kimi qəbul etmək doğru deyil". Bütün yaradıcılığı boyu Rəsul Rza həmin prinsiplərə sadiq qalaraq sığallı dillə yazmamış, dilə yaradıcı münasibət göstərərək dil vahidlərinə adi söz kimi yanaşmamış, onları bütün anlamı ilə və məqamında işlətmişdir.

Rəsul Rza yenilikçi şairdir. O, Azərbaycan şeirinə yeni forma gətirməsi ilə seçilir. Yeni forma isə yeni fikir, yeni söz vahidləri tələb edir.

Dilimizdə Rəsul Rzanın yaratdığı bir çox sözlər var ki, indi də leksikamızın bəzəyidir:

Səs aydın, *anlaşıq* asan,
elə bil, yanımda
bir əl *uzadımın*dasan.

Könlüm ayrılığında
sızlasın *ağlam - ağlam*.

Bura
köçəri çobanlara bir *sığınaq*,
bir yurd olub.

Deyirəm: Dünya mənim *sığnağım*dır,
yuvamdır.
dünya mənim evimdir.

İftixarım, *öyünc*üm,
qələbəm, zəfərimsən.

***Duracaq*lar ötüşür.**

Çöl *donuşluq*dur, yəqin.

O səs dəmir *burğac*la
qulaqlarda yol açır.

Nümunələrdəki işarələnmiş sözlərin hamısı dilimizin daxili imkanları əsasında yaradılıb. Ümumiyyətlə, Rəsul Rzanın yaratdığı bütün sözlərin kökü milli sözlərimizdən qidalanıb. Bunlardan aşağıdakıları örnək göstərmək olar:

Sadalamaq - sadalaq (siyahı mənasında)	
Durmaq - duracaq	**Öyünmək - öyünc**
Çimmək - çimərlik	**Duymaq - duyum**
Əyləmək - əyləc	**Anlamaq - anlam**
Hərləmək - hərləc	**Demək - deyim**
Yığmaq - yığıcı	**Doymaq - doyum, doyumlu**
Görmək - görüm	**Susmaq - susum**
Söykəmək - söykək	**Öyrətmək - öyrənc**
Ayrılmaq - ayrılış	**Eşitmək - eşidimli**
Doğmaq - doğum	**Ölmaq - olum**
Batmaq - batım	**Dincəlmək - dincərlik və s.**
Soyumaq - soyutqan (soyuducu)	**Dönmək - dönək**
Gözləmək - gözləm	**Anmaq - anımlı , Anar və s.**

Rəsul Rzanın yaratdığı sözlərin çoxu dilimizin aktiv leksikasına daxil olmuşdur. Şair bəzən alınma sözlərə də müraciət etmiş, onlar əsasında yeni leksik vahidlər yaratmışdır, məsələn, qəzetxana, filban və s. O, bəzi alınma sözlərin mümkün olduqca milli şəkilçilərlə işlədilməsini məqsədəuyğun saymışdır (məsələn, "cavabdeh" əvəzinə "cavablı"). Doğrudur, şairin yaratdığı yeni sözlərin hamısı işlək olmamışdır, lakin onların çoxu dilimizin söz ehtiyacını təmin edərək aktiv leksikaya keçmişdir. Bəlkə də, Rəsul Rzanın söz yaradıcılığına vaxtında düzgün münasibət göstərilsəydi, bu nəcib və şərəfli iş zamanında dəyərləndirilsəydi, onun yaratdığı bütün sözlər dilin feal leksikasında mövqe qazanardı. Məntiqsiz yanaşmalar həmin sözlərin bəzilərinin qəbul edilməməsinə səbəb olmuşdur. Bu haqda Rəsul Rza yazırdı: "Hansı məntiqlə "səciyyə daşıyır" demək olar, "vurğun

kəsildim" demək olmaz? Nə üçün "anmaq" demək olar, "anımlı" demək olmaz? "Duymaq"dan "duyum" sözü yaratmaq niyə qəbahət olsun? "Olmaq" sözü var, "ölmək" sözü var. Hansı məntiqlə "olum" sözünü rədd edib, "ölüm" sözünü işlətməliyik?".

Rəsul Rza şəkilçilər vasitəsilə bir sıra sözlərin yaranmasında fəal iştirak etmişdir. Bu baxımdan "-daş" şəkilçisi diqqəti çəkən morfemlərdəndir. Həmin şəkilçi ilə bir zaman M.Müşfiq "könüldaş" və "yataqdaş" sözlərini işlətmişdir. R.Rzanın dilində isə "gündaş", "ildaş", "sinifdaş", "cəbhədaş", "əsrdaş", "səngərdaş", "işdaş", "zamandaş", "dünyadaş", "vaxtdaş" kimi sözlərlə qarşılaşırıq.

Aşağıdakı fikri şairin söz yaradıcılığı ilə bağlı əsas prinsipini aydın ifadə edir: "Nə üçün indi, dillərin formalaşıb inkişaf tapdığı bir zamanda, lazım gəldikdə, həyatın yeni hadisələrini ifadə etmək üçün yeni söz yaradılmasın, axı dillərin yetkinləşməsi prosesi indi də gedir. Məlumdur ki, söhbət söz oyunbazlığından getmir, dilə fikir və hisslərinin ifadə etməsi kimi yaradıcı münasibət bəsləmək haqqında gedir". Bu fikrin tərkibində "lazım gəldikdə" birləşməsi onun əsas qayəsini təşkil edir. "Bir şeyi, bir hadisəni ifadə eləmək üçün ana dilində söz və ya söz birləşməsi olmadığı halda, dilə yeni söz gətirilə bilər".

Rəsul Rza məna tutumu ilə diqqəti çəkən maraqlı ifadə yaradıcılarından biri kimi dilimizin sintaksisinə də qayğılı münasibət bəsləmiş, onu söz birləşmələri ilə zənginləşdirmişdir. Şairin yaratdığı birləşmələri yalnız sintaktik baxımdan qiymətləndirmək düzgün olmaz. Onlar həm də dilimizin üslubiyyatına xidmət etməkdə dəyərlidir.

Aydındır ki, ifadələr məlum sözlər əsasında yaranır. Lakin həmin sözlər birləşmə kimi işləndikdə ayrılıqda ifadə etdiyi anlamdan fərqli məna çalarları bildirir ki, bu, üslubiyyat baxımından çox maraqlı məsələlərdən biridir. Dildəki sözləri "ifadələşdirmək", onları necə və hansı məqamlarda, hansı anlamda işlətmək nitq mədəniyyətinə aiddir, sözlər isə dilin leksikasına aiddir, lakin birləşmələr qrammatik qayda - qanunlar çərçivəsində yaranır. Onların məcazlaşması isə frazeologiya və üslub məsələsidir. "Dil mədəniyyətindən danışmaq o dilin hələ çözülməmiş problemlərini açmağa çalışmaqla bağlıdır. Bu vaxta qədər Azərbaycan dilində olan idiomların izahı, onların tarixi bioqrafiyası, ifadə zənginliyi haqqında tutarlı bir əsər yoxdur" (R.Rza). Doğrudan da, ifadə zənginliyi dil mədəniyyətinin əsas göstəricilərindən biridir. Azərbaycan dilinin ifadələrlə zənginləşməsində Rəsul Rzanın özünəməxsus payı vardır. Aşağıdakı ifadələr onun dilinə məxsusdur: *doyumsuz gözlər, duyumsuz ürəklər, qazanış zirvələri, insanlığın fəza donanması, söz yanığı, istək dustaqlığı, dərya - dərya imkanlardan verilən nemət cirəsi, mərmər poemalar, yaşıl susuzlar, can yağıları, uğursuz duyum, niyyətli sevgi, şöhrətli mehribanlıq, qondarma pərişanlıq, dotələb nadanlıq, arzuların imkan məsafəsi, giley gərəyi, "izm"lərlə damğalamaq, özümlük kiri, nadanlıq kiri, qibtədən mayalanmaq, xırda niyyətin hisi, yaşamaq açarı, qəlbimizin cənubu, iztirab heykəli, parlaman qeybətləri, fikir dustağı, gizlində oturub aşkarda iş görmək, təəssüfsüz ölmək, zülm abidəsi, fəlakət qalası, yöndəmə salmaq, pasportsuz kədər, ürəkdilli tanış, könül adlı qəfəs, acı təşbeh qorxusu, anlamaq dərdi, standart danışmaq peşəsi, yarımfakt, mütəxəssis şeytan, qəlibləmniş saadət, icarəli cəsarət, kifli bəlağət, təntənəli cəhalət, qarın hakimiyyətinin ətalət quyusu, ucuz tərif, pəltək məruzə, ömrün qırbacı, payızlı duyumlar, sarımtıl yaşıl, ləkəsiz ülfət, öz - özünü təsəlliləmək, ülfət ehtiyacı, ümidlərin nigaran ölkəsi, imkansızlıq həsarı, ən modern kölelik təməli, filantrop mərhəmətli, tərif dilənçisi, şöhrət dilənçisi, yoldaş qafiyəxanası, böhran divi, cəlladlar sürüsü, ziddiyyətlər ocağı, fitnə, yalan qarğası, cilovsuz yel, mədəniyyət davası, zəncirlər dünyası, qəzəbdən yarılmaq, qərəzli qiymət, qara buludların qarmağı, ürəklərin tutumu, ucuz gəlir, təsəlli üçün deyilmiş yalan, tək bir qəlbin qapısına düşən açar, ölümdən gələn qazanc, həm elə, həm belə adam, vərdişli, könülsüz gülüş, vaxtın rəngsizliyi, mütiliyə bəraət hissi, aldanışın şirin zəhəri, yer üzündə cəhənnəmin şöbəsi, səfəri mümkünsüz xatirələr, məhəbbətin barmağa dolaşmış damğası, cinayətin yaşıdı, payını güclülər yemiş aclar, məhəbbətə ləkə salan cingiltili metal, ağıllı dəli, peşmanlıq qoxuyan həqiqət, mahnısını itirmiş aşıqlar, doyumsuz insan, zülmün tələsi, bayağı dostun təzəsi, vədələrin gücsüzlüyü, şüurdan gizlənmiş qorxu, söz eşidə bilməyən qulaqlar, yaşamalı ölülər, ölməli sağlar, ənənəçi mötəbər, arxiv qəfəslərində dincələn əlyazmalar, tapşırıqlı yol, məqsədli alqışlar, fil görünən birələr, doğruya bənzəyən yalanlar, adilikdən yorulmaq, əzbər bilikdən yorulmaq, ədəbi pəltək, isti sarı, alov rəngli qısas, dildəki yaşlıq, rütubət məntiqi, sığortaçı mülahizə və s.* Bu birləşmələrdə adi sözlər bir - birinə yanaşmış fikir və düşüncələrdən asılı olaraq müxtəlif üslub məqamlarında işlənmişdir.

Rəsul Rza söz - ifadə yaradıcılığı ilə Azərbaycan ədəbi dilinə yeni, saf hava gətirən sənətkardır. "Günəş intihar etməz", "Suyu doğramaq olmaz" kimi aforistik misraları, "eşqin qələmilə şəkil çəkdirmək" kimi maraqlı ifadələri, uğurlu, gərəkli sözləri bu gün də ədəbi dilimizin bəzəyidir.

Corc ORUELL

1984*



ÜÇÜNCÜ HİSSƏ

I FƏSİL

Uinston harada olduğunu bilmirdi. Yəqin, Sevgi Nazirliyinə gətirmişdilər. Amma gümanını dəqiqləşdirməyə heç bir imkan yox idi. Hündür tavanlı, divarlarına ağ, parıltılı kaşı vurulmuş pəncərəsiz kameraya salınmışdı. Gözə görünməyən lampalar üstünə soyuq işıq salırdı. Haradansa qulağı cırmaqlayan asta, lakin aramsız uğultu eşidilirdi. Uinston bunun havalandırma qurğusunun səsi olduğunu düşündü. Qapını, bir də üzbəüzdəki paraşanın yerini çıxmaq şərti ilə kamera boyu divarlara ensiz taxta oturacaqlar bərkidilmişdi. Dörd bir tərəfdən kameraya dörd teleekran nəzarət edirdi.

Qarnındakı küt ağrı sakitləşmək bilmirdi. Sancı onu üstüörtülü maşına basıb naməlum istiqamətə aparanda başlamışdı. Yemək istəyirdi. Nə isə qeyri-insani, vəhşi hissə çevrilən aclıq əhədini kəsirdi. Bütöv bir gün, bəlkə də gün yarım idi ki, dilinə heç nə dəyməmişdi. Səhər, yoxsa axşam həbs edildiyini hələ də bilmirdi. Yəqin, heç zaman da bilməyəcəkdi. Tutub bura gətirəndən sonra bir dəfə də olsun yemək verməmişdilər.

Ensiz skamyada əllərini dizinin üstünə qoyub bacardığı qədər sakit oturmağa çalışırdı. Uinston, ümumiyyətlə, həmişə sakit davranmışdı. Burada isə gözlənilməz bir hərəkət eləyən kimi teleekran adamın üstünə qışqırırdı. Yemək istəyi get-gedə daha da şiddətlənirdi. Hər şeydən çox bir tikə çörək istəyirdi. Nədənsə Uinstona elə gəlirdi ki, kombinezonunun cibində çörək qırıntıları olmalıdır. Cibində nə vaxtdansa hətta bütöv bir dilim quru çörəyin qaldığını düşünürdü. Yoxsa arabir ayaqlarına toxunan bərk şey nədir? Axırda aclıq qorxuya qalib gəldi. Uinston əlini cibinə uzatdı.

- Smit! - teleekran çımxırdı. - Altmış-yetmiş doqquz! Smit U.! Kamerada əlinizi cibinizə salmayın!

Uinston təzədən əllərini dizinin üstünə qoyub donmuş vəziyyət aldı. Bura gətirməmişdən əvvəl onu başqa yerə aparmışdılar. Adi dustaqxana, ya da patrulların sərəncamındakı ilkin həbs kamerası idi. Orada nə qədər saxlandığını bilmirdi. Hər halda bir neçə saat qalmışdı. Saatı olmadığından, üstəlik də, kamera-ya gün işığı düşmədiyindən, vaxtı təyin etmək mümkün deyildi. İlk həbs kamerası üfunət qoxuyan, səsli-küylü yer idi. Təxminən indikinə bənzəyirdi, amma hər tərəfi çirk içərisindəydi. Kiçik kameraya on, bəlkə də on beş məhbus doldurmuşdular. Əksəriyyəti adi cinayətkar idi. Amma aralarında siyasi ittihamlarla tutulanlar da gözə dəyirdi. Uinston hər tərəfdən çirkli insan bədənləri ilə sıxışdırılmış halda divarın dibində oturmuşdu. Qorxudan və qarnındakı sancıdan kamera yoldaşlarına heç bir maraq göstərmirdi. Lakin Partiya üzvləri ilə digər məhbusların davranışları arasındakı heyrətamiz fərq diqqətindən yayınmamışdı. Partiya üzvlərinin hamısı səssiz-səmirsiz və qorxu içərisində idilər. Adi cinayətkarlar isə, sanki meydan sulayır, heç kimdən, heç nədən qorxmurdular. Onlar nəzarətçilərin ünvanına təhqir yağdırır, əllərindən bir şeyi almaq istəyəndə sərt müqavimət göstərir, divara və döşəməyə ədəbsiz sözlər yazır, paltarlarının kim bilir harasında isə gizlədərək kameraya gətirdikləri ərzağı yeyir, hətta qayda-qanun tələb edən teleekrana çımxırmaqdan da çəkinmirdilər. Digər tərəfdən, adi cinayətkarlardan bəzilərinin nəzarətçilərlə yaxşı münasibət qurduqlarını görməmək olmurdu. Onları ləqəbləri ilə çağırırdılar, arada dilə tutub qapı deşiyindən siqaret

* Əvvəli jurnalımızın ötən saylarında

almağa çalışırdılar. Güc tətbiq etmək lazım gələndə isə, nəzarətçilər bu cinayətkarlarla daha yumşaq davranır, hətta əl-qol atmalarına da göz yumurdular. Həbs olunanların əksəriyyəti göndəriləcəkləri icbari əmək düşərgələri haqqında çox danışırdılar. Eşitdiyi söhbətlərdən Uinston belə qənaətə gəlmişdi ki, müəyyən əlaqələr yaratsan və hər şeyin yolunu-yatağını bilsən, düşərgədə baş saxlamaq mümkündür. Orada pulla ələ alma, kiminsə sevimlisinə çevrilmə və hər cür soyğunçuluq mövcuddur, pederastlıq və fahişəlik geniş yayılıb, hətta kartofdan gizlicə araq da çəkirlər. Adi cinayətkarlara etimad daha böyükdür. Xüsusən quldurlar və qatillər özünəməxsus həbsxana aristokratiyasıdır. Ən qara işlərə isə, həmişə siyasiləri göndərirlər.

Kameradan biri-birinin ardınca müxtəlif dustaqlar gəlib keçirdilər. Onların arasında narkotik alverçiləri, oğrular, soyğunçular, qaçaqmalçılar, içki düşkünləri, fahişələr vardı. Əyyaşlar bəzən elə qalmaqal salırdılar ki, onları sakitləşdirmək üçün bütün kamera birləşməli olurdu. Dörd nəzarətçi əl-ayağından yapışdıqları təxminən altmış yaşlarında, döşləri sallanmış, pırpız saçlarının ağ şəridləri hər tərəfə dağılmış nəhəng qadını zorla kameraya salmağa çalışırdılar. Qadın qışqırır, söyür, təpik atırdı. Basabasda ayaqqabılarını dartıb ayağından çıxarmışdılar. Axır ki, onu içəri sürüyüb düz Uinstonun dizlərinin üstünə atdılar. Az qalmışdı ki, ayaqlarını sındırsınlar. Qadın birtəhər qalxıb oturdu. Nəzarətçilərin ardınca "S... buradan, oğraşlar!" deyə qışqırdı. Yalnız bundan sonra kiminsə ayaqlarının üstündə oturduğunun fərqinə vardı. Birtəhər kənara çəkilib skamyada özünə yer elədi.

- Bağışla, canım, - dedi. - Dizinin üstündə öz xoşuma oturmamışdım. Bu yaramazlar gətirib atdılar. Görürsən, xanımlarla necə rəftar eləməyi də bilmirlər.

Qadın susdu, əli ilə sinəsini yüngülcə yumruqlayıb gəyirdi.

- Bağışla, dedi, - heç özümdə deyiləm.

Başını yana əydi, dərhal da qusub bütün döşəməni batırdı.

- İndi bir az toxtadım, - deyə gözləri yumulu halda arxaya söykəndi. - Mən həmişə deyirəm: gələni saxlama. Qarnında qalıb turşumamış boşalt getsin!

Halı bir az yaxşılaşmışdı. Başını çevirib Uinstona bir də baxdı. Deyəsən, quşu qonmuşdu. Sərbəst əli ilə onun çiynini qucaqlayıb özünə tərəf çəkdi. Pivənin və qusuntunun bir-birinə qarışmış kəsif iyi Uinstonun üzünə vurdu.

- Canım, sənin adın nədir?

- Smit, - deyə Uinston soyadını söylədi.

- Smit? İşə bax ha! Mən də Smitəm. - Arada qadının hətta gözləri yaşaran kimi də oldu. - Sənin anan da ola bilərdim.

"Həqiqətən anam da ola bilərdi", - deyə Uinston fikirləşdi. Yaşı da, bədən quruluşu da uyğun gəlirdi. İyirmi il icbari əmək düşərgəsində qalandan sonra hər bir adamın tanınmaz dərəcədə dəyişməsi mümkündür".

Kamerada başqa heç kəs Uinstonla danışmadı. Cinayətkarların Partiya üzvlərini açıq-aşkar saya salmamaları qəribə görünürdü. Onları gizlətmək istəmədikləri nifrətlə "siyasilər" deyə çağırırdılar. Həbs olunmuş Partiya üzvləri, ümumiyyətlə, danışmaqdan qorxurdular. Bir-birləri ilə ünsiyyəti isə ağıllarına gətirmirdilər. Uinston yalnız bircə dəfə skamyada bir-birlərinə sıxılıb oturmuş Partiya üzvü iki qadının tələsik pıçıldaşmalarından bir neçə söz eşidə bilmişdi. Qadınlar hansısa "101-ci otaq" haqqında danışırdılar. Uinston söhbətdən heç nə anlamamışdı.

İki, bəlkə də üç saat əvvəl isə onu yeni kameraya gətirmişdilər. Qarnındakı küt ağrı heç cür keçib getmirdi. Gah sakitləşir, gah da yenidən şiddətlənirdi. Uinstonun fikirləri də ağrıya uyğun dəyişirdi. Ağrı güclənəndə yalnız onun mümkün qədər tez sakitləşməsi, bir də aclıq haqqında düşünürdü. Ağrı azacıq ara verəndə isə yenidən vahimə hissinə qapılırdı. Bəzən qarşıda özünü nələrin gözlədiyini elə aydın təsəvvür edirdi ki, ürəyi az qala sinəsini deşib çıxır, nəfəsi kəsilirdi. Dirsəklərinə dəyən dəyənək zərbələrini, nallı çəkmələrlə dizlərinə vurulan təpikləri bədənində hiss edirdi. Sındırılmış dişlərini tüpürə-tüpürə döşəmədə sürünməsi, aman diləyib yalvarması gözlərinin önünə gəlirdi. Culiya, demək olar ki, yadına düşmürdü. Fikrini heç cür qızın üzərində cəmləyə bilmirdi. Onu sevirdi, ona heç zaman xəyanət etməyəcəkdi. Bu, hesab qaydaları qədər sadə və aydın

məsələ idi. Amma indi ürəyində Culiyaya qarşı heç bir hiss yox idi. Hətta qızın başına gətirilənlər haqda da düşünməməyə çalışırdı. O`Brayeni daha tez-tez xatırlayırdı. Hər dəfə də ürəyində ümid qığılcımı parıldayırdı. O`Brayen Uinstonun həbs edildiyini bilməlidir. Düzdür, o, demişdi ki, Qardaşlıq cəmiyyəti heç vaxt öz üzvlərinin xilasına təşəbbüs göstərmir. Lakin arada ülgüc söhbəti vardı; mümkün olsa ona gizlicə ülgüc ötürürlər. Nəzarətçilər özlərini kameraya yetirənə qədər azı beş saniyə keçəcək. Ülgüc yandırıcı soyuqluqla damarlarını kəsib-doğrayacaq. Hətta onu sıxan barmaqları da sümüyə qədər doğranacaq. Ən kiçicik ağrıdan da qorxub titrəyən bədəni bu fikirlərin təsiri altında əsməcəyə düşürdü. Kameraya ülgüc göndərilsə belə, Uinston ondan istifadə edəcəyinə əmin deyildi. İnsan hər anın öz hökmü olduğuna inanır, sonunda onu yenə işgəncələr gözlədiyini bilsə də, ömrünü on dəqiqə uzatmaq üçün dəridən-qabıqdan çıxır.

Bir neçə dəfə kameranın divarlarına vurulmuş kaşıları saymağa çalışmışdı. İlk baxışdan adama asan görünürdü. Amma Uinston hər dəfə bu və ya digər yerə çatanda çaşıb hesabı itirirdi. Daha çox hara gətirilməsi və indi saatın neçə olması ilə maraqlanırdı. Bəzən ona elə gəlirdi ki, indi küçədə günün günorta vaxtıdır. Bir an sonra isə, eyni əminliklə hər tərəfi qatı qaranlıq bürüdüyünü düşünürdü. Təhtəlşüur şəkildə də olsa, belə yerlərdə işıqların heç zaman söndürülmədiyini anlayırdı. Bura heç zaman qaranlıq olmayan yer idi! Uinston yalnız indi O`Brayenin bu sözlərinin mənasını dərhal anlamamasının fərqinə vardı. Sevgi Nazirliyində pəncərə yox idi. Onun kamerası binanın tən ortasında da ola bilərdi, küçəyə baxan səmtində də. Onu yerin altındakı onuncu mərtəbədə də saxlaya bilərdilər, binanın yerüstü hissəsinin otuzuncu mərtəbəsində də! Uinston fikrən tez-tez yerini dəyişir, bu yolla bədəninin yerin altında gömüldüyünümü, yoxsa torpağın üstündə olduğunumu müəyyən etməyə çalışırdı.

Koridordan eyni ahənglə döşəməyə çırpılan ayaq tappıltıları eşidildi. Polad qapı cingilti ilə açıldı. Ağappaq, düzgün cizgili sifəti mum maskaya bənzəyən, əynində kip oturmuş yaraşıqlı qara uniformanın parıltısı sifətinə yayılan gənc zabit inamlı addımlarla içəri girdi. Əlinin işarəsi ilə nəzarətçilərə qapının arxasındakı məhbusu kameraya gətirmələrini əmr etdi. Şair Amplfort ayaqları dolaşa-dolaşa içəri keçdi. Polad qapı cingilti ilə onun arxasınca bağlandı.

Amplfort əvvəl sağa, sonra sola tərəf bir-iki inamsız addım atdı. Sanki otaqda ikinci qapının olduğunu düşünür və onu axtarırdı. Sonra kamerada o baş-bu başa addımlamağa başladı. Hələ Uinstonu görmürdü. Həyəcanlı nəzərləri onun başı üzərindən bir metr yuxarıya, divara zillənmişdi. Amplfort ayaqqabısız idi. Corabındakı deşiklərdən iri, çirkli baş barmaqları bayıra çıxmışdı. Üzü də bir neçə gün olardı ki, qırxılmamışdı. Almacıq sümüklərinə qədər tük basmış sifəti ona iri, yöndəmsiz bədəni və əsəbi əl-qol hərəkətləri ilə bir araya sığışmayan quldur görkəmi vermişdi.

Uinston özünü etalət və durğunluqdan çıxarmalı idi. O, Amplfortla danışmalıdır. Hətta teleekran üstünə çımxırsa da, mütləq bunu etməlidir. Bəlkə ülgücü elə Amplfort vasitəsi ilə göndəriblər.

- Amplfort! - deyə onu çağırdı.

Teleekran susurdu. Amplfort yüngülcə diksinib dayandı. Baxışları yavaş-yavaş Uinstona tərəf yönəldi.

- A-a, Smit! - dedi. - Siz də buradasınız?

- Bəs siz nəyə görə buradasınız?

- Düzünü desəm...- O, yöndəmsiz hərəkətlə Uinstonla üzbəüz skamyada oturdu.-Bilirsiniz ki, əslində, yalnız bir cinayət var.

- Siz də o cinayəti törətdiniz?

- Görünür, elədir.

Amplfort əllərini qaldırıb barmaqları ilə gicgahını ovuşdurdu. Sanki nəyi isə yadına salmaq istəyirdi.

- Belə şeylər olur, - deyə inamsız halda sözünə davam etdi. - Yalnız bir şeydən şübhələnirəm. Həbsimin yeganə mümkün səbəbi də onu sayıram. Əlbəttə, ehtiyatsızlığa yol vermişəm. Bilirsiniz ki, Kiplinqin əsərlərinin akademik nəşrini hazırlayırıq. Mən misranın sonundakı "God" sözünə toxunmadım. Heç

nə edə bilmədim! - o, az qala özündən narazı tərzdə gözlərini qaldırıb Uinstona baxdı. - Misranı dəyişdirmək olmazdı. Yeganə uyğun gələn qafiyə "rod"* idi. Sizin xəbəriniz varmı ki, bütün ingilis dilində "rod"la həmqafiyə olan yalnız on iki söz mövcuddur? Neçə gün baş sındırdım. Amma ayrı qafiyə tapa bilmədim.

Amplfortun sifətinin ifadəsi dəyişdi. İndi əvvəlki təəssüf hissi çəkilib getmişdi, ani də olsa, üzündə hətta məmnunluq ifadəsi göründü. Üzünü basmış tükün və çirkin arxasından yaddaşının dərinliklərindən hansısa lazımsız faktı tapıb üzə çıxaran və buna görə də özünü xoşbəxt sayan pedantın intellektual sevinci sezilirdi.

- İngilis poeziyasının bütün tarixinin daim ingilis dilinin qafiyə qəhətliyi ilə sıx bağlı olması fikri haçansa ağlınıza gəlibmi? - deyə Uinstondan soruşdu.

Yox, bu mütəxəssis fikri heç vaxt Uinstonun ağlına gəlməmişdi. Indiki şəraitdə də

Amplfortun dediyində mühüm və maraqlı heç bir şey görmürdü.

- Bilmirsiniz, saat neçədir? - deyə ondan soruşdu.

Amplfort yenə də özünü itirən kimi oldu.

- Düzü, bu barədə heç fikirləşməmişəm. Məni iki, ya da üç gün əvvəl həbs ediblər. - Elə bil haradasa pəncərə görmək ümidi ilə yenə kameranın divarlarını gözdən keçirməyə başladı. - Burada gecə ilə gündüzün heç bir fərqi yoxdur. Özüm də bilmirəm, vaxtı necə təyin etmək olar?

Onlar daha bir neçə dəqiqə danışdılar. Sonra xüsusi səbəb olmadan teleekran "Səsinizi kəsin!" - deyə üstlərinə çımxırdı. Uinston əllərini dizinin üstünə qoyub səssiz-səmirsiz oturdu. İri gövdəli Amplfort ensiz skamyada yerini heç cür rahatlaya bilmirdi. O yan-bu yana çevrilir, arıq, uzun qolları ilə dizinin gah birini, gah o birini qucaqlayırdı. Teleekran üstünə çımxırıb sakit oturmasını tələb etdi. Vaxt keçirdi. Amma nə qədər? İyirmi dəqiqə, yoxsa bir saat? Dəqiq söz demək çətin idi. Koridordan yenə addım səsləri eşidildi. Uinstonun qarnı yenə sancdı. Tezliklə, lap tezliklə, bəlkə beş dəqiqədən sonra, bəlkə, elə indinin özündə addım səsləri onun növbəsinin çatdığını bildirəcək.

Qapı açıldı. Soyuq sifətli gənc zabit kameraya girdi. Əlinin ani hərəkəti ilə Amplforta işarə edərək:

- 101-ci otağa! - dedi.

Amplfort iki nəzarətçinin müşayiəti ilə koridora çıxdı. Sifətində bərk həyəcan, eyni zamanda anlayış ifadəsi vardı.

Deyəsən, bu dəfə aradan daha uzun vaxt keçdi. Uinstonun qarnındakı ağrı get-gedə şiddətlənirdi. Həmişə yuvarlanıb eyni yuvaya düşən bilyard şarı kimi onun başında da eyni fikirlər təkrar-təkrar dolaşırdı. Əslində, yalnız altı şey barəsində fikirləşirdi: qarnındakı ağrı, bir tikə çörək, qan və fəryadlar, O`Brayen, Culiya, ülgüc. Qarnında yeni, əvvəlkindən də güclü sancı başlandı. Koridordan kameraya yaxınlaşmaqda olan ağır ayaqqabı tappıltıları eşidilirdi. Qapı açılan kimi Uinstonu soyuq və kəsif tər qoxusu vurdu. Parsonsu gətirmişdilər. Əynində xaki rəngli qısa şalvar və qolsuz köynək vardı.

Təəccübdən hər şey Uinstonun yadından çıxdı.

- Siz də buradasınız? - deyə soruşdu.

Parsons çevrilib Uinstona baxdı. Baxışlarında nə maraq, nə də təəccüb sezilirdi. Sadəcə, yazıqlıq, miskinlik hiss olunurdu. Əsəbi halda kamerada var-gəl etməyə başladı. Deyəsən, hələ də sakitləşə bilmirdi. Hər dəfə addımını atanda ətli dizlərinin necə titrədiyi aydın görünürdü. Geniş açılmış gözləri düz qabağa baxırdı. Elə bil baxışlarını uzaqdakı hansısa nöqtədən heç cür yayındıra bilmirdi.

- Sizi niyə həbs ediblər? - Uinston soruşdu.

- Fikir cinayətinə görə! - Parsons az qala ağlamsınaraq cavab verdi. Səsində dərin peşmançılıq, üstəlik də, bu dəhşətli kəlmənin özünə aid edilməsindən doğan qorxu və təəccüb sezilirdi. Uinstonun qarşısında dayanıb hərarətlə danışmağa başladı:

---

* İngilis dilində "God" - Allah, "rod" isə "əsa", "dəmir çubuq", "armatur", "qırmanc" və s. mənaları bildirir. Amplfort Allah sözünü yenilləşdirilmiş mətndə saxladığına və bununla da dini təbliğatla məşğul olduğuna görə ittiham edilir. ***Tərcüməçi.***

- Siz necə fikirləşirsiniz, Smit, onlar məni güllələyəcəklər? Əgər adamın çox böyük günahı yoxdursa, bizdə ümumiyyətlə heç kimi güllələmirlər, elə deyilmi. Yalnız fikirlərə görə... Amma fikrə əmr vermək mümkün deyil axı... İnanıram ki, mənə diqqətlə qulaq asacaqlar. Hər şeyi aydınlaşdıracaqlar. Buna əminəm. Yəqin ki, haqqımda hər cür məlumatları var. Necə adam olduğumu siz də yaxşı bilirsiniz. Hər halda, özümə görə pis adam sayılmamışam. Əlbəttə, böyük ağıl sahibi deyiləm. Amma işə can yandırmışam. Həmişə Partiya üçün əlimdən gələni etmişəm. Bəlkə, düz demirəm? Necə fikirləşirsiniz, beş illə canımı qurtara bilərəm? Yaxşı, lap olsun on il! Mənim kimi adamlar əmək düşərgəsində də böyük fayda gətirə bilərlər. Axı bircə dəfə ayağı büdrədiyinə görə adamı güllələməzlər.

- Özünüzü günahkar sayırsınız?

- Əlbəttə günahkaram! - Parsons teleekrana bacardığı qədər çox yarınmağa çalışaraq ucadan qışqırdı. - Siz necə düşünürsünüz, məgər Partiya günahsız adamı həbs edər? - Onun qurbağayabənzər sifəti sakitləşdi, hətta üzündə yüngülvari özündənrazılıq ifadəsi də peyda oldu. - Fikir cinayəti dəhşətli şeydir, dostum! - deyə sifətinə müdrik ifadə verməyə çalışaraq sözünə davam etdi. - Çox məkrli şeydir. Adamı elə yerdə yaxalayır ki, heç özünün də xəbərin olmur. Bilirsiniz, mən harada ilişmişəm? Yuxuda! Sizə olanı deyirəm. Harada olmuşamsa, yaxşı işləmişəm. Bacardığımı eləməyə çalışmışam. Heç vaxt da ağlıma gəlməyib ki, beynim belə zir-zibillə dolu ola bilər. Ən pisi də odur ki, bunları yuxuda danışırammış. Heç bilirsiniz, dilimdən hansı sözləri eşidiblər?

O, səsini alçaltdı, ağır xəstənin yanında onun diaqnozu barəsində həkimlə danışan adam kimi məhrəm pıçıltıya keçdi.

- Demişəm ki, "Rədd olsun Böyük Qardaş!". Gör bir dilimdən necə sözlər çıxıb! Həm də dəfələrlə təkrarlamışam. Amma öz aramızdır, dostum, bircə ona sevinirəm ki, məsələ çox böyüməmiş məni həbs eləyiblər. Bilirsiniz, tribunal qarşısına çıxanda nə demək istəyirəm? Deyəcəyəm ki, "Çox sağ olun!" Deyəcəyəm ki, "İş-işdən keçməmiş məni xilas etdiyinizə görə çox sağ olun!".

- Bəs sizi kim ələ verib? - deyə Uinston soruşdu.

- Balaca qızım! - Parsons kədər qarışıq qürurla dilləndi. - Açar deşiyindən mənə qulaq asırmış. Sözlərimi eşidib, ertəsi gün də birbaşa patrulların yanına gedib. Yeddi yaşlı soxulcan üçün çox da pis başlanğıc sayılmamalıdır, elə deyilmi? Fikirləşirsiniz ki, ondan incimişəm? Qətiyyən! Öksinə, fəxr edirəm. Qızımın bu hərəkəti bir daha göstərir ki, uşaqlarıma düzgün tərbiyə vermişəm.

Parsons bir neçə dəfə skamyada oturub yenə tələsik yerindən qalxdı. Paraşaya uzun-uzadı baxdı. Sonra əlinin bir hərəkəti ilə qısa şalvarını aşağı saldı.

- Bağışla, dostum! Daha dözə bilmirəm. Görünür, həyəcandandır.

Parsons iri dalını paraşaya basdı. Uinston əlləri ilə üzünü qapadı.

- Smit!-dərhal da teleekranəsəbi qışqırtı eşidildi. - Aıtmış-yetmiş doqquz, Smit U! Əlinizi sifətinizdən çəkin! Kamerada üzü qapamaq olmaz!"

Uinston əllərini aşağı saldı. Parsons uzun müddət və səs-küylə özünü boşaltdı. Sonra məlum oldu ki, paraşanın qapağı yaxşı bağlanmır. Kameranı bürümüş dəhşətli iy bir neçə saat çəkilmədi.

Parsonsu da apardılar. Kamerada bir ucdan yeni dustaqlar peyda olur və sirli şəkildə yoxa çıxırdılar. "101-ci otağa" çağırılan bir qadının bu sözləri eşidərkən necə büzüşüb yumağa döndüyü və rənginin ağappaq ağardığı Uinstonun diqqətindən yayınmadı. Vaxt isə keçirdi. Əgər onu kameraya səhər gətirmişdilərdə, indi axşamüstü olmalı idi. Əgər gündüz gətirmişdilərsə, onda gecə yarısıdır. Kamerada kişili-qadınlı altı dustaq qalmışdı. Heç kimdən səs-səmir çıxmırdı. Uinstonla üzbəüz uzun dişli və sanki çənəsi olmayan bir nəfər oturmuşdu. Sifəti eynən hansısa iri, amma ziyansız gəmiricini xatırladırdı. Ləkə basmış ətli ovurdları o qədər şişkin idi ki, istər-istəməz adamın fikrindən ağzında nə isə yeməli bir şey gizlətdiyi fikri keçirdi. İşıqlı, qonur gözləri qorxa-qorxa bir sifətdən o birinə zillənirdi. Amma kiminsə baxışları ilə rastlaşanda tez gözlərini yayındırırdı.

Qapı açıldı, kameraya yeni dustaq gətirdilər. Onu görəndə Uinstonun bədənindən soyuq gizilti keçdi. Yeni dustaq adi görünüşlü, ilk baxışdan o qədər də rəğbət doğurmayan adam idi. Tutulana qədər yəqin haradasa texnik, ya da mühəndis işləmişdi. Sifətindəki üzgünlüyə baxanda heyrətlənməmək olmurdu. Üzü qurumuş kəllə sümüyünü xatırladırdı. Arıqlıqdan ağzı ilə gözləri çox böyük görünürdü. Gözlərində kiməsə, yaxud nəyəsə öldürücü, qarşısıalınmaz nifrət həkk olunmuşdu.

Təzə dustaq Uinstondan bir az aralıda skamyada oturdu. Uinston ona baxmırdı. Amma sadəcə kəllə sümüyündən ibarət üzgün sifət gözlərinin qarşıından heç cür çəkimir, əzab verirdi. İşin nə yerdə olduğunu qəflətən anladı. Bu adam acından ölürdü. Deyəsən eyni fikir kameradakıların hamısının ağlına eyni anda gəlmişdi. Skamya boyu yüngül hərəkət sezildi. Çənəsiz adam gözaltı sifəti kəllə sümüyünə bənzəyən adama baxır, sonra günahkarcasına gözlərini yayındırır, dönüb təkrar bir də baxırdı. Sanki bu sifət qarşısıalınmaz qüvvə ilə onu özünə çəkirdi. Çənəsiz adam yerində qurcalandı, nəhayət ayağa qalxdı, bütün kameradan keçib sifəti kəllə sümüyünə bənzəyən adama yaxınlaşdı. Kombinezonunun cibində xeyli qurdalanandan sonra bir dilim çirkli çörək çıxarıb utana-utana ona uzatdı.

Teleekrandan dəhşətli, qulaqbatırıcı bağırtı eşidildi. Çənəsiz adam bir anda özünü arxaya atdı. Sifəti kəllə sümüyünə bənzəyən adam dərhal əllərini arxasında gizlətdi. Hərəkəti ilə təklif olunan çörəkdən imtina etdiyini teleekrana göstərmək istəyirdi.

- Bamsted! - teleekran bağırırdı. - İyirmi yeddi-otuz bir, Bamsted D. Çörəyi yerə atın!

Çənəsiz adam çörək dilimini döşəməyə tulladı.

- Dayandığınız yerdə durun! Üzünüzü qapıya çevirin! Tərpənməyin!

Çənəsiz adam əmrlərə tabe oldu. Şişkin yanaqlarının titrəməsini hec cür saxlaya bilmirdi. Qapı cingilti ilə açıldı. Gənc zabit içəri girib bir addım kənara çəkildi. Arxasında alçaq boylu, enli çiyinləri və qüvvətli qolları olan nəzarətçi dayanmışdı. Nəzarətçi məhbusun qarşısına keçdi, zabitin işarəsi ilə onun düz ağzının üstünə dəhşətli yumruq zərbəsi endirdi. Sanki bədəninin bütün ağırlığını bu zərbəyə qoymuşdu. Çənəsiz adamı elə bil top kimi havaya atdılar. Kamera boyu uçub paraşanın yanında döşəməyə sərildi. Bir müddət hərəkətsiz halda yıxıldığı yerdə uzanıb qaldı. Ağzından və burnunun dəliklərindən tünd qırmızı rəngli qatı qan axırdı. Deyəsən, huşunu itirmişdi. Asta-asta hıçqırır, bəlkə də inildəyirdi. Nəhayət qarnı üstə çevrildi, çətinliklə də olsa, dizlərinin və əllərinin üstündə dikəldi. Ağzından hələ də selik və qan axırdı, iki yerə parçalanmış protezi düz qarşısına düşmüşdü.

Məhbuslar hamısı əllərini dizlərinin üstünə qoyub səssis-səmirsiz oturmuşdular. Çənəsiz adam əvvəlki yerinə qayıtmışdı. Sifətinin bir tərəfi qap-qara qaralmışdı. Ağzı ortasında balaca qara dəlik görünən çəhrayı rəngli yöndəmsiz ət parçasına çevrilmişdi.

Arabir sifərindən kombinezonunun yaxasına qan damlaları düşürdü. Baxışlarında bayaqkından da çox günahkarlıq oxunurdu. Qonur gözləri növbə ilə kameradakıların sifətində dolaşırdı. Sanki hamının gözü qarşısında alçaldıldığına görə adamların ona nə qədər nifrət bəslədiklərini aydınlaşdırmaq istəyirdi.

Qapı açıldı. Zabit əlinin güclə sezilən hərəkəti ilə sifəti kəllə sümüyünə bənzəyən adamı göstərdi.

- 101-ci otağa! - dedi.

Uinstonun yaxınlığında kimsə içini çəkib yerində qurdalanmağa başladı. Skelet-adam əlləri bir-birinə sıxılmış halda dizi üstə döşəməyə çökdü.

- Yoldaş! Zabit!-deyə zarımağa başladı. - Yalvarıram, məni ora aparmayın. Bəyəm, hər şeyi açıb deməmişəm? Daha nə öyrənmək istəyirsiniz? Axı boynuma almalı heç bir günah qalmayıb. Sizə nə lazımdısa, deyim, bu dəqiqə etiraf etməyə, öz üstümə götürməyə hazıram. Nə istəyirsinizsə yazın, hər şeyin altından gözüyumulu qol çəkirəm. Amma 101-ci otağa aparmayın.

- 101-ci otağa! - zabit əmrini təkrarladı.

Məhbusun onsuz da kağız kimi avazımış sifəti Uinstonun indiyə qədər təsəvvürünə gətirmədiyi rəng aldı. İndi sifəti kəllə sümüyünə bənzəyən adamın sifəti açıq-aşkar yaşıl rəngə çalırdı.

- Başıma nə oyun istəyirsinizsə, açın! - deyə o, fəryad qoparırdı. Məni həftələrlə ac saxlamısınız. İşinizi başa çatdırın. Qoyun acından ölüm. Güllələyin! Asın! İyirmi beş il iş verin! Daha kimi satmağımızı istəyirsiniz? Sadəcə deyin, bütün istəklərinizi yerinə yetirməyə hazıram. Ələ verəcəyim adamın kimliyi, onun başına nə oyun açacağınız məni qəti maraqlandırmır. Arvadım, üç uşağım var. Böyüyünün altı yaşı hələ tamam olmayıb. Hamısını tutub gətirin. Gözümün qabağında başlarını kəsin. Sakitcə durub baxacağam. Amma məni 101-ci otağa aparmayın.

- 101-ci otağa! - zabit əmrini təkrarladı.

Skelet-adam hədəqədən çıxmış gözləri ilə digər məhbuslara baxdı. Sanki öz əvəzinə göndərməyə başqa qurban axtarırdı. Gözləri çənəsiz adamın əzilib qana bulaşmış sifətinə zilləndi. Əlini ona tərəf uzadıb təzədən yalvardı.

- Siz məni yox, bax onu aparmalısınız, - dedi. - Bayaq nəzarətçi yumruqla vuranda nə dediyini eşitmədiniz? Əgər imkan yaratsanız, hamısını sözbəsöz təkrarlamağa hazıram. Partiyanın əleyhinə çıxan odur, mən deyiləm.

Nəzarətçilər skelet-adama tərəf addımladılar. Onun yalvarışları qulaqbatıran çığırtıya çevrildi.

- Siz onun nə dediyini eşitmədiniz! - deyə qışqırmağa başladı. - Teleekran işləmirdi. Axtardığınız adam odur! Məni yox, onu aparın!

İki pəzəvəng nəzarətçi qollarından yapışmaq üçün ona yaxınlaşdılar. Sifəti kəllə sümüyünə bənzəyən adam özünü döşəməyə atıb əllərinin ikisi ilə də skamyanın dəmir ayaqlığından yapışdı. Daha heç bir söz demirdi, sadəcə heyvan kimi ulayır, bağırırdı. Nəzarətçilər ayaqlarından yapışdılar, dartıb skamyadan aralamaq istədilər. Skelet-adam heyrətamiz qüvvə ilə müqavimət göstərirdi. Dartışma iyirmi saniyəyə qədər çəkdi. Məhbuslar əllərini dizlərinin üstünə qoyub səssiz-səmirsiz oturmuşdular. Hamı düz qarşısına baxırdı. Daha bağırtı səsi eşidilmirdi. Skelet-adam bütün diqqətini skamyanın ayağından mümkün qədər bərk yapışmağa vermişdi. Amma birdən tamam başqa səs eşidildi. Bu, skelet-adamın nəzarətçinin nallı çəkmələrinin altında qırılan barmaqlarının xırçıltısı idi. Onu ayaqlarından dartıb kameradan bayıra sürüdülər.

- 101-ci otağa! - Zabit üçüncü dəfə əmrini təkrarladı.

Addımlarını güclə atan məhbusu apardılar. Başı sinəsinə düşmüşdü. Barmaqları qırılmış əli yanından sallanmışdı. Canında heç bir müqavimət gücü qalmamışdı.

Aradan xeyli vaxt keçdi. Skelet-adamı gecə aparmışdılarsa, indi səhər olmalı idi. Səhər aparmışdılarsa, axşama yaxınlaşırdı. Uinston tək idi. Artıq neçə saatdan bəri kamerada ondan başqa kimsə yoxdu. Dar skamyada oturmaqdan bütn bədəni ağrıyırdı, ona görə də arabir kamerada azacıq gəzişirdi. Hələ ki, teleekran üstünə qışqırmırdı. Çənəsiz adamın atdığı çörək parçası bayaqkı yerində idi. Əvvəlcə çörəyə baxmamaq üçün bütün gücünü səfərbər etməli olurdu. Sonra susuzluq hissi aclığa üstün gəldi. Ağzının içi yapışqan kimi idi. Zəhrimar dadırdı. Aramsız uğultudan və düz gözünün içinə vuran ağ işıqdan başı gicəllənirdi. Beynində boşluq yarandığını hiss edirdi. Yalnız sümüklərinə qədər işləyən ağrı dözülməz hal alanda ayağa dururdu. Amma hər an huşunu itirib yıxılacağından qorxduğu üçün dərhal da otururdu. Diqqəti fiziki ağrılardan yayınan kimi beynində dəhşətli fikirlər dolaşmağa başlayırdı. Bəzən get-gedə sönməkdə olan ümidlə O`Brayen və ülgüc haqqında fikirləşirdi. Fikirləşirdi ki, ülgücü çörəyin içində də ötürə bilərlər. Əgər ümumiyyətlə çörək versələr... Culiya haqqındakı fikirləri çox dumanlı idi. Bəlkə, haradasa qız ondan da çox iztirablara qatlaşmalı olurdu. Bəlkə, elə bu saniyələrdə işgəncəyə dözməyərək ağrıdan qışqırırdı. Uinston fikirləşməyə başladı: "Əgər payıma düşən əzabları ikiqat artırmaq şərti ilə Culiyanı xilas etmək imkanı yaransa idi, buna razılaşardımmı? Bəli, razılaşardım". Lakin bu daha çox ağlının diqtə etdiyi qərar idi. Uinston bir kişi kimi məhz həmin qərarı qəbul etməli olduğunu bildiyi üçün belə fikirləşirdi. Bu qərar hələ hisslərin sınağından çıxmamışdı. Belə yerdə ağrıdan və ağrının hər an yaxınlaşma qorxusundan başqa heç bir hiss olmur. Görəsən, ağrının əzablarını hiss etdiyin

halda hansısa səbəbə görə onun daha da şiddətlənməsinə razılıq vermək mümkündürmü? Uinston hələ bu suala cavab tapa bilməmişdi.

Yenə addım səsləri eşidildi. Qapı açıldı. O`Brayen içəri girdi.

Uinston sıçrayıb ayağa qalxdı. Heyrətdən hər cür ehtiyat hissi yadından çıxmışdı. Uzun illərdən bəri ilk dəfə teleekranın mövcudluğunu da unutmuşdu.

- Onlar sizi də ələ keçiriblər! - deyə qışqırdı.

- Onlar məni çoxdan ələ keçiriblər, - O`Brayen xəfif, az qala təəssüf bildirən kinayə ilə cavab verdi. O, bir addım kənara çəkildi. Arxasında əlində uzun, qara dəyənək tutmuş enlikürək nəzarətçi göründü.

- Siz belə olacağını bilirdiniz, Uinston, - O`Brayen sözünə davam etdi. Özünüzü aldatnayın. Siz bunu bilirdiniz. Həmişə bilmişdiniz.

Uinston həmişə, hər şeyi bildiyini indi anladı. Amma bu barədə fikirləşməyin yeri deyildi. Bu anlarda haqqında düşündüyü yeganə şey nəzarətçinin əlindəki dəyənək idi. Dəyənək zərbəsi harasına gəldi dəyə bilərdi: başına, sifətinə, çiyninə, dirsəyinə...

Düz dirsəyinə! Ağrıdan az qala iflic olmuş Uinston salamat əli ilə dirsəyindən yapışıb döşəməyə çökdü. Gözünün qarşısında hər şey sarı işığa büründü. Tək bircə zərbənin özü ilə bu qədər ağrı gətirməsi inanılmazdır! Inanılmazdır! Sarı qığılcımlar çəkilib getdi. Uinston başının üstündə dayanıb tamaşa edən iki nəfəri gördü. Nəzarətçi onun yerdə qıvrılmasından həzz alıb gülürdü. İndi ən azı üzərində düşündüyü sualların birinə cavab tapmışdı. Heç vaxt, heç nəyin xatirinə ağrı hissinin azacıq da olsun şiddətlənməsini istəməməlisən! Ağrı başlananda sənə yalnız bir hiss hakim kəsilir - o, tez çəkilib getməlidir! Dünyada fiziki ağrıdan pis heç nə yoxdur. "Ağrının önündə duruş gətirən qəhrəman yoxdur! Ağrıya qalib gələn qəhrəman ola bilməz!" - deyə Uinston əzilmiş dirsəyindən yapışıb döşəmədə qıvrıla-qıvrıla düşünürdü.

II FƏSİL

Uinston açılıb-yığılan çarpayıya bənzər bir yerdə uzanmışdı. Çarpayı saydığı şey çox hündür idi, həm də elə quraşdırılmışdı ki, əl-qolunu tərpətmək olmurdu. Kameradakından daha güclü görünən işıq düz sifətinə vururdu. O`Brayen böyründə dayanmışdı. Diqqətlə yuxarıdan aşağı ona baxırdı. Qarşı tərəfdə əlində şpris tutmuş ağ xalatlı bir nəfər görünürdü.

Hətta gözlərini açandan sonra da Uinston harada olduğunu dərhal anlaya bilmədi. Onda elə təəssürat vardı ki, bu otağa tamamilə fərqli dünyadan, çox-çox uzaqlarda yerləşən sualtı aləmdən üzə-üzə gəlib. Həmin xəyali aləmdə də nə qədər qaldığının isə fərqində deyildi. Həbs edildiyi andan nə gün işığı, nə də qaranlıq görmüşdü. Üstəlik xatirələrində də qırıqlıq yaranmışdı. Bəzi hallarda şüuru, - hətta yatmış vəziyyətdə olan şüur belə, - öz yerini boşluğa buraxaraq onu tamam tərk edirdi. Aradakı boşluğun bir gün, bir həftə, yoxsa cəmisi bir neçə saniyə çəkdiyini isə heç cür bilmək olmurdu.

Dirsəyinə ilk zərbə endirilən gündən həyatı cəhənnəmə çevrilmişdi. Başına açılan oyunların yalnız başlanğıc, bütün dustaqların keçdiyi ilkin istintaq hərəkətləri olduğunu sonradan anlamışdı. Hamı ənənəvi siyahı üzrə təqdim edilən cinayətlərdə iştirakını boynuna almalı idi. Bura casusluq, ziyankarlıq və digər oxşar cinayət əməlləri daxil idi. Etiraf tamamilə formal səciyyə daşıyırdı. Çünki istənilən halda işgəncə verilirdi. Uinston neçə dəfə döyüldüyünü, hər döyülmə mərasiminin nə qədər davam etdiyini yadına sala bilmirdi. Hər dəfə onunla beş, yaxud altı nəfər qara uniformalı nəzarətçi məşğul olurdu. Bəzən yumruqla, bəzən dəyənəklə, bəzən dəmir çubuqla döyürdülər. Bəzən isə sadəcə təpiklərinin altına salırdılar. Elə anlar olurdu ki, Uinston utanc hissini tamam itirərək döşəmədə uzanıb heyvan kimi bağırır, ilan kimi qıvrılaraq bitib-tükənmək bilməyən təpik zərbələrindən yayınmağa çalışırdı. Əvəzində isə daha çox təpik yeyirdi. Ağına-bozuna baxmadan hara gəldi vururdular. Qabırğasına, qarnına, dirsəklərinə, topuqlarına, qasığına, xayalarına, onurğa sütununa dəyən təpiklərdən az qala ağlını itirmək dərəcəsinə gəlirdi. Bəzən proses o qədər uzun çəkirdi ki,

Uinston onu belə qəddar, amansız üsullarla döydüklərinə görə nəzarətçilərə deyil, bütün bu müddət ərzində huşunu itirib bayılmadığına görə özünə əsəbiləşirdi. Bəzən əsəbləri elə tarıma çəkilirdi ki, hələ çırtma toxunmamış qışqırıb-yalvarır, aman diləyirdi. Belə hallarda nəzarətçinin zərbə endirmək üçün düyümlənən yumruğunu görməsi ağla gələn və gəlməyən bütün cinayətləri boynuna almasına kifayət edirdi. Bəzən heç nəyi boynuna almayacağına qəti qərar verirdi. Belə hallarda Uinstondan hər sözü kəlbətinlə çəkir, etiraflarını ağrının yaratdığı fəryadlar altında dinləyirdilər. Bəzən isə Uinston öz-özü ilə alverə girişir, əvvəlcədən şərt qoyurdu: "Boynuma alacağam, amma dərhal yox! Ağrı dözülməz həddə çatana qədər müqavimət göstərəcəyəm. Qoy üç zərbə, yox, iki zərbə də vursunlar. Sonra istədiklərinmin hamısını deyəcəyəm". Bəzən tərsliyinə salıb ayaq üstə qalmaq istədiyindən onu yıxılana qədər döyürdülər, sonra isə kartof kisəsi kimi kameranın daş döşəməsinə atırdılar. Özünə gəlməsi üçün bir neçə saat ara verəndən sonra təzədən döyməyə aparırdılar. Arada uzun fasilələr də olurdu. Amma belə fasilələri çətinliklə xatırlayırdı. Çünki ya bütün vaxtı yatır, ya da huşa getmiş vəziyyətdə olurdu. Yatacaq yeri ensiz taxtalardan düzəldilən, çox vaxt divara bağlı vəziyyətdə saxlanan kameranı, balaca çuqun əlüzyuyanı yaxşı xatırlayırdı. Yemək də yadında idi. İsti şorba ilə çörək verirdilər. Bəzən qəhvə də olurdu. Küt ülgüclə üzünü qırxan, arabir də saçlarını qayçılayan dəlləyin gəlişi də yaxşı yadında idi. İşgüzar görkəmli, amma hər şeyə laqeyd nəzərlərlə baxan ağ xalatlı adamların nəbzini yoxlamaları, təzyiqini ölçmələri, göz qapaqlarını qaldırıb baxmaları, kobud əlləri ilə bədəninin hər yerini əlləşdirib sınmış sümük axtarmaları, qollarına yuxu iynəsi vurmaları da yadında idi.

İndi nisbətən az döyürdülər. Amma çox hədələyirdilər. Deyirdilər ki, cavabları onları razı salmadığı andan etibarən bütün dəhşətlər daha pis formada yenidən təkrarlana bilər. İndi onu sorğu-suala tutanlar qara uniformalı quldurlar deyil, şüşələri parıldayan eynəklər taxmış cəld hərəkətli, balaca boylu, yup-yumru Partiya intellektualları idi. Onlar bir-birlərini əvəz edərək hər məhbusla on, bəzən hətta on iki saat fasiləsiz işləyirdilər. Uinston vaxt barəsində səhv də edə bilərdi. Amma sorğu-sualın uzunluğuna şübhə yox idi. Partiya araşdırıcıları onun həmişə az da olsa ağrı hissinin qorxusu altında yaşamasında maraqlı idilər. Amma ağrı əsas iş üsulları deyildi. Doğrudur, onlar da Uinstonun şapalaqlayır, qulaqlarını çəkir, saçını dartır, bir ayağı üstə dayanmağa məcbur edir, tualetə buraxmır, gözləri sulanana qədər üzünə gur işıq salırdılar. Lakin bütün bunlar fiziki ağrı verməkdən daha çox onu alçaltmaq, etiraz, yaxud mübahisə niyyətinin qarşısını almaq məqsədi güdürdü. Onların əsl silahı saatlarla arası kəsilmədən davam edən amansız istintaq idi. Uinston əsəb gərginliyindən daha çox xəcalətdən zar-zar ağlayana qədər onu dolaşdırırdılar, dilindən tutub tələyə salırdılar, sözlərini istədikləri şəkildə yozurdular, yalanlarını üzə çıxarırdılar, özü-özünə zidd getdiyini sübuta yetirirdilər. Bəzən bir istintaq ərzində beş-altı dəfə ağladığı vaxtlar olurdu. Çox vaxt kobudluqla üstünə qışqırır, cavab verərkən azacıq duruxduğu, yaxud tərəddüd etdiyi anlarda təzədən qara uniformalı nəzarətçilərin yanına göndərəcəkləri ilə hədələyirdilər. Bəzən isə gözlənilmədən rəftarlarını dəyişirdilər. Uinstona "yoldaş" deyirdilər, İngsos prinsiplərinə və Böyük Qardaşın adına and verərək kədərli ahənglə başına bunca müsibətlər gələndən sonra da Partiyaya sədaqətini dilə gətirməməsinin, vurduğu ziyanı anlamamasının səbəblərini soruşurdular. Saatlarla çəkən istintaqın üzüb əldən saldığı əsəbləri davam gətirmirdi. Nəticədə Uinston yenə də göz yaşları axıtmaqdan özünü saxlaya bilmirdi. Sonda beynini deşən bu aramsız səslər onu nəzarətçilərin yumruq və təpiklərindən daha pis sındırdılar. Tələb olunan hər sözü danışan ağıza, istənilən hər kağızı imzalayan ələ çevrildi. Yeganə qayğısı onların hansı etirafı gözlədiklərini qabaqcadan fikirləşib tapmaq, tənə və töhmətlər başlanmamışdan əvvəl hər şeyi boynuna almaq idi. Artıq Partiyanın görkəmli xadimlərini qətlə yetirdiyini, təxribat xarakterli kitabçalar yaydığını, ictimai fondları talad ığını, hərbi sirləri düşmənə satdığını, ziyankarlıq əməlləri törətdiyini və s. boynuna almışdı. Hələ 1968-ci ildən əvvəl İstasiya hökumətinə muzdlu casusluq etdiyini, dinə inandığını, kapitalizm heyranı olduğunu və pozğun həyat tərzi keçirdiyini bildirmişdi. Arvadının yaşadığını və Partiya müstəntiqlərinin də bundan xəbəri olduqlarını bildiyi halda Ketrini öldürdüyünü etiraf etmişdi. Boynuna almışdı ki, uzun illərdən bəri Qoldsteynlə şəxsi əlaqə saxlayır, onun yaratdığı gizli cəmiyyətin üzvüdür, tanıdığı adamları da həmin cəmiyyətin üzvləri sırasına daxil olmağa təşviq edib. Ən asan yol hər şeyi boynuna almaq, hamını ələ vermək idi. Əslində ortada hansısa yanlışlıqdan da söhbət gedə bilməzdi. O, həqiqətən Partiyanın düşməni olmuşdu. Partiya isə fikirlə əməl arasında heç bir fərq görmürdü.

Başqa xatirələri də vardı. Amma düşüncəsində onları bir-birləri ilə bağlaya bilmirdi. Qara dairələrə alınmış adda-budda şəkillərə bənzəyirdilər.

Saxlandığı kameranın işıqlı, yoxsa qaranlıq olduğunun fərqində deyildi. Çünki bir cüt gözdən başq heç nə görmürdü. Yaxınlığında hansısa cihaz asta-asta və aramsız çıqqıldayırdı. Gözlər get-gedə böyüyür və işıqlanırdı. Birdən oturduğu yerdən havaya qalxdı, gözlərin dərinliyinə baş vurdu. Gözlər onu dərhal uddular.

Gözqamaşdırıcı işığın altında hər tərəfi siferblatlarla dolu kresloya bağlanmışdı. Ağ xalatlı adam diqqətlə siferblatların göstəricilərini öyrənirdi. Bayırdan ağır çəkmələrin tappıltısı eşidildi. Qapı cingilti ilə açıldı. Mum sifətli cavan zabit iki nəzarətçinin əhatəsində içəri girdi.

- 101-ci otağa! - deyə zabit əmr verdi.

Ağ xalatlı adam çevrilib onlara baxmadı. Heç Uinstona da baxmadı. O, yalnız sferblatın əqrəblərinə baxırdı.

Uinstonun kreslosunu azı bir kilometr enliliyində, ecazkar qızılımtıl işıq seli ilə dolmuş nəhəng koridorla aparırdılar. O isə qəhqəhə ilə gülür və var səsi ilə cinayətlərini etiraf edirdi. Hər şeyi, hətta işgəncə altında demədiklərini də boynuna alırdı. Hamının hər şeydən xəbəri olsa da, başına toplaşmış adamlara həyat tarixçəsini əvvəldən axıra qədər danışırdı. Nəzarətçilər, Partiya müstəntiqləri, ağ xalatlı adamlar, O'Brayen, Culiya, mister Çarrinqton - hamısı koridora toplaşmışdılar, bərkdən danışıb gülürdülər. Gələcəkdə manea kimi qarşısını kəsəcək hansısa çətinliyi dəf edə bilmiş, ona qarşı hazırlanan bəd niyyətlər baş tutmamışdı. Hər şey qaydasında idi. Daha ağrı yox idi. Həyatının sonuncu təfərrüatı da aydınlaşmışdı, aşkarlanmışdı. O, əfv edilmişdi!

Uinston O'Brayenin səsini eşitdiyini güman edib kreslodan qalxmağa çalışdı. İstintaq müddətində O'Brayeni heç vaxt görməsə də, onun həmişə gözə görünmədən lap yaxınlıqda olduğunu hiss edirdi. Nəzarətçiləri Uinstonun üstünə salan da, sonda öldürülməsinin qarşısını alan da O'Brayen idi. Uinstonun ağrıdan nə zaman qışqırmalı olduğuna o qərar verirdi. İstintaqa nə zaman ara verilməsi, nə zaman yeməsi və yatması, qoluna nə zaman iynə vurulması - hamısı O'Brayenin hökmünə bağlı idi. Qarşıya sual qoyan da, cavabları təklif edən o idi. İşgəncə verən də, müdafiə eləyən də, cəllad kəsilən də, dost olan da o idi! Bir dəfə isə, - Uinston həmin sözləri dərmanın təsiri altında qaldığı, həqiqətən yatdığı, yoxsa oyaq olduğu vaxt eşitdiyini xatırlaya bilmirdi, - bir səs yavaşcadan qulağına pıçıldamışdı: "Harahat olmayın, Uinston. Burada mənim himayəmdəsiniz. Yeddi il sizə göz qoymuşam. İndi sınaq anı gəlib çatıb. Mən sizi xilas edəcəyəm. Mən sizi mükəmməl insana çevirəcəyəm". Eşigtdiyi səsin sahibinin O' Brayen olduğuna qəti əmin deyildi. Lakin eyni səs yeddi il əvvəl başqa bir yuxuda ona "Biz heç zaman qaranlıq olmayan yerdə görüşəcəyik!" - demişdi.

İstintaqın bitib-bitmədiyini xatırlamırdı. Arada elə bil qatı zülmət işərisinə düşmüşdü. Sonra indi saxlandığı kamera, yaxud otaq bu zülmətin içindən tədricən ortaya çıxdı. Arxası üstə uzanmışdı. Hərəkət edə bilmirdi. Bədəninin idarə oluna biləcək bütün hissələri möhkəm bağlanmışdı. Hətta başının arxasını da hansısa üsulla yatağa bərkitmişdilər. O'Brayen dayanıb yuxarıdan aşağı ona baxırdı. Gözlərində təəssüf , hətta kədər ifadəsi vardı. Aşağıdan baxanda şişmiş göz qapaqları və ağzının kənarlarından çənəsinə doğru uzanan qırışlar O'Brayeni həm yorğun, həm də eybəcər göstərirdi. Uinstonun düşündüyündən daha yaşlı təsir bağışlayırdı. Qırx səkkiz, bəlkə də əlli yaş vermək olardı. Əli müxtəlif şkala və rəqəmlərlə dolu hansısa cihazın dəstəyində idi.

- Mən sizə demişdim, - üzünü Uinstona tutdu, - yenidən görüşməli olsaq, burada görüşəcəyik.

- Elədir, - deyə Uinston cavab verdi.

O`Brayenin əlinin yüngül hərəkəti hesaba alınmasa, heç bir xəbərdarlıq edilmədən Uinstonun bədəninə ağrı seli axdı. Ağrı qorxunc idi. Uinston başına nə oyun açıldığından xəbərsiz idi. Amma indiyə qədər görmədiyi dəhşətli işgəncəyə məruz qaldığını hiss edirdi. Bütün bunların həqiqətən də baş verdiyini, yoxsa şiddətli elektrik cərəyanının yaratdığı qarabasma olduğunu kəsdirə bilmirdi. Lakin bədəni elə bil öz formasını itirir, əli-ayağı gövdəsindən asta-asta ayrılaraq qırılırdı. Ağrıdan alnında tər muncuqlamışdı. Ən çox qorxduğu şey fəqərə sütununun qırılması idi. Dişlərini bir-birinə sıxaraq çətinliklə burnundan nəfəs alırdı. Dözə biləcəyi ana qədər qışqırmamağa qərar vermişdi.

- Qorxursunuz ki, - gözünü ondan çəkməyən O`Brayen dilləndi, - bu dəqiqə nə isə sınacaq. Ən çox fəqərə sütununuzun qırılmasından qorxursunuz. Əminəm ki, mənzərəni kifayət qədər aydın təsəvvür edirsiniz. Fəqərə sütununu təşkil edən qığırdaqlar bir-birindən qopub ayrılır, onların arasından isə onurğa beyini süzülüb axır. Düzünü deyin, Uinston, siz bu barədəmi düşünürdünüz?

Uinston cavab vermədi. O`Brayen dəstəyi geri fırlatdı. Ağrı dalğası qəfil gəldiyi kimi qəfil də çəkildi.

- Qırx dərəcəyə qədər qalxmışdıq, - O`Brayen izahat verməyə başladı. - Görürsünüz, şkala yüz dərəcəlidir. Lütfən, söhbətimiz zamanı sizə istədiyim vaxt və istədiyim dərəcədə ağrı vermək imkanımın olduğunu yadınızdan çıxarmayın. Əgər yalan danışsanız, cavab verməkdən boyun qaçırsanız, yaxud ümumi əqli qabiliyyətinizin səviyyəsi ilə müqayisədə səfeh təsir bağışlayan sözlər danışsanız, bir an içində ağrıdan qışqırmalı olacaqsınız. Nə dediyimi başa düşürsünüz?

- Bəli, - deyə Uinston cavab verdi.

O`Brayen əvvəlki kimi amansız deyildi. Fikirli-fikirli eynəyini düzəltdi, otaqda var-gəl etməyə başladı. Danışanda səsi daha sakit və yumşaq çıxırdı. İndi o, cəzalandırmaq deyil, inandırmaq istəyən həkimə, müəllimə, hətta keşişə bənzəyirdi.

- Mən sizə görə narahatam, Uinston, - deyə təzədən sözə başladı, - çünki bu narahatlığa dəyərsiniz. İşin nə yerdə olduğunu çox gözəl başa düşürsünüz. Uzun illərdir ki, sizin hər şeydən xəbəriniz var, lakin bütün bu illər ərzində şüurlu olaraq bildiklərinizə qarşı vuruşmusunuz. Siz psixi cəhətdən xəstəsiniz. Yaddaş pozulmasından əziyyət çəkirsiniz. Gerçək hadisələri xatırlamaq iqtidarında deyilsiniz. Əvəzində isə özünüzü heç zaman baş verməyən şeyləri xatırladığınıza inandırırsınız. Xoşbəxtlikdən, bu, müalicəsi mümkün olan xəstəlikdir. Amma siz heç vaxt müalicə olunmaq istəməmisiniz. Çünki sağalmaq yolunu seçməkdən boyun qaçırmısınız. Kiçik bir cəhd kifayət idi. Siz isə bunu istəmədiniz. Hətta indi də xəstəliyinizi böyük fəzilət sayaraq ondan dörd əlli yapışdığınıza qəti əminəm. Bu dəqiqə sizi kiçik bir imtahana çəkəcəyəm. Deyin görüm, hazırda Okeaniya hansı ölkə ilə müharibə aparır?

- Mən həbs olunanda Okeaniya İstasiya ilə müharibə edirdi.

- İstasiya ilə. Yaxşı. Okeaniya həmişə İstasiya ilə müharibə vəziyyətində olub, elə deyilmi?

Uinston dərindən nəfəs aldı. Cavab vermək üçün ağzını açdı, amma dərhal da dayandı. Gözlərini cihazın əqrəbindən çəkə bilmirdi.

- Lütfən, Uinston, həqiqəti deyin. Öz inandığınız həqiqəti. Yaxşı, bu məsələ ilə bağlı daha nə xatırlayırsınız?

- Yadımdadır ki, mənim həbsimdən bir həftə əvvələ qədər biz Istasiya ilə qətiyyən müharibə etmirdik. Bu ölkə ilə müttəfiq idik. Müharibə Avrasiya ilə aparılırdı. Həmin müharibə dörd il çəkdi. Daha əvvəl isə..

O`Brayen əlinin hərəkəti ilə onu dayandırdı.

- Başqa misal, - dedi. - Bir neçə il qabaq siz həqiqətən də çox yanlış olan bir fikrə düşmüşdünüz. Haradansa beyninizə girmişdi ki, Partiyanın üç keçmiş üzvü - özləri bütün günahlarını boyunlarına alandan sonra xəyanət və təxribatçılıq fəaliyyətinə görə edam olunan Cons, Aronson və Rezerford cinayət məsuliyyəti-

nə cəlb edildikləri iş üzrə günahsızdırlar. İnanırdınız ki, onların etiraflarının saxtalığını sübuta yetirən hansısa çox mühüm və dəqiq sənəd görmüsünüz. Hətta gözünüzə hansısa bir fotoşəkil görünmüşdü. Inanırdınız ki, onu əlinizdə tutmusunuz. Məsələn, buna bənzər bir şəkil...

O`Brayenin barmaqları arasında uzunsov qəzet parçası göründü. Onu təxminən beş saniyə Uinstonun gözlərinin qarşısında tutdu. Şübhəyə heç bir yer yox idi. Eynən həmin foto-şəkil idi. On bir il əvvəl təsadüfən aldığı və dərhal da məhv etdiyi, Jonsun, Aronson və Rezerfordun Nyu-Yorkda, hansısa partiya təntənələrində çəkilmiş şəklinin surəti idi.. O, yalnız bir anlığına Uinstonun gözləri önündə olmuşdu, sonra həmişəlik yoxa çıxmışdı. Lakin Uinston o şəkli görmüşdü. Şübhəsiz, görmüşdü! Uinston ümidsiz halda, can çəkişirmiş kimi başını azacıq yuxarı qaldırmaq istədi. Amma heç bir tərəfə yarım santimetr də tərpənə bilmədi. Bir anlığa hətta cihazın şkalasını da unutmuşdu. Yeganə istəyi şəkli yenidən barmaqları arasında tutmaq, heç olmazsa, bir anlığa ona baxmaq idi.

- Deməli, şəkil qalır! - deyə qışqırdı.

- Yoxdur!

O`Brayen kreslodan aralandı. Qarşı tərəfdəki divarda yaddaş qutusu vardı. Qutunun qapağını qaldırdı. Gözəgörünməz hava axını nazik, uzunsov qəzet parçasını sorub apardı. Alovun odlu ağzı onu həmişəlik uddu. O`Brayen əvvəlki yerinə qayıtdı.

- Külə döndü, - dedi. - Küldə isə heç nə tapa bilməzsən. Sadəcə kül tozu! Foto-şəkil yoxdur. Heç vaxt olmayıb.

- Olub! İndi də var. Yaddaşda yaşayır. Xatirədə yaşayır. Mən o şəkli xatırlayıram. Siz xatırlayırsınız.

- Mən heç nə xatırlamıram, - deyə O`Brayen cavab verdi.

Uinston ürəyində boşluq hiss etdi. Bu - ikifikirlilikdir. Öldürücü köməksizlik hissi şüuruna hakim kəsildi. O`Brayenin yalan danışdığına əmin olsaydı, heç nəyə əhəmiyyət verməzdi. Amma O`Brayenin belə bir foto-şəklin mövcudluğunu yaddan çıxarması tamamilə mümkün idi. Belədirsə, deməli, şəkli xatırladığını inkar etməsini də unudub. Deməli, bunu unutduğunu da unudub. Kim bunun sadəcə fokus olduğuna inana bilərdi? Bəlkə həqiqətən də beyində belə bir ağılsız yerdəyişmə baş vermişdir? Gəldiyi qənaət Uinstonu tamam ruhdan saldı.

O`Brayen də fikrə dalmışdı. O, indi həmişəkindən daha çox öz qabiliyyətli, ancaq sözə baxmayan şagirdinin əməllərindən iztirab çəkən müəllimi xatırladırdı. O` Brayen üzünü Uinstona çevirdi.

- Keçmişə nəzarətlə bağlı Partiya şüarı var, - dedi. - Zəhmət olmazsa, onu təkrarlayın.

- "Kim keçmişə nəzarət edirsə, o gələcəyə nəzarət edir. Kim bu günə nəzarət edirsə, o keçmişə də nəzarət edir", - deyə Uinston itaətkarlıqla şüarı təkrarladı

- "Kim bu günə nəzarət edirsə, o keçmişə də nəzarət edir", - O`Brayen razılıqla başını tərpətdi. - Yaxşı, Uinston siz keçmişin həqiqətən də mövcud olduğunu düşünürsünüz?

Köməksizlik hissi yenidən Uinstonun şüuruna hakim kəsildi. Gözünü çevirib cihazın əqrəblərinə baxdı. Hansı cavabın - "bəli"nin, yoxsa "xeyr"in onu ağrıdan xilas edəcəyinə əmin olmaması bir yana qalsın, hansı cavabı düzgün saydığını heç özü də bilmirdi.

O`Brayen xəfifcə gülümsündü.

- Sizin metafizikadan xəbəriniz yoxdur, Uinston. İndiyə qədər "mövcud olmaq" anlayışının mənası üzərində bir dəfə də düşünməmisiniz. Fikrimi daha aydın ifadə etməyə çalışıram. Keçmiş konkret məkan daxilində mövcuddurmu? Elə bir yer, fiziki obyektlərin elə bir dünyası varmı ki, orada keçmiş indi də yaşasın, davam etsin?

- Yox.

- Əgər keçmiş mövcuddursa, bəs onda harada mövcuddur?

- Sənədlərdə. Yazılı sənədlərdə.

- Sənədlərdə. Sonra harada?

- Ağılda. İnsan yaddaşında.
- Yaddaşda. Çox yaxşı. Partiya bütün sənədləri nəzarətdə saxlayır, bütün yaddaşlara nəzarət edir. Deməli, biz həm də keçmişə nəzarət edirik, elə deyilmi?
- Siz adamların nəyi isə xatırlamalarının qarşısını necə ala bilərsiniz? - Uinston yenə də bir anlığa cihazın əqrəblərini yaddan çıxararaq bərkdən qışqırdı. - Axı, bu insanın iradəsindən kənar hərəkətdir. Heç kimdən asılı deyil. Axı siz yaddaşa necə nəzarət edə bilərsiniz? Məsələn, mənim yaddaşıma nəzarət edə bilməzsiniz.

O'Brayenin sifəti yenidən sərtləşdi. Əlini dəstəyin üstünə qoydu.

- Əksinə, - dedi. - Siz öz yaddaşınıza nəzarət edə bilmirsiniz. Ona görə də bura gəlib düşmüsünüz. Ona görə buradasınız ki, özünüzdə itaətkarlıq və daxili intizam tərbiyə edə bilməmisiniz. Sağlam ağlın əsas göstəricisi olan tabeçilik duyğusuna yiyələnə bilməmisiniz. Siz xəyalpərvərliyə qurşanmağı, azlıqda qalmağı daha üstün tutdunuz. Yalnız sərt intizama tabe tutulan ağıl gerçəkliyi görə bilər, Uinston! Siz gerçəkliyin nə isə obyektiv, zahiri, özlüyündə mövcud bir şey olduğuna inanırsınız. Siz eyni zamanda gerçəkliyin mahiyyət etibarı ilə aydın və anlaşılan olduğunu düşünürsünüz. Aldanış hissinin təsiri altında nəyi isə gördüyünüzü güman edəndə bütün qalan adamların da sizin kimi eyni şeyi gördüklərini düşünürsünüz. Amma mən sizə deyirəm, Uinston, gerçəklik qətiyyən zahirdə mövcud deyil. Gerçəklik insan şüurundan başqa heç yerdə mövcud ola bilməz! Həm də gerçəklik daim səhvlərə yol verən və qısa müddətdən sonra ölüb gedən fərdi şüurda deyil, Partiyanın əbədi və kollektiv şüurunda mövcuddur. Partiya nəyi həqiqət sayırsa - həqiqət odur! Gerçəkliyə Partiyanın nəzərləri ilə baxmaqdan başqa ikinci yanaşma tərzi ola bilməz! Yenidən öyrənməli olduğunuz əsas mətləb budur, Uinston! Öyrənmək üçün isə özünüzü daxildən sındırmalısınız, istək və iradə nümayiş etdirməlisiniz. Sağlam ağıla qovuşmamışdan əvvəl özünüzü yenməyi, itaət göstərməyi bacarmalısınız.

O'Brayen sanki dediklərinin mənasının Uinstona çatmasını gözləyərək sözlərinə bir müddət ara verdi.

- Yadınızdadır, - deyə söhbətini davam etdirdi, - gündəliyinizə yazmışdınız ki, "Azadlıq iki üstəgəl ikinin dördə bərabər olduğunu demək haqqıdır".
- Yadımdadır. - Uinston cavab verdi.

O'Brayen sol əlini yuxarı qaldırdı, baş barmağını ovcunun içində gizlədib dörd barmağını Uinstona göstərdi.

- Əlimdə neçə barmaq var, Uinston?
- Dörd.
- Əgər Partiya desə ki, onlar dörd deyil, beşdir, onda neçə barmaq olacaq?
- Dörd...

Dəhşətli ağrı sözünü ağzında yarımçıq qoydu. Cihazın əqrəbi əlli beşin üstündə dayanmışdı. Uinstonun bütün bədənini tər bürümüşdü. Hava seli sanki ciyərini parçalayır, hər dəfə nəfəs alıb-verməsi dəhşətli fəryadlarla müşayiət olunurdu. Dişlərini biri-birinə saxsa da, qışqırmağının qarşısını heç cür ala bilmirdi. O'Brayen gözlərini ondan çəkmirdi, sol əlinin dörd barmağı isə, hələ də havada idi. Axır ki, dəstəyi geri çəkdi. Ağrı yüngülcə də olsa, səngidi.

- Barmaqların sayı neçədir, Uinston?
- Dörd.

Əqrəb altmış rəqəminin üzərində dayandı.

- Barmaqların sayı neçədir, Uinston?
- Dörd? Dörd! Axı başqa nə deyə bilərəm? Dörd barmaq görürəm.

Əqrəb yəqin ki, bir az da yuxarı qalxmışdı. Amma Uinston daha cihaza baxmırdı. Yalnız O'Brayenin ağır, sərt üzünü, bir də havada oynayan barmaqlarını görürdü. Barmaqlar gözlərinin qabağında uca, nəhəng sütunlar kimi dayanmışdı. Onlar sanki titrəyirdilər, biri-birinin üstünə gəlirdilər. Amma sayları yenə dörddən çox deyildi.

- Burada neçə barmaq var, Uinston?
- Dörd. Dayandırın onu! Dayandırın! Sizdə heç insaf yoxdur? Dörd! Dörd!
- Barmaqların sayı neçədir, Uinston?

- Beş! Beş! Beş!
- Yox, Uinston, səyiniz əbəsdir! Yalan danışırsınız. Ürəyinizdə dörd olduğunu düşünürsünüz. Bir də soruşuram: barmaqların sayı neçədir?
- Dörd. Beş. Dörd! Sizin istədiyiniz qədər! Xahiş edirəm, dayandırın! Məni bu əzabdan qurtarın!

İndi Uinstona dikəlib yerində oturmuşdu, O'Brayen əlini onun çiyninə qoymuşdu. Deyəsən, arada bir neçə saniyəliyə huşunu itirmişdi. Bədənini sıxan ilmələr bir az boşaldılmışdı. Çox soyuq idi, Uinston tir-tir titrəyirdi. Dişləri birbirinə dəyib şaqqıldayır, sifətindən göz yaşları axırdı. Bir anlığa uşaq atasına sığınan kimi O'Brayenə qısıldı. Çiyninə qoyulmuş kobud əl ürəyinə toxtaqlıq gətirdi. Uinston düşündü ki, yeganə himayəçisi O'Brayendir. Ağrı haradansa tamam kənardan, başqa mənbədən göndərilir. Onu əzabdan qurtarsa, yalnız O'Brayen qurtaracaq.

- Siz zəif şagirdsiniz, Uinston. - deyə, O'Brayen nəzakətlə onu məzəmmət etməyə başladı.
- Axı mən nə edim? - Uinston hıçqıra-hıçqıra deyirdi. - Gözümün önündə olanı necə görməyə bilərəm? İki üstə gəl iki dörd eləyir.
- Bəzən dörd eləyir, Uinston. Bəzən beş eləyir. Bəzən üçə bərabər olur. Bəzən isə neçə tələb olunursa, o qədər də eləyir. Gərək daha möhkəm çalışasınız. Sağlam ağla malik olmaq o qədər də asan iş deyil.

O, Uinstonu yerinə uzatdı. Bədənindəki ilmələr yenə bərkidildi. Amma ağrı asta-asta çəkilirdi. Titrətməsi dayanmışdı. Yalnız yüngülcə üşütmə, bir də zəiflik hiss edirdi. O'Brayen bayaqdan bəri hərəkətsiz dayanmış ağ xalatlı adama başı ilə işarə etdi. Ağ xalatlı aşağı əyilib diqqətlə Uinstonun gözlərinə baxdı, nəbzini yoxladı, qulağını sinəsinə söykəyib barmaqlarının ucu ilə bədəninin ora-burasını döyəclədi. Sonra O'Brayenə baxıb başını tərpətdi.

- Bir də, - deyə O'Brayen göstəriş verdi.

Uinstonun bədəninə ağrı seli axdı. Əqrəb, yəqin ki, yetmişin, bəlkə də yetmiş beşin üzərində idi. Uinston gözlərini yummuşdu. Bilirdi ki, O'Brayenin barmaqları düz qarşısındadır, sayı da dörddür. Əsas məsələ bu dəfəki ağrını da bir təhər sovuşdurmaq idi. Artıq qışqırıb-qışqırmadığının fərqində deyildi. Ağrı yenə birdən yavaşıdı. Uinston gözlərini açdı. O'Brayen cihazın dəstəyini geri fırladırdı.

- Barmaqların sayı neçədir, Uinston?
- Dörd. Güman edirəm ki, dörddür. Bacarsam, beş görərdim. Beş barmaq görmək üçün çalışıram.
- İstəyiniz nədir? Məni beş barmaq gördüyünüzə inandırmağa çalışırsınız, yoxsa həqiqətən də barmaqları beş görməyə çalışırsınız?
- Həqiqətən də o cür görmək istəyirəm.
- Elə isə, bir daha sınayaq! - O'Brayen əmr verdi.

Əqrəb bu dəfə azı səksənin, bəlkə də doxsanın üzərində olmalı idi. İndi Uinston ağrını yalnız kəsik-kəsik hiss edirdi. Biri-birinə sıxılmış göz qapaqlarının arxasında bütöv barmaq meşəsi rəqsə başlamışdı. Onlar gah sıxlaşır, gah da seyrəlirdi. Bir-birinin arxasında görünməz olur, sonra təzədən aşkara çıxırdılar. Uinston səbəbini özü də bilmədən onları saymaq istəyirdi. Lakin dördlə beş arasındakı qəribə, sirli eyniyyətə görə barmaqların hesabını aparmağın heç cür mümkün olmadığını başa düşürdü. Ağrı yenə birdən-birə sakitləşdi. Uinston gözlərini açanda bayaq gördüyü mənzərə ilə qarşılaşdı. Saysız-hesabsız barmaqlar hərəkət eləyən ağaclar kimi biri-birinin qarşısına keçir, sonra təzədən ayrılırdılar. Gözünü yummaqdan başqa çarəsi qalmadı.

- İndi neçə barmaq görürsünüz, Uinston?
- Bilmirəm. Bilmirəm. Əgər cihazı bir də qoşsanız, məni öldürəcəksiniz. Dörd, beş, altı... həqiqətən bilmirəm.
- İndi daha yaxşıdır! - deyə O'Brayen dilləndi.

Uinstonun qoluna iynə vurdular. Dərhal da bütün bədəninə xoş, sərməstedici istilik yayıldı. Ağrı hissi, demək olar ki, unudulmuşdu. Gözlərini açıb minnətdarlıqla O' Brayenə baxdı. Zəhmli, bəzi yerlərdə qırış kəsmiş, həm ağıl ziyası ilə işıqlanmış, həm də eyni dərəcədə eybəcər sifəti görəndə Uinstonun ürəyi

minnətdarlıq hissi ilə çırpındı. Tərpənmək imkanı olsaydı, mütləq əlini uzadıb O'Brayenin əllərinə toxunardı. Heç vaxt onu indiki qədər ürəkdən sevməmişdi. Məsələ təkcə işgəncənin dayandırılmasında deyildi. O'Brayenin dost, yaxud düşmən olmasının elə bir önəm daşımaması haqqındakı köhnə fikirləri yenidən yadına düşdü. O'Brayen elə adam idi ki, onunla hər şey barəsində danışmaq olardı. Bəlkə də insan sevilməkdən daha çox başa düşülməyə möhtacdır. O'Brayen ona insanı dəli olmaq dərəcəsinə çatdıran işgəncə verirdi. Azacıq da davam etsə, o biri dünyaya göndərəcəkdi. Amma bu elə də əhəmiyyətli deyil. Müəyyən mənada onların münasibətləri dostluqdan daha dərin idi. Onlar ruhən yaxın idilər. Nə vaxtsa, haradasa sözləri bərkdən deməyə ehtiyac duymadan görüşüb hər şey haqqında danışa bilərdilər. O'Brayen Uinstonun başı üstündə dayanıb elə ifadə ilə baxırdı ki, sanki bu dəqiqə o da eyni şeyləri düşünür. Sözə başlayanda səsinin sakit, barışdırıcı tonu aşkara çıxdı.

- Siz harada olduğunuzu bilirsinizmi, Uinston?
- Bilmirəm. Sadəcə təxmin edirəm. Yəqin ki, Sevgi Nazirliyindəyəm.
- Burada nə qədər qaldığınızdan xəbəriniz var?
- Bilmirəm. Bəlkə neçə gün, neçə həftə, neçə ay... Yəqin bir neçə ay olar.
- Necə düşünürsünüz, biz adamları niyə bura gətiririk?
- Yəqin, günahlarını boyunlarına almaları üçün.
- Yox, bu elə də ciddi səbəb deyil. Yaxşı-yaxşı fikirləşin.
- Cəzalandırmaq üçün.
- Yox! - deyə O'Brayen qışqırdı. Səsi tanınmaz dərəcədə dəyişildi, sifəti isə yenidən sərt və əsəbi görkəm aldı. - Yox! Sizi nə etiraflarınızı dinləmək, nə də cəzalandırmaq üçün bura gətiririk. İstəyirsiniz nə üçün gətirildiyinizin səbəbini izah edim? Müalicə etmək üçün! Sağlam ağıl sahibinə çevirmək üçün! Başa düşürsünüzmü, Uinston, yolu bura düşən bir nəfər də bizim əlimizdən müalicə olunmamış qurtara bilməz. Törətdiyiniz sarsaq cinayətlər bizi qətiyyən maraqlandırmır. Aşkar düşmənçilik Partiyanı narahat etmir. Əsas əndişəmiz insanların beynindəki fikirlərlə bağlıdır! Biz düşmənlərimizi öldürmürük, onların beyinlərini dəyişirik. Nə dediyimi başa düşürsünüz?

O, Uinstonun üzərinə əyildi. Çox yaxın olduğuna görə sifəti daha iri görünürdü, aşağıdan baxanda isə daha eybəcər təsir bağışlayırdı. Bu sifətə anlaşılmaz coşqunluq və dəlicəsinə inadkarlıq ifadəsi həkk olunmuşdu. Uinstonun ürəyi yenə sıxıldı. Bacarsaydı, çarpayının içərisində yerli-dibli görünməməyə çalışardı. Bu dəqiqə O'Brayenin sadəcə məzələnmək üçün cihazın dəstəyini yuxarı qaldıracağına əmin idi. Lakin O'Brayen artıq geri çevrilmişdi. Otaqda bir neçə addım o baş-bu başa gedib-gəldi. Sonra, əvvəlki coşqunluqla olmasa da, sözlərinə davam etdi:

- İlk növbədə, burada əzabkeşlərə yer olmadığını başa düşməlisiniz. Yəqin keçmiş dövrlərdəki dini təqiblər haqqında oxumusunuz. Orta əsrlərdə İnkvizisiya mövcud idi. Amma o, vəzifəsinin öhdəsindən gələ bilmədi. İnkvizisiya küfrün kökünü qazıb atmaq istəyirdi, əvəzində isə, küfrə əbədi həyat verdi. Tonqalda yandırılan hər kafirin yerinə minlərlə yenisi baş qaldırdı. Nəyə görə belə oldu? Çünki İnkvizisiya düşmənlərini açıq şəkildə öldürürdü. Tövbəyə nail olmadan aradan götürürdü. Daha doğrusu, onları tövbə etmədiklərinə görə öldürürdü. Adamlar əqidələri naminə ölümə gedirdilər. Nəticədə, şöhrət inanc yolunda əzablı ölümü qəbul edən qurbanların, biabırçılıq və lənət isə, bu qoxmaz insanları diri-diri tonqalda yandıran İnkvizisiyanın adına yazılırdı. Sonralar, iyirminci əsrdə totalitar rejimlər adlanan quruluşlar meydana çıxdı. Məsələn, alman nasistləri, yaxud rus kommunistləri. Ruslar yadfikirliliyi İnkvizisiyadan daha amansız şəkildə təqib edirdilər. Bununla da keçmişin səhvlərindən nəticə çıxardıqlarını düşünürdülər. Hər halda, öldürülənlərdən əzabkeş obrazı düzəltməyin yolverilməz olduğunu başa düşürdülər. Qurbanlarını açıq məhkəmə önünə çıxarmamışdan əvvəl onların olan-qalan ləyaqət hissinin üstündən xətt çəkirdilər. Həbs olunanları işgəncə və qorxu nəticəsində sındırırdılar. Bu yolla onları miskin, köləbiətli məxluqlara çevirirdilər. Bələləri hər şeyi boyunlarına alırdı, məcburən əzbərlədikləri sözləri tutuquşu kimi təkrarlayırdılar. Özlərinə lənə yaxır, günahı biri-birlərinin üstünə atır,

biri digərinin arxasında gizlənməyə çalışır, ağlayıb-sıtqayır, əfv diləyirdilər. Amma aradan vur-tut bir neçə il keçəndən sonra tarix özünü yenidən təkrar etdi. Edam olunanlar əzabkeşə çevrildilər, miskin hərəkətləri isə yerli-dibli unuduldu. Sizcə, niyə hər şey bu şəkildə təkrarlandı? İlk növbədə ona görə ki, həmin adamların etirafları işgəncə yolu ilə qoparılmışdı, başdan-başa yalan və saxta idi. Biz belə səhvlər etmirik. Burada dilə gətirilən bütün etiraflar - həqiqətdir. Biz hər şeyin həqiqi olmasının qayğısına qalırıq. Hər şeydən əvvəl ölülərin yenidən üstümüzə qalxmalarına imkan vermirik. Gələcək nəsillərin sizə haqq qazandıracağı firkini ağlınıza da gətirməyin, Uinston! Gələcək nəsillər haqqınızda heç zaman heç bir şey eşitməyəcəklər. Çünki sizi tarixin axarından çəkib çıxaracağıq. Buxara çevirib atmosferə buraxacağıq. Sizdən Yer üzərində heç bir iz qalmayacaq. Nə mənbələrdə adınız, nə də insanların yaddaşında xatirəniz yaşayacaq. Siz keçmişdən də, gələcəkdən də silinib atılacaqsınız. Heç zaman bu dünyada yaşamadığınız təəssüratı yaradılacaq.

"- Onda nə üçün mənə işgəncə verib özünüzü bu qədər zəhmətə salırsınız?" - deyə Uinston acı-acı düşündü.

O'Brayen, Uinstonun ürəyindən keçənləri eşidibmiş kimi, ayaq saxladı. Enli, çirkin sifətini, qıyılmış gözlərini ona daha da yaxınlaşdırdı.

- Yəqin fikirləşirsiniz ki, sonda sizi məhv edəcəyiksə, sözlərinizin və hərəkətlərinizin heç bir əhəmiyyəti yoxdursa, onda nəyə görə özümüzü əziyyətə salıb istintaq aparır, mühakimə qururuq. İndicə bu barədə düşünürdünüz, elə deyilmi?

- Bəli, - Uinston təsdiq etdi.

O'Brayen xəfifcə gülümsündü.

- Siz cəmiyyətdə qüsurlu bir istisnasınız, Uinston. Siz elə ləkəsiniz ki, mütləq silinib atılmalısınız. Məgər az öncə indiyə qədər mövcud olmuş cəza orqanlarından fərqimizi sizə izah etmədim? Biz zahiri tabeçiliklə, hətta müticəsinə itaətkarlıqla barışa bilmərik. Sonda təslim olmaq qərarını öz istəyinizlə verməlisiniz.Yad fikirlini sadəcə bizə müqavimət göstərdiyinə görə məhv etmirik. Əksinə, müqavimət göstərməyə qadir olduğu müddət ərzində onu heç zaman öldürmürük. Biz onu dəyişdiririk, daxili dünyasına nüfuz edirik, yenidən formalaşdırırıq. Bütün pisliklərı və yanlış fikirləri varlığından qovub çıxarırıq. Onu yalnız sözdə, görüntü ilə yox, tam səmimi şəkildə, ağlı və ürəyi ilə öz tərəfimizə çəkirik. Öldürməmişdən əvvəl onu özümüzdən birinə çeviririk. Dünyanın hər hansı yerində, hətta gizli şəkildə, rüşeym halında da olsa, yanlış düşüncənin möbvudluğu bizim üçün qəbuledilməzdir. Biz hətta ölüm anında da fərqli fikir təmayüllərinə yol verə bilmərik. Keçmiş vaxtlarda kafir tonqala kafir kimi ayaq basırdı. Hətta küfr fikirlərini ucadan elan edir, bundan qürur duyurdu. Rusların apardıqları təmizləmələr zamanı qurbanlar hər an arxadan gicgahlarına sıxılacaq gülləni gözləyərək, koridorlarla addımladıqları anlarda da üsyankar fikirlərini beyinlərindən çıxarmırdılar. Biz isə beyinləri vurub dağıtmamışdan əvvəl onları mükəmməl hala gətiririk. Köhnə despotik quruluşlar "Etməməlisən!" - deyirdi. Totalitar rejimlər "Etməlisən!" - əmrini verirdi. Biz isə "Sən varsan!" - deyirik. İndiyə qədər bura gətirilənlərin heç biri qarşımızda duruş gətirə bilməyib. Hamısının beynini yuyub təmizləmişik. Hətta bir zamanlar günahsızlıqlarına inandığınız həmin o miskin xəyanətkarları - Consu, Aronsonu və Rezerfordu da sonda sındırdıq. Özüm onların istintaqında iştirak edirdim. Özüm onların tədricən necə miskin hala düşdüklərinin, yalvarıb-yaxardıqlarının, fəryad qopardıqlarının, ağlayıb-sıtqadıqlarının şahidi olmuşam. Ən mühüm olan isə, onların ağrıdan, yaxud qorxudan deyil, peşimançılıqdan bu vəziyyətə düşmələri idi. Üzərlərindəki iş başa çatdırılandan sonra insandan daha çox kölgəni xatırladırdılar. Əməllərinə görə peşimançılıq hissindən və Böyük Qardaşa məhəbbətdən başqa ürəklərində heç bir duyğu, heç bir istək qalmamışdı. Güllələnməyə mümkün qədər tez aparılmaları üçün yalvarırdılar. Düşüncələrinin bu qədər təmiz və ləkəsiz olsuğu vaxtda dünyadan getmək istəyirdilər.

O'Brayenin səsində xəyalpərvər notlar sezildi. Coşqunluq və dəlicəsinə vurğunluq ifadəsi hələ də sifətinə hakim idi. Uinston fikirləşdi ki, o, rola girmir, ikiüzlülük etmir, dediyi hər sözə ürəkdən inanır. Bu anlarda Uinstona hər şeydən

çox əzab verən intellektual yarımçıqlığını daha aydın dərk etməsi idi. Uinston gah gözləri qarşısında peyda olan, gah da yoxa çıxan O`Brayenin ağır bədənini zərifliklə idarə edərək otaqda gəzişməsinə baxırdı. O`Brayen hər cəhətdən ondan üstün idi. Uinstonun beynində elə bir fikir doğulmamışdı və doğula da bilməzdi ki, O`Brayenə çoxdan məlum olmasın, araşdırılmasın, rədd edilməsin. O`Brayenin ağlı onun ağlını da özündə ehtiva edirdi. Belədə O`Brayeni necə dəli saymaq olardı? Dəli özü idi. Uinston idi. O` Brayen dayanıb ona baxdı. Yenə əvvəlki sərt səsi ilə sözünə davam etdi.

- Hətta tamamilə bizə təslim olandan sonra da, xilas yolu tapacağınızı ağlınıza gətirməyin, Uinston. Bir dəfə doğru yoldan sapanların heç biri canını qurtara bilməz. Hətta sizə öz əcəlinizlə ölənə qədər yaşamağa imkan yaratsaq da, əlimizdən xilas ola bilməzsiniz. Burada sizə edilən hər şey ömürlük nəzərdə tutulur. Sizi elə nöqtəyə qədər əyəcəyik ki, bir də heç zaman qamətinizi ondan artıq düzəldə bilməyəcəksiniz. Sizi elə vəziyyətə salacağıq ki, bundan sonra min il yaşasanız da, əvvəlki halınıza qayıda bilməyəcəksiniz. Bir də heç zaman adi insani hisslərlə yaşamağa qabil olmayacaqsınız. İçərinizdə hər şey öləcək. Heç zaman sevməyə, dostluq etməyə, həyatdan nəşələnməyə, gülməyə, hansı məsələlərləsə maraqlanmağa, nəyə isə cəsarət göstərməyə, düzlüyə can atmağa qadir olmayacaqsınız. Tam bir boşluğa çevriləcəksiniz. İçinizdə nə varsa, hamısını çıxaracağıq. Sonra onu öz istədiyimiz şəkildə yenidən dolduracağıq.

O, sözünə ara verdi. Ağ xalatlı adama əli ilə nə isə işarə etdi. Uinston başının arxasına hansısa ağır cihazın bərkidildiyini hiss etdi. O`Brayen çarpayının yanında oturdu. İndi sifəti, demək olar ki, Uinstonun üzü ilə eyni səviyyədə idi.

- Üç min! - deyə onun başı üzərindən ağ xalatlı adama göstəriş verdi.

Gicgahına iki yumşaq yastıqça qoydular. Yastıqçalar, deyəsən, bir qədər nəm idi. Uinstonun bədəni yumaq kimi gərilmişdi. Yenə ağrı olacaq. Bu dəfə başqa, yeni ağrı. O` Brayen inam tələqin edən bir şəkildə, az qala nəvazişlə əllərindən yapışaraq onu sakitləşdirdi.

- Bu dəfə sizi incitməyəcəyik. Düz gözlərimin içinə baxın.

Eyni anda dəhşətli partlayış baş verdi. Ya da Uinstona elə göründü. Partlayışın səslə müşayiət edildiyinə o qədər də əmin deyildi. Adamı kor edəcək qədər parlaq işığı isə, gözləri ilə görmüşdü. Bütün bu vaxt ərzində arxası üstə uzansa da, Uinstonda məhz partlayış nəticəsində bu vəziyyəti alması ilə bağlı qəribə təəssürat yaranmışdı. Düşünürdü ki, ağrısız, amma dəhşətli partlayış onu yatağa pərçimləyib. Elə bil beyninin içində də nə isə dəyişmişdi. Gözü hədəqəsinə qayıdandan sonra Uinston kim olduğunu, hara gətirildiyini xatırladı, başının üstündə oturub diqqətlə ona baxan adamı tanıdı. Lakin eyni zamanda haradasa böyük bir boşluq yarandığını hiss edirdi. Elə bil beyninin bir parçasını kəsib götürmüşdülər.

- İndi keçib gedəcək, - deyə O`Brayen onu sakitləşdirdi. - Gözümün içinə baxın. İndi Okeaniya hansı ölkə ilə müharibə edir?

Uinston fikrə getdi. Okeaniya sözünün mənasını başa düşürdü. Özünün Okeaniya vətəndaşı olduğunu bilirdi. Avrasiya ilə İstasiyanı da xatırlayırdı. Lakin kimin kimlə müharibə etdiyindən xəbərsiz idi. Ümumiyyətlə, haradasa müharibənin aparıldığından xəbəri yoxdu.

- Yadımda deyil.

- Okeaniya İstasiya ilə müharibə edir. İndi xatırladınız?

- Bəli.

- Okeaniya həmişə İstasiya ilə müharibə aparıb. Sizin həyatınızın ilk günündən, Partiyanın mövcudluğunun ilk günündən, tarixin yaradılışının ilk günündən bu müharibə fasiləsiz olaraq davam edib. Eyni müharibə. Bunu xatırlayırsınız?

- Bəli.

- On bir il əvvəl siz xəyanətkar əməllərinə görə ölüm cəzasına məhkum olunmuş üç nəfər haqqında özünüzdən əfsanə uydurmuşdunuz. Onların günahsızlığını sübut edən hansısa qəzet parçası gördüyünüzü fikirləşirdiniz. Belə qəzet parçası heç zaman mövcud olmayıb. Bunu siz uydurmuşdunuz. Sonra

özünüz də uydurmanıza inanmışdınız. İndi həmin əfsanəni uydurduğunuz an yadınıza düşdümü? Xatırladınızmı?

- Bəli.

- Bir az əvvəl barmaqlarımı gözləriniz önündə tutmuşdum.. Beş barmaq gördünüz. Bunu xatırlayırsınız?

- Bəli.

O`Brayen yenə sol əlinin baş barmağını ovcunun içərisində gizlədib qalan barmaqlarını göstərdi.

- Burada beş barmaqdır. Onların beşini də görürsünüzmü?

- Bəli.

O, həqiqətən də ağlı başından çıxmamışdan əvvəl beş barmağı görmüşdü. Barmaqlar beş idi və heç bir yanlışlıqdan söhbət gedə bilməzdi. Sonra yenə hər şey ilkin vəziyyətini aldı, əvvəlki qorxu, nifrət, vahimə hissi təzədən geri qayıtdı. Lakin belə zaman kəsiyi vardı, - bu anın nə qədər davam etdiyini Uinston xatırlamırdı, bəlkə cəmisi otuz saniyə çəkmişdi, - həmin o aydın və işıqlı zaman kəsiyində O`Brayenin hər yeni təlqini beynindəki boşluğu doldurur və mütləq həqiqət kimi qəbul olunurdu. Həmin anlarda iki üstəgəl iki üç də ola bilərdi, lazım gəlsəydi, asanlıqla beşə də çevrilərdi. Bu vəziyyət O`Brayen əlini aşağı endirməmişdən əvvəl keçib getdi. Uinston istəsəydi də həmin anı geri qaytara bilməzdi, lakin onu istənilən şəxs keçmiş həyatının ən parlaq təsadüfünü, mahiyyət etibarı ilə başqa adama çevrilmə prosesini xatırlayan kimi, dəqiq xatırlayırdı.

- İndi gördünüz ki, bu mümkündür, - O`Brayen onu fikrindən ayırdı.

- Bəli.

O`Brayen özündən məmnun halda ayağa qalxdı. Uinston sol tərəfindəki ağ xalatlı adamın ampulanı sındırıb içərisindəki mayeni şprisə doldurduğunu gördü. O`Brayen, üzündə təbəssüm, Uinstona tərəf çevrildi. Yenə əvvəllər elədiyi kimi, eynəyinin yerini burnunun üstündə rahatlayırdı.

- Yadınızdadırmı, - dedi, - gündəliyinizdə mənim barəmdə yazmışdınız ki, bu adamın dost, yaxud düşmən olması elə də əhəmiyyətli deyil, əsas odur ki, qarşısındakını başa düşür və onunla söhbət etmək mümkündür. Siz haqlı idiniz. Mən də sizinlə söhbətdən zövq alıram. Düşüncə tərziniz xoşuma gəlir. Aradakı bir fərqi - sizin dəli olduğunuzu çıxmaqla, oxşar fikirləşirik. Bu günkü söhbətimizi bitirməmişdən əvvəl mənə bir neçə sual verə bilərsiniz. Təbii, istəyirsinizsə.

- İstədiyim sualı verə bilərəm?

- Nə istəyirsiniz, soruşun. - O`Brayen Uinstonun cihaza baxdığını gördü. - Narahat olmayın. Söndürülüb. Beləliklə, birinci sualınız.

- Siz Culiyaya nə etdiniz?

O Brayen yenidən gülümsədi.

- O sizi elə verdi, Uinston. Özü də dərhal, qeyd-şərtsiz. Tutulanlardan kiminsə bizimlə belə həvəslə əməkdaşlıq etməsi nadir hallarda olur. Görsəydiniz, gözlərinizə inanmazdınız. Onun bütün üsyankarlığı, yalançı qəhrəmanlığı, qayğısızlığı, həyasızlığı - hamısı son damlasına qədər canından çıxarılıb. Bu, çox mükəmməl bir dəyişmə oldu. Deyərdim ki, hətta dərsliklərə salınacaq nümunədir.

- Ona işgəncə verdiniz?

O`Brayen sualı cavabsız buraxdı.

- Növbəti sualınız? - dedi.

- Böyük Qardaş mövcuddur?

- Əlbəttə. mövcuddur. Partiya mövcuddur. Böyük Qardaş Partiyanın təcəssümüdür.

- Demək istəyirəm ki, məsələn, mən mövcud olduğum mənada mövcuddur?

- Siz mövcud deyilsiniz.

Köməksizlik hissi yenidən Uinstona hakim kəsildi. Mövcud olmadığının hansı dəlillərlə sübuta yetiriləcəyini bilirdi. Ən azı, təsəvvüründə gətirirdi. Lakin eşidəcəklərinin hamısı cəfəngiyyat olacaqdı, söz oyunu olacaqdı. Məgər "Siz mövcud deyilsiniz" - sözləri məntiqi cəfəngiyyat nümunəsi deyildi? Amma mübahisə açmağın faydası vardımı? O`Brayenin onu hansı təkzibedilməz, ağlasığmaz dəlillərlə darmadağın edəcəyini yadına salanda mübahisə açmaq fikrindən daşındı.

- Düşünürəm ki, mövcudam, - dedi. - Öz varlığımı dərk edirəm. Doğulmuşam, sonda isə öləcəyəm. Əllərim, ayaqlarım var. Kainatda bəlli bir yer tuturam. Mənimlə eyni anda başqa heç bir bərk cisim həmin yeri tuta bilməz. Bilmək istərdim ki, dediyim mənada Böyük Qardaş mövcuddurmu?

- Bunun əhəmiyyəti yoxdur. O, mövcuddur.

- Böyük Qardaş nə zamansa öləcək?

- Əlbəttə, yox! O necə ölə bilər? Növbəti sualınız?

- Qardaşlıq cəmiyyəti mövcuddur?

- Bax, bu sualın cavabını, Uinston, heç zaman bilməyəcəksiniz. Hər şey başa çatandan sonra sizi azad etmək qərarına gəlsək və ondan sonra doxsan yaşına qədər yaşasanız da, heç zaman verdiyiniz sualın cavabının "Bəli", yoxsa "Xeyr " olduğunu öyrənə bilməyəcəksiniz. Ömrünüz boyu bu müəmma üzərində baş sındıracaqsınız.

Uinston sakitcə uzanmışdı. İndi sinəsi daha tez-tez qalxıb-enirdi. Ağlına ilk gələn sualı hələ də verməmişdi. O suala mütləq cavab almalı idi. Amma dili heç cür sözünə baxmırdı. Deyəsən, O`Brayenin simasında istehzalı təbəssüm göründü. İstehza hətta eynəyinin parıltısında da hiss olundu. "O bilir, - deyə Uinston fikirləşdi, - nə soruşmaq istədiyimi bilir!". Özündən asılı olmayaraq sualını verdi.

- 101-ci otaq nə deməkdir?

O Brayenin sifətinin ifadəsi dəyişilmədi. Suala quru cavab verdi.

- Uinston, siz 101-ci otağın nə demək olduğunu gözəl bilirsiniz. 101-ci otağı hamı yaxşı tanıyır.

O`Brayen barmağını yuxarı qaldırıb ağ xalatlı adama işarə verdi. Söhbət, deyəsən, sona çatmışdı. Uinstonun qoluna iynə vurdular. Dərhal da dərin yuxuya getdi.

III FƏSİL

- Sizin yenidən bərpa prosesiniz üç mərhələdən ibarətdir, - O`Brayen dedi. - Bura öyrənmə, anlama və qəbul etmə mərhələləri daxildir. Artıq ikinci mərhələyə keçməyin vaxtıdır.

Uinston həmişəki kimi arxası üstə uzanmışdı. Son vaxtlar ilgəkləri nisbətən boş saxlayırdılar. İndi ayaqlarını dizlərindən yüngülcə əyə bilirdi. Başını o tərəfbu tərəfə çevirmək, dirsəkdən yuxarı qollarını qaldırmaq da mümkün idi. Üzəri şkalalarla dolu cihaz da əvvəlki kimi qorxunc görünmürdü. Kifayət qədər hazırcavablıq göstərəndə onun ağrılarından can qurtarmaq olurdu. Yalnız səfehlik eləyəndə O`Brayen əlini cihazın dəstəyinə atırdı. Bəzən söhbət başa çatana qədər onun köməyinə bir dəfə də olsun ehtiyac yaranmırdı. Söhbətlərin sayını xatırlaya bilmirdi. Proses çoxdan, Uinston üçün qeyri-müəyyən vaxtdan başlanmışdı. Bəlkə də həftələr idi ki, davam edirdi. Arada bəzən bir neçə gün, bəzən isə cəmisi bir, yaxud iki saatlıq fasilə verilirdi.

- Burada saxlandığınız müddətdə, - O`Brayen deyirdi, - dəfələrlə heyrətlənmisiniz, hətta məndən də soruşmusunuz ki, Sevgi Nazirliyi niyə sizə görə naharatlıq keçirməlidir, niyə bu qədər vəsait xərcləməlidir? Azadlıqda olanda da eyni sualın yaratdığı anlaşılmazlıq duyğusu sizi tərk etmirdi. Yaşadığınız Cəmiyyətin mexanizmini başa düşürsünüz, amma onun hərəkətverici motivlərini anlaya bilmirsiniz. Yadınızdadırmı, gündəliyinizdə yazmışdınız: "Necə edildiyini başa düşürəm, amma nə üçün edildiyini anlamıram". Bu "nə üçünün" üzərində fikirləşəndə özünüzün sağlam ağıl sahibi olduğunuza şübhə etməyə başlayırdınız. Siz artıq kitabı, - Qoldsteynin kitabını deyirəm, - ya da onun müəyyən hissələrini oxumusunuz. Orada indiyə qədər bilmədiyiniz hər hansı mətləbə rast gəldiniz?

- Siz o kitabı oxumusunuz? - Uinston suala sualla cavab verdi.

- Onu mən yazmışam. Daha doğrusu, yazılmasında iştirak etmişəm. Yəqin ki, heç bir kitabın fərdi qaydada ərsəyə gəlmədiyindən xəbəriniz var.

- Orada yazılanlar həqiqətdir?

- Təsviri hissədəkilər həqiqətdir. Təklif olunan proqram isə cəfəngiyyatdır. Gizlicə bilik ehtiyatı toplamaq... kütlələri tədricən maarifləndirmək... proletar

üsyanı və nəticədə Partiyanı devirmək... Bütün bunların nə demək olduğunu yəqin ki, özünüz də yaxşı başa düşürsünüz. Proletarlar heç zaman üsyan etməyəcəklər. Nə min il, nə də milyon il sonra. Onlar üsyan edə bilməzlər. Səbəbini sizə açıqlamağa lüzum görmürəm. Özünüz hər şeyi bilirsiniz. Nə zamansa silahlı üsyan xülyaları ilə yaşamısınızsa, onları da bir kənara buraxın. Partiyanı devirmək üçün heç bir imkan mövcud deyil. Partiyanın hakimiyyəti əbədidir. Bunu fikirlərinizin istinad nöqtəsi kimi əsas götürə bilərsiniz.

O`Brayen çarpayıya yaxınlaşdı.

- Əbədidir! - deyə bir də təkrarladı. - İndi isə "necə" və "nə üçün" suallarına qayıdaq. Partiyanın öz hakimiyyətini necə qoruyub saxladığını kifayət qədər yaxşı başa düşürsünüz. İndi mənə deyin görüm, biz hakimiyyətdən nə üçün belə möhkəm yapışmışıq"? Səbəb nədir? Nə üçün hakimiyyəti bu qədər sevirik? Tez olun, cavab verin! - Uinstonla hələ də sakit dayandığından, O`Brayen artıq əmr tonu ilə danışırdı.

Uinston yenə də bir müddət heç nə demədi. Son dərəcə zəiflədiyini hiss edirdi. O`Brayenin üzündə təzədən dəlicəsinə coşqunluğun işartıları görünürdü. Uinston onun nə deyəcəyini əvvəlcədən bilirdi. O`Brayen deyəcəkdi ki, Partiya hakimiyyəti özünün son məqsədləri naminə deyil, çoxluğun mənafelərini qorumaq üçün əlində saxlayır. Partiya həmişə iqtidarda qalmalıdır, çünki kütlə əksərən zəif və qorxaq məxluqlardan ibarətdir, azadlığa təhəmmül edə bilmir, həqiqətin gözünə dik baxmağı bacarmır. Ona görə də həmişə özündən daha güclü olan qüvvə tərəfindən idarə edilməli və davamlı şəkildə aldadılmalıdır. O`Brayen deyəcəkdi ki, bəşəriyyət seçim qarşısındadır: ya azadlığı, ya da xoşbəxtliyi seçməlidir. İnsanların böyük əksəriyyəti isə xoşbəxtliyi hər şeydən üstün tutur. Deyəcəkdi ki, Partiya əzilənlərin, zəiflərin əbədi müdafiəçisidir, Yer üzərində daha xoşbəxt gələcəyin bərqərar olması üçün çarpışır, başqalarının səadəti naminə özünü qurban verir. Uinston fikirləşdi ki, ən dəhşətli şey O`Brayenin bu sözləri deməsi deyil, onları dilə gətirərkən özünün də dediklərinə inanmasıdır. Bunu sifətindən də görmək mümkündür. O`Brayenin hər şeydən xəbəri var. Cəmiyyətin gerçək vəziyyətini, insan kütlələrinin necə dəhşətli miskinlik içərisində yaşadıqlarını, Partiyanın hansı yalanlar və vəhşiliklər bahasına onları bu vəziyyətdə saxladığını Uinstondan min dəfə yaxşı bilir. O, hər şeyi başa düşür, hər şeyi götür-qoy edib nəticə çıxarmağı bacarır, lakin yenə də əqidəsində qətiyyən tərəddüd etmir: çünki son məqsəd hər şeyə haqq qazandırır. "Səndən daha ağıllı olan bir dəliyə qarşı nə edə bilərsən?" - deyə Uinston fikirləşirdi. "O, sənin dəlillərini çox diqqətlə dinləyəcək, amma bundan sonra yenə öz dəliliyində israr edəcək".

- Rifahımızın daha da yaxşılaşdırılması üçün bizi idarə edirsiniz, - deyə Uinston yavaş səslə suala cavab verməyə başladı. - Düşünürsünüz ki, insanlar hələ hakimiyyətə hazır deyillər, ona görə də...

Uinston titrədi və qışqırtısını güclə boğa bildi. Ağrı bədənindən güllə kimi keçdi. O`Brayen dəstəyi otuz beşin üstünə qoymuşdu.

- Səfeh şeylər danışırsınız, Uinston, çox səfeh şeylər danışırsınız, - dedi. - Sizdən indi dediklərinizdən daha ağıllı cavab gözləyirdim.

O`Brayen dəstəyi geri çəkib sözünə davam etdi.

- Sualıma özüm cavab verəcəyəm. Məsələ belədir. Partiya hakimiyyətə yalnız və yalnız öz xeyiri üçün can atır. Başqalarının rifahı bizi maraqlandırmır. Bizi sadəcə hakimiyyət maraqlandırır. Nə zənginlik, nə cah-cəlal, nə uzun ömür, nə xoşbəxtlik - bunların heç biri yox, sadəcə, hakimiyyət, yalnız hakimiyyət! Gerçək hakimiyyətin nə demək olduğunu indi başa düşəcəksiniz. Biz keçmiş dövrlərin oliqarxiyalarından tamam fərqlənirik, çünki nə etdiyimizi bilirik. Yerdə qalanların hamısı, hətta bizimlə müəyyən qədər bənzərlikləri olanlar belə qorxaq və ikiüzlü idilər. Məsələn, alman nasistləri və rus kommunistləri əsaslandıqları metodlar baxımından bizə çox yaxın idilər. Lakin hakimiyyətlə bağlı şəxsi motivlərini ortaya qoymağa heç vaxt cürət etməmişdilər. Onlar özlərini elə göstərirdilər (hətta bəlkə də bunun məhz belə olduğuna inanırdılar) ki, sanki hakimiyyəti istəmədən, məhdud bir müddətə əllərinə alıblar, qarşıda, necə deyərlər, tini burulandan sonra insanların azad və bərabər yaşayacaqları cənnət həyatı başlayır. Biz

elə deyilik.Yaxşı başa düşürük ki, hakimiyyəti heç vaxt sonra ondan imtina etmək xatirinə ələ keçirmirlər. Hakimiyyət vasitə deyil, hakimiyyət - məqsəddir. Heç kəs inqilabın nailiyyətlərini qoruyub saxlamaq naminə diktatura qurmur. Əksinə, diktatura qurmaq üçün inqilab edirlər. Repressiyadan məqsəd - repressiyadır. İşgəncənin məqsədi - işgəncədir. Hakimiyyətin məqsədi-hakimiyyətdir. İndi nə demək istədiyimi başa düşürsünüzmü?.

O'Brayenin sifətindəki yorğunluğu görəndə Uinston əvvəlki dəfələrdə olduğu kimi təəccüblənirdi. Qarşısındakı güclü, kök və sərt sifət idi. Orada dərin ağılla birlikdə daim nəzarətdə saxlanan, amma Uinstonun yenə də özünü qarşısında köməksiz saydığı, heç vəhclə ram edilməyən ehtiras həkk olunmuşdu. İstənilən halda O'Brayeni sifəti çox yorğun idi. Gözlərinin altı qaralıb tuluqlamışdı, yanaqlarının dərisi sallanmışdı. O'Brayen ona tərəf əyildi. Bəlkə də bilərəkdən yorğun sifətini daha yaxşı görməsinə imkan yaratmaq istəyirdi.

- Fikirləşirsiniz ki, sifətim qoca və yorğundur, - deyə sözünə davam etdi. - Fikirləşirsiniz ki, hakimiyyətin əbədiliyi haqqında danışıram, amma bədənimin tökülüb itməsinin qarşısını ala bilmirəm? Uinston, doğrudanmı siz hələ də fərdlərin sadəcə toxuma olduğunun anlamırsınız? Toxumaların zəifliyi - orqanizmin enerjisi deməkdir. Məgər siz dırnaqlarınızı kəsib atanda ölürsünüz?

O, çarpayının yanından sərt hərəkətlə geri dönüb əlinin birini cibinə qoyaraq var-gəl etməyə başladı.

- Biz hakimiyyət kahinləriyik, - dedi. - Allah özü hakimiyyət deməkdir. Lakin indiki anda hakimiyyət sizi maraqlandırmayan quru sözdən başqa bir şey deyildir. Ona görə də hakimiyyətin nə demək olduğunu anlamaq üçün fikirlərinizi səfərbər etmək vaxtıdır. Hər şeydən əvvəl, hakimiyyətin kollektiv anlayış olduğunu başa düşməlisiniz. Fərd yalnız öz fərdiyyətindən imtina etdiyi təqdirdə hakimiyyətə yiyələnə bilər. Partiyanın "Azadlıq-köləlikdir" - şüarından, təbii ki, xəbəriniz var. Onu tamamilə tərsinə oxumağın mümkünlüyü fikri nə zamansa ağlınıza gəlibmi? "Köləlik-azadlıqdır". Tək və azad insan həmişə uğursuzluğa məhkumdur. Belə də olmalıdır. Çünki insan həyatının sonu - ölümdür. Bu, insanın ən böyük məğlubiyyətidir. Lakin o, tərəddüdsüz, canı-dildən tabe olmağı bacarırsa, öz fərdiyyətindən imtina etməyə, Partiyanın içərisində əriyib itməyə hazırdırsa, o zaman özü də Partiyaya çevriləcək, Partiya ilə birlikdə əbədilik və ölümsüzlük qazanacaqdır. İkincisi, başa düşməlisiniz ki, hakimiyyət - insan üzərində ağalıq deməkdir. Onların cismi, ən başlıcası isə, şüuru üzərində ağalıq deməkdir. Materiya üzərində, sizin dediyiniz kimi, zahiri gerçəklik üzərində hakimiyyət önəmli deyil. Materiya artıq çoxdan tam nəzarətimizə keçmişdir.

Uinston bir anlığa cihazın mövcudluğunu unutdu. Bütün qüvvəsini sərf edərək dikəlib oturmağa çalışdı. Əvəzində ağrılarını daha da artırmış oldu.

- Siz materiyaya necə nəzarət edə bilərsiniz? - deyə az qala qışqırdı. - Hələ heç iqlim qurşaqları, cazibə qanunu nəzarətinizdə deyil. Yer üzündə xəstəliklər var, ağrılar var, ölüm var...

O Brayen əlinin hərəkəti ilə onu sakitləşdirdi.

- Materiya nəzarətimiz altındadır. Çünki artıq şüura nəzarət edirik. Gerçəklik - insan kəlləsinin içərisindədir. Bunu tədricən öyrənəcəksiniz, Uinston. Bizim üçün mümkün olmayan heç nə yoxdur. Gözə görünməyə bilərik, pərvazlanıb havaya qalxa bilərik, nə istəsəniz edə bilərik. Əgər istəsəm, bu dəqiqə sabun köpüyü kimi dayandığım bu döşəmənin üzərindən qanadlanıb uça bilərəm. Amma istəmirəm. Çünki Partiya istəmir. Siz təbiət qanunları haqqında on doqquzuncu əsrin təsəvvürlərindən birdəfəlik xilas olmalısınız. Təbiətin qanunlarını biz yaradırıq.

- Buna gücünüz çatmaz. Siz hələ Yer planetinin sahibi deyilsiniz. Bəs Avrasiya, İstasiya? Hələ bu ölkələri fəth edə bilməmisiniz.

- Çox da vacib məsələ deyil. Lazım olanda fəth edəcəyik. Hətta fəth etməsək də - bunun elə bir fərqi yoxdur. Biz onların mövcudluğuna əbədilik göz yumacağıq. Bütün dünya Okeaniyadan ibarət olacaq.

- Lakin dünya özü toz zərrəsi kimi bir şeydir. İnsan isə kiçik və köməksizdir. Onun mövcudluq tarixi nə qədərdir? Milyonlarla il Yer kürəsində, ümumiyyətlə, həyat olmayıb.

- Cəfəngiyyatdır. Bizim neçə yaşımız varsa, Yer kürəsinin də o qədər yaşı var. Yer kürəsi bizdən qədim ola bilməz. İnsan şüurundan kənarda heç nə mövcud deyil.

- Buzlaqlar indi nəsli kəsilmiş heyvanların - mamontların, dinozavrların, nəhəng sürünənlərin sümükləri ilə doludur. Hələ insanın mövcudluğu təsəvvürə gəlməyən dövrlərdə onlar Yer üzərində yaşamışdılar.

- Bu sümükləri gözünüzlə görmüsünüz, Uinston? Əlbəttə ki, yox! Hamısı on doqquzuncu əsr bioloqlarının uydurmasıdır. İnsandan əvvəl Yer üzündə heç nə olmayıb. İşdir, nəsli kəsilsə, insandan sonra da heç bir canlı varlıq olmayacaq. İnsanın varlığından kənarda heç nə mövcud deyil.

- Bizdən kənarda bütöv bir kainat mövcuddur. Ulduzlara baxın. Onlardan bəziləri Yer kürəsindən milyonlarla işıq ili məsafədə yerləşir. Onlar insan üçün əbədilik əlçatmazdır.

- Ulduzlar nədir ki? - O'Brayen laqeyd şəkildə etiraz etdi. - Buradan neçə kilometrsə kənarda yerləşən odlu nöqtələr. Biz istəsək, uçub ulduzlara çatarıq. Yaxud lazım gəlsə işıqlarını da söndürərik. Yer-kainatın mərkəzidir. Günəş də, ulduzlar da Yerin ətrafında fırlanır.

Uinston yenə yerindən tərpənməyə cəhd göstərdi. Amma daha mübahisəni davam etdirmədi. O'Brayen isə, onun etirazlarına cavab verirmiş kimi, hələ də danışırdı:

- Bəzi məsələlərdə təbii ki, bu nöqteyi-nəzər özünü doğrultmur. Məsələn, okeanda üzəndə, yaxud Günəş tutulması haqqında qabaqcadan xəbər verəndə Yerin Günəş planeti ətrafında fırlanmasını, eləcə də ulduzların bizdən milyon kilometrlərlə uzaq olmasını demək daha sərfəlidir. Burada qəribə nə var ki? Bəlkə düşünürsünüz ki, ikili astronomiya yaratmaq çox çətin məsələdir? Bizə lazımlılıq dərəcəsindən asılı olaraq ulduzlar yaxında, yaxud uzaqda yerləşə bilərlər. Bəlkə riyaziyyatçılarımızın bu işin öhdəsindən gələ bilməyəcəklərini fikirləşirsiniz? Görünür, ikifikirlilik haqqındakı təlimi unutmusunuz?

Uinston çarpayıya daha bərk sıxıldı. Nə deyirdisə, ani cavab dəyənək kimi başına enirdi. Amma hələ də ağlını itirmədiyinə inanırdı. İnanırdı. İnsan şüurundan kənarda heç nəyin mövcud olmadığı fikrinə gəldikdə isə... yəqin ki, onun da həqiqətə uyğun gəlmədiyini sübut etmək üçün hansısa yollar var. Məgər uzun illər bundan əvvəl belə yanaşma tərzinin yanlışlığı sübuta yetirilməyibmi? Hətta xüsusi nəzəriyyə də vardı. Uinston indi yadına sala bilmirdi.

Xəfif təbəssüm yuxarıdan aşağı Uinstonu süzən O'Brayenin ağzının kənarlarındakı qırışları bir balaca dərinləşdirdi.

- Artıq sizə demişəm, Uinston, metafizika baxımından o qədər də güclü deyilsiniz. Yadınıza salmaq istədiyiniz termin solipsizm adlanır. Lakin yanılırsınız. Mənim haqqında danışdığım solipsizm deyil. Bilmək istəyirsinizsə, kollektiv solipsizm deyil. Tamamilə fərqli bir şeydir, bəlkə də solipsizmin əksidir. Lakin biz mövzudan uzaqlaşdıq. - O'Brayen indi tamamilə fərqli tonda danışırdı. - Əsl hakimiyyət, uğrunda gecə-gündüz vuruşğumuz hakimiyyət əşyalar üzərində deyil, insan üzərindəki hakimiyyətdir. - O susdu, sonra qabiliyyətli şagirdini sınağa çəkən müəllim kimi soruşdu:

- Uinston, bir insan başqası üzərində hakimiyyətini necə təmin edir?

Uinston fikrə getdi.

- Ona əzab verməklə, - dedi.

- Doğrudur! Ona əzab verməklə. Sadəcə itaət yetərli deyil. Bir insan əzab çəkmirsə, özünün deyil, sizin iradənizi yerinə yetirdiyinə necə əmin ola bilərsiniz? Hakimiyyətin mahiyyəti əzab vermək və alçaltmaqdadır. İnsanların şüurunu parçalayıb dağıtmaqda və onları təzədən özünün istədiyi kimi yapışdırıb düzəltməkdədir. İndi necə bir dünya qurmaq istədiyimizi anlayırsınızmı? Bizim qurduğumuz dünya köhnə islahatçıların xəyallarında canlandırdıqları səfeh hedonist utopiyaların tam əksi olacaq. Bu, qorxu, xəyanət və işgəncə dünyası olacaq, tap-

dayanların və ayaq altda qalıb əzilənlərin dünyası olacaq, insanın kamilləşdikcə daha da amansızlaşacağı dünya olacaq! Bizim qurduğumuz dünyada tərəqqi yalnız iztirabların daha da artırılmasına xidmət edəcək. Köhnə sivilizasiyalar məhəbbət və ədalət hissinə arxalandıqlarını əllərində bayrağa çevirmişdilər. Bizim sivilizasiya isə nifrətə əsaslanır. Bizim dünyamızda qorxu, qəzəb, təntənə və özünüməhvdən başqa heç bir hiss olmayacaq. Qalan nə varsa, hamısını məhv edəcəyik. Hamısını! Biz İnqilabdan əvvəl mövcud olmuş əski düşüncə tərzlərinin kökünü qazıb atırıq. Biz valideynlə övlad, fərdlə fərd, qadınla kişi arasındakı bağları birdəfəlik qırırıq. Artıq heç kəs qadınına, uşağına, dostuna inanmır. Gələcəkdə qadınlar və dostlar, ümumiyyətlə, olmayacaq. Qırt düşmüş toyuğun altındakı yumurtaları götürən kimi, yeni doğulan körpələri də analarının əlindən alacağıq. Cinsi ehtiras hissi ləğv ediləcək. Doğub-törəmə, ərzaq talonunun yenilənməsi kimi, hər ilin sonunda həyata keçirilən formallığa çevriləcək. Orqazmı tamamilə aradan qaldıracağıq. Bizim neyroloqlarımız artıq bu məsələ üzərində işləyirlər. Partiyaya sədaqətdən başqa ayrı sədaqət haqqında söhbət olmayacaq. Böyük Qardaşa məhəbbətdən başqa ayrı məhəbbət təsəvvürə də gətirilməyəcək. Məğlub edilmiş düşmən üzərində istehzalı gülüşdən başqa ayrı gülüş olmayacaq. İncəsənət, elm, ədəbiyyat aradan götürüləcək. Biz qüdrətli olanda elmə, ümumiyyətlə, ehtiyac qalmayacaq. Eybəcərliklə gözəllik arasında heç bir fərq qoyulmayacaq. Maraq hissi itib gedəcək, insan həyatdan qətiyyən zövq almayacaq. Zövq müxtəlifliyinə son qoyulacaq. Lakin həmişə, - Uinston, bu sözləri yaxşı yadınızda saxlayın! - həmişə hakimiyyət ehtirası yaşayacaq, zaman keçdikcə daha da güclənəcək, daha da şiddətlənəcək. Həmişə, hər an insanın ağlını başından çıxaran qələbə bağırtıları eşidiləcək, köməksiz düşməni tapdalayıb əzmək hissi düşüncələrə hakim kəsiləcək. Sizə gələcəyin obrazı lazımdırsa, o zaman gözləriniz önündə insan sifətinin üzərinə sıxılmış uzunboğaz çəkmə canlandırın.

O`Brayen Uinstonun cavabını gözləyirmiş kimi susdu. Uinston isə yenə də çarpayının dərinliklərində gizlənmək istəyirdi. Onun deməyə sözü yox idi. Elə bil ürəyi donub buza dönmüşdü. O`Brayen davam edirdi.

- Həm də yadınızda saxlayan - bu, əbədi bir proses olacaq. Tapdanası sifət həmişə tapılacaq. Həmişə fərqli düşünən, cəmiyyətə düşmən kəsilən adamlar olacaq, onları yenidən, dönə-dönə məğlub etmək, alçaltmaq zərurəti yaranacaq. Bura, əlimizə düşdükdən sonra başınıza açılan oyunlar həmişə, özü də getdikcə daha mükəmməl və sərt formada təkrarlanacaq. Satqınlıq, xəyanət, həbslər, işgəncələr, edamlar, sirli şəkildə yoxaçıxmalar heç vaxt səngiməyəcək. Qurduğumuz terror dünyası, ideyalarımızın təntənəsi dünyası olacaq. Partiyanın qüdrəti artdıqca o, daha barışmaz mövqe tutacaq. Müxalifətin müqavimət qüvvəsi azaldıqca despotizm öz mövqelərini daha da sərtləşdirəcək. Qoldsteyn və onun yad fikirləri də həmişə yaşayacaq. Hər gün, hər an o fikirlər darmadağın ediləcək, ələ salınacaq, alçaldılacaq, lağa qoyulacaq, ictimai qınaq hədəfinə çevriləcək.Amma yenə də mövcudluğunu qoruyub saxlayacaq. Mənim yeddi ildən bəri sizinlə oynadığım dram da dönə-dönə təkrarlanacaq. O dram daim yeni-yeni nəsillərlə, amma hər dəfə daha sərt formada oynanacaq. Həmişə taleyi bizim mərhəmətimizdən asılı olan yad düşüncəli adamlar tapılacaq. O, daxilən sındırılmış, miskin vəziyyətə salınmış halda ağrıdan, əzabdan bağıracaq, öz-özündən xilas olandan, bütün varlığı ilə tövbə edəndən sonra isə buradan bizim yerişimizlə çıxacaq. Bax, biz belə dünya qururuq, Uinston! Qələbə dalınca qələbə, zəfər dalınca zəfər və üstəlik, yeni bir zəfər dünyası! Hakimiyyətin əsəbləri ilə oynamaq fikrinə düşənlərə qarşı sonsuz təzyiqlər, təzyiqlər və təzyiqlər dünyası! Görürəm, onun necə bir dünya olacağını artıq dərk etməyə başlayırsınız. Lakin sonda hər şeyi anlamaqdan daha böyük iş görəcəksiniz. Siz bu yeni dünyanı qəbul edəcəksiniz, alqışlayacaqsınız, onun sıra nəfərlərindən birinə çevriləcəksiniz.

Uinston indi danışmaq üçün özündə az da olsa qüvvə hiss edirdi. Haqlılığına o qədər də əmin olmayan bir səslə:

- Bacarmayacaqsınız, - dedi.

- Nə demək istəyirsiniz, Uinston?

- Təsvir etdiyiniz dünyanı qura bilməyəcəksiniz. Bu - xəyaldır. Mümkün olan şey deyil.

- Niyə?

- Qorxu, nifrət və qəddarlıq üzərində sivilizasiya qurmaq olmaz. Dayaqlar tab gətirməyəcək.

- Nəyə görə?

- Çünki belə quruluşun həyat qabiliyyəti olmayacaq. Parçalanıb dağılacaq. Sonu intiharla bitəcək.

- Cəfəngiyyat danışırsınız. Əbəs yerə beyninizə nifrətin məhəbbətdən daha dağıdıcı qüvvə olması fikrini yeritmisiniz. Əvvəla, niyə belə olmalıdır? İkincisi, hətta lap belə olsa da, bunun nə fərqi var? Fərz edək ki, biz özümüzü daha tez zəiflədib sıradan çıxarmaq yolunu tuturuq. Fərz edək ki, insan həyatının tempini yüksəltməyimiz nəticəsində otuz yaşlı adam ağlı heç nə kəsməyən qocaya çevrilmişdir. Bundan nə dəyişəcək ki? Doğrudanmı siz hələ də ayrılıqda götürülmüş bir fərdin ölümünün itki olmadığını anlamırsınız? Əsas məsələ Partiyanın ölümsüzlüyüdür.

Həmişəki kimi, inamlı səs Uinstonu yenə köməksiz vəziyyətə saldı. Həm də qorxurdu ki, O`Brayenə etirazlarında israr etsə, cihazın dəstəyi təzədən hərəkətə gələ bilər. Amma susmağı da özünə sığışdırmırdı. Ürkək vəziyyətdə, dəlil-sübut gətirmədən (bəlkə O`Brayenin hərarətli nitqini saya salmamaq da dilsiz etiraz sayıla bilərdi?) hücumunu təzələmək istədi:

- Bilmirəm... Çıxış yolu görmürəm. Hər halda, sizi iflas gözləyir. Kiməsə məğlub olacaqsınız. Həyat özü sizi məğlub edəcək.

- Uinston, biz həyatı bütün səviyyələrdə nəzarətdə saxlayırıq. Yəqin düşünürsünüz ki, insan təbiəti adlanan nə isə sirli bir qüvvə mövcuddur və o, bizim əməllərimizdən hiddətlənərək günün birində üsyan edəcək. Amma insan təbiətini yaradanların özümüz olduğunu unudursunuz. İnsanları istənilən şəklə salmaq mümkündür. Bəlkə yenə keçmiş xülyanıza qayıtmısınız - proletariatın və kölələrin ayağa qalxıb bizi devirəcəyi fikrinə düşmüsünüz? Bu fikri başınızdan birdəfəlik çıxarın. Proletariat həyət heyvanı kimi gücsüz və itaətkardır. Bəşəriyyət - Partiya deməkdir. Qalan heç nəyin önəmi yoxdur.

- Bir şey deyə bilmərəm... Sonda onlar sizi əzəcəklər. Əvvəl-axır kim olduğunuzu anlayacaqlar və o zaman sizi parça-parça edəcəklər.

- Bəlkə siz artıq təhlükənin hansısa əlamətlərini görürsünüz? Belə ehtimal üçün əlinizdə tutarlı dəlillər var?

- Yox. Bu, sadəcə, mənim inancımdır. Sizi iflas gözlədiyinə qəti əminəm. Kainatda... bilmirəm, elə qüvvə, elə ruh, ya da elə bir prinsip var ki, siz ona heç zaman üstün gələ bilməyəcəksiniz.

- Uinston, siz Allaha inanırsınız?

- Yox.

- Bəs onda hansı qüvvə bizi məğlub edəcək?

- Bilmirəm. İnsan ruhu.

- Siz özünüzü də insan sayırsınız?

- Əlbəttə.

- Siz insansınızsa, Uinston, o zaman sonuncu insansınız. Nəsliniz kəsilmişdir. Yer kürəsinin sakinləri artıq bizik! Tamamilə tək qaldığınızın fərqindəsinizmi? Siz tarixdən kənardasınız, siz mövcud deyilsiniz.

Onun sifəti birdən sərtləşdi, kəskin səslə soruşdu:

- Bəlkə güman edirsiniz ki, mənəvi cəhətdən bizdən - qəddar və yalançı adamlardan daha yüksəkdə dayanırsınız?

- Bəli, mənəvi cəhətdən özümü sizdən daha üstün sayıram.

O`Brayen cavab vermədi. Yaranan sakitlikdə Uinston iki adamın danışığını eşitdi. Az keçməmiş birinin öz səsi olduğunu tanıdı. O, Qardaşlığa daxil olmaq fikrinə düşdüyü axşam O`Brayenlə mənzilindəki söhbətlərinin lent yazısı idi. Uinston özünün aldatmağa, oğurlamağa, öldürməyə, saxtalaşdırmağa, narkomanlıq və fahişəlik yaymağa, adamları zöhrəvi xəstəliklərə yoluxdurmağa, körpə uşağın sifətinə sulfat turşusu atmağa hazır olması haqdakı vədlərini yenidən

dinlədi. O'Brayen səbirsizliklə əlini yellədi. Sanki bu hərəkəti ilə söhbətə sona qədər qulaq asmağın mənasız olduğunu bildirirdi. Hansısa düyməni basdı, səslər kəsildi.

- Çarpayıdan qalxın! - deyə əmr etdi.

İlmələr öz-özünə açıldı. Uinston ayaqlarını döşəməyə salladı, özünə inamsız halda ayaq üstə dayandı.

- Siz sonuncu insansınız, - O'Brayen dedi. - Siz bəşər ruhunun mühafizəçisiniz. Gərək özünüzü olduğunuz kimi görəsiniz. Paltarlarınızı çıxarın.

Uinston kombinezonu əynində saxlayan ilgəyi açdı. Şalvarının zəncirbəndini çoxdan söküb çıxarmışdılar. Həbs olunduğu gündən bəri paltarlarını soyunub-soyunmadığını yadına sala bilmədi. Kombinezonunun altında bir vaxtlar alt paltarı sayılan saralmış, cındır əski parçaları vardı. Onları da sivirib döşəməyə atandan sonra otağın uzaq küncündəki iri, üçlaylı güzgünü gördü. Yaxınlaşdı və yerində donub qaldı. Qəflətən sinəsindən acı bir fəryad qopdu.

- Hə, nə oldu? - O'Brayen soruşdu. - Ortada dayanın. Onda özünüzə hər tərəfdən tamaşa edib həzz ala biləcəksiniz.

Uinston qorxusundan yerində donub qalmışdı. Güzgüdən ona beli bükülmüş, rəngi bozarmış skeleti xatırladan əcaib məxluq baxırdı. Məsələ təkcə güzgüdəki adamın Uinstonu xatırlatmasında deyildi. Onun görünüşü insanda ikrah hissi doğuracaq dərəcədə ürəkbulandıran idi. Uinston güzgüyə daha da yaxınlaşdı. Güzgüdən ona baxan məxluqun beli əyildiyindən, sifəti bir az da qabağa çıxmışdı. Üzünün zavallı məhbus görkəmi, fır basmış alnı, keçəl başı, əzilib yastılanmış burnu, göyərmiş almacıq sümükləri, gözlərinin qorxudulmuş vəhşi ifadəsi mənzərəni daha da tamamlayırdı. Üzünü qırış basmışdı, ağzı batıb sifətinin içinə çəkilmişdi. Bu, onun siması idi.Uinston bütün aradan keçən vaxtda daxilən deyil, zahirən daha çox dəyişdiyini düşündü. Sifətində həkk olunan ifadə yaşadığı hisslərdən tamamilə fərqli idi. Qısa müddət ərzində saçının çoxu tökülmüşdü. Əvvəlcə saçının ağardığını düşündü. Lakin əlini başına çəkəndə ağaran yerlərin tük deyil, dəri olduğunun fərqinə vardı. Əlindən və sifətinin çevrəsindən başqa, bütün bədəni neçə müddətdən bəri yığılmış çirkdən bozarmışdı. Bəzi yerlərdə çirkin altından işgəncə izi olan çapıqlar və qançırlar görünürdü. Topuğundakı varikoz yarası daha da böyüyüb qızarmışdı, qıraqlarından dəri sallanan iltihab basmış pis qoxulu ət parçasına çevrilmişdi. Amma Uinstonu ən çox qorxudan bir dəri, bir sümüyə dönməsi oldu. Dərisinin altından çıxmış nazik qabırğaları, ensiz döş qəfəsi onu həqiqi skeletə bənzədirdi. Ayaqları elə arıqlayıb qurumuşdu ki, baldırları budundan yoğun görünürdü. O'Brayenin onu nə üçün güzgünün layları arasında dayanmağa məcbur etməsinin səbəbini anladı. Beli heyrətamiz dərəcədə əyilmişdi. Arıq çiyinləri qabağa çıxdığından, sinəsinin batıqlığı daha aydın nəzərə çarpırdı. Nazik boynu sanki daha da irilənmiş başının ağırlığını güclə saxlayırdı. Soruşan olsaydı, güzgüdə gördüyü adamın bir neçə sağalmaz xəstəlikdən əziyyət çəkən altmış yaşlı qoca olduğunu deyərdi.

- Bəzən düşünürdünüz ki, - arxadan O'Brayenin səsi eşidildi, - mənim, Daxili Partiya üzvünün sifəti qoca və yorğun görünür. İndi öz sifətiniz haqqında nə deyəcəksiniz?

Uinstonun çiyinlərindən tutub özünə tərəf çevirdi. Üzbəüz dayandılar.

- Görün nə gündəsiniz, - dedi. - Bədəninizdən üfunət qoxusu gəlir. Dırnaqlarınızın altındakı çirkə baxın! Ayağınızdakı iltihablamış, irini axan yaraya baxın! Bu dəqiqə əsl keçi iyi verdiyinizdən xəbəriniz var? Yəqin burnunuz artıq öz üfunətinizə alışıb. Baxın, necə üzülüb əldən düşmüsünüz! Görürsünüz? İndi qollarınızı baş barmağımla çeçələ barmağımın arasında tutub sıxa bilərəm. Boynunuzu yerkökü kimi ortadan iki yerə qopara bilərəm. Bizim əlimizə düşəndən bəri iyirmi beş kiloqram çəki itirdiyinizdən xəbəriniz var? Hətta saçınız da çəngə-çəngə tökülür. Baxın!

O, Uinstonun başından yapışıb bir topa tükünü dartıb çıxardı.

- Ağzınızı açın. Doqquz, on, on bir. Cəmisi on bir dişiniz qalıb. Bura gələndə ağzınızda neçə diş vardı? Qalanlar da yerində oynayır. Baxın...

O'Brayen iki barmağı ilə Uinstonun salamat qalmış qabaq dişlərinin birindən yapışdı. Çənəsindən sızıltılı ağrı keçdi. O'Brayen dişi kötüyü ilə birlikdə dartıb yerindən çıxardı. İyrənə-iyrənə kameranın küncünə atdı.

- Diri-diri çürüyürsünüz, - dedi. - Tezliklə əriyib yoxa çıxacaqsınız. İndi siz nəsiniz? Bir kisə sür-sümük, həlməşik. Haydı, bir də güzgüyə tərəf çevrilin. Oradan üzünüzə kimin baxdığını görürsünüz? Bəli, bu sonuncu insandır. Siz insansınızsa, deməli, insanlıq çox miskin vəziyyətdədir. İndi paltarlarınızı geyinin.

Uinston sözə baxmayan əlləri ilə kombinezonunu asta-asta üstünə çəkməyə başladı. İndiyə kimi necə arıq və zəif olduğunu hiss etməmişdi. Başında yalnız bir fikir dolaşırdı: burada onu düşündüyündən daha çox saxlamışdılar. Cır-cındırını əyninə keçirəndən sonra birdən-birə məhv olmuş bədəninə yazığı gəldi. Özü də nə etdiyinin fərqinə varmadan dizi üstə döşəməyə çöküb başını çarpayının yanındakı alçaq kətilə qoydu və hönkür-hönkür ağlamağa başladı. Necə eybəcər vəziyyətə düşdüyünü görürdü, əynindəki çirkli, cındır alt paltarı ilə parlaq işığın altında oturub ağlamağın necə acınacaqlı və miskin mənzərə olduğunu başa düşürdü. Amma heç cür özünü saxlaya bilmirdi.

- Həmişə belə davam etməyəcək, - deyə O'Brayen onu sakitləşdirməyə çalışırdı. - İstədiyiniz zaman bu vəziyyətdən xilas ola bilərsiniz. Hər şey özünüzdən asılıdır.

- Bunu siz etdiniz!-Uinston yenidən hönkürdü. - Məni bu günə salan siz oldunuz.

- Yox, Uinston, siz özünüzü belə vəziyyətə saldınız. Partiyaya qarşı çıxmaqla bu yolu seçdiniz. Elə ilk addımlarınızdan hər şeyin sonunu görmək mümkün idi. Əvvəlcədən təsəvvürünüzə gətirə bilməyəcəyiniz heç bir hadisə baş verməyib.

Bir az ara verdi, sonra yenidən davam etdi.

- Doğrudur, sizi döymüşük, Uinston. İradənizi sındırmışıq. Bədəninizin nəyə çevrildiyini indicə özünüz gördünüz. Ağlınız da eyni vəziyyətdədir. Düşdüyünüz bu vəziyyətdən nə isə böyük bir qürur hissi keçirdiyinizi düşünmürəm. Sizi təpikləyirdilər, dəyənəyin altına salırdılar, təhqir edirdilər, ağrıdan bağırırdınız, döşəmədə qanınızın və qusuntunuzun üstündə o baş-bu başa sürünürdünüz. Yalvarıb aman diləyirdiniz, hamını və hər şeyi satırdınız, ələ verirdiniz. Uğradığınız bu dəhşətli tənəzzüldən də qorxunc bir şey ağlınıza gəlirmi?

Uinstonun hönkürtüsü dayanmışdı, amma göz yaşları hələ də yanaqlarına axırdı. Gözlərini qaldırıb O'Brayenə baxdı.

- Mən Culiyanı satmadım, - dedi.

O'Brayen fikirli halda dayanmışdı.

- Elədir, - dedi. - Elədir. Tamamilə doğrudur. Siz Culiyanı ələ vermədiniz.

Uinstonun ürəyi yenə də O'Brayenə qarşı heç bir qüvvənin əskildə bilməyəcəyi rəğbət hissi ilə doldu. "Gör bu insanda nə qədər ağıl var! Nə qədər ziyalılıq var!" - deyə düşündü. İndiyə qədər O'Brayenin onu ilk kəlmədən anlamadığı bircə hala da təsadüf etməmişdi. Onun yerinə başqası olsaydı, dərhal sözünü ağzında qoyub Culiyanı dönə-dönə satdığını deyərdi. Uinstondan işgəncə altında hansı məlumatları almamışdılar? Qız haqqında nə bilirdisə hamısını danışmışdı, Culiyanın vərdişləri, xarakteri, keçmiş həyatı ilə bağlı bildiklərinin bitdəbitdə açıb ortaya qoymuşdu. Görüşləri zamanı baş verənləri ən intim detallarına qədər təsvir etmişdi, özünün nə dediyini, qızın nə cavab verdiyini bircə-bircə xırdalamışdı. Qara bazardan aldıqları ərzaqdan tutmuş yataq həyatlarına, Partiya əleyhinə gizli sui-qəsd niyyətlərinə qədər hər şey barəsində məlumat vermişdi. Lakin məhz indi nəzərdə tutduğu mənada Culiyanı ələ verməmişdi. Culiyaya olan məhəbbətinə xəyanət etməmişdi, onu əvvəlki kimi sevirdi, ürəyində yaşatdığı hisslər qətiyyən dəyişməmişdi. O'Brayen əlavə izahata ehtiyac duymadan Uinstonun nə demək istədiyini dərhal anlamışdı.

- Mümkünsə, deyin, - Uinston soruşdu, - məni tezmi güllələyəcəklər?

- Yəqin müəyyən qədər gözləmək lazım gələcək ,-deyə O Brayen cavab verdi, - Sizin məsələniz bir az mürəkkəbdir. Amma ümidinizi itirməyin. Burada tez, ya gec hamı müalicə olunur. Sonda isə sizi güllələyəcəyik.

IV FƏSİL

İndi Uinstonun vəziyyəti xeyli yaxşılaşmışdı. Saxlandığı yerdə ümumiyyətlə gün məfhumundan danışmaq olardısa, özünün hər gün ətə-cana gəldiyini və qüvvətləndiyini hiss edirdi.

Yenə də gecə-gündüz süd rəngli işıq yanır, arasıkəsilməz uğultu eşidilirdi. Lakin indiki kamera əvvəlkilərlə müqayisədə daha rahat idi. Taxtın üstünə döşək salınmış, yastıq qoyulmuşdu. Küncdə oturmağa kətil vardı. Onu hamama aparırdılar, istədiyi vaxt qalay tasda əl-üzünü yumasına icazə verirdilər. Bəzən hətta yuyunmaq üçün isti su da gətirirdilər. Təzə alt paltarı və təmiz kombinezon dəsti vermişdilər. Varikoz yarasının üstünə hansısa sakitləşdirici məlhəm qoyub sarımışdılar. Qırılmış dişlərinin kötüklərini çıxarmış, əvəzində təzə protez düzəltmişdilər.

Həbsindən həftələr, bəlkə də aylar keçmişdi. Maraqlansaydı, indi vaxtın hesabını aparmaq da mümkün idi. Çünki yeməyi dəqiq zaman fasilələri ilə verirdilər. İyirmi dörd saat ərzində üç dəfə yemək gətirildiyini təxmin edirdi. Bəzən dumanlı şəkildə yeməyin gündüz, yoxsa gecə verildiyi barəsində düşünməyə çalışırdı. Yemək təəccüb doğuracaq dərəcədə keyfiyyətli idi. Gündə bir dəfə mütləq ət xörəyi olurdu. Bir dəfə isə dolu qutu siqaret gətirmişdilər. Kibriti yox idi, amma yemək işinə baxan qaradinməz nəzarətçi sakitcə siqaretini öz alışqanı ilə yandırmışdı. Yadırğadığından, ilk dəfə tüstüdən ürəyi bulandı. Tezliklə köhnə vərdişi qayıtdı və hər dəfə yeməkdən sonra damağına yarım siqaret qoyaraq aldığı zövqün ömrünü bir müddət uzada bildi.

Ona kənarına karandaş qırığı bağlanmış ağ qrifel lövhə də vermişdilər. İlk vaxtlar Uinston lövhədən istifadə etmirdi. Hətta oyaq vaxtlarında da daim gərgin vəziyyətdə olurdu. Çox vaxt bir yeməklə digəri arasındakı fasilədə əl-qolunu tərpətmədən sakitcə uzanırdı. Bəzən yuxuya gedirdi, bəzən isə narahatlıqla dolu dumanlı xəyallara dalır, hətta sonda gözlərini açmağa da qorxurdu. Artıq düz gözünün içinə vuran gur işıqda yatmağa öyrənmişdi. Gördüyü yuxuların daha ardıcıl, əlaqəli olmasını istisna etmək şərti ilə işıqda, yaxud qaranlıqda yatmağın elə bir fərqi yox idi. Bu arada tez-tez yuxu görürdü. Hamısı da xoşbəxt sonluqla bitən yuxular idi. Bəzən Qızıl Ölkədə olurdu. Bəzən də anası, Culiya və O'Brayenlə birlikdə parlaq günəş işığına qərq olmuş göz oxşayan, möhtəşəm xarabalıqlarda otururdular. Heç nə etmirdilər, sadəcə, günün altında əyləşir, adi şeylərdən danışırdılar. Oyaq vaxtı haqqında düşündüyü şeylər də mütləq yuxuları ilə bağlı olurdu. Artıq ağrı stimulu aradan götürüldüyündən, sanki ağlını hərəkətə gətirməkdə bir qədər çətinlik çəkirdi. Amma darıxmırdı. Nə kiminləsə danışmaq, nə də fikrini başqa şeylə məşğul etmək istəyirdi. Kamerada tək qalmağına, istintaqa aparılmadığına, döyülmədiyinə, üst-başının və yan-yörəsinin təmiz olmağına, doyunca yeyə bildiyinə görə həyatından çox razı idi.

Vaxt keçdikcə daha az yatırdı. Amma yenə əvvəlki kimi çarpayıdan durmağa ehtiyacı hiss etmirdi. Yalnız bir şey-sakitcə yerində uzanmaq və orqanizminin necə güc topladığını müşahidə etmək istəyirdi. Tez-tez barmağını bədəninin müxtəlif yerlərinə toxundurub bütün bunların yuxu olmadığını, əzələlərinin həqiqətən də bərkiyib möhkəmləndiyini, dərisinin dartılıb hamarlandığını yoxlayırdı. Nəhayət, çəkisinin müəyyən qədər artması ilə bağlı məsələdə yəqinlik hasil etdi. Artıq budları baldırından xeyli yoğun görünürdü. Dirçəldiyinə əmin olduqdan sonra, ilk vaxtlar həvəssiz də olsa, hər gün hərəkət etməyə başladı. Tezliklə addımlarının sayını hesablayaraq, kamerada birnəfəsə üç kilometrə qədər yeriyə bildiyini aydınlaşdırdı. Əyilmiş çiyinləri də bir qədər düzəlmişdi. Daha çətin təmrinlərə əl atmaq istədi. Amma təəccüb və utanc içərisində onların öhdəsindən gələ bilməyəcəyini anladı. Sürətlə yeriyə bilmirdi, kətili düz açılmış əlində saxlaya bilmirdi, bir şeyə söykənmədən tək ayağı üstdə dayana bilmirdi. Çömələndən sonra ayağa qalxmağın nə qədər çətin olduğunu da anladı. Baldırlarında və budlarında başlayan dəhşətli ağrılar dikəlib ayaq üstdə dayanmasına imkan vermirdi. Qarnı üstə uzanaraq əllərini yerə dayayır, bədənini döşəmədən qaldırmağa cəhd edirdi. Lakin nə qədər çalışıb-çabalasa da, döşəmədən hətta bir neçə santimetr də yuxarı qalxa bilmədi. Bir neçə gün yaxşı yeyəndən sonra bu çətinliyin də öhdəsindən gəldi. Bir neçə gün conra isə, çətinlik çəkmədən döşəmənin üstündə altı dəfə dartına bilirdi. O, hətta günü-gündən dəyişən, güc toplayan bədəni ilə fəxr etməyə başlamışdı. Bəzən sifətinin də artıq normal şəklə düşdüyünü fikirləşirdi. Amma əlini tükləri tökülmüş başına çəkəndə güzgüdən ona baxan sir-sifəti əyilmiş, üzünün dərisi qırışıb-sallanmış adamı xatırladı.

Əqli qabiliyyəti daha sürətlə bərpa olunurdu. Taxtın üstündə oturub arxasını divara söykəyir, qrifel lövhəni dizinin üstünə qoyub yenidən təhsili ilə məşğul olurdu.

O, təslim bayrağı qaldırmışdı. Artıq qəti qərarını vermişdi. Əslində isə, təslim olmağa bu qərarı qəbul etməmişdən çox əvvəl hazır idi. Gerçəyi indi dərk edirdi. Sevgi Nazirliyinə düşdüyü ilk dəqiqədən, hətta daha əvvəl, Culiya ilə birlikdə köməksiz vəziyyətdə dayanıb teleekrandan eşidilən polad kimi cingiltili səsin əmrlərini dinlədiyi andan Partiyanın hakimiyyəti əleyhinə çıxmağın nə qədər yelbeyin və cəfəng hərəkət olduğunu anlamışdı. Yalnız indi başa düşürdü ki, son yeddi il ərzində Fikir Polisi onu böyüdücü şüşə arxasındakı böcək kimi daim nəzarətdə saxlayıb. Heç bir hərəkəti, bərkdən dediyi heç bir söz onların diqqətindən yayınmayıb, mahiyyətinə nüfuz edə bilmədikləri heç bir fikri, heç bir niyyəti qalmayıb. Hətta guya biclik işlədərək gündəliyinin üstünə qoyduğu kiçicik toz dənəsini də məharətlə əvvəlki yerinə qaytarıblar. Ona söhbətlərinin yazısını dinlədirdilər, foto-şəkillərini göstərirdilər. Arasında Culiya ilə birgə çəkilmiş şəkilləri də vardı. Bəli, hətta... Yox, o daha Partiyaya qarşı mübarizə apara bilməzdi. Çünki Partiya haqlı idi. Başqa cür də ola bilməzdi. Məgər əbədi, kollektiv zəkanın səhv etməsi mümkün olan iş idi? Bəs onun qərarlarını hansı əbədi meyarlarla qiymətləndirmək olardı? Sağlam ağıl-statistik anlayışdır. Partiyanın istədiyi kimi düşünmək üçün sadəcə öyrənmək lazımdır. Yalnız...

Barmaqları arasında tutduğu karandaş ona yoğun və yöndəmsiz göründü. Uinston ağlına gələn ilk fikirləri yazmağa başladı. Əvvəlcə iri hərflərlə Partiya şüarını yazdı.

AZADLIQ-KÖLƏLİKDİR

Növbəti sətirdə isə, çox düşünmədən özünün yeni həqiqətini ifadə etdi:

İKİ ÜSTƏGƏL İKİ BEŞƏ BƏRABƏRDİR.

Arada məcburi fasilə verməli oldu. Ağlı sanki zəifliyindən xəcalət çəkərək bir yerə cəm olmaq istəmirdi. Növbəti sətirdə nə yazacağını yaxşı bilirdi, lakin fikrini dəqiq ifadə etməyə çətinlik çəkirdi. Hər şey ağlına birdən gəldi. Amma elə-belə təsadüfən yox, yeni mənimsədiyi məntiqi mühakimə üsulunun yardımı ilə. Uinston yazdı:

ALLAH - HAKİMİYYƏTDİR.

O, artıq hər şeyi qəbul etmişdi. Keçmişi dəyişdirmək mümkündür. Keçmiş heç zaman dəyişməmişdir. Okeaniya İstasiya ilə müharibə edir. Okeaniya həmişə İstasiya ilə müharibə etmişdir. Cons, Aronson və Rezerford ittiham olunduqları cinayətlərdə günahkardırlar. Onların günahsızlığının alibisi sayıla biləcək foto-şəkli heç zaman görməyib. Şəkil yerli-dibli olmamışdı. Sadəcə, özünün uydurması idi. Uinston bunun tamamilə əksi olan şeyləri xatırladığını yadına saldı. Lakin onlar saxta xatirələr idi, özünüaldatma halları idi. Hər şey nə qədər də sadə imiş! Yalnız itaət et, ondan sonra bütün işlərin qaydasına düşəcək. Mübarizə aparmaq - nə qədər çalışıb-çapalasan da hər dəfə növbəti dalğa ilə səni əvvəlki yerinə qaytaran axına qarşı üzmək idi. Qəflətən geriyə dönüb özünü suyun hökmünə təslim edəndə isə, heç bir müqavimətlə üzləşmirdin. Sənin məsələyə münasibətindən başqa, ortada heç bir şey dəyişmirdi. Olacağa çarə yoxdur. İndi Partiyaya asi düşməsinin səbəblərini öz-özünə də aydınlaşdıra bilmirdi. Hər şey nə qədər sadə idi. Bircə...

Hər şey həqiqətə uyğundur. Adına "təbiət qanunu" deyilən anlayış xalis cəfəngiyyatdır. Cazibə qanununun özü cəfəngiyyatdır. O`Brayen deyirdi ki, "İstəsəm, bu dəqiqə döşəmədən qopub, sabun köpüyü kimi havada uça bilərəm". İndi həmin sözləri əsaslandırmaq Uinston üçün elə də çətin deyildi. "O, döşəmədən qopub havada uçduğunu düşünürsə, mən də eyni anda onu uçan vəziyyətdə gördüyümü düşünürəmsə, hər şey öz həllini tapır". Lakin qəzaya uğramış gəminin qalıqları gözlənilmədən suyun səthinə qalxdığı kimi, onun da beynində qəfil fikir peyda oldu: "Gerçəklikdə bu mümkün olan şey deyil. Biz o səhnəni xəyalımıza gətirə bilərik. Bu isə qarabasmadır". Ani fikri dərhal başından çıxardı. Yanlışlıq göz qabağında idi. Güman edilir ki, haradasa hamıdan kənarda "gerçək" hadisələrin baş verdiyi "gerçək" dünya mövcuddur. Lakin bu dünya haradan peyda ola bilərdi? Müəyyən bir şey haqqında şüurumuzdakı bilgilərdən başqa hansı məlumat əldə edə bilərik? Bütün hadisələr şüurda cərəyan edir. Hamının şüurunda baş verən hadisə isə, artıq gerçəklikdə də baş vermiş olur.

Uinston səhvlərini aşkara çıxarmağa çətinlik çəkmirdi. Ona görə də yeni səhvlərə yol vermək qorxusu yox idi. Yaxşı başa düşürdü ki, bir də heç zaman, heç bir vəhclə yanlış fikirlər beyninə yol tapmamalıdır. Təhlükəli fikir yaxınlaşan kimi beyindəki kor nöqtə hərəkətə keçməlidir. Bu önləmə instinktiv, təhtəlşüur baş verməli, beyin təhlükə anında özünü durdurmağı bacarmalıdır. Yenidildə proses elə özünüdurdur adlanırdı.

Özünüdurdur sistemi əsasında fikirlərini təkmilləşdirməyə başladı. Özünə "Partiya deyir ki, Yer kürə şəklində deyil", yaxud "Partiya deyir ki, buz sudan ağırdır" tipli tapşırıqlar verir, sonra isə beynini yanlış fikirləri inkar edən dəlilləri anlamamağa, yaxud əks-arqumentləri dərk etməməyə hazırlayırdı. Bu o qədər də asan iş deyildi. "İki üstəgəl iki beşə bərabərdir" tipli ifadələrin meydana çıxardığı riyazi problemlər isə, ümumiyyətlə, intellektual imkanları fövqündə idi. Burada hansısa əqli kəndirbazlıq da tələb olunurdu. İlk anda məntiqi az qala zərgər dəqiqliyi ilə işə salmaq, sonra isə yol verilmiş kobud məntiqi səhvi görməmək bacarığı tələb olunurdu. Səfehlik də intellekt qədər zəruri idi. Amma o da intellekt kimi ipə-sapa çətin yatırdı.

Fikrini məşğul edən məsələlərdən biri də onların güllələnmə hökmünü nə zaman yerinə yetirəcəkləri ilə bağlı idi. O`Brayen "Hər şey sizdən asılıdır" - demişdi. Lakin Uinston hər hansı düşünülmüş addımla bu prosesi yaxınlaşdırmağın mümkün olmadığını başa düşürdü. On dəqiqə sonra da, on il sonra da güllələyə bilərdilər. İllərlə təkadamlıq kamerada saxlaya bilərdilər, icbari əmək düşərgəsinə göndərə bilərdilər, hətta müəyyən müddətə azadlığa buraxa bilərdilər. Bəzən belə də edirdilər. Güllələməmişdən əvvəl həbs və istintaqın bütün əzabları ilə yenidən təkrarlanması tamamilə mümkün idi. Dəqiq bildiyi yeganə şey ölümün heç vaxt gözlənilən anda gəlməməsi idi. Ənənə, gizli ənənə (düşünürdü ki, heç vaxt eşitmədiyi bu sözü haradan öyrənib?) ölümə məhkum olunanların bir kameradan o birisinə aparılarkən koridorda qəfildən başlarının arxasına atəş açmaqla öldürüldüklərini deyirdi.

Bir gün, - əslində "gün" sözü tamamilə şərti idi, çünki həmin vaxt gecə yarısı da ola bilərdi, - Uinston qəribə və işıqlı bir yuxu gördü. Başına çaxılacaq gülləni gözləyə-gözləyə koridorla gedirdi. Bir an sonra həyatının sonuna çatacağını bilirdi. Hər şey hazırlanmışdı, yoluna qoyulmuşdu, sahmana salınmışdı. Daha şübhə yeri qalmamışdı, sübuta ehtiyac duyulmurdu, ağrı və qorxu hissi yoxa çıxmışdı. Bədəni sağlam və möhkəm idi. Hərəkət etmək imkanı yarandığına sevinərək günəşli havada gəzişirmiş kimi yüngül addımlarla yeriyirdi. Bura Sevgi Nazirliyinin uzun, dar koridoru deyildi. Eni bəlkə də bir kilometrə çatan, günəş işığına qərq olmuş geniş yol idi. Uyuçdurucunun təsirindən havalanmış kimi bu yolla uçurdu. Yenə Qızıl Ölkədə idi, dovşanların kənarındakı otları qırpıb yedikləri cığırdan keçirdi. Mamırlar ayaqlarının altında yatıb-qalxırdı, günəş şüaları üzünü isidirdi. Çəmənliyin kənarındakı göyrüş ağacının budaqları mehdən asta-asta silkələnirdi. Bir az aralıda isə kiçik çay axırdı. Söyüd budaqlarının altındakı balaca nohurda qızılı rəngli balıqlar üzürdü.

Uinston titrəyib qorxu içində gözlərini açdı. Belinin ortasından tər axırdı. Yuxudan öz səsinə oyanmışdı.

- Culiya! Culiya! Mənim sevimli Culiyam! Culiya! - deyə bərkdən qışqırırdı.

Uinston yarıyuxulu vəziyyətdə olduğundan hələ bir müddət də qızın burada, lap yaxınlığında olduğunu düşündü. Culiya onun yanında, həm də ürəyinin içində idi. Elə bil dərisinin altına yerimiş, bədəninin ayrılmaz hissəsinə çevrilmişdi. Bu anlarda Culiyanı azadlıqda və bir yerdə olduqları vaxtlardan qat-qat artıq sevirdi. Qızın sağ olduğunu, onun köməyinə ehtiyac duyduğunu hiss edirdi.

Arxası üstdə uzanıb fikirlərini bir yerə toplamağa çalışdı. Nə etmişdi? Ani zəifliyi ilə kölə həyatını nə qədər uzatmışdı?

İndicə qapının arxasından ayaq səsləri eşidiləcək. Onlar belə özbaşınalığı heç vaxt cəzasız qoymazlar. Əgər əvvəllər fərqinə varmamışdılarsa, indi qol qoyduğu razılaşmanı pozduğunu dərhal başa düşəcəklər. Deməli üzdə Partiyaya tabe olub, amma daxilən yenə Partiyaya nifrət edir. Əvvəllər qara fikirlərini zahiri razılaşma pərdəsi altında gizlədirdi. İndi geriyə doğru daha bir addım atıb: şüurunu təslim edib, ruhunu isə toxunulmaz saxlayacağına ümid bəsləyir. Uinston yanlış yolda olduğunu bilirdi. Yanlışı daha üstün tuturdu. Onlar da Uinstonu başa düşməlidirlər. O`Brayen başa düşməlidir. Bir səfeh çığırtı sirrinin üstünü açmışdı.

Hər şeyi təzədən başlamalı olacaq. İllərlə vaxt lazım gələcək. Uinston indi necə göründüyünü təxmini də olsa öyrənmək üçün əlini sifətinə çəkdi. Üzünü dərin qırışlar basmışdı, almacıq sümükləri sivriləşmişdi, burnu yastılanıb içəri batmışdı. Güzgüdə özünü axırıncı dəfə yeni protez dişləri qoyulanda görmüşdü. Sifətinin necə göründüyünü bilmədən üzünə anlaşılmaz ifadə vermək çox çətindir. İstənilən halda təkcə mimika ilə vəziyyətdən çıxmaq mümkün olmayacaqdı. Qorumaq istədiyin sirri ilk növbədə özündən gizlətməlisən - bu həqiqəti Uinston yalnız indi başa düşdü. Əlbəttə, onun yaddaşında yaşadığını xatırlamalısan. Lakin ehtiyac duyulmayana qədər hər hansı şəkildə, ələlxüsus da ad çəkmək anlamında şüuruna yol tapmasına imkan verməməlisən. Bu gündən etibarən yalnız düzgün fikirləşməməlidir, həm də hər şeyi düzgün hiss etməli, düzgün yuxular görməlidir. Nifrəti isə, bədənində əmələ gələn, orqanizminin bir hissəsinə çevrilən, lakin onunla bağlılığı olmayan yad cisim, məsələn, kista kimi içinin dərinliklərində gizlətməyi bacarmalısan.

Nə vaxtsa güllələmək qərarı verəcəklər. Ona dəqiq vaxt deməyəcəklər, lakin bir neçə saniyə əvvəl, yəqin ki, bunu mütləq hiss edəcək. Koridorda addımladığı vaxt arxadan vuracaqlar. Yəqin ki, bu işə on saniyə kifayətdir. O zaman daxilində bir tufan qopacaq. Heç bir söz demədən, addımlarını yavaşıtmadan, tükü də tərpənmədən qəflətən üzündəki maskanı çıxarıb atacaq, sinəsində qaynayan nifrətə yol açacaq. Nifrəti nəhəng alov dili kimi hər tərəfi yalayacaq. Və yəqin ki, eyni anda da güllə beynini deşəcək. Nə tez, nə də gec! Beynini istədikləri şəkildə dəyişdirməyə macal tapmadan vurub dağıdacaqlar. Tövbə qapısına gətirə bilmədikləri, cəzalandırmağa yol tapmadıqları yad fikir onlar üçün əbədilik əlçatmaq olacaq. Onun islah edilməmiş beyninə güllə çaxmaqla öz ideallarında qara bir deşik açacaqlar. Onlara nifrət edə-edə ölmək özü də azadlıqdır!

Uinston gözlərini yumdu. Bu addımı atmaq ağlını intizama öyrətməkdən çətindir. Söhbət özünü alçaltmaqdan, ləyaqətini həmişəlik itirməkdən gedir. O, artıq çirkabın əlçatmaz, gözişləməz qatına enib. Bundan daha dəhşətli, ürəkbulandıran şey nə ola bilər? Böyük Qardaş haqqında fikirləşməyə başladı. Böyük Qardaşın qara bığlı, nəhəng (şəklini yalnız plakatlarda gördüyündən, sifətinin eninin bir metrdən az olmadığını düşünürdü) portreti həmişə insanı təqib edən baxışları ilə gözləri önündə canlandı. İndi Böyük Qardaşa həqiqi münasibəti necə idi?

Koridorda ağır addım səsləri eşidildi. Dəmir qapı cingilti ilə açıldı. O`Brayen kameraya girdi. Arxasında mum sifətli zabit və qara paltarlı nəzarətçilər vardı.

- Ayağa qalxın! - O`Brayen əmr etdi. - Bura gəlin.

Uinstonla üzbəüz dayandı. O`Brayen güclü əlləri ilə onun çiyinlərindən yapışıb sifətini özünə yaxınlaşdırdı.

- Məni aldatmaq istəyirdiniz? - deyə soruşdu. - Səfeh hərəkətdir. Düz dayanın. Gözlərimin içinə baxın.

O`Brayen bir anlıq susdu. Sonra nisbətən yumşaq səslə sözünə davam etdi.

- Siz islah olunursunuz. İntellektual cəhətdən, demək olar ki, yalnız cüzi qüsurlar qalıb. Emosional baxımdan isə heç bir irəliləyişə nail olmamısınız. Düzünü deyin,Uinston. Mənə yalan danışmağa çalışmayın. Yadınızda saxlayın ki, bu heç vaxt diqqətimdən yayınmır. Düzünü deyin: Böyük Qardaşa həqiqi münasibətiniz necədir?

- Mən ona nifrət edirəm.

- Siz ona nifrət edirsiniz. Yaxşı. Onda son addımınızı atmaq vaxtıdır. Siz Böyük Qardaşı sevməlisiniz. Böyük Qardaşa itaət etmək azdır. Onu sevmək lazımdır.

O, Uinstonu yüngülcə nəzarətçilərə tərəf itələyərək əmr verdi:

- 101-ci otağa!

V FƏSİL

Məhbəs həyatının hər mərhələsində Uinston pəncərəsiz binanın hansı hissəsində olduğunu bilir, yaxud təxmin edirdi. Bəlkə atmosfer təzyiqi arasında fərq də burada öz rolunu oynayırdı. Nəzarətçilərin onu döydükləri kamera yer səthindən aşağıda idi. O` Brayenin istintaq apardığı otaq lap yuxarıda, dama yaxındı.Gətirildiyi kamera isə yerin lap altında, zirzəminin dibində idi.

Otaq indiyə qədər saxlandığı kameraların hamısından böyük idi. İçəridə gördüyü şeylər dəqiq yadında qalmamışdı. Amma qarşısındakı üstü yaşıl mahud örtüklü iki kiçik masanı yaxşı xatırlayırdı. Masalardan biri təxminən iki addımlığında, digəri isə nisbətən aralıda, qapının ağzında idi. Uinstonu kresloya elə möhkəm sarımışdılar ki, bədənin heç yerini, hətta başını da tərpədə bilmirdi. Boynunun arxasına qoyduqları yastıqça başını dimdik saxladığından, yalnız qarşısına baxırdı.

Əvvəlcə otaqda tək idi. Sonra qapı açıldı, O`Brayen içəri girdi.

- Bir dəfə məndən 101-ci otaqda nə olduğunu soruşmuşdunuz, - deyə sözə başladı. - Demişdim ki, cavabı özünüz bilirsiniz. Hamı bilir. Dünyadakı ən dəhşətli şeylər 101-ci otaqda baş verir.

Qapı yenə açıldı. Nəzarətçi qucağında məftildən toxunmuş qutu, yaxud qəfəsə oxşayan bir şey gətirdi. Onu kənardakı masanın üstünə qoydu. O`Brayenin bədəni qarşısını kəsdiyindən. Uinston kameraya nə gətirildiyini görə bilmirdi.

- Dünyada ən dəhşətli şey hər fərd üçün müxtəlif olur, - O`Brayen sözünə davam etdi. - Biri diri-diri basdırılmaqdan qorxur, o biri tonqalda yandırılmaqdan, üçüncüsü suda barıtılmaqdan, dördüncüsü paza taxılmaqdan... Öldürməyin onlarla növü var. Bəziləri isə dünyanın ən böyük dəhşətini başqalarına tamam əhəmiyyətsiz görünən hallarla üzləşəndə yaşayırlar.

Uinstonun masanın üstünə qoyulmuş şeyi daha yaxşı görə bilməsi üçün bir qədər kənara çəkildi. Bu, üst tərəfində tutacaq yeri olan məftildən toxunmuş uzunsov qəfəs idi. Qarşısına qılıncoynadanların üzlərinə taxdıqları maskaya bənzəyən qoruyucu tor çəkilmişdi. Arada üç-dörd metrlik məsafə olsa da, Uinston qəfəsin içəridən uzununa iki yerə bölündüyünü, hər iki tərəfində hansısa canlıların tərpəşdiyini görə bildi. Qəfəsdəki siçovullar idi.

- Sizin üçün isə, - O`Brayen davam etdi, - dünyada ən dəhşətli şey siçovul olmalıdır..

Qəfəsə baxdığı ilk saniyələrdə Uinstonu naməlumluğun xofu bürümüş, bədəninə titrətmə düşmüşdü. İndi qəfəsin qarşı tərəfindəki yanları əyilmiş maskaya bənzər qurğunun nə üçün olduğunu da anlamışdı. Yenə qarnından sancı qopmuşdu.

- Sizin buna ixtiyarınız yoxdur! - deyə uca, cır səslə qışqırmağa başladı. - Ixtiyarınız yoxdur! Yoxdur! Bu mümkün olan iş deyil!

- Yuxularınızdakı vahimə anlarını xatırlayırsınızmı? - deyə O`Brayen soruşdu. - Gözünüzün önündə zülmətdən divar var, arxasında isə ciyiltili səs eşidilir. Divarın o biri üzündə dəhşətli bir varlıq gizlənib. Siz orada nə olduğunu bilirdiniz. Amma hətta öz-özünüzə etiraf etməyə də qorxurdunuz. Divarın arxasındakı siçovullar idi.

- O`Brayen, - deyə Uinston bacardığı qədər səsinin titrəməməsinə çalışaraq dilləndi. - Yaxşı bilirsiniz ki, buna ehtiyac yoxdur. İndi nə etməliyəm? Məndən daha nə istəyirsiniz?

O`Brayen birbaşa cavab vermədi. Danışmağa bəzi hallarda əl atdığı üsulla - mühazirə oxuyan müəllim ədası ilə başladı. Fikirli-fikirli düz qarşısına baxır, sözlərini də sanki Uinstona deyil, onun arxasındakı gözəgörünməz auditoriyaya deyirdi.

- Təkcə ağrı hissi həmişə kifayətləndirici olmur. Bəzən ölüm həddinə çatana qədər ağrıya müqavimət göstərən insanlara təsadüf edilir. Lakin hər insanın təhəmmül edə bilmədiyi, hətta ağlına sığışdırmadığı bir qorxu var. Həmin məqamda qorxaqlıq, yaxud cəsarət elə rol oynamır. Yuxarıdan yıxılırsansa, kəndirdən yapışmaq qorxaqlıq deyil. Dərinlikdən suyun üzünə qalxırsansa, sinə dolusu nəfəs almaq qorxaqlıq deyil. Bu, həmişə öz hökmünü qoruyub-saxlayan instinktdir. Siçovullara gəldikdə, onların da öz instinktləri var. Məsələn, sizin üçün siçovul ən dözülməz dəhşətdir. Sizə münasibətdə onlar elə təzyiq formasıdır ki, istəsəniz də qarşısında heç zaman duruş gətirə bilməzsiniz. Sadəcə, sizdən tələb olunanı edəcəksiniz.

- Axı tələb olunan nədir? Nə tələb olunur məndən? Nə istədiyinizi bilmədiyim halda tələbinizi necə yerinə yetirə bilərəm?

O`Brayen qəfəsi götürüb yaxınlıqdakı masaya gətirdi. Ehtiyatla yaşıl mahudun üstünə qoydu. Uinston qanın qulaqlarına necə vurduğunu eşidirdi. Ona elə gəlirdi ki, tamam tənhalıqdadır. Insan ayağı dəyməyən, günəş şüalarının yandırıb-yaxdığı ucsuz-bucaqsız səhrada təkbaşına oturub, qulağına çatan səslərin hamısı çox uzaqdan gəlir. İçərisində siçovullar olan qəfəs isə gözünün qabağına - iki addımlığına qoyulmuşdu. Siçovullar nəhəng idilər. Elə yaşa çatmışdılar ki, sifətləri daha küt və amansız şəkil almış, xəzləri qəhvəyi rəngə çalmağa başlamışdı.

- Siçovullar gəmiricilər sinfinə aiddir, - deyə O`Brayen hələ də gözəgörünməz auditoriyaya müraciətlə başladığı nitqini davam etdirirdi. - Lakin həm də ətyeyəndirlər. Bunu bilməmiş olmazsınız. Yəqin şəhərimizin kasıb məhəllələrində onların törətdikləri vəhşiliklərdən xəbəriniz var. Bəzi küçələrdə analar körpə uşaqlarını evdə beş dəqiqəliyə də nəzarətsiz qoymağa qorxurlar. Çünki siçovullar mütləq belə tək, köməksiz körpələrə hücum edirlər. Çox qısa vaxtda onları sümüklərinə qədər gəmirib yeyirlər. Xəstələrə, ölüm ayağında olanlara da hücum çəkirlər. Siçovullar insanın köməksiz vəziyyətdə olduğunu heyrətamiz dəqiqliklə müəyyən edə bilirlər.

Qəfəsdən ciyilti səsləri eşidildi. Uinstona hələ də elə gəlirdi ki, səs haradansa lap uzaqlardan gəlir. Siçovullar boğuşurdular. Qəfəsdəki arakəsmədən bir-birini didməyə can atırdılar. Eyni anda Uinstonun qulağına dəhşətli ümidsizlik fəryadı da çatdı. Bu fəryadın öz içindən gəldiyini anladı.

O`Brayen qəfəsi qaldırıb əli ilə hansısa düyməciyi basdı. Şaqqıltı səsi gəldi. Uinston var gücü ilə özünü sarındığı kreslodan qoparmağa can atırdı. Lakin cəhdi əbəs idi. Bədəninin heç bir hissəsini, hətta başını da tərpətmək mümkün deyildi. O`Brayen qəfəsi daha da yaxına gətirdi. İndi siçovullar Uinstonun sifətinin bir addımlığında idilər.

- Mən artıq birinci düyməni basmışam, - O`Brayen izahat verməyə başladı. - Yəqin ki, qəfəsin quruluşunu başa düşürsünüz. Maska üzünüzü örtəcək, başınızı azacıq da olsa tərpətməyə imkan verməyəcək. İkinci düyməni basanda qəfəsin qapısı yuxarı qalxacaq. Ac siçovullar oradan güllə kimi çıxacaqlar. Heç onların havada necə sıçradıqlarını görmüsünüz? Bir göz qırpımında üstünüzə atılıb sifətinizi gəmirəcəklər. Çox vaxt əvvəl gözdən başlayırlar. Bəzən də insanın yanağını parçalayıb dilini yeyirlər.

Qəfəs yaxınlaşırdı. Düz gözünün qarşısında idi. Uinston başının üstündə arasıkəsilməyən qulaqbatırıcı ciyilti səslərini eşidirdi. Vahiməni bacardığı qədər özündən uzaqlaşdırmağa çalışırdı. Hətta bir saniyə qalıbsa da, fikirləşmək, fikirləşmək lazımdır. Yeganə ümid fikirləşib nəsə tapmaqdır. Qəfildən siçovulların kəsif, murdar iyi düz burun dəliklərinə doldu. Sanki ödü qopub ağzına gəldi. Deyəsən, huşunu itirmək üzrə idi. Hər şey qaranlıqda yox olurdu. Artıq Uinston özü də dəliyə dönmüşdü, heyvan kimi bağırırdı. Anidən beyninə xilasedici fikir

gəldi. Xilas olmağın bir, yalnız bir yolu vardı. Özü ilə siçovulların arasına başqa insanı, başqa adamın bədənini sipər kimi qoymalı idi.

Kifayət qədər enli maska hər şeyi görünməz etmişdi. Qəfəsin məftildən toxunmuş qapısı sifətinin bir-iki qarışlığında idi. Siçovullar tam hazır vəziyyətdə dayanmışdılar. Onlardan biri səbirsizliklə yerində atılıb-düşürdü. O birisi, çirkab kanallarının uzunömürlü sakini isə dal ayaqları üstə dik qalxıb çəhrayı pəncələrini qəfəsin divarına dayamışdı, burnu ilə havanı acgözlüklə sinəsinə çəkirdi. Uinston onun sərt tüklü bığlarını və sarı dişlərini görürdü. Qara qorxu canını almışdı. Kor, zəlil, köməksiz idi.

- Çin imperatorluğunda bu adi cəza növlərindən biri idi, - deyə O`Brayen əvvəlki kimi dərs keçən müəllim ədası ilə danışırdı.

Maska sifətinə lap yaxınlaşmışdı. Məftillər yanağına toxunurdu. Və birdən... yox, xilas olacağına inanmırdı. Bu yalnız ümid idi, zəif ümid qığılcımı idi. Gecdir, yəqin ki, çox gecdir... Yalnız son anda Uinston qəflətən anladı ki, bütün dünyada cəzasını üstünə yönəldə biləcəyi, bədəni ilə özünü siçovullardan qoruya biləcəyi tək bir insan var. Və o, ara vermədən var səsi ilə qışqırmağa başladı:

- Culiyanı onlara verin! Culiyanı onlara verin! Məni yox, Culiyanı! Onun başına nə oyun açacağınızın mənə dəxli yoxdur. Qoy siçovullar sifətini parçalasın, sümüklərini gəmirsin. Məni yox! Culiyanı! Culiyanı!

Və o, geri çəkilib siçovullardan bacardığı qədər uzağa, dibi görünməyən dərinliyə enməyə başladı. Kresloya sarınmış vəziyyətdə idi, amma döşəməni, binanın divarlarını, yer qatını, okeanları, atmosferi, kosmos da ulduzlararası boşluqları yarıb keçirdi. Hər an siçovullardan bir az uzaqlaşır, uzaqlaşırdı. Artıq neçə işıq ili məsafə qət etmişdi. Amma O`Brayen lap yaxınlığında idi. Qəfəsin soyuq məftili ilə təması hələ də hiss edirdi. Birdən ətrafı bürümüş zülmət qaranlıq içərisində Uinston başqa şaqqıltı səsi eşitdi. Qəfəsin qapısının açılmadığını, əksinə, bağlandığını başa düşdü.

VI FƏSİL

"Şabalıd kölgəsində" kafesi, demək olar ki, boş idi. Günəşin şüaları pəncərədən süzülüb üstünü toz basmış masaları işıqlandırırdı. Saat on beş idi. Bu vaxtlar sakitlik olurdu. Teleekrandan gurultulu musiqi sədaları gəlirdi.

Uinston gözünü qarşısındakı qədəhə zilləyib küncdə, həmişəki yerində oturmuşdu. Arabir başını qaldırıb qarşı tərəfdəki divardan onu müşahidə edən nəhəng sifətə baxırdı. Şəklin altında "BÖYÜK QARDAŞ SƏNƏ BAXIR" yazılmışdı. Ofisiant çağırılmasını gözləmədən masaya yaxınlaşdı, qədəhi "Qələbə" cini ilə doldurdu. Ağzına borucuq keçirilmiş o biri şüşədən də bir neçə damcı əlavə etdi. Bu, mixək tozu ilə hazırlanmış saxarin məhlulu idi. "Şabalıd kölgəsində" kafesinin brendi hesab olunurdu.

Uinston teleekrana qulaq asırdı. Hələlik bir musiqi parçası o birisini əvəz edirdi. Lakin hər dəqiqə Sülh Nazirliyinin xüsusi bülletenini oxuya bilərdilər. Afrika cəbhəsindən çox həyəcanlandırıcı xəbərlər gəlirdi. Uinston səhərdən narahatlıq içində idi. Avrasiya orduları (Okeaniya Avrasiya ilə müharibə edirdi. Okeaniya həmişə Avrasiya ilə müharibə etmişdi) qorxunc sürətlə cənuba irəliləyirdi. Günorta məlumatında müəyyən yer adı çəkilməmişdi. Lakin döyüşlər, çox ehtimal ki, Konqo çayının mənsəbində gedirdi. Brazzavil və Leopoldvilin başı üzərini təhlükə almışdı. Bunun nə demək olduğunu xəritəsiz də başa düşmək çətin deyildi. Söhbət yalnız Mərkəzi Afrikanın itirilməsindən getmirdi. Bütün müharibə müddətində ilk dəfə Okeaniya ərazisi birbaşa təhdidlərə məruz qalırdı.

Qətiyyən qorxulu deyil, sadəcə, coşqunluq hissi, haradan qaynaqlandığı bilinməyən həyəcan bir anlığa Uinstonu bürüdü, sonra isə keçib getdi. Daha müharibə haqqında fikirləşmirdi. Son günlər hər hansı məsələ üzərində fikrini bir neçə saniyədən artıq cəmləyə bilmirdi. Qədəhi götürüb birnəfəsə son damlasına qədər içdi. Həmişəki kimi, nəfəsi bir az tıncıxdı, astadan gəyirdi. Cin çox murdar içki idi. Əslində, mixəklə saxarinin qəribə qarışığı da onun yağlovça iyini aradan qaldıra bilmirdi. Ən pisi isə, Uinstonun gecə-gündüz ayrılmadığı yol yoldaşına

çevrilən cinin qoxusunun fikrində başqa bir qoxu ilə qarışması idi. Onların qoxusu ilə...

Uinston heç vaxt, hətta fikirlərində də onların adını çəkmirdi. Bacardığı qədər onları gözləri önünə gətirməməyə çalışırdı. Onlar dərk olunmaqdan daha çox ara-sıra gözünün önündən keçən və daim də möhkəm cin iyi verən ehtimalı varlıqlardan başqa bir şey deyildilər. Cin mədəsini qarışdırdığından, qırmızı dodaqlarını irəli uzadıb bir də gəyirdi. Həbsdən çıxanı kökəlmişdi. Dərisinin əvvəlki rəngi qayıtmış, hələ bir az da cəhrayılaşmışdı. Sifətinin cizgiləri kobudlaşmışdı. Burnunun üstü və almacıq sümüklərindəki dəri qızarıb qabıq bağlamışdı. Hətta keçəl başı da çəhrayı rəngə çalırdı. Ofisiant yenə də çağırılmasını gözləmədən şahmat taxtasını və şahmat məsələlərinin olduğu səhifədən açılmış "Tayms" qəzetinin təzə sayını gətirdi. Sonra qədəhin boş olduğunu görüb cin butulkası ilə geri döndü, onu ağzına kimi doldurdu. Sifariş verməyə ehtiyac yox idi. Ofisiantlar Uinstonun xasiyyətini bilirdilər. Burada onu həmişə şahmat taxtası gözləyirdi, küncdəki masası da həmişə boş olurdu. Hətta kafe ağzına qədər dolanda da Uinston masanın arxasında tək otururdu, heç kəs onun yaxınlığında özünə yer seçməyə cürət etmirdi. Uinston içdiklərinin hesabını da bilmirdi. Ara-sıra ona çirkli kağız parçası gətirir, ötən müddətdə yığılmış borcları olduğunu deyirdilər. Uinstona elə gəlirdi ki, ondan az pul alırlar. Çox alsaydılar da, qətiyyən əhəmiyyət verməzdi. Son vaxtlar həmişə kifayət qədər pulu olurdu. İşləyirdi, adını harasa yazmışdılar. İndi əvvəlki iş yerindəkindən daha çox maaş alırdı.

Teleekranda musiqi bitdi. Danışıq səsi eşidildi. Uinston başını qaldırıb qulaq asmağa başladı. Amma cəbhədən heç bir xəbər yox idi. Rifah Nazirliyinin qısa məlumatı oxunurdu. Ötən rübdə ayaqqabı bağı istehsalı üzrə Onuncu Üçillik Planın cəmi 98 faiz yerinə yetirilməsi haqqında məlumat verilirdi.

O, şahmat məsələsinə baxdı, fiqurları düzməyə başladı. Bu, iki atla başa çatan çox məkrli kombinasiya idi. "Ağlar başlayır və iki gedişdən sonra mat edirlər". Uinston Böyük Qardaşın portretinə baxdı. Mistik və müəmmalı hisslə ağların həmişə mat etdiklərini düşündü. Həmişə! Burada bir dəfə yazılmış qaydalardan kənara çıxmağa, istisnalara yol verilmir. Dünya yarananda bəri qaraların udduğu şahmat məsələsi yoxdur. Bu, Xeyirin Şər üzərində əbədi, dəyişməz təntənəsi deyilmi? Portretdəki nəhəng sifət sakitlik tələqin edən hökmlə ona baxırdı. Ağlar həmişə mat edirlər.

Teleekrandakı səs danışığına ara verdi, sonra fərqli ahənglə, daha təntənəli tərzdə anons verməyə başladı: "Saat on beş otuz dəqiqədə vacib məlumat oxunacaq. On beş otuzda. Müstəsna əhəmiyyətli yeniliklər. Verilişlərimizi izləməyi unutmayın. Saat on beş otuzda". Ardınca yenə səs-küylü musiqi eşidilməyə başladı.

Uinstonun ürəyi sıxıldı. "Müstəsna əhəmiyyətli yeniliklər", təbii ki, cəbhədəki vəziyyətlə bağlı idi. Hissləri ona xəbərlərin yaxşı olmayacağını deyirdi. Bütün günü həyəcan içərisində dönə-dönə Afrikadakı sarsıdıcı məğlubiyyət haqqında düşünmüşdü. Avrasiya ordularının bir zamanlar quş səkməyən ölkə sərhədlərini keçərək, qarışqa sürüsü kimi Afrika sahillərinə ayaq basmaları bir an da olsun fikrindən çıxmamışdı. Məgər onlara cinahlardan zərbə endirmək mümkün deyildi? Qərbi Afrika sahillərinin xəritəsi bütün miqyası ilə gözləri önündə idi. Ağ at fiqurunu götürüb şahmat taxtasının o biri küncünə qoydu. Düzgün mövqe burada olmalı idi. Qara yırtıcılar dəstəsinin cənuba axışdıqlarını görsə də, başqa qüvvənin gizli şəkildə toplaşaraq onların arxasında hərəkətə keçdiyini, dəniz və quru yollarını bağladığını anlayırdı. Bu qüvvənin həqiqətən də mövcud olmasını nə qədər ürəkdən arzuladığını hiss edirdi. Lakin onun son dərəcə sürətlə irəliləməsi zəruri idi. Düşmən bütün Afrika üzərində nəzarəti ələ keçirsə, Xeyirxah Ümid Burnundakı aerodromları və sualtı qayıq bazalarını tutsa, fəlakət baş verəcək, müharibə Okeaniyanın iki yerə bölünməsi ilə nəticələnəcək. Bu da öz növbəsində, sarsıdıcı məğlubiyyətə, ölkənin dağılmasına, dünyanın yenidən bölüşdürülməsinə, Partiyanın süqutuna səbəb olacaq. Uinston dərindən ah çəkdi. Onun daxilində son dərəcə qarışıq hisslər bir-biri ilə çarpışırdı. Əslində, həmin

anda yaşadığı hisslərə qarışıq demək olmazdı, onlar sanki lay-lay bir-birinin üstünə yığılmışdı. Heç bir qatdakı hiss də o birisindən daha az əhəmiyyətli deyildi.

Gərgin anlar ötüşdü. Uinston ağ atı əvvəlki yerinə qaytardı. Amma bir müddət şahmat məsələsinin həlli üzərinə qayıda bilmədi. Yenə fikri dağılmışdı. Özü də fərqinə varmadan şəhadət barmağı ilə masanın tozlu səthinə yazdı:

2 + 2 = 5

"Onlar insanın daxilinə nüfuz edə bilməzlər" - Culiya belə demişdi. Amma nüfuz etdilər. "Burada sizə nə edilirsə, ömürlük müddətə edilir" - bu sözləri isə O'Brayen demişdi. Doğru sözlərdir. Belə şeylər var. Elə hərəkətlər olur ki, onlardan sonra bir də heç zaman əvvəlki vəziyyətinə qayıda bilmirsən. Daxilində nə isə öldürülür, çıxarılıb atılır, yandırılır.

Culiyanı görmüşdü. Hətta söhbət etmişdi. İndi bu, qorxulu deyildi. Daha heç kəsin nə iş gördüyü ilə maraqlanmadığını sövq-təbii hiss edirdi. Ikisindən biri istəsəydi, yeni görüş üçün vaxt da təyin edə bilərdilər. Görüşləri isə təsadüfi olmuşdu. Sazaqlı, soyuq küləyin cövlan etdiyi bir mart günü Parkda rastlaşmışdılar. Mart ayı olsa da, hələ təbiət oyanmamışdı. Yer dəmir kimi bərk idi, otlar göyərməmişdi, tumurcuqlar açmamışdı, yalnız bir neçə solğun nərgiz gülü yaş torpaqdan baş qaldırmağa can atırdı, külək isə onları döyəcləyib təzədən palçığa batırırdı. Soyuqdan donmuş əllərini gizlətməyə yer tapmayan, gözlərindən su axan Uinston tələsə-tələsə gedirdi. Birdən beş-altı addımlığında onu gördü. Culiyanın anlaşılmaz dərəcədə dəyişməsi Uinstonun diqqətindən yayınmadı. Yad adamlar kimi bir-birlərinin yanından ötüb keçdilər. Sonra Uinston geri dönüb həvəssis addımlarla onu təqib etməyə başladı. Burada təhlükəli bir şey olmadığını, indi heç kəsin onlarla maraqlanmadığını bilirdi. Culiya danışmırdı. O, sanki Uinstondan xilas olmaq üçün səmtini dəyişdib otluqla yeriməyə başladı. Sonra, görünür, özünü yanaşı addımlamağa məcbur edə bildi. Tezliklə seyrək, hələ yarpaq açmamış kolların arasına gəlib çıxdılar. Kollar nə küləkdən qorunmağa, nə də yad baxışlardan daldalanmağa yarayırdı. Dayandılar. Soyuq daha da bərkimişdi. Külək adamın yeddi qatından keçirdi. Uinston onu qucaqladı.

Yaxınlıqda teleekran yox idi. Amma yəqin haradasa gizli mikrafon qoyulmuşdu. Üstəlik, onları görə bilərdilər. İndi bunun əhəmiyyəti yox idi. Heç bir əhəmiyyəti yox idi. Hətta sakitcə torpağa uzanıb istədikləri işi görə bilərdilər. Bu fikir beynindən keçəndə əti çimçəşdi. Culiya nə Uinstonun onu qucaqlamasına fikir verir, nə də qolları arasından çıxmağa can atırdı. Uinston yalnız indi qızdakı dəyişiklikləri sezə bildi. Culiyanın sifəti torpaq rəngində idi. Alnından gicgahına qədər dərin çapıq yeri uzanırdı. Çapığın bir hissəsini saçları ilə örtməyə çalışmışdı. Lakin əsas dəyişiklik bu deyildi. Culiyanın beli xeyli yoğunlamışdı. Həm də daş kimi bərkimişdi. Uinston bir dəfə mərmi partlayışından sonra xarabalıqların altından cəsədləri çıxarmağa kömək etdiyini xatırladı. O vaxt cəsədlərin təkcə çox ağır deyil, həm də bərk olmasından heyrətlənmişdi. Onları əldə saxlamaq mümkün deyildi, elə bil insan bədənindən deyil, daş parçasından yapışmışdın. İndi Culiyanın belini qucaqlayanda yenidən eyni hissi yaşadı. Qızın dərisinin əvvəlkindən fərqləndiyi, hamarlıq və yumşaqlığını itirdiyi də diqqətindən yayınmadı.

Uinston nə onu öpməyə, nə də söhbətə çəkməyə təşəbbüs göstərdi. Otluğun üstü ilə geri qayıdanda Culiya ilk dəfə gözlərini qaldırıb düz onun üzünə baxdı. Bu, nifrət və ikrah dolu ani, kəskin baxış idi. Uinston ikrah hissinin keçmiş münasibətləri, yoxa şişkinləşmiş, piy basmış sifəti və küləkdən sulanmış gözləri ilə əlaqəli olduğunu ayırd edə bilmədi. Parkdakı dəmir skamyada yanaşı oturdular. Yanaşı oturmuşdular, amma bir-birlərinə sıxılmamışdılar. Uinston Culiyanın danışmaq istədiyini hiss etdi. Qız kobud tufli geydiyi ayaqlarını qabağa uzadıb cütləmişdi. Uinston onun baldırlarının da xeyli ətləndiyini nəzərdən qaçırmadı.

- Mən səni ələ verdim, - deyə Culiya müqəddiməsiz sözə başladı.

- Mən də səni ələ verdim.

Culiya yenə ikrah dolu baxışları ilə onu süzdü.

- Bəzən adamı elə şeylə hədələyirdilər ki, tab gətirməyəcəyini bilirdin. Tab gətirmək nədir, fikirləşməyə də qorxurdun. O zaman deyirdin: "Bu oyunu mənim başıma açmayın, başqa adam seçin, filankəsi götürün!". Sonra öz-özünə haqq qazandırmağa çalışırdın ki, bu yalnız bir oyundur, boş sözdür, sadəcə, səndən əl çəkmələri üçün filan adamın adını çəkmisən, əslində isə, ona heç bir pislik arzulamamısan. Lakin elə deyil. Həmin sözləri dediyin anda məhz elə olmasını istəyirsən. Fikirləşirsən ki, başqa yolla özünü xilas edə bilməyəcəksən. Odur ki, canını bu yolla qurtarmağa razı olursan. Səni gözləyən müsibəti başqasına rəva görürsən. Artıq onun əzabları sənin vecinə deyil. Həmin anda yalnız özünü düşünürsən.

- Yalnız özünü düşünürsən, - Uinston əks-səda kimi eyni sözləri təkrarladı.

- Sonra isə həmin adama daha əvvəlki hisslərlə yanaşa bilmirsən.

- Yox, - Uinston dedi. - Əvvəlki hisslərlə yanaşa bilmirsən.

Deyəsən, daha danışılası başqa sözləri yox idi. Külək nazik kombinezonlarını çırpıb əyinlərinə yapışdırırdı. Dinməz-söyləməz bir yerdə oturmaq ikisinə də çətin gəlirdi. Culiya metro qatarına gecikdiyini mızıldanıb ayağa qalxdı.

- Biz yenə görüşməliyik, - Uinston dedi.

- Elədir. Görüşmək lazımdır. - Culiya razılaşdı.

Uinston arada yarım addımlıq məsafə ilə qətiyyətsiz halda onun arxasınca düşdü. Daha danışmırdılar. Culiya açıq-aşkar can qurtarmağa çalışmırdı, amma yana-yana getməmələri üçün addımlarını daha da yeyinlətmişdi. Uinston əvvəlcə onu metro stansiyasına qədər ötürməli olduğunu düşünürdü. Lakin az keçməmiş soyuq havada qızın dalınca sürünməyin çətinliyini və mənasızlığını anladı. İndi Culiyanı metroya ötürməkdən çox, özünü "Şabalıd kölgəsində" kafesinə bacardığı qədər tez çatdırmaq haqqında fikirləşirdi. Kafe Uinstona heç vaxt indiki qədər cəlbedici görünməmişdi. Üzərində həmişə şahmat taxtası, qəzet və boşalmaq bilməyən cin qədəhi hazır duran küncdəki kiçik masası üçün bərk darıxmışdı. Hər şey bir yana qalsın, kafe həm də isti idi. Qəsdən eləməsə də, metroya gedən yolda Culiya ilə arasına bir dəstə adamın girməsinə imkan yaratmışdı. Əvvəlcə tez-tez yeriyib onlardan qabağa keçmək istədi. Sonra addımlarını yavaşıtdı, geri döndü, tamam əks istiqamətə getməyə başladı. Arada çevrilib arxaya baxdı. Adamlar çox olmasa da, Culiyanı seçə bilmədi. Küçə ilə tələsik addımlayanların hər birini Culiya saymaq olardı. Onun enlənmiş, kobudlaşmış bədənini arxadan fərqləndirmək mümkün deyildi.

"Həmin sözləri dediyin anda məhz elə olmasını istəyirsən", - Culiyanın kədərli etirafı yadından çıxmırdı. Bu hiss Uinstona tanış idi. Uinston sadəcə söz deməmişdi, həm də məhz belə olmasını istəmişdi. Siçovulların çənginə özünün deyil, Culiyanın verilməsini tələb etmişdi.

Teleekrandan eşidilən musiqidə nə isə bir dəyişiklik vardı. İnsanın əsəblərini cırmaqlayan sarı not ortaya düşmüşdü. Sonra isə... - bəlkə də heç belə şey olmamışdı, bəlkə də o sarı ton neçə il əvvəlki qəribə hadisənin yenidən xatirəsində canlanması idi, - naməlum səs oxumağa başladı:

Şabalıd kölgəsində,
Sən məni ələ verdin,
Mən səni ələ verdim...

Uinstonun gözlərində yaş parıldadı. Yaxınlıqdan keçən ofisiant qədəhin boşaldığını görüb təzədən cinlə doldurdu.

Qədəhi yuxarı qaldırıb iyləndi. Hər qurtumdan sonra yaxantıya bənzəyən içki daha da dözülməz olurdu. Lakin cin Uinstonu çoxdan öz girdabına salmışdı. Cin onun həyatı, ölümü və yenidən dirilməsi idi. Cin hər axşam beynində fikrin sonuncu işartılarını öldürür, hər səhər onu yenidən həyata qaytarırdı. Açılmayan göz qapaqları, qupquru qurumuş ağzı və belindəki ancaq sınıq zamanı təsadüf edilən dəhşətli ağrılarla yuxudan oyananda, - bu isə adətən saat on birdən tez olmurdu, - dərhal çarpayının yanındakı cin şüşəsinə və çay fincanına əl atmasaydı, yəqin ki, qamətini düzəltməyə heyi də çatmazdı. Günün birinci yarısını bulaşıq gözlərini cin şüşəsindən çəkmədən teleekran dinləməklə keçirirdi. Saat on beşdən bağlanana kimi isə "Şabalıd kölgəsində" kafesində olurdu. Daha heç kimin Uinstonla işi yox idi. Fit səsi onu yuxudan oyatmırdı, teleekran ona xəbərdarlıq etmirdi. Hərdənbir, həftədə iki dəfə Həqiqət Nazirliyindəki unudulmuş,

toz basmış kabinəsinə gedirdi. Bunu iş adlandırmaq mümkün idisə, hətta bir az işləyirdi. Ona saysız-hesabsız komitələrin birindən qopub ayrılmış hansısa alt komitənin alt komitəsində işə vəzifə vermişdilər. Bu alt komitə Yenidil lüğətinin On Birinci nəşrinin çapı zamanı meydana çıxan hansısa cüzi çətinliklərin aradan qaldırılması ilə məşğul olurdu. İndi onlar İlkin Məruzə adlı sənəd üzərində işləyirdilər. Amma məruzədə hansı məsələlərdən bəhs edildiyini heç özü də əməllibaşlı bilmirdi. Deyəsən, vergülün harada-mötərizənin içərisində, yoxsa mötərizə bağlanandan sonra qoyulması ilə bağlı mülahizələrin yekunlaşdırılması ilə məşğul idilər. Alt komitədə özü kimi daha dörd nəfər işləyirdi. Elə günlər olurdu ki, bir yerə yığışanda görüləsi bir iş olmadığını kişi kimi boyunlarına alıb dərhal dağılışırdılar. Elə günlər də olurdu ki, ciddi-cəhdlə çalışmağa başlayırdılar, hər şeyin dəqiqəsinə qədər bölündüyü fəaliyyət planı hazırlayırdılar, heç vaxt başa çatdırmadıqları uzun memorandumlar tərtib edirdilər. Biri-birləri ilə mübahisəyə girişirdilər, hərəsi bacardığı qədər geniş şərh verməyə çalışırdı, durğu işarələri ətrafındakı söz davasını çıxılmaz nöqtəyə qədər gətirib çatdırırdılar, hətta birbirlərini rəislərə şikayət etməklə hədələyirdilər. Sonra isə qəflətən bu həyat enerjisi sönürdü, masanın ətrafında oturub sübh çağı xoruzun ilk banı ilə yoxa çıxan həyulələr kimi böş, sönük gözləri ilə bir-birlərinə baxırdılar.

Teleekkran bir anlığa susdu. Uinston tez başını yuxarı qaldırdı. Məlumat bülleteni? Yox, musiqini dəyişdilər. Afrikanın xəritəsi gözlərinin önündən çəkilmirdi. Orduların hərəkətini diaqram kimi aydın təsəvvürünə gətirirdi. Qara ox təhdidedici şəkildə yuxarı, cənuba yönəlmişdi. Ağ isə qaranın quyruğunu kəsərək üfqi şəkildə şərqə uzanırdı. Sanki bayaqdan bəri beynini məşğul edən suallara cavab almaq üçün divardan onu sakit nəzərlərlə süzən portretə baxdı. İkinci ağ oxun olmaması ağla sığan şey idimi?

Hadisələrə marağı yenə itdi. Cindən bir qurtum alıb ağ atla daha bir sınaq gedişi etdi. Şah! Lakin bu tamamilə yanlış gediş idi, çünki...

Çağrılmamış xatirələr yadına düşdü. Şamla işıqlandırılmış otaq, üstünə ağ örtük çəkilmiş böyük çarpayı, bir də o özü, döşəmədə oturub stəkana doldurduğu oyun zərlərini var gücü ilə şaqqıldadaraq ürəkdən gülən doqquz, ya da on yaşlı oğlan. Üzbəüz oturmuş anası da ona baxıb gülürdü.

Bu, deyəsən, anasının həmişəlik yoxa çıxmasından bir ay əvvəlin hadisəsi idi. Ailələrində qısa müddətə də olsa əmin-amanlıq yaranmışdı, daim qarnında gəzdirdiyi dəhşətli aclıq unudulmuşdu, anasına əvvəlki məhəbbəti yenidən ürəyində baş qaldırmışdı. Uinston o günü çox yaxşı xatırlayırdı; tutqun hava idi, şırdırğı yağış yağırdı, leysanın suyu pəncərə şüşələri ilə üzü aşağı axırdı. İçəri yarımqaranlıq olduğundan oxumaq da mümkün deyildi. İki uşaq balaca, qaranlıq yataq otağında darıxdıqlarından nə edəcəklərini bilmirdilər. Uinston zarıyır, şıltaqlıq edir, səylərinin hədər olduğunu bilsə də, yemək istəyirdi. Bir yerdə dayanmırdı, otaqda o tərəf-bu tərəfə qaçırdı, əlinə keçən hər şeyi vurub dağıdırdı, üstünə nazik suvaq çəkilmiş taxta divarları təpikləyirdi. Səs-küyə əsəbiləşən qonşular o biri tərəfdən divarı hirslə döyəcləyirdilər. Kiçik bacısı isə hər beş dəqiqədən bir qıyyə çəkib qışqırırdı. Nəhayət, anası dözmədi, "Özünü yaxşı apar, sənə oyuncaq alacağam, - dedi. - Özü də yaxşı oyuncaq. Mütləq xoşuna gələcək". Və göydən yağış tökməsinə baxmayaraq, küçəyə çıxıb yaxınlıqdakı arasıra açıq olan dükana getdi. Bir azdan karton qutu ilə qayıtdı. Yaş kartonun iyi indiyə qədər Uinstonun burnundan çəkilməmişdi. Bu qəribə oyun "Çərpələng-Pilləkən" adlanırdı. Oyuncaq çox kobud hazırlanmışdı. Taxta lövhə bir neçə yerdən çatlamışdı. Zərlər isə elə düzəldilmişdi ki, atanda güclə bir tərəfi üstə dayanırdı. Əvvəlcə oyuncaq maraqlı görünmədiyindən Uinston qaş-qabağını töküb baxırdı. Anası tez şam yandırdı, oynamaq üçün döşəmədə üzbəüz oturdular. Az keçməmiş oyunun nəşəsi onu bürüdü. Gülməkdən özünü saxlaya bilmirdi. Zərlər atıldıqca kiçik lövhəciklər gah "çərpələnglə" üzüyuxarı qalxıb qələbəyə yaxınlaşır, gah da "pilləkənlə" aşağı sürüşüb yenidən başlanğıc nöqtəsində dayanırdılar. Səkkiz əl oynadılar, hərəsi dörd dəfə uddu. Hələ çox balaca olduğuna görə oyundan başı çıxmayan bacısı da yastığın üstündə oturub elə hey gülürdü. Çünki qardaşı ilə anası gülürdülər. Həmin gün qaranlıq düşənə qədər, uşaqlığının lap ilk illərində olduğu kimi, üçlükdə xoşbəxt idilər.

Uinston bu idillik lövhəni özündən uzaqlaşdırdı. Saxta xatirələrdir. Saxta xatirələrin ara-sıra onu narahat etdiyi vaxtlar olurdu. Amma belə şeylərin həqiqi qiymətini biləndə təhlükəliliyi itirdi. Həqiqətən də, bəzi işlər olmuşdu. Bəziləri isə olmamışdı. Uinston yenə şahmat taxtasına baxdı. Təzədən ağ at figurunu əlinə götürdü. Dərhal da onu taqqıltı ilə taxtanın üstünə saldı. Bədəninə iynə batırılbmış kimi, yerindən dik sıçradı.

Şeypur səsləri havanı lərzəyə gətirmişdi. İndicə bülleten oxunacaqdı! Qələbə! Əgər məlumat bülletininin oxunuşundan əvvəl şeypur çalınırsa, bu, qələbə deməkdir. Kafenin içindən elə bil güclü elektrik cərəyanı keçdi. Hətta ofisiantlar da diksinib qulaqlarını şəkələdilər.

Görünməmiş hay-küydə şeypur sədaları eşidilməz olmuşdu. Teleekranda həyəcanlı bir səs nə isə üdüləyib tökürdü. Amma kütlənin hər tərəfə yayılan sevinc bağırtıları içərisində onun nə dediyini anlamaq olmurdu. Yenilik ildırım sürəti ilə bütün şəhərə yayılmışdı. Uinstonun teleekrandan eşitdikləri hər şeyin əvvəlcədən təsəvvüründə canlandırdığı kimi olduğunu söyləməyə kifayət idi: qüvvələrini son dərəcə məxfilik şəraitində cəmləşdirən armada, düşmənə arxadan endirilən dəhşətli zərbə... Ağ ox qara oxun quyruğunu kəsib atmışdı. Səs-küyün içərisindən zəfər təntənəsi ilə dolu ayrı-ayrı ifadələr qulağına çatırdı.: "Möhtəşəm strateji manevr... qüvvələrin qüsursuz qarşılıqlı əlaqəsi.., vahimə içərisində geri çəkilmə.., yarım milyon nəfər əsir..., düşmən mənəvi cəhətdən darmadağın edilmişdir.., Afrika tam şəkildə ələ keçirilmişdir..., müharibənin sonu yaxın gələcəyin məsələsinə çevrilmişdir..., qələbə..., bəşəriyyət tarixində misli-bərabəri görünməmiş qələbə..., qələbə..., qələbə..."

Uinstonun ayaqları masanın altında aramsız titrəyirdi. Oturduğu yerdən qalxmasa da, fikrində qaçır, gücü gəldikcə qaçırdı. Küçədə, qışqırmaqdan qulağı batmış kütlə ilə birlikdə idi. Yenə Böyük Qardaşın portretinə baxdı. Bütün Yer kürəsini öz üzərində saxlayan əzəmətli sütun! Asiya ordularının çırpılıb məhv olduğu sarsılmaz qaya! Uinston fikirləşdi ki, on dəqiqə bundan əvvəl, cəmisi on dəqiqə əvvəl hələ ürəyində şübhələr cövlan eləyirdi, cəbhədən qələbə, yoxsa məğlubiyyət xəbərinin alınacağını bilmirdi. Bu anlarda heçliyə qovuşan Avrasiya ordularının məğlubiyyətindən də mühüm hadisə baş vermişdi. Sevgi Nazirliyinə düşdüyü ilk gündən onun daxilində çox şey dəyişmişdi. Son zəruri, sağlamlaşdırıcı dəyişiklik isə məhz indi, son bir neçə saniyənin içərisində baş vermişdi.

Teleekrandan eşidilən səs hələ də qırğınlar, əsirlər, hərbi qənimətlər haqqında nağılını davam etdirirdi. Küçədən gələn bağırtılar isə get-gedə azalırdı. Ofisiantlar təzədən işlərinə başlamışdılar. Onlardan biri, əlində cin şüşəsi, Uinstona yaxınlaşdı. Munis xəyallara dalmış Uinston hətta qədəhinin necə doldurulduğunu görmədi. O, artıq kütlə ilə birlikdə qaçmırdı, sevincdən qışqırmırdı. Yenidən Sevgi Nazirliyində idi, əfv edilmişdi, ürəyi qar kimi ağappaq, tərtəmiz idi. Müttəhimlər kürsüsündə oturmuşdu, bütün günahlarını boynuna almışdı, hamının əleyhinə ifadə vermişdi. Ağ kaşı döşənmiş koridorla, üzünə günəş doğmuş adam kimi şəstlə gedirdi. Arxasınca silahlı nəzarətçi addımlayırdı. Uzun müddətdən bəri gözlədiyi güllə başını dələrək beyninə girirdi.

Uinston gözlərini zilləyib qarşıdakı portretin nəhəng sifətinə baxırdı. Onun qara bığları arxasında gizlənən təbəssümü dərk etmək üçün qırx il vaxt lazım olmuşdu. Ah, qəddar, lüzumsuz anlaşılmazlıq! Ah, sevimli ağuşdan kənar düşməyə can atan tərs, inadkar qaçaq! İki damla göz yaşı Uinstonun burnunun kənarlarından üzü aşağı yuvarlanırdı. Amma indi yaxşıdır. Hər şey qaydasındadır! Mübarizə başa çatıb. O, öz üzərində qələbə çalıb. O, Böyük Qardaşı sevir.

1949

İngilis dilindən tərcümə edən:
Vilayət QULİYEV

◆ POEZİYA

Məmməd İSMAYIL

MƏN OLAN ZAMANIN QULAĞI KARDI EŞİDƏN DEYİLDİ NƏ SÖYLƏSƏM DƏ...

MƏNİ UNUTMAZSAN O DÜNYADA DA

Bacım Gülyazın əziz xatirəsinə

...Bu neçə gürbət ilində otağımda mənə yoldaşlıq və sirdaşlıq edən - Allahın solanda da ətrini itirməyən gülləri... bir də kiçik masanın üzərində mənimçün dünyanın ən ülvi varlıqları - anamla bacımın şəkilləridir... Bəlkə yetim ola-ola mən ona görə üraksiz və yetim böyümədim ki, yetimliyimi mənə hiss etdirməyəcək dünyanı dolduran ana və bacı sevgisi vardı. Anamı vaxtsız itirdikdən sonra yaxşı ki, məni bu dünyada yaşadacaq bacım və onun, dünyanın harasında olursam-olum məni qoruya biləcək bacı sevgisi qalırdı... Hələ uşaqlıq zamanlarında bacımın yaşadığı dağ kəndinə gedəndə göyrüş, söyüd ağacları, itburnu kollarının arasıyla uzanan yolda bir də görərdim bacım sinəsinə döyə-döyə qarşıma çıxdı. Məəttəl qalardım. Gəlişimi hardan bilmişdi? Onda indiki kimi deyildi ki, hər cibdə bir telefon olaydı.

- Bıy, bacın sən gələn yollara qurban olsun, ay qardaş, belə xoş gəlirsən!

Heyrətimi gizlətməzdim:

- Azz, hardan bilirdin gələcəyimi?

- Bıy, dərdin ürəyimə, əyə, bə savaxdan bəri ağzı yanmış saxsağanlar özlərini boşunamı yıyıb-tökür... Dünən, sırahagün niyə eləmirdilər bə. Gözüm aran yollarında qalmışdı, bilirdim ki, harda olsan indicə gəlib çıxacaqsan. Gələn yollarına belə mən bacın qurban olsun, a kişi qırığı...

Bacımgilin evlərinə çatar-çatmaz qonum-qonşu qadın və qızları tökülüşüb gözaydınlığına gələrdilər:

- Ay qız, gözlərin aydın olsun, qoy bir baxaq görək sənin qardaşın nə matah şeydir ki, onun yolunda gecə-gündüz dilin duada, ayağın sudadır?

Bacımın cavabı gecikməzdi:

- Onu verən Allaha qurban olum, a qızlar, o mənim tək qardaşımdı. Allah sizin də bir qardaşınızı min bir ova eləsin, hələ qoyun bir azca qabırğası qalxsın, bir görün necə kişi olacaq... Bə bulaqlar başında, sular üstündə ayqaranlıq gecələrdə Allaha boşunamı dualar eliyiram, bax, görərsiniz...

Yan otaqda olsam da bunların hamısını eşidirdim və bəlkə də sonrakı az-çox uğurlarım da elə içimə toxum kimi səpilən bu bacı alxışlarından göyərəcəkdi...

Vəzifə pillələri ilə qalxıb - endikcə bacı alxışlarının ardı-arası kəsilmədi və harada olursam-olum sahil dəniz dalğasını hiss edər kimi bacı dualarının mənimlə olduğunu hər zaman hiss elədim...

Doğma adamların son nəfəsinə çata bilmədiyim qürbət günlərinin birində Bakıdan gələn telefon zəngi belimi qırdı: "Durma gəl, ağır xəstədir".

Və ...gedib eşidəcəkdim ki, son nəfəsində başının üstündə dayanan qızının:

- Ana, nə istəyirsən, de, yerinə yetirim - sözünə:

- Məhəmmədi,-deyib adıma can veribmiş mənim dilli dualı bacım.

Onda mənə elə gəldi ki, artıq bacımın ölümü ilə mənim də sanılı günlərim qalıb. Özümü çoxdan inandırmışam ki, insanı əcəli öldürmür, insan onu könüldən sevənlərin bitdiyi yerdə ölür. Dünyanın sevgi ilə, özü də insan sevgisi ilə ayaqda qaldığını mən anamla bacımın timsalında gördüm...

...Bu gün də mənim anamla, bacımla, otağımdakı güllərimlə danışan günümdür... Yenə onlara baxıb fikrə dalmışdım ki, birdən bacımın şəkli masanın üstündən şaqqıltı ilə yerə düşdü. Elə bil içim parçalandı. Şəkli yerdən qaldırdım, qəmli-qəmli üzümə baxırdı, sanki indicə ağlayacaqdı. Sağlığında çəkilən şəkillərə insan öldükdən sonra ölüm ifadəsinin çökdüyünü ilk dəfə indi hiss elədim... Şəkli yerinə qoymuşdum, amma mən yerimdə dura bilmirdim...

Yuvası saxlayar quşu budaqda,
Boş qalan yuvanı su aldı, bacım.
Mənimki aranda, sənինki dağda,
Niyə yurdlarımız boş qaldı, bacım?!

Tale üzümüzə gülmədi nəsə,
Sərsək, örkənində durmaz darımız.
Atamız getmişdi gedər - gəlməzə,
Vurub ona çəkdi övladlarımız...

Qəhrini çəkməzdim qarlı qışların,
Necə ki dilinin duası vardı.
Bulaqlar başında yalvarışların
Vətəndən qürbətdə gəlib çatardı.

Ölüm mələyinin bağrı daş olub
Həsrət əllərilə ayırdı bizi.
Nə belə sevilən bir qardaş olub,
Nə belə tükənməz bacı sevgisi...

Arasam sevgini, yox ki heç yanda,
Daha bir kimsəyə çatmaz ki ərkim.
Nə dağda qalıbdı, nə də aranda,
Başıma haranın daşını töküm?

Çəkilə-çəkilə dərd azalarsa,
Çəkim, qürbət adlı qərib adada...
Deyilən kimisə, o dünya varsa,
Məni unutmazsan o dünyada da...

Sən getdin, əllərim qaldı əllərdə,
Dərddən bir tərəfə yol yox ki, qaçım.
Məni bundan sonra qürbət ellərdə
Kimin alxışları qorusun, bacım?

PƏNCƏRƏMİN ÖNÜNDƏ GÖZ YAŞI TÖKƏR PAYIZ...

Bu səs mənim səsimmi, ya taleyin səsimi,
Ruhun gizli sirri var hər insanın səsində.
Beləcə, hər meyvənin içindəki tum kimi,
Axtarsan, Allah yatır hər sözün kəsəsində...

Ömür deyilən nəmi? Üfürdüm, keçdi getdi,
Həyatını yaşadım, ilişmişəm "və"sində.
Ümid Allaha qaldı, bəlkə Allah ümiddi,
Nəyəsə ümidi var ən ümidsiz kəsin də...

Baxsan, hamı dilənçidi dünyada,
Dilində "Allah" sözü, fikri pul kisəsində...
Bir ömür verdin, Allah, gözün qaldı arxada,
Candan başqa nəyim var, nə verim əvəzində...

Könlümə od salmada qədərin qürbət payı
Doğum ilim görünər istilik civəsində...
Pəncərəmin önündə göz yaşı tökər payız,
Anam, bacım qüssəli şəkil çərçivəsində...

İLĞIM

Fəlakət yol gəlir hələ uzaqdan,
İşini görmədə qəm xırda-xırda.
Evin işıqları yanmır bayaqdan,
Ağaclar saçını yolur bayırda...

Uzaq üfüqlərdə şimşəkdən bir iz
Sirrini açmada səssiz bir səda...
Bir şeylər canını sıxar səbəbsiz,
Hardasa bir şeylər unudulmada...

Sən bəxtə inanıb yatdın...Fələksə
Dəlinin əlinə hərdən daş verər.
Deyirdin yandıran yoxdu. Eləysə,
Orman yanğınları nədən baş verər?..

Haçandan inanıb yoxa var dedik,
Uzaq sahibinin səsidi söz ki.
Aşıq gördüyünü çağırar dedik,
Nəyi göstərəcək görməsə güzgü...

Sirri yox, kimin ki hulqumu yoxdu,
Nə qədər sirr yatır hulqum içində...
Dönüb bax, gör nəyin ilğımı yoxdu,
Dünya başdan-başa ilğım içində...

Səhra sərabında buxarlanar qum,
Yağış ümidi var uzaqlardasa...
Boşuna deyil ki görünən ilğım,
İlğım var, deməli, su var hardasa...

ALLAH UZAQLARDA DEYİL...

Təşbeh arama, təşbehin...
Allahın, alın yazında.
Ot üstünə düşən şehin
Buxar olub uçmasında...

Bəlkə dalarsan səsinə,
Açıq olsa könül gözün.
Nədir payız meşəsinə
Birdən-birə çökən hüzün...

Allah deməyək nə deyək
Çağlayan görünməz çağa?
Qoynunda ölmüş toxumu
Dirildən qara torpağa.

Təzə açılan çiçəyin
Gözündəki məna nədi:
Allah uzaqlarda deyil,
Buralarda bir yerdədi.

Qızıl qumlar arasında
Nə deyir qaynayan bulaq:
Allahını gəzirsənsə,
Gözlərimin içinə bax!

ÇƏKİR

Dərd siqaret deyil
çəkib atasan,
Bu dərd çəkilmir.
Burda qürbət ürək,
Ürək qürbətdi.
Bir quş mürgüsüdü, uçmağa bənddi,
Çəkmə, şəkil çəkən,
Qürbət çəkilmir...
Dünyanı doldurub boğaza kimi,
Dəniz sularına bənzəri yoxdu,
Çəkmək istəsən də
Həsrət çəkilmir...
Nə falçı kağızı, uduş bileti...
Elə nə var, odu,
Qismət çəkilmir...

CƏZA EVİ...

Axırda daşlara dəydi qayığın,
Qocalıq deyilən ləpədöyəndə.
Durub neyləyəsən bu günkü qayğın
Dünənki borcunu ödəməyəndə?!

Nədir bu şikayət alın yazından,
Aləmi özünə güldürmə, kiri.
O sən deyildinmi, bir yad qızından
Xoşbəxtlik gözləyən bədbəxtin biri...

Qədrini bilmədin qızıl anların,
Başladı sözün də yerə düşməyə.
Yoxdu bir günahı tor quranların,
Sən özün hazırdın tora düşməyə...

Unutsan başından gəlib keçəni,
Onsuz da yazılır hesab - kitaba.
Araya-araya günahın səni
Yerin deşiyində olsan da tapar.

Dişin, dırnağınla tikdiyin evi
Dağıdar geriyə işləyən təkər..
Dünən hayandasa çəkdiyin kefi
Bu gün bir əl gəlib burnundan tökər.

Bir ömür yaşasan, axırı da puç,
Gen dünya başına sonra dar olsa...
Vətəndə hardasa işlədiyin suç
Qürbətdə yaxandan yapışar olsa...

Təsəlli yeridi: bu gün, sabah var,
Sən elə dünəndən kasıb atasan.
Uğursuz keçmişlə aranda bağ var,
Gözə də görünmür kəsib atasan...

Demə ki gördüyüm günlər var idi,
Bir ilə bir xoş gün düşməz, sanasan.
Sinəndə ürəyin cəza evidi,
Sən özün gəzəri həbsxanasan.

Suçunla göz - gözə gəlib görüşdün,
Çəkildin yüz sorğu - suala gündə.
Hamı elə bilər qürbətə düşdün,
Bilən yox, yatırsan cəza evində...

QÜRBƏT YUXULARI

Zaman güzgüsündə bu günlə dünən,
Biri doğmadısa, biri ögeydi.
Bir başqa şey idi gözə görünən,
Gözə görünməyən bir başqa şeydi...

Tay-dəyişik düşən bir uğurdasan
Oğulsan, avandı tərsindən ayır:
Sən hardan bilirsən bu gün hardasan
Və sabah sənincün nə hazırlayır?

Sənə demişdilər getmə dərinə,
Getsən, dərd başını alıb gedəcək.
Söykənib könlünün qürbət yerinə,
Vətən günlərinə dalıb gedəcək...

Onsuz da qürbətin ağzı acıydı,
Bir az da sən göndər ağrı-acından.
Qələmi əlində dar ağacıydı
Hər gün asılardı dar ağacından...

Adını soruşma, adı... şairdi,
Qürbətdə adı da çıxdı yadından.
Bu həyat onundu, o yaşayırdı,
Amma baş açmırdı öz həyatından.

Ona da düşmüşdü qürbət iqlimi,
Yazılan qalırsa, yazdığı kardı...
Ovidiyi kimi, Stendal kimi,
Qürbət qədərində qisməti vardı...

Ögeylər doğmadı, doğmalar ögey,
Tərəddüd danışar qürbət dilində:
Sənin əlindədir onsuz da hər şey,
Onsuz da bir şey yox sənin əlində...

Yaşa, bu da belə qismətdi guya,
Qismət görünərmi, qisməti gördü...
Hər gecə vətənə getdi yuxuda,
Hər səhər oyanıb qürbəti gördü...

QADIN...

Siqaret kimi bir şeydi qadın;
Əvvəl o səni özünə çəkər,
Sonra sən onu özünə çəkərsən...
Tüstün təpəndən çıxar,
Bəylə bostan əkərsən...
Buna sevgi deyilməz.
Başqa nə ad verəsən,
Ya vərdişdi, ya adət,
Çəksən bir dərddir,
Çəkməsən, başqa bir dərd...

YETMİŞ İL YAŞADIN, AXIRI DA BU...

Varın məktəbində öyrəndin yoxu,
Yetim uşaqlığın qocaldı səndə.
Yetmiş il yaşadın, axırı da bu...
Bitdi. Dərddən başqa nə qaldı səndə...

Yapışıb yaxana yaşın yetmişi,
Bu hansı yetmişdi, yadmı, tanışmı?
Baş keçəl, üz qırış, can qoca kişi,
Heyif ki,"aynalar yalan danışmır."

Düşəli bu ömür deyilən yola,
Yaşana-yaşana yekun, azalır.
Siqaret çəkərsən, tütün kül olar,
Dərdi çəkə-çəkə çəkin azalır.

Bu yaşda fikrinə yağan nə qardı,
Gənclik çağlarından ələnir həm də.
Sən olan zamanın qulağı kardı,
Eşidən deyildi nə söyləsən də...

O hansı nəfəsdi qarı əridir,
Donu olmayanın buxarı olmur.
Dağlar dərələrin həsəd yeridi,
Böyük olanların dostları olmur.

Gözündə vətən də qürbət donunda,
Cavabsız sualın niyəsi oldun.
Vardan kəsirin yox, ömrün sonunda
Bir sürü qan-qarğış yiyəsi oldun..

"Bir gün" düşünmüşdün, çatdı o "bir gün..."
Hər kəsin qəlbinə damanı gəldi.
Yaşaya - yaşaya axırda ömrün
"Bu gün var, sabah yox" zamanı gəldi.

Bu yorğun vücudun ruhuna yükdü,
Salanlar nəyini salacaq yada...
Vətən sən gələndə boynubükükdü,
Boynu buruq qalır səndən sonra da.

İşıqda qaranlıq! Nədir bu qayda,
Şər yoxsa xeyir də yox olub gedər...
Hər şeyin sonu var, ən uzun çay da
Hardansa başlayıb hardasa bitər...

Qışın sazağında buza dönənsən,
Bir də ümidini birə beş qala.
Allah amanında, taledi, sənsən
Bu fani dünyada kirəkeş qalan...

NƏVƏM HUMAYIN DEYİMLƏRİ:

- Biz çıxıb getsək, bu ev
Tək qalıb ağlayacaq.
Bizdən sonra bəs kimi
Yadında saxlayacaq?

- Qarabasma yuxular
Əl çəkmir ki yaxamdan.
Yuxumda şeytan gördüm,
Qaçıb çıxdım yuxumdan...

- Tikan batdı əlimə,
Çox incitdi canımı:
Allaha dua etdim,
Dayandırdı qanımı...

GÖYDƏN GƏLƏN MƏLƏKLƏRİN ÖLKƏSİ...

Gecənin qucağında möminləri oyadan,
Səsi divarlara dəyib qayıdan
Ramazan dəfidi.
Eləcə səsi gələr, özü gözə görünməz
Yatanları yuxudan oyatmaq
Hədəfidi...
Hər şey dimdik ayaqda,
Möminlərin üzü haqda,
əli havada, dizi torpaqda,
namaza və...
bu avaza durub dünya...
Könüllərin qapısını döyən,
Dodaqlarda səyriyən
Və ruhlarda əriyən
Əzan səsi,
Ramazan səsidir!
Hamilə qadın kimi həyalı Dünya
Bu saat, bu an insanların yox,
Göydən enən mələklərin ölkəsidir!

YAĞIŞ BULUDLARI TƏRCÜMƏ EDƏR

Günəşin qüruba endiyi yerdə,
Kəsişdiyi yerdə payızla qışın.
Gələn martıların səsidi, bir də
Boğaz sularına yağan yağışın...

Ay da buludlardan duyar bu səsi,
Yerin keyfi kimi qaralmada şər.
Boğaz sularına yansıyan əksi
Qurşun dalğalarda atılıb - düşər...

Ömrün qürubunda solur arzu da,
Yay bələni aşıb, payız axında.
Yerdə xəzəlləri göllənən suda,
Göydə durnaların üçbucağında.

Xəzanla uyudar payız baharı
Sonra da payızdan qış hesab çəkər.
Çiçəyin dərdindən bal çəkər arı
İçindən üzünə dərd əzab çəkər...

Allahın dünyaya endiyi vaxtmı,
Torpağa çəkdiyi fikirmi payız?
Bir ucdan ağına, bozuna baxmır,
Ruhunu göylərə çəkirmi payız?

O nə süsləmələr, o nə naxışlar,
Elə bil üfüqə bal çəkir arı...
Günəşlə buludun yarışı başlar
Dənizin üstündə qış axşamları...

Bu ruhsa, Tanrının ruhuna alqış
Beləmi gedərmiş günəş yaxmağa?!
Hərdən bir günlüyə borc istəyər qış,
Yaz günəş göndərər qışa baxmağa.

Qəriblik ələnər bağçaya, bağa,
Buludlar çaxnaşar bu axşam üstü.
Tanrım, mələklərmi enir torpağa,
Yoxsa qatqarışıq gələn nə hissdi?

Yağış buludları tərcümə edər
İlahi dilindən torpaq dilinə.
Yarpaqlar tökülüb ölməyə gedər
Qoşulub zamanın əcəl yelinə...

BU EVİN RUHU

Girərsən, önündə açılar qapı,
Bələdçin-özündən öndəki kölgən...
Kiminsə nəfəsi dəyər üzünə,
Köçdüyün bu evin ruhudu, bəlkə?

Beləcə içini didər şübhələr,
Ağlına gəlməyən başına gələr...
Baxış yerlərimi kirəkeşlərin,
Nə vaxtdan bəri
Gözünü bərəldən mismar yerləri...

Yol tapıb otağa girən kəpənək,
İşığın başına dönən pərvanə,
Bayır eyvanına dırmaşan tənək,
Küləkdə səslənən dəmir tənəkə,
Küncdə - bucaqdakı xörəyin buğu,
saralan ləkə,
Borudakı su,
Hələ bilmədiyin daha, daha nə
Bu evin ruhu.

Sınıq şüşələrdə tora düşən Ay,
Gecəni gözünə təpən pəncərə,
Sənə keçmişləri andıran qoxu,
Hər gecə qarışıq gördüyün yuxu
Bu evin ruhu...

Boşuna deyil bu səs, bu səda,
İlhamdı, sənsən.
Amma bu evdə
Hər ay kirəsini sən ödəsən də,
Kimsə yaşayır sizdən başqa da...

◆ NƏSR

ZƏFƏRİN MÜBARƏK, NAZIM!

"Nazım" deyirəm, "sən" deyirəm, çünki artıq düz on yaş ondan böyüyəm.

Hər gün qəzet səhifələrindən, televiziya ekranlarından, radio dalğalarından bəd xəbərlərin uçqunu üstümüzə gəlir.

Fələstinin acıdan acı faciəsi, İraqda müsəlmanların bir-birilərini qırması, Hindistanda terror aktı, Əfqanıstanda döyüşlər, Rusiyanın təcavüzkar Ermənistanı yenidən səxavətlə silahlandırması, siyasi çəkişmələr nəticəsində qışın şaxtasında qazsızlıqdan əziyyət çəkən Avropa ölkələri, Türkiyədə hansı təxribatçılarınsa təşəbbüs göstərdikləri ləyaqətsiz və heysiyyətsiz "Ermənilərdən üzr istəyək" kampaniyası, millətі parçalayan "Erkonokon" olayları, hər gün neçə-neçə insanın tutulması...

Partlayışlar, qan, ölüm, işgəncə, zülm, təbii fəlakətlər... Qara kabus kimi başımızın üstünü alan, bir an belə rahatlanmağa qoymayan müdhiş yeniliklər içində birdən-birə şad bir xəbər də gəldi. Nazım Hikmətə Türkiyə vətəndaşlığı qaytarılıb.

Bizim qəzetlərdə bu barədə oxuyanda əvvəl-əvvəl inanmağım gəlmədi, növbəti şayiədir - deyə düşündüm. Bunun xoş bir gerçək olduğunu biləndə Türkiyə Cümhuriyyətinin Baş bakanı R.T.Erdoğana təşəkkür məktubu yazdım. Dünən Türkiyənin TV kanallarından bildim ki, Prezident A.Gülün və Baş nazir Erdoğanın imzaladığı bu qərar "Rəsmi qəzetə"də dərc olunub, hüquqi qüvvəyə minib. İllər boyu həsrətlə gözlədiyimiz bu ədalətli iş axır ki, baş tutdu. Canından artıq sevdiyi Məmləkətinə sağlığında dönə bilməsə də, təmiz adı qayıtdı.

Vaxtilə Azərbaycan Yazıçılar Birliyinin Nazım Hikmətə vətəndaşlığın qaytarılması haqqında müraciətini Türkiyənin Bakıdakı Böyük Elçisi vasitəsiylə Ankara hökumətinə çatdırmışdıq. Bəzi rəsmi qəbullarda imkan düşəndə o dönəmin Baş Bakanı Büləng Ecevidlə, daha əvvalki dövrdə Baş Bakanın müavini Erdal İnönüylə qısa ünsiyyət zamanı bu arzumuzu bildirmişdim, müxtəlif vaxtlarda Kültür bakanları olmuş Namik Kamal Zeybəklə, Fikri Sağlarla, İstemixan Talayla bu barədə söhbətlərim olmuşdu.

Təbii ki, bu qərarın verilməsində bizim cəhdlərimizin hər hansı rolu olduğunu iddia etməkdən uzağam. Sadəcə olaraq, onu demək istəyirəm ki, heç bir vaxt bu işə biganə qalmamışıq, bu məsələni unutmamışıq. Çünki Nazımın vətən həsrətini mən kitablardan, qəzetlərdən, xatirə yazılarından deyil, böyük şairlə canlı görüşlərimizdə duymuşdum. Təkrarsız ifa tərziylə, insanı bayıldan gözəl səsiylə oxuduğu misralar indiyəcən qulaqlarımdadır:

Məmləkətmi, yıldızlarmı, gencliyimmi daha uzaq...
yaxud
Sən indi alnımın qırışlarında, saçımın ağında, yürəgimin infarktındasın memleketim, memleketim, memleketim...

Bu misraları dəqiqləşdirmək üçün kitablara baş vurmuram, yaddaşımda Nazımın dilindən eşitdiyim zaman necə qalıbsa, eləcə də yazıram.

Dünyanın əksər dillərində kitabları çıxan Nazımın ən böyük həsrəti vətən, ailəsinin yanına dönmək və bunun mümkünsüzlüyünü anladığı üçün heç olmasa əsərlərini Türkiyə oxucularına çatdırmaq idi. Sağlığında bu arzularının heç birinə yetmək ona qismət olmadı. Ölümündən sonra əsərləri, nəhayət ki, Türkiyəyə ayaq açdı. Son illərdə İstanbulun, Ankaranın, İzmirin, başqa şəhərlərin elə bir kitab dükanı yoxdur ki, orada Nazım Hikmətin əsərləri, yaxud ona həsr olunmuş yeni-yeni kitablar, tədqiqatlar satılmasın. İstiqlal caddəsini bu başdan - o başa keçirsən, hər kaset satan mağazadan Nazımın şeirlərinə bəstələnmiş şərqilər eşidilir. Pyesləri səhnələrdə oynanılır, haqqında televiziya filmləri çəkilir, xatirəsinə həsr olunmuş tədbirlər, elmi simpoziumlar, poeziya festivalları keçirilir. Türkiyə, gec də olsa, tarixinin ən böyük şairinə sahib çıxır.

Doğrudur, Nazımın şeirləri yasaq olunduğu illərdə belə, misraları yüz minlərlə oxucunun qəlbində, hafizəsində yaşayırdı. İndi rəsmi şəkildə də bu böyük Milli şairin halal haqqı təsdiq olundu. Milli şair ifadəsinin altını cızıram.

Sırf milli ruhlu şeirlər yazan şairlərə eşq olsun! Xalqın milli şüurunun oyanışında belə şeirlərin müstəsna xidməti var. Amma milli şair olmaq haqqı yalnız bu səpgili şeirlər yazan

müəlliflərə aid deyil. Doğma dilinin ən gözəl və əbədi şeirlərini yaradan şair - məzmunundan və mövzusundan asılı olmayaraq, Milli şairdir. Füzuli qəzəlləri milli mövzularda deyil, onların ruhu millidir. Nazım Hikmət yalnız Qurtuluş savaşı haqqında dastanını yaxud İnsan mənzərələrini yaradanda deyil, sevdiyi qadınlara yazdığı şeirlərdə də ən böyük milli türk şairidir. Eləcə də "Ceviz ağacı"nı yazanda, "Masallar masalı"nı yazanda, Baxın əsərinin təsirilylə yazdığı şeirdə, "Kərəm kimi" şeirində, "Son avtobus" şeirində, onlarca, yüzlərcə əsərlərində yalnız Türkiyənin deyil, bütün türk dünyasının dahi milli şairidir. Türk dünyası ədəbiyyatını Dədə Qorqudsuz, Yunis İmrəsiz, Nəvaisiz, Füzulisiz, Sabirsiz təsəvvür etmək mümkün olmadığı kimi, Nazım Hikmətsiz də təsəvvür etmək mümkün deyil.

Türkiyədə ömrünün ən gözəl illərini həbsxanalarda keçirəndə Nazım Hikmət öz ölkəsində də, bütün dünyada da Kommunizmin rəmzi kimi qavranılırdı. Sovet İttifaqına gələndən sonra, Azərbaycanda və digər türk respublikalarında isə o, Türkiyənin, türklüyün rəmzi kimi qəbul olunurdu. Kommunist rejiminin ən sərt illərində Sovet İttifaqındakı türk xalqları arasında türk qardaşlığı ideyasını Nazım Hikmət qədər keç kəs təmsil edə bilməyib. Əqidəsi etibarıylə Nazım Hikmətdən çox uzaq olan şair dostum Yəhya Akenkin danışırdı ki, o vaxt Qazanda tatar şairi Renat Xariş kitab rəfindən Nazımın kitablarını götürüb ona göstərərək: Bax, Türkiyəni biz bu kitablarla sevdik - deyib.

O vaxt təhsil aldığım Bakı Universitetində Nazım Hikmətlə görüş keçirilərkən şairin: - "Mən türkəm, siz də türksünüz, xalqlarımız, dillərimiz qardaşdır" - sözlərini öz qulaqlarımla eşitmişəm. Bu sözlər o zamanlar deyilirdi ki, Azərbaycanda "türk" sözünün özü yasaq idi, hər halda, azərbaycanlıları "türk" adlandırmaq dövlət cinayəti sayılırdı.

Türkiyə sollarına Nazım Hikmət xatirəsini əziz tutduqları üçün, ən çətin zamanlarda onu təbliğ etdikləri üçün minnətdar olmalıyıq. Amma Nazım solun və sağın fövqündə olan sənətçidir. Və sociyyəvi haldır ki, onu tam əks əqidə sahibləri olan Əbdülhaq Hamid, Ziya Göyalp, Xalidə Edib, Əhməd Haşım, Yakub Qədri kimi görkəmli sənətkarlar da yüksək qiymətləndiriblər. O da maraqlıdır ki (bunu da mən şəxsən özüm görmüş və dinləmişəm) hələ bir neçə il bundan qabaq türk millətçiliyinin lideri Alparslan Türkeş televiziya çıxışlarının birində Nazım Hikmətin Qurtuluş savaşı dastanından böyük bir parçanı əzbər oxudu. Çox illər daha əvvəl İsmət İnönü bu əsər haqqında "Nazım bu dastanıyla Qurtuluş savaşını bir daha qazandı" - demişdi. Böyük öndər Mustafa Kamal Atatürk də Nazımın bəzi şeirlərini bəyənir, məğrur xasiyyətini təqdir edirdi.

Dövlət başçılarının İstanbul Sammitində o vaxtkı Cümhur Başqanı Süleyman Dəmirəl açılışda Məməd Akifin, qapanışda Nazım Hikmətin şeirini oxudu.

Vaxtilə başqa bir şairin şeirini oxuduğu üçün həbsə atılan Erdoğan ən son günlərdə Nazımın "Yaşamaq bir ağac kimi tək və hürr və bir orman kimi qardaşcasına" misralarını sitat gətirdi.

Və nəhayət, ən son bir fakt. Erdoğanın xanımı Əminə Erdoğanın təşəbbüsüylə bəzi ərəb və müsəlman dövlətlərinin birinci xanımları Fələstin faciəsinə etiraz olaraq Ankarada toplaşmışlar. Mən Əminə xanımın çıxışını Türkiyənin ATV kanalıyla izləyirdim. Fələstində məsum çocuqların qətl olunması barədə göz yaşları içində danışırdı. Çıxışının sonunda yenə də qəhərlənərək Nazım Hikmətin Hirosima bombardmanında yanıb külə dönmüş yapon çocuğu haqqında şeirini oxudu. Əminə xanım həzin səslə bu şeiri oxuduqca ara-sıra ekranda sənədli kadrlar göstərilirdi - bombardmanlar, tank ataşləri altında həlak olmuş, yaralanmış, şikəst qalmış Fələstin uşaqları... Sanki Nazım Hikmətin misraları məhz onlar üçün yazılmışdı.

Böyük sənətin gücü bundadır; o, nə zaman tanıyır, nə məkan... Nazımın həlak olmuş günahsız uşaqlara həsr olunmuş şeiri Fələstin çocuqlarına da, Xocalıda qəddarcasına qətl edilmiş tifil balalarımıza da eyni dərəcədə aiddir.

Siyasi rejimlər, iqtidarlar dəyişir, sonda isə həqiqi sənət qələbə çalır.

Hörmət bəslədiyim dəyərli Türkiyə alimlərindən Turan Yazqanla çox məsələlərdə fikirlərimiz üst-üstə düşür, amma həmişə Nazım Hikmət mübahisələrimizə səbəb olur. Bir dəfə Turan bəy dartışmamızın gərgin məqamında Nazımı "vətən xaini" adlandıranda dözə bilmədim, - Bu ifadəni o dönəmin Baş bakanı Adnan Menderes söyləmişdi, - dedim, - onu da asdınız.

- Amma indi Menderesə möhtəşəm məqbərə ucaltdıq - dedi.

- Gün gələr, Nazıma ondan da möhtəşəmi ucaldılar - dedim.

Amma məsələ ondadır ki, Nazım özü məqbərə - filan istəməzdi, şeirində vəsiyyət eləmişdi ki, onu Anadoluda bir kənd məzarlığında torpağa gömsələr və başının üstündə bir çinar da olsa, heş daş-maş da gərək deyil.

İnanıram ki, haçansa şairin dalğa olub çırpıldığı Qadıköy iskələsinin ətrafında mərmər, qranit və tunc Nazım Hikmət heyranı olduğu və son saatınacan sitəmini, özləmini

çəkdiyi şəhərin - "çinarlı, qübbəli, mavi limanın" əbədi seyrinə dalacaq. Bu da Nazımın daha bir qələbəsi olacaq.

Sanki şairin bu zəfərini öncədən duyubmuş kimi, Rəsul Rza Nazım Hikmətə həsr etdiyi məqalələrindən birini "Qələbəni təbrik edirəm, Nazım!" adlandırmışdı. Mən də bu yazımın başlığında həmin ifadədən istifadə etdim. Bilirəm ki, Nazıma vətəndaşlığının qaytarılması xəbərinə ən çox sevinənlərdən biri atam olacaqdı. Bu xəbəri eşidən kimi atamın qəbri üstünə getdim. Əgər ruhlara inanırıqsa, bu gün Rəsul Rzanın ruhunun şad olduğuna əminəm.

ANAR
11 yanvar 2009

ANAR

KƏRƏM KİMİ

(Nazım Hikmətin həyatı və yaradıcılığı haqqında düşüncələr romanı)

Mən deyirəm ki ona
Kül olayım
Kərəm
kimi
yana
yana
Mən yanmasam
Sən yanmasan
Biz yanmasaq
nasıl
çıxar
qaranlıqlar
aydınlığa...

Canlı Nazım Hikməti ilk dəfə 1957-ci ildə Bakıda gördüm. Universitetdə görüşü zamanı, evimizdə, Cəfər Cabbarlının məzarı üstündə və böyük dramaturqun indi muzey olmuş mənzilində...

Sonralar da Bakıya hər gəlişində bizim evin qonağı olardı. Moskvaya yolumuz düşəndə mütləq mənzilində, bağ evində görüşərdik, ya da o özü, Əkbər Babayevlə birlikdə qaldığımız otelə, nömrəmizə gələrdi. 1962-ci ildə Moskvada Ali Ssenari Kurslarında oxuduğum zaman ara-sıra ona telefon edərdim, bir neçə dəfə görüşmüşdük. Son telefon danışığımız ölümündən bir neçə gün qabaq olmuşdu.

Bütün yadda qalan görüşlər, hafizəmə həkk olunmuş söhbətlər haqqında irəlidəki səhifələrində ətraflı danışacam. Amma bu romanı yazmağımın səbəbi yalnız böyük şairlə şəxsi görüşlərdən aldığım təəssüratları, onun yaddaşımda yaşayan sözlərini, təkrarolunmaz məlahətlə oxuduğu şeirlərin hələ də qulaqlarımda səslənən ahəngini canlandırmaq deyil. Nazım Hikmət mənimçün XX yüzilin və bəlkə də bütün gələcək dövrlərin ən böyük şairlərindən biri olmaqdan başqa, həm də keçən əsrin bir çox mühüm problemlərini öz yaradıcılığında və mübarizəsində, dünyagörüşündə və hərəkətlərində, tərəddüdlərində, inadında, səhvlərində, qüsurlarında, yenilməzliyində, əyilməzliyində, dönməzliyində, amma həm də nəyəsə göz yummağında, bir sözlə, mürəkkəb, ziddiyyətli, dramatik, bir çox məqamlarda faciəvi taleyində əks etdirmiş zəngin, dolğun şəxsiyyətdir. XX əsrin rəmzi olan şəxsiyyətlərdəndir. Odur ki, Nazım Hikmət yalnız öz həyat yolu və yaradıcılığı çərçivəsində qalmır. XX yüzildə dünyada irəliçi sənətin yaradıcılarından biri kimi, bu sənət yönünün keçdiyi əzablı, keşməkeşli, ümidlərlə və aldanışlarla, gələcəyə inamla və xəyal qırıqlığıyla səciyyələnən yolun yolçusu kimi Nazım Hikmət çox şeyin timsalıdır - yenilməz yeniliyin, əqidə uğrunda fədakarlığın, müxtəlif ictimai quruluşlarda qəbul etmədiklərinə qarşı barışmazlığın, böyük İnamın, böyük Həsrətin, böyük Eşqin və böyük Tənhalığın rəmzidir. Nazımın taleyi dünyada sağ və sol ideolojilərin barışmaz mübarizəsiylə, dünya siyasətinin bir çox ciddi məsələləriylə qırılmaz tellərlə bağlıdır və şair haqqında, onun ömrü və yaradıcılığı haqqında düşünmək deməkdir. Nazım həm də keçən əsrin düyünlərinin obyektiv, qərəzsiz, ədalətli və insaflı açılması üçün də həyatı və yaradıcılığıyla misilsiz örnəklər verən insandır.

Nazım Hikmət doğrudan-doğruya son dərəcə məşəqqətli, əzab-əziyyətli bir həyat yaşadı, amma onun "dünyaya gəldiyimə fövqüladə məmnunam" deməyə haqqı vardı, çünki yer üzündə ən şərəfli peşələrdən birinin sahibi idi - şair idi. Anadan şair doğulmuşdu. Mənə elə gəlir ki, Nazım şairdən başqa heç kəs ola bilməzdi. Ömrünü siyasətə qurban vermişdisə də, heç peşəkar siyasətçi də ola bilməzdi. Sənət səmimiyyət tələb edir. Siyasətçiyçün səmimiyyət - ölümdür. Siyasət güzəştsiz olmur. Həqiqi sənətdə güzəştə yer yoxdur.

Mənə görə Nazımı nəinki peşəkar siyasətçi, heç peşəkar inqilabçı da saymaq olmaz. O, peşəsinə görə yox, təbiətinə, xasiyyətinə, ruhuna görə üsyançı idi. Təbiətən üsyançı olmaq isə hələ peşəkar inqilabçı olmaq deyil. Hər üsyançı şair olmadığı kimi, hər şair də üsyançı olmur. Nazım misilsiz fitri istedadıyla şair, çılğın, barışmaz təbiətiylə əyilməz üsyançı idi. Təpədən dırnağa şair olduğu üçün ilk üsyanı da ədəbi üsyan idi - qəliblənmiş ədəbi anlayışlara, təsdiq olunmuş ədəbi nüfuzlara, ehkamlaşmış ədəbi zövqlərə qarşı üsyan - ədəbi bütləri yıxmaq!

Üsyançı şairlərin çox sonralar təsdiq olunan və yayılan geniş şöhrətlərini görüb onların xətt-hərəkətini örnək götürən yeni ədəbi nəsillərin bəzi nümayəndələri məsələnin yalnız bircə tərəfini dərk edirlər - yalız və yalnız sələflərinə qarşı çıxmaq, yalnız və yalnız "bütləri yıxmaq"... Unudurlar ki, həqiqi böyük sənətçi yalnız yıxmaqla durub qalmır, yıxdığının yerində yenisini, daha ucasını, daha yüksəyini qurur. Heç bir şey qurmağa, tikməyə qadır olmayanlar isə heç əməlli-başlı yıxmağı da bacarmırlar.

Nazım Hikmətin əsgi ədəbiyyatı, onun ruhunu və şəklini (formasını) qəbul etməməsi, köhnə şeirin məzmununa və biçiminə etirazı onun özünün yaratdığı yeni məzmuna və yeni formaya əsaslanmasaydı, yeni ruhu meydana gətirməsəydi şair söz sənətində yeni səhifə də aça bilməzdi.

Nazımın ikinci üsyanı - milli qürurun üsyanı idi. İlk gənclik illərində "qırx həraminin" - qürx quldurun əsiri olan doğma şəhərini İstanbulu - ingilis, fransız, yunan işğalı altında görmək onun qəlbinə Batı imperializminə qarşı elə bir qisas və hiddət toxumları səpmişdi ki. Ömrünün sonuna qədər bu mücadilənin atəşi sönmədi. Bu alovun işığında Qüveyi-milliyəni vəsf edən şeirlər yazdı, Mustafa Kamal paşanın Qurtuluş savaşını tərənnüm edən ən kamil bədii əsəri yaratdı və özü də İstanbuldan - "səsini qeyb etmiş şəhərdən" - Ankaraya, böyük Qazinin yanına yönəldi - onun yanında, onun səfində döyüşmək üçün.

Məncə, heç bir şair Atatürkün əməlinə Nazım Hikmət qədər yaxın olmayıb. Atatürkün məmləkətdə, tarixdə, cəmiyyətdə yapdığı işi - Türkiyəni çağlaşdırmaq, dünyaya açmaq və dünyanı Türkiyəyə açmaq, orta əsrlərin xurafat, cəhalət mühitini dağılmaq, yerində yenisini, çağdaşını, dünyaya boy verəcəyini qurmaq işini Nazım Hikmət də şeirdə, sənətdə yapdı.

Türkiyənin başqa bir ünlü yazarı Yaşar Kamal N.Hikmətə həsr olunmuş "Ən böyük şairimiz" adlı yazısında qeyd edir:

"Nazım Hikmət böyük xalq ozanlarının son böyü halqası olmuşdur. Tükr dili var olduqca Nazım Hikmət də var olacaqdır... Onun dil anlayışı, xalqın dili ilə şeir dilinin inanılmaz bir zənginliyə çatdırması ondan sonra gələn nəsillərə bir məktəb olmuşdur. Bizim şeirimizdə olduğu qədər hekayəmizdə, romanımızda da Nazım Hikmətin böyük təsiri vardır. Əgər bizim ədəbiyyatımıza Nazım Hikmət çapında bir yol göstərici gəlməsə idi, ədəbiyyatımız bu səviyyəyə çıxmazdı. Onun böyük şairliyi qədər ədəbiyyatımızda açdığı düzgün yol da əhəmiyyətlidir".

Bu gün Nazım Hikməti müəyyən siyasi səbəblərdən qəbul etməyən bəzi şairlər də məhz onun türk şerinə gətirdiyi sərbəst vəzndə, yeni poetik biçimdə, yeni ədəbi formalarda yazıb-yaradırlar.

Buna bənzər proses günümüzdə Azəbaycanda da baş verir. Azərbaycanda sərbəst şeiri yaradanlardan biri Rəsul Rza həm də uzun illər bu vəzni təkbaşına davam etdirən və yaşadan şair idi. Yalnız 60-cı illərdə bu şeir yoluna yeni gənc nəslin nümayəndələri də qoşuldu və Rəsul Rza kimi onlar da mürtəce tənqidçilərin, mühafizəkar ədəbiyyatçıların yüz cür tənə və hücumlarına məruz qaldılar. Vaxtilə belə çətinliklərlə açılmış bu yolla bu gün asanca irəliləyən və heç bir müqavimətə rast gəlməyən üç cüt bir tək cavan

şair məlum səbəblərdən, nəinki Rəsul Rzanın gördüyü işi nankorcasına danır, hətta şeirimizə yeniliklərin guya ki, özləri tərəfindən gətirmələri ilə lovğalanırlar. Ancaq səni inkar edənlərin belə sənin açdığın yolla getmələri elə bu yolu açan şairlərin ən böyük zəfəri deyilmi - Türkiyədə Nazım Hikmətin, Azərbaycanda Rəsul Rzanın?

• • •

Nazım Hikmət İstanbuldan Ankaraya, sonra isə Ankaradan Türkiyənin Doğu sərhədlərinə tərəf getdiyi yollar, keçdiyi kəndlər, obalar, rastlaşdığı insanlar ona Anadolunu, Türk köylüsünün həyatını tanıtdı və o, yurdunun acıdan acı insan mənzərələrini gördü. Daha sonra bu mənzərələr məhbusluq həyatının səhnələri və personajlarıyla daha da zənginləşdi - naz-nemət içində böyümüş paşa nəvəsi səfalətlə, yoxsulluqla, aclıqla, avamlıqla, sosial bərabərsizlik və ədalətsizliklə, varlılar-kasıblar təzadıyla qarşılaşdı və bütün bunlar şairi yeni bir üsyançı kimi yetişdirdi. İndi onun imperializmə qarşı savaşı yalnız milli azadlıq və istiqlaliyyət uğrunda deyil, həm də insanların bərabərliyi, əzilənlərin, istismar edilənlərin insan kimi yaşaması uğrunda mübarizəyə çevrildi. Özü də dəfələrlə vurğulayırdı ki, onu sosializm əqidələrinə bağlayan Moskvadakı marksist-kommunist təhsilindən daha öncəki Anadolu təəssüratları olub.

Nazım Hikmətlə bağlı daha bir məqam çox önəmlidir. Şairin Türkiyədə və SSRİ-də, özəlliklə də Azərbaycanda tamamilə müxtəlif cür qavranılması, dəyərləndirilməsi, məhəbbət, yaxud nifrətlə qarşılanması...

Əgər Türkiyədə "sollar" əsasən rəğbətlə, "sağlar" nifrətlə Nazım Hikməti kommunizmin simvolu sayırdısa, əllinci illərdə SSRİ-yə gəlişində bu ölkənin mütərəqqi, açıq fikirli ziyalıları onu zindandan qurtulmuş bir məhbus kimi yox, hürr duyanın "dəmir pərdə" arxasından gəlmiş elçisi kimi qəbul edirdilər. Moskvada yeniliyə meyilli sənətçiləri, şairləri, rəssamları, rejissorları dəstəkləyirdi, hətta hücumlara, təqiblərə məruz qalanlar havadar olurdu, ən azı, sənət sahəsində düşündüklərini, rəsmi ideologiyaya qətiyyən uyğun olmayan fikirlərini açıq deməkdən qorxub çəkinmirdi. Odur ki, sovet həyatının eybəcərliklərini satira donunda kəskin şəkildə lağa qoyan Arkadi Raykin kimi məşhur artist Nazımın evini "tərəqqipərvər bəşəriyyətin qərargahı" adlandırırdı.

Azərbaycanda isə şairə münasibətin özəllikləri başqaydı. Türkiyədə adı yasaq olan illərdə Nazım Hikmətə Azərbaycan sahib çıxmışdı, əsərləri Türkiyə türkcəsinin ekiz qardaşı Azərbaycan türkcəsində nəşr olunurdu, teatro səhnələrinə çıxırdı. "O vaxtlar Azərbaycan Sovet İttifaqının bir hissəsi idi və ona görə də burda Nazımı ümumi sovet siyasi məqsədləri çərçivəsinlə qəbul edirdilər" - deyilə bilər. Doğrudur, amma bu, həqiqətin yalnız bir hissəsidir, tam həqiqət deyil. Həqiqətin başqa və daha önəmli tərəfi isə ondan ibarətdir ki, o illərdə Nazım Türkiyədə çoxları üçün "Moskvanın Adamı", "türk düşməni" idisə, Azərbaycan üçün Türkiyənin, türklüyün, türk dilinin rəmzi idi və şairi bitib-tükənməyən alqışlara qərq edən Bakı auditoriyaları onun simasında kommunist təbliğatının daşıyıcısını deyil, uzun illər həsrətini çəkdiyimiz Türkiyənin ətrini, ruhunu bizə yetirən, canımız qədər doğma olan türk dilində danışan, ölümsüz şeirlərini bu dildə oxuyan (özü də NECƏ oxuyan) bir TÜRK şairini alqışlayırdı. O illərdə Sovet İttifaqının türk bölgələrində və ilk növbədə, əlbəttə, Azərbaycanda heç kəs türklük ruhunu, türklük şüurunu Nazım Hikmət qədər yüksəldə bilməyib. "Türk" sözü Azərbaycanda xalqımızın, dilimizin adı kimi yasaq olanda, Türkiyəylə tarix, ədəbiyyat, folklor, kök, adət-ənənə birliyimiz haqqında hər hansı fikir cinayət sayılanda, bizi bağlayan bütün iplər qopardılanda, Türkiyə sevgisinə ya sadəcə, Türkiyədə qohumları yaşadıqlarına görə minlərlə azəbaycanlı sürgün, ya qətl ediləndə Nazım Hikmət kütləvi görüş tədbirlərində ən yüksək kürsülərdən: "Mən türkəm, siz də türksünüz, ruhumuz, gələnəklərimiz bir, xalqlarımız, dillərimiz qardaşdır" - deyirdi.

Otuz illik fasilədən sonra yenidən Azərbaycana gələn Nazım Bakını bir də İzmirə bənzədiyinə görə bu qədər sevirdi, şəhərimizə və Xəzərə təsirli şeirlər həsr edirdi. Azərbaycanda özünü doğma mühitdə, özəlliklə ona munis olan Azərbaycan türkcəsi mühitində rahat hiss edirdi. Moskvada şeirlərini orijinalda kimə oxuya bilərdi - ilk öncə əlbəttə, Moskvada yaşayan azərbaycanlı türkoloq, dostu və araşdırıcısı Əkbər Babayevə və bir-iki başqa türkoloqa. Bakıda isə onun böyük salonları dolduracaq və şeirlərini saatlarla doyub bıqmadan dinləyəcək geniş auditoriyası vardı, əsərlərinə qiymət verə biləcək şair, yazıçı, bəstəkar, alim dostları vardı.

Sovet İttifaqının başqa türk cümhuriyyətlərində də bir çox insanlar üçün, ilk öncə şairlər üçün Nazımın varlığı Türkiyə həsrətinin, türk dili özləmini gidərə, ovundura bilən təsəlli idi. Şəxsiyyətinə və yaradıcılığına hörmət bəslədiyim türkiyəli şair dostum Yəhya

Akenkini heç cür Nazım yanlısı saymaq olmaz. Yəhya bəylə bütün başqa məsələlərdə fikirlərimiz tam uyğun gəlirsə, Nazımdan söz düşəndə daima dartışırıq. Yəhya Akenkin Nazımı şəxsiyyət kimi qəbul etmir, Türkiyədən qaçıb getməsini, illah da Sovetlər Birliyinə sığınmasını heç cür bağışlaya bilmir ona. Amma o da mənim fikrimlə razılaşmalı olur ki, həmin illərdə Nazım Türkiyə üçün kommunizmin simgəsi, simvolu idisə, Azərbaycan üçün Türkiyənin, türklüyün rəmzi, timsalı idi. Hətta Yəhya bəy mənim sözümə qüvvət verərək belə bir misal da çəkir: Qazanda tatar şairi Renat Harisin evində qonaq olarkən onunla da Nazım barədə mübahisə edib. Renat kitab rəfindən Nazımın kitablarını çıxarıb: - o illər bu kitablardan Türkiyənin havasını udurduq - deyib - Türkiyəni, türkcəni bizə daha çox yaxınlaşdıran və sevdirən də Nazım idi.

• • •

Nazım Hikmət haqqında kitab yazmaq fikrinə düşəndə dərk edirdim ki, yalnız şəxsi xatirələrimlə, təəssüratlarımla, fikirlərimlə, onun haqqında özümün düşündüklərimlə kifayətlənmək yetərli deyil. Şəxsi xatirələr deyəndə mən yalnız özümün müşahidə etdiyim görüşləri, söhbətləri nəzərdə tuturam. Mənim bilavasitə iştirak etmədiyim epizodları, atam Rəsul Rzanın, anam Nigar Rəfibəylinin, əmim Ənvər Məmmədxanlının, habelə Zəkəriyyə Sərtəlin, Əkbər Babayevin, Vera Tulyakovanın, şairin tərcüməçisi Muza Pavlovanın, eləcə də Nazımı Türkiyədən tanıyan başqa insanların mənə danışdıqlarını da nəzərdə tuturam. Nazım Hikməti şəxsən tanıyan, onunla az-çox təmasda olan xeyli adamla ötəri yaxud ətraflı söhbətlərim olub: Türkiyə nasir və dramaturqlarından Əziz Nesin, Haldun Taner, Səmum Qocagöz, Rifat İlqaz, Fakir Baykurt, Oqtay Akbal, şairlərdən A.Qədir, Atilla İlhan, İlhan Berq, jurnalist İlhan Selcuq, rəssamlardan Abidin Dino, Avni Arbaş, İbrahim Balaban, Səlim Turanla təmaslarım olub və bəziləri - Haldun Taner, Oqtay Akbal, A.Qədir - səfər yazılarında bu görüşləri qeyd də ediblər. Kamal Tahir, Yaşar Kamal, Məlik Cevdət Anday, Fazil Hüsnü Dağlarca, Vera Tulyakova, Münəvvər xanım və Nazımın oğlu Məmməd Bakıda atamgilin evində qonaq olublar, bacısı Səmihə xanımla Bakıda və İstanbulda görüşmüşük. İstanbulda Nazım Hikmət vəqfinə - vəqfin sədri professor Aydın Aybaya, əməkdaşı Qiymət Coşğun xanıma şairin Azərbaycanla bağlı fotolarını, öz səsiylə oxuduğu şeirlərinin maqnitofon lentlərini, Bakıda əski əlifbayla çıxan ilk kitabını - "Günəşi içənlərin türküsü"nü və atamın arxivindən şairlə bağlı sənədləri - əlyazmalarını, teleqramları, məktublarını təqdim etdim.

Bakıda yaşadıqları illərdə Sərtəllərlə - Zəkəriyyə bəylə, Səbihə xanımla, Vıldız xanımla ya atamgildə, ya onların evlərində tez-tez görüşərdik. Nə yazıq ki, Nazımın oğulluğu Məmməd Fuadla tanış ola bilmədim. İstanbuldaykən qəzetəçi və şair dostum İrfan Ülkünün vasitəsilə Məmməd Fuad bəylə görüşməyi qərarlaşdırmışdıq, amma ona zəng edəcəyimiz günün ərəfəsində kədərli bir xəbər eşitdik: Məmməd Fuad bəy rəhmətə gedib.

Şairin Moskvadakı dostlarından məşhur rus yazarı Konstantin Simonovla bir yerdə on gün Türkiyədə - İstanbulda, Ankarada olarkən tez-tez Nazımı xatırlayırdıq. N.Hikmətin Moskvadakı tərcüməçiləri və tədqiqatçılarının bir çoxuyla şəxsən tanış idim - Boris Slutskiylə, David Samoylovla, Muza Pavlovayla, Radi Fişlə, Sverçevskayayla, Tverskoyla... Moskvada yaşayan azəbaycanlı türkoloq, Nazımın dostu və araşdırıcısı Əkbər Babayevi yaxından tanıyırdım. Başqa bir moskvalı alim-türkoloq, Nazım Hikmət haqqında, çağdaş türk ədəbiyyatı haqqında kitabların müəllifi Tofiq Məlikli köhnə dostumdur. Təbii ki, Nazımın Azəbaycandakı tədqiqatçılarını, tərcüməçilərini, ünsiyyətdə olduğu adamları da yaxşı tanıyıram.

Bu yaxınlarda İstanbulda olarkən düşündüm ki, indi Türkiyədə Nazım Hikməti şəxsən tanıyanları (yəni 1951-ci ildə məmləkətindən çıxana qədər tanıyanları) barmaqla saymaq olar. 51-ci ildən sonra Moskvada və Bakıda şairi görənlər bəlkə indi Türkiyədə onu şəxsən tanıyanlardan çoxdur, amma nə yazıq ki, həm onların, həm bunların sayı il-ildən azalır. Bu bir acı gerçəkdir.

Türkiyədə - hələ gəncləri demirəm, - mənim nəslimdən olan adamlar da Nazımı şəxsən tanıdığımı biləndə az qala təəccüblənirdilər. Onlarçın Nazım artıq bir tarixdir.

Türkiyə, – elə indi Azərbaycan və Rusiya kimi - siyasi və ideoloji baxımdan həddən ziyadə qütbləşmiş ölkədir. Neçə-neçə müxtəlif partiyalar olsa da, cəmiyyət əsasən sağçılara və solçulara bölünüb, amma Sağın və Solun özləri də bir bütün halında deyillər, parçalandıqca parçalanırlar. Sollar bəzən hissə qapılaraq sağçıları tutucu, geriçi, yobak (fanatik), faşist adlandırırlar. Eyni cür sağlar da ifrata vararaq solçulara vətən xaini, Moskvanın uşağı (Moskvanın nökəri), kommunist ajanı deyirlər. Bu ibarələri ədalətsiz

sayaraq yazımda heç birindən istifadə etməyəcəyəm (sitat gətirməyə məcbur olduğum mətnlərdən başqa), yalnız sol, solçu və sağ, sağçı ifadələrini işlədəcəyəm ki, özləri də bu təbirləri özlərinə ad edirlər. Sağların və solların qarşıdurması bəzən aşırı (ifrat) şəkil alır. Məsələn, şəhər bələdiyyəsində solçular iqtidara keçəndə sağlar bələdiyyənin tabeliyində olan tamaşa salonlarını belə boykot edirlər və əksinə - sağlar iş başına gələndə həmin salonlara - tutalım, elə İstanbuldakı Qaraca teatrosuna - solar ayaq basmır. Siyasi qütbləşmə hətta dil kimi universal bir məfhuma da təsir göstərir. Sağların dilinə, o cümlədən tərcümə etdikləri kitabların dilinə sollar, solların mətnlərinin və çevirilərinin dilinə sağlar irad tutur. Bunu öz kitablarımın tərcümələrinə münasibətdə müşahidə etmişəm. Lakin Sağın və Solun ən çox dartışdığı (mübahisə etdiyi) məsələ Nazım Hikmətə münasibət məsələsidir. Bu barədə kitabımın sonrakı bölümlərində daha etraflı yazacağam, amma burda bir məqamı xüsusi vurğulamaq istərdim.

Türkiyədə həm sollar, həm sağlar arasında çoxlu dəyərli insanlar, altını cızaraq söyləyirəm - əsl vətənsevərlər, şəxsən mənim hörmət bəslədiyim yazıçılar, alimlər, jurnalistlər, siyasi xadimlər var, onların bəzilərilə məni dostluq əlaqələri bağlayır. Amma bəzi bizimkilərdən fərqli olaraq heç bir vaxt yerimi şirin salmaq üçün sağların arasında olanda Nazımın dalından qaçmamışam, əksinə, qızğın mübahisələrlə Nazımın böyüklüyünü və səmimiyyətini isbat etməyə çalışmışam. Belə etməsəydim, mən yalnız Nazımın ruhuna deyil, atamın da ruhuna xəyanət etmiş olardım və ən azı, öz keçmişimə - xatirələrimə də etibarsız çıxardım. Və bəlkə buna görə sağlar arasında dostlarımla bərabər məni sevməyənlər də az deyil. Sollara gəldikdə, o dostlarıma da Nazım Hikmətin Sovet İttifaqındakı həqiqi durumunu, 50-ci illərdəki gəlişindən sonra burdakı quruluşun eybəcərliklərini görüb xəyal qırıqlığına uğradığını, həyatının böyük peşmançılığını olduğu kimi, gördüyüm və bildiyim kimi çatdırmağa çalışıram. Əlbəttə, bu da çoxunun xoşuna gəlmir. Bunları ona görə yazıram ki, "Kərəm kimi" kitabıyla Türkiyədə tanı olacaqlarsa, sağlar kommunist şairdən yazdığımdan narazı qalacaqlar, sollar isə Nazım Hikmətin müxtəlif dövrlərdən keçərək müəyyən dəyişikliklərə uğramış dünyagörüşü - onun bir şair və şəxsiyyət kimi böyüklüyünü bə bütövlüyünü zərrə qədər də azaltmır.

Türk dilinin, türk dünyasının ən böyük şairlərindən birinin sənət dühasını dərk etmək Türkiyə ictimai fikrini parçalamaq deyil, onu poeziya, gözəllik, yüksək insani və milli dəyərlər zəminində birləşdirməyə çalışmaqdır.

Nazım haqqında kitab yazmış və şəxsən tanımadığım, amma kitabından solçuluğu bəlli olan bir müəllifin - Hikmət Ağgülün "Nazım Hikmət. Siyasi bioqrafi" kitabında ifadə etdiyi fikirlə heç cür razılaşa bilmərəm. O yazır ki: "Nazım Hikmətin şeirini onun kimi oxumaq, onunla bərabər yürümək, onunla bərabər döyüşmək üçün, onunla eyni dünyagörüşünə sahib olmaq şərtdir. Nazımın mirası da onlarındır."

Xeyr, mənca, belə deyil, Nazımın ölməz yaradıcılıq mirası yalnız onun *dünyagörüşünü* paylaşanların deyil, bütün türk xalqınındır - sağıyla, soluyla və nə sağ, nə sol olan böyük əksəriyyətiylə. Bütün Türk dünyasınındır, daha sonra bütün dünyanındır.

"Türk dünyası" ifadəsinə yəqin ki, bəzi solçular bir qədər ürkərək, şübhə və təşvişlə yanaşacaqlar. Bəzi sağçılar isə Nazımı bu dünyaya buraxmaq istəməzlər. Əbəs cəhdlərdir. Dədə Qorqudsuz, Yunis İmrəsiz, Nəvaisiz, Füzulisiz Türk dünyası olmadığı kimi, Nazım Hikmətsiz də türk dünyası yoxdur.

O Nazım Hikmətsiz ki, 1914-cü ildə 12 yaşındaykən bu misraları yazmışdı:

Yenə böyük türk adı
Dağlar, daşlar aşacaq
Yenə türkün bayrağı
Qalaları yıxacaq
Yenə türkün gəmisi
Dənizləri aşacaq
Yenə türkün sənəti
Avropaya daşacaq.
Yenə türkün sinəsi
Vətən eşqiylə dolacaq,
İştə bundan əmin ol.
Emin ol ki, olacaq
Yenə türkün tarixi
Ulduzlu səhifələr yazacaq

Qırx beş il sonra isə belə demişdi:

Məmləkətimi sevirəm
Çinarlarında kolan vurdum, həbsxanələrində yatdım
Heç bir şey ovutmaz bu sıxıntımı
Məmləkətimin şarkıları və tütünü kimi...
Məmləkətim:
Bədrəddin, Sinan, Yunis İmrə və Sakarya,
qürşun qübbələr və fabrika bacaları...
Heyran bir çocuq sevinciylə qəbula hazır
çalışqan, namuslu, igid insanlarım
yarı ac, yarı tox,
yarı əsir...

Nazım Hikmət Qazi Mustafa Kamalın Qurtuluş savaşını türk ədəbiyyatının ən dəyərli əsərlərindən birində - "Qüvveyi - milliyə"də tərənnüm etmişdir və İsmət paşa: "Bu əsəriylə Nazım Qurtuluş savaşını bir daha qazandı" - demişdir. (Bu sözlərə o vaxt məhbəsdə yatan Nazım zarafatla cavab vermişdi: Paşa dua etsin ki, savaşı qazanıb, yoxsa o da indi burda mənim yanımda idi).

Nazım Hikmət məmləkətinə, xalqına sonsuz və təmənnasız sevgisini yalnız mətbu yazılarında bəyan etmirdi, dostlarına ünvanladığı, onlardan başqa kimsənin oxumayacağı ən mərhəm məktublarında bildirirdi:

"Dünyanın ən iyi insanlarından biri olan Türk xalqının və dünyanın ən gözəl dillərindən biri və bəlkə də ən başda gələnlərindən olan Türk dilinin yabançı diyarlarda tanınmasına vəsilə ola bilmək ömrümün ən böyük sevinci və şərəfi olar. Yaşasın böyük, ölməz və uğrunda həbslərdə yatmağa dəyər türk xalqı" - **(Va-Nuya məktublarından)**

Va-Nu - Nazımın ən yaxın əski dostu, şairin ölümündən sonra onun haqqında "Bu dünyadan Nazım keçdi» adlı qiymətli kitabın müəllifi Vala Nurəddinin mətuatda imzasıdır. Yazımın irəlidəki səhifələrində bu kitabdan geniş istifadə edəcəyəm. Burada isə Valanın yalnız bir fikrini gətirmək istəyirəm. O: "Ortaq türk dilini (pantürkçəni) Nazım yapdı" - deyir.

Doğrudan da, bizim günlərdə ortaq dilinin yaradılmasından çox bəhs olunur. Bu ortaq dili - ən azı Azəri və Anadolu türkləri üçün eyni dərəcədə anlaşıqlı bir dili də - illər öncə Nazım Hikmət yaratmağa çalışdı.

Min illik Türk şerinin ən böyük yaradıcılarından birinə, tük dilinin ecazkar ustadlarından birinə biganə qalıb bu ədəbiyyatı, bu dili necə sevməmək olar, bilmirəm. Bəzi solçular ifrata varıb Nazımı yalnız və yalnız bir kommunist kimi dəyərləndirdikləri kimi, bəzi sağçılar da ümumiyyətlə, onun əsərlərinin bədii dəyərini azaltmaq, hətta heçə endirmək istəyirlər. Ondan qat-qat aşağı şairləri məfkurə yaxınlığına görə Nazımdan üstün tuturlar. Nazımın dünya şöhrətini belə danırlar. Bütün bu cəhdlər əbəs və puçdur. Kitabları dünyanın bütün dillərinə çevrilmiş və onlarla ölkədə basılmış şairin böyüklüyünü milyonlarla oxucularla bir sırada XX əsrin elə böyük şəxsiyyətləri təsdiq etmişlər ki, ağlı və savadı olanlar buna göz yuma bilməz. Pikasso kimi dahi sənətçi Nazımın şeirlərinin təsirini "sanki bulağa gedirsən" sözləriylə ifadə etmişdir. Ünlü fransız şairi Lui Araqon: "Nazım Hikmət XX əsrin görkəmli aydınlarından biridir: Eyzenşteyn, Brext və Pikasso ilə yan yanadır" - demişdir. Alman yazıçısı Alfred Kurela isə: "Nazım Hikmətə dünyanın ən böyük şairlərindən biri deyirlər. Xeyr, biri deyil, ən böyüyüdür" - deyib.

Nazım: "Mən dünyada ən hürr komunistəm" deyirdi. Sovet dövləti onu təqdim olunduğu Lenin mükafatına layiq bilmədi, bu mükafatı Nazımın topuğundan olan şairlərə verməyi rəva gördü. Yəqin ki, məhz "hürr komunist" olduğuna görə. Kommunist olduğuna görə. Kommunist olduğuna görə Qərb dünyası da ona çoxdan layiq olduğu Nobel mükafatını qıymadı. Amma Nazımın böyüklüyünü və üstünlüyünü neçə-neçə Nobel laureatı - Pablo Neruda, Angel Miquel Asturias, Boris Pasternak, Frederik Jolio-Küri, Jan Pol Sartr, Alber Kamyu, Haldor Laksnes ürək genişliyiylə təsdiq ediblər.

"Vəfalı dost, igid mübariz, insan düşmənlərinin amansız düşməni, hər yerdə bəşərə xidmət etmək, amma heç bir şeyə biganə olmaq istəmirdi. Bilirdi ki, insan yaradılmış bir məxluqdur və heç vechlə dünyaya hazır gəlmir. Gərəkli olan durmadan düşmənlə savaşaraq öz-özünü yapmaqdır. Sözün qısası, Paskalın İsa haqqında dediyi kimi və bu gün Nazım Hikmət kimi ziyalı bir mübarizin dediyi təkin əsla uyumamaq lazımdır. O, əsla uyumadı. Önəmli olan odur ki, ölüm onun ilk və son yuxusu oldu."

Jan Pol Sartr

"Böyük türk şairi Nazım Hikmətin şəxsiyyəti Latın Amerikasında inanılmaz həyəcan yaratmışdı. Onun Türkiyənin qurtuluşu üçün savaşması, bizim şair və yazıçılarımızın Latın Amerikasının qurtuluşu üçün apardığı mübarizəylə eyniydi. Çox fərqli, bir-birindən çox uzaq dillərdə Nazım Hikmət və bizim nasirlərimiz eyni insani həsrətdə və şairlərimiz insanın eyni gerçək problemlərini ifadə etməkdə birləşirdik."

Angel Miquel Asturias

Latın Amerikasının başqa bir nobelçi yazarı, Çili şairi Pablo Neruda Vyanada Konqresdə Zəkəriyyə Sərtələ deyib ki, Nazımı qoruyun, biz onun yanında heç şair də sayıla bilmərik.

Yalnız çağdaşları deyil, sonrakı nəsillərin də ən məşhur sənətçiləri, bir vaxt dəbdə olan ingilis dramaturqu Harold Pinterdən bir vaxt çox dəbdə olan rus şairi Yevgeni Yevtuşenkoya qədər, Nazıma heyran olanlardandır.

Türkiyədə də Nazımın qiymətini yalnız sol yazarlar deyil, onun "türkcəni gözəlləşdirməsini" etiraf edən Ziya Göyalp, "Türk şeirində qüdrətini isbat etmiş və sənət savaşında zəfər bayrağını çox uja bir təpəyə taxmasını" deyən Xalid Ziya Uşaqlıgil, "orijinallıq, ilham və qüdrət baxımından şah əsərlər deyilə biləcək parçalar yazdığını" söyləyən Xalidə Ədib Adıvar, "Nazımdan sonra yeni nəsildən heç biri şairin bu şöhrətinə çata bilməməsini" yazan Yaqub Qədri Qaraosmanoğlu kimi tamamilə fərqli düşüncəli şəxsiyyətlər - Türk ədəbiyyatının, fikir dünyasının mumtaz simaları da vermişlər. Vaxtilə gənc Nazımın hücumlarına məruz qalmış, şairin yıxmaq istədiyi bütlərdən biri Türkiyə ədəbiyyatının böyük klassiki Əbdülhaq Hamid deyir: Nazım Hikmət bəy məndən yanlışsız bir səhifə oxuya bilməz, məni anlayamaz... Anlamadığı halda necə tənqid edə bilər? Amma mən haqq tanıyan adamam... Nazım Hikməti öz janrında bəyənirəm. İstedadı var".

Vala Nurəddinin şəhadətinə görə Türkiyənin Milli marşının (himninin) müəllifi Məhməd Akif də Nazımdan sitayişlə bəhs edirmiş. (baxmayaraq ki, Məhməd Akif - Tofiq Fikrət qarşıdurmasında Nazım Fikrətin mövqeyinə üstünlük verirmiş).

Əqidələri, siyasi baxışları etibarilə Nazım Hikmətlə zidd cəbhələrdə duran görkəmli siyasətçilərdən Camal paşa, İsmət paşa, Alparslan Türkeş, Süleyman Dəmirəl də onun böyük şair olduğunu inkar etmirdilər.

Mənimçün ədəbi əxlaq baxımından görkəmli Türkiyə ədəbiyyatşünas alimi Əhməd Qabaqlının Nazım Hikmət haqqında fikirləri çox önəmlidir. Əhməd Qabaqlı özünün beş cildlik Ədəbiyyat tarixinə aid kitabından Nazıma həsr olunmuş parçanı ayrıca çap etmək istəyirmiş. Bu niyyətini yalnız alimin ölümündən sonra yerinə yetirmişlər. Əhməd Qabaqlı dünyagörüşü, əqidəsi etibarilə Nazım Hikmətlə daban-dabana zidd baxışlara malik olan bir insan, ardıcıl antikommunist və antisovet mövqeyində duran millətçidir. Amma bəlkə bunlardan daha vacib vicdanlı bir ədəbiyyat tarixçisi olmasıdır və məhz belə bir obyektiv və ciddi alim kimi Nazım Hikmətin də şair, sənətkar qiymətini bilir. Əhməd Qabaqlı yazır: «Nazım Hikmət Əbdülhaq Hamiddən sonra Türk şeirində ən aşırı biçim, hərəkət və mühtəva yenilikçisidir. Sərvəti-Fyununçular və sonrakı nəsillər nasıl az çox Əbdülhaq Hamid havasında oldularsa, Nazım Hikmətdən sonra gələn və "Birinci yeni" (yaxud "qəribçilər") və "İkinci yeni" adıyla sonralar anılan axımlar və bu axımlara bağlı olmayan şairlər də Nazım Hikmətdən biçimlər, temalar, duyğular, üslublar və ya ilhamlar aldılar". Nazım Hikmətin siyasi baxışlarını qətiyyən qəbul etməyən, bu cəhətdən ona tamamilə müxalif olan Əhməd bəy "bu məmləkətdə hələ də Nazımı tanımaq və tanıtmaqda tərəddütlər, çəkinmələr bulunduğundan" əndişələnir. Ə.Qabaqlı qeyd edir ki, Nazımı oxuyub obyektiv ölçülər içində təhlil etməkdənsə onu hələ də bir qovğa və öc aləti kimi istifadə etmək istəyənlər var. "Nazıma "xain, satılmış, Moskva uşağı" deyərək işin içindən sıyrılmaq istəyən, nifrətini sənət və ədəbiyyat zənn edən adamlar da vardır. Anlatdığım bu hər iki tövür də ədəbiyyat elmi və sənət baxışının dışındadır".

Daha sonra Ə.Qabaqlı yazır:

"Nazım Hikəti ilk dəfə olaraq elm, ədəbiyyat və sənət ölçüləriylə ədəbiyyat tarixinə keçirmənin fərahlığı içində xüsusiylə bunu düşündüm: XİV əsrdə yaşamış güclü divan və təsəvvüf şairlərimizdən Nəsimi də o zamanlar təsəvvüfün təhlükəli və sapıq bir qolu sayılan hürufilik qoluna bağlıydı. Zamanında bu yüzdən şiddətlə təqib olunmuş, hətta dərisi soyularaq öldürülmüşdü. Bu gün isə hürufilik unudulmuş, Nəsiminin eşsiz qəzəlləri, mənalı tuyuqları qalmışdır".

Alimin bu sözlərinə qüvvət, bu gün şeirləri yaşayan və dillər əzbəri olan başqa cəfakeş şairlərin aqibətini də xatırlamaq olar: Nəfinin başını kəsmiş, Pir Sultan Abdalı dara çəkmişlər. Azərbaycan şairi Molla Pənah Vaqifi qayadan ataraq qətlə yetirmişlər.

Ə.Qabaqlının rəyincə, 1917- ci ildən dünyanın başında kabus kimi dolaşan və sonunda özü özünü məhv edən kommunizmlə bərabər onün mücadilələri və qovğaları da qapanmışdır. "Nazım Hikmətin şeirlərinin ən üstünləri üçün də "bu şair üzərində çağdaşları heç bir hökm verməmiş, yalnızca öymüş ya aşağılamışdılar" " deyəcək gələcək nəsillərin bizi ayıblamasını istəmirəm".

* * *

Tarix boyu olduğu kimi, XX əsrdə də Türkiyə dünyaya bir çox dəyərli insanlar bəxş etmişdir - siyasi xadimlər, hərbçilər, şairlər, yazıçılar, rəssamlar, sənət və elm adamları. Amma XX yüzildə dünyada bu məmləkəti əsasən iki böyük şəxsiyyətlə tanıyırlar - Kamal Atatürklə və Nazım Hikmətlə.

Atatürk Nazımın şeirlərini bilir və bəyənirmiş. Fatih Rıfqının dediyinə görə, Kamal paşa Nazımın öz səsiylə "Bəhri Xəzər" və "Salxım söyüd" yazılmış plakı zaman-zaman dinlər və dalğınlaşarmış.

Hikmət Akgül "Nazım Hikmət" (Siyasi bioqrafi) kitabında yazır ki, Atatürk yaxın dostu Əli Fuad Cebesoyu (O, Nazımın "paşa dayı" dedikləri qohumudur) xəbərdar edirmiş - hətta onun, Qazinin ətrafında olan adamlar çocuğu (yəni gənc Nazımı) siyasi məqsədlərində alət kimi istifadə etmək istəyirlər. Cebesoya görə, Mustafa Kamal Nazım haqqında: - Mən tanıyıram, mərd oğlandır o, - demiş - Əsgərlərin arasında onun yazılarına bənzər yazılar uydurub yaymışlar. Başını yaxmaq istəyirlər oğlanın. Hamısından xəbərim var".

* * *

Nazım Hikmət 61 illik ömrünün 44 ilini Türkiyədə, onun 15 ilini dörd məhbəsdə – İstanbul, Ankara, Bursa, Çankırı cəza evlərində keçirib. Bir sıra Türkiyə şairləri, yazıçıları - Nazımın yaşlı müasirləri yaxud nəsildaşları - uzun müddət Avropa ölkələrində, onların böyük paytaxt şəhərlərində yaşamış, təhsil almış, işləmiş, hətta səfir olmuşlar. Amma heç biri ömrü məhbəslərdə keçmiş Nazım Hikmət qədər Avropada və dünyada tanınmamışdır. Bədxahları bəzən belə deyirlər ki, bu şöhrətə Nazım məhbəsdə aclıq etməsiylə çatıb. Doğrudan da, şair məhbsdə aclıq elan edəndə və ölüm təhlükəsiylə üz-üzə duranda, ilk növbədə, Fransanın, sonra da başqa ölkələrin ictimaiyyəti N.Hikmətin müdafiəsinə qalxdı. Amma əgər Nazım bundan əvvəl özünü yaradıcılığıyla dünyada tanıtmasaydı, ictimai əks-səda bu qədər güclü ola bilərdimi? Məgər hər aclıq çəkəni dünya böyük şair kimi qəbul edir, məhbəsdən qurtulandan sonra da əsərləri dönə-dönə müxtəlif dillərə çevrilir, nəşr olunur?

Nazım Hikmət özü yazırdı:

Şeirimin kökü yurdumun torpaqlarındadır. Amma budaqlarımla bütün torpaqlara. Doğuda, Batıda, Güneydə, Quzeydə ucsuz-bucaqsız yayılan bütün torpaqlara, o torpaqlar üstündə qurulmuş mədəniyyətlərə, böyük dünyamıza uzanmaq istədim. Yalnız öz ədəbiyyatımızı deyil, Doğu və Batı ədəbiyyatının bütün ustalarını ustam bildim.

Nazımın qarşısına qoyduğu bu məqsədə çatdığını onun yaradıcılığının dünya şöhrəti təsdiq edir. Əlbəttə, Nazım Hikmət, ilk növbədə, milli türk şairidir, amma eyni zamanda dünya şairidir. Şair haqqında ingiliscə yazdıqları və Londonda nəşr olunmuş "Romantik kommunist" kitabının müəllifləri Səmihə Göysu və Edvard Tayms haqlıdırlar:

"İngilis şairi Şekspir nə qədər İngiltərədəndirsə, ya da ispan şairi Lorka nə qədər İspaniyadandırsa, türk şairi Nazım Hikmət də ancaq o qədər Türkiyədəndir."

2002-ci ilin yanvar ayında - dünya Nazım Hikmətin 100-cü doğum gününü qeyd edərkən Türkiyədəydim. İstanbulun üç min adam tutan Atatürk Kültür Mərkəzində bütün salonu doldurmuş adamlardan - əsasən gənclərdən - başqa balkonlarda belə saatlarca ayaq üstə duranları görəndə (mən də gecikdiyim üçün ayaq üstə qalanlardan idim), səhnədən Gənco Erkal, Zülfi Livaneli və başqa ustad sənətçilərin ifasında səslənən Nazım şeirlərini və mahnılarını bütün tamaşaçıların əzbərdən təkrar etməsinin, oxumasının, bitib-tükənməyən alqışlarla qarşılanmasının şahidi olduğumda bir daha dərk etdim ki, Türkiyənin ən böyük çağdaş şairini bu xalqın qəlbindən çıxarmaq istəyənlər məqsədlərinə çata bilməyiblər.

Təbii ki, Nazıma bədxah münasibət ilk növbədə onun siyasi əqidələri, ideoloji mövqeyiylə bağlıdır. Amma bu mövzuda xeyli söhbətlərimin nəticəsində gəldiyim bir qənaət də var. Bəlkə də yanılıram. Mənə elə gəlir ki, Nazım kommunist olmasaydı və məmləkətindən qaçmasaydı belə, onun öz ifadəsiylə desək, "qanına susamış" düşmənləri şairə nifrət bəsləmək üçün başqa bir səbəb tapacaqlardı. Bu nifrətin mətbuatda yer almış konkret örnəkləri Nazımın Türkiyədən qaçmasından çox-çox öncələr üzə çıxmışdı.

Nazım ətrafındakılardan çox fərqli və çox üstün bir insan idi. O qədər üstünlükləri, cəlbedici cəhətləri vardı ki, ona qarşı nifrət də total xarakter daşıyırdı. Nifrət edənlər nifrətləri üçün nə qədər müxtəlif bəhanələr (və özaldanışlar) tapsalar da, bunun mayasında əsas etibarilə paxıllıq, həsəd və qısqanclıq dururdu. Kommunist olmasaydı, ölkədən qaçmasaydı, başqa iradlar tutacaqdılar. (Və tuturdular, indi də tuturlar). Məsələn, indən belə səliqəsiz, yaxud əksinə, boylə şık geyinir.

Nəslində, şəcərəsində qurdalanacaqdılar, guya ki, hansısa ulu babasının türk olmadığına görə onu da türk saymaq olmazmış. Yaxud başqa bir irad: niyə qadınlara etibarsız olub? Niyə saçları belə darağa yatmır və s. və b.k. O qədər bəhanə bulmaq olar ki...

Nazım zahirən də belə gözəl-göyçək, boylu-buxunlu erkək olmasaydı, topal, çaş, keçəl, ya çopur olsaydı, yaxud elə olduğu kimi yaraşıqlı və yapışıqlı ola-ola qadınların diqqətini çəkməsəydi (izah olunmaz qadın məntiqinə görə, bu da mümkündür), yaxud bütün bu şanslara malik ola-ola zəif şər olsaydı, ya da istedadlı sənətkar olub da layiqli şöhrətini, o cümlədən dünya şöhrətini qazanmasaydı (elə ən çox da buna qısqanırdılar), yəqin ki, ona bu dərəcədə nifrət edənlər də tapılmazdı. Bütün bu keyfiyyətlər möcüzəvi şəkildə bir fərddə toplandığına görə ona müxtəlif cəhətlərdən paxıllıq edənlər, həsəd aparanlar nəinki cəmiyyətin, elə özləri özlərinin gözlərində bir bərəət qazanmaq üçün açıq iddia edirlər ki, ***Nazıma guya ancaq əqidələrinə görə nifrət bəsləyirlər. (Əlbəttə, məhz elə əqidə ziddiyyətlərinə görə səmimi şəkildə ona qarşı olanlar da var, şübhəsiz). Ancaq mənə elə gəlir ki, "qanına susamışların" bir qismi, bəlkə heç özləri də dərk etmədən ideya ixtilaflarından, məfkurə toqquşmalarından daha artıq şəxsi həsəd və paxıllıqlarının əsiri idilər. Nazımı SovİKP MK-ya ixbar edən, ondan donoslar verən Moskvadakı türk kommunisti də şairlik iddiasında idi, Nazıma Türkiyə vətəndaşlığı hüququnun qaytarılmasına etiraz edən millətçi şair də şeir yazır.***

Amma bütün bunlara rəğmən, yəqin ki, Nazım Hikmət özü həmin bu fikrimlə razı olmazdı. Axı, doğrudan da, şairlik iddiasında olmayan və üzünü belə görmədiyi, dünyanın müxtəlif qitələrində yaşayan düşmənləri də vardı.

Çindən İspaniyaya, Umud burnundan Alyaskaya qədər
hər mil bəhrdə, hər kilometrdə dostum və düşmənim var.
Dostlar ki, bir kərə belə salamlaşmadıq
eyni əkmək, eyni hürriyyət, eyni həsrət üçün ölə bilərik.
Və düşmənlər ki, qanıma susamışlar,
Mənim qüvvətim bu böyük dünyada yalnız
olmamağımdır.

Şübhəsiz ki, Nazıma düşmən münasibət siyasi motivlərlə, əqidə ayrılığıyla, sinfi mübarizəylə də bağlıdır. Müəyyən dərəcədə bu doğrudur. Ancaq müəyyən dərəcədə. Çünki axı Nazım Hikmət özü "Bir həsədçi adam" şeirində

Nə həsədçi adamsan,
açmış qanadlarını gedən
uçan quş qısqanılırmı?

- misralarını yazmışdısa da, siyasi, sinfi, əqidə düşmənçiliyinə ağırlıq verib şəxsi, psixoloji cəhətləri nəzərə almırdı. Odur ki, həqiqət məncə, bu iki amilin ortasında, qovşağındadır.

* * *

"Kərəm kimi" kitabımı düşüncələr (esse, deneme) şəklində qurmuşam və janr baxımından N.Hikmət haqqında indiyəcən yazılanlardan fərqlənməlidir. Şair haqqında ciddi və əhatəli bir kitab yazmaq niyyətindəydimsə, əlbəttə, yalnız öz xatirələrimlə, yaxud mənə danışılanlarla kifayətlənə bilməzdim. Təbii ki, Nazımın nəşr olunmuş, demək olar ki, bütün əsərləriylə tanışdım, şeirlərini dəfələrlə oxumuşdum, bəzilərini əzbər bilirdim, filmlərini və tamaşalarını görmüşdüm. Nazımın həyatı və yaradıcılığı haqqında Moskvada və Bakıda çıxan kitabları oxumuşdum.

Son illərdə Türkiyəyə tez-tez gedib gəlməyimin bir səmərəsi də orada Nazım haqqında çıxan kitabları əldə etməyim oldu. Bu baxımdan Vala Nurəddin (Va-Nu) "Bu dünyadan Nazım keçdi" kitabının, Nazım irsini qorumaq və nəşr etməkdə misilsiz xidmətləri olan, şairin oğulluğu - Pirayə xanımın əvvəlki ərindən olan oğlu - Məmət Fuadın "Nazım Hikmət" adlı 700 səhifəlik kitabının, şairin sədaqətli dostları Zəkəriyyə, Səbihə və Yıldız Sər-

təllərin kitablarının ("Mavi gözlü dev", "Xatırladıqlarım", "Nazım Hikmətin son illəri", "Roman kimi", "Ardımdakı illər"), Şövkət Sürəyya Aydəmirin "Suyu arayan adam", Nazımın həbsxana arxadaşları rəssam İbrahim Balabanın, nasir Orxan Kamalın, şair A.Qədirin, Nazımın son qadını Vera Tulyakova - Hikmətin "Moy posledniy razqovor s Nazımom" - "Nazımla son söhbətim" (Türkiyədə Ataol Behramoğlunun çevirisində bu kitab "Nazımla söyləşi" adıyla çıxıb), habelə Aydın Aydəmirin, Nədim Gurselin, Hikmət Ağgülün, Atilla Çoşğunun, Qiymət Çoşğunun, Emin Qaracanın, Zühtü Bayarın araşdırmalarının, Kamal Sülkərin tərtib etdiyi "Nazım Hikmət dosyesi", Hilmi Yucabaşın hazırladığı "Nazım Hikmət türk basınında" toplularının, Nazımın müxalifləri - Türk ədəbiyyatında və Türkiyənin ictimai fikrində önəmli yerləri olan Peyami Səfanın, Nihal Atsızın, Nəcib Fazil Qısakürəyin, bizim günlərdə Yavuz Büləndi Bakulərin, Cözənin, Vəli Küçüyün (Azərbaycan türkcəsindən fərqli olaraq Türkiyə türkcəsində "küçük" "kiçik" anlamındadır) yazılarını, eləcə də Nazımın cəza evlərindən Pirayəyə, Məmməd Fuada, Va-Nulara (Vala və arvadı Müzəhhər Nurəddinlərə), Kamal Tahirə yazdığı məktublarının, Saimə Göysu və Edvard Taymsın türkcəyə çevrilmiş "Romantik kommunist" əsərinin və başqa mətnlərin mütaliəsi şairin keşməkeşli həyat yoluna daha yaxşı bələdlik, dost-düşmənini tanımaq işində mənimçün çox faydalı oldular. Son zamanlar "Göstəri", "Yazın", "Dialoq Avrasiya" dərgilərində Nazımla bağlı yazılar, diskussiyalar şairə çağdaş baxışı izləmək və anlamaq üçün önəmlidir.

Nazımın Azərbaycanla əlaqələri haqqında şəxsi müşahidələrimi və bildiklərimi Aqşın Babayevin, Qədir İsmayılın, Əbuzər İsmayılovun, Azər Abdullanın dəyərli tədqiqatları vasitəsiylə bir daha dəqiqləşdirdim.

Bu sözün - "dəqiqləşdirmək" sözünün - üstündə xüsusi durmaq istəyirəm. Bəzən Nazımla bağlı yazılarda uydurmalar da yer alır.

Bir misal çəkim. Nazım sağ olanda təzəcə çap olunmağa başlamışdım, amma nə bir yazımı ona oxumuşdum, nə də güman ki, o, mənim heç bir yazımı, hətta Moskva mətbuatında dərc olunmuşları da oxumuşdu. Nazımın ölümündən sonra Moskvada "Yubiley Dante" ("Dantenin yubileyi") adlı ilk kitabım nəşr olunanda "Yunost" jurnalında Aleksandr Tverskoyun bu hekayələr haqqında resenziyası çıxdı. Amma resenziyanı yazmazdan öncə mənimlə görüşmək və söhbət etmək istədi. Görüşdük. Aleksandr Tverskoy Nazım Hikmətə həsr olunmuş "Pesnə nad Bosforom. Rasskazı o Nazım Xikmete" ("Bosfor üzərində nəğmə. Nazım Hikmət haqqında hekayələr") kitabının müəllifidir. Təbii ki, mənimlə söhbətində onu ən çox mraqlandıran Nazımla bağlı xatirələrim idi. Bəzi şeyləri ona danışdım. Amma sonra "Yunost"da resenziyanı oxuyanda mat qaldım. Mənim dediyim şeyləri yazmışdı. Guya ki, haçansa Nazıma yazılarımı oxumuşam və o da bunlar haqqında müsbət fikir söyləyib. Belə şey olmayıb.

Başqa bir örnək. Bəzən Nazımın öz dilindən eşitdiyim fikirlərə, yaxud Nazımla bağlı bildiyim əhvalatlara müxtəlif kitablarda da rast gəlirəm. Bu təbiidir, çünki Nazım müəyyən hadisələri tək bizə, ya bizdə deyil, özgələrinə və özgə yerlərdə də danışırmış. Eyni fikirləri də yalnız bizimlə deyil, başqalarıyla da bölüşürmüş. Ancaq bəzən şəxsən mənim öz qulağımla şairin dilindən eşitdiyim söz başqa bir məxəzdə Nazımın dilindən tamamilə ayrı cür gətirilir.

Məsələn, "Dənizlər qızı Eftaliya" məsələsini çox yaxşı xatırlayıram. Atatürk axşam ziyafətlərinə şairləri, sənət adamlarını dəvət etməyi xoşlayırmış. Belə məclislərindən birində söz gənc Nazım Hikmətdən düşür və vaxtın gec olmasına baxmayaraq, Qazi Nazımı məclisə çağırmaq üçün adam göndərir. Nazımı yuxudan oyadırlar və o, dəvəti eşidəndə: "Mən dəniz qızı Eftaliya deyiləm ki, gecenin hər hankı saatında məclisə dəvət olunuram" - deyir. Bu cavab Atatürkün çox xoşuna gəlib, məclisdikilərə: "Şair, bax, belə olar" deyib.

Bu əhvalatı (sözləri dəqiq gətirməyə də bilərəm) Nazımın dilindən şəxsən özüm eşitmişdim və "Dənizlər qızı Eftaliya" adı da yaddaşıma həkk olunmuşdu. Eftaliya o dövrün məşhur şarkıçısı (bəlkə də rəqqasəsi - bu barədə yanıla da bilərəm), indiki təbirlə desək "şou -ulduzu" imiş. Amma qəribəsi odur ki, oxuduğum mətnlərin birində Nazım belə bir söhbətin olmasını inkar edir. "Cümhuriyyət" qəzetində Məhməd Kamal yazır ki, "Bu, Nazım haqqında uydurulmuş bir hekayədir. O vaxt nə Atatürk belə bir şey edər, nə də Nazım Hikmət Atatürkə qarşı belə hərəkər edərdi."

Sonra Məhməd Kamal həbsxanada Nazımla bir kamerada qalan şair Həsən İzzətdin Dinamoya istinad edir. Dinamo Nazımdan bu barədə soruşanda, şair gülərək belə cavab verir: – Xalq hər zaman əfsanələr yaratmaqdan xoşlanır. Hərçənd Atatürklə aramızda buna bənzər bir hadisə oldu, amma deyildiyi kimi olmayıb.

Məhməd Kamala, yaxud Həsən İzzətdin Dinamoya bu məsələylə bağlı heç bir iradım yoxdur. Çünki Nazımın bir şəkərindən də xəbərim vardı: eyni bir əhvalatı müxtəlif, tamamilə bir-birinə zidd şəkildə danışa bilərdi. Nazımın müəyyən həddə fantazyor olduğunu onu yaxşı tanıyan Zəkəriyyə Sərtəl də qeyd edir. Onu çox yaxından tanıyan başqa bir adam - Əkbər Babayev danışırdı ki, Nazım hətta yazacağı əsərin süjetini, ya bir əhvalatı öncədən kiməsə nəql edərkən dinləyicisinin reaksiyasına diqqət edir və bu reaksiyadan asılı olaraq qurduğu süjeti, etdiyi söhbəti elə bu əsnada tamamilə başqa bir şəkildə dəyişə bilir. 1951-ci ildə motorlu qayıqla Türkiyədən qaçmasının mahiyyətində olmasa da, ayrıntılarında xeyli fərqli versiyalar var. Bəlkə də bu, köhnə konspiratorun vərdişləriylə bağlıdır.

Bu cəhətini özü də bilirdi və məşhur "Avtobioqrafi" şeirində həmişəki səmimiyyətiylə etiraf edirdi:

Başqasının hesabına utandım yalan söylədim
yalan söylədim başqasını üzməmək üçün
amma durub dururkən də yalan söylədim.

Ənvər Məmmədxanlı xatırlayırdı: Bir dəfə Nazım: "Söz vermişəm ki, XX Qurultaydan sonra daha heç vaxt yalan danışmayacam" - deyərkən Ənvər zarafata salıb: "danışacaqsan Nazım, danışacaqsan".

Şeirindən misralar da yadıma düşür:

Bir şeylər yazmalıyam
bir şeylər yazmalıyam yüzdə yüz yalansız...

Zənnimcə, bu sayaq təfərrüat Nazım Hikmətin işıqlı şəxsiyyətinə zərrə qədər də kölgə salmamalıdır, əksinə, onu bütləşmiş heykəl kimi deyil, canlı insan kimi tanımağa daha çox əsas verir. Necə ki, tez-tez çimməyi xoşlamaması ("Mən ördək deyiləm ki, gündə suya girim" – deyirdi).

Nazımın ən böyük həqiqəti - onun yaradıcılığıdır.

Yaradıcılığında da yanlış fikirlər, aldanışlar, bir vaxtlar əbəs yerə inandığı məqamlar ola bilər. Var. Amma yalan yoxdur.

Nazıma aid yuxarıda adlarını çəkdiyim, oxuduğum və bilmədiyim, oxumadığım başqa kitabların əhəmiyyətini azaltmadan onu da deməliyəm ki, şairi anlamaq, tanımaq və sevmək üçün əsas qaynaq, əsas mənbə, əsas məxəz, heç şübhəsiz, onun əsərləri, ilk növbədə, şeirlərdir. Hətta avtobioqrafik romanı da yox, şeirləri... Romanda HADİSƏLƏR əks olunub, şeirlərində HİSSLƏRİ, DUYĞULARI. Zahiri yox, daxili ömrü, qəlb həyatı.

"Avtobioqrafi" şeirində ömrünün qısa poetik icmalını vermişsə, məhbəs şeirlərində, qürbətdə yazdığı həsrət şeirlərində, ölüm və sonluq duyğusuyla köklənmiş "Son avtobus" və nəhayət, öz dəfnini təsvir edən "Cənazə mərasimi" şeirlərində bütün həyatının və ölümünün, dəfninin mənzərəsini yaratmışdır.

Nazımın həqiqi ömür yolu hərəkətlərində, çıxışlarında, bəyanatlarında, hətta nəsrində və dramaturgiyasında deyil, siyasi mübarizələrində, eşq macəralarında da deyil, ancaq və ancaq şeirlərindədir. Şeirlərində, bir də məktublarında, çünki məktublarını da elə şeir kimi yazırdı və şeirlərinin bəziləri də – mənzum məktublardır. Hətta arvadları Pirayədən, sonra Münəvvərdən aldığı məktubları da şeirləşdirirdi. Pirayə xanıma məhbəsdən göndərdiyi məktublardan birində yazır ki, sən mənim tanıdığım ən böyük şairsən. Tutalım ki, qadınların könlünü almağı çox yaxşı bacaran Nazım mübaliğə edir. Amma Kamal Tahir də Nazıma yolladığı məktublarından birində: "Etiraf et ki, Pirayə səndən yaxşı şairdir" - yazır və Nazım da bunu "etiraf edərək" Pirayəyə müraciətlə "Sən yalnız məndən iyi (yaxşı) deyil, dünyada ən iyi şairsən" - deyir.

Bildiyimə görə, Pirayə xanım heç bir vaxt şeir yazmamışdır. Deməli, onun şairliyindən bəhs edərkən Nazım Hikmət də, Kamal Tahir də məktublarını nəzərdə tuturlar.

Pirayəyə başqa bir məktubunda Nazım yazırdı: "Tanıdığım bütün insanlar arasında nə sənin böyüklüyündə bir şair, nə də sənin qədər şeiri anlayana rastlamadım. Sağ ol, Pirayə, sənə layiq olmağa çalışmaq ömrümün ən böyük işidir. Madam ki, sən bu qədər iyi və gözəlsən, dünya və insanlar mütləq iyi və gözəl olacaqlar."

Nazımın şeirlərini onun həyatından təcrid etmək olmaz. Nazımdan sonrakı ikinci nəsil (yəni Orxan Vəlilərdən sonrakı nəsil) şairlərdən Camal Süreyya çox dəqiq deyir ki, "Nazım Hikmət şeirini həyatıyla tam doğrulamış bir şairdir".

Acı da olsa etiraf etməliyik ki, Nazım Hikmətin ağır məhbəs illəri, sonralar qürbətdə duyduğu həsrəti olmasaydı, poeziyası da bu qədər təsirli, dərin, çoxrəngli və çoxsəsli olmazdı. Həbsxanalarda Türkiyənin ən müxtəlif bölgələrindən və ən çeşidli zümrələrindən

çıxmış insanlarla tanış oldu, onların talelərini izlədi və bu adamlar möhtəşəm "İnsan mənzərələri" freskasının personajları oldu. Həbsxanada təmiz havanın, açıq səmanın, günəşin insan həyatında necə də böyük nemət olduğunu dərk etdi.

Bu gün bazar
Bu gün məni ilk dəfə günəşə çıxardılar,
Və mən ömrümdə ilk dəfə göy üzünün bu qədər məndən uzaq
bu qədər mavi
bu qədər geniş olduğuna şaşaraq
qımıldanmadan durdum.
Sonra sayğıyla torpağa oturdum
Dayadım sırtımı divara.
Bu anda nə düşmək dalğalara.
Bu anda nə qovğa, nə hürriyyət, nə qarım.
Torpaq, günəş və mən
Bəxtiyarım...

Məhbəslərdə ayrılıqların və həsrətlərin hər növünü daddı. Nəhayət, teleqrafın və telefonun icadından sonra epistolyar janrın sıradan çıxdığı bir dövrdə bəlkə də XX əsrin ən çox məktub yazmış yazarı oldu.

Həbsxanadan yolladığı məktubların sayı minə çatar.

Poeziyasına siyasi mübarizəsinin ilham verdiyini də, aşiqliyinin və eşq iztirablarının təsirini sə danmaq imkansızdır. Amma hər hansı mübarizədən və hər hansı aşiqdən Nazımı üstün və fərqli qoyan cəhət - bu həyatın, bu hisslərin, fikirlərin, hərəkətlərin sənət faktına, həm də ölməz, klassik sənət faktına çevrilməsidir.

Yadımdadır, Nazım poeziya haqqında danışarkən deyirdi ki, elə şeir var onu minlər, on minlərçün yazırsan, eləsi var ki, yalnız tək bir adam üçün.

Bu fikrinin daha geniş şərhini Nazımın bir məqaləsində gördüm:

"Qafiyəli, vəznli şeir yazılmaz deyənlər də, qafiyəsiz, vəznsiz şeir yazılmaz deyənlər qədər dar qafalıdırlar. Şeir elə də yazılır, belə də. Mən indi bütün şəkillərdən faydalanıram. Xalq ədəbiyyatı vəznində də yazıram, qafiyəli də yazıram. Tərsini də yapıram. Ən sadə danışıq dilliylə, qafiyəsiz, vəznsiz də şeir yazıram. Sevdadan da, barışdan da, inqilabdan da, həyatdan da, ölümdən də, sevincdən də, kədərdən də, umuddan da, umudsuzluqdan da söz açıram, insana xas olan hər şey şeirimə də xas olsun istəyirəm... İstəyirəm ki, oxucum məndə... bütün duyduqlarının ifadəsini tapa bilsin. Bir Mayıs bayramına dair şeir oxumaq istədiyi zaman da bizi oxusun, qarşılıqsız sevdasına dair şeir oxumaq istədiyi vaxt da bizim kitablarımızı arasın."

Nazım bu məqsədinə tam mənasıyla çatmışdı. Şairin istədiyinə nə dərəcədə nail olduğunu sübut etmək üçün çox misallar gətirmək olar. Yalnız birini gətirirəm.

Yeni nəsil türk yazarlarından Ayşə Gülinin "İçimdə bir gül kimi" kitabı ən son zamanlarda çıxıb. Nazım kimi o da qürbətdə yaşayır - İngiltərədə. Əlbəttə, onun qürbəti Nazımınkından çox fərqlidir, ən azı ona görə ki, istədiyi vaxt vətəninə – Türkiyəyə dönə bilər. Amma qürbətdə keçirdiyi duyğuların və yalnız bu həsrət duyğularının deyil, bir çox başqa hisslərinin də ifadəsini Nazımın poeziyasında tapır.

Ayşə xanım yazır:

"Gərgin duyğulara qapıldıqda, eşqlərə, umudsuzluqlara və qürbətə düşdüyümdə Nazım şeiri həp əl uzatdı mənə. Onun şeirlərinə tutundum, asıldım, yuxarı çəkdi məni. Sevincimi, coşqumu, özləmimi (nisgillərimi) də onun misralarıyla paylaşdım. Qızğınkən Nazımı oxudum, aşiqkən Nazımı oxudum, üzgünkən Nazımı oxudum. Kəndimi təpədən-dırnağa milli hisslərlə donanmış hiss etdiyim anlar Qurtuluş Savaşı Dastanını oxuduğum zamanlardı. Humanist duyğuların zirvəsinə dırmandığım zaman onun şeirləri vardı əlimdə. Anadolu insanıyla, Qara dənizliylə, rumeliliylə özləşdiyimdə həp gözlərimdə onun gözlükləri... İstanbulda oyanmaq istəyirdim, İstanbulla bərabər oyanmaq istəyirdim mən də Nazım kimi. Üstəlik, Bakıda belə deyildim ki,allərimi uzadıb qarşımda oturanın türkcəsiylə yurdumu ovuclaya bilim.

Gecələyin zifiri qaranlıqda
günəşli buğda tarlasıdır Bakı şəhri
Təpədəyəm
ovuc-ovuc çarpar üzümə işıq danələri.
Havada Rast pəşvəri Boğaziçi suları kimi axar...

Mənim bulunduğum şəhərdə təpə yoxdu. Mavi bir dəniz yoxdu. Rast paşvəri də yoxdu havada - Boğaziçi suları kimi axan... Mənə doğulduğum şəhrə çağrışdıran heç bir şey yoxdu Londrada. Sadəcə, Nazımın şeirləri vardır əlimdə, məni şəhrimə uçuran şeirlər..."

Yeni nəsil yazarı üçün də Nazım şeirinin bu qədər önəmli, təsirli və ovundurucu olması Vala Nurəddinin gəldiyi qənaəti bir daha təsdiqləyir:

"Bu dünyadan Nazım keçdi. Və bu Nazım, zaman - zaman bizim meyarlarımızı aşan ölçü və arayışlarla bərabər, daima bizim qaldı. Böyük insanları kəndi biçimlərində və kəndi macəraları içində dəyərləndirmək gərəkdir. Ataşlarda yaxılan, dəriləri soyulan, məzarlarından kəmikləri çıxarılaraq əzilən, qısacası, öz çağlarında öz insanlarıyla uyğunlaşa bilməyən, asi fikir və fəlsəfə öncülləri vardır. Amma bütün bu mənfur sayılanlar, hələ bir nəsil keçmədən yalnız vətənlərini deyil, dünyanın malı olaraq təqdir edilmişlər. ÇÜNKİ GƏLƏCƏK ZAMANLAR YAŞANİLAN ZAMANDAN DAİMA DAHA İNSAFLİDİR. "

• • •

BİR AĞAC KİMİ TƏK VƏ HÜRR, BİR ORMAN KİMİ QARDAŞCASINA

Nazım Hikmət 1951-ci ildə Sovetlər Birliyinə gəldiyindən 1963-cü ildə rəhmətə gedənə qədər onun burda ən yaxın dostlarından biri Moskvada yaşayan azərbaycanlı alim - türkoloq Əkbər Babayev olmuşdur. Əkbər Nazımın dostu olmaqdan başqa, Moskvada şeirlərini doğma türk dilində dinləyə, oxuya bilən tək insanlardandı, həm də şairin tərcüməçisi, tədqiqatçısı, bioqrafı idi. Əkbər qeyd edirdi ki, Nazım çox vaxt onun haqqında yazılanları, özəlliklə tərcümeyi-halıyla bağlı məqamları bəyənməzdi: "Bu nədir, yazırlar məhbəsdə ayağına qandal vurublar, işgəncələr onu sındırmadı, şeir yazmağı ona babası öyrədib" - hamısı yalandır, ya belə cümlə: "Özü başa düşürdü ki, dahiyanə şeirlər yazıb". Belə çıxır ki, mən özündən razı bir adamam.

Əkbər:- Onda oturub öz bioqrafinizi özünüz dürüst yazın deyəndə isə Nazım: - Yox - deyib - mənimçün keçmiş yoxdur, ancaq sabah var.

Nazımın həyatda da, yaradıcılıqda da ən dürüst və qısa səciyyəsini Vala Nurəddin maraqlı bir təşbehlə ifadə etmişdir: Qatar gedir, vaqon sərnişinləri elə otururlar ki, birisi pəncərələrdən arxada qalanları, başqa birisi irəlidən gələnləri görür. Bu həyat qatarında Nazım həmişə irəliyə baxan və qabağı görənlərdən idi.

Yeganə bioqrafisini Nazım şeirlə yazıb

1902-də doğuldum
doğulduğum şəhrə dönmədim bir daha
Üç yaşında Hələbdə paşa torunluğu (nəvəliyi) yapdım
On doqquzumda Moskva Kommunist öyrənciliyi
Və ön dördümdən bəri şairlik edirəm.

Amma bu poetik bioqrafi belə faktlar baxımından tam dəqiq deyil. Bəzi ehtimallara görə, Nazımın doğum sənədlərində yaşını bir az kiçildiblər. Nəinki doğum ilini, heç doğum gününü də dəqiq bilmirmiş. Əkbər danışırdı ki, 1952-ci ildə Moskvada şairin 50 illiyini qeyd etmək istəyirdilər. Qərara gəldilər ki, yanvar ayında Mərkəzi Ədəbiyyatçılar Evində gecə keçirsinlər. Çox gərgin iş qrafiki olan Ədəbiyyatçılar Evi yalnız yanvarın 20-də boş idi və bu günü Nazımın doğum günü hesab etmək qərarlaşdırıldı.

Amma hər halda, ömrünün ən vacib məqamlarını yaradıcılığında – romanında, şeirlərində, o sıradan "Avtobioqrafi" şeirində əks etdirib.

"Doğulduğum şəhrə bir daha dönmədim" deyəndə haqlıydı. Mustafa Kamal kimi, Vala Nurəddin kimi Nazım də indi Yunanıstana aid olan, o vaxt Osmanlı İmperiyasının tərkibindəki Səlanik şəhərində dünyaya gəlib. 1963-cü ildə Moskvada rəhmətə getdi, yad şəhərdə doğuldu, yad şəhərdə dəfn olundu, bütün ömrü boyu yalnız bir şəhərin sevdasıyla və həsrətiylə yaşadı – İstanbulun.

Unutmayacaqsan ananın sifətiylə şəhrinin sifətini

Nazım Hikmət bir neçə tərəfdən paşa (general) nəslindən idi, yəni bir neçə ulu babası və babası paşa idilər. Nazımın düşmənləri onun ulu babalarından birinin polyak olmasına görə şairi ən böyük günahkar kimi ittiham edirlər. Hətta bəzən şairi daha çox sancmaq, "yandırmaq" üçün onun soyadını "Borjenski" deyə yazırlar. Ümumiyyətlə, şairin adını Nazım Hikmətov, yaxud Nazım Hikmət Borjenski kimi yazmağın ucuz və bayağı "mübarizə" üsullarını bu gün Rusiyada da, Azərbaycanda da yamsılamaq istəyənlər tapılır.

Belələri bəyənmədikləri müəllifin adını, ya təxəllüsünü xalq tərəfindən qəbul olunmuş şəkildə deyil, öz bildikləri kimi yazmaqla qurdlarını öldürürlər.

Nazımın ana tərəfdən ulu babası Konstantin Borjenski polşalı qraf idi, polyak zadəgan nəslindən katolik idi. Bəzi Nazım əleyhdarları onun hətta yəhudi olmasını iddia edir və buna görə Nazımı da yəhudi sayırlar, hətta birisi "yəhudi şəhəri" (?!) Selanikdə doğulan yəhudi Nazım" deyərkən sanki Mustafa Kamalın da o vaxt Osmanlı İmperiyasının tərkibinləki bu yunan şəhərində anadan olduğunu unudur. Belə antisemit və irqçi fikirlərə qarşı Nazım da acıqla: - Əfsus ki, qanımda yəhudi qanı yoxdur - deyirdi - olsaydı, bundan çox məmnun qalardım.

Doğrudan da, yəhudilər öz dəyərli soydaşlarının qədir-qiymətini bilirlər və onları başqa xalqlara "bağışlamağa" cəhd etmirlər.

Vala Nurəddinin və Əkbər Babayevin yazdıqlarına görə, Konstantin Borjenski nəinki yəhudi, heç slavyan da yox, qaqauz, yəni qədim türk qövmündən - Göy oğuzlardan imiş. Bəlkə də məhz buna görə Vala Nazım haqında yazır: "İrqçilərə bildirim ki, Nazım türk əsillidir".

Bu günün özündə də Nazımı ulu babasına görə türk saymayanlara bəzi mətləbləri xatırlatmaq istərdim: Dahi rus şairi Aleksandr Puşkinin damarlarında afrikalı əcdadlarının qanı axırdı, amma buna görə Puşkini rus şairi saymamaq heç bir sərsərinin ağlına gəlməz. Eləcə də damarlarında Şotlandiya qanı axan Lermontovu, əcdadları türk-tatar Karamzini, Jukovskini, Turgenevi, Axmatovanı rus saymamaq absurddur. Orta əsrlərin böyük Çin şairi Li Bonun da damarlarında türk qanı axırdı. Amma buna görə onu Çin ədəbiyyatından dışlamağa kim cəsarət edər? Ümumiyyətlə, bu aşırı irqçi baxışı qəbul etsək, gərək Osmanlı sultanlarının da demək olar ki, hamısını türk hesab etməyək. Çünki bir çox sultanın zövcələri və deməli, vəliəhdlərin, gələcək sultanların anaları serb, bolqar, yunan, hətta erməni olub. (Sultan Əbdülhəmidin anası erməni idi). Anası ayrı millətdən olan sultan da öz növbəsində başqa millətin qızıyla evləndikcə hər gələcək sultanın damarlarında neçə faiz türk qanı axdığını qoy bu mənasız işə həvəsi olanlar hesablasın. Özlərinə ustad kimi də irqçi nasist ideoloqları Hebbelsi və Rozenberqi seçsinlər. Yeddi arxadan dönən əcdadlarımın xalis türk olduqlarını bildiyimə görə, "hər növ irqçiliyə nifrət bəsləyirəm" - deməkdən qorxub çəkinmirəm.

Slavyan, ya qaqauz (qaqauzlar indi xristiandırlar) olmasından asılı olmayaraq Konstantin Borjenski Türkiyə heyranı türkoloq idi, ilk "Türk dili qrammatikasının", türk tarixinə aid dəyərli əsərlərin müəllifi idi.

Polşanın Rus çar imperiyasına qarşı üsyanında iştirak etmiş, üsyanın amansızcasına yatırılmasından sonra təqib olunaraq 1848-ci illərdə Türkiyəyə qaçmış və burada İslamı qəbul etmiş, adını da Mustafa Cəlaləddin şəklində dəyişmişdir.

Türkiyədə Ömər paşanın qızı Səffət xanımla evlənmiş, Ənvər adlı oğulları məşhur dilçi olmuşdur. Ənvər paşayla rəssam Sara xanımın qızları Cəlilə xanım Nazım Hikmətin anasıdır.

Borjenski – Mustafa Cəlaləddin paşa 1871-ci ildə Qaradağda döyüşlərdə həlak olmuşdur. Onun yazdığı kitablar Mustafa Kamala təsir etmiş əsərlərdəndir.

Nazımın başqa iki ulu babası Fərid Mustafa Cəlaləddin və Məhmədl Əli də paşa idilər. Bunlardan başqa Nazımın nəslində daha dörd paşa var: Hafiz paşa, Hüsey Hüsnü paşa, İsmayıl Fazil paşa və onun oğlu Əli Fuad Cəbəsoy. Nazımgilin ailəsində "paşa dayı" deyilən Əli Fuad Cəbəsoy Mustafa Kamalın çox yaxın arxadaşı idi, bir müddət Türkiyə Böyük Millət məclisinin sədri, Türkiyənin Rusiyada böyük elçisi olub və Nazımın taleyində də müəyyən rolu var. Dəfələrlə Nazımı kommunizm ideyalarından çəkindirməyə təşəbbüsdə bulunub, həbs olunarkən xilası üçün müəyyən işlər görüb. Amma görünür, Nazım ona hörmətlə yanaşsa da bir qədər ironik münasibəti olub. Qurtuluş savaşının iştirakçısı olan Cebesoyun xatirələr kitabını oxuyarkən Nazım: "Qaliba (deyəsən), Qurtuluş savaşını Paşa dayı qazanmış" - deyərmiş.

Nazımın qohumları temasını burda qapatmaq üçün ailələrinin üç tanınmış üzvünü də xatırlayaq - bir dayısı Çanaqqala şəhidi idi (Nazım iftixarla ona şeir həsr edib), anasının xalası oğlu Məhməd Əli Aybar Türk İşçi Partiyasının rəhbəri, Nazımın xalası oğlu Oqtay Rifət Xoruzçu - məşhur şair, üç "qərnibçidən" (Orxan Vəli, Məlik Cevdət Anday) biridir.

Valideynlərindən başqa və bəlkə onlardan da artıq Nazımın yetişməsində xidmətləri olan şəxs babası Məhməd Nazım paşadır. Özü də şeir yazan hürriyətçi, mevləvi Məhməd Nazım paşa Namiq Kamalın, Ziya paşanın və Müdhət paşanın yaxın dostu olub. Müdhət paşa sürgün ediləndə o da 1905-ci ildə şərəfli sürgünə göndərilir - Hələb şəhərinə vali təyin olunur.

Hikmət Ağgul "Nazım Hikmət" kitabında yazır ki, Nazım paşa rüşvət almayan tək-tük valilərdənmiş.

Şairin atası Hikmət Nazım bəy (1876-1932) Mətbuat baş müdiri, Hamburqda Türk konsulu vəziyfələrində çalışıb, Cəlilə xanımla evlənib, amma bir müddət sonra ayrılıblar. Cəlilə xanım haqqında, bu izdivacın və boşanmalarının Nazımın həyatında və zehniyyətində nə kimi dərin izlər buraxdığı barədə irəlidəki səhifələrdə ətraflı danışacam.

Hikmət bəylə Cəlilə xanım ayrıldıqdan sonra Nazımın və kiçik bacısı Samiyənin bütün qayğısını Məhməd Nazım paşa çəkib.

Üç yaşında Hələbdə paşa torunluğu yapdım.

Babasının məğrurluğu, cəsurluğu, dindarlığı Nazıma kiçik yaşlarında böyük təsir göstərib.

Bir xatirə yadıma düşdü. Moskvadaydıq - atam, anam, bacılarım Fidan, Təranə, həyat yoldaşım Zenfira "Moskva" mehmanxanasında qalırdıq. Bir gün Nazımla Əkbər nömrəmizə qonaq gəldilər. Atamla-anamla söhbətlər edir, şeir oxuyurdular. Amma nədənsə bu gəlişində bizimlə - cavanlarla daha çox maraqlanırdı Nazım. Məni, Zenfiranı, Fidanı və Təranəni qəribə sorğu-suala tutmuşdu, hamımızdan bir-bir soruşurdu: - Allaha inanırsan ya yox? Dördümüz də inandığımızı dedik. Buna Nazım qədər atamın özü də təəccüb qalmışdı. Axı o vaxtacan özü heç vaxt bizə belə sual verməmişdi. Nazım gedəndən sonra anama:

- Əcəb dindar balalarımız varmış - dedi.

Xatırladıram ki, o vaxt Sovet cəmiyyətində sital ateistlik və şıdırğı komsomolluq mühiti hökm sürürdü. Nazım bizim cavablarımıza təəccüblənməkdən daha artıq bunu izah etməyə çalışırdı: - Gördünmü Rəsul, -deyirdi - gənc kuşak (nəsil) Allaha tapınmış. Bu da çox doğal (təbii) bir şey.

İnsan nəyəsə inanmalıdır. Biz kommunizmə, Stalinə inanırdıq. Bunlar Allaha inanır.

Nazımın gündəliklərində bu mövzuyla bağlı maraqlı parçalara rast gəldim: "Paster, Pavlov, Eynşteyn də dindardılar. Amma mənə onların dindarlığı alışqanlıqlarında (vərdişlərində) çevrələrinin, çocuqluqdan bəri aldıqları tərbiyənin-təhsilin işiymiş kimi gəlir. Hər an ölə biləcəyimi bilirəm. Ölümdən sonra o ya bu biçimdə, öylə ya böylə duyğu-düşüncələrimizlə həyatımızın sürüb gedə biləcəyinə oxumuş-yazmış bir adam gerçəkdən inana bilərmi? Qorxurammı ölümdən? Daha çox kədərlənirəm".

Yeddi təpəli şəhrimdə
Buraxdım qönçə gülümü
Nə ölümdən qorxmaq ayıb
Nə də düşünmək ölümü.

Vera Tulyakovayla söhbətlərində maddiyyətçilik və ruh haqqında fikirlərini dilə gətirir. Bu məsələ haqqında düşüncələri, bəlkə də tərəddüdləri uşaqlıqda, mevlevi babasının yanında yetişərkən aldığı tərbiyədən gəlir. Rumıniyada olarkən orda tanış olduğum qoca bir türk mənə Nazımla şəxsən tanış olduğunu dedi və qəribə bir söhbət elədi. "Nazım Rumıniyaya gəldiyi zaman bir gün mənə: bu gün Qədir gecəsidir, məni camiyə apar - dedi. Apardım".

Mən, Anar, bu gün ixtiyar çağımda - Allaha inandığım kimi, ta uşaq yaşlarımdan da inanmışam. Dindar deyiləm, dinimizin formal tələblərinə - oruca, namaza riayət etmirəm, amma anamın sözləri həmişə qulağımdadır: - Ürəyinizi Allahla düz eləyin.

Allaha bu inam ta uşaqlığımdan anamdan və nənələrimdən gəlir. Hətta özümə söz vermişdim ki, partiyaya keçərkən məndən soruşsalar: - Allaha inanırsanmı? (bəzən soruşurdular da) - inanıram - deyəcəm, bundan sonra məni qəbul etməsələr də. Axı kommunist mütləq ateist olmalıydı.

Kommunist olduqlarına görə ateistliyə məhkum edilmiş Nazım da, elə atamın özü də qəlblərinin dərinliklərində, mənca, Allaha inamlarını itirməmişdilər. Hər halda anam ağır xəstə yatanda atam onun sağalması üçün Allaha yalvardığını mənə demişdi.

Atamın sözləri bu günlərdlə yadıma düşdü. Televiziyada Mixail Qorbaçov arvadının ölümündən sonra bir verilişdə etiraf etdi ki, Raisa Maksimovnanın təbabət vasitəsiylə xilas edilə bilməyəcəyini dərk edəndən sonra o – "dünyanın Bir nömrəli kommunisti Qorbaçov" son gecə Allaha yalvarırmış...

Allah o vaxt atamın duasını eşitmişdi: anam qurtuldu, Qorbaçovun duasını isə eşitmədi. Raisə Maksimovna vəfat etdi.

• • •

Dindar paşa babasının təsiriylə uşaqlığında və yeniyetməliyində Nazım Hikmət də Allaha inanırmış. Hətta şairliyə başladığı zaman yazdığı ilk şeirlər Mevləvi ruhunda parçalardı. İndi Türkiyənin bəzi mətbuat orqanları şairin məhz bu əsərlərinə diqqəti çəkirlər. Bu yaxınlarda əlimə keçən "Aksion" qəzetində "Mevləvi Nazım Hikmət" başlıqlı yazılar dərc edilmişdir. Məhməd Nazım paşa Konya şəhərində də valilik etmiş və o vaxtlar balaca Nazım də bu şəhərdə yaşamış, mevləvi dərvişlərinin zikr və rəqslərini seyr etmiş, fırlanma hərəkətlərində, musiqidə ruhun qovuşduğu cəzvin dərin təsirini duymuşdur. O vaxt yazdığı şeir də bu təsirdən doğulub:

Sararkən alnımı yoxluğun tacı,
Könüldən silindi nəşəylə acı.
Qəlbə məhəbbətdə buldum əlacı,
Mən də müridinəm iştə, Mevlana.

Əbədə səd çəkən zülməti dəldim,
Eşqi içdən duydum, ərşə yüksəldim.
Qəlbdən təmizləndim, hüzura gəldim,
Mən də müridinəm iştə, Mevlana.

Sufizmə, əl Qəzaliyə marağını çox illər sonra da saxlamış Nazım Hikmət. Türkiyə həsrətiylə yanıb-yaxıldığı yuxusuz gecələrində xəyalında yeddi təpəli şəhərində gələcəkdə ucaldılacaq şair heykəllərini canladırırmış (bəlkə bu xəyallara təkan Bakıda gördüyü şair heykəlləri olub) və bu xəyal heykəllər içində Cəlaləddin Rumininki də var.

Doğrudur, dini rəhbər kimi Mevlanaya müridliyi uzun sürmədi, amma bir yandan baxanda, Nazım poeziyasının şah damarı olan insan sevgisi, xoşgörü, tolerantlıq-dözümlülük, məhəbbət mövzuları, eşq şövqü elə Cəlaləddin fəlsəfəsinin, dünyabaxışının müridi, davamçısı olmaq deyilmi?

• • •

Uşaqlıq və yeniyetməlik illərində babası Məhməd Nazım paşanın Nazıma təsiri yalnız dinə bağlılıqla kifayətlənmir, Mevlanaya pərəstiş də dini etiqadlara tapınmaqla bir yerdə şeirə, sənətə heyranlıq idi. Məhməd Nazım paşa özü də ara-sıra şeirlər yazardı, ənənəvi ədəbiyyatın xiridarı idi. Amma balaca Nazımın babasından əxz etdiyi ən böyük cəhət Məhməd Nazım paşanın məğrur, hürriyətsevər, üsyankar, barışmaz xarakteri idi.

Osmanlı imperiyasının müxtəlif şəhərlərində valilik etmiş Nazım paşa Mersində işlədiyi illərdə bütün məmləkətə səs salmış bir olayın qəhrəmanı kimi tanındı. 1891-ci ildə Sultan Əbdülhəmidin dövründə Mersində bir Britaniya təbəəsi o qədər harınlaşıb ki, heç bir günahı olmayan Rüstəm adlı zavallı bir hambalı vurub öldürüb. Zəifləyən imperiyanın sultanı avropalılara güldən ağır söz deməyə cəsarət etmirmiş. Odur ki, əcnəbilər Türkiyədə istədikləri özbaşınalığı edirmiş.

Sözün qısası, Nazım paşa qatil ingilisi həbsə alır. Britaniyanın Mersindəki konsulu azğın bir ədayla yazılmış məktubunda ingilis təbəəsinin toxunulmazlığına istinadən onun dərhal azad olunmasını tələb edir. Məhməd Nazım paşa bu tələbi, təbii ki, yerinə yetirmir. Hiddətlənmiş konsul Nazım paşaya yeni bir ultimatum göndərir: Əgər ingilis təbəəsi Cekobson bu gün günorta 12-yə qədər azad olunmasa, Mersin limanındakı ingilis hərbi gəmilərinin şəhəri topa tutacağını bildirir. Avropa sivilizasiyasının və humanizminin bariz örnəyi!

Məhməd Nazım paşa ingilis konsuluna belə cavab göndərir:

"Britaniya imperiyasının Mersində yaşayan bütün təbəələri girov kimi həbs edilmişlər, Britaniya gəmilərinin ilk atəşiylə hamısı asılacaq. Hörmətlə Məhməd Nazım"

Bu da Avropa hədə-qorxularına Türk cavabıdır!

Britaniya konsulu dərhal İstanbula – Sultan Əbdülhəmidə şikayət edir.

Az sonra Nazım paşa İstanbuldan belə bir teleqram alır:

Dərhal bütün ingilisləri, o cümlədən Cekobsonu azad edin. Sultan həzrətlərinin Birinci katibi TƏHSİN.

Məhməd Nazım paşa İstanbula, Ulduz sarayına teleqrafla cavabında acizanə surətdə bildirir ki, Cekobson artıq asılıb, qalan ingilislər isə azadlığa buraxılıb.

Bu xəbər Əbdülhəmidə çatanda sultan bərk qəzəblənib.

Mirzə Ələkbər Sabirin də İran şahı Məhəmmədəli (Məmdəli) ilə bir sırada satirasının əsas hədəflərindən olan Əbdül-həmid İstanbulda "Ulduz" sarayında yaşayırdı. Odur ki,o

dövrdə "ulduz axdı", ya "ulduz düşdü" sözlərini yazmaq yasaq olunmuşdu. Məktəb dərsliklərindən suyun formulu da çıxarılmışdı, çünki H_2O-nu kimsə Həmid İkinci sıfra bərabərdir deyə yozmuşdu. Qəribə də olsa, qeyd etməliyəm ki, bugünkü Türkiyədə Əbdülhəmidin dövrünün böyük şairləri tərəfindən damğalanmış qəddarlıqlarını sanki unudan, onu ideallaşdıran qüvvələr də var. Və sübut olaraq, eynən Stalin kultunun bugünkü pərəstişkarları kimi, sultanın ölkə naminə gördüyü böyük işləri xatırladırlar.

Türkiyə kontekstində bu məsələ haqqında qəti fikir deməkdən çəkinirəm, ancaq onu bilirəm ki, H_2O kimi gülünc şeylər Osmanlı imperiyasının, xəlifəliyin süqutundan çox-çox sonralar, cümhuriyyət dövrüdə də olub. Elə Nazım Hikmətlə bağlı iki örnək: 1928-ci ildə Moskvadan qayıtdıqdan sonra Nazımın evində axtarış aparılarkən qədim yunan filosofu Heraklitə həsr olunmuş şeirindən əşyayi-dəlil kimi istifadə etmişlər. HERAKLİT sözünün ərəb əlifbasıyla oxunuşunu prokuror HƏR ƏQƏLİYYƏT kimi anlamışdı. Şairi ittiham edərək: - Deməli, sən Türkiyədə hər əqəliyyətin - kürdlərin, lazların dərdini çəkirsən! - Axı burda hər əqəliyyət yox, Heraklit yazılıb. - O kimdir belə? - Qədim yunan filosofu. - Aha, deməli, üstəlik, yunanlarla da əlaqən var.

Məhz buna görə Nazımı o vaxt yeddi ay məhbəsdə saxlayıblar.

Üç il sonra da Nazımı mühakimə edirlər. Prokuror bir kitabı göstərib soruşur: - Bu məgər təxribat deyil? Nazım: - Bu kitabı mən yazmamışam - deyir. - Kim yazıb? - Marks.

Prokuror hakimə müraciətlə: - Xahiş edirəm cənab Marksı da məsuliyyətə cəlb edəsiniz, - deyir.

Rəsmi ittihamlardan başqa, xüsusi xidmət orqanları Nazım haqqında şayiələr də buraxırmış. Artıq həbsxanada yatdığı zaman şair o biri məhbuslardan eşidir ki, guya o, Türkiyənin "Yavuz" hərbi gəmisini qaçırdıb ruslara təhvil vermək istəyibmiş.

Senzura "Kitabi Dədəm Qorqud" da və Yunus İmrənin şeirlərində işlənən "yoldaş" sözünü belə Nazımın yazılarından çıxarırmış. Türkiyə senzurası N.Hikmətin "Kəllə" pyesini dörd tamaşadan sonra səhnədən çıxarmasına səbəb olaraq, baytarların etirazını dəlil gətirirdi. Baytarlar nəyə etiraz edirdilər?

Pyesdəki tək bir replikaya: "Mən baytar deyiləm ki, inəkləri müalicə edim". Guya bu, baytarların peşə borcu deyil.

"Azad" sovet ölkəsinin senzorları da Türkiyədəkilərlə bir ağıldaydılar. Sovet senzoru Nazımın şeirindən "Sən tarlasan, mən traktor" misrasını çıxarmışdı ki, bu seksual səslənir. Axı o dövrdə bir sadəlöhv qadının tamamilə səmimi şəkildə inandığı və dediyi kimi, "Sovet İttifaqında seks yoxdu".

Həqiqət naminə deməliyəm ki, Nazımçün Sovet İttifaqında senzura problemi Türkiyəyə nisbətən daha zordu. Şair sovet yazıçılarının illər boyu vərdiş etdikləri bəlaya düçar olmuşdu: senzoru öz içindəydi, "bunu yazmaq olar, bunu yox, yazsan da senzura buraxmayacaq. Odur ki, elə bu başdan yazmasan yaxşıdır".

Azərbaycanda senzura Moskvadakından da "ayıq-sayıq" idi. Gərək ki, Nazımın elə öz sözüdür: "Moskvada dırnaq tutanda əyalətlərdə (o cümlədən Azərbaycanda) barmaq kəsirlər". Yadımdadır, 61-62-ci illərdə Bakıda, radioda işləyirdim.

Senzuranın nümayəndəsi Nazımın həmin o "Atobioqrafi" şeirinin azəri türkcəsinə uyğunlaşdırılmış mətnində:

Aldatdım qadınlarımı
Danışmadım arxasından dostlarımın
Başqasının hesabına utandım yalan söylədim
Yalan söylədim başqasını üzməmək üçün
Amma elə belə də yalan söylədim

- misralarını verilişdən çıxarmışdı: - Nazim kimi kommunist şair qadınları aldatdığını söyləmi?

İzah etməyə çalışırdım: - Əvvəla, söyləmiş, ikincisi də axı dostlarının arxasınca danışmadığını da deyir. Qadın da yalnız qadın deyil, həm də dostdur, Nazım dostu - qadını aldada bilməz.

Təbii ki, bu izah elə o senzorun səviyyəsində izah idi. Amma xeyri yoxdu: -Deyir ki, elə - belə də yalan danışdım. - Füzuli də yazır, "aldanma ki, şair sözü əlbəttə, yalandır", indi nədi, Füzulinin də bu misralarını çıxaracaqsınız?

Nə illah elədimsə, senzor fikrindən dönmədi. Nazımın reputasiyasının qaydına şairin özündən artıq qalırmış.

Füzulinin bu beytiylə bağlı məsələ isə çox sonralar komik bir şəkildə meydana çıxdı. Artıq senzor yox, elmi dərəcəsi olan bir alim mətbuat səhifələrində isbat etməyə çalışırdı ki, Füzulinin bu fikrini düzgün başa düşmürlər. Füzuli heç vaxt şair sözünü yalan saya bilməzdi. Beytinin düzgün anlamı budur ki, "şair sözü yalandır deyənlərə aldanma." Nə deyəsən? Belə adamların - istər senzor olsun, istər alim - bədii sözün duzunu, incəliyini, müəllifin xəfif yumorunu və səmimiyyətini duymaq qabiliyyəti yoxdur. Bələləri üçün poeziya - yalnız dəqiq- dürüst düsturlardan, şüarlardan və qulaqları alışdığı şablon ifadələrdən ibarət olmalıdır. Vəssalam. Odur ki, çox vaxt millətə sevgi haray - qışqırıqlar, plakatvari şüarlar şəklində ifadə olunmuş şeirlər, özəlliklə də müəlliflər onları gur səslə oxuyanda daha böyük uğur qazanır.

• • •

Türkiyədə Nazımın növbəti həbslərindən biri də maraq doğurur. Bir dəfə şair qəhvəxanada təsadüfən papağını qəzetin üstünə qoyur. Qəhvəxanadakılardan başqa biri də eyni hərəkəti edir. Onları izləyən polis xəbərçiləri bunu şərti işarə hesab edir, çuğullayır, hər ikisini dərhal həbs edirlər.

Amma N.Hikmətin daha uzun müddətli həbsi daha ciddi bir məsələylə əsaslandırılırdı. Hərbi məktəb tələbələrində Nazımın çap olunmuş kitabını tapmışdılar. Kitab rəsmi şəkildə nəşr olunmuşdu, satılırdı. Amma buna baxmayaraq, "Hərbçilərin arasında kommunist təbliğatı və təxribatı yaydıqları üçün" Nazım da, hərbi okulun bir neçə öyrəncisi də mühakimə olunub uzun müddətli həbsə məhkum edildilər - Nazım Hikmət 15 il ağır həbs cəzasına, o biri məhkum olmuşlar 14,12,9 ilə.

Məhkum olunanlardan biri sonralar məşhur şair, Cəlaləddin Ruminin şeirlərini farscadan türkcəyə çevirən A.Qədir idi. A.Qədirə 14 il ağır həbs cəzası verilmişdi, ancaq sonra bu müddət azaldılmış, 21 yaşına çatmadığı üçün 5 il 10 ay məhbəsdə yatmışdı. Beş il on ay! 20 yaşında! Bu azmıdır?

A.Qədiri şəxsən tanıyırdım. 70-ci illərdə Bakıya gəlmişdi. Onu dram teatrında oynanılan "Şəhərin yay günləri" pyesimin tamaşasına dəvət etdim, sonra Bakı bulvarını gəzdik, oteldə, nömrəsində dostlarla birlikdə xeyli söhbət etdik. Özü bu görüşlər haqqında səmimi bir yazı yazdı, bizim "Azərbaycan" jurnalında dərc olundu. A.Qədir mənə son dərəcə təmiz, namuslu bir ədəbiyyat və əqidə adamı, təvazökar və xoşsifət insan təsiri bağışladı. Nazım kimi onun da, özü də belə gənc yaşlarında günahsız olaraq məhbəslərə atılması, ömrünün gözəl çağlarını zindanlarda qalmasını ürək ağrısıyla qavrayıram. Amma bu gün onu da deyə bilərəm ki, konkret bu şair və yazarların təqiblərə, təzyiqlərə, həbslərə düçar olmasını böyük ədalətsizlik saysam da, bu faktları dövrün ümumi kontekstində, soyuq müharibənin hökm sürdüyü dünyanın qarşıdurma şərtləri içində və sovet gizli xidmətlərinin "dəmir pərdə" arxasında qurduqları həqiqətən də təxribatçılıq niyyətləri, casusluq planları fonunda dərk etmək lazımdır. Nə yazıq ki, bu acı gerçəklik "dəmir pərdə"nin həm bu, həm o üzündə yüz minlərlə, milyonlarla günahsız insanın faciəsinə bais oldu.

Və o da bizə ancaq son iyirmi-iyirmi beş ildə məlum oldu ki, Türkiyə məhbəslərində kommunistlərə, sollara tutulan divan kimi, sağlara, millətçilərə, turançılara da işgəncələr verilib.

Bu daha geniş bir mövzudur, amma bu yazı Nazıma həsr olunduğu üçün qarşıma qoyduğum məqsəd onun taleyini izləmək, dolayısıyla bu talelə bağlı olaylardan və insanlardan söz açmaqdır.

Yazımın esse (düşüncə) janrına uyğun olaraq xronoloji ya mövzu ardıcıllığını da güdmürəm - yalnız düşüncələr, anımlar-assosiasiyalar, xatirələrin və fikirlərin axarıyla tema-dan-temaya keçirəm.

• • •

Əgər yaşına görə A.Qədirin cəza müddəti bir qədər azaldılsa, Nazım bu müddəti demək olar ki, sonuna qədər çəkdi.

A.Qədir "Rəsul Rza qardaşıma, sevgilərimlə" avtoqrafıyla atama bağışladığı "1938 hərb okulu olayı və Nazım Hikmət" kitabında o hadisələrdən ətraflı bəhs edir. Kitabda məhkəmədə söylədiyi nitqini də gətirir:

"Mən, əsgəri oxula füqaralığım (kasıblığım) üzündən girdim. Füqəra olmasaydım, bəlkə də doktor, mühəndis okuluna girərdim. Nə oxumamı istəyirsiniz mənim? Xalid Fəxriləri, Orxan Seyfiləri, Yəhya Kamallarımı? Əlbəttə ki, Qorkini oxuyacam, Nazım Hikməti

oxuyacam. Amma bunları oxuyuram deyə üsyan-filan qaldıracağımımı sanırsınız? Əsgəri üsyan hara, mən hara? Bizim ağlımızın içindən keçmiş deyil belə şeylər. Müftə verdiyiniz yeməkləri qursağımızdan çıxarmaq istəyirsiniz? Nədir ki, dünyada zənginlik (vardövlət), fağırlıq var deyə düşünürüksə buna dərhal kommunizm deyilir. Mən zənginləri (varlıları) sevmirəm. Kommunistlikmi bu sizcə? Məhəllələrimizdə birilərı vardı, çox zənginlər, qonşumuzdular. Bir axşam bir tabaq yemək göndərdilər bizə. Qoyduq yeməyi süfrəyə. İlk loxma boğazımda qaldı. Yemək iylənmişdi. Namussuzlar bizi insan saymırdılarmı füqərayız deyə? Mən o gündən bəri heç iyi (yaxşı) gözlə baxmam zənginlərə. Zənginləri sevməmək, füqəralara acımaq, Nazımı oxumaq və sevmək kommunistlikmi? Əgər kommunistliksə bu, kommunistəm mən iştə, nə yapırsız, yapın". Nazıma baxdım, gözləri yaşlı, bir baba şəfqətiylə gülümsəyir. Qapıya doğru gedərkən, məhkəmə üzvlərindən Minbaşı Fuad bəy mənə doğru gəldi. Hərb oxulunun ən yapışıqlı, ən erkək subaylarındandı (zabitlərindəndi). Yaxınlaşdı mənə, əlini üzümə qoydu və dedi:

- İşin içində bir şey yox, bilirəm Əbdülqədir, amma siz hazır olun, nə yapalım, yuxarıdan gəlir əmr, sizə cəza verəcəyəm, oğlum".

Nazımın və gənc tələbələrin tamamilə əsassız olaraq belə ağır cəzalara məhkum edilmələri Fransada Dreyfusun məşhur məhkəməsiylə müqayisə edilirdi, hətta Qalileyin suçlanması xatırlanırdı.

A.Qədir məhkəmədə Nazımın çıxışından da örnəklər verir. Nazım məhkəmə qarşısında mərd-mərdanə: Mən sosialist deyiləm, mən kommunistəm - deyir - Bu məndə bir ideal, bir fikirdir. Kommunist propoqandası yapmayıram mən kimsəyə. Mənə əmniyyətdən biri dedi: İyirmi beş lirə versən mənə, Nazım, səni önümüzdəki 1 mayısda içəri almaram" (həbsə atmaram. O zaman 1 may yaxınlaşanda solları qabaqcadan bir-iki günlüyə təcrid edərmişlər.)

Nazım əliylə bizləri göstərərək: - Yazıq bu çocuqlara - dedi - çox yazıq. Yandırmayın bunları, heç bir suçu yox bunların. Mən də suçsuzam".

A.Qədir yazır ki, məhkəmənin əvvəlki oturumlarının (iclaslarının) birində hakim Nazımı tənbeh etmişdi ki, iclas zamanı bığlarını eşir. Nazım son sözündə bu mətləbin də üstündən keçməyib: - Bir kiçik nöqtə qaldı, əfəndim, bir kiçik nöqtə. Onu da qısaca ərz edim. Bir-iki oturum öncə bəyəfəndi mənim bığlarıma sataşdı. Haqları var, amma mən özümdən asılı olmayaraq oynayıram bığlarımla, adət etmişəm buna. Məhkəməyə həqarət etmək qəsdim qətiyyən yoxdu. Amma baxıram, məhkəmənin ilk günündən bəri bəyəfəndi hey təsbeh çevirir. Məhkəmədə bığla oynamaq həqarət sayılırsa, əlbəttə, təsbeh çəkmək də həqarət sayılmalıdır".

Bu, Nazımın 15 illik həbs cəzasına məhkum olunduqdan sonra söylədiyi son sözləridir və bu da onun mətin, mərd xarakterinin daha bir parlaq göstəricisidir.

Əlbəttə, Nazım həyatda başqa yol da seçə bilərdi. Ağlı, zəkası, savadı, nəhayət, əsilnəcabəti (paşalar nəsli) Türkiyənin ən üst, elit, kübar səviyyəsində yer tutmağı təmin edərdi və o, həyatı boyu rahat, firavan yaşaya bilərdi. A.Qədir kimi, çocuqluğunda ehtiyac, kasıblıq da görməmişdi ki, içində varlılara qarşı genetik nifrət, intiqam hissi qövr eləsin. Nazım hətta mənim tanıdığım qədərincə son dərəcə sadə, təvəzökar insandı, böyüklə böyük, uşaqla uşaqdı. Şair kimi dəyərini bilirdisə də, bununla heç vaxt lovğalanmırdı. Amma xudanəkərda, bir adam bu sadəliyi familyarlıq kimi başa düşüb Nazımla azacıq da olsa saymazyanalıqla davranaydı - dərhal paşa nəvəsinin qanındakı zadəganlıq, kübarlıq baş qaldırar və bu İstanbul əfəndisi həddini bilməyəni yerində otuzdurardı. Şair haqqında kitab yazmış Radi Fiş doğru qeyd edir ki, Nazımın sadəliyi əsl aristokratın demokratizmi idi, kubarlığını nümayiş etdirməyə ehtiyac yoxdu, kubarlığı təbii və üzvi kübarlıq idi.

Amma bununla belə, bu paşa nəvəsi, İstanbul əfəndisi sinfi seçimini 19 yaşında etmişdi və birdəfəlik, ömürlük etmişdi. Həm də Moskvaya gəlib marksist ideyalarla beynini doldurduğundan daha əvvəl etmişdi. Nazımı kommunist kimi Moskvada oxuduqları yox, Anadoluda gördükləri yetişdirmişdi.

Anadoluda yamaq ustalığını kəşf edir Nazım, kəndlilərin üst-başının bir-birinə calanmış başqa-başqa rənglərdə yamaqlardan ibarət olduğunu görür - bu geyimlər İstanbul dilənçilərinin üst-başından da betərdi... Uşaqların qarnı şişdi, yol boyunca bir nəfər belə ayaqları yalın olmayan kəndli qadına rast gəlmir, amma sapsağlam ərini çiyinlərində çaydan keçirən qadınları görür.

Çox illər sonra bu təəssüratları "Romantika" ("Yaşamaq gözəl şeydir, qardaşım") romanında qələmə alır:

"Qadın dünyanın ən həzin səsiylə "Yaşıl qurbağalar ötər göllərdə" mahnısını oxumağa başladı, Kədərdən tüklərim biz-biz oldu, "Anasız-atasız qürbət ellərdə" qalan Anadolunu cəbhəyə gedən istanbullu, izmirli zabitləriylə, kənd evlərində ölən yaralı əsgərləriylə, ərlərini bellərində daşıyaraq çayı keçən qadınları və Kastomonun fahişəxanalarındakı sifilisli fahişələriylə, burnu axan, bitli, ayaqyalın-başıaçıq uşaqlarıyla və Çamlıbellərində Koroğlu qalaları, xışları və susuz, çatlamış torpağıyla Anadolunu gəzib-dolaşdım. Bu, dözüləcək bir acı deyildi, lənətə gəlsin!.."

Onu da qeyd etmək istəyirəm ki, az sonra Sovet İttifaqına keçib qatarla ölkənin cənubundan Moskvaya gedərkən yollarda müşahidə etdiyi aclıq, səfalət səhnələri heç də Anadolunun acı mənzərələrindən geri qalmırdı və məhz elə bu, Rusiya təəssüratlarının təsiri altında Türk ədəbiyyatında ilk sərbəst şeiri - "Acların göz bəbəkləri" şeirini yazır:

Deyil bir kaç (neçə)
deyil beş on
otuz milyon
ac
bizim.
Onlar
bizim!
Biz
onların!
Dalğalar
dənizin!
Dəniz
dalğaların!
Deyil bir kaç
deyil beş on
30 000 000
30 000 000!
Aclar düzülmüş, aclar!

Amma Türkiyədən fərqli olaraq, Rusiyada gördüklərinin tezliklə yeni sosialist quruluşunun səylərıylə aradan qalxacağına inanırdı və Türkiyənin sosial nicatını da məhz bu yolda görürdü. Əgər Mustafa Kamal Nazımçün Milli qurtuluş hərəkatının rəhbəri və rəmzi idisə, məmləkətinin sosial qurtuluşunu, yəni insanların bərabərlik şəraitində səfalətdən, ədalətsizlikdən, aclıqdan qurtulmasını kommunist ideyalarında və bu ideyaların Türkiyədə konkret rəmzini "ən türk" adlandırdığı Mustafa Sübhüdə görürdü. Mustafa Sübhü yoxsul Anadolunu imperializmdən qurtarmaq üçün Mustafa Kamalın sıralarına qoşulmaq istəyirmiş.

Nazım yazır: "Mustafa Sübhünün rəsmini ilk öncə gördüm. Moskvada iki, üç dəfə qara qələmlə böyütdüm. Gözlüklü, pos bığlı. Yer üzündə ən çox saydığım, daha önəmlisi, sevdiyim adamlardan biri".

Nazım onu da xüsusi qeyd edir ki, Kazım Qarabəkir paşa erməni daşnaklarını Mustafa Sübhünin Rusiyadakı türk əsirlərinlən qurduğu alayın yardımıyla məğlub edib.

Qara dənizdə Topal Osmanın muzdlu qatilləri tərəfindən boğulub sulara atılmış Mustafa Sübhünün və 14 arxadaşının faciəsini öz ürəyinə saplanmış 15 bıçaq sayırdı.

Köksümdə 15 yara var!..
Saplandı köksümə 15 qara saplı bıçaq!..
Qəlbim yenə çarpıyor,
Qəlbim yenə çarpacaq!!!
Köksümdə 15 yara var!
Sarıldı 15 yarama
Qara kayqan ilanlar kimi qaranlıq sular!
Qara dəniz boğmaq istəyir məni,
Boğmaq istəyir məni, qanlı qaranlıq sular!

1973-cü ildə İstanbulda olarkən məşhur qəzetəçi-yazar İlhan Selcuqla da görüşdüm. Mənə iki cildlik kitabını - 18-ci ildə Nuru paşanın xilaskar ordusu tərkibində Azərbaycana gəlmiş Çavuş Süleyman əfəndinin xatirələri əsasında yazdığı kitabı bağışladı: amma

qızmayın - dedi - burada Azerbaycanla ilgili eleştirilər (tənqidi fikirlər də var). O söhbətimizdə baxışlarını açıqlayarkən İlhan bəyin dedikləri də yadımda qalıb: Biz türk solları Mustafa Kamalın da, Mustafa Sübhünün də məfkurə varisləriyik.

* * *

İstanbul ingilislərin, fransızların, yunanların işğalı altında olanda Nazım "Səsini qeyb etmiş şəhər" və "Qırx həraminin (quldurun) əsiri" şeirlərini yazmaqla qalmır, şair dostları Fariq Nafiz, Yusif Ziya və Vala Nurəddinlə bir gəminin kayutunda gizlənib Anadoluya keçmək, Ankaraya, Mustafa Kamalın yanına getməyi planlaşdırır. Rəmzi bir təsadüfdür ki, gəminin adı "Yeni dünya" idi. Amma Qazinin Anadoluda qurduğu Yeni Türkiyəyə - Yeni Dünyaya o vaxt yalnız ikisi - Nazımla Vala qovuşa bildi, Faruk Nafizlə Yusif Ziyaya o vaxt müəyyən səbəblərdən Anadoluya keçmək qismət olmadı. Nazım və Vala bunu dövrün məşhur yazarı Xalidə Ədib Adıvarın və onun əri Adnan Adıvarın (Mustafa Kamalın xarici işlər nazirinin) dəstəyi və maddi yardımıyla edə bildilər.

Çox sonralar Nazım həbsxanada Qurtuluş savaşına həsr olunmuş Türk ədəbiyyatında bu mövzuda ən qüvvətli əsərini yazır.

Bir neçə il bundan qabaq Türkiyədə olduğum zaman hələ rəhmətlik Alparslan Türkeş sağ idi. TV kanallarının birində Nazımın Qurtuluş dastanından gözəl bir parçanı söyləyirdi Türkeş. Gözlərimə və qulaqlarıma inanmırdım. Milliyyətçi hərəkat partiyasının Başbuğu, 1 nömrəli "Boz qurd" kommunist Nazım Hikmətin şeirini həyranlıqla əzbərdən oxuyurdu. Müxbirin də təəccübünə cavab olaraq Türkeş: - Mənimçün Nazım bir kommunist olmadan öncə Qurtuluş savaşımızın dastanını yaratmış qüdrətli milli şairdir - dedi.

Sonralar mənə danışdılar ki, Türkeşin bu çıxışı onun bəzi tərəfdarlarının və ardıcıllarının da narazılığına səbəb olub, o, siyasətdə xal itirib. Olsun. Hər halda, görkəmli siyasi xadim siyasi baxışlarına görə bəzilərinin "vətən xaini" adlandırdıqları Nazım Hikməti layiqincə qiymətləndirməyi bacarıb. Elə tək bu fakt Türkeşin özünün də böyük ürək sahibi və haqqı, ədaləti siyasətə qurban verməyən şəxsiyyət kimi səciyyələndirir.

Vaxtilə o dövrün Baş bakanı Süleyman Dəmirəl: - Oğlunu Türkiyə Kommunist Partiyasına Əmanət etmiş Nazım Hikmət vətən şairi olamaz - demişdi.

2000-ci il ən böyük dünya dövlətlərinin başçıları iştirak etdiyi İstanbul sammitində isə yenə də Baş bakan olan Süleyman Dəmirəl - görüşün açılışında Məhməd Akifin, qapanışında Nazım Hikmətin şeirlərini oxudu. Dünya dəyişir, zaman dəyişir, dəyərlər dəyişir, əbədi qalan yalnız yüksək sənət örnəkləridir ki, gec-tez hər tür siyasi dözümsüzlüklər üzərində zəfər çalır.

* * *

Anadoluda Nazım milli qurtuluş duyğularının püskürməsini, türk kəndlisinin ağır, dözülməz güzəranını, ictimai bərabərsizliyi şəxsən müşahidə etdiyi kimi, hakim dairələrin riyakarlığının da şahidi oldu. Vala Nurəddin xatırlayır ki, Ankaraya gəldikləri ilk gündə Nazımın dayısı Fuad paşa onları qonaq çağırıb.

Masaya müxtəlif məzələr və rakı qoyulubmuş. Nazım mat-məəttəl qalıb: Anadoluda insanlar acından ölür, ölkədə içkini yasaq edən "Quru qanun" hökm sürür, hətta Nazımla Valanın gözləri qarşısında Qastamonuluda bir nəfəri araq çəkdiyi üçün asıblar. Burda isə... Nazım paşadan xəbər alır: - Bəs içki yasaq deyil? Paşa: - Bizə yasaq deyil - deyib.

Lap Cəfər Cabbarlının "Almaz" pyesində Mirzə Səməndərin sözləri yada düşür: "Sənə, mənə nə şəriət?"

* * *

1921-ci ildə Nazım Hikmət Vala Nurəddinlə Anadoludan keçib Batuma gəlir, Batumda "Fransa" mehmanxanasında hələ də Anadolu yolçuluğunun təəssüratları altında gələcək həyat yolu haqqında düşünməyə başlayır. Sonralar özü bu barədə belə danışırmış (maqnitofon lentinə yazılmış söhbətini Əkbər Babayev kitabında gətirir):

"Otuz beş gün mən paşa nəvəsi Qara dəniz sahillərindən Ankaraya, oradan Boluya səyahət etdim. Anadoluyla, bax, beləcə tanış oldum. Və budur bax, orda gördüklərim, duyduqlarım hamısı indi burda, Batumda "Fransa" mehmanxanasında qarşımdadır. Özözümə: bir qərar ver, dostum - deyirəm. Bütün tərəddüdləri burax bu masanın üstünə, sənin Anadolunun yanına qoy. Nəyi fəda edə bilərsən? Nəyim varsa, hamısını.

Azadlığını? Bəli. Bunun üçün neçə il həbsdə yata bilərsən? Lazım gələrsə, bütün həyatımın sonunacan.

Amma, axı, sən qadınları sevirsən, yeyib-içməyi sevirsən, yaxşı geyinməyi sevirsən. Avropanı, Asiyanı, Amerikanı, Afrikanı gəzmək istəyirsən. Odur ki, Anadolunu burda burax, Tiflisə, ordan Karsa get, ordan da Ankaraya qayıt. Heç dörd-beş il də keçməz ki, millət vəkili, nazir olarsan. Qadınlar, təamlar, şərablar, sənət - bütün dünya sənin olar.

Boşla! Lazım gələrsə, ömrüm boyu həbsdə qalaram.

Axı sən kommunist olsan, səni asa bilərlər, Mustafa Sübhi və yoldaşları kimi dənizdə batıra bilərlər. Qorxmursan? - Qorxuram-dedim. Dərhal, düşünmədən cavab verdim. Yox, əvvəlcə qorxduğumu zənn etdim, amma sonra başa düşdüm ki, qorxmuram. Bu yolda vərəm, ürək xəstəliyinə tutulmaq, şikəst olmaq, əlini, ayağını itirməyə, kar, kor olmağa da hazırsanmı? Kor olmağa? Düşünməmişdim ki, bu yolda kor olmaq da mümkündür.

Gözlərimi yumdum. Əlimlə şeylərə toxuna-toxuna otağı dolaşdım, ayağım büdrədi, yerə sərildim, amma gözlərimi açmadım. Sonra masanın yanında dayandım. Gözlərimi açdım. Kor olmağa da hazıram - dedim. Bu bəlkə də bir az gülməlidir, çocuqsayağıdır, amma belədir.

60 yaşlı Nazım Hikmətin 19 yaşlı Nazımın bu hardasa uşaqcasına tərəddüdləri haqqında söhbəti bəlkə də ədalı görünə bilər, əgər Nazım, sonrakı 40 illik məşəqqətli həyatıyla uzaq seçiminə hər zaman sadiq qaldığını sübut etmiş olmasaydı.

O da maraqlıdır ki, Əkbər Babayevin kitabında misal gətirdiyi bu lent yazısı şairin "Romantika" ("Yaşamaq gözəl şeydir, qardaşım") romanında eynilə bu şəkildədir. Əsərin qəhrəmanı hərf-hərfə bu mətni öz-özünə təkrar edərək həyat seçimini bir dəfəlik edir.

Fəqət Nazım Hikmətin həyatının ən böyük faciəsi bu başına gələ biləcəklər haqqında fərziyyələr olmadı. Ömrünün ən böyük faciəsini, peşmanlığını, xəyal qırıqlığını 1951-ci ildə Türkiyədən qaçıb Sovet İttifaqına gəldiyi zaman yaşadı. Yalnız burda başa düşdü ki, ömrünün ən gözəl illərini, səhhətini, azadlığını, gəncliyini qurban verdiyi bir ideal - bu ölkədə - "röyalarını məmələkətində" - eybəcər şəklə düşüb.

Uzun illər Türkiyə məhbəslərində xəyallarında Sovet ölkəsini - gəncliyinin romantik sərabı, ilğımı kimi yaşatmışdı. Və bu son mühacirətindən sonra: "Həyatımın ən böyük xətası SSRİ-yə gəlməyimdir" - deyərkən bəlkə də çəkdiyi çilələrdən çox, gözəl gənclik xatirələrinin tarmar olmasına acıyırdı.

Əlbəttə, bu məsələ də o qədər bəsit deyil. Nazım Sovetlər Birliyinin Stalin və sonra daha yumşaq şəkildə olsa da, eyni mahiyyətini saxlayan Xruşşov rejimi barədə xəyal qırılığına uğramışdı, amma dünyanın heç bir ölkəsində insanlara səadət gətirməmiş və görünür, utopik bir ideya olan Kommunizmə inamına sona qədər sadiq qaldı. Hər halda, sadiq qaldığına hamını və bəlkə ilk növbədə, özünü inandırmağa çalışdı.

* * *

Nazım Hikmət və Kommunizm sorununu obyektiv dərk etmək üçün bu özəl məsələdən qat-qat geniş və əhəmiyyətli bir problemi - dünyada sollar, sol düşüncə, sosialist və kommunist idealları probleminə nəzər salmaq lazımdır. Ən ümumi və bəsit şəkildə desəm, insanların bərabərliyi, sosial ədalət, əməkçilərin öz hüquqlarına sahib olması fikri - bəşər tarixində təzə bir məsələ deyil. Bu fikir qədim quldarlıq cəmiyyətində əzilənlərin etirazı və üsyanı kimi ortaya çıxmış, Həzrət İsanın təlimində və xristianlıq fəlsəfəsində önəmli yer tutmuş, sonralar İslamın da aparıcı ideyalarından biri olmuşdur. Rus alimi İqor Şafareviçin kitabında bu barədə ətraflı danışılır və şərti olaraq "sol düşüncə" adlandırdığımız prosesin qaynaqları və tarixi ardıcıllığı izlənilir. Fransız inqilabının "Azadlıq, Bərabərlik, Qardaşlıq" şüarında da Bərabərlik - Müsavat əsas prinsiplərindən biridir. "Müsavat" sözü XX əsrin əvvəllərində Azərbaycanın siyasi həyatında mühüm yer tutan partiyanın adında da əks olunub.

XIX əsrdə bu sol düşüncə Marksın, Engelsin, Bakuninin, Prudonun nəzəri baxışlarında elmi-siyasi konsepsiya şəkli alır. Əgər Bakunin anarxizm fəlsəfəsinə əsaslanırdısa, Marks və Engels elmi kommunizmin nəzəriyyəsini yaradırlar. Marksist ideyalar XX əsrdə xüsusi vüsət qazanır. Birinci dünya hərbindən - həqiqətən də imperialist müharibəsindən çıxmış Avropa ölkələrində və Rusiyada nicati cəmiyyətin, siyasi quruluşun kökündən dəyişməsində görürdülər. Almaniyada və Rusiyada çevrilişlər oldu. Almaniyada yeni quruluşun ömrü uzun sürmədi. Rusiyada isə monarxiya rejimini devirən 1917-ci ilin demokratik fevral inqilabı, özlərini bolşevik (çoxluqçu) adlandırsalar da, siyasi-ictimai həyatda əqəliyyət, azlıq təşkil edən bir qrupun çevrilişi ilə əvəz olundu.

Bütün dünyada sollar Oktyabr hadisələrini çoxdan arzuladıqları bərabərlik cəmiyyətinin yaranması kimi dərk etdilər və uzun zaman bu aldanışla, bu illüziyayla yaşadılar, tə-

qiblərə, təzyiqlərə, məşəqqətlərə dözməli oldular. Amerika jurnalisti Con Rid Rusiyada Oktyabr hadisələri haqqında kitab yazdı və onu "Dünyanı sarsıdan on gün" adlandırdı. Dünyanın hər üzünü görmüş və hətta dünyada olmayanları da fantaziyasıyla canlandırmış ingilis yazıçısı Herbert Uels Leninlə görüşündən sonra onu "Kreml xəyalpərəsti" saysa da, proletar rəhbərinin niyyətlərinin tam səmimiyyətinə inanmışdı. Başqa bir dünyagörmüş, həm də hər şeyə ironik münasibət bəsləyən ingilis yazıçısı Bernard Şou da Sovet İttifaqının dostu olmasıyla qürur duyurdu. Hind yazıçısı, Nobel mükafatı laureatı Rabindranat Taqor SSRİ-də aparılan quruculuq işləri haqqında heyranlıqla danışırdı. Fransız romançısı Anri Barbüs Stalini belə səciyyələndirirdi: "Dünya bu insanın vasitəsiylə dərk olunur". Alman yazıçısı Lion Feyxtvanger hətta 37-ci ilin Moskva məhkəmələrinə haqq qazandırmağa çalışırdı. Başqa məşhur Qərb yazarları - fransız Andre Malro, amerikalı Con Dos-Passos, alman Bertold Brext - sol əqidəli sənətkarlar idi. Doğrudur, Feyxtvangerin, Malronun, Brextin mövqeləri onların antifaşist olmalarıyla bağlı idi. Faşizmə düşmən idilərsə, faşizm düşməni Sovetlərin dostu olmalıydılar. Bir müddət sonra Malro da, Dos-Passos da Sovet İttifaqına rəğbətlərindən xilas oldular.

Qəribədir, nəyə görə 30-cu illərdə demək olar ki, eyni vaxtda SSRİ-yə səfər etmiş iki yazıçı L.Feyxtvanger və fransız Andre Cid sovet gerçəkliyini daban-dabana zidd şəkildə qavrayıblar? Sov İKP-nin XX qurultayından, 56-cı ilin Macarıstan hadisələrindən sonra sovet propoqandasının gah "Sülh uğrunda alovlu mübariz", gah da "qaragüruhçu burjua təbliğatçısı" kimi qələmə verdiyi Jan Pol Sartr Stalin rejiminin cinayətlərini güzəştlə də olsa qəbul etdi, onun həmyerlisi, həmpeşəsi və ekzestensialist məsləkdaşı Alber Kamyu isə bu quruluşu lənətlədi.

Sonrakı illərdə Sartr da, məşhur İtaliya yazıçısı Alberto Moravia kimi, bir sıra başqa Qərb intellektualları kimi daha da sol gedərək hətta Maoçu Çinin "mədəni inqilabını" və xunveybin vəhşiliklərini dəstəklədilər. Qərb solçuları Stalinin və ümumən sovet rejiminin cinayətləri haqqında məlumatları olmadıqlarını iddia edirlər, hətta XX Qurultayda Xruşşovun məruzəsinin belə, onları tamamilə inandırmadığını və guya elə buna görə Sovet Quruluşundan imtina etmədiklərinə bəraət qazandırmağa çalışırlar. Yalnız Aleksandr Soljenitsinin "QULAQ takım adaları" ("Qulaq arxipelaqı") əsərindən sonra gözlərinin açıldığını deyirlər. Bu yalnız qismən həqiqət ola bilər, çünki Soljentsindən əvvəl də Stalin rejiminin cinayətləri haqqında məlumatlar hürr dünyaya sızırdı. 30-cu illərdə Moskvada İngiltərə kommunistlərinin "Deyli Uorker" qəzetinin müxbiri olmuş Corc Oruell 1948-ci ildə son iki rəqəmi dəyişərək "1984" adlı antiutopik roman yazmışdı. Qərbdə çox populyar olan bu romanı oxumaq totalitar rejimlərin mahiyyəti haqqında, o cümlədən sovet gerçəkliyi haqqında tam təsəvvür almaq üçün yetərlidir.

Qərb sollarının böyləcəsinə qulaqlarının tıxamasına, gözlərini qapamasına səbəb nə idi?

Əli uzun olan, dünyanın hər hansı ən uzaq yerində istədiyi şəxsi aradan qaldırmağa qadir olan ÇK-NKVD-KQB vahiməsi? Özlərini "yaxşı" aparanlara əməlli-başlı ənamlar - sovet mükafatları, kitablarının görünməmiş tirajlarla nəşri, SSRİ-yə tez-tez dəvət olunmaları, öz ölkələrində az tanınan yazarların (tutalım, Amerikada Hovard Fast, İngiltərədə Ceyms Oldric, Fransada Ande Stil) Sovet İttifaqında və sosialist düşərgəsində böyük sənətkar kimi təbliğ olunması və sairə şirnikdirmə üsulları? Əlbəttə, bu da vardı, amma, axı, tutalım Pablo Pikasso, Can Pol Sartr, Pol Elüar, Pablo Neruda səviyyəli sənətkarların bu sadalananlardan heç birinə ehtiyacı və heç birindən qorxusu ola bilməzdi. Nazım Hikmətin də hələ lap gənclik illərindən kommunizmdən imtina etməklə öz vətənində daha yüksək mənsəblərə yüksəlmək, daha böyük şöhrət və sərvət qazanmaq imkanları vardı.

Nazımın də, Qərb sollarının da mövqelərinin səbəblərini daha dərinlərdə aramaq lazımdır. Sosial durumu, dolanışıq səviyyəsi, özəlliklə o illərdə çox aşağı səviyyədə olan Türkiyəni bir yana buraxaq, əhalinin güzəranı firavan, rifahı ən yüksək olan Qərb ölkələrində belə sinfi bərabərsizliklə, sosial ədalətsizliklə rastlaşan namuslu intellektuallar bütün bunlarla barışa bilmirdilər. Nə deyirlər-desinlər, kapitalizm dünyasının çox ciddi zidiyətləri, çox böyük əskikliklər - danılmaz faktdır. Ancaq iş ondadır ki, bu Qərb aydınları kapitalizm şəraitindən qat-qat betər olan sovet sosializminin içində yaşamayıblar. Bir dəfə Moskvada yazıçı dostlarımdan biriylə söhbətdə Sovet kommunizminə nifrət bəsləyən bu adam qəribə bir arzusunu bildirdi: kaş Amerikada, İngiltərədə, Fransada da kommunizm quruluşu qalib gələydi. Təəccüblə: - Niyə belə? - deyə soruşdum. - Bu Qərb solları bir az bizim şəraitdə yaşasaydılar ağılları başlarına gələrdi. İndi kefləri istədikləri kimi yaşayır, istədiklərini deyir, yazır, hələ bir şadlıqlarından şitlik edərək bəhrələndikləri quruluşa şıllaq da atırlar.

Sovet İttifaqında siyasi mühacir kimi sığınacaq tapmış əcnəbi kommunistlər, o sıradan Kominternin məsul işçiləri sosialist cənnətinin ləzzətlərini NKVD zirzəmilərində, Sibir şaxtalarında dadmalı oldular. Çoxlarına heç bu da qismət olmadı-sinfi mübarizələrinin mükafatlarını başlarına və ürəklərinə sıxılan qurğuşunla aldılar. Belə insanların faciəsinə istehza etmək yox, onların uğursuz talelərini anlamağa çalışmalıyıq. Bu gün biz onları bəlkə daha yaxşı başa düşürük, çünki oxşar problemlərlə indiki günlərimizdə biz də rastlaşırıq. İstər Azərbaycanda, istər Rusiyada, istərsə də postsovet məkanının başqa respublikalarında. İndi müstəqil dövlətlər olmuş bu respublikalarda - birində az, birində çox demokratik quruluşun rüşeymləri var. Birində az, birində çox, birində ifrat dərəcədə eybəcər totalitar sistemlər də hökm sürür. Bu cəhətdən bir-birindən fərqlənirlər, amma hamısında (yenə də birində "az", birində "çox" tənasübünü nəzərə almaqla) əhalinin əksəriyyətinin ac-yalavac, dilənçi kökündə, səfalət içində yaşamasını, eyni zamanda kiçik varlılar zümrəsinin harınlığını, pula pul deməməsini gördükdə insanlarda belə bir fikir oyanır ki, keçmiş sovet quruluşu - o qədər də pis deyilmiş - heç olmasa pulsuz müalicə, təhsil, qocalıqda sosial təminat, təqaüd, sabitlik, işləmək imkanları baxımından... İnsanlarda o dövr üçün həsrət, qəribsəmə, nostalji hissləri də bu səbəbdən baş qaldırır. Daha təhlükəli məsələ odur ki, həyat səviyyəsi düşdükcə, varlılar-kasıblar arasında uçurum dərinləşdikcə, indiki quruluşun nöqsanları insanlarda əvvəlki quruluşun nöqsansızlığı təsəvvürü yaradacaq. "İndi nə qədər pisdirsə, o vaxt o qədər yaxşıydı" fikri fərdi və ictimai şüura hakim kəsiləcək. Bu cür ovqatdan isə "möhkəm əl həsrətinə" və "yeni Stalin" arzusuna bir addım qalır. Əlbəttə, bu başqa bir söhbətin mövzusudur.

Dünyada sollar probleminə qayıtdıqda isə, bir neçə məqam üstündə dayanmaq istərdim.

Məncə, dünya sollarının birinci səhvi Sovet İttifaqını kapitalist dünyasının alternativi kimi görmələri idi. Yəni, kapitalist dünyası pisdir, deməli, bunun antipodu olan Sovet cəmiyyəti yaxşı olmalıdır. Sovet İttifaqının süqutundan sonra postsovet məkanında təşəkkül tapan quruluş - unudulmamış sovet əxlaqıyla və naşıcasına qavranılmış yarımçıq kapitalist qanunlarıyla yaşayan cəmiyyətin mahiyyətini çox yığcam və dəqiq düsturla açmaq olar: "Sovet təbliğatı bizə sosializm haqqında nə deyirdisə, hamısı yalan çıxdı, amma kapitalizm barəsində nə deyirdisə, hamısı düzmüş".

Sol intellektualların ikinci faciəvi yanlışı ondaydı ki, kommunizm ideyalarının həyatda gerçəkləşməsini SSRİ-nin və sosialist düşərgəsinin timsalında görürdülər. Halbuki, sosialist dünyasında kommunizm ideyası tamamilə təhrif olunmuş, bayağılaşdırılmış, eybəcər, karikatur şəklə düşmüşdü. Daha da irəli gedərək demək olar ki, tarixdə heç bir hadisə Kommunizm ideyalarına SSRİ-nin yetmiş illik mövcudluğu qədər zərbə vurmayıb - müxtəlif mərhələlərdə ölkə içində və xaricdə yapdığı çeşid-çeşid cinayətlər, bütün dünyada milyonlarla insanın müsibətlərə düçar edilməsi, ilk növbədə, öz vətəndaşlarının kütləvi qırğını, 20-ci, 30-cu, 40-cı illərin süni yaradılmış kütləvi aclığı... Təbliğatın illər boyu beyinlərə yeritdiyi kütləvi kütlük... SSRİ sosializminin tarixdə bir əhəmiyyəti varsa, o da bütün dünyaya antiörnək, antinümunə olmasıdır. Dünyanın, ilk növbədə, Qərbin qabaqcıl dövlətləri bu acı təcrübədən nəticələr çıxararaq cəmiyyəti elə qurmağa çalışdılar ki, sosial partlayışlar üçün zəmin olmasın, inqilablar, üsyanlar, qiyamlar, çevrilişlər üçün səbəb tapılmasın.

Bəhs etdiyim hər iki səhv qənaət uzun müddət Nazım Hikmətin də böyük aldanışı idi. Uzun illər Türkiyə məhbəslərində dünyadan təcrid edilmiş Nazım solların üçüncü bir aldanışını da paylaşırdı. Onun təsəvvüründə Sovetlər Birliyi hələ də 20-ci illərdə gördüyü ölkə idi.

Bir halda ki, burda hər şey kökündən dəyişmişdi. Sovet quruluşunun mayasında olan, amma ilk mərhələsində hələ tam üzə çıxmamış naqisliklərin indi onun mahiyyətinə çevrilməsindən Nazım bixəbərdi.

Qərb aydınlarının düşüncələrinə hakim olan Alber Kamyunun Nobel mükafatını alma mərasimində nitqində 20-ci illərin sovet həyatı, özəlliklə sənəti haqqında maraqlı fikirlər söyləyir. Bu dövrün romantik sovet sənətini inqilabi ruhun ifadəsi kimi dəyərləndirir.

Nazım Hikmətin həbsxana xəyallarında və röyalarında da məhz belə bir sənət mühiti, ictimai-siyasi sovet mühiti yaşayırdı.

Anadolu köylərində insanların ağır həyatını, yurdunun da, Rusiyanın da acı "insan mənzərələrini" gördükdən sonra Nazım 20-ci illərdə Moskvaya bir xilas, nicat tapınağı kimi gəlmişdi, qəlbində inqilab ruhu alovlanırdı və burda da hər şeyə məhz bu gözlə baxır-

dı. O vaxtlar ucundan-qulağından eşitdiyi marksizm nəzəriyyəsi bir yana dursun, Nazım bir şair kimi Moskvanın sənət mühtəvasına heyran olmuşdu. Duyğuları qanadlandıran şeir gecələri, Mayakovskinin ehkamları yıxan, yenilik hissiylə kükrəyən, qulaqların alışmadığı təzə ritmlərlə, ahənglərlə, cəsarətli obrazlarla, təşbehlərlə, bənzətmələrlə zəngin poeziyası, teatrda Meyerholdun, Tairovun novator eksperimentləri, kinoda Eyzenşteynin kəşfləri, Şərq Xalqları Kommunist Universitetində hökm sürən beynəlmiləlçi ab-hava, Çindən Amerikayacan müxtəlif ölkələrdən gəlmiş mübarizə əzmi - o illər Nazım Hikmət məhz belə bir mühitdə yetişir, formalaşırdı. Bu dövrdə birinci dəfə Bakıya da gələn (Nazımın Bakıya gəlişləri, Azərbaycanla əlaqələri haqqında bir qədər sonra ətraflı bəhs edəcəyəm) və burada "Günəşi içənlərin türküsü" adlı ilk kitabında nəşr olunan məşhur şeiri məhz bu ovqatın, bu ab-havanın ifadəsiydi:

Axın var
Günəşə axın
Günəşi zəbt edəcəyik
Günəşin zəbti yaxın.
Topraq bakır (mis)
Göy bakır
Haykır
günəşi içənlərin türküsünü
Haykır
Haykıralım!

Nazımın bu dövr poeziyasında rus şeirinin, özəlliklə də Mayakovskinin təsirini görənlər yanılırlar. Şair o illər Mayakovski ilə görüşmüşdü, birgə çıxışları olmuşdu, ona böyük hörməti vardı, onun ümumi inqilabı ruhuna rəğbəti vardı, amma Mayakovski şeirinin birbaşa təsirini hər zaman israrla inkar edirdi.

Mayakovski ilə ilk dəfə Politexnik muzeydə şeir gecəsində tanış olublar. Bu, Nazımın moskvalılar qarşısında birinci çıxışı imiş. Həyəcanlanırmış. Mayakovski ona:

-Не бойса , турок - - все равно никто ничего не поймет. (qorxma, türk, onsuz da heç kəs heç nə başa düşməyəsək).

O vaxtlar Moskvada müxtəlif sənət cərəyanları, bir çox ədəbi məktəblər vardı. Əvvəl Nazım Mayakovskinin ədəbi qrupuna - futuristlər dəstəsinə yaxın olub.

Sonra İlya Selvinskinin daxil olduğu konstruktivistlər tərəfinə keçib. Mayakovski: turok - reneqat - deyib.

Çox illər sonra Nazımı Türkiyədə "vətən xaini" elan ediblər. Demək, biçarə Nazıma ilk dəfə bu xəyanət damğasını Mayakovski vurub. Amma Mayakovskinin bu zarafatyana tənəsinə baxmayaraq, dost olaraq qalıblar.

Hətta Mayakovskinin ağladığını görüb Nazım. Puşkin bulvarında kitab satışı təşkil olunubmuş... "ты видиш , турок, даже книги мои на витрины не поставили - deyib Mayakovski - (Görürsənmi, türk, mənim kitabımı heç vitrinə də qoymayıblar). Nazım xatırlayır ki, bu sözləri deyəndə Mayakovskinin gözləri dolmuşdu. Bu cür pisikdirmələr müxtəlif dövrlərin, müxtəlif xalqların bir çox başqa şairlərinin də ömürləri boyu yol yoldaşı olub.

Türkiyə mətbuatında da, sovet mətbuatında da - birincidə tənəylə, ikincidə təqdirlə Nazım Hikməti Mayakovskinin tələbəsi adlandıranda, o, çox əsəbiləşirdi.

- Mayakovski çox böyük şairdir - deyirdi - amma mən heç də onun şagirdi deyiləm. Necə onun təsirində ola bilərəm ki, gənclik şeirlərimi yazanda heç rus dilini də bilmirdim?!

Onu da deyim ki, Nazım ömrünün sonuna qədər rus dilini əməlli-başlı mənimsəyə bilmədi. Yadımdadır, deyərdi, "моя туретская башга не понимает почему двер - женщина". (Mənim türk qafam anlamır, nəyə görə "qapı- qadındır". Rus dilində cins mənsubiyyəti olduğuna görə, "qapı" sözü qadın cinsindəndir). Rus dilini pis bilməsi və çağdaş rus şeirinin ona guya ki, təsir göstərməsi barədə məzəli bir əhvalat da danışırdı: "Bəhri Xəzər" adlı gənclik şeirində belə misralar var:

Çıxıyor qayıq
Eniyor qayıq...
Çıxıyor qa...
Eniyor qa...

Çıx...
en...
çıx...

Aydındır ki, səslər, yarımçıq sözlər, hecalar vasitəsilə şair dalğalarda gah görünən, gah itən, gah qalxan, gah enən qayığın son dərəcə görümlü, əyani obrazını yaradıb. Amma Nazım özü deyirdi ki, bu şeiri Svetlovun "Qrenada" şeirini görəndən sonra yazıb. Svetlovun bu məşhur şeirində güllə dəyən döyüşçü atdan yıxılır, "Qrenada" sözünü tam deyə bilmir, "Qrena..." - deyə pıçıldayaraq gözlərini əbədi yumur. Nazım Qrenada sözünü qranata (qumbara) kimi başa düşmüş və qumbaranın partladığı üçün yaralanmış döyüşçünün bu sözü tam deyə bilmədən həlak olduğunu zənn edibmiş. Ona izah edəndə ki, Svetlovun şeirində söhbət qumbaradan deyil, İspaniyanın Qrenada əyalətindən gedir, Nazım çox təəccüblənib. Svetlovun çox sadə şeirini rus dilində dəqiq anlaya bilməyən Nazım Mayakovskinin neologizmlərlə dolu qəliz poeziyasını necə dərk edlə bilərmiş ki, onun təsiri altına da düşsün? Güman ki, Nazım Mayakovski poeziyasıyla çox sonralar, anna dili kimi bildiyi fransızcaya tərcümələri vasitəsilə daha ətraflı tanış olub.

Mayakovski və Nazım Hikmət kimi çox fərqli və müxtəlif şairlərin oxşar cəhəti varsa - məzmun və ideya cəhətdən demirəm, forma baxımından - misraları qırıq-qırıq, pilləkən şəklində düzmələridir. Hər pilləkən şəklində düzülmüş misralar sərbəst şeir olmadığı kimi, bu üsuldan istifadə edən hər şairin də kiminsə təsirinə düşdüyünü iddia etmək düz deyil. Sərbəst şeir (verlibr) Mayakovskidən çox qabaq da dünya ədəbiyyatında mövcuddur.

1941-ci ildə həbsxanadan məşhur türk yazıçısı Kamal Tahirə göndərdiyi məktubda Nazım yazırdı: "Mayakovskinin 40-cı ildə nəşr olunmuş bircildliyi əlimə keçdi. Bilirsən, indi sənə bir etiraf edəcəm, amma öz aramızda qalsın. Mayakovskiylə ilk dəfə tanış oluram.

Özünün ifasında eşitdiyim iki-üç şeirindən başqa, nəşr olunmuş şeirlərini ilk dəfə oxuyuram. Onun sənət haqqında fikirlərinə də, inan mənə, ilk dəfə bələd oluram. Qəribə bir qanun varmış: eyni şərait eyni nəticələrə gətirirmiş. Demək istədiyim odur ki, Mayakovskidən xəbərim olmadan, hardasa hər ikimiz eyni işi görmüşük. Doğrudur, bəzi şeylərdə o, bu işi məndən yaxşı görüb, bəzi şeyləri - təvəzzö gərək deyil - mən daha yaxşı etmişəm".

Başqa bir yerdə Mayakovskiylə fərqlərini göstərərək deyir ki, o, individualist, fərdiyyətçi idi, mən yox.

Bir təfavüt də Nazım onda görürdü ki, Mayakovski şeirini böyük auditoriyalarda gurultulu qiraət üçün yazırdı, öz şeirlərinin isə oxucuya deklamasiyasız çatmasına çalışdığını deyir.

"Mayakovskiylə mənim aramda harmoniya, ritm məsələlərində heç bir bənzəyiş yoxdur. Məzmun cəhətdən də çox ayrılırıq."

• • •

Əgər Moskvanın ədəbi, mədəni və siyasi mühiti Nazımı bir şəxsiyyət kimi yetişdirirdisə, onun şair kimi özünü təsdiq etməsi Azərbaycanla bağlıdır. Doğrudur, Türkiyədə də lap gənslik illərindən şair kimi tanınmışdı, amma hər halda ilk kitabı - "Günəşi içənlərin türküsü". 1928-ci ildə Bakıda çıxdı. (Yanılmıramsa, bu, həm də Nazımın əski əlifbayla (ərəb əlifbasıyla) basılmış yeganə kitabıdır). Kitabın redaktoru Nazımdan da cavan olan, amma artıq Azərbaycanın ədəbi aləmində nüfuz qazanmış, "Gəns qızıl qələmlər" təşkilatının rəhbərlərindən biri Süleyman Rüstəm idi.

Aydın Aydəmir "Nazım" adlı kitabının 5-si nəşrində şairin KUTV-da (KUTV-Kommunistiçeskiy Universitet Trudəhixsə Vostoka - Şərq Zəhmətkeşlərinin Kommunist Universiteti) şairin bu Ali məktəbdə ən yaxın dostlarının adını çəkir: "Bunlardan hindli Əs Həbib Vəfa, çinli Si Yau, iranlı Lahuti, azərbaysanlı Süleyman Rüstəm, Mikayıl Rəfili ön sırada yer alan arxadaşlarıydı".

Çox-çox illər keçəsək, 50-si illərdə Nazım Hikmətin SSRİ-yə yeni gəlişindən sonra Mikayıl Rəfili (1905-1958) bir şeirində o uzaq günləri xatırlayasaq:

Qarşımda əksin..
Əlimdə sadə qələm,
Gözlərimdə Moskvada keçən
Gənsliyimizin solmayan yarpaqları.
Sən - Nazım Hikmətsən,
Mən -

sadə bir tələbən.
Gesə saat on iki,
Yadımdakı
bir sən,
bir də mən,
bir də çılpaq və narın bir axşam,
bir də ussuz-busaqsız qarlı bir meşə,
bir də Tverskoy bulvardakı
ümid və şeirlə bəslənən
balasa bir gușən.
Gesə saat on iki.
Yağış yağır
Külək əsir
Xatirələr bir balıq kimi titrədir
paslanan qarmaqları,
Ah, nə əsəb bir gesədir
Bakıın bu payız gesəsi...
Ah, nə əsəb insandır Süleyman
və onun
titrəyən qəhqəhəsi...

(Bakı, 9 noyabr 1957)

Bu şeirin yazıldığı gündən bir il neçə ay keçəsək və Nazım Moskvada ası bir xəbər alasaq.

Nəslimin yarpaq tökümü başladı,
Çoxumuz qışa qalmayacağız
Dəliyə döndüm Rəfili,
ölüm xəbərini alır-almaz...

Mikayıl Rəfiliyə kədərli ağı olan bu şeirində Nazım da köhnə dostuyla bağlı xatirələrini sanlandırır, son görüşlərini - Moskvada keçirdikləri yeni il gesəsini yada salır:

Moskvada, bizdə, bu yılbaşı gesəsi
Süfrədə, donanmış şam ağasının yanında
Qosaman bir oyunsaq kimiydin pırıl-pırıl
Pırıl-pırıl gözlərin, dazlaq qafan,
sayğıdəyər göbəyin.
Dışarda gesəyə bulanmış qarlı bir orman
Sənə baxıb düşünürdüm:
Əsgi şərab çəlləyi kimi keyfli həzrət,
Əsgi şərab çəlləyi kimi sağlam.
Məndən çox sonra öləsək,
Arxamdan bir məqalə də yazasaq
bir şeir yaxud:
"Nazımla Moskvada 24-də tanışdım...."
Oylədir Mikayıl, şair ola bilərdin,
professor oldun!

Mikayıl Rəfili 20-si illərdə Azərbaycanda sərbəst şeirin yaradısılarından biri və onun ən mötəbər nəzəriyyəçisi idi. Sonra uzun illər poeziyadan uzaq düşdü, görkəmli alim-ədəbiyyatşünas kimi tanındı, "Ədəbiyyat nəzəriyyəsi", "Qədim Azərbaysan ədəbiyyatı tarixi", Nizami, Mirzə Fətəli Axundov haqqında dəyərli kitabların, çox sayda məqalələrin müəllifi oldu, rus, fransız nəsrindən tərsümələr etdi və yalnız ömrünün sonuna yaxın-əllinsi illərin ikinsi yarısında yenə də poeziyaya üz tutdu, bir neçə gözəl şeir yazdı. Nazıma həsr etdiyi şeirdə adı keçən Süleyman, təbii ki, Süleyman Rüstəmdir.

Nazımın yaxın dostlarından Süleyman Rüstəm həm şairin SSRİ-yə 20-si illərdəki gəlişində, həm də 50-si illərdə onunla sıx təmasda olmuş, vəfatından sonra ona həsr edilmiş "Nazım yenə dənizdədir" adlı şeir və "Od ürəkli şair" adlı çox maraqlı xatirələr yazmışdır. Süleyman Rüstəm xatırlayır ki, 1926-1927-si illərdə Nazımla hələ şəxsən tanış

deyilmiş. Burda bir haşiyə çıxıb qeyd etmək istəyirəm ki, Aydın Aydəmirin kitabından yuxarıda gətirdiyim bir sitat məndə şübhə doğururdu. A.Aydəmir Nazımın KUTV-da tələbə arxadışları arasında M.Rəfili və S.Rüstəmin də adlarını çəkir. Mənim bildiyimə görə, nə M.Rəfili, nə S.Rüstəm bu universitetdə oxumayıblar, Süleyman Rüstəmin xatirələrindən gətirdiyim sümlə - o illər Nazımla tanış olmadığı haqqında dedikləri-fikrimi təsdiq edir. Süleyman Rüstəm yazır: "O, (Nazım-A.) Moskvadan bizim "Maarif və mədəniyyət" məcmuəmizə tez-tez böyük ürək döyüntüsü ilə yazılmış gözəl şeirlər göndərərdi. Nazım Hikmətlə biz qiyabi tanış olduq, məktublaşdıq. O, Azərbaysan proletar poeziyası ilə çox maraqlanırdı. Oxusularımızın nə mövzuda, nə ruhda şeirlərlə maraqlandığını bilmək istəyirdi. Az bir zamanda Azərbaysan oxusuları Nazım Hikməti türk xalqının istedadlı, vətənpərər, inqilabçı şairi kimi sevdilər və alqışladılar. Bir neçə məktubumuzda onu Bakıya qonaq çağırdıq, nəhayət, bir gün dostumuz Nazım Hikmət həyat yoldaşı ilə birlikdə, qatarla aşağıdakı misraları yaza-yaza Bakıya gəldi.

Tıkırdıyor trenin rayda təkərlikləri,
Devrilərək keçiyor teleqraf direkləri.
Yarı belimə qədər uzandım pənsərədən
Tren səsiylə dolan havaları dinlədim.

Aramızda qızğın yaradıcılıq söhbətləri başladı... Nazım Hikmət Bakıda yazıçı və şairlərlə, oxusularla görüşlərindən olduqsa razı qaldı. O, dənizi çox sevirdi. Vaxtımızın çoxunu Xəzər sahillərində keçirirdik. Axşamlar qayıqla gəzintiyə çıxırdıq. Nazım Hikmətin ilk kitabı Bakıda çıxmışdır. Məsmuəmizdə çap olunmuş şeirlərini toplayıb "Günəşi içənlərin türküsü" adlı kitabını nəşr etdiyimiz üçün o, bizə minnətdarlığını bildirdi. Bu, gəns şair Nazım Hikmətin həyatında böyük bir hadisə idi."

Nazımın öz yazılarında da yaradıcılığının Bakıyla bağlı bu səhifələri haqqında qeydləri çoxdur. "Şeirim Bakıda "Qızıl Şərq" dərgisində yayınlandı" kimi məlumatdan tutmuş otuz il sonra 1957-si ildə "Azərbaysan mədəniyyəti barədə düşüncələr" adlı məqaləsinə qədər. Həmin məqalədə yazırdı: "İndi professor, o vaxtlar şair olan Mikayıl Rəfili... "Azərbaycan proletar ədəbiyyatı" məqaləsində məndən belə bəhs edirdi: "...Nazım Hikmət Azərbaycan ədəbiyyatına bir proletar yazıçısı olaraq daxil olub". Mən bunları nə üçün yazıram? Bununla fəxr etdiyim üçün yazıram. Bu səfərki gəlişimdə - otuz il sonra, 1957-ci ildə Azərbaycana təkrar gəlişimdə. - Azərbaycan Yazıçılar İttifaqının məni fəxri üzv seçməsi ilə də fəxr etdiyim kimi..."

Həmin məqalədə Bakıda ilk kitabının çıxmasını xatırlayır: "...yadımda deyil, lakin o zaman bu kitab üçün aldığım pul İstanbulda belə bir kitab üçün aldığım puldan ən azı 500 dəfə çoxdu. İstanbulda kitabımı 835 sətir hesabı il nəşr etdilər və mənə 15 türk lirəsi verdilər, 1500 deyil, 150 deyil, 15 lirə. Kitabımı nəşr edən adam qısa bir zamanda həmin kitabı ikinci dəfə çap etdi, mənə daha 25 lirə verdi".

• • •

1928-ci ildə Türkiyəyə atasına göndərdiyi məktubdan:

"Sevgili babacığım!..Bir həftə sonra bir şeirlər məcmuəm çıxacaq. Kitabın ismi: "Günəşi içənlərin türküsü". Sizə mütləqa bir kaç nüsxəsini göndərərəm.

Buradakı rusca çıxan məcmuələrdə mənim şeirlərimi tərcümə edib nəşr edirlər. Hələ Azərbaycan və bilxassə Bakıda məşhur şair oldum. Dörd-beş məcmuə və kitabda mənim haqqımda mədhiyyələr yazdılar. Rəsmlərimi basdılar. *(O illər gənc Nazımın şəklini məşhur Azərbaycan rəssamı Əzim Əzimzadə çəkib - A.)*

Yadınızdamı babacığım, İstanbulda ilk dəfə olaraq çıxan bir şeirimi bir münəqqid mədhləmiş idi və siz: "Zırla baxalım! Dövlət dəftərinə ismin düşdü" - demişdiniz. Burada artıq "bol-bol zırlayıram".

Bu "zırlama" ifadəsinin məzəli bir tarixçəsi var. Aydın Aydəmir kitabında (3-cü nəşri) şairin bacısı Samiyə xanımın dilindən yazdığı bir əhvalatı gətirir. Samiyə xanım deyir:

"Sanıram 1917-ci ildi. Ağabəyim (böyük qardaşım, yəni Nazım - A.) əlində bir dərgi, sevincle odaya girdi, dərgini babama (atama) uzatdı: həm şeirimi basmışlar, həm də oygu (tərif, öymək) yazmışlar, oxu babacığım - dedi.

Babam şeiri oxudu, gülümsəyirdi, xoşlanmış kimiydi. Nə söyləyəcək deyə biz də babama baxmaqdaydıq. - Bax Nazım - dedi babam - sənə Nəsrəddin Xocadan bir fikrə (burda anekdot) danışım. Xoca birindən borc para almış. Zamanı gəlincə ödəyəcəkmiş.

Ödəyə bilməyib. Alacaqlı qaziyə şikayət edib. Xocanın evinə məmurlar gəlir, evdə nə var, nə yox, başlamışlar yazmağa... Qab-qacaq, yorğan-döşək, nə varsa... "Başqa bir şeyin varmı yazılacaq" - demişlər Xocaya. Xoca da: "Tamam-demiş - mən fağırın nəyi varsa ortada. Hamısını da yazdınız".

Tam o sırada axurdan eşşək anqırdı. Məmurlar:

- Xoca - demişlər, - bu anqıranı yazdırmadın ha". Xoca axura tərəf boynunu uzadaraq: - Zırla, eşşək, - demiş - sənin də adın dövlət dəftərinə düşdü..."

* * *

Nazımın təbiətinə xas olan təvəzzö Bakıdakı yaradıcılıq uğurları haqqında atasına verdiyi məlumatı da zarafat pərdəsinə bükür, "zırlamasından" yazır. Amma həqiqətən də Nazım yaradıcılığının bu dövründə onun həyatında Bakının, bu şəhərin ədəbi mühitinin rolunu layiqincə qiymətləndirmək lazımdır. Şairin həm 20-ci, həm də 50-ci illərdən sonra Azəbaycanla bağlı şeirlərini, 50-60-cı illərin məqalələrini xatırlamaq yetərlidir. Bu sıradan "Neftə doğru"(1927), "Xəzər dənizi" (1928), "Qapalı dəniz", "Bayramoğlu" (1928), "Otuz il sonra"(1957), "Mikayıl Rəfiliyə ağı", "Səməd Vurğuna" (1957), "Gecələyin Bakı" (1960) ən gözəl şeirlərindəndir. Azərbaycanla, onun ədəbiyyatı, sənəti, ayrı-ayrı sənətkarları haqqında məqalələri isə 50-ci illərdən sonra yazdı.

* * *

20-ci illərin sonunda Nazım Hikmətin Azəri poeziyasına təsirini vurğulayanlar tamamilə haqlıdırlar və mən də yazımın qarşıdakı səhifələrində bu barədə bəhs edəcəyəm. Amma Azərbaycanın, Bakının Nazımın yetişməsində, şair kimi özünü təsdiq etməsində önəmli yerindən, nə yazıq ki, yetərincə danışılmır. Özəlliklə Türkiyədə.

Nazım atasına məktubda "burda Bakıda mənim haqqımda mədhiyyələr çıxar" deyəndə bu mədhiyyə anlayışında bir mənfi çalar yox idi, sadəcə olaraq təqdir olunduğunu bildirirdi. O illər Azəbaycan mətbuatında tənqidçilərdən Hənəfi Zeynallının, Mustafa Quliyevin, Teymur Hüseynovun (nə yazıq ki, üçü də 37-ci il repressiyasının qurbanı oldu) gənc Nazımın yaradıcılığını təqdir və təhlil edən məqalələri çıxırdı. Bu yazılar arasında Əli Nazımın "Günəşi içirik...günəşlənirik" adlı məqaləsi xüsusi çəkiyə malikdir. Əli Nazım o dövrün görkəmli Azəbaycan ədəbiyyatçısı və tənqidçisi idi. Bir müddət Türkiyədə təhsil almışdı, 37-ci ilin Stalin repressiyasının qurbanı oldu.

"Günəşi içirik ... günəşlənirik" məqaləsi bəlkə də Nazım Hikmət yaradıcılığı haqqında ümumən ilk ciddi yazılardandır. Məqalədə dövrün müəyyən terminrolocisi görünürsə - vulqar-sosioloji ifadələrə və anlayışlara yer verilibsə də - önəmli cəhət şairin yaradıcılığının ədəbiyyatşünaslıq mövqeyindən araşdırılması və dəyərəndirilməsidir. Azərbaycan tənqidçisi Nazımın yaradıcılığının hələ lap erkən çağlarında şairin dürüst qiymətini verə bilmiş, onun parlaq gələcəyinə qəti inamını ifadə etmişdi: "Qəribədir ki, Kamal Türkiyəsi öz ədəbiyyatını yaratmadan Türkiyə proletar sinfi Nazım Hikmət kimi yüksək bir şairi meydana çıxardı.

Azərbaycan ədəbiyyatına Nazım Hikmətin necə girdiyi bu illərdə gözümüzün qarşısında oldu. Gənc qızıl qələmlər proletar ədəbiyyatının ilk qırlanqıçları sifəti ilə ortaya çıxarkən Nazım Hikmət bizim imdadımıza yetişdi. Atəşin şeirlərini "Maarif və mədəniyyət" səhifələrindən yağdıraraq köhnə ədəbiyyatı modalıqdan çıxardı və yeni ədəbiyyatın başında durdu. Bu surətlə Türkiyə proletar şairi Nazım Hikmət Azərbaycan proletar sinfinin və inqilabçı gəncliyinin də malı oldu. Həm Türkiyədə inqilabı, həm də bizdəki quruluşu tərənnüm etdi".

Dövrün damğasını daşıyan "proletar sinfi", "inqilab" kimi istilahlarını bir yana qoysaq, Əli Nazımın qənaətini qəbul etmək olar. Doğrudan da, Nazım Hikmət o illərdə həm Türkiyə, həm Azərbaycan ədəbiyyatında yeni səhifə açan şair idi. O illər Azərbaycanda sərbəst şeirin təşəkkülü də əsasən Nazımın adıyla bağlıdır.

"Əsasən" deyirəm çünki, tutalım, M.Rəfilinin sərbəst şeirə aid məqalələrində Amerika şairi Uolt Uitmenin, Belçika şairi Emil Verxarnın, rus şairi Vladimir Mayakovskinin təcrübələrindən də bəhs olunur.

20-ci illərdə Azəbaycanda sərbəst şeir yazanlar sırasında Mikayıl Rəfilini, Süleyman Rüstəmi, daha sonralar Səməd Vurğunu, Mikayıl Müşfiqi, Rəsul Rzanı görürük. Mikayıl Müşfiq 37-ci ildə 28 yaşındaykən Stalin repressiyasının qurbanı oldu, güllələndi. Mikayıl Rəfili şeirdən uzaqlaşdı, Nazım demiş "professor oldu". Süleyman Rüstəm və Səməd

Vurğun sonrakı illərdə şah əsərlərini heca və əruz vəznində yaratdılar. Rəsul Rzanın heca vəznində bir çox şeirləri varsa da, ömrünün sonuna qədər sərbəst vəznə sadiq qaldı, ta 60-cı illərdə yeni nəsil şairləri ədəbiyyata gələnə qədər bu vəzni Azərbaycanda, demək olar ki, təkbaşına yaşatdı. Rəsul Rzanın öz etirafına görə, dostlar arasında lap gənc yaşlarından ayaması da "sərbəst", yaxud "antiqafiyə" imiş.

Nazım Hikmət 20-ci illərdə Bakıya gələrkən nə Səməd Vurğunla, nə də Rəsul Rzayla tanış olub.

1929-cu ildə Səməd Vurğun N.Hikmətin şeiriylə həmahəng səslənən "Hərəkət" şeirini yazır və bu şeiri Nazıma həsr edir:

Hərəkət!
Hərəkət!
Bu gün damarlarımı dolaşan
bu qan

Heç də dünkünə bənzəmir, inan!
Fəqət mən yenə
Enərək gecənin dərinliyinə
Hər gün dolaşdım ucsuz-bucaqsız,
Odsuz-ocaqsız,
Tikanlı çöllərin bir yolçusuyam.
Eşit ey!
Aradığım şey
Artıq nə eşqdir və nə də hijran.
Bu hiss, həyəcan
Qəlbimdən gəlmədi, fikrimdən doğdu
Hərəkət!
Hərəkət!

Amma o illər Nazımın bu şeirdən də xəbəri olmadı, çünki 57-ci ildə Bakıya gələrkən qatarda yazırdı:

Bu yoldan otuz il öncə də keçdim...
Azərbaycan şeiri vardı yenə,
Amma Səmədinkilər yoxdu

- deyir.

Səməd Vurğun Nazımın Bakıya bu gəlişindən bir il əvvəl - 1956-cı ildə rəhmətə getmişdi. Amma xoşbəxtlikdən, Moskvada tanış ola bilmişdilər.

Bakıda, atamgildə olarkən Səməd Vurğunla Moskvada tanış olmaları haqqında söhbətini xatırlayıram. Hansısa restoranda ("Moskva", yaxud "Ədəbiyyatçılar evi"-yadımda qalmayıb- A.) nahar edərkən birdən xidmətçilər Nazımın masasına cürbəcür içkilər, meyməzələr daşımağa başlayıblar. Şair xeyli təəccüb qalıb. Ofisiant deyib: - Bunları Azərbaycan şairi Səməd Vurğun göndərib. Az sonra Səməd Vurğun özü də masaya yanaşıb, tanış olublar.

Əkbər Babayev N.Hikmət haqqında kitabında Səməd Vurğunla bağlı bir epizoddan da danışır. Nazım ömrünün yaşlı çağında gənclik illərindəki bəzi səhv düşüncələrini etiraf edirmiş: "Proletar şairi eşq şeiri yazamaz - dedik, Təbiəti və insanı unutduq. Biz onları özümüzün yaradacağımız ədəbiyyatda çürütməliydik."

N.Hikmətin bu etirafında bir məqam çox vacibdir - proletar məfkurəsinə tapınanların təbiəti və insanı unutmaları fikri. Maraqlıdır ki, bunu aydın dərk edə-edə Nazım hələ də, lap son illərinə qədər fitri istedadıyla kəşf etdiyi ən poetik obrazlarına belə müəyyən dərəcədə o köhnə baxışları mövqeyindən tənqidi yanaşırdı. Əkbər Babayev bu barədə yazır:

"Bir dəfə Nazım Hikmət Azərbaycan şairi Səməd Vurğuna "Mən sənə aşiq olmaqla məşğulam" şeirini oxudu.

Nazım Hikmət şeiri oxuyub bitirəndən sonra Səməd Vurğun balıqçı toruna balıqların və ulduzların düşməsi haqqında misraları bir də oxumasını xahiş etdi.

Səməd Vurğun gedəndən sonra Nazım Hikmət mənə dedi: - Qəribədir, hər şeydən artıq şeirdə Səməd bu misraları bəyəndi. Amma onlar ən zəif misralardır. Belə şeirləri hamı yaza bilər. Bax, mən ömrüm boyu bundan qorxmuşam. Şeir hər hansı gözəçarpan fəndlərsiz təsir etməlidir. Bu gözəl qadın ayaqlarında nazik, şəffaf, kapron corab kimidir.

O, qadın ayaqlarının gözəlliyini göstərir, amma özü görünmür. Amma Səməd bu corabı gördü, deməli, mən hardasa səhv etmişəm".

Məncə, Nazım Hikmət doğrudan da səhv edirdi, amma bu sətirləri yazanda yox, onları zəif sayanda. Bu qiyabi mübahisədə haqlı, şübhəsiz, Səməd Vurğun idi. "Kapron corab" - filan məsələsi bir yana dursun, həmin misralar həqiqətən də şeirin ən yaddaqalan obrazlarındandır və Səməd Vurğun da şair fəhmiylə bunu dərhal tutub. O da ilgincdir ki, bu obrazı zəif saysa da, buna bənzər təşbehdən Nazım başqa bir şeirində istifadə edib:

...düşdü ömrümün bir parçası Sena irmağına Sen Mişel körpüsündən
ömrümün bir parçası müsyo Düponun toruna düşəcək bir sabah hava işıqlananda
müsyo Düpon çəkib çıxaraxaq onu sudan Parisin mavi surətiylə birlikdə və heç bir şeyə bənzətməyəcək ömrümün bir parçasını nə balığa, nə papuç əsgisinə
atacaq onu müsyo Düpon geriyə Parisin surətiylə birlikdə surət əsgi yerində qalacaq
Sen irmağıyla axacaq ömrümün bir parçası böyük məzarlığına irmaqların

Fransız şairi Giyom Apollinerin misraları da yada düşür:

Mirabo körpüsünün altından Sena axır
aramla axır-axır,
sevgimizi aparır

(Apollinerin də anası polşalı idi, amma buna görə onu fransız şairi saymamaq heç kəsin ağlına gəlmir).

XX əsrin başqa bir böyük sənətkarını - Vladimir Mayakovskini də xatırladım. Nazımın zahirən gözə çarpan obrazlara tənqidi yanaşması rus şairinin buna bənzər fikrini və davranışını yada salır. Mayakovskinin belə misraları var:

Я хочу быт понят
моей страной
А не буду понят
Што ж
По родной стране пройду
строной
Как проходит
Косой дожд

(İstərəm vətənim anlasın məni
Əgər anlamasa,
neyləyək,
nə qəm.
Çəpəki, göndələn yağışlar kimi
Yurdumun yanından
ötüb keçərəm).

(Tərcümə mənimdir - A.)

Bu acı etiraf misralarını Mayakovski özü şeirindən çıxarıb atmış, hətta onlar haqqında belə bir amansız hökm də vermişdi: "Sızıldayan misraları yaratmaq çətin deyil, o ürəyi sözlərin cilalanmasıyla deyil, ah-ufla qıcıqlandırır, bu sətirlərin romans naz-qəmzəsinə baxmayaraq (oxucular dəsmal çıxarıb ağlayır), mən bu qəşəng, amma yağışda islanmış sətirləri şeirimdən çıxarıb atdım".

Çox nahaq yerə. Yəni Mayakovski kimi ağıllı bir sənətkar bu misraları "Mosselpromun" reklamına həsr etdiyi sətirlərdən daha aşağımı sayırdı? Söhbət ondan getmir ki, böyük şairlər də - məsələn, elə Mayakovski, Nazım Hikmət - bəzən öz dəyərli tapıntılarının qədrini lazımınca bilmirlər. Söhbət ondan gedir ki, hətta bu səviyyəli sənətkarların da nəzəri, ideoloji baxışları çox vaxt onların poetik varlığıyla, istedadlarının həqiqi bəlirləri ilə toqquşur, qarşı-qarşıya durur. Xoşbəxtlikdən, əksər hallarda poetik fəhm quru nəzəriyyələri üstələyir, amma bədbəxtlikdən ara-sıra əksinə də olur.

* * *

1957-ci ildə Nazım Hikmət Bakıya gələrkən Səməd Vurğun artıq bir il idi rəhmətə getmişdi, amma şair hər yerdə onun söz-söhbətini eşidirdi. "Xalqın malı olan sənət" məqaləsində yazırdı:

"Burada mən hara getdimsə, Səmədə rast gəldim. Hər şəhərdə, hər kənddə, hər məktəbdə, hər klubda, neft buruqlarının yanında, pambıq tarlalarında, hər evdə Səmədlə üz-üzə gəldim. Hər süfrədə qədəhimi onun qədəhi ilə toqquşdurdum. Hər nar, hər üzüm salxımını Səmədlə bölüşdürdüm. Xalqla görüşlərimdə Süleyman Rüstəmlə, Mehdi Hüseynlə, Rəsul Rza ilə birlikdə onların yanında Səməd də mənə bu ağıllı, həm də çox ağıllı, çox işıqlı, bir az da məsum gözləri ilə gülümsədi..."

"Azərbaycan mədəniyyəti barədə düşüncələr" məqaləsində də Səməd Vurğunu yada salır:

"Mənə elə gəlir ki, Azərbaycanda Səməd Vurğunun adını eşitməmiş, Səmədin şeirini oxumamış, onun şeirlərinə qulaq asmamış bir insan tapmaq mümkün deyil. Səməd necə də xoşbəxtdir."

Bakıya bu gəlişində Nazım Səməd Vurğunun evini ziyarət etmiş (o vaxt hələ muzey deyildi), oğlu, çox istedadlı nasir Yusif Səmədoğlunun toy məclisində iştirak etmişdi.

Nəhayət şəhrinə gələ bildim,
Amma gec qaldım Səməd,
Görüşmədik,
Bir ölüm boyu gec qaldım
Teybdəki (maqnitofon lentindəki) səsini
Dinləmək istəmədim Səməd,
Ölülərin büsbütün ölmədən
Rəsmlərinə baxamam.
Amma gün gələcək,
Səni də səndən büsbütün ayıracağam Səməd.
Sayğılı xatirələr dünyasına girəcəksən,
Qəbrinə çiçək də qoya biləcəyəm
gözüm yaşarmadan
Sonra gün gələcək
sənin başından keçən iş
mənim də başımdan keçəcək, Səməd.

(1957. 25 fevral Bakı)

* * *

Nazım bu illərdə yazdığı bir neçə məqaləsində Azərbaycan mədəniyyəti haqqında, sənətimizin, ədəbiyyatımızın müxtəlif görkəmli şəxsiyyətləri haqqında dəyərli fikirlər söyləmişdir:

"Azərbaycan mədəniyyətinə bağlıyam. Bu, yalnız Sovet Azərbaycan mədəniyyətinə deyil, inqilabdan əvvəlki Azərbaycan mədəniyyətinə də aiddir. Məsələn, "Dədə Qorqud" bir Azərbaycan yazıçısı üçün də ilk böyük abidədir, mənim üçün də! "Koroğlu" həm Azərbaycanın xalq qəhrəmanıdır, həm də mənim... Füzulini mən də şeirimizin böyük klassiklərindən sayıram, Azərbaycan şairi də... Başqa bir misal... Sabir Azərbaycan ədəbiyyatının ilk realist, xalqçı satiriki, heyranı olduğum usta, mənim də ənənələrimin içində böyük bir yer tutur. Üzeyir Hacıbəyovun musiqisi mənə öz musiqimiz kimi yaxındır. Azərbaycan aşıqları əgər bizim Şərq ellərimizi dolaşa bilsəydilər, kəndlilərimiz onları öz aşıqları kimi dinləyərdi...

Azərbaycan operasının... klassik əsərləri var. Bu əsərlərin başında Ü.Hacıbəyovun "Koroğlu" əsəri gəlir ("Azəbaycan mədəniyyəti haqqında düşüncələr").

"Tarixi yadımdan çıxıb, bundan bir neçə il əvvəl İstanbulda bir dostun evində yığışmışdıq. Radioda Bakını axtarırdıq. Bakı dalğasını tutduq, gözəl bir musiqi verirdilər. O günə qədər bənzərini eşitmədiyim bir musiqi çalındı, gözəl bir səs Azərbaycanca oxumağa başladı. Üreklərimiz az qala yuvasından uçacaqdı. Bunun nə qədər sürdüyü yadımda deyil. Diktor "Koroğlu" operasından bir ariya dinlədiyimizi xəbər verdi. Oxuyan Bülbül idi. İlk böyük Azərbaycan operasını, Üzeyirin şah əsərini mən ilk dəfə belə dinlədim. İndi həmin vaxtdan neçə il sonra Bakıda, "Koroğlu" tamaşasına baxdım, Bülbülün oyununu da gördüm".

("Xalqın malı olan sənət")

Məqalələrində Nazım Hikmət qeyd edir ki, Üzeyir bəyin "Arşın mal alan"ı və "Məşədi İbad"ı yalnız Azərbaycanın deyil, dünyanın ən gözəl musiqili komediyalarındandır.

"Azərbaycan Opera Teatrında Qara Qarayevin "Yeddi gözəl" baletinə də baxdım. Onun da musiqisini əvvəllər eşitmişdim. Bu məncə, yalnız Sovet İttifaqında deyil, bütün

dünyada ən gözəl balet musiqilərindən biridir. Fikrət Əmirovun "Sevil" operasına da böyük zövqlə qulaq asdım" **("Xalqın malı olan sənət").**

Nazımın Azərbaycan musiqisinə dərin marağı və heyranlığı, bu musiqi haqqında dəqiq fikirləri onun gündəliklərində də əks olunmuşdur: Azər musiqisində üç qol gəlişir. Birinin ruhu Azər, amma şəkli yüzdə yüz avropalı. Bunun başında Qara Qarayev var. Dahiliyə yaxın, bəlkə də dahi, kim bilir, bir bəstəkar. İkinci qol Azər biçiminin avropalıca işlənişi. Bunun başında Fikrət Əmirdir indi. Çox dəyərli kişi (şəxs). Sonra üçüncü qol: Biçimdə, ruhda düpbədüz Azər. Bu da ikiyə ayrılır - köy (kəndli) və şəhər xalq havaları. Bizimkilərə çox bənzər. Hələ aşıqlar da həmən-həmən eyni. Biçim baxımından Azəri musiqisində İran etgisi (təsiri) böyük. Bizimkində isə ərəb və Bizans (təsiri). Qaranın iki baletini seyr etdim. Biri "Yeddi gözəl", ötəkisi "İldırımlı yollarla". Xariqə, Fikrətin bir operasını seyr etdim.

"Sevil". Pək gözəl, Modern Azər musiqisinin atası rəhmətli Üzeyir. "Koroğlu" operası dahiliyə çatır.

Təbii ki, Nazım Hikmətin Azərbaycanla bağlı məqalələrində ədəbiyyat məsələləri önəmli yer tutur.

Bakıda və Moskvada Mirzə Fətəli Axundzadənin 150 illiyi yubileyində Nazım geniş çıxışlar etdi. Aqşın Babayev şairin Bakıdakı çıxışını bütünlüklə "Azərbaycan - Nazım Hikmət dünyasında" adlı məqaləsində vermişdir. Həmin çıxışdan bəzi parçalar: "Axundzadə yalnız Azərbaycanın deyil, yalnız Doğunun - Şərqin, Asiyanın və Afrikanın deyil, bütün insanlığın malıdır və bütün insanlığın öyünəcəyi çox böyük bir yazar, çox böyük bir mütəfəkkirdir... Biz bu gün Türkiyədə Axundovun fikirlərini, düşüncələrini xalqı irticaya qarşı səfərbər etmək üçün bir silah olaraq kullanırıq (istifadə edirik). Axundovun yanı sıra Molla Nəsrəddin bizdə döyüşür türk xalqı üçün. Molla Nəsrəddinin yanı sıra bizdə Sabir döyüşür, türk xalqının qurtuluşu və mədəniyyəti üçün. Bəlkə adını duyduğunuz bizim indi irəlici böyük bir mühərririmiz var. Adı Əziz Nesin...böyük həcvlər yazır, həcviyyəçidir. İstanbulda bir dərgi çıxarır. Bu sayının orta səhifəsində azərbaycancası bir yanda, o biri yanda türkcəsi - "Qorxuram" şeiri. "Harda müsəlman görürəm qorxuram" şeirini çap etmişdi. Eyni sayda "Molla Nəsrəddin"in vaxtilə yapdığı iş var burda. Əziz Nesin deyir ki, "Sabir sağ olsun, bizə çox böyük kömək edir, yardım edir və bundan sonra hər bir sayımızda onun bir şeirini qoyacağıq."

Cəfər Cabbarlının "Od gəlini" əsərini, Səməd Vurğunun "Vaqif" tarixi-qəhrəmanlıq dramının 600-cü tamaşasını seyr edərkən, Filarmoniyada aşıqları və muğam xanəndələrini dinləyərkən Nazım bu salonların ağzına qədər dolu olmasından fərəhlə danışır, "muğamat musiqisi təkcə Azərbaycanın, təkcə Şərq ölkələrinin deyil, məncə, bütün dünya musiqi xəzinəsinin ən dəyərli inciləridir" - deyir. Əbdülhaq Hamid, Tofiq Fikrət kimi Türkiyə şairlərinin Azərbaycan ədəbiyyatına təsirlərindən də qürurla söz açır.

Nazım Hikmət çağdaş Azərbaycan poeziyasına istinad edərək, ümumiyyətlə, şeir haqqında dəyərli fikirlər söyləyir: "Bir fransız şairi, şeirdə hər şeydən əvvəl musiqi olmalıdır - demişdir. Yəni şeirin əsli, onun özülü, şeiri şeir edən ahəngdir, demək istəmişdir. Mən şairi quşa oxşadan adamlar da tanıyıram. Əlbəttə, şeirin ünsürlərinin biri də ahəngdir, musiqidir. Əlbəttə, incəsənətin bütün qolları bir-birinə təsir edir, amma hər qolun öz xüsusiyyəti var, öz dili var. Yəni demək istəyirəm ki, məncə, nə şeir hər şeydən əvvəl musiqidir, nə də şair bir civildəyən quşdur. Şeir hər şeydən əvvəl bir söz sənətidir, saz sənəti deyildir. Amma sazla sözün əl-ələ verdikləri də olur. Azərbaycan xalq musiqisində Aşıq Ələsgərin şeirləri əl-ələ vermənin ən gözəl nümunələrini yaratmışdır.

("Xalqın malı olan sənət").

"Azərbaycan mədəniyyəti barədə düşüncələr" məqaləsində fikirlərini davam etdirərək çox mühüm nəticələrə gəlir: "Əruz, heca vəzni, sərbəst vəzn...Azərbaycan şairi məzmuna uyğun şəkil tapmaq üçün bütün vəznlərdən istifadə edir. Qafiyə məsələsində də eynilə, Azərbaycan şairləri həm Füzuli, həm də aşıq poeziyası ənənələrinə əsaslanır. Bununla əlaqədar bir sözum var: ənənəyə əsaslanmaq başqa, təqlid etmək başqa. Mənim fikrimcə, bu gün nə Füzulini, nə də aşıq poeziyasını təqlid edə bilərik. Bir sözlə, təqlid olan yerdə sənət olmaz. Bundan başqa, Füzuli kimi yazmaq üçün Füzuli dövründə yaşamaq lazımdır, Aşıq Ələsgər kimi yazmaq üçünsə, onun dövründə, o dövr şəraitində yaşamaq lazımdır".

Nazım Hikmətin bu məqalələrindən belə geniş sitatlar gətirməyimin bir səbəbi də odur ki, həmin yazılar nədənsə şairin nə Türkiyədə, nə Bolqarıstanda, nə də Rusiyada nəşr olunmuş kitablarına daxil edilib. Türkiyədə hətta nazımşünas mütəxəssislərin də onlardan xəbəri yoxdur. "Xalqın malı olan sənət" məqaləsindən daha bir sitat:

"Azərbaycan musiqisi ulu bi çinar kimidir, kökləri Azərbaycan torpağının, xalqının dərinliklərindədir, gövdəsi dostluq, nikbinlik, ümid kimi sağlam, yekparədir. Budaqları bir-birindən sıx, qol-qol, ayrı-ayrı tərəflərdən eyni göy üzünə yüksəlir. Eyni sözü Azəbaycan sovet ədəbiyyatı üçün də demək mümkündür. Azərbaycan sovet şeirinin təməlini qoymuş Süleyman Rüstəmlə Səməd Vurğunun, Rəsul Rzanın arasında kökün dərinliklərə yayılması, gövdənin birliyi, yekparəliyi baxımından birlik, vahidlik, budaqların eyni göy üzünə ayrı-ayrı tərəflərdən uzanması baxımından isə, bir ayrılıq vardır. Bir-birilərinə həm oxşayırlar, həm də oxşamırlar. Mirzə İbrahimovla Hüseyn Mehdinin nəsri haqqında, ustad Cəfər Cabbarlının və İlyas Əfəndiyevin dramaturgiyası haqqında da eyni şeyləri söyləmək mümkündür."

• • •

Əvvəllərdə yazdığım kimi, Nazım 27-ci ildə Bakıya gələrkən Rəsul Rza və Nigar Rəfibəyli ilə tanış olmamışdı. Amma gözümü açandan evimizdə onun adının hörmətlə çəkildiyinin, şeirlərinin səsləndiyinin şahidi olmuşam.

Düşünən beyni Moskvaysa ölkəmizin
Tazə qan dağıdan qəlbidir Bakı

- sətirləri o vaxtdan hafizəmə həkk olunub. Atam Nazımın "mən ora (Türkiyəyə) dönməliyəm, orda qırmızı köynəyimlə görünməliyəm" misrasını təkrar edərkən riqqətlənirdi. Şairin həbsdə olduğunu nəzərdə tutaraq: "Yazıq, yaman göründü qırmızı köynəyində" - deyirdi.

Nazım Hikmət aclıq elan edəndə radio, mətbuat vasitəsilə onunla həmrəy olduğunu bildirənlərdən biri də Rəsul Rza idi. Elə o illərdə Nazımın anasına həsr olunmuş "Şairin anası" şeirini yazmışdı.

Mən səni görmədim, möhtərəm qadın,
Doğma qardaşımdır o mərd evladın

Qiyabi olaraq doğma qardaşı saydığı Nazım Hikmətlə atam əllinci illərdə, şairin SSRİ-yə gəlişindən sonra görüşdülər və qısa bir vaxt ərzində çox yaxın dost oldular.

Rəsul Rza və Nigar xanım onunla ilk dəfə Tiflisdə, hansısa ədəbi tədbirdə tanış olmuşdular. Anamdan Nazım haqqında təəssüratını soruşdum. Əvvəllərdə yazdığım kimi, Nigar Rəfibəyli Nazım şeirinin heyranı idi, bir çox şeirlərini əzbər bilirdi, mənə:—Bir qədər soyuq adamdır - dedi.- Səməd məclislərdə daha çılğın olardı. Anam onu da xatırlayırdı ki, haçansa, elə Tbilisidə bir ədəbi ziyafətdə məşhur gürcü şairi Simon Çikovani tamada seçilərkən: - bu tərəfdən də mənim vassalım Səməd Vurğun olsun - demişdi. Səməd dərhal ayağa durub: - Azerbaydcan nekoqda ne bıl vassalom (Azərbaycan heç vaxt vassal olmayıb) - deyə bütün məclisi ələ aldı".

Rəsul Rzayla Nazım Hikməti yaxınlaşdıran, çox məhrəm dost edən yaradıcılıq prinsipləri, sənətə, poeziyaya, yeniliyə baxışları idi. Rəsul Rzanın Nazım yaradıcılığına münasibəti şairin ölümündən sonra ona həsr etdiyi bir neçə məqalədə əks olunub, onun böyük və təkrarsız şəxsiyyətinə sevgisi, dostunun ölümündən sonra duyduğu kədər, nisgil isə, həm məqalələrində, həm də şairlə bağlı şeirlərində, ayrı-ayrı misralarında duyulur.. Məqalələrinin biri "Canlı Nazım" adlanır:

"Bir il idi ki, böyük şairin yaralı qəlbi susmuşdu, Nazımın Moskvadakı mənzilində onun bir neçə yaxın dostu ilə oturub Nazımın şeirlərini oxuyur, ondan danışırdıq. Bu vaxt bir kağız qovluq gətirdilər. Yaponiyadan idi. Qovluğun içində bir məktub və rəngli kağızdan kəsilib ipək sapa düzülmüş durna ülgüləri vardı. Bunları tokiolu uşaqlar - "Min durna" klubunun üzvləri göndərmişdilər. Hirosima faciəsindən sonra Yaponiyada belə klublar yaradılmışdı. Bu klubun üzvləri rəmzi olaraq "Min durna" adı ilə insanlığı atom fəlakətinə qarşı mübarizə aparmağa çağırırlar. Məktubun mənə ən çox təsir edən cəhəti bu deyildi. İnsanlığı yeni fəlakətlərdən qorumağa çağıran yüzlərlə məktub indi də hər gün görkəmli sənət, elm xadimlərinin adına, redaksiyalara gəlir. Maraqlı orası idi ki, yaponiyalı uşaqlar Nazıma "Əziz Nazım, sən bilirsən ki, biz ilk atom bombasının dəhşətinə hədəf olmuş ölkənin uşaqlarıyıq" - deyə yazırdılar. Bu məktub canlı, diri Nazıma yazılmışdı. Məktubdan aydın görünürdü ki, onlar Nazımın bir il əvvəl vəfat etdiyini bilirlər, lakin tokiolu balalar varlığın bu amansız hökmünü qəbul etmək istəmirdilər.

Onlar yazırdılar: "Böyük şair, sənin hirosimalı Ölü Çocuq - yəni ölü qız haqqındakı şeirini heç bir şair təkrar yazmalı olmasın deyə, biz də mübarizə edirik. Bu mübarizədə sən də bizim sıramızdasan, bizim dəstəbaşımızsan".

Əgər Nazım Hikmət - əsrimizin böyük sənətkarı sağ olsaydı, bu gün onun 65 yaşını bayram etdiyimizi gözləri ilə görərdi. Nazım yoxdur. Lakin bu gün onun ölməz sənətinin bayramıdır. Yaponiyalı balalar, "Min durna"nın üzvləri haqlıdırlar, Nazım Hikmət haqqın-

da həmişə sıramızda olan mübariz, humanist, novator bir şairdən, canlı bir insandan danışan kimi danışmalıyıq. Mən dünən Moskvaya vurduğum teleqramı Nazım Hikmətin adına göndərdim və yazdım ki, sənin yaşayıb-yaratdığın insan yuvasına salam göndərir, təzim edirəm, Nazım, böyük sənətkar, dost, qardaş!"

Nazım Hikmət də Rəsul Rza yaradıcılığına dərin hörmətlə və rəğbətlə yanaşırdı. Şairin tədqiqatçısı, filologiya elmləri doktoru, yazıçı və alim Aqşın Babayev yazır:

*Nazımla Rəsul Rzanın "ruh yapısı", demək olar ki, eyni idi. Amma bu eyniyyət bənzərlik deyil. Bu eyniyyət bir-birinə dərin rəğbət bəsləyən, həyata baxışları, duyğuları ilə bir-birinə bağlı olan insanların cazibə qüvvəsi idi... Nazım Hikmətin Rəsul Rza haqqında dediyi bu sözləri heç zaman unutmaram: "Siz xoşbəxt xalqsınız ki, sabahın şairi olan Rəsul Rza kimi sənətkarınız var. Xalqınız yaşadıqca Rəsul Rza da yaşayacaq" **(N.Hikmətlə şəxsi söhbətindən, Moskva, 1961)***

Nazım Hikmətin Rəsul Rzaya həsr etdiyi üç məqaləsi Moskva mətbuatında - "İzvestiya" və "Literaturnaya qazeta"da dərc olunmuşdu, onlardan biri sonralar Türkiyədə "Dialoq Avrasiya" dərgisində də çap edildi.

"Bugünkü poeziya ilə şərab arasında nəsə bir oxşarlıq var. Belə ki, şərab nə qədər təzədirsə, o qədər təravətlidir, yaşı çoxaldıqca, köhnəldikcə bir o qədər tündləşir. Bunu tamamilə Azərbaycan şairi Rəsul Rzanın şeirlərinə aid etmək olar, Mən Rəsul Rzanın 1958-ci ildə çap elədiyi məcmuəsini oxumuşam. Burada 1931-ci ildə yazılmış şeirlər var, məsələn, "Bolşevik yazı". Bu şeirlər indiyəcən öz təravətini itirməyib. İllər keçdikcə onlar yaşlanıb böyüyür, ancaq köhnəlmirlər. Kitabdakı son şeir 1956-cı ildə yazılıb, ancaq mən Rəsul Rzanın lap sonra yazılmış təzə, canlı şeirlərini oxumuşam. İnanıram ki, bunlardan çoxu 1975-ci ildə də beləcə təravətli qalacaq. Ötən il Rəsul Rza İraqa getmişdi. Qayıdanda əlində bir kitab gördüm. Elə bil şair əlində öz ürəyini aparırdı, Azərbaycancaya çox, lap çox yaxın olan bu şeirlər İraqda yaşayan türkmənlərin şeirləri idi.

...Rəsul Rza xalq və klassik ədəbiyyata böyük pərəstiş edən bənzərsiz bir şair, Azərbaycan poeziyasının novatorlarından biridir. Axı, novatorluq inkar etməkdən deyil, ədəbi irsdən bəhrələnməkdən başlayır, Rəsul Rza bugünkü Azərbaycan poeziyasına şəhərin danışıq dilini, bu dilin ahəngini gətirib. Bu baxımdan Rəsul Rza Sabir gələnəyinin - ənənəsinin davamçısıdır. Məgər Sabir yaşadığı çağın poeziyasına şəhərli dilini gətirməyib? Yeri gəlmişkən, demək lazımdır ki, Rəsul Rza yaradıcılığı Sabirdən qeyri-adi şəkildə faydalanmışdır. Sabir poeziyasındakı satirik elementlər, polemik kəsginlik, məntiq üstündə satira və polemika yaratmaq bacarığı, şeir texnikası Rəsul Rza poeziyasına təbii, orqanik bir şəkildə təsir edib,.. Rəsul Rza şeirin texnikasına bir doqmatik kimi baxmır. O, qafiyəni, ölçünü rədd etmir, ancaq nəzm aləmindəki qayda-qanunları da qəbul etmir. Şeiri ölçülü də yazmaq olar, ölçüsüz də, qafiyəli də, qafiyəsiz də. Bilə-bilə, qəsdən qafiyəsiz yazmaq və qafiyə işlətmək xatirinə qafiyə ilə şeir yazmaq ən böyük formalizmdir.

("Literaturnaya qazeta", may 1960)

"İzvestiya" qəzetində dərc etdirdiyi "Aydındır şeirin dili" məqaləsində Rəsul Rzanın yeni çapdan çıxmış "Qəlbimdə bahar" kitabından söz açan N.Hikmət yazır:

Bu bənzərsiz şeirləri türk dilinə çox-çox yaxın dildə - azəbaycanca oxuyanda səadətə qovuşdum. Rəsul Rza elə şairlərdəndir ki, Azərbaycan deyil, bütün sovet poeziyası ənənəsinə novatorluq gətirib. O, həmişə şeirin dil elementini, ölçü, qafiyə elemetini yeniləşdirir, zənginləşdirir. Özü də təkcə Azərbaycan deyil, bütün sovet poeziyasında. Məzmuna gəldikdə isə, şairin yeni kitabından bir misal gətirmək istəyirəm, "Qızıl gül olmayaydı" poeması şəxsiyyətə pərəstiş dövründə bir insanın faciəli taleyindən bəhs edir... Bu, sovet ədəbiyyatında bu mövzuda ilkin yazılmış əsərlərdən biri olub, mövzu baxımından gərəkli və bizim hamımızı narahat edən məsələdir. Rəsul Rza filosofdur. "İki buruğun söhbəti" şeiri ilk baxışda olduqca sadə və adi görünür. Ancaq ömür haqqında, həyat, gələcək, nəsillər haqqında və onların cavabdehliyi barədə nə qədər gözəl deyilmişdir. Ola bilsin, Rəsul Rzanın şeirlərini bəzi oxucular bəyənməsinlər. Mənim onlara sözüm yoxdur. Şair özü bu oxuculara deyir:

Aydındır şeirin dili
İstəyirsən sevincdən,
İstəyirsən qəmdən yaz.
Elə aydındır bu dil,
Nadan yüz yol oxusun,

Yenə bir şey anlamaz.

("İzvestiya" qəzeti 1963)

N.Hikmətin Rəsul Rza haqqında "İkinci nəfəs" adlı məqaləsindən sətirlər:

"Mən bir şair haqqında danışmaq istəyirəm, Azərbaycan şairi Rəsul Rza haqqında. O da gəncliklə müdrikliyi özündə birləşdirib. Onun yaradıcılığı ilə təxminən 20 ildir, özü ilə 12 ildir tanışam. Rəsul Rza 40 yaşına kimi, sadəcə olaraq yaxşı şair idi. Sov İKP XX qurultayından sonra isə, hər şeiri gənclik ehtirası ilə yazır, sosializm realizmi metodunu cəsarətli axtarışlarla tətbiq edir. İndi, 1959 - cu ildə məndən sovet poeziyası novatorlarının adını soruşsalar, onların arasında Rəsul Rzanın adını da mütləq çəkərdim,.. Mənə elə gəlir ki, Rəsulun bir neçə il Azərbaycan kinematoqrafiya naziri işləməsi də onun yaradıcılıq uğurlarına müsbət təsir göstərmişdir. Kino incəsənətin ən gənc, həyatla canlı təmasla olmaqla həmişə təzələnən növüdür və onunla təmasda olmaq, məncə, şair Rəsul Rzanın novatorluğuna zəmin yaratdı... Rəsul Rza fəlsəfi şeirlər yazmağı sevən şairdir. Sevindiricidir ki, onun fəlsəfəsi poetik obrazlar prizmasından keçir... Azərbaycan klassik və müasir ədəbiyyatı - xalqın əvəzsiz nəğməsidir. Rəsulun səsi bu nəğmənin ən yaxşı keyfiyyətlərini özündə cəmləşdirir".

Hər üç məqalə müəyyən münasibətlə - Rəsul Rzanın 50 illiyi və ya Lenin mükafatına təqdim olunması münasibətilə yazılıb. Amma Nazım italyan jurnalisti Covanni Krino ilə tamamilə başqa mövzularda söhbətində "Realia Sovetika" dərgisində çap edilməndən 24 il sonra Moskvada "Oqonyok" (№10 1987) jurnalında ruscaya tərcüməsi dərc olunanda artıq nə Nazım, nə atam dünyadaydı. Həmin müsahibədə Nazım deyir:

"Bir məsələni də qeyd etmək istərdim, Sovet sənəti haqqında məqalə və monorafiyaları oxuyarkən, bəzən ona diqqət edirəm ki, gənclərin sənətə gətirdikləri əsl novatorluq nümunələri qarışıq düşür. Axı həqiqi yeniliklə saciyyələnən əsərlər tək bir gənclər tərəfindən yaradılanlar deyil. Çox vaxt həqiqi yenilik qırx və əlli yaşlıların qələmindən çıxır. Müharibədən sonrakı birinci onilliyə məxsus ən yaxşı sovet sənət ənənələrinin dirçəlməsində Sovet İttifaqının müxtəlif respublikalarından əlli yaşlı sənətkarlar iştirak edirlər. Azərbaycan şairi Rəsul Rzanı misal gətirə bilərəm. O, şəxsiyyətə pərəstiş illərində Azərbaycan xalqının taleyinə düşən faciələri əks etdirən çox maraqlı bir poemanın müəllifidir. Poemanın baş qəhrəmanı şair özüdür. Rəsul Rzanın yaradıcılığında formal cəhətdən də yeniliklər çoxdur. Yeri gəlmişkən deyim ki, heç də gənc olmayan, amma forma axtarışlarında, məsələn, Yevtuşenkonun elədiklərindən qat-qat maraqlı işlər görən şairlər indi də az deyil".

Nazım Hikmətlə Rəsul Rzanı yaxınlaşdıran yalnız ədəbi və estetik mövqelərinin uyğunluğu deyildi, həm də şəxsiyyət kimi bir-birlərinə etibarları, inamları idi. Atam Nazımın Sovet ölkəsində ən məhrəm dostlarından və ürəyi qızdığı iki-üç nəfərdən biri idi. Bəlkə də heç kəslə bölüşmədiyi nisgilini atamla bölüşmüşdü: "Karderim, buranın hürriyətindənsə, Türkiyənin məhbusxanalarında yenə on beş il yatmağa hazıram".

Atamın dilindən eşitdiyim bu sözləri Rəsul Rzanın Türkiyədə basılan "Çinar ömrü" kitabına yazdığım ön sözdə gətirmişdim. Bu ön sözə istinad edən türkiyəli yazar Bəşir Eyvazoğlu "Zaman" qəzetinin (26 fevral 2000) İstanbul nəşrində "Nazım mubahisəsinə dair" adlı məqalə dərc etdirmişdir. Məqalənin bir yerində deyilir:

"Sanki Nazım Hikmət həqiqətləri görməmiş, olub-bitənlərdən narahatlıq duyub acı çəkməmişmi? Bu suala, 1937-ci il repressiyalarından təsadüf nəticəsində xilas ola bilən azərbaycanlı şair Rəsul Rzanın onun haqqında yazdığı şeirlə cavab verilə bilər:

Anadan olduğu evin
Çılpaq divarlarına həsrət
Peşmançılıq qoxuyan həqiqət
Qürubun şəfəqlərində
yaralı qəlbinə meydan oxuyan
Nazım Hikmət.

Rəsul Rza da, SSRİ-dəki zyalılar kimi ən böyük acını və xəyal qırıqlığını Kommunist Partiyası tərəfindən işlənən ağlaalınmaz cinayətlər Xruşşov tərəfindən 1956-cı ildə ifşa edilənə yaşamışdır. O zaman Nazım dörd ili idi ki, Rusiyada idi. Azərbaycanı da zaman-zaman ziyarət edər və yaxın dostu Rəsul Rza ilə dərdləşərdi. Baş-başa qaldıqlarında dostuna bəzi səmimi etiraflar etmişdir. Böyük bir peşmançılıq içində Rəsul Rzaya: - buranın azadlığındansa, Türkiyənin həbsxanalarında yenə on beş il qalmağa razıyam - demişdir. Rəsul Rza yuxarıdakı misralarında Nazımın bu etirafına yer verməkdədir. Sta-

lin dövründə Türk respublikalarında "Türk" kəlməsini dilə gətirmək, Türkiyə ilə əlaqə yaratmaq, türk dilinin və tarixinin müştərək mənbələrindən danışmaq qadağan idi. Anar isə, atası Rəsul Rzanın "Çinar ömrü" adlı şeir kitabına yazdığı əhatəli giriş sözündə Nazımın Bakıda ən yüksək kürsülərdən "Mən türkəm, siz də türksünüz! Dilimiz bir, ənənələrimiz bir, millətimiz qardaşdır" deməkdən çəkinmədiyini söyləyir. O illərdə Nazım Türkiyə üçün kommunizmin simvolu idisə, Azərbaycan üçün Türkiyənin, türklüyün, türk qardaşlığının, dil birliyimizin simvolu idi. Azərbaycan xalqı və ziyalıları onu sırf bu mənada qavrayır, qarşılayır və bağrına basırdı. Rəsul Rzanın Nazimə sevgisini də, onun üçün yazdığı şeirləri də bu baxımdan qiymətləndirmək gərəkdir".

Bu yazısında Bəşir Ayvazoğlunun gəldiyi nəticəylə mən də tam razıyam. Fikirlərini yekunlaşdıraraq B.Ayvazoğlu yazır:

"Bir zamanlar sağ-sol münaqişəsinin idealları halına gətirilən adları artıq yerli-yerinə qoymaq vaxtı gəlmişdir. Həqiqətləri gizlətməyin heç bir faydası yoxdur, çünki biri bir gün tapıb çıxardar. Unutmamaq lazımdır ki, insan səhvi və savabıyla, zəifliyi və məziyyəti ilə insandır. Başəri mənada mütləq yaxşı və mütləq pis yoxdur, Nazım Hikmət:

Mən təəccüblə baxan tamaşaçısıyam
Alaca qaranlıqda oynadığım dramın

- demişdir".

* * *

Bu kitabın bir cəhətini də vurğulamaq istərdim. Güman edirəm ki, o həm Azərbaycanda, həm də Türkiyədə nəşr olunacaq. Bunu nəzərə alaraq Azərbaycan oxucuları üçün Nazımın Türkiyə həyatına, Türkiyə mətbuatında, Türkiyədə çıxan kitablarda şair haqqında məlumatlara geniş yer verirəm. Bunların çoxu Azərbaycan oxucularının bilmədikləridir. Türkiyə oxucularınınsa Nazımın Azərbaycanla bağlı yazıları, Azəbaycanda onun haqqında yazılanlar, ümumən onun Azərbaycanla əlaqələri barədə məlumatları azdır. Yazımda sitatların bol olmasa bununla bağlıdır. Atamın arxivində Nazımın bir neçə teleqramı, kağızı, tərcümə üçün göndərdiyi şeirlərinin əlyazmaları qorunub. O cümlədən Mikayıl Rəfiliyə həsr etdiyi şeirin əlyazması. Yadımdadır, Nazımın göndərdiyi zərfdə bu yazıdan başqa "Əcaibləşdi havalar", "Masallar masalı" və başqa şeirlər də vardı, atam bunları da, şairin bir çox digər şeirlərini də tezliklə azəri türkcəsinə çevirdi (daha doğrusu, dilimizə uyğunlaşdırdı). Uyğunlaşdırma vacib idi. Çünki, məsələn, Rəfiliyə həsr olunmuş şeirdə "Ağlındamı Mikayıl, amma hanı ağlın yox" ifadəsini eynilə saxlamaq olmazdı. Azərbaycanca bu "Yadındamı Mikayıl...Amma artıq yaddaşın yox" şəklində çevrilmişdi. Bir də şeirin çevirisində iki ifadə fərqliydi. Nazımda "Bir kəmik yığınısan Bakıda bir məzarlıqda" sətirlərini Rəsul Rza "Bakıda qərib bir məzarlıqda" şəklində təqdim edirdi. Bunun da səbəbi vardı. Rəsul Rzanın və bir sıra başqa yazıçılarımızın bütün səylərinə baxmayaraq, Mikayıl Rəfilini Fəxri xiyabanda deyil, adi qəbiristanlıqda dəfn etmişlər, "qərib" sözü də atamın bu etirazına işarə idi. Bir də şeirin sonuna bir əlavə etmişdi. Nazımda şeir belə bitir "Təsəllisiz yaşamağı bacardım, Bacararam təsəllisiz ölməyi də, sənin kimi Rəfili". Atamın çevirisində bu sətirlər belə səslənirdi: Təsəllisiz yaşamağı bacardım, Təsəllisiz ölməyi də bacararam, sənin kimi Rəfili - bədbəxt adam". Atam izah edirdi ki, Rəfili özünə: "Mən - bədbəxt adam deyərdi". "Qızıl gül olmayaydı" poemasıda da Rəsul Rza Rəfilini öz təbiriylə "Bədbəxt adam" adlandırır. Amma Nazım bu iki əlavəylə razılaşmamışdı, nə "qərib məzarlıqla", nə də "bədbəxt adamla".

Nazımı başa düşürəm, "bədbəxt adam" Rəfilinin Azərbaycandakı dostları, tanışları üçün tanış ifadə idi, Nazım üçünsə bu ifadə heç nə demirdi, amma birbaşa qiymət idi ki, şair bunu sevmirdi. "Qərib məzarlıq" ifadəsinə niyə etiraz etdiyini bilmirəm. Hər halda, şeirlər müəllifin istədiyi şəkildə çap olundu. Amma ümumiyyətlə, Nazım şeirlərinin azəricəyə tərcümələrini çox bəyənirdi. Atama yazdığı məktubda qeyd edirdi: "Rəsulcuğum! Sizin dərgidə son şeirlərimi oxudum, çox bəyəndim. Əllərin kədər görməsin".

Bakı televiziyasında çıxışında da "Dostum Rəsulun çevirilərində mənim şeirlərim daha gözəl səslənir - deyə son dərəcədə təvazökar, amma həqiqətə uyğun olmayan sözlər demişdi. Heç bir dildə - hər halda mənim bildiyim dillərdə - nə rusca, nə azərbaycanca - Nazımın şeirləri doğma Türkiyə türkcəsində səsləndiyi kimi gözəl səslənmir.

Teleqramlardan: Rəsul qardaş, yarım yüzilliyini təbrik edirəm, gələcək 50 ildə də gəncliyini itirmə. Qardaşın Nazım Hikmət.

"İki şair evinə bir üçüncü şairdən salam, sevgi."

"Rəsulcuğum! Salam, Sənə Anarla bu qısacıq məktubu yollayıram, Süleymana, Mehdiyə, Mirzəyə də bir neçə sətir yazdım. Onların da məktublarını özlərinə çatdır... Sentyabr ayında Qafqaza gəlmək niyyətindəyik. Sənə teleqram vuracağıq. Bəlkə də imkan olarsa yolçuluğumuzu sənlə birlikdə yaparıq. Anar sənə təfsilatı ilə danışar. Səni, Nigar xanımı, balaca sultanı (bacım Təranəni - A.) qucaqlayıram. Yaxında görüşmək ümidi ilə Nazım Hikmət.

Bu çap olunmuş, ya arxivdə qalmış mətnlərdən başqa canlı xatirələrimi, Nazımla bağlı yaddaşımda yaşayanları, atamdan, anamdan, şairi tanıyanlardan eşitdiklərimi də bu yazımda qələmə alıram.

Canlı Nazım Hikməti ilk dəfə Bakıda, 1957-ci ildə gördüm: televiziya ekranında, universitetdə, çoxlu adamların içində, uzaqdan, evimizdə, lap yaxından. Otuz il sonra yenidən Bakıya Füzuli yubileyinə gəlmişdi, təntənəli gecə Opera və balet teatrında keçirilirdi və TV-lə göstərilirdi. Mən teatra getməmişdim, evdə ekrana baxırdım. Xaricdən gələn qonaqlar içində türkiyəli alim Agah Sırrı Levend də vardı. Ağ saçlı, yaşlı bir adam idi. Çıxış etdi və son dərəcə mələhətli səslə Füzulinin məşhur qəzəlini oxudu. Qəzəldə belə bir beyt də vardı:

Dəmadəm cövrlərdir çəkdiyim birəhm bütlərdən
Bu kafərlər əsiri bi müsəlman olmasın yarəbb.

Sonralar Ənvər Məmmədxanlı gülə-gülə:- qəsdən bu qəzəli oxudu-deyirdi - "bu kafərlər əsiri bi müsəlman olmasın yarəbb" - bizə. Azərbaycana işarə vururdu. Bizik kafərlər əsiri.

Agah Sirri Levendin çıxışını salon gurultulu alqışlarla qarşıladı. O vaxt Bakıda Türkiyə türkcəsində səslənən hər çıxış bitib-tükənməyən alqışlar qazanırdı və bu da moskvalı qonaqları və yeri məmurları xeyli narahat edirdi. Levəndin çıxışına hamı kimi Nazım də ürəkdən əl çalırdı və bu, TV ekranında aydınca görünürdü. Bir neçə natiqdən sonra söz Nazım Hikmətə verildi, şairin elə adı çəkiləndə salonda bir tufan, bir gurultu qopdu ki, gəl görəsən. Nazım da çox gözəl çıxış etdi, məmləkətinin adından Füzuli bayramını salamladı və sözünü bitirəndə əvvəlkindən də sürəkli alqışlar qopdu. Bütün salon əl çalırdı, tək bircə nəfərdən başqa. Rəyasət heyətində Agah Sırrı Levənd gözünü belə qırpmadan donub qalmış kimi oturmuşdu və operatorlar qəsdənmi, ya fərqinə varmadıqlarındanmı, onu iri planda göstərirdilər. Levənd Nazımla heç salamlaşmayıbmış da... Nazım, əlbəttə, pərt olmuşdu, amma özünü o yerə qoymurdu. Təntənəli gecədən bizə gəlmişdilər, amma elə bil atamgil ondan da çox pəjmürdə idilər. Nazım sanki onlara təsəlli verirdi: - Siz nə düşünürsünüz-deyirdi, - əgər siz Türkiyəyə getmiş olsaydınız və bir toplantıda Məmməd Əmin Rəsulzadəyə rast gəlsəydiniz, onunla görüşərdinizmi, ona əl verərdinizmi?

Düz deyirmiş. Xatırladım ki, 50-ci illər idi. O zamankı sovet quruluşuyla o zamanki Türkiyə rejimi bir-birlərinin antipodu olsalar da, bir çox məsələlərdə yaman oxşar idilər. Eyni siyasi dözümsüzlük, eyni qorxu, eyni cür hamıya göz qoymaq, hər hərəkəti, hər sözü izləmək, güdmək və lazımi yerlərə çatdırmaq. Zəkəriyyə Sərtəl xatırlayır ki, Nazımla Varşavada olarkən Türkiyənin məşhur opera solisti Leyla Gəncər də oraya qastrola gəlibmiş. Nazımla Zəkəriyyə bəy onun oynadığı tamaşaya gediblər, amma Nazım Leyla xanımla görüşməyə cəsarət etməyib. Leyla Gəncərimi, özünümü pis vəziyyətdə qoymamaq üçün. Sərtəl isə Gəncərə yanaşıb: - Leyla xanım - deyib - dünən axşam təsadüfən sizi dinlədik.

Köksümüz qabardı, sizi həm öz adımdan, həm də Nazım Hikmətin adından ürəkdən təbrik edirəm.

Leyla xanım çaşıb qalıb: - Kimsiniz əfəndim? - deyib.

- Biz iki qürbət qurbanıyıq xanımfəndi. Vətəndən uzaq və vətən özləmi (həsrəti) içində yaşayan iki türk - Nazım Hikmət və Zəkəriyyə Sərtəl. "Leyla Gəncərin cavabını gözləmədən ayrılıb uzaqlaşdım".

* * *

Universitetin üçüncü kurs tələbəsiydim. Nazım Hikmət müəllimlərlə və tələbələrlə görüşə gəlmişdi. Akt salonu ağzınacan dolu idi. Nazımın çıxışından iki məqam xüsusən yadımda qalıb. Çünki biri o vaxt üçün çox qeyri-adi və təşlükəli səslənən sözlər idi. Nazım:

- Mən türkəm, siz də türksünüz - deyirdi kürsüdən, - dilimiz, gələnəklərimiz bir, millətlərimiz qardaşdır.

Sonra şeirlərini oxumağa başladı. Nazımın şeir oxumağı şeirləri qədər gözəl idi. Xeyli oxuyandan sonra:

- Bıqdırdım sizi -dedi.Yer - yerdən səslər ucaldı: - Biz bıqmadıq. Yenə, yenə oxuyun.

Dəqiq yadımda deyil, deyəsən, bu gəlişində yox, bundan sonrakı gəlişində də yenə atamgilin qonağı oldu. Onun şərəfinə evimizdə düzəldilmiş ziyafətdə Bülbül, Süleyman Rüstəm, Mikayıl Rəfili, Sabit Rəhman xanımı İsmət xalayla, Cəfər Cəfərov, Ənvər Məmmədxanlı, Nazımla gələn Əkbər Babayev və şairin həkimi Qalina iştirak edirdi. Bülbül "Segah" təsnifləri oxuyurdu. Nazım: - bayıldım - deyirdi və indicə müğənninin dilindən səslənən sözləri təkrar edirdi: - "Yağaram yağış kimi, əsərəm qamış kimi, oğlana qız yaraşır, xəncərə gümüş kimi". Gözəl. Ustad (Bülbülü nəzərdə tuturdu) Şərqin nadir şarkıçılarındadır ki, hər sözü bircə- bircə tələffüz edir, çatdırır. (İfadələri öz sözlərimlə verirəm, amma məzmunu yüzə-yüz dəqiqdir).

Sonralar Aqşın Babayevin "Azərbaycan Nazım Hikmət dünyasında" adlı məqaləsində böyük şairin böyük müğənniyə göndərdiyi teleqramla da tanış oldum: "Səhər vaxtı quş səsi, rüzgarda qayın ağacı yarpaqlarının səsi, sevgilinin ovcundan tökülən su səsi, makinaların səsi, kaman səsi, tar səsi...Amma mənca, səslərin ən gözəli, ən dərini, ən ulusu - insan səsidir. İnsan səsi insanları ölümə də çağıra bilər, həyata da, kinə də, sevgiyə də. Sənin səsin, sevgili qardaşım, bütün ömrün boyunca insanları gözələ, doğruya, haqqa, ümidə çağırdı. Mən sənə ölümsüz gənclik diləyirəm. Əllərindən öpürəm...

...Sovet insanlarına və bütün insanlığa gözəl şərqilərini uzun illər boyu şakı Bülbülüm, şakı. Nazım Hikmət"

Aşıq Ələsgərin "Çərşənbə günündə çeşmə başında, Gözüm bi alagöz xanıma düşdü" misralarını heyranlıqla təkrar edirdi, amma "Atdı mücgan oxun" sözləri gələndə üz-gözünü turşutdu, hələ bir köntöy söz də işlətdi. "Müjgan oxu-filan" kimi əsgi təşbehləri qəbul etmirdi - bunlar divan ədəbiyyatından gələn fars-ərəb təsiridir - deyirdi.

Süleyman Rüstəm o vaxtların - 20-ci illərin məzəli əhvalatlarını danışır, o dövrün qrafoman şairlərinin misralarını əzbərdən oxuyurdu. Nazım da bütün məclisdəkilər kimi ürəkdən gülürdü. Süleyman Rüstəmin oxuduğu parçalar arasında bir misra yadımda qalıb: "könlüm burdan fərar etdi". Süleyman müəllim şeirin müəllifinə: - Ay filankəs, axı "fərar etdi", yəni dezertirlik etdi, heç bura uyğun gəlmir - deyib. Müəllif bu qeydi nəzərə alıb misranı belə dəyişdirib: "Könlüm burdan intihar etdi". Süleyman Rüstəm hey bu sayaq "şeirlərdən" oxuyurdu. Nazım gülüb özündən gedirdi: - Ay Süleyman - deyirdi, bu qədər abdal şeiri necə yadda saxlayırsın?

Süleyman Rüstəm 20-ci illərdə Nazım Bakıda rast gəldiyi başqa bir məzəli lətifəni da danışır. Məlumdur ki, azəri türkcəsindən fərqli olaraq Türkiyə türkcəsində "qıç" biədəb sözdür, yəni "gündəyməz" mənasına gəlir. Nazım o vaxt Bakıda tramvayda təsadüfən gənc bir qızın ayağını basdalayır. Qız: -Vay qıçım, vay qıçım - deyə haray qaldıranda gənc şair qıpqırmızı qızarıb özünü itirir.

Nazım gülərək Süleyman müəllimin dediklərini təsdiq edir: - Şaşırdım - deyirdi - o vaxt qadın hürriyətindən, qadınların erkəklər qədər sərbəst davranmalarından çox danışırdılar, mən də buna yanlıydım. Ancaq Azəbaycanda gənc bir qızın boyləsinə açıq-saçıq konuşması məni də sarsıtmışdı.

Sonra ciddi söhbətə keçdilər, dillərimizin bir-birinə nə qədər yaxın olduğundan söz düşdü. Nazım: - Biz ayni bir xalq, ayni bir millətiz - deyirdi - kim bunu inkar edirsə qıçını yeyir - və əlavə edirdi: - bizim anlamda qıçını. - Hamı qəhqəhə çəkir, Nazım da uğunub gedir.

Həkimi Qalina o axşam iki-üç dəfə Nazımın köyneklərini dəyişdi. Ümumiyyətlə, Nazıma çox diqqətliydi, qayğıyla yanaşırdı.

Nazım, Qalina, Əkbər, Bülbül gedəndən sonra o biri qonaqlar bir müddət süfrə başında qaldılar. Yadımdadır, Mikayıl Rəfili qəribə bir söz dedi: - Of, axır ki, doyunca öz dilimizdə danışdıq.

O vaxt bu söz məni təəccübləndirmişdi, axı bizim evdə həmişə azərbaycanca danışılırdı, Rəfiliylə də həmişə öz dilimizdə danışırdılar. Aydındır ki "öz dilimizdə" deyəndə Rəfili Nazımın danışdığı dili, Türkiyə türkcəsini nəzərdə tuturdu. Bəs niyə görə ona "axır ki, doyunca danışdığı "ÖZ" dilimiz" deyirdi. Bu sözlərin mənasını çox sonralar anladım. 20-ci illərdə Nazım ilk dəfə Bakıya gələndə azəri türkcəsiylə Türkiyə türkcəsi arasında bir elə fərq yox idi. İbtidai və orta məktəblərdə oxuduqları Türkiyə klassiklərinin təsiriylə o dövrün gənc şairləri də daha çox Türkiyə türkcəsinə yaxın olan bir dildə yazırdılar. Bu yaxınlarda tədqiqatçı Sona Xəyal atamın dostu şair Abdulla Faruqa yazdığı iki məktubunu üzə çıxardı. Məktubların dili məni mat qoydu, o qədər indi bizim işlətmədiyimiz və Türkiyə türkcəsinin sözü hesab etdiyimiz kəlmələr var ki, hətta hər yerdə Rəsul Rza "mən" yox, "bən" yazır. Məktublar 35-ci ildə yazılıb, o ki qala 20-ci illərə, yəni Mikayıl Rəfilinin şairlik fəaliyyətinin aktiv çağına...

Hələ Hüseyn Cavidi, Əhməd Cavadı, Cəfər Cabbarlını demirəm, daha gənc Süleyman Rüstəmin, Mikayıl Rəfilinin, Səməd Vurğunun, Mikayıl Müşfiqin, Abdulla Faruqun, Rəsul Rzanın 30-cu illərin ortalarına qədər yazdıqları şeirlərin diliylə "Günəşi içənlərin türküsü"nün dili arasında elə böyük bir fərq yoxdur. Və indi otuz il sonra Nazımın türkcəsini eşidəndə, ona bu dildə cavab verəndə Rəfili, "axır ki, öz dilimizdə doyunca danışdığına" sevinirdi.

• • •

Nazım Hikmətin Bakıya gəlişlərindən birində atam onu Cəfər Cabbarlının məzarı üstünə apardı. Qəbrin yanında Nazımın Sona xanımla, atamla, Süleyman Rüstəmlə, Cəfər Cəfərovla, Əkbər Babayevlə, böyük dramaturqun qohumları ilə birgə fotoşəkilləri də var. Şəkildə mən də onların yanındayam.

Oradan Cəfər Cabbarlının arvadı Sona xanım hamını mənzillərinə dəvət etdi. O zaman bura hələ muzey deyildi. Sona xanımın hazırladığı qutabların dadı damağımda qalıb. Maqnitofonda muğamlar yazılmış lentləri səsləndirirdilər, sonra Nazım bir qədər dincəlmək üçün divana uzandı. Əkbər Babayev Nazımçün "Aydın" pyesindən parçalar oxumuğa başladı. Kimsə dedi ki, Aydın Nazımın "Ənayi"sinə ("Qəribə adam" əsərinə) oxşayır. Nazım dərhal: - "Aydın" "Ənayi"yə yox, "Ənayi" "Aydına"a oxşaya bilər - dedi.

Doğrudan da, "Aydın" "Ənayi"dən çox-çox qabaq yazılıb, amma təbii ki, öz pyesini yaradanda Nazımın "Aydın"dan xəbəri yoxdu. Nazımın verdiyi düzəlişin səbəbi isə ona xas olan təvəzzö, alicənablaq, həssaslıq idi.

Əvvəllərdə dediyim kimi və yazılı mətnlərlə təsdiq olunduğu kimi, Nazım Hikmətin Azərbaycanın həm klassik, həm çağdaş ədəbiyyatına böyük marağı vardı.

Füzulinin "Mənəm ki, qafiləsaları karivani qəməm" mətləli qəzəlini xüsusi bir ahənglə oxuyardu. Onun dilində bu şeir də öz şeirləri kimi ecazkar səslənirdi. Sabirin "Harda müsəlman görürəm, qorxuram" misralarını böyük şövqlə və ləzzətlə tez-tez təkrar edirdi. Nazımın Azərbaycan ədəbiyyatıyla bağlı bir niyyəti də vardı, nə yazıq ki, baş tutmadı. Yadımdadır, bu niyyəti haqqında bizdə atamla və Ənvər Məmmədxanlıyla danışırdı və yenə təkrar edirəm, böyük şairə xas olan təvəzzö və nəcibliklə bu fikrini həyata keçirmək üçün onlardan izn alırdı. Məsələ ondaydı ki, Nazım Mirzə Fətəlinin "Aldanmış kəvakib" hekayəsini pyes şəklində işləmək istəyirdi. Amma süjeti çağdaşlaşdırmaq niyyətindəydi. Daha qabaq bu sayaq Molyerin "Tartüf"ünü müasirləşdirmişdi. Məhbəsdən yazdığı məktublarda Şekspirin "Hamlet"ini çağdaş şəkildə işləmək arzusundan da yazır.

Nəydi Nazımı "Aldanmış kəvakib"də cəlb edən? Bu barədə də atamgilə danışırdı. Mirzə Fətəlinin əsərində camaat Yusif Sərracdan şikayətlənir: "Bu necə padşahdır - heç kəsi asmır, kəsmir". Stalindən sonrakı dövrdə müəyyən zümrələrdə zalım diktator xiffətini izah etmək üçün "Aldanmış kəvakib"dəki bu motiv, Nazımın rəyincə, açar kimi istifadə oluna bilərdi.

Atamla Ənvərə bir məqaləsini də oxumuşdu. Mən bu söhbətdə iştirak etməmişəm və təbii ki, məqaləylə tanış deyiləm, amma atamgilin dediklərindən bilirəm ki, Nazım bu yazıda bəzi Türkiyə sənətkarlarının Azərbaycan ədəbiyyatına təsirindən bəhs edirmiş. Şeirlə yazılmış romantik dram ənənəsini Əbdülhaq Hamiddən Hüseyn Cavidə və Səməd Vurğuna uzanan bir yol kimi izləyirmiş. Nə səbəbdən bu məqaləni çap etdirmədiyini, əlyazması qalıbsa, harda olduğunu bilmirəm, amma "Azərbaycan mədəniyyəti barədə düşüncələrində" ötəri də olsa, bu məsələyə toxunur: "Bizim Əbdülhaq Hamidin şeirlə yazdığı "Doxteri Hindu" ("Hind qızı") adlı faciəsi ?Şərq ədəbiyyatında ingilis imperializminə qarşı yazılmış bu ilk facia Azərbaycan səhnələrində 1930-cu illərin ortalarına qədər oynanıb, Əbdülhaq Hamidin romantik, humanist sənətinin Azərbaycan dramaturqlarına təsiri aşkar görünür. Türk ədəbiyyatının ilk utopik-sosialist şairi böyük Tofiq Fikrətin təsirini 20-ci illərə qədər bir çox Azərbaycan yazıçılarının yaradıcılığında görürük".

Əbdülhaq Hamidlə görüşü haqqında bizdə danışdıqları da yaxşı yadımdadır. Bu görüş haqqında Nazımın bioqrafları (Əkbər Babayev, Sərtəl) ətraflı yazdıqları üçün onun təfərrüatlarını burda bir daha gətirməyi lazım bilmədim.

Yunis İmrədən, Qaracaoğlandan heyranlıqla danışırdı. Yunis İmrənin

Mən Yunusu biçarəyəm
Başdan ayağa yarayəm

- beytini ilk dəfə Nazımın dilindən eşitmişəm. Anamın və atamın sevdikləri bəzi başqa Türkiyə şairləri haqqında da söhbətlər edirdi. Əhməd Haşım haqqında dediyi yadımda qalıb.

Əhməd Haşım Nigar Rəfibəylinin ən çox sevdiyi şairlərdən idi və anamın dilindən eşitdiyim misraları indiyəcən əzbər bilirəm.

Zənn etmə ki, güldür nə də lalə
Atəş doludur tutma yanarsan
Qarşında bu gülgün piyalə

İçmişdi Füzuli bu alovdan,
Düşmüşdü bu iksir ilə Məcnun
Şeirin sənə anlatdığı halə,.
Yanmaqda bu sağərdən içənlər
Doldurmuş onunçün şəbi-eşqi
Başdan başa əfğan ilə nalə..
Atəş doludur tutma yanarsan
Qarşında bu gülgün piyalə...

yaxud

Yarın dodağından götürülmüş
Bir qətrə alovdur bu qərənfil
Ruhum acısından bunu bildi

Ya da

Bir əcəm baxçası, bir səccadə
Dolduran hovzu atəşdır badə
Nə qədər qəmli bu axşam vaxtı
Baxışın bənzəməyir mötadə

Göy yaşıl, yer sarı, mərcan dallar
Dalmış üstündəki quşlar yadə
Bizə bir zövqü-təxəttür qaldı
Bu sönən, kölgələnən dünyadə....

Bir dəfə anam Nazımdan Əhməd Haşıma münasibəti haqqında soruşdu, Nazım ağız büzərək: - Salon şairidir - dedi.

Nazımın zəhləsi salon sənətindən gedirdi - istər şeirdə olsun, istər rəssamlıqda ya teatrda. Amma Əhməd Haşım kimi incə ruhlu sənətkarı salon şairi saymaqda, məncə, çox haqsızdı. Anama da bu bərk toxunmuşdu. Üzə vurmasa da pərt olmuşdu. Bəlkə elə buna görə Nazımın israrlı xahişlərinə baxmayaraq, onun yanında heç vaxt öz şeirlərini oxumazdı. Təklikdə mənə:- Əhməd Haşımın şeirlərini bəyənməyən mənim şeirlərimi bəyənəcək? - deyirdi. Amma bir dəfə anam Nazımın yanında öz şeirini oxudu:

Bir son bahar da düşdü
ömrümün təqvimindən.
Nə sənə məhəbbətim,
nə həsrətim azaldı.
Özüm də heç bilmirəm
niyə bir ömür boyu
Gözüm uzaq yollarda -
sənin yolunda qaldı.
Bir qocaman dağ olsan
səni vurub yıxardım
Ürəyimdən ən incə
teli necə qopardım?
Dünyada gözəl də çox,
gözəl ürəklər də çox.
Şirin-şirin arzular,
incə diləklər də çox.
Bir sən oldun könlümün
yaxın dostu, həmdəmi,
Sən olmasan tutmazdı

bəlkə əlim qələmi.
102
Sən olmasan baharın,
yazın ətri olmazdı
Sən olmasan bir dünya
sevinc belə çox azdı
Baharın çiçəkləri
açıb solmasın sənsiz,
Ömrüm sənsiz olmasın,
şeirim olmasın sənsiz.

Nazım dalğınlaşmışdı, nə isə daxili bir qüssəylə bir misranı dönə-dönə təkrar edirdi:

Bir son bahar da düşdü, ömrümün təqvimindən

* * *

Nazımla Moskvada da dəfələrlə görüşmüş, telefonla danışmışam. Yadımdadır, 58-ci ildə Moskvaya tək gəlmişdim. Atam Nazıma nə isə göndərmişdi, bəlkə də şeirlərindən etdiyi tərcümələri, yadımda deyil. - Nazıma zəng elə - dedi. Nazıma birbaşa zəng eləmək istəmədim, Əkbərə telefon etdim. Bir azdan Əkbər özü mənə "Moskva" mehmanxanasındakı nömrəmə zəng elədi. - Nazım səni görmək istəyir - dedi, - yarım saatdan sonra mehmanxananın qabağında ol.

Nazımgil iki maşında gəldilər. Biri Nazımın öz avtomobili, biri Əkbərin avtomobiliydi. Nazım o vaxtlar üçün çox nadir olan iki rəngli "Volqa"sını xüsusi olaraq zavoddan almışdı. Görüşdük. Nazım, həkimi Qalina, tərcüməçisi Muza Pavlova Nazımın maşınında, Əkbərin növbəti rəfiqəsi ilə mən isə Əkbərin sürdüyü maşında oturduq.

Nazımın maşını qabaqda, biz onların ardınca gedirdik. Birdən qabaqdakı maşın dayandı, Nazım düşdü və səkidə gəzişməyə başladı. Təəccüb qalmışdım. Az sonra maşına mindi və yolumuza davam etdik. Gur küçələrin birində qabaqdakı maşın yenə dayandı, Nazım yenə düşüb səkidə o baş-bu başa getdi. Bu dəfə biz də düşdük, Əkbərdən:- bu niyə belə edir? - deyə soruşdum, Əkbər gülümsündü: - Özündən soruş - dedi. - Ustad, kimisə gözləyirsiniz? - deyə xəbər aldım. Nazım xoş bir təbəssümlə:

- Hayır, - dedi - bu moskavalılara şık geyinməyin nə demək olduğunu anlatmaq istərəm.

Nazım doğrudan da çox şık geyinmişdi. Tünd kostyum, ağ köynək, rənglərə uyğun qalstuk, döş cibində ağ dəsmal. O illərdə Moskvada, həqiqətən də, gözəl geyinən adamlar az idi. Nazım isə həmişə zövqlə geyinərdi. Həm də kostyumunun, köynəyinin, qalstukunun, çəkmələrinin rəng uyarlığına xüsusi diqqət yetirərdi.

Mövcud quruluşa bu və ya digər dərəcədə müxalif olanlar kapitalist dünyasında da vardı, sosialist dünyasında da. Onların gözə çarpan fərqlərindən biri də zahiri görkəmləri, geyimləri, qiyafələri idi. Kapitalist ölkələrində mötəbərliyini göstərmək üçün zənginlər, varlılar geyinib-keçinər, qiyafələrində də mənsub olduğu zümrənin üstünlüyünü nümayiş etdirməyə çalışırdılarsa, oranın müxalifətçilərinin, inqilabi ruhlu etirazçılarının, əksinə, əyin-başları mümkün qədər sadə, proletarsayağı kasıb olardı. Mən "etirazçılar" sözü yazıram, bu sözü barışmazlar, dissidentlər, mürtədlər kimi də anlamaq olar və bu etiraz ruhunun ifrat şəkli Amerikada və Avropada bitniklər, hippilər idi ki, nümayişkaranə bir biçimdə yırtıq-yamaq şalvarlar, dəlik-deşik, kirli köynəklər geyərdilər. Orhan Vəlinin məşhur "Dəlikli şeir"ində deyildiyi kimi:

Cib dəlik, çəpkən dəlik,
Qol dəlik, qoltuq dəlik,
Köynək dəlik, pencək dəlik
Kəfkirmisən, qardaşım?

Bu sayaq cındırından cin ürkən etirazçıların üz-gözünü də saç-saqqal basar, nadir hallarda yuyunardılar, bir sözlə, pintilik əsas prinsipləri idi. Türkiyədəykən Nazım da hippilər kimi pinti olmasa da, hər halda, bolşeviksayağı qiyafələrdə gəzərdi və bu da Pəyami Səfanın istehzasına hədəf olmuşdu.

Sovet İttifaqında isə əhalinin böyük qismi məhz belə kasıb geyindiyi üçün, bəzən hətta cır-cındır içində gəzdiyi üçün, tozun-çirkin, palçığın, çamurun hökm sürdüyü mühitdə

(özəlliklə əyalətlərdə) başqalarından fərqlənmək - məhz son dəblə geyinmək idi. Burada da ifrat hədd-rəsmi təbliğatın damğaladığı "stilyaqa" adlandırılan gənclər idi. Amma Yevtuşenko, Voznesenski kimi yeni ruhlu cavan şairlər də şık geyinmələri ilə seçilirdilər. Geyim-keçimdə bu tendensiyanın ilk nümunəsini Moskvaya Nazım Hikmət gətirmişdi. Gözəllik aşiqi olan, gözəl şeylərə bayılan Nazım tək geyimində deyil, mənzilinin dizaynında, süslənməsində, avtomobilin rənglərində, onu əhatə edən əşyaların seçilməsində tam bir estet idi. Sənətdə estetliyin qənimi olsa da. Bəlkə də ömrünün uzun illəri məhbəslərin boz divarları arasında keçdiyindən evini, mənzilini məşhur rəssamların əlvan şəkilləriylə, bir-birindən qəşəng, rəngbərəng oyuncaqlarla - dünyanın beş qitəsində düzəldilmiş oyuncaqlarla - bəzəməyi xoşlayırdı. Kimsə sərrast demişdi ki, burjua ölkəsində proletar kimi yaşayan Nazım, proletar ölkəsində burjua sayaq ömür sürür. Əlbəttə, bu söz zahiri cəhətlərə aiddir. Burjua cəmiyyətinə xas olmayan bir anlayış - insanların sinfi bərabərliyi əqidəsi Nazımın qanında, canında idi və bütün hərəkətlərini, davranışlarını müəyyənləşdirirdi. İstər Türkiyədə olsun, istər SSRİ-də.

Nazımın moskvalı dostu akademik Alixanyanın evinə gəldik. Güman edirəm, Nazım məni də yəqin ona görə dəvət etmişdi ki. Alixanyanın mənzilində kino qurğusu vardı və o, hardansa Çarli Çaplinin filmlərini əldə etmişdi. Kino qurğu adi yaşayış mənzilində - qoy lap akademikin mənzili olsun - nadir şey idi. Evdə, mənzildə Çaplinin filmlərini seyr etmək ondan da nadir hadisəydi.

Axı o vaxt ekranlarda Çaplinin heç bir filmi nümayiş etdirilmirdi. SSRİ-də onlarla tanış olanlar 20-30-cu illərdə görmüşdülər. Nazım "Avtobioqrafi" şeirində yazır ki, dünyada heç kəsə həsəd etməyib, hətta Şarloya belə. Şarloya (Çarli Çaplinə) həsəd etmirdi, pərəstiş edirdi, Çaplini, Pikassonu və Meyerholdu sənətin üç sahəsində - sinemada, rəssamlıqda, teatroda XX əsrdə ən böyük yeniliklər etmiş sənətçilər sayırdı. Uzun illər Parisdə yaşayan Türkiyə rəssamı Avni Arbaşın (Nazımın "Avninin atları" şeirini xatırladınızmı?) arvadı fransız Henrietta bu siyahıya Nazımın özünü də daxil edir - XX əsr poeziyasında ən böyük yeniliklər yaratmış şair kimi.

Minnətdarlıq hissiylə qeyd etmək istəyirəm ki, kinoyla maraqlandığımı bildiyi üçün Nazım mənim də Çaplin filmlərini görməyimi istəyib. Bir neçə il sonra Moskvada Ali Ssenari Kurslarında oxuduğum zaman Çaplinin bütün filmləriylə də, dünya sinemasının ən məşhur (və sovet tamaşaçısı üçün gizli saxlanılan) filmləriylə də tanış oldum. Qriffitin, Dreyerin, Feyderin, Renuarın, Karnenin, Rene Klerin, Orson Uelsin, Con Fordun, Frenk Kapranın, Murnaunun, daha sonrakı dövr recissorları Rosselininin, De Sikanın, Viskontinin, Midzoqutinin, Kurosavanın, Berqmanın, Byünüelin, Fellininin, Antonioninin, Pazolininin, Alan Renenin, Qodarın, Trüffonun, Vaydanın, Münkin və neçə-neçə təkrarsız sinema ustasının filmlərini gördüm. Amma Çaplinin "Yeni zamanlar" filminə ilk dəfə Nazımla baxmağımın önəmi bir başqadır.

Alixanyanla Nazım Muza Pavlovanın vasitəsilə tanış olmuşdu. Alixanyan Muzanın sabiq ərlərindən biri idi. Mənzilə girən kimi Nazım bərkdən: A armyanin, ya turok, seyças tebya rezat budu - deyə zarafat elədi. Alixanyan Nazımın bu zarafatına bərkdən gülüb onu bağrına basdı.

İndi belə şeyləri yazmağımın yüz cürə yozula biləcəyinə baxmayaraq, onu da qeyd etmək istəyirəm ki, Nazımda ermənilərə nifrət yox idi. Hətta Moskvada Yazıçılar qurultayında 15-ci il hadisələrindən söz açıb təəssüf duyduğunu bəyan etmək istəyirdi. Rəsul Rza, Süleyman Rüstəm, Mehdi Hüseyn, Ənvər Məmmədxanlı onu birtəhər bu fikirdən daşındırmışdılar, "sənin sözlərindən ermənilər sənin təmiz və səmimi niyyətlərinə tamamilə tərs olan məqsədlər üçün istifadə edə bilərlər"- demişdi ona atam.

Əlbəttə, daşnak tipli millətçiləri görməyə gözü yoxdu, amma sol əqidəli ermənilər arasında dostları vardı. Onlardan biri də Türkiyədən gəlib Moskvada yaşayan erməni əsilli Jak Ehmalyan idi. Nazımın vəfatından sonra Ehmalyan onun haqqında xatirələr yazıb kitab şəklində nəşr etdirmişdi.

O gün Alixanyangildə ev yiyəsi Nazıma qarşı elə rəftar edirdi ki, deyərdin dünyada ondan əziz adamı yoxdur. Nə dərəcədə səmimi olduğunu, nə dərəcədə oyun oynadığını deyə bilmərəm. Bəlkə bu rəftarın səbəbi ancaq Nazımın şöhrəti idi, çünki Alixanyanın səmimiyyətinə şübhəylə yanaşmağıma müəyyən əsaslarım var. Nazımın ölümündən sonra Alixanyanı bir dəfə də Muzagildə gördüm. Muzanın bizə çox qəribə görünən bir adəti vardı - keçmiş ərləriylə dostluq əlaqələrini kəsmir, onları təzə arvadlarıyla bir yerdə və çox vaxt eyni vaxtda evinə dəvət edərdi. Haqqında danışdığım zaman Muzanın əri şair Vladimir Buriç idi. Volodya Nazımın də bəzi şeirlərini çevirmiş orijinal şair idi. Sərbəst vezn-

lə yapon hokkuları tipli qısa şeirlər yazırdı. Bir şeirinin məzmunu yadımda qalıb - "göyərçinlər çardaqların siçanlarıdır, siçanlar zirzəmilərin göyərçinləri". Gərək ki, beləydi. O vaxt öz şeirlərinin birəcəyini də çap etdirə bilməmişdi. Muzadan çox cavan olan Volodyanın vəfat etdiyini bir neçə il bundan qabaq təsadüfən "Literaturnaya qazeta" - dan bildim. İndi həmin qəzetdə onu "rus verlibrinin (sərbəst şeirinin) klassiki" adlandırırdılar. Muzanın birinci ərindən olan oğlu German Lukyanov məşhur caz musiqiçisidir. Bir dəfə atamgil Moskvada olanda Muza Volodya Buriçlə və başqa bir gənclə onların nömrələrinə gəlirlər. Anam: - Который из них ваш сын? (bunları hansı oğlunuzdur?) - deyə tamamilə səmimi və sadəlövh sual verəndə, Muza bir az tutulub: - А здесь нет моего сына, - deyib - это Володя - мой муж, а это его друг. (Burda mənim oğlum yoxdur. Bu - Volodyadır - ərim, bu da onun dostu).

Bir vaxt Muzanın Əkbərlə də yaxın əlaqələri olub, nigahları rəsmi qeyd edilməyibsə də, Muza həmişə: - Из всех моих мужей, я больше всех люблю Акперчика - (ərlərimin hamısından Əkbərçiki çox istəyirəm) deyirdi. Olanları yazıram, amma istəməzdim ki, bu təfərrüatlar yaddaşımda xoş xatirələrlə qalmış bu insanların üzərinə kölgə salsın. Bu yaxınlarda Muzanın iflic olduğunu, yataqda hərəkətsiz qaldığını eşidəndə çox mütəəssir oldum. Muza Pavlova Əkbər Babayevlə bir yerdə mənim "Molla Nəsrəddin - 66" satirik hekayələr silsiləmi də tərcümə etmişdilər. Moskvada yaşadığımız illərdə bizə ailəlikcə mehribanlıq göstərirdilər. Deyəsən, mətləbdən uzaq düşdüm.

O gün Muzagildə Alixanyan təzə arvadıyla, Əkbər növbəti rəfiqəsiylə Muza və Volodyanın qonaqları idi. Alixanyanın qardaşı da tanınmış alimdir. Muzanın keçmiş əri Alixanyan (adı yadımda qalmayıb) o axşam danışırdı ki, Azərbaycan KP MK-nın birinci katibi işləyən Heydər Əliyev hansı tədbir münasibətiylə Yerevana gəlibmiş. O vaxt Ermənistanın birinci katibi Anton Yervandoviç Koçinyan idi. (Burda yadıma Məşədi İbad əhvalatı düşür: atasının adını hardan bilir və necə yadında saxlayıb - deyə soruşa bilərlər. Atasının adının belə dəqiq yadımda qalmasının səbəbi odur ki, Koçinyana Anton Yervandoviç yox, Anton Brilyantoviç deyirdilər, güman ki, rüşvəti yalnız brilyantla aldığına görə).

Bəli, həmin bu Anton Brilyantoviç Koçinyan Alixanyanın qardaşına deyib ki, Heydər Əliyeviçi sənin elmi institutuna gətirəcəm, çalış ondan institut üçün bir şeylər xahiş elə. İstəsə edə bilər, Moskvada, Politbüroda böyük nüfuzu var, Brejnev də onun bir sözünü iki eləmir. Bilmirəm daha Heydər Əliyev o instituta gedib-getməyib, ondan nəsə xahiş ediblər-etməyiblər, bu xahişi yerinə yetirib-yetirməyib, amma yaxşı yadımdadır, Alixanyan Azərbaycan rəhbərinin nüfuzundan və imkanlarından açıq qısqanclıq hissiylə danışırdı. Bir azdan isə Alixanyan əsl simasını göstərdi. Nazımın sağlığında özünü onun dostu sayan Alixanyan, indi heç dəxli olmadan, həm də zarafatla deyil, tam ciddi şəkildə türklərin 15-ci ildə ermənilərə kəsməsindən danışmağa başladı. Mən dərhal cavabını verdim. Muza sabiq ərinə:

- Анар тебя в сыновя годится, - dedi - но посмотри как мудро он тебя осадил. А ты рассуждаещ как заурядный насионалист. (Anar sənin oğlun yerindədi. Amma bax sənî necə yerinə otuzdurdu. Sən isə ən bayağı millətçi kimi danışırsan). Alixanyan əlüstü söhbəti dəyişdi.

Bir neçə il bundan qabaq Muzadan məktub aldım. - "Никого не осталось -yazırdı, - не Назима, не Расула, не Акбера, не Володя" (Heç kəs qalmadı, nə Nazım, nə Rəsul, nə Əkbər, nə Volodya).

Yəqin ki, Alixanyan da ölüb, bilmirəm. Belədirsə, Muza bütün ərlərini basdırıb.

* * *

O illər Moskvaya hər gələndə Nazımla görüşəcəyimizi, özəlliklə də onun öz dilindən gözəl şeirlərini dinləyəcəyimizi səbirsizliklə gözləyirdik. Əvvəllərdə dediyimi bir də təkrar edim - Nazımın şeir oxumağı da şeirləri qədər gözəl idi. Türkiyə türkcəsinin bütün incəliyi, musiqisi, ahəngi elə bil Nazım şeirində, Nazım səsiylə daha da füsunkar olurdu. Moskvada Əkbərdən başqa kimsəyə bu şeirləri yazdığı dildə oxumaq imkanı yoxdu, odur ki, bizə şeir oxuyanda atamın, anamın bir həmkar kimi rəyini bilməkdən başqa, mənim, bacılarımın, Zemfiranın oxucu rəyini bilmək, şeirlərinin gənc nəsil tərəfindən oricinalda necə qavrandığını öyrənmək baxımından da lazım idi.

Oxuyub qurtaran kimi hamımıza bir-bir müraciət edərdi: - Nasıl buldunuz?

Nasıl bulmalıydıq ...Öz ifadəsiylə desək, bayılırdıq. Ondan ayrılandan sonra da uzun zaman bu şeirlərin, bu bənzərsiz səsin təsirindən çıxa bilmirdik.

Şeir oxumaqdan başqa, ən müxtəlif ədəbiyyat, sənət, siyasət məsələlərindən, ömrünün müxtəlif epizodlarından söhbət etməyi də sevirdi. Bunu da mən ürəyini boşaltmaq, beynindəki fikirləri bölüşmək həvəsindən başqa həm də doğma dilində bu dili bilənlərlə doyunca danışmaq həsrətiylə bağlayıram. Poeziya haqqında söylədiyi müxtəlif fikirlər içində yadımda qalanlardan biri bu idi ki, deyirdi, "elə şeir var, onu min adama oxuyarsan, belə şeir min adama (yəni izdihama, kütləyə) oxumaq üçün yazılır, elə şeir də var, tək bir adamçün yazılır, tək bircəcik adamın oxuması üçün. Amma o min adamdan da hər biri ayrı-ayrılıqda o bir adama yazılmış şeiri oxuyub düşünür ki, elə məhz onun özünə yazılıb.

Sovet İttifaqının Çinlə münasibətləri pozulanda deyirdi ki, sovet rəhbərliyində də öz "çinliləri" var, yəni maoçular kimi ifrat sərt kommunist ideolojisinə tapınanlar, hər cür liberallaşmanın, Qərblə dinc yanaşı yaşamanın əleyhinə olan sovet quzğunları...Xruşşovun 62-ci ilin dekabrında Manejdə mücərrədçi rəssamlara divan tutması, ümumən ondan sonra sənət sahəsində təzyiqlərin şiddətlənməsi məhz bu "quzğunlara, Çinə, "çinçilərə" sümük atmaqdır.

Nazımın özünün Moskvadakı bir sıra rəssamlarla yaxın münasibətləri vardı, axı rəssam oğlu və özü də rəssam kimi bu sənətə incəliklərə qədər bələd idi. Bu, əsasən modernist rəssamlardı. O vaxtın təbiriylə onları modernist adlandırarkən bu, təhqir, söyüş kimi anlaşılırdı. O dövrün populyar anekdotlarından biri beləydi ki, küçəylə bir modernist rəssam gedir, dalınca da sivil geyimdə iki realist rəssam...Yəni realist rəssam kimi örnək göstərilənlərdən bəziləri sadəcə olaraq, xüsusi xidmətlərin ajanslarıydı. Əslində, modernist - müasir, çağdaş deməkdir. Hər bir sənətkar müasirliyiylə yalnız fəxr edə bilər. Nazım da bu "modernistləri" məhz çağdaş dünya sənəti səviyyəsində əsərlər yaratdıqlarına görə sevir, onları dəstəkləyir, əsərlərini alaraq maddi yardım göstərirdi.

Belə rəssamlardan biri o vaxtlar artıq yaşlı bir adam olan Robert Falk idi. Nazım Falkın işlərini Erenburqun evində görmüş, bu rəssamla maraqlanmış, tanış olmuş, bəzi işlərini almışdı. Falk haqqında atama da danışmışdı. Rəsul Rza xatırlayırdı ki, bir gün Nazım məndən, rəssam Falkın əsərlərini görmüsənmi? - deyə soruşdu. Görməmişdim. Nazım təkid edirdi ki, mütləq onun evinə (ya emalatxanasına, yadımda qalmayıb) gedib əsərlərinə baxım. Atam belə də edib və Falkın bir neçə əsərini bəyənib almaq istəyib. Üçünü alıb, amma ən çox bəyəndiyini Falk satmayıb - Bu mənim ən əziz işlərimdəndir - deyib - ümidimi itirmirəm ki, bir gün sərgim olacaq və bu işi orda görmək istərdim.

İndi atamgilin evində çox sonralar (əlbəttə, ölümündən sonra) əsl qiymətini almış bu böyük rəssamın üç tablosu var. Daha doğrusu, ikisi - şəkillərindən birini atam mənə bağışlamışdı və indi o mənim mənzilimdədir - Özbəkistanda iri bir ağacın altında çayxananı təsvir edən rəsm.

Nazım Hikmət Bakıya gələrkən atam da onu Azərbaycan rəssamlarının emalatxanalarına aparırdı. Tahir Salahovu, Toğrul Nərimanbəyovu Nazım, əlbəttə, tanıyırdı və dəyərləndirirdi, Toğrulun çəkdiyi qrafik portretinin üstündə "Aşq olsun" sözlərini yazmışdı.

Amma Rasim Babayevin, Tofiq Cavadovun adlarını eşitməmişdi. O vaxt həmin rəssamlarla daha çox mən ünsiyyətdə olurdum. Əziz Abbasov adlı istedadlı bir rəssam da vardı, sonra taleyi faciəli oldu, ruhi xəstəliyə tutuldu.

Əziz heç Rəssamlar İttifaqının üzvü də deyildi, emalatxanası da yoxdu. Odur ki, Nazımı rəssamın Dağlı məhəlləsindəki köhnə kasıb mənzilinə apardıq. Əzizin işlərini bəyəndi, bir Bakı mənzərəsi daha çox xoşuna gəlmişdi. Atam həmin tablonu alıb Nazıma bağışladı. Sonra rəssamlar evində Tofiq Cavadovla (o da sonralar faciəvi bir qəzanın qurbanı oldu) və Rasim Babayevin emalatxanalarına gəldik. Bu rəssamların da əsərlərini bəyənmişdi və onlarla vidalaşandan sonra, bu üçündən ən peşəkar və usta rəsam, şübhəsiz, Rasimdir - dedi. - Özəlliklə də "Kaktuslarını" qeyd etdi.

1962-ci il yanvarın 27-də toyumuz olan gün Nazım mənə və Zemfiraya təbrik teleqramı göndərmişdi: "Sizə dünyada ən çətin şey olan xoşbəxtlik arzulayıram. Nazım Hikmət".

(Ardı var)

◆ MAKSUD İBRAHİMBƏYOVUN 75 YAŞI

TARİX, RİTM, KARPENTYER və İBRAHİMBƏYOV FRAQMENTLƏRİ

"Повествование есть некое действие, а литературное повествование - действие, выполненное мастерски, искусно."

Sonralar da mən bu cümləni azərbaycanca düşünmədim və bəlkə də ona görə belə oldu ki, tələbəlikdə oxuduğum Kuba yazıçısının anasının Bakıdan olmasını biləndə, hələ dünyanın qəribə işlərinə heyrətləndiyim vaxtlardı, üstəlik də, formalaşmamış qənaətimdə tutqun işartı kimi dolaşan bu fikir heyrətimin (gör ha, dünyada tanınmış yazıçının fikirlərinə yaxın düşünmək də olarmış!) bir bucağına daxil idi; heyrətin tərcüməyə yata biləcəyinə o vaxt da inanmırdım. Amma iş bunda deyil; Alexo Karpentyerin yuxarıda yazdığım həmin fikrini Maksud İbrahimbəyovun rusdilli mətbuatda oxuduğum publisist yazıları sonralar dönə -dönə mənə xatırladırdı və yazıçılıqla publisistika arasında kəskin sədd qoymaq cəhdlərinin məhz "deystvie - vipolnennoe masterski..." olmayanda ayaq aldığına bir daha inandırırdı.

Bu gün publisistikanın mahiyyətini dərk etməməkdən gələn yanaşma və münasibətin, "kütləvi istifadəçinin" iddiaları fonunda, bu ifadənin çəkisini məhz Yazıçı Publisistikasında seçilən Ritm, Ləngər dəqiq ifadə edir. Məhz Ritm və Ləngər publisistikaya ögey münasibəti rədd edir, ədəbiyyat - jurnalistika sərhədlərini, şəffaf olmasa da, hikkəli xüsusiyyətçilik adasından uzaq, tül pərdə zərifliyində təqdim edir. Bir az da Azərbaycana aid olan həmin Kuba yazıçısının "Mı iskali i naşli sebya" kitabını bu yaxınlarda təkrar oxumaq imkanı yarananda, Maksud İbrahimbəyovun üç dildə nəşr olunmuş "Fraqmentlər" kitabını yenidən xatırladım. Və yenə də həmin o fikir yaddaşımda dolaşdı. Yenə də Ritmin, Ləngərin yerini gördüm. "Fraqmentlər" - Azərbaycan publisistikasına xüsusi çalar, intibah humanizmi, nəcib prinsipiallıq tonu verən, Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaqda "beşinci mikrofon" statusunda çıxış edən bu kitab -- Maksud İbrahimbəyov adlı bir Azərbaycan ziyalısının, əsilzadəsinin Əsrdaşı İnsanla və Sabahla söhbətidir.

Bu söhbət uzun, ağır yolun yolçuluğundan sonra təmkinli zəvvarın təəssüratlarını bölüşməsi, yaşadıqları, gördükləri ilə bağlı düşüncələridir; onun keçdiyi yolları keçəcək nəsillərə tanıtmaq cəhdidir.

"Azərbaycanın ən müasir tarixinin gerçək fraqmentləri" - onun publisistikasını müasirləri belə qiymətləndirirlər.

Yaradıcı natura kimi Maksud İbrahimbəyov üçün insan azadlığı anlayışı çox vacibdir və bu, yalnız düşüncə azadlığı ilə məhdudlaşmır, buraya hüquq azadlığı da daxildir. "İstənilən insan özünün şəxsi fikrini savadlı şəkildə ifadə edirsə, onunla hesablaşmaq gərəkdir. Əgər dediklərinə etiraz edirsənsə, yalnız məntiq və faktlara əsaslanmalısan, daha razılaşmadığına görə nifrinlər və təhqirlər yağdıraraq üzərinə hücuma keçməli deyilsən."

Onun publisistikasında "mənəmlik" mərəzinin simptomları görünmür.

Maksud İbrahimbəyovun müsahibə və məqalələrində yalançı vətənpərvərlik tonu, bu məqamda məhz heysiyyətinə toxunulmuş çoxluğun xoşuna gəlmək lazımdır, sonrası düzələr düşüncəsi yoxdur, onu düzgün başa düşməzlər nigaranlığı deyil, neca ağır və acı olsa da, həqiqət həmişə və hər yerdə öndə olmamalıdır - prinsipi var. "Prezidenti tərif etmək ədəbsizlikdir, hətta ondan bir elə asılı olmayan, sərbəst vətəndaşçün də yaxşı deyil - o, adamın qulağını dəlir"... (səh. 158)." Yaxud "Azadlıq və müstəqilliyi heç bir kənar amil olmadan özümüzün əldə etməyimiz barədə odlu - alovlu mühakimələr, olsa-olsa, bu mühakimələrin müəllifləri tərəfindən uydurulmuş təsərrüfat hesabı, çox mənfəətli bir

* Sitatlar M.İbrahimbəyovun eyni adlı kitabından götürülüb: "Fraqmentlər — 3 dildə" Bakı 2008. "Səda" nəşriyyatı

tandır... "Yeltsin və komandası" əsas məqsədlərini - Sovet İttifaqını dağıtmaq planlarını həyata keçirərək hamını birdən xoşbəxt etmişdilər. "Çoxsaylı mitinq və görüşlərdən sonra axşamlar Şaxray və Starovoytova Bonnerin mənzilinə toplaşıb gerblərin və bayraqların layihələrini çəkir və hazır olduqca, yenicə yapılmış müstəqil dövlətlərin paytaxtlarındakı rezidentlərinə göndərirdilər..." (səh 159)

Maksud İbrahimbəyovun publisistik qələminə xas olan yüksək humanizmlə yanaşı, nəzakətli və eyni zamanda son dərəcə kəskin tonu, el arasında deyildiyi kimi, adamın yeddi qatından keçən, çılpaq həqiqəti ifadə edən yazı tərzi, kəskinliyin içində güclü və zərif yumor onun publisistikasında da orijinallığı təmin edən yazıçı və yazı mədəniyyətinin elementləridir. Onun kifayət qədər qibtəolunacaq nüfuzu və dairəsi, dünyagörüşü, mütalia zənginliyi, istedadlı qələmi, İbrahimbəyovun publisistik yazılarının SSRİ-də kifayət qədər nüfuzlu "Drujba narodov" jurnalında dərc olunmasına imkan verirdi. 1989-cu ilin oktyabrında bu ədəbi orqanda dərc olunmuş "Sabah gec olacaq" məqaləsi - birmənalı qarşılanmayan bu narahat və nigaranlıq dolu xəbərdaredici müraciət --Azərbaycanlı ziyalının mövqeyini bəyan edirdi. Elə buradaca qeyd etmək lazım gəlir ki, tarixin gərgin məqamlarında eşidilməmək publisistikanın məğlubiyyəti, zəifliyi, kəsərsizliyi haqqında tələsik nəticələrə gətirməməlidir. Burada "ağıllı adam bəlanı, müdrik adamsa bəlanı törədən səbəbləri aradan qaldırandır" məsəli yada düşür. Azərbaycan yazıçı publisistikasının yaxşı nümunələrindən olan Maksud İbrahimbəyovun publisistikası müdriklik mövqeyinə yaxınlığı ilə fərqlənsə də, bu da faktdır ki, bu qiymətli keyfiyyət də zamanının yox, Zamanın qiymətləndirdiyi dəyərlərin sırasındadır. Ədəbi - bədii mübarizə ictimai-siyasi mübarizənin tərkib hissəsi ola bilirdimi, yaxud bu mübarizəyə nə dərəcədə kömək edirdi? Birmənalı şəkildə və qətiyyətlə demək olar ki, Azərbaycan publisistikasının daha geniş və tələb olunan qolu - yazıçı publisistikası bu cavabın nikbin notlarını təmin edir. Bu, yalnız ayrı-ayrı yazıçıların ədəbi - bədii yaradıcılıq səhifəsi olaraq qalmayıb, həm də ictimai fikir tariximizin, mübarizəmizin "uzaqvuran topu" ola bilib.

Maksud İbrahimbəyovun publisistik yaradıcılığında epistolyar (məktub) formanın uğuru xüsusilə diqqəti cəlb edir. Onun belə bir nümunəsi olan "Norveç səfirinin bəyanatı ilə bağlı bir neçə qeyd" açıq məktubu xüsusi maraq doğurur. Hər şeydən əvvəl, məktubdakı yüksək mədəniyyətdən xəbər verən faktlarla işləmək səriştəsi və bizim günlərimiz üçün heç də xarakterik olmayan kübar ifadə tərzi (bu sarıdan kasadlığımız yalnız təəssüf doğurur) ilə sarkazmın (məzh belə!) etiraza yer qoymayan səriştəli uyarlığını qeyd etmək lazım gəlir. 2003-cü ilin 16 oktyabr hadisələri ilə bağlı Norveçin ölkəmizdəki səfiri Steynar Gilin rusdilli mətbuatda dərc olunmuş mülahizələrinə cavab olaraq yazılmış bu məktub, əslində, bir səfirə deyil, Azərbaycanın daxili işlərinə müdaxiləni və diqtəni özlərinə rəva bilən təsisatlara müstəqil ölkənin vətəndaşının heysiyyətini və qanunlara hörmət hissini qoruyan ziyalının - yazıçının ismarıcıdır.

"Sizə deməliyəm ki, son illər Azərbaycanda bədxah bir ənənə yaranıb: başqa ölkələrdən təşrif gətirən bəzi rəsmi şəxslər - bizim müşahidələrimizə görə, bu dərəcədə yüksək missiyanı yerinə yetirmək üçün mənəvi-əxlaqi keyfiyyətlərdən xali olan kəslər radikal müxalifətlə münasibətləri necə qurmalı olduğumuzu təkidlə, sanksiyalarla hədələyərək bizə öyrətməyə girişirlər" (səh. 41).

Eyni təmkinlə, "Harpun atan güclü toplarla silahlanmış Norveç gəmiləri ziyansız və müdafiəsiz balinaları amansızlıqla, vəhşicəsinə məhv edirlər. Bununla da beynəlxalq qanunlara qətiyyən məhəl qoymadıqlarını göstərir, həmçinin, BMT və Avropa İttifaqının üzvləri olan ölkələrin humanizmə çağıran müraciətlərinə saygısızlıq nümayiş etdirirlər" (səh 46) - deyə davam edir və diplomatiyanın nəzakət tonu çərçivəsindən sonra"... göndərildiyi ölkənin daxili işlərinə burun soxmağın əcnəbi səfirin nəzakətsizliyi kimi qəbul edildiyini xatırladır. Burada bir məqam xüsusi vurğulanmalıdır: Maksud İbrahimbəyovun yazıçı nigaranlığı yalnız Azərbaycanla bağlı deyil.

"Ehkam həqiqətlərin özündən müştəbeh, standart beyinli təbliğçiləri, müsahibini adam balası kimi dinləməyi bacarmayan və heç dinləmək də istəməyən kəslər başa düşmürlər ki, Qafqazda ədalətli sülh bərpa edilməyincə, Avropada da davamlı sülh ola bilməz..."(.səh. 19)

Zamanın bu həqiqəti təsdiq etməsini gözləmək çox uzun çəkmədi; Avropanın "oyanması" baş verdi və bu məqam bir də bu fikri yada salır ki, publisistikanın missiyası, əhəmiyyəti yazıldığı zamandan daha çox, tarixin yaddaş dərsləri ərazisindədir.

Yazıçının müsahibələri ("Pəncərələri Avropa prospektinə açılan ev", "Mühüm mövzu ətrafında bəzi düşüncələr", "Komplimentlər demək zamanı deyil") Azərbaycan - beynəlxalq institutlar münasibətlərini təhlil edən yazıçının siyasətlə bağlı düşüncələri, dünyanın siyasi - iqtisadi - maliyyə mənzərəsində ölkəsinin yeri və mövqeyi ilə bağlı mülahizələri, bu mülahizələrdə güclü məntiq və reallığı heç bir halda unutmamaq, uzaqgörənlik, dərin zəka məziyyətləri ilə limhəlim doludur.

Maksud İbrahimbəyovun müsahibələri üçün xarakterik olan bu publisist amansızlıq "vəzifə və status", "özgə - özününkü" bölgüsü tanımır. Bu amansızlıq içərisində daha çox ağrısı ilə seçilən fantasmaqoriya haqqında danışmamaq onun publisistikasının mənzərəsinin tamamlanmaması demək olardı.

"Olmuş əhvalatlarla real adamların və qeyri adamların davranışının qarşılıqlı münasibətləri nəticəsində yaranmış" fantasmaqoriya, əslində, Azərbaycanın ən yaxın tarixinin hekayətidir. Bu tarixdə qazandıqlarımızdan çox itirdiklərimiz var. Bunlar o itkilərdir ki, yerini doldurmaq üçün hələ çox illər gərək olacaq. Yox, bu itirilmiş torpaqlar deyil, bu dağıdılmış infrastruktur, qırılmış xarici əlaqələr deyil. Onları qaytarmaq, bərpa etmək asandır, əslində. Bu illərdə yaşadığımız ən ağır itkimiz -- insanların içərisində öldürülən inamdı; əqidəni vasitə yox, məqsəd, ideal bilən insanların qəlbini alt-üst edən, mübarizə ruhunu və inamına vurulan zərbədi. "1992-ci il ölkəmizin tarixində həmişəlik olaraq itkilər və alçalmalar rəmzi, xəyanət və rəzalət simvolu kim qalacaq". -Maksud İbrahimbəyovun qələmi və yaddaşı bu dövrü belə təqdim edir.

Yazıçının "Çəyirtkə mövsümü" adlandırdığı bu dövrdə siyasi səhvləri kifayət qədər çox olan Azərbaycanın reallıqlarını qələmə almağın ona nə qədər ağır olduğunu hiss etmək üçün çox da həssas olmaq tələb olunmur. Nə yazıq ki, bu da bizim tariximizdir və bu sətirləri oxuyan oxucu da o dövrdə bütün bunların şahidi olmuş insanlardan az təəssüf və xacələt hissi keçirmir: "Elementar məntiq və sağlam düşüncə baxımından qəribə bir siyasi xuliqanlıq təsiri bağışlayan addım" - MDB-yə daxil olmaqdan imtina Ermənistanın mənafeləri və maraqları sarıdan son dərəcə səmərəli oldu, tələ qapandı" (səh. 75). Bu, hələ ilk baxışdan əhəmiyyətini dərk etmək və qiymətləndirmək baxımından çətin olan siyasi addımdır və səriştəsizlik ayağına yazmaq olar.Elə məsələlər və münasibətlər də var ki, onları səriştəsizliyin ayağına yazmaq olmur, istəsən də olmur... "Təsəvvür edirsənmi, bir dəstə coşmuş cəbhəçi Konservatoriya rektorunun kabinetinə soxularaq, Bax, Bethoven, Qriq, Çaykovski və bir sıra digər bəstəkarların - böyük bir siyahı varmış əllərində -- əsərlərini tədris proqramından çıxarmağı tələb edirlər,.. bu dəliqanlı "xunbenvin demokratlar" üçün siyahını kimsə hazırlayıb" (səh. 80 - 81). Bax, bunun adı səriştəsizlik deyil, bu, başqa cür səslənir...

Amma doğrudanmı bu utanc Azərbaycan müxalifətinin adına yazılır? Qətiyyən. "Mən "müxalifət" deyəndə yad təsirlərdən azad ziyalı insanları, dövlətçilik şüuruna malik adamları nəzərdə tuturam. O müxalifəti nəzərdə tuturam ki, məqsədi qanuni iqtidarla daimi polemika aparmaqla ölkədəki mövcud durumun yaxşılaşmasına nail olmaqdır " (səh. 88). Maksud İbrahimbəyov iqtidar - müxalifət münasibətlərini belə görür. Sağlam və sivil yanaşma olduğunu normal düşüncə, şübhəsiz, qəbul edir.

Yazıçının publisistikasının kəskin ruhu, ifşaedici tərzinin özündə belə, nəzakət, incə yumor, heç bir halda milli özünəvurğunluq, əldə olunmuş böyük və ya kiçik nailiyyətlərin sevincindən xumarlanmaq hissinə qapılmamaq sərvaxtlığı Azərbaycan yazıçı publisistikasının yeni dövrə və yeni şəraitə ciddi ənənələr, işgüzar ovqat və kəsərli üslubla keçidi üçün diqqətəlayiq nümunələrin olduğunu deməyə əsas verir.

...Görəsən niyə Fraqment? Bəlkə ona görə ki, Tarix özü fraqmentlərdən ibarətdir? Ritm də fraqmentlər toplusudur. Həyatımız da. Maksud İbrahimbəyovsa, həyatını, həyat tərzini, düşüncələrini tezis şəklində təqdim edə bilən insanlardandır. Bu həyatda hər şeyin və hər kəsin öz adı ilə öz yerində olması Müdrikliyin adına yazılası səhmandır. Məsələn, Yaradıcılıq onun fikrincə, ali həzzdir. Bakı - mən özüməm - deyir. Dostları ilə fəxr edir.

"Publisistikaya mən iki konkret halda müraciət edirəm: birinci - mənim ölkəmin ləyaqətinə toxunulanda, ikinci -şəxsən məni təhqir edirlərsə... "

"Yazıçı, hər şeydən əvvəl, vətəndaşdır. Və o, ölkəsində baş verən hadisələrə qeyri - ixtiyari cavab verir. Yazıçı əgər həm də Milli Məclisin üzvüdürsə, bu artıq onun vəzifəsinə çevrilir."

Və bununla hər şey deyilib; Maksud İbrahimbəyovun fraqmentləri həm də bir vətəndaş, ictimai xadim, Ədəbiyyat və Mədəniyyət Xadimi və nəhayət, insan obrazını dolğun və konkret təqdim edir.

...Həyatımız üçün biz Yaradana borcluyuq.

...Həyat tərzimiz üçünsə -- insanlara!

Bircə şərtlə: həyat tərzi "nekoe deystvie" yox, məhz "vıpolnennoe iskusno" ola!

Südabə AĞABALAYEVA

◆ POEZİYA

Nazir RÜSTƏM

Addım - addım yer üzünü
Gəzib, yorulub, qayıdaq.
Çaylarını, dənizini
Üzüb, durulub qayıdaq.

Gəzək el-el, şəhər-şəhər,
Gecə-gündüz, axşam-səhər,
Qalmasın qoy bizdən əsər,
Ölüb-dirilib qayıdaq.

Gedək bu oyun dünyadan,
"Canavar-qoyun" dünyadan,
Kötükdə boyun dünyadan
Qopub, qurtulub qayıdaq.

Açılaq cüt qanad kimi,
Oxunaq bir kitab kimi.
Köhnə, qədim saat kimi
Təzədən qurulub qayıdaq.

BAĞIŞLA

Ürək də yorulur, baş da yorulur,
Ömür də yorulur, yaş da yorulur,
Gözdə donub qalır, yaş da yorulur,
Daş olub yolunda bitsəm, bağışla.

İçimi yandıran közümdən bezdim,
Özümü tapmadım, özümdən bezdim,
Deyə bilmədiyim sözümdən bezdim,
Qovuşub sellərə itsəm, bağışla.

İynəsi qırılmış gərəksiz sapam,
Kəsilmiş işıgım, soyumuş sobam.
Mən nəyi itirdim nəyi də tapam?
Çıxıb bu yerlərdən getsəm, bağışla.

* * *

S. Yesenina

Mənə bir az səbr verin -
Qəbrimi qazmaq dəmidir.
Kətil verin, kəndir verin -
Özümü asmaq dəmidir.
Qələm verin, dəftər verin -
Son sözü yazmaq dəmidir.

* * *

Neçə il keçib görən
Gördüyüm o yuxudan?!
Ölümümlə görüşüb
Titrəyəndə qorxudan.

Çiyinlərdə gedirdim
Gözlərimin önündə.
Arılar yox olmuşdu
Dünyanın son günündə.

* * *

Bir gün gələr, mənim də
Qələm düşər əlimdən.
İçimdəki sözlərim
Çıxa bilməz dilimdən.

Dənizi istəyərəm,
Dəniz qaçar uzağa.
İstidən əriyərəm,
Meylim sərin yaylağa.

Sıxılaram otağın
Küncünə sükut kimi.
Girərəm yuxulara
Çiyində tabut kimi.

* * *

Ağ günün ağrısını
Qaranlıq gecə çəkir.
Bir belə yükü canım
Bilmirəm necə çəkir?

Yüklənmişəm büsbütün
Ürəyimlə, qanımla.
Gecəni sübhə kimi
Əlləşirəm canımla.

Doğmadan da, yaddan da
Təngə gəlib qaçıram.
Hara gedim, ay Allah?!
Hər tərəfim uçurum.

Yastığım da elə bil
İynə-tikanla dolub.

Taleyimsə özgə, yad
Əlində sükan olub.

Addım-addım bir cüt göz
Məni güdür, izləyir.
Oturub cənab ölüm
Şikarını gözləyir.

* * *

Unut,
Nəfəsi sən ətirli
O gecəni unut.
Hər qarışı sən deyən
O şəhəri, o küçəni unut.
Unut,
Üzünü bərk-bərk
Sinəmə sıxdığını unut,
Bir əlvida kəlmənə
Ürəyimin,
Gözlərimin,
Dizlərimin
Sındığını unut.

* * *

Bülbülün cəh-cəhi qəfəsdə qalsa,
Qarğa bazarında işlər zor gedər.
Bayquşlar dünyanı başına alsa,
Pislər yaxşıları çeynəyər, didər.

Dirijor çubuğu düşsə yad ələ,
Hərə bildiyini uydurub çalar.
Başı göylər dələn dağlar da belə,
Dözməz, ucalıqdan enər, alçalar.

* * *

Sevmə, sevmə belə, sevmə, qadası,
Sevmə, qurban olum, sevmə nə olar?!
Bu dəli sevdadan məcnun söyüdlər
Arx üstə qıy çəkər, saçını yolar.

Sevmə, sevmə belə, sevmə, qadası,
Gecələr ulduzlar ağlayar, sevmə!
Sənin bu halına günəş tutular,
Üzünü dünyaya bağlayar, sevmə.

Sevmə, sevmə belə, sevmə, qadası,
Əridi, yox oldu gözünün yağı.
Bu qara sevdadan qorxuram bir gün,
Boş qalar qəlbində sevgi otağı.

* * *

Xəzan vurmuş bir ağacın
Yarpağıyam, tökülmüşəm.
Uçmuş bir evin, ocağın
Divarıyam, sökülmüşəm.

Bir vaxt arzu, ümid idim,
Hey didildim didim-didim.
Bir yenilməz igid idim,
Sənsizlikdən bükülmüşəm.

Unudulmuş söz olmuşam,
Odu sönmüş köz olmuşam,
Bir cüt aglar göz olmuşam-
Yollarına dikilmişəm.

* * *

Bu uşaq özündən yaşlı görünür,
Ağıllı görünür, başlı görünür,
Taleyi tikanlı, daşlı görünür,
Nədir bu uşağın günahı, Tanrım?

Eşitdiyi ilk səs topların səsi,
Çəkdiyi hər nəfəs barıt qoxusu,
Titrək gözlərində ölüm qorxusu,
Budurmu dünyanın sabahı, Tanrım?

Bu uşaq davanın hər üzün görüb,
Avtomatın görüb, süngüsün görüb,
Bəlkə də ölümün lap özün görüb,
Özün ol sən onun pənahı, Tanrım.

* * *

Düşmüşəm borana, qara, yağışa,
Sıxılıb, süzülüb suyum, gəlmişəm.
Bir az qocalmışam, kövrək olmuşam,
Bir az da qısalıb boyum, gəlmişəm.

Səndə böyümüşəm, ərsə yetmişəm,
Quzu otarmışam, dərsə getmişəm,
Sevib-sevilmişəm, bəhsə getmişəm
Gedib hayım, qalıb vayım, gəlmişəm.

Üzünə çıxmağa üzüm qalmayıb,
Gözünə baxmaga gözüm qalmayıb,
Daha ayrılıga dözüm qalmayıb,
Başımı yolunda qoyum, gəlmişəm.

Gəlmişəm saralmış yarpağın olam,
Lampası his atmış çırağın olam,
Öləm, bircə ovuc torpağın olam -
Elim, obam, köküm, soyum, gəlmişəm!

Əlirza HƏSRƏT

HƏLƏ GÖZLƏRİMİ DİLƏ TUTMUŞAM

Zər atıb oynadıq nərd, ürəyimdə,
Yalandan kəsdik də şərt ürəyimdə.
Sevgi ürəyimdə, dərd ürəyimdə, -
Üzümü sən gedən yola tutmuşam.

Qanım çox qaradır, gəl su qatmağa,
Su görüb qayıtdı bəlkə qu bağa.
Sönmüş ocaqlara çırpı atmağa,
Yaşanmış günlərdən şələ tutmuşam.

Bu çiçək özgənin olmasın deyə,
Gözümdə suya qoy, solmasın deyə.
Arxanca boylanıb dolmasın deyə,
Hələ gözlərimi dilə tutmuşam.

SEVMƏK HƏR ADAMIN UCALMAĞIDIR

Bir eşq tilsimidir Qu ayrılığı,
Sel gələ, aparmaz su ayrılığı.
Sevib dilə gətir bu ayrılığı,
Yaşanmış günlərdən ocaq çat, yaşa!

Pərişan saçların fikir dağıdır,
Sevmək hər adamın ucalığıdır.
Daha ömrün-günün xəzan çağıdır,
Belə nə söyləyim bu boyat yaşa?

Gözündən su içib Arazın, Kürün,
Solğun çiçəklərin ahına bürün.
Vida karvanıdır ruhum bu ömrün,
Arxamca çevirib salavat, yaşa!

O AĞAC RUHUMA HEYKƏL QOYUBLAR

Uca bir palıddım qollu-budaqlı,
Eh, kəsib-doğradı məni bir nadan.
Torpaq kötüyümü basıb bağrına,
Xatirə danışır yaşıllığımdan.

Daha aylar ötüb, fəsil dəyişib,
Havalar şaxtadı, göylər buluddu.
O ağac ruhuma heykəl qoyublar, -
Çırpısı olduğum ocağı, odu.

Tonqalda yanmağım eynimə gəlmir,
Kül olub qoşulum qoy əsən yelə.
Məni doğrayanı isitməyimdir, -
İçimi göynədib yandıran elə.

PAYIZ

Çiyninə aşırıb yapıncısını,
Payız əl eləyir üzü dağlara.
Ürəyə od salan buz baxış kimi, -
Düşübdür payızın gözü dağlara.

Çılpaq ağacların qoluna girib,
Öldürür özünü payız rüzgarı.
Divanə ruhumu çəkib çarmıxa,
Budaqlar pərişan, yarpaqlar sarı.

Payızı əynimə geyinib gəldim,
Yoluma şam tutdu illər sevgimi.
Ayrılıq payıdır hər sevən ürək,
Bahara tələsən durnalar kimi.

Başını bir az da dik tutub dağlar,
Enir yavaş-yavaş qar, ətəyinə.
Gördüm ki, sinəmdə qərar tutmayır,
Atdım ürəyimi yar ətəyinə.

XƏBƏRİN OLSUN

Yolları çox vurdum izinə calaq,
Bu yoldan, bu izdən nə xəbər alaq?
Ən yaxşı sözümü düz qalaq-qalaq,
Düşmən qabağında çəpərin olsun.

Bu eşqin dilini hələ var bilən,
Saçına hər düşən dəni qar bilən.
Sənə könül verən, səni yar bilən, -
Arxanca su atan bir pərin olsun.

Göz yaşı ürəyin çıxan şirəsi,
Yaşanmış hər ömrün eşqdir kirəsi.
Üstündə durduğun bu Yer kürəsi, -
Mənim ürəyimdir, xəbərin olsun!

BU DA BİZ DEYƏN AYRILIQ

Bu da biz deyən ayrılıq,
Bu da dərdin şən gözəli.
Bir qərib quş dimdiyində, -
Gəldi saçın dən gözəli.

Qərib quşsa məhəbbət də,
Yuvası qızmaz, əlbəttə.
Bu yurdda, bu məmləkətdə, -
Darıxmaqdır ən gözəli.

Qəriblik ölüm mələyim,
Qoy ömrü gün-gün ələyim.
Səni harda dəfn eləyim, -
Ruhumun bədən gözəli?!

HƏR EŞQ YOL AYRICIDIR

Hər eşq yol ayrıcıdır,
Birini qəbul elə.
Sevib nəzir qoymağa, -
Pirini qəbul elə.

Saçından tutub dəstə,
Gəl ahəstə - ahəstə.
Barı gözümün üstə, -
Yerini qəbul elə.

Bu sürdüyüm ömrə bax,
Tökülür yarpaq-yarpaq.
Vətən dediyim torpaq, -
Gorumu qəbul elə!

Mina RƏŞİD

YURDA SALAM

Sən ay tifağı dağılmış,
A Yurdum, ay elim, salam...
Yağı tapdağı altında -
İnildəyən gülüm, salam.

Ərənlərdən bizə yetən,
Atamın məzarı itən,
Dağları köksümdə bitən-
Atam, babam, dilim, salam.

Necə gülüstanım deyim,
Güllərimi puç eyləyib?...
Dərdimi açım, söyləyib-
Sonra rahat ölüm, salam.

Min bir töhmətlə döyüləm,
Yox, Sənsiz ölən deyiləm,
Daha "qana qan" deyibən-
İgid oğlun olum, salam.
Sənlə var olum, salam.

ÜRƏYİM NƏM ÇƏKƏR...

Nisgili olanlar gözlərindən qocalar,
dəniz sahili kimidi gözlər
hər şeyi üzə çıxarar...

Gözdən uzaq düşdü obalarımız,
cığırlarını ot basdı "gözəl kəndimiz"in.
Çıraqsız yurdumuzda
adamların boyu-biçimi bilinməz,
oyuncaqsız körpələr
sevinməz

Ürəyim nəm çəkər
o körpə, qarımış gözlərdən
baş götürüb mən də
qaçmaq istərəm çoxu kimi,
amma hara getsəm daş kimi
qəlbimdən asılar o qəmgin baxışlar...

ZİBİLLİK PƏRVANƏLƏRİ...

Sən bir alaq otu,
zəhərli göbələk kimi, bir şey olmasan da
münbit şəraitə düşmüsən
dövran sənin dövranındı, balası.
Ağzına gələni yaz, gəlməyəni də
Malın mal olmasa da, bazarın bazardı, balası.

İndi çərxi-fələk tərsinə dövran edir
Özü də çox sürətlə fırlanır, sən də fırlan, balası...

...İndi düz söz qılınc kimi kəsməsə də,
ölməyib hələ,
sadəcə, abrına bükülüb susur söz sərkərdələri
və meydanın ortasından onlara baxıb
bic-bic gülümsəyir zibillik pərvanələri....

ADAMLAR

Doğru sözmüş "əlin duzu",
Neyləyirəm - havayı.
Allah, burda bir kimsəm yox-
Mənim Səndən savayı.

Dərə-təpə, düz keçirəm,
Bir qolumdan tutan yox.
Büdrəsəm də səs salmaram -
Burda haya çatan yox.

Bura adam səhrasıdı,
Boşluq üstə qalaça.
Burda kimsə gözə dəyməz -
Adamlar bapbalaca.

BU ÖMÜR BİR YUXU DEYİL

Bu ömür bir yuxu deyil,
Gözlərim açıq, yummuram.
Könlümü tox eyləmişəm -
Adamdan heç nə ummuram.

Hər dərdin dərmanı Haqda,
Adamların çoxu saxta,
Nə varsa bağlayıb baxta, -
Xəyallara qul olmuram.

Arzularım qucaq-qucaq,
Azad ruhum uçaq-uçaq,
Olsa da bu dünya qoca-
Mən də balaca qalmıram.

SƏN SEVİNƏ BİLMİRSƏN

Qəlbə yeni qəm dolur,
Göz yaşını silincə.
Sevinc qurban istəyir-
Üzün bir yol gülüncə.

Həyatın yollarına,
Xalı-xalça salınmır.
Neyləsən, nə istəsən-
Sən istəyən alınmır.

Nə dünya, nə də tale,
hesablaşmır sənlə.
Sən sevinə bilmirsən,
Böyüyürsən qəmlə.

* * *

...İndi bildim o incə sevgi nəğmələrinin sirrini,
indi anladım şeirlərin ən səmimisini,
bulanıq suların durulduğunu
çınqılların bərq vurduğunu
görüncə anladım...
nələri...nələri...
günəşin sənlə bir doğulduğunu
anladım
sənsiz yaşamayınca...

Xalid MAHMUD

ÖZÜMDƏN UZAQLAŞDIM...

Göyə bir səs atdım daş əvəzinə,
Bilmədim nifrətdi,
ya duadı bu.
Gözlədim qayıtsın, qayıtmadı ki...

Həsrət sükutumu dişlədi sanki,
Bir qız yaxasıyla əlimi açdı.
İsti dodağında üzüm üşüdü...

Ümid yazıq-yazıq boynunu bükdü,
Bir işıq ləkəsi düşdü üstümə.

Məsafə uzandı...
Addım səsləri...
Canını tapşırdı bir qara kölgə.

Özümdən uzaqlaşdım
barmaqlarımın ucunda,
Görəsən, heç kəsi oyatmadım ki?..

SOYUN GÖZLƏRİMİ...

Mənim həsrətimin dərd mövsümüdü,
Torpağam,
üstümdən çək ayağını,
Buludlar sinəmin üstünə yağsın.

Bir ağız bayatı hönkür üstümə,
Qaysaqlı yaramın üstü açılsın.

Bir az buludları çək sağ tərəfə,
Gözlərim günəşi görmək istəyir.

Açıq düymələrin nağıl danışır,
Bəsdi, öldüm axı,
yaxanı bağla...

Bədənim uçunur, bəlkə, gedəsən,
Götür, nəyim varsa özünlə apar,

Özümdən getmədim,
özümə gəldim...
Günahım nədisə, bağışla, Tanrım.
Soyun gözlərimi, ört günahımı.

ƏLLƏRİM YORULUB

Günahım divarda asılan şəkil,
Üstünü örtməyə
çatmır əllərim.
Nifrət laxtalanıb dodaqlarımda...

Düşüb ağırlığı çiynimin üstə,
Basıram torpağa günahlarımı,
Ağrısı ağlayır addımlarımda...

Qan axır ümidin ətəklərindən,
Əyil, torpaq götür, yaramı bağla...

Ölmədim, ölümdən qorxdum bəlkə də,
Ölüm, günahımı qanımla yuyum...

Əllərim yorulub...
Ruhum tər tökür...
Növbəyə durmuşam döyüşmək üçün...

Haqqın dərgahında dayanıb səssiz,
Barmaqlar qul kimi əmrə müntəzir...

GƏL GEDƏK

Sözümün ağzından düşdüm şəhərə,
gəzdim misra-misra küçələrində.
Gecəni gecətək oxuyub gördüm,
sərib günahını səhərin üstə,
Astarı didilib küçələrin də.

Dayan, ayaq saxla, gedən qaraltı,
söylə, günahının qiyməti nədi?
Yaxın gəl, tanıdım, üzünün rəngi
bir ovuc həyanın qiymətinədi.

Sən də mənim kimi mələk deyilsən,
gəl, qoşa adlayaq boş küçələri,
susub danışmayan daş küçələri.
Az qalıb səhərin açılmağına,
gəl gedək dünyadan işıqlaşmamış.

Gedək, qaranlığın içiylə gedək,
gedək bu dünyadan, günahkarıq biz.
Qorxuram, gün çıxa, səhər açıla,
tuta əlimizdən günahlarımız.

YAZIDI BU

Mənə sual vermə, canım,
alnımdakı yazıdı bu.
Barmağımdan keçən dərdin,
varaqlara nazıdı bu.

Söz istəsə ürək səndən,
tut ümidin ətəyindən,
ya bəxtindən, taleyindən,
deməyin narazıdı bu.

Ömürdü, yoxdan var kimi,
sıxar bizi divar kimi,
qanad verər, sıxar kimi,
bəxtimin qəm tasıdı bu.

Büdrəmədim hər cığırda,
addımladım xırda-xırda,
alnımdan keçən cığır da,
taleyin qarasıdı bu.

ZİNDAN KİMİ

Ayaqların yorğun yerişi
darısqal otaqdakı var-gəlin
səbəbini anladır...

Balaca gözlükdən düşən
işıq da
ağır yük kimi görünür
çiyinlərimdə...

Addım səslərindəki
nifrətin dibsizliyi
üşüdür divarları.

Hər şey
zindan kimi görünür...
Qapını açan ölümə
xoş gəldin - deyir
gözlərimdəki ümidsizlik...

YAŞAMAĞA DOĞRU

Dostları tanımaq asanmış demə,
bir az yaşamağa macalın ola.
Gərək bu dünyada yaşamağa da
üzünün dərisi lap qalın ola.

Neyləyək, belədi həyat tərzimiz,
lap elə yaşayıb, biz olməsək də.
Zaman tərzimizi özü açacaq,
görənlər görəcək, biz görməsək də.

Mənmiyəm hər şeyin sahibi, bilməm,
bilməməyin özü bir təsəllidi.
Çalışma hər şeyə kölgə salmağa,
gecəylə sabahın yeri bəllidi.

Üstümə gecəylə dağılanları,
gündüzlə yuyuram ətəklərimdən.
Mən də misra-misra açdım süfrəmi,
götürüb dadına baxsın hər gələn.

Qəşəm ÇIRAQLI

YOLUNU KƏSİR

Kasıb
Hara gedir,
Hardan gəlir,
Hara tələsir,
Borcları boy verib
Yolunu kəsir.

QƏLƏMƏ GÜVƏNDİ SÖZ

İnsanı ağladan,
Güldürəndi söz.
İnsanı dirildən,
Öldürəndi söz.
Qılınca, qalxana
Dönəndi söz,
Amma özü də qələmə
Güvəndi söz.

ÇOX YAŞAMAĞIN SİRRİ

Bostanlara daş atmıram,
Heç kəsi aldatmıram,
Qeybət qırmıram,
Ara vurmuram,
Rüşvət də almıram.
Tanrının iznilə
Şeir yazmıram.
Heç nədən, heç kimdən
Qorxmuram.
Gecələr rahat yatıb, -
Səhərlər rahat dururam.
Uzun ömürlü oluram.

HALAL-HALALIN OLSUN

Halal-halalın olsun,
Cahi-calalın olsun.
Halal otur,
Halal dur, -
Uzun ömrə yol budur.
Haram tikələr yesən,
Ömrü tükəndirərsən.

◆ YAZIÇININ ARXİVİNDƏN

Həsən SEYİDBƏYLİ

XƏZƏR*

III FƏSİL

Bir vaxtlar Bakının dənizkənarı bağından taxta körpü uzanırdı. Azı iki yüz metr dənizin içərilərinə uzanan bu geniş körpünün axırında taxtadan tikilmiş qəşəng bir bina var idi. Bura "dəniz hamamı" deyirdilər. Şəhərin dağlıq hissəsindən baxanda "dəniz hamamı" sahil qumlarından baş almış sarıya çalan, açıq-çəhrayı, çox ləçəkli gülə bənzəyirdi. Əsl memarlıq abidəsi idi. Bakı uşaqlarının əksəriyyəti bu "dəniz hamamı"nda üzmək öyrənmiş, əvvəl onun taxta döşəməli hovuzunda əl-qol atıb suyun üzərində dayanmağa adət eləmiş, sonra isə hamamın açıq dənizə çıxan hovuzuna baş vurmuşdur. Çoxları bütün boş vaxtlarını burada keçirərdi; hamamın sol cinahı qadınlara, sağ cinahı kişilərə məxsus idi. Nömrələrdə də taxta pillələr lap dənizin içinə enir və nömrənin sahibi oradakı hovuza baş vurub üzür, sonra da özünü günə verirdi. Bəzən dəcəl oğlanlar sualtı üzə-üzə gəlib qadınlara məxsus hovuzlara çıxır və belə hallarda köməyə çağıran qadın səsləri "dəniz hamamı"nı lərzəyə gətirirdi. İkinci mərtəbənin uca damında özlərini günə vermək istəyənlər üçün taxta uzanacaqlar düzülmüşdü...Ümumi hovuzlardan da açıq dənizə taxta pillələr enir, təzəcə üzmək öyrənənlər bu pillələrlə addım-addım suya düşür və pillələrin yaxınlığında üzürdülər ki, yorulan kimi geri qayıda bilsinlər. Yaxşı üzənlər suya tullanmaq üçün qurulmuş tramplinlərdən birbaşa təzə öyrənənlərin üstünə tullanıb onların yaxınlığında dənizə düşür, suyu üzlərinə çiləyir, yazıqları çaşdırır, qorxudur, bundan ləzzət alır, lazım gələndə isə onlara sudan çıxmağa kömək edirdilər. Bəzən üzə bilməyən uşaqları çığırdaçığırda açıq dənizə itələyirdilər. Özlərini itirmiş uşaqlar dərin sularda çapalayır, boğulaboğula o ki var şor su içir, köməyə çağırır, onları suya itələyənlər isə ürəkdən gülürdülər. Lakin eyni zamanda boğulanlar sayıqlıqlarını itirmirdilər. Çünki yaşamaq istəyən uşaq çapalayıb bədənini suyun üzündə saxlamağa can atır və yavaş-yavaş böyük çətinliklə də olsa buna nail olurdu. Lakin tez yorulurdu. Onun suya batıb boğulmaq təhlükəsini hiss edən təcrübəli üzgüçülər cəld dənizə baş vurub uşağı yuxarı - taxta meydançaya çıxarırdılar. Sonra, bir azdan yenə də öz sərt zarafatlarını təkrar edirdilər...Üçüncü dəfə uşaq özü suya atılırdı və artıq suyun üzündə sərbəst dayana bilən həmin uşağın sevinci yerə-göyə sığmırdı. O, özünü bu vaxta kimi qorxduğu dənizin qalibi, hətta sahibi hesab etməyə başlayırdı...Hər il minlərlə uşaq belə sərt imtahandan çıxıb dənizin sahibi, həm də dostu olurdu...Bakı uşaqlarının əksəriyyəti bu "dəniz hamamı"nda böyüyür, boya-başa çatır, yaşa dolur, hətta qocalanda da buradan ayrılmaq istəmirdilər...

...İndi daha Bakının bu guşəsində Xəzərin sahilinə xüsusi yaraşıq verən "dəniz hamamı" yox idi. O yalnız qocaların xatirində yaşayırdı. Vaxtı ilə günlərini, gəncliyini, ən yaxşı illərini bu sahildə keçirmiş qocalar həmin itkini bağışlaya bilmirdilər. Onların xatirində dəniz kənarının daha bir silinməz mənzərəsi qalmışdı...O vaxtlar bütün sahil boyu uzanan daş barının üstündə səhər sübhdən əli tilovlu balaca balıqçılar cərgələnib oturardılar: qırmaqlarına qırmızıqanad balıqlar düşəndə vəcdə gələr, sevinib çığırışardılar...İndi balıqçılar da neçə illərdir ki, tilovlarını yığışdırıb bu sahildən getmişdilər. Çünki daha buralara balıq gəlmirdi...

...Düzdür, indi də sahilin mənzərəsi ürək açırdı: buraları yaxşıca sahmana salmışdılar. Aypara şəklində betona alınmış sahil boyu dəniz səthindəki neft və mazut pərdələrini yığmaq üçün xüsusi tələ qurulmuşdu. Cənub küləyi əsəndə dənizin axını neft, mazut pərdəsini gətirib sahil boyu uzanan həmin tələyə axıdır, tələ dolan kimi güclü nasoslar onun içərisindəki zibilli suları sovurub təmizləyici qurğulara çatdırırdı. Heyif ki, nasoslar tez-tez xarab olur və belə hallarda şimal küləyi ağzına qədər dolu tələlərdəki neft və mazut pərdələrini təzədən dənizə aparır və Xəzərin səthində səyyar ləkələr üzməyə başlayırdı. Nasoslar xarab olanda süpürgəçi gəmilər həmin dolu tələlərə yaxınlaşıb içindəki çirkli suları öz çənlərinə doldurur və aparıb xüsusi təmizləyici qurğulara təhvil verirdilər. Ancaq bu gəmilərin də bir çatışmayan cəhəti var idi: Əsən küləyin gücü iki baldan artıq olanda onlar dənizə çıxa bilmirdilər.

Xəzərlə əlaqədar olan müəssisələrin əksəriyyəti öz təmizləmə qurğularının nəzarət laboratoriyalarını qaydaya salır və bu iş yaxşı nəticə verirdi. Daha gəmilər ballast suları dənizə atmır, gəlib sahildə təmizləmə qurğularına təhvil verirdilər. Xəzərin hər yerində xüsusi gəmilər dənizin səthini neft ləkələrindən süpürüb təmizləməyə, az qala yalamağa çalışırdı. Bakıdakı tərsanələrə "Lyalşik" adlı gəmilər düzəltmək üçün sifariş gəlmişdi. Bu gəmilər sahilə yan almalı, hər bir gəmiyə yaxınlaşıb onun maşınxanasında yığılmış çirkli, yağlı suları öz çənlərinə sovurmalı və beləliklə, həmin çirkli sular daha dənizə tullanmamalı idi. Lakin bütün bu tədbirlər Xəzərin təmizlənmə problemini bütünlüklə həll edə bilməzdi. Bəziləri deyirdilər ki, Xəzərin təmizlənmə problemini dənizin özündə deyil, kənarda axtarmaq lazımdır: dərmanlanan çöllərdə, işlənmiş istehsalat sularını hələ təmizləməyib dənizə axıdan müəssisələrdə və sairədə.

Deyirdilər ki, dəniz mədənlərində təmizliyə xeyli riayət olunmalıdır. Çünki mədən sularındakı duzun miqdarı dənizdəkindən xeyli artıqdır. Bəzi hallarda lay qumları dənizə tökənləri də var söyürdülər, çünki bu qumlar dənizi çirkləndirirdi. Lakin son zamanlar başqa cür söhbətlər də yayılırdı. Deyirdilər ki, lay qumların tərkibində çoxlu miqdarda kvars tapılmışdır. Bu isə həmin qumların şüşə istehsalı üçün əvəzedilməz xammal olduğunu sübut edirdi. Əgər bu lay qumlar xüsusi tanker vasitəsi ilə mədənlərdən sahilə daşınsaydı, milyon manatlarla qənaətə səbəb olardı. Çünki indi şüşə zavoduna lazım olan xammal uzaqdan daşınıb gətirilir və bunun üçün yüz minlərlə vaqon ayırmalı olurdular.

Kortəbii qüvvələr istisna olunarsa, Xəzər sahillərində yaxşı və pis hər nə baş verirdisə, bunun səbəbini insanların niyyətində, əməlində, yaxud şüursuzluğunda axtarmaq lazım gəlirdi...

Xəzərin sol cinahında, hündür təpəlikdə nəhəng bir mikrorayon ucaldı. Adını "Əhmədli" qəsəbəsi qoydular. Abşeronun on minlərlə əhalisi bu qəsəbənin axar-baxarlı mənzillərinə köçdü...Doğrudur, hələ bəzi binalarda işıq, qaz, su ilə təmin olunma məsələləri yoluna düşməmişdi. Nəqliyyat da istənilən kimi işləmirdi. Lakin camaat razı idi. Bilirdilər ki, bunlar da yavaş-yavaş yoluna düşəcək. Buranın havası yaxşı, torpağı münbit idi. Yaşıllığı adamın ruhunu oxşayırdı. Yaxında qabaran Xəzər də elə bil dalğalanıb onların evlərinə, otaqlarına qonaq gəlirdi...

...Dördüncü dəfə idi ki, Həbibulla Səmədzadə dəniz problemi ilə məşğul olan alimlərlə və mütəxəssislərlə bir yerdə "Rodan" və "Metan" gəmilərində İran sahillərinə gedir və orada Xəzər sularının hidrokimyəvi təhlili ilə məşğul olurdu. Həm də Xəzərin bu cənub sularının çirklənmə dərəcəsini təyin edirdi. Müqaviləyə görə İranın da Xəzərlə əlaqədar olan bütün müəssisələrində təmizləmə qurğuları tikməyi layihəçilərimiz öz öhdələrinə götürmüşdülər.

Ölkənin şimal limanları üçün "Lyalşik"lərin hazırlanması Bakı tərsanələrinə sifariş edilirdi.

Ümumiyyətlə, Bakıda həyat qaynayır, çoxtərəfli təsərrüfatın nəbzi dolğun, sağlam bir ürək kimi vururdu. Şəhərdə yeni-yeni kvartallar yaranır, təzə açılmış içməli su xətti evlərə saflıq, təmizlik, sevinc gətirirdi. Təzə meydançalar planlaşdırılır, əzəmətli heykəllər ucalır, ölkənin və dünyanın adlı-sanlı sənətkarları bu gözəl şəhərə qonaq gəlirdilər.

Bakının göylərində günəş get-gedə daha çox parlayır, havalar qızırdı. Havaların belə ilıq, xoş keçməsi tərsanədəki camaatın əhvalını yaxşılaşdırır və bu əhvalı-ruhiyyə özünü onların işində də göstərirdi.

Kəbirə xəstəxanada gecə-gündüz növbətçi qalanda Lalə dərsdən sonra ictimai işlərini mümkün qədər tez qurtarmağa çalışır, tələsik özünü evə çatdırır, anasının dünən axşamdan bişirib hazırladığı xörəyi qızdırıb atasını və qardaşını süfrə başına çağırır, qab-qacağı yuyur və otaqları sahmana salırdı. Sözün əsl mənasında, Lalə evin ikinci sahibəsi sayılırdı.

Bu gün də səhər tezdən Kəbirə xəstəxanaya gedib gecə-gündüz növbəsini qəbul etmişdi. Lalə heç yerdə ləngiməməyə çalışaraq evə tələsirdi. Bayır qapını öz açarı ilə açıb adəti üzrə çiyni ilə itələdi, dəhlizə keçib çəkmələrini çıxardı, şapşuplarını geyib öz otağının qapısını araladı, açıq mavi rəngli baş yaylığı uçub kürsünün söykənəcəyinə qondu, portfel stolun üstü ilə sürüşdü, lap kənarında ilişib qaldı. Lalə yüyürüb özünü mətbəxə saldı. Önlüyünü taxıb süfrə açmağa başladı. Atası ilə qardaşının evdə olub-olmadıqlarını yoxlamağa imkan tapmamışdı. Bütün mənzil sükut içində idi. Birdən bu sükutu qəribə sözlər pozdu. Bu sözləri deyən atasının səsi idi:

-...Kaspi, Xəzər, Traxkan, Xvalın dənizi.

Lalə atasının dərindən köks ötürdüyünü də eşitdi:

-...Bu dənizə o qədər ad veriblər ki...

*Jurnal vapiantı. Əvvəli jurnalımızın ötən sayında

Atasının stenoqrafçı Zümrüdü bura dəvət etməkdən imtina etdiyini və təzə iş üsuluna keçdiyini Lalə çoxdan bilirdi. Həbibulla fikirlərini aldığı təzə maqnitofon lentinə yazdırır, lazım olan vaxt maqnitofon valını dayandırır, düşünür, bəzi cümlələri təkrar diqtə edirdi. Sonra bu lenti stenoqrafçılara göndərir və tezliklə makinadə çap olunmuş çıxışını, yaxud məqaləsini ona qaytarırdılar, kağız üzərində bir daha işləyib öz fikirlərini, mülahizələrini dəqiqləşdirirdi. Bu gün Laləyə elə gəldi ki, atasının səsində kədər, qüssə qarışıq yoğun bir ahəng var. Həm kədərli idi onun səsi, həm qayğılı; bu səsdə həm qeyri-adi bir çağırış, həyəcan duyulurdu, həm də böyük, səmimi bir ürək ağrısı...

Bəlkə də, bu qəribə bir etiraf idi. Yox, əlbəttə ki, bu adi məqalə deyildi. Bütün insanlara ehtiraslı bir müraciət, odlu çağırış idi:

-...Yer üzünün ən böyük gölü, ən böyük bağlı sütunları...

Atası yenə də köksünü ötürdü:

-...Bioloji və mineral xəzinələri tükənməz olan Xəzər!...Balıq sərvətinin, ağ balıq və qızıl balığının tayı-bərabəri olmayan gözəl dəniz...Ən qədim dövrlərdən onun sahillərində yaşayan qəbilələr, nəsillər bu dənizə müxtəlif adlar vermişlər. Xəzərin sahilləri dəyişdikcə min illər ərzində onun yeni sahillərinə hər dəfə başqa-başqa qəbilələr, nəsillər gəlmiş və dənizin keçmişindən xəbərsiz olduqlarından bu dənizə yeni ad vermişlər. Xəzərin qırxdan çox adı olmuşdur. Adın biri onun sakitliyini vəsf etmiş, o biri sularının saflığını, dərinliyini, başqası onun kükrəyən dalğalarını, çılğın təbiətini bircə sözə sıxışdırmağa çalışmışdı...

Lalə səssizcə atasının iş otağının qapısına yaxınlaşıb dayandı. Nəfəs çəkməyə də ehtiyat edirdi. Atasının dünəndən qırxılmamış üzü çox gərgin idi. Onun üzündəki gümüşü rənginə çalan ipək kimi yumşaq tükü Lalə ilk dəfə idi ki, görürdü. Atasının boynunun əzələləri boşalıb süstləşmişdi. Bu süstlük onun simasını daha yorğun və üzgün göstərirdi. Əlindəki siqaretdən dərin bir qullab vurub külünü yazı stolunun üstündəki böyük, çəhrayı balıqqulağına çırpdı:

-...Milyon illər bundan əvvəl Böyük Tetis okeanının dərinliklərindən doğub gah Ağ dənizlə, gah Qara dənizlə, gah da Aral dənizi ilə qovuşub ayrılan Xəzər bir vaxtlar ərazisindən də on üç dəfə az yer tuturdu.

Atası birdən-birə Laləyə elə yalqız və kimsəsiz göründü ki, qızın ona yazığı gəldi. Ürəyi kövrəldi, gözlərini yaş çulğaladı.

Həbibulla susdu. Deyəsən, istədiyi sözü tapa bilmirdi.

Lalə gah atasına, gah da maqnitofonda boş-boş hərlənən lentə və təkərə baxdı. Xeyli vaxt idi ki, atası istədiyi sözü tapa bilmirdi. Lalənin ürəyi narahatlıq içində çırpınmağa başladı. Nəhayət, Həbibullanın qara qaşları çatıldı və o, əlini uzadıb barmağı ilə düyməni basdı, maqnitofonun yaşıl gözü söndü və təkəri dayandı. Fikrini dağıtmaq üçün Həbibulla bir an başını qaldırdı, qapıdan uzaqlaşmağa imkan tapmamış Laləni gördü və təəccüblə soruşdu:

- Nə var, bir xata-zad baş verməyib ki?

- Yox-yox...Soğan təmizləyirdim...Bir işə bax ha, deməli, indikindən on üç dəfə kiçikmiş Xəzər. Lap bir ovuc suyu var imiş. Bəs alimlər buna nə deyir?

Həbibulla qızının sözünə təəccüb etmədi. Bayaqkı fikirlərini davam etdirirmiş kimi dedi:

- Xəzər bir neçə buzlanma dövrlərini də görüb. Elə ki yer üzündə təzədən isti yellər cərəyan etməyə, torpaq qızmağa başlayırdı, buzlaqlar əriyib onların selləri Xəzərə axırdı. Xəzər yer üzünün ən həssas dənizidir. Elə ki istilik həmişəkindən bir az yuxarı qalxır, indiki kimi istilər düşür, Xəzərin suları şiddətlə buxarlanır. Xəzər arıqlayır, bir dəri olur, bir sümük. Elə ki Xəzərin səthi aşağı enir, suları əvvəlki sahillərindən uzaqlaşır, onun sahil qumlarından şəhərlər baş vurub boylanır. Yaxınlarda Dərbənd tərəfdə də suyun altından bir şəhər baş qaldırmışdır...

Həbibulla daha nəyi isə xatırlayıb fikrini davam etdirmək istədi. Lakin gözlənilmədən susdu. Qəşəng başını silkələyib ötkəm bir səslə dedi:

- Yaman acımışam. Yeməyə bir şey tapılar?

Lalənin ürəyi sevincle döyündü. Bu dəfə atası ona az qala iyirmi yaş cavan göründü. Elə bil, bütün yorğunluğunu, illərin yükünü, silkələyib üstündən atmışdı.

- Bu saat, - deyə Lalə yerindən sıçradı. - Səni çağıraram.

Mətbəxə yetişib qazanın altında yanan qazı söndürdü və yenə də atasının səsini eşitdi:

-...İnsanlar lap qədim zamanlardan bu dənizin sularından istifadə edir, sahillərində həyat qururdular. Sonra insanlar onun dərinliyinə, dibinə də sahib olmaq istədilər. Bəndlər çəkib dənizə axan çayların yolunu kəsdilər və beləliklə, Xəzər dənizində ixtiyar sahibi oldular...Odur ki, indi insanlar özləri törətdikləri çətinliklərlə üzləşirlər...

Mətbəxdən Lalənin səsi eşidildi:

- Ata, xörəyin soyuyur.

Həbibulla bir müddət də mətbəxə gəlmədi. Deyəsən, yenə də söz axtarırdı. Nəhayət,

ayaqlarını sürüyə-sürüyə gəlib mətbəxə çatdı. Deyəsən, fikri dağınıq olduğundan Kəbirənin şapşuplarını geyinmişdi. Elə qəribə bir vəziyyətdə dayanmışdı ki, sanki bura nə üçün gəldiyini unutmuşdu. Lakin bir neçə saniyə sonra onu həyəcanlandıran fikirlərdən canını qurtarıb səliqəli süfrəni və qızını gördü. Lalənin mətbəxdə göstərdiyi fəaliyyət onun xoşuna gəlirdi. Buna xüsusilə o, ağır günlərdə - Kəbirənin xəstəxanada yatdığı günlərdə adət etmişdi. İndi də Lalənin sərbəst davranışına baxır və həzz alırdı. Qız gah çayniki odun üstünə qoyur, gah qabyuyanın yanında hərlənir, gah nəyi isə yuyur, nəyi isə qurudurdu. Baxmadan əlini ləmələrə uzadıb istədiyi qutunu, bankanı, şüşəni səhvsiz tapırdı. Belə anlarda Həbibulla qızının gələcəyi haqda düşünür və bir vaxt onun bu sahmanlı mətbəxdən, bu ata-ana evindən gedib başqa bir evdə, özgə bir adamın yanında yaşayacağını, ona belə qulluq edəcəyini, onun nazını çəkəcəyini, heç cürə ağlına sığışdıra bilmirdi. Bu fikirlərdə Həbibullanın xudpəsəndliyi müəyyən qədər özünü büruzə verirdisə də, qızının bir gün öz yuvasından uçacağını təsəvvürünə gətirəndə özünü xeyli əzgin hiss edirdi.

- Ata, - deyə Lalə dalğın halda dilləndi. - Bütün nadir tapılan heyvanlar üçün, quşlar üçün "Qırmızı kitab" açıblar. Adlarını bu kitaba yazıblar ki, daha onları qırmasınlar, bütün bəlalardan xilas eləsinlər. Bəs niyə dənizlər üçün, göllər üçün, çaylar üçün belə "Qırmızı kitab" açmırlar? Belə kitab açılsaydı mən hamısından əvvəl Xəzərin adını yazardım.

Lalənin bu sözləri Həbibullaya ağır gəldi:

- Bu bədbin fikirlər hardan girib beyninə?

Lalə diqqətlə atasının üzünə baxırdı. Ona elə gəlirdi ki, atası onun gözlərinin içinə baxmaq istəmir. Düşünmək olardı ki, başı yeməyə qarışıb. Amma Laləyə elə gəldi ki, atası onunla açıq danışmaqdan qaçır.

- Düz demirəm? - deyə yenə soruşdu.

- Əlbəttə, düz demirsən. Cəfəngiyyat danışırsan. Xəzərin saf sularını görmək, bu sularda çimmək nəsib olacaq sənə də.

- Bəs sənə? Sənin yaşıdlarına necə?

- Mənə?...Mən öz payımı görmüşəm...Həm saf sularında çimmişəm, həm də bolluca balığından yemişəm, həm naz-nemətini, həm də şıltaqlığını görmüşəm.

- Bəs sonra?...Sonra nə oldu Xəzərə?

Həbibulla köksünü ötürdü:

- Hər yerdə, hər işdə insan əli var. Hər şeyin banisi insandır. Hər şeyi biz özümüz mürəkkəbləşdiririk. Bəzən işi elə qarışdırırıq ki, sonra bunun içindən çıxa bilmirik. Bu çətinlikləri insanların bir-biri ilə münasibətində də görürük, insanın təbiətlə əlaqəsində də...Xəzər də təbiətin bir güşəsidir, özü də gözəl bir guşəsi...

Ata ilə qızın söhbəti xeyli çəkdi. Qalaktikanın və yer kürəsinin yaranması haqqında rəvayətlərdən maraqlı söhbət açıldı. Həbibulla armudu sətkandakı ətirli çaydan hərdən bir qurtum içə-içə, həvəslə söhbət edirdi:

- Planetimizin yaranması tarixini milyon-milyon illərin qalın pərdəsi arxasından oxuyan insanlar eyni zamanda bəşəriyyət tarixini bütün dəqiqliyi ilə aşkara çıxarda bilmir, xeyli rəvayətlərə əl atırlar...İnsanların yaddaşı çox zəifmiş. On min, iyirmi min il bundan əvvəl insanlar aləmində olub keçənlərdən bizə yalnız bəzi qazıntılar xəbər verir. Bir də ki, yaxın min illərdən qalan şifahi ədəbiyyat, dastanlar və zamanın qoruduğu qayalar üzərində, mağaraların divarlarında çəkilən şəkillər, sirli yazılar...

Lalə sanki şirin bir nağıla qulaq asırdı:

- Bəs Xəzərin sahillərində yaşayan qəbilələr, xalqlar haqqında necə, bir şey məlumdur?

Həbibulla bir müddət xəyala daldı. Lalə böyük maraq və səbr ilə atasının cavabını gözləyirdi. Həbibulla əvvəllər qızı ilə belə ciddi və ətraflı söhbətlər etməmişdi. Lalənin onun işinə göstərdiyi dərin maraq Həbibullanı mütəəssir etmişdi. Həm də Lalə o qədər həvəslə atasını dinləyirdi ki, elə bil, ürəyinin güclü cazibəsi ilə onun ürəyindəkiləri çəkir, atasını danışmağa sövq edirdi.

Həbibulla qarşısındakı çaydan bir qurtum da içib boğazını arıtladı:

- Xəzərin sahillərində müxtəlif xalqlar yaşayırdı: Şərqində, şimalında, cənubunda, qərbində...Xəzərlər də yaşayırdı onun sahillərində.

- Təxminən nə vaxtlar? - deyə Lalə cəld soruşdu.

- Təxminən, islamdan əvvəlki dövrlərdən gəlirdi onların sədası.

- Nə ilə məşğul olurdular o Xəzərlər?

- Bir az heyvandarlıqla, bir az əkinçiliklə. Amma əsas etibarı ilə qonşu ölkələrə, qəbilələrə hücum edib talançılıqla məşğul olurdular. Gəmiləri Xəzərin bu başından vurub o başından çıxırdı. Hökmdar öz quldur dəstəsini hər yerə göndərir, talan etdikləri var-dövlətin çoxunu özünə götürür, qalanını qoşunlar öz aralarında bölürdülər. Bəzən talana getmiş qoşunlar qayıtmır, onları başqa qəbilələr, xalqlar qırıb çatırdı. Bu qara xəbəri gətirən döyüşçünü hökmdarın əmri ilə o saat öldürürdülər. Varlı bir adam, yaxud qoşunbaşı

öləndə onun lələ-cavahiratını da qəbirə qoyub meyidlə bir yerdə basdırırdılar...Ancaq sərkərdə, yaxud hökmdar özü öləndə onun dəfn mərasimi böyük bir dəsgaha çevrilirdi...Ölmüş hökmdarın cəsədini yaxşıca mumiyalayır, öz gəmisinə qaldırır, oradakı bərli-bəzəkli otağında taxta əyləşdirirdilər. Sonra onun hərəmxanasından ən cavan, istəkli arvadını bayramsayağı geyindirməyə başlayırdılar. Yengə arvad elə canfəşanlıq edirdi ki, elə bil yazıq qızı toy mərasiminə hazırlayırdı. Bu vaxt minlərlə qul hökmdarın gəmisini kanatlarla çəkib sahilə çıxarır, orada qurulmuş qozaların üstünə qaldırır və çəminin altında nəhəng bir tonqal yandırmaq üçün hazırlıq görürdülər. Bütün işlər görülüb qurtarandan sonra hökmdarın cavan arvadını xüsusi qaldırıcı ilə gəminin göyərtəsinə çıxarır və ərinin otağına ötürürdülər. Burada qullar qızın boynuna ip sarıyıb iki yandan çəkərək onu boğmağa başlayırdılar. Qız yalvarıb fəryad qoparır, aman istəyirdi. Amma o vaxtlar Xəzərlərin bu sərt qanununu heç kəs poza bilməzdi. Hökmdar sevimli arvadını özü ilə aparmalı idi. Nəhayət, qız üzülüb yalvarırdı ki, onu incitməsinlər, canını tez alsınlar. Bunun üçün o, üstündəki bütün daş-qaşı, cavahiratı yengə arvada bağışlayırdı. Yalnız bundan sonra qullar qızın boynuna salınmış ipi daha böyük cəhdlə dartır və yengə arvad hökmdarın xəncərini bir neçə dəfə tələsik qızın ürəyinə sancıb çıxarırdı...Sonra qızı da hökmdarın ayaqları yanında oturdub gəmini tərk edirdilər. Tonqalın şiddətli alovu gəmiyə hücum edir, onun qatranlı gövdəsi o saat od tutur, elə şaqqıltı qalxırdı ki, hamını həm vəcdə, həm də dəhşətə gətirirdi. Bütün gəmi alova bürünəndən sonra bu fantastik tonqalın dilləri səmanın ənginliyində ucalır, onun odlu dilləri göyün soyuqluğu ilə toqquşub dəhşətli fırtına qoparır, bu fırtına gəminin külünü dənizin uzaq üfüqlərinə sarı sovurub aparır, həmin əcayib mənzərəni seyr edən Xəzərlər bunu müqəddəs mövhumi bir möcüzə kimi qiymətləndirirdilər.

Lalə dalğın bir heyrət içərisində dilləndi:

- İndi Xəzərin ləpədöyəninə, hamar qumlarına baxanda adama elə gəlir ki, bu yerlərdə narın qumlardan başqa heç vaxt heç nə olmayıb.

- İnsanın yaddaşı zəifdir...- deyə Həbibulla kədərlə təkrar etdi, - amma bizim qədim əcdadımız bəzi yerlərdə müəyyən izlər qoyub gedib. Qobustan qayalıqlarındakı şəkillər də bu izlərdəndir. O səhnələrin təsviri, rəqslər, məişət...Bu şəkillər həm də on min illər bundan əvvəl babalarımızın Xəzərdə balıq ovuna çıxdıqlarından xəbər verirdi...Əslinə baxsan, on min il nədir ki? Yer kürəsinin yaranma tarixi ilə müqayisədə dünən olan əhvalatdır. Amma əcdadımızın, babalarımızın qayaların üstündə qoyub getdikləri dəst-xətti olmasaydı, o dövrlər haqqında təsəvvürümüz daha kasad olardı.

Həbibulla siqaret yandırıb sözünə davam etdi:

- Vaxtilə Kür-Araz düzənliyi də Xəzərin dibi, yatağı idi. Dəniz oradan çəkilməndən sonra nəhəng duzlanmış sahə küləklərin gətirdiyi tozun, torpağın, qumun, daşqınların gətirdiyi palçığın, gilin altında qalıb əkin üçün çox münbit bir torpağa çevrilmişdi...Deyirlər, həmin yerlərdə ildə üç dəfə məhsul götürürdülər...

- Bəs sonra nə oldu o düzənliyə? - deyə Lalə yumru çənəsini xırdaca yumruqlarının üstünə qoyub böyük maraqla soruşdu: - Dəniz yenə qayıtdı qədim yatağına? Axı o yerlər yenə də duzlanıb.

- Bu dəfə o ucu-bucağı görünməyən düzənliyi insanlar özləri duzlandırdı. Keçən əsrdən ağ qızıl qızdırmasına tutulanlar böyük qazanc üçün o torpaqlarda pambıq əkməyə başladılar. Bol məhsul götürmək üçün əkin sahələrini selləmə üsulu ilə suvardılar. Selləmə bütün əkin yerini başdan-ayağa suya qərq etmək üsuludur. Sahələrə o qədər su buraxırdılar ki, vaxtilə dəniz dibi olan təbəqəyə çatıb oranın qədim duzlarını yuxarı qaldırır, buna görə də ikinci dəfə orada heç bir şey əkmək olmurdu. Bu səbəbdən də pambıq əkini üçün yeni-yeni yerlər şumlanır, həmin üsulla oralar da duzlandırılırdı...Bu da qazanc dalınca qaçan gəlmə adamların qoyub getdiyi izlərdən biridir...O düzənliyin duzunu yuyub əkinə yaralı hala salmaq üçün dövlətimiz milyardlarla vəsait xərcləməli olurdu.

Bayır qapı açıldı, Ziya gəldi və birbaşa dəhlizdən soruşdu:

- Yeməyə bir şey tapılar?

Həbibulla kədərlə gülümsündü...Bayaq o da Laləyə belə bir sual vermişdi. Özü də eyni sözləri işlətmişdi. Qəribə idi...Hər şey təkrar olunurdu. Sözlər də, cümlələr də, hadisələr də, həm də özündən qabaqdakına bənzəmirdi: həyat spiral şəklində inkişaf edirdi. Təkrarlar da bu spiralın yeni nöqtələrində başqa bir yüksəklikdə, başqa səviyyədə zühur edirdi...

IV FƏSİL

Nəcəf hələ heç vaxt özünü bu qədər yalqız və kimsəsiz hiss etməmişdi. İndi onun həyatının, yaşayışının, güzəranının bircə mənası var idi: o da Səlimə ilə bağlı idi. Səlimə Nəcəf üçün hər şey idi. Və hər şeyi əvəz edirdi. Arvadını, uşaqlarını, dostlarını, bütün adətlərini, istirahətini, yuxularını... Mağaza vitrinlərində yaxşı bir qadın parçası görəndə

fikirləşirdi ki, belə parçadan paltar tikdirsəydi, yəqin ki, Səliməyə çox yaraşardı. Yaxud başqa yerdə yük maşınlarının mağazadan təzə mebel daşıdığını görəndə təsəvvüründə Səlimənin xanımlıq edəcəyi, bu mebellə sahman olunduğu gözəl bir mənzil canlanırdı. Onu hər yerdə axtarırdı. Dönüb onun kölgəsi olmuşdu. Arabir onun izinə düşür, Səlimənin hara getdiyini öyrənir, dəqiqləşdirirdi...Səlimə də gah yerli komitənin işi ilə əlaqədar müəyyən təşkilatlara baş çəkir, gah mağazaya ərzaq dalınca gedirdi. Arabir mağazaların qadınlara məxsus olan şöbəsinə baş çəkir və Nəcəf vitrin şüşəsinin arxasından Səlimənin bazarlıq etməsinə tamaşa edirdi. Xüsusilə onun üzünün ifadəsini xatirində saxlamağa çalışırdı. Səlimənin sakit, qayğılı sifətinin cizgiləri əvvəlkindən cazibəli olmuşdu. Hətta satıcı və müştəri qadınlar da istər-istəməz Səliməni seyr edirdilər. Bəziləri həsədlə, bəziləri qibtə ilə, bəziləri heyrətlə...

"Doğrudanmı bu qadın həmin o qadındır, o Səlimədir?" - deyə Nəcəf ürəyi əsə-əsə fikirləşirdi. Nəsəf bu qadının vaxtilə ona mənsub olduğunu, hər gecə öz evinə buraxdığını və sözsüz bir mütiliklə təslim olduğunu heç cürə ağlına sığışdıra bilmir, bunların həqiqət olduğuna şübhə edirdi...

...Bir dəfə necə oldusa, yenə Səlimənin izinə düşdü və gördü ki, o, Ələsgər Adalı yaşayan küçəyə buruldu. Sifətində və hərəkətlərində nəsə bir səfərbərlik duyulurdu. Həm də Nəcəfə elə gəldi ki, Səlimənin üzündə qəti qərarla yanaşı qeyri-adi bir həyəcan da var. Ona elə gəldi ki, küçə qapısından içəri girməmişdən əvvəl Səlimə oğrun-oğrun yan-yörəsinə nəzər yetirdi. Nəcəf bu evi tanıyırdı. Bir dəfə o, həmin bu küçədə, üzbəüz səkinin daş barısının yanında dayanıb Ələsgər Adalını gözləmişdi. Onlar burada görüşməli idilər. Nəcəf elə bilirdi ki, Ələsgər bu görüşə gəlməyə cəsarət etməyəcək. Ancaq belə olmadı, görüşə də gəldi, hətta Nəcəfin dəvət elədiyi xəlvət yerə də getdi...Deməli, Səlimə bu saat onun yanına qalxır. Kim bilir, bəlkə də, başqa yerə gedir. Bu evdə Xəzər dənizçiliyi idarəsində, tərsanədə işləyən adamların yaşadığını bilirdi Nəcəf. Buna görə də fikirləşirdi ki, bəlkə, xəstəyə, təqaüdçü qocalardan birinə baş çəkir. Ancaq ürəyi bu fikirləri rədd edirdi. Ürəyi ona deyirdi ki, Səlimə bu saat məhz onun - təzədən Səlimə ilə Nəcəfin arasına girmiş Ələsgər Adalının yanına gedir.

...Nəcəf onu çox gözlədi. Bütün günü o arada hərləndi. Səlimə girdiyi küçə qapısından eşiyə çıxmadı. Əlbəttə, o, Ələsgərdən başqa heç kəsin yanında bu qədər ləngiyə bilməzdi...

...Nəcəf özünə yer tapa bilmirdi. Bəzən sürətlə gələn minik maşınının, yaxud avtobusun qarşısından qaçmaq əvəzinə, yerindəcə quruyub qalırdı. Sanki kənar bir səs ona deyirdi: "Tərpənmə! Dayan görək hansımızın əsəbləri daha möhkəmdir?" Sürücülər çevik hərəkətlə sükanı çevirib onun yanından yel kimi keçir, Nəcəf söyüşə, hədəyə bənzər sözlər eşidirdi.

Kənardan gələn səs onu tərifləyirdi: "Afərin, - deyirdi, - görürsən, sənin qarşında heç nə dayana bilmir. Sən hər şeyə qadirsən, sən hamıdan güclüsən, hamıdan!.." Lakin hər dəfə Səliməni görəndə Nəcəf öz zəifliyini bütün ağırlığı ilə hiss edir, nə yaxınlaşa bilir, nə də çağırmağa dili tərpənirdi. Boğazı qupquru quruyur, elə bil kimsə bütün iradəsini əlindən alırdı. İndi o, öz gücsüzlüyü ilə deyil, həm də ona "Sən güclüsən, qadirsən", - deyən səslə də çarpışırdı.

...Bütün varlığını üzən düşüncələrini dağıtmaq üçün məzuniyyət götürüb öz kəndinə yola düşdü. Ailəsi onu səksəkə ilə qarşıladı. Fikirləşdilər ki, görəsən, nə bədbəxtlik üz verib ki, Nəcəf heç kəsin gözləmədiyi halda evinə qayıdıb? Bəlkə, bir bədbəxtlik üz verib, maşınını sərnişinlərlə qarışıq aşırıb, bəlkə, adam vurub, buna görə də qaçıb burada gizlənib? Nəcəfin evə qayıtmasını başqa cür izah etmək mümkün deyildi.

Arvadı əl-ayağa düşüb cəld yayma bişirməyə başladı. Oğulları bir kənarda dayanıb yad adam kimi görünən, nimdaş paltarlı kişiyə təəccüblə tamaşa edirdilər. Bu adam onlara həm son dərəcə qoca, həm də güclü bir adam təsiri bağışlayırdı.

Balaca qızı yarım saata yaxın idi ki, toyuğu qabağına qatıb tutmaq istəyir, toyuq qaqqıldayıb gah onun əlindən çıxır, gah da uçub on-on beş addım o yanda yerə düşür, sağa-sola qaçırdı. Nəhayət, qızcığaz cəld bir sıçrayışla toyuğun üstünə yıxıldı. Onu qamarlayıb sevincək uşaqlara sarı baxdı. Böyük oğlu toğlu kəsdi.

Qara çubuqlardan hörülmüş hündür çəpərin arxasından tez-tez qonşuların sifətləri, başları görünürdü. Gah laqeyd, gah da soyuq maraq ifadə edən nəzərlərlə Nəcəfi süzür, dinməzcə başlarının hərəkəti ilə ona salam verir, həvəssiz bir-iki kəlmə danışıb çəpərdən uzaqlaşırdılar. Nəcəf bu adamların çoxunu unutmuşdu. Bir qismini heç tanımırdı. Öz doğma balalarını da yaxşı tanıya bilməmişdi. Bəlkə, ona görə idi ki, uşaqlar analarına çəkmişdilər. Nəcəf bu uşaqlarla ünsiyyət yaratmağa nə qədər cəhd etdisə də, bacarmadı. Uşaqlar xörəklərini yeyib bütün axşamı harasa getdilər. Anaları balaca qızı da rəfiqələrinin yanına göndərdi. Üst-başına nəzər yetirdi, saçlarını daradı, tək-tək hallarda örtdüyü örpəyini başına saldı, bir kənarda dayanıb uzun-uzadı ərinə baxdı və gözlədi...Gözlədi

ki, bu uzun illərin ayrılığından sonra əri onu öz yanına çağırar. Çox gözlədi, lakin Nəcəf onu çağırmadı.

Səhər Nəcəf hamı ilə uzaqdan-uzağa vidalaşıb getdi. Bu onun doğma kəndinə sonuncu gəlişi idi. Elə bil, onu bu kəndlə, buradakı adamlarla bağlayan hansı tellərinsə mövcud olub-olmadığını yoxlamaq istəyirdi. Bunun üçün də həmin kəndə gəldi, öz evini, bu evdə yaşayan qadınını və uşaqlarını gördü. Və başa düşdü ki, onları bir-biri ilə heç bir şey bağlamır, heç bir şey! Nə atalıq hissi, nə qohumluq, nə də valideyn borcu. Nəcəf özünə qarşı heç bir ünsiyyət, bağlılıq duymadı. Bütün varlığına soyuq bir kədər, kimsəsizlik kədəri hakim kəsildi. Neyləsin? Hara getsin? Oğul-uşağı tərəfindən unudulmuş, dostsuz, həmdəmsiz bir adam kimə gərək idi? Ona tamamilə yad gözlərlə baxan ailəsinin yanında qalmaq istəmədi: həm də Səlimənin yaşadığı bir şəhərdə ondan uzaqda ömür sürmək Nəcəf üçün dözülməz əzab, ağır işgəncə idi.

Nəcəf Səliməni zor ilə öz yanına qaytara bilməyəcəyini bütün sərtliyi ilə anlayırdı. Əslində özü də belə zorakılıq etmək niyyətində deyildi. İndi o, böyük bir arzu və istəklə yaşayırdı. İstəyirdi ki, Səlimə onu saf məhəbbətlə sevsin. Bu arzularla yaşayan Nəcəf istər-istəməz əvvəllər Səlimənin başına gətirdiyi çirkin oyunları, onun qəlbini necə viran etdiyini, həyatını necə alt-üst edib sındırdığını xatırlayırdı. Nələr gətirməmişdi Səlimənin başına?! İndi də istəyirdi ki, bu qadın onu saf məhəbbətlə sevsin?! Bu möcüzə yalnız Nəcəfin xəyalında baş verə bilərdi. Həyat isə...Həyat ondan qisas alırdı. Səliməni Ələsgər Adalının evinin yanında sonuncu dəfə gördüyü o gün Nəcəf özü ilə bu qadının arasındakı münasibətlərin həmişəlik qırıldığını başa düşdü. Başa düşdü ki, onun yolu hər yandan kəsilib, çıxılmaz bir quyuya düşüb. Qaranlıq, dərin, soyuq, dibi görünməyən, dar bir quyuya! Bu quyu məzara bənzəyirdi. Ancaq Nəcəf sağ idi. Diri-diri bu məzarda qalmaq istəmirdi. Dəhşət içərisində vurnuxmağa, bu sarsıntıdan, bu ölümün pəncəsindən qurtarmağa can atırdı. Kənardan gələn səs yenə də ona şirin vədlər verməyə başladı. Gözlənilməz bir addım atmağa, möcüzə yaratmağa çağırdı.

Səlimə ürəyinin dərinliyində bir vaxt Ələsgər Adalı ilə yaxınlaşa biləcəyini gizli ümidlə gözləyirdi. Tərsanədə hamının ona münasibəti yaxşı idi. Ələsgər Adalı ilə onun arasında olan əhvalatı bilənlər bu əhvalatı şirin, həm də az qala faciəli bir məhəbbət dastanı kimi təsəvvür edirdilər. Əgər Səlimənin bu gün də fitri bir gözəllik cazibəsi olduğu nəzərə alınarsa, görün bu məhəbbət dastanını hər kəs öz aləmində, öz xəyalında necə bəzəyir, necə zənginləşdirirdi.

Səlimə elektrod şöbəsinin qoca rəisini əvəz etməli olurdu. Çünki qoca son zamanlar tez-tez xəstələnir, işə çıxmırdı. Səlimə zahirən sakit, təmkinli görünürdü. İşdə çox cəld və tədbirli idi. Kişilər, xüsusilə cavanlar ona böyük hörmət bəsləyir, bəziləri həddindən artıq nəvaziş göstərirdilər. Daha heç kəs ilk zamanlar olduğu kimi onun ünvanına ikibaşlı sözlər atmırdı. Lakin Səlimə indi də, ona baxan kişilərin əksəriyyətinin gözlərində ilıq bir həsrət, çağırış, gizli bir arzu görürdü. Buna baxmayaraq, özünü əvvəlki kimi tənha hiss etmir, yoldaşlarının, ümumiyyətlə, tərsanə camaatının rəğbətini hər gün, hər saat hiss edirdi. Yaşca Səlimədən cavan oğlanlar onun keçmişinə, keçirdiyi əzabların acısına-şirininə vurulur, qızların çoxu ona açıq qibtə ilə baxırdı. Hətta xəyalpərəst qızlardan biri köksünü dərindən ötürüb demişdi: "Əgər bütün yer üzünün ləl-cavahiratı mənim olsaydı, hamısını verib Səlimənin gözəlliyini, məlahətini və onun başına gələnləri özüm üçün alardım".

Bir dəfə Bayılın üstüörtülü bazarında kartof alanda Səliməyə ətli-canlı, qarabuğdayı bir qadın yan alıb soruşdu:

- Sən həmin o Səliməsən?

Səlimə belə kobud rəftarı çoxdan unutmuşdu. Hamı onunla son dərəcə nəzakətlə rəftar edirdi.

- Necə yəni həmin Səlimə? - deyə təəccüblə soruşdu.

- Ay qız, tərsanədə işləmirsən?

- Sizə nə lazımdır?

- Eşitmişəm, camaatın ürəyini yandırıb-yaxırsan orada.

Bu sözlər Səliməni o ki var qəzəbləndirdi:

- Danışığınıza fikir verin! Siz kimsiniz axı?!

- Özündən çıxma! Elə doğrudan da cananmışsan. Adam arvadlığı ilə sənə vurulur, baxdıqca baxmaq istəyir. Bəs o yazıq Ələsgər başına nə kül töksün?!

Ələsgərin adını eşidən kimi Səlimə quruyub qaldı. Fikirləşdi ki: "Ələsgər hara - bu yöndəmsiz arvad hara?" Sonra da bu qadının, bəlkə də, Ələsgər Adalının qohumu olduğunu təxmin elədi.

- Deyirəm də, Ələsgər sənə vurulmayıb kimə vurulacaqdı, - deyə qadın, gözləri ilə Səliməni yeyə-yeyə sözünə davam etdi: - Düzdür, başqa qızlar da onun həsrətini çəkirdilər, evinə gəlib-gedirdilər. Biri də var idi, Ələsgəri görəndə az qalırdı huşunu itirsin. Arıq bir qız idi. Burnunu tutsaydın canı çıxardı. Deyəsən, adı da Lalə idi. Bir dəri idi, bir sümük. Ələsgər onun harasından yapışacaqdı?...Amma sən...

Səlimə aldığı kartofun pulunu vermişdi. Çoxdan çıxıb getməli idi. Ancaq nədənsə getmirdi. Bir az kənarda dayanıb bayaqdan onunla açıq-saçıq danışan və Ələsgəri yaxından tanıyan arvadı gözləyirdi. Bu arvad hətta Laləni də tanıyırdı. Axı Səlimə özü də o zərif, nərmə-nazik qızı bir-iki dəfə tərsanəyə, Ələsgərin yanına gələndə görmüşdü. Bir-iki dəfə fürsətdən istifadə edib Laləyə yaxınlaşmaq, onunla tanış olmaq, onun ürəyindəkiləri öyrənmək, onunla Adalı arasındakı münasibətin incəliklərinə varmaq istəmişdi. İndi də bir kənarda dayanıb gözləməsinin səbəbi həmin qadının onun ürəyində oyatdığı şübhə qarışıq maraq idi. Səlimənin fikirlərinin sakit axınını dəyişən, ürəyini həyəcanlandıran, çaşdıran, qısqandıran bu qadın Ələsgərin köhnə qonşusu Məsmə idi. Səlimənin kürkünə birə saldığını hiss edən Məsmə tələsmədən meyvə satılan sıralarla gəzir, yuyulub təmizlənmiş, piramida şəklində düzülmüş al qırmızı almaların, sapsarı armudların yanından ötür, müştəri gözü ilə tamaşa edirdi.

Səlimə özü ona yaxınlaşdı:

- Siz mənə nəsə demək istəyirdiniz?

Məsmə daha tələsmirdi. Almaları seçib tərəziyə qoya-qoya laqeyd bir səslə soruşdu:

- Ələsgərlə görüşürsən?

- Hə...Görüşürəm...hər gün.

Səlimə bilmədi ki, bu yalanı necə danışdı. Bəlkə, o da özündən müştəbeh olan bu arvadı qıcıqlandırmaq istəyirdi? Digər tərəfdən Səlimənin cavabında həqiqət də var idi. Tərsanədə Ələsgəri, demək olar ki, hər gün görürdü. Uzaqdan görürdü.

- Xoşbəxt adamsan, - deyə Məsmə içini çəkdi və həmin saniyə üzünü turşudub əlavə etdi. - Açığı o, heç vaxt mənim ürəyimdən olmayıb. Kobuddur, yöndəmsizdir. Ümumiyyətlə, onunla əsil ər-arvadlıq, ailə həyatı keçirmək çətindir.

Səlimə ürəyində Məsməyə güldü. Hiss etdi ki, Məsmə Ələsgərin təbiətinə, kişilik sehrinə bələd deyil.

- Mən onun keçmiş qonşusuyam, - deyə Məsmə başa saldı, - bir qapıdan girirdik mənzilə; bayır qapımız bir idi. Hərənin öz açarı var idi. İndi ordan köçmüşəm, amma açar qalıb məndə. Deyirəm, birdən gəlib onun evini yarıb edərlər, var-yoxunu apararlar, sonra məndən də şübhələnərlər. Düzdür, kitablarından başqa onun evində aparılası bir şey tapmazlar...Vaxt tapmıram ki, açarı aparım ona verim. Bu yandan da təzə ərim yaman qısqanır məni. Deyirəm, bəlkə, gözəl xanım, sən zəhmətini çəkəsən, bu açarı verəsən Ələsgərə. Aramızda nə vardısa - bu açardı. Bununla da hər şey qurtarıb gedər.

Məsmə öz danışığından, sözlərindən xeyli razı qalıb açarı Səliməyə verdi və böyük bir qələbə çalıbmış kimi yumru böyürlərini burcuda-burcuda uzaqlaşdı.

Başına gələn bu gözlənilməz hadisə Səliməni o qədər sarsıtmışdı ki, özünü itirib bir müddət bazarın ortasında dayanıb qalmışdı. Lap möcüzəyə bənzəyirdi. Haradansa qəribə bir arvad peyda oldu. Gəlib onu tapdı və Ələsgər Adalının mənzilinin açarını ona verdi. Məsmə açarı Səliməyə elə qəribə bir müəmma ilə vermişdi ki, sanki demişdi: "Bir də cəhd göstər, - bəlkə, bu dəfə, bəxtin açıldı...Kim bilir, bəlkə, hər şey təzədən başlandı..." Səlimə uzaqdan da olsa Ələsgərin davranışında əmələ gələn bəzi dəyişiklikləri müşahidə edirdi. Görürdü ki, Ələsgər onunla rastlaşanda daha özünü görməməzliyə vurmur, üzünü yana çevirmir, ona əvvəlki ikrahla baxmır, Səliməni görür, Səlimənin onu hər yerdə axtaran baxışlarını öz sifətində hiss edir və bu baxışlardan qaçmır...

İndi də Səlimə açarı ovcunda sıxıb həyəcan içərisində fikirləşirdi ki, bəlkə, Məsmənin xahişindən istifadə edib Ələsgərin evinə getməsi onun bu gözlənilməz hərəkətinə bəraət qazandıra biləcək. Səlimə əmin idi ki, Ələsgər onu öz qapısından qovmayacaq. Oturub bir az söhbət edə bilərlər...Söhbət edərlər?...Yəni belə də ola bilər? Ola bilərmi ki, Ələsgər ilə Səlimə ürəklərindəki bütün hissləri, eşqi, həvəsi, ehtirasları boğub, unudub, oturub sadəcə söhbət etsinlər. Yox, bu mümkün deyildi. Onlar yalnız bir-birilərı üçün, həm də bir-birilərini sevmək üçün yaranıblar...

Səlimə bu açarı ən əziz, ən müqəddəs bir əşya kimi öz çantasında gəzdirir və onu Ələsgərə qaytarmağa ürəyi gəlmirdi. Ələsgərlə necə görüşüb, necə danışacağı haqda dönə-dönə, hərtərəfli düşünür, bu gözəl imkandan mümkün qədər tutarlı istifadə etmək istəyirdi. Çünki bu əhvalat başqa cürə də inkişaf edə bilərdi. Yəni istənilməyən bir istiqamətdə...Ələsgər lal-dinməz, açarı ondan alar, bu açarın onun əlinə necə keçdiyi haqda verdiyi izahatı dinləyər, quru, etinasız bir əda ilə təşəkkür edər və dönüb konstruktor şöbəsinə yollanar...

Ələsgərlə qarşıdakı görüşü Səlimənin bütün düşüncələrinə, duyğularına, xəyalına hakim kəsildiyi üçün o, sayıqlığını itirməyə başlamışdı. Buna görə də onu addım-addım izləyən Nəcəfi görmürdü, görə bilmirdi...

Nəhayət, Səlimə ən gözlənilməz və ağlasığmaz bir qərara gəldi. Birbaşa Ələsgərin evinə getmək qərarına...Yaşadığı qəsəbədən şaşqın bir vəziyyətdə çıxıb ağır-ağır uzaqlaşdı. İlk dəqiqələr inamsız və tərəddüdlü addımlarla irəliləyirdi. Lakin qəsəbədən uzaqlaşdıqca bu inamsızlıq onu tərk edir, daxilində baş qaldıran güclü, qəti bir qərar onu

hüdudu görünməyən eşqinin yolçusu olmağa çağırırdı. Axı bu nə cür yaşayış idi? Hər şeydə bir təxminlik, qeyri-müəyyənlik var idi. Bütün ömrü boyu nəyi isə gözləyir, amma bilmir nəyi? Xoşbəxtliyimi? Bədbəxtliyimi? Günü-günə satır, özünü aldadır, təsəlli axtarır, tapa bilmirdi. Ürəyi bir şey istəyir, qarşısına tamamilə başqa şey çıxır. Belə yaşamaqdansa hər şeydən imtina etmək daha yaxşı olmazdımı? Bu vəziyyət, bu güzəran nə qədər davam edəcək! Səlimə anasının onu duyuq salaraq, gözlərinin altında əmələ gələn sap kimi nazik xətlərə işarə etdiyini xatırladı. Bu xətlər get-gedə dərinləşəcək, qırışlara çevriləcək, nəhayət, o, tamam qocalacaq. Səlimə isə...Ah! O necə də xoşbəxt olmaq istəyirdi! Özü də qeyri-müəyyən bir xoşbəxtliyi yox, bütün qəlbi ilə, ehtirasları ilə hər gün, hər dəqiqə ürəyində yaşatdığı Ələsgərlə birliyin xoşbəxtliyini arzulayırdı.

Ələsgərin evinə yaxınlaşdıqca Səlimənin qəlbindəki bu qaynar arzu, istək, qərar get-gedə güclənir və o, qəribə bir mətinliklə fikirləşirdi ki, Ələsgəri heç vaxt, heç bir vəchlə, heç kəs onun əlindən ala bilməyəcək. Nə özü öz gözəlliyinə vurulmuş Tutu, nə də o kövrək, zərif qızcığaz - Lalə...Heç kəs!..Səlimə Adalının evinin qabağında bir anlığa özünə gəlib oğrun-oğrun yan-yörəsinə baxdı və küçə qapısından içəri girdi.

Pillələrlə tələsmədən qalxa-qalxa bütün fikirlərini qarşıdakı görüşün ətrafında cəmləşdirməyə çalışırdı. Onun ürəyi deyiləsi sözlərlə, xahişlərlə, ona veriləcək sualların cavabları ilə, sübutlarla, dəlillərlə, daha belə yaşamağın mümkün olmadığını təkid edən odlu sözlərlə qaynayırdı:

"...Xahiş edirəm, səni and verirəm, öldür məni!..Dayan, tələsmə, ürəklərimizi bir-biri ilə bağlayan telləri qırma, taleyimizi birləşdirən körpünü yandırma...Aman ver mənə! Heç olmasa bir az da qulaq as mənə...İcazə ver, bu açardan istifadə eləyim, bu evə gəlibgedim. Eybi yoxdur, sən evdə olmayanda gələrəm, ev-eşiyi sahmana salaram, paltarını yuyaram, xörəyini bişirərəm...İstəyirsən kənizin olum sənin...Elə ki evləndin, sənin oğuluşağına dayəlik edərəm. Axı indi yaxşı dayə tapmaq çətindir...Bircə xahişim var, qovma məni!.."

Ələsgərlə xəyalən apardığı bu söhbətdə, Səlimənin gözləri qarşısında Ələsgərdən başqa heç kəs və heç nə yox idi. Qarşıdakı görüşün dözülməz həyəcanı onu üzüb yormuşdu. Təkcə məhəbbət görüşü deyildi bu; bəlkə də, ağır bir imtahana, onu əzib alçaldacaq bir işgəncəyə çevriləcəkdi bu görüş...Axı Səlimə özü onun yanına gedirdi. Özü də çağırılmamış bir qonaq kimi. Kiçik bir açarı əlində bəhanə edib çoxdankı ayrılığı, küsülüyü, sınıqlığı aradan götürmək istəyirdi.

O vaxt ilk görüşlərində də Səlimə özü onu evinə dəvət etmişdi. Lakin o günlə bu günün arasında böyük fərq var idi. O gün Ələsgər özü də həmin görüşü arzulayırdı...İndi isə...

Səlimə üst-başını diqqətlə nəzərdən keçirib qapının qarşısında bir anlıq donub qaldı, elə bil bütün bədəni soyuyub buza döndü. Zəngi çaldı, cavab verən olmadı. Bəlkə, yatıb? - deyə fikirləşdi: "İndi mən neyləyim? Gedim? Necə yəni gedim? Hara gedim? Belə bir addımı atandan sonra qayıtmaq olar? Ürəyimdə qaynayan bütün sözləri, sualları, xahişləri, yalvarışları təzədən geri aparım? Yox! Gözləyəcəyəm. Qaranlıq düşənə qədər, lap gecə yarısına qədər burada dayanacağam..."

Lakin Səlimə gecənin yarısına qədər dayanıb Ələsgəri gözləməyin mümkün olmayacağını tezliklə başa düşdü. Çünki bu ev Xəzər dənizçiliyinə məxsus idi. Tərsanə işçilərindən də bu evdə yaşayanlar var idi.

Səliməni, demək olar ki, hamı yaxşı tanıyırdı. Onu Ələsgərin qapısında görsələr nə fikirləşərlər? Kim inanardı ki, o, bura müəyyən bir tapşırıqla gəlib? Səlimə ictimai tapşırıqla hər evə, hər qapıya gedə bilərdi. Amma bura yox. Onunla Adalı arasında olan əhvalat və yaxınlıq münasibətləri bütün tərsanəyə yayılmışdı.

Aşağıda küçədən içəri girən adamların ayaq səsləri eşidildi və onlar yavaş-yavaş yuxarı qalxmağa başladılar. Öz aralarında nə barədəsə danışırdılar. Biri qadın idi, o birisi kişi. Yuxarıdan oğrun-oğrun baxan Səlimə tərsanənin dispetçeri Nina Tatarnovanı o saat tanıdı. Ondan bir pilla aşağı əllərində içi dolu ağır tor və zənbil olan kişi qalxırdı.

"Yaman tələyə düşdüm, - deyə Səlimə dodağını dişlədi, - indi mən onlara nə deyəcəyəm!"

Gələnlərin addım səsləri get-gedə yaxınlaşırdı. İndi Səlimə onların öz aralarında dedikləri sözləri açıq-aydın eşidirdi. Nə etmək olardı? Bəlkə tələsik aşağı düşməyə başlasın? Onu görən kimi təəccüblənib soruşacaqlar ki, kimin yanına gəlmişdin? Səlimə yalan deməyə bir söz tapa bilmirdi. Həm də yalan danışmağa adət etməmişdi. Burada daha kimlərin yaşadığından da xəbəri yox idi. Yalnız bir çıxış yolu qalırdı. Səlimə çantasındakı açarı çıxarıb əli əsə-əsə qapının açar yuvasına saldı və Məsmənin verdiyi bu açar asanlıqla hərlənib şaqqıldadı, qapı yüngülcə açıldı, Səlimə azca aralanmış qapının arasından sürüşüb dəhlizə girdi.

...Bütün bu hərəkət zahirən tez və asan baş verdi. Yarım saatdan artıq küreyini divara verib dəhlizdə dayanan Səlimə keçirdiyi həyəcandan hələ də özünə gələ bilmirdi...Nəhayət, bir qədər sakitləşib dəhlizi nəzərdən keçirdi və fikirləşdi ki, buranın divarlarının, künc-bucağının əməlli-başlı təmirə ehtiyacı var.

Səlimə bir xeyli burada dayanıb qalmalı oldu. Təzədən qapını açıb pilləkən meydançasına çıxmağa ehtiyat edirdi. Qorxurdu ki, yenə də tanış-bilişlə rastlaşsın. Ona elə gəlirdi ki, çıxılmaz bir tələyə düşübdür. Birdən gözləri qarşıdakı otağın qapısına sataşdı. Qapı açıq idi. Səlimə iradəsini toplayıb ora yaxınlaşdı və qapını astaca döydü. Heç kəs cavab vermədi. Səlimə yenə də qapını döydü, sonra yüngülcə açıb kitabla dolu böyük, sahmansız bir otağa girdi. Səlimə otağı diqqətlə nəzərdən keçirib yorğun halda parçasının rəngi solmuş kürsülərdən birinin kənarında oturdu. Elə kirimişcə oturmuşdu ki, sanki bir şeyə toxunacağından, bir kitabı yerindən tərpədəcəyindən qorxurdu...Düşünürdü ki, bu otağı əməlli-başlı silib süpürmək, burada qayda-qanun yaratmaq pis olmazdı. Bir də ki, bu yekəlikdə otaq bir nəfərin nəyinə gərəkdir? Kim bilir, bəlkə, o, burda tək yaşamır...Gör nə qədər kitab var. Bir dünya kitab var...

Səlimə çox gözlədi. Pəncərə arxasında axşam kölgələri get-gedə qatılaşır, qaranlıqlaşırdı. Səlimənin qulağı elə qapıda idi. Tez-tez pillələrlə qalxan adamların ayaq səslərini, yaxud da danışıqlarını eşidirdi. Lakin heç kəs bu mənzilə yaxınlaşmırdı. Hamı bayır qapının yanından ötüb keçirdi. Birdən bu sükutu kəskin telefon zəngi pozdu. Səlimə diksindi. Telefon dəstəyini qaldırıb qulaq asmaq, Ələsgərə kimin zəng vurduğunu öyrənmək istədi. Hətta əlini də telefon dəstəyinə uzatdı. Lakin qorxub bu fikrindən daşındı. Birdən zəng vuran Ələsgər özü olar, çaşıb qalar, deyər, görəsən, kim soxulub onun mənzilinə. Sonra Səlimə gülümsünüb öz-özünə: "Axmaq! - dedi, - adam da özü-özünə zəng vurar? Dəli zad deyil ki! Amma...bəlkə, üçüncü bir açar da var. O açarın sahibi, yaxud sahibəsi, bəlkə, hər gün Ələsgərin yanına gəlir. Ələsgər də indi zəng vurub onun evdə olub olmadığını öyrənmək istəyir. Bu üçüncü açarın sahibi kim ola bilər? Əlbəttə ki, yalnız qadın ola bilər. Bəlkə də, o, konstruktor şöbəsində işləyən Tutu ola...Heç kəsə inanmaq olmaz. Adamların çoxu iki cür həyat sürür: birini hamının gözü qabağında, o birini hamıdan gizlin, özü üçün..." Telefon ara vermədən zəng çalırdı. Səlimə özü də bilmədən bu zəngləri sayırdı...On səkkiz sayandan sonra telefon susdu. Səlimənin beyninə istəmədiyi halda xoşagəlməz, oğrun fikirlər yol tapır, ona rahatlıq vermirdi. Birdən-birə Adalı ilə o kövrək qızın - Lalənin yaxınlığı gəlib durdu onun gözləri qarşısında. Təsəvvüründə yaranan bu səhnədən özü də sarsılıb utandı. Bu yaxınlıqda bir qeyri-təbiilik, uyuşmaz vəhdət gördü. Ürəyi elə sıxıldı ki, az qaldı ağrısından çığırıb fəryad qoparsın.

Pəncərə arxasında hava tamamilə qaraldı. Səlimə kitab qoxusu verən bu böyük, qaranlıq otaqda bir müddət də qalıb dəhlizə çıxdı, bayır qapını bağlayıb getdi.

Ertəsi gün Səlimə Ələsgərlə görüşmək üçün daha bir təhlükəli addım atmaq qərarına gəldi, qəsəbədən çıxıb bu dəfə yeyin addımlarla onun yaşadığı evə sarı tələsdi. Keçirdiyi vəziyyət - hərəkətlərinə nəzarət etməyə heç bir imkan vermirdi. Tərsanədə Ələsgər onu özünə yaxın buraxmırdı. Onların arasında həmişə müəyyən dəyişməz məsafə qalırdı. Buna görə də indi az qala ağlını-huşunu itirmiş Səlimə onun mənzilinə tələsirdi. Səliməyə elə gəlirdi ki, Ələsgərin onunla görüşmək istəməməsinin səbəbi başlana biləcək söz-söhbətdən ehtiyat etməsindən irəli gəlir. Lakin Səlimə üçün Ələsgər məhumu bu saat belə xırdalıqlardan qat-qat yuxarılarda, kosmik bir ucalıqda dururdu. Səlimə Ələsgərin isti nəfəsini, ilıq nəvazişini, iri əllərinin həyəcanlı təmasını, ehtiraslı səhrini unuda bilmirdi...Lakin illər ötüb keçirdi. Keçdikcə də Səlimənin gənclik təravətini, gözəlliyini özü ilə aparır, xəzana çevirirdi. Səlimə hiss edirdi ki, hələ də gözəldir, hələ də sevə bilər. Bəlkə, əvvəlkindən daha şirin, daha çılğın, daha məstedici bir məhəbbətlə!

İkinci dəfə Ələsgərin evinə gəldi. Yenə də gözlədi. Özü də çox gözlədi. Və getdi...

Üçüncü dəfə yenə də Ələsgərin evinə gəldi və onu mənzilində tapmayıb, bilmədi nə etsin. Sonra yenə də gözlənilməz, tamamilə ağlasığmaz bir hərəkət etmək qərarına gəldi. Onun mənzilini əməlli-başlı silib təmizləməyə, sahmana salmağa başladı: hamamxananın rəngi tutulmuş kafelini tərtəmiz yuyub ağartdı. Həmçinin mətbəxi elə silib təmizlədi ki, sanki təzəcə təmirdən çıxmışdı. Sonra böyük otağın tozunu aldı, bir-bir kitabların içini şirin nəfəsi ilə üfürüb təmizlədi. Çalışırdı ki, kitabların yerini çaşbaş salmasın və onların arasındakı xatirə kağızlarını salıb itirməsin, gedəndə də stulları əvvəlki kimi nizamsız vəziyyətdə pərakəndə halda qoydu. Yarıbükülü qəzetləri və jurnalları da bayaq olduğu kimi stulların, kürsülərin üstünə atmağı unutmadı.

Səlimənin bu mənzilə çağırılmamış qonaq kimi, oğrun-oğrun gəldiyi günlərdə Ələsgərin başı xeyli qarışıq olduğundan və evə çox gec, həm də yorğun gəldiyindən otağındakı dəyişiklikləri görə bilməmişdi. Qapının yanındakı poçt qutusundan çıxartdığı qəzet, jurnalları ayaqüstü nəzərdən keçirib stolun üstünə atır, təxirəsalınmaz yazıları və qeydləri ilə məşğul olub tezliklə uzanıb yatırdı. Ələsgərin evinə bu gizli gəlişlərin qeyri-qanuni olduğunu, bunun üçün hətta məsuliyyət daşıdığını başa düşən Səlimə öz arzu və istəklərini cilovlaya bilmirdi. Elə bil təzədən on il bundan əvvəlki kimi cavan və dəliqanlı olmuşdu. Hissləri ağlına, şüuruna üstün gələn bir yeniyetmə kimi hərəkət edirdi.

Ağlını, dəyanətini itirmiş otuz yaşlı qadın nakam məhəbbətinin qızdırması içində çaşbaş qalmışdı. İndi Səlimə Ələsgərin evinə hər gün gəlirdi, buna adət etmişdi. Düzdür, onun davranışında müəyyən bir dəyişiklik əmələ gəlmişdi. İndi daha əvvəlki kimi sayğısızlıq göstərmirdi. Hər hərəkətini, hər addımını yoxlayır, mümkün qədər ehtiyatlı olmağa çalışırdı. Xoşbəxtlikdən Ələsgərin mənzilinə gəldiyi bütün bu günlər ərzində tanış adamların heç birilə rastlaşmır və qapını açıb maneəsiz içəri girirdi. Küçədə nə qədər sakit görünürdüsə də, Ələsgərin otağına qədəm qoyan kimi bütün varlığına qəribə bir vahimə, həyəcan hakim kəsilirdi. Hər dəfə Ələsgəri evdə görəcəyini güman edirdi. Çünki, bir qayda olaraq gündüzlər tərsanədə onunla rastlaşırdı. Bilirdi ki, Ələsgər şəhərdən heç yana getməyib. Onun təklifi ilə konstruktor şöbəsində yeni bir cihazın hazırlandığından və bütün şöbənin Leniqraddan gələn qonaqlarla məşğul olduğundan xəbərdar idi. Bununla belə, Səlimə Ələsgəri bir gün öz mənzilinə vaxtından tez gələcəyinə ümidini itirmirdi. Bura gəlmək üçün hər hərəkətini ölçüb-biçməklə yanaşı, hər addımında ehtiyatlı olmağa çalışan Səlimə bir vacib təhlükəni büsbütün yadından çıxartmışdı. Nəcəfin onun izinə düşə biləcəyini nəzərindən qaçırmışdı. Buna görə də Nəcəf asanlıqla Səlimənin həndəvərində gəzir, onun hər hərəkətindən, tutduğu işlərdən xəbərdar olurdu.

Nəcəf hər gün, hər dəfə Səlimənin izinə düşüb onu Ələsgərin evinə qədər ötürür, sonra da küçənin künc-bucağında dayanıb onun nə vaxt qayıdacağını gözləyirdi. Çox gözləməli olurdu. Bəzən bir saat, bəzən iki saat, bəzən də üç saat. Bir dəfə dörd saatdan da çox gözlədi. Nəhər çəkdi Nəcəfin ürəyi. Ürəyini çulğalayan qısqanclığa dözə bilmirdi. Xəyalında orada - yuxarıda, Ələsgərin mənzilində baş verən səhnələri, Səlimənin Ələsgəri necə nazladığını, öz nəfəsi ilə onu necə məst etdiyini canlandırır, qəzəb və qisas almaq ehtirası onu boğurdu. Huşunu aparan bu məhəbbət üçün Nəcəf uf demədən canını, həyatını verməyə hazır idi. Lakin bütün bu səadəti Səlimə ona - Nəcəfə deyil, onun yerə-göyə sığmayan qəzəblə nifrət etdiyi Ələsgərə bəxş edirdi. Həmin Ələsgərə ki, Nəcəf onu görüşə çağırıb ölümlə hədələyəndə heç gözünü də qırpmadı. Həmin Ələsgər yenə də Səlimənin ondan ayırdı. İndi də hər axşam Səliməni öz evində qəbul edir və onlar orada ehtirasa qapılır, çılğın məhəbbətin gücündən məst olurlar: halbuki bütün bu hisslər, bütün bu səadət Nəcəfin olmalı idi.

Nəcəf bilmirdi hara getsin, dərdini, ürəyini kimə açsın. Yer üzündə bir nəfər sirdaşı yox idi. Bir vaxtlar onunla əyyaşlıq edənlərə ürək açmaq olardımı? Onlara insan demək olardımı? İşləri-gücləri yalnız içkidir. Özü də üç, dörd dəqiqədən sonra kələfin ucunu itirirlər. Nəcəfin isə həyatı, demək olar ki, axıra çatır. Bütün ömrü boyu özünə bir dost, həmdəm tapmayıb. Yeganə sevinci, ümidgahı Səlimədir. Onun da Nəcəfi görməyə gözü yoxdur. Sonuncu dəfə - o yağışlı gündə onu necə qovdu qapısından. Nəcəfə elə gəlirdi ki, Səlimənin onu evinə buraxmamasının səbəbkarı yenə də həmin Ələsgər idi. İndi Səlimәsiz yaşamağın nə mənası?...Səlimәsiz həyat heç nədir. Əgər Səlimə ölərsə, onda necə? Əgər Səlimə ölsə, o, nə Nəcəfin olacaq, nə də Ələsgərin. Bəlkə, onu öldürsün? O qədər də çətin deyil...Yox...Nəcəf heç bir vəchlə belə iş tuta bilməz. Buna nə gücü çatardı, nə də iradəsi. Lakin başqa yol tapmaq mümkün idi. Elə bir yol ki, Səlimə Ələsgərə məhsub olmasın. Bunun üçün də Ələsgər olmamalı idi...Olmamaq ölmək deməkdi. Ələsgər olmasa, bəlkə, bir vaxt Səlimənin ürəyi yumşala və həmişəlik onun - Nəcəfin yanına qayıda?...Deməli, Ələsgər...Ələsgər olmamalıdır. Bütün bəlalar Ələsgərin varlığından əmələ gəlir...Nəcəf ona bir dəfə aman vermişdi. Son saniyədə sükanı döndərib uzaqlaşmışdı. Çox təəssüf. O gecə onun işini bitirsəydi, indi Ələsgər Səlimə ilə onun arasına girə bilməzdi...Ancaq indi də gec deyil, bəli, indi də gec deyil. Ələsgərin hansı küçə ilə evə qayıtdığını Nəcəf dəfələrlə müşahidə etmişdi. Özü də çox ağır addımlarla yeriyir, həmişə fikirli olur. Elə bil nəyi isə hesablayır. Bəlkə, bütün gün ərzində baş verən hadisələri təhlil edir. Yan-yörəsinə baxmadan addımlayır. Yalnız öz firkirlərinin, düşüncələrinin aləminə çəkilir. Səbəbini bilmәsə də, Nəcəf lap çoxdan, çox illər bundan əvvəl Ələsgərin hansı yolla və neçə vaxta gəlib evinə çatdığını izləyərdi. Adətən, Ələsgər həmişə zavodun uzun, hündür barısı boyu addımlayardı. Bu zaman təsəvvürünə gətirə bilməzdi ki, yan küçənin qaranlıq yerində işıqlarını söndürüb dayanmış avtobusun içindən hər hərəkətini güdürlər. Həyatın təzadlarından biri də o idi ki, insan bir aləmdə yaşayır. Lakin onun taleyi bəzən tamamilə uzaq, qütblər qədər uzaq, yad bir aləmdə həll olunur. Yaşasınmı? Yaşamasınmı? Yaratsınmı, yaratmasınmı?.. Nəcəfin hesabı ilə Ələsgər Adalı zavoddan çıxandan sonra bu uzun hasarın yanı ilə qonşu küçəyə dönər və düz dörd dəqiqəyə evinə çatardı. Bu dörd dəqiqə ərzində Nəcəfin avtobusu üç kilometrlik yol gedə bilərdi...Deməli, Ələsgərin zavoddan çıxmasını gözləməli idi. Təxminən iki dəqiqədən bir az çox vaxt ərzində Ələsgər hasarın ortasına yetişəcəkdi...Hasarın arxasında bir-birindən aralı cərgələnmiş fanarların işığı küçəyə elə düşürdü ki, orada işıq və qatı kölgə zolaqları əmələ gələrdi. Özü də kölgə zolağı daha geniş idi...Dar küçənin ortası ilə gedib Ələsgərə üç addım qalmış təsadüfən səkiyə dönərək onu hasara sıxmalı idi. Bircə saniyə kifayət idi. Bircə saniyədə çoxtonlu maşının sürətli zərbəsindən içi hava ilə dolu ən davamlı şərlər belə partlayar, nəinki adi adamın ciyərləri. Ələsgər partlamış ciyərləri içərisində boğular.

Bəli, o, yalnız o dayanmışdı Nəcəflə Səlimənin arasında. Nəcəfin əqidəsinə görə onun bütün bədbəxtliklərinin, dərdinin, sonsuz kədərinin, kürünmüş ümüdlərinin səbəbkarı Ələsgər Adalı idi. Bununla da Nəcəf qəti qərara gəldi. Cəmi bircə saniyə lazımdır ki, Nəcəf bütün əzablarından xilas olsun. Öz intiqamını alıb rahatlıq tapsın. Bircə saniyə! Yox, bu dəfə Ələsgərə heç bir aman verməyəcək. "Bundan sonra Ələsgərə heç bir aman yoxdur!" - deyə Nəcəf öz-özlüyündə ölüm-dirim çarpışmasına gedən bir qatil kimi and içdi və səhərdən öz marşurutunda işləyib axşam düşən kimi maşınını hərtərəfli yoxlayandan sonra əvvəlcədən düşünülmüş qaranlıq yerdə saxlayaraq işıqlarını söndürdü...

İş elə gətirdi ki, Səlimə Ələsgərin evinə gediş-gəlişini bir müddət kəsməli oldu. Xəstə anasına dəyməyə getmişdi. Arvadın vəziyyəti çox ağır idi. Səlimə tərsanədən icazə alıb bir neçə gün anasının yanında qalmışdı. Axırıncı dəfə evlərinə gələn həkim xəstəni müayinə edib böhranın keçdiyini bildirmiş və Səlimə şəhərə qayıdıb yenidən işə çıxmağa başlamışdı. Hər dəfə olduğu kimi, indi də tərsanənin böyük ərazisində uzaqdan-uzağa Ələsgəri görür, onunla rastlaşırdı. Son günlər onun qəlbini çulğalayan, nəyin hesabına olursa-olsun, Ələsgərlə təklikdə görüşüb danışmaq, ürəyini boşaltmaq, bütün ürəyindəkiləri ona açıb demək arzusu yenidən alovlanır və o, təzədən çantasındakı açarın bir gün ona xoşbəxtlik gətirəcəyinə ümid bəsləyirdi. Bunun üçün də Səlimə təzədən Ələsgərin evinə ayaq açmışdı. Lakin bəxti gətirmirdi ki, gətirmirdi. Bu mənzilə gəldiyi vaxtlar Ələsgər evdə olmurdu. Hansı elmi idarələrəsə baş çəkməyə gedir, qonaqları harasa axşam yeməyinə dəvət edir, yaxud gecənin yarısına qədər konstruktor şöbəsindən çıxmırdı. Səlimə onu gözləyirdi, dəyanətlə, ümidlə gözləyirdi. Bütün bu vaxtı boş dayanmırdı. Otağı, dəhlizi, mətbəxi, hamamı, güzgü kimi parıldadırdı. Həm də çalışırdı ki, kürsülər, stollar, kitablar, stolun üstündəki qələmdan və zərrəbinlər öz yerində olsun. Səlimə buraları hər gün əməlli-başlı sahmana salır, bütün künc-bucağına əl gəzdirirdisə də, kitab əlindən tərpənmək mümkün olmayan bu böyük otaq onun üçün sirli bir aləm olaraq qalırdı. Bütün bu günlər, həmişə olduğu kimi, telefon zəng çalır, Səlimə diksinir, yaxınlaşıb telefon aparatının yanında dayanır, lakin dəstəyi qaldırmağa ehtiyat edirdi.

Səlimə bu gün də stolların üstünə, kitab rəflərinə qonan yüngül tozu silib təmizləyəndən sonra pəncərənin yanındakı kürsüyə əyləşdi və Ələsgəri gözləməyi qərara aldı. Düzdür, ürəyi ilk günlərdə olduğu kimi həyəcan və nigarançılıq içərisində çırpınmırdı. Ələsgərin bu axşam da evə gələcəyinə ümid bəsləmirdi. Ancaq yenə də gözləyirdi. Bu gün tərsanədə həmişəkindən çox işləmişdi. Ora-bura çox qaçmalı olmuşdu. Burada da az iş görməmişdi. Pəncərələri yumuş, şüşələrini silib parıldatmışdı. İndi də xeyli vaxt idi ki, oturub gözləyirdi. Onu yavaş-yavaş mürgü aparmış, nə vaxt yuxuya getdiyindən, nə qədər yatdığından xəbəri olmamışdı. Küçədə nagahan qopan cingilti və gurultunun qəfil səsindən diksinən Səlimə səksəkə içərisində oyanıb, ilk anlarda harada olduğunu, bu otağa haradan gəlib çıxdığını, bu dəhşətli gurultunun haradan qopduğunu başa düşə bilmədi. Güclü zərbə ilə daşa toxunub əzilən dəmir səsinə sınıb xıncım-xıncım olan şüşə cingiltisi qarışdı...Sonra qısa sükut çökdü. Bir neçə saniyə keçmiş küçənin hər tərəfindən həyəcanlı səslər ucaldı. Kimsə harayla çığırır, kim isə fəryad qoparırdı. Tezliklə bu həniртiyə motosiklet taqqıltısı, polis fiti, sirena və maşın siqnalları qarışıb, dəhşətli bir hərc-mərclik yaratmağa başladı.

Səlimə pəncərəyə yaxınlaşıb qaranlıq otağın pəncərəsi arxasından dar küçəyə baxdı. Fanarların zolaq-zolaq işığında gah bu yana, gah o yana o qədər adam qaçırdı ki, bu insan burulğanının içərisində nə hadisə baş verdiyini təyin etmək mümkün deyildi. Ancaq nə isə çox qorxulu bir hadisə baş vermişdi. Bu qorxulu hadisənin doğurduğu həyəcan Səliməni yerindən qopardı. O, qapını bağlayıb aşağı qaçdı, küçəyə çıxıb tini buruldu və gördü ki, yüzlərlə adam zavodun hasarına mıxlanmış nəhəng bir avtobusun ətrafında qaynaşır. Səlimə onu bu avtobusun yanına çəkən qüvvəyə müqavimət göstərə bilmədi, özünü bu qaynaşan camaatın arasına nə vaxt atdığınından xəbəri olmadı. İrəli, lap avtobusun yanına getməyə çalışdı. Dirsəklərini də işə salmışdı. Ön sıraya çıxıb nəhəng avtobusun başına hərlənməyə, pəncələri üstündə boylanıb avtobusun içinə baxmağa can atdı. Birdən dayandı...Bu, həmin o avtobus idi. Vaxtilə, Nəcəflə bir yerdə işlədiyi avtobus...Necə də köhnəlmişdi...Bax orada - avtobusun orta qapısının içəri meydançasında başlanmışdı Səlimənin bədbəxtlikləri...İradəsini, elə bil, əlindən almışdılar Səlimənin, sayıqlığını büsbütün itirmişdi...Sonra Nəcəflə təklikdə qalanda bu kiçik meydança onların yataq yeri olmuşdu. Səlimə üzünü döndərib avtobusun qabaq tərəfinə nəzər saldı. Maşının küt burnu o ki var əzilib hasarın o biri üzündə - tərsanə sahəsində asılıb qalmışdı. Gövdəsi isə qarmon kimi büzük-büzük olmuşdu. Bir neçə nəfər polis leytenantının rəhbərliyi ilə avtobusun arakəsməsi ilə sükanın arasında sıxılıb qalmış sürücünü bu məngənədən xilas etməyə, oradan çıxarmağa cəhd göstərir, lakin bacara bilmirdilər. Səlimə oraya yaxınlaşdı. Sürücünün sifəti bütünlüklə qana bulandığından onu tanımaq olmurdu.

Gicgahının damarından fışqıran qan nazik, əyri xətlərlə çənəsinə, boynuna və sinəsinə axırdı. Səlimə dəhşət içərisində üzünü yana çevirdi. Bircə şeyi başa düşə bilmirdi. Necə olmuşdu ki, bu yekəlikdə avtobus bu dar küçənin uzunu boyu getmək əvəzinə, eninə dönüb zavodun hasarına mıxlanmış və yolun nəqliyyata aid olan hissəsini tamamilə kəsmişdi. Bu, başqalarını da təəccübləndirirdi. Camaat arasında da müxtəlif fikirlər gəzirdi. Biri deyirdi ki, sürücü gözlənilmədən yoluna çıxan velosipedçini vurmamaq üçün sükanı döndərmişdi, küçə dar olduğundan, avtobus birbaşa divarı söküb o tərəfə keçmişdi. Başqası deyirdi ki, küçədən balaca bir qız uşağı qaçırmış, daha birisi təkid edirdi ki, nə velosipedçi imiş, nə də qız uşağı. Sadəcə, sahibsiz küçə itlərindən biri imiş yoluna çıxan...

Polis nəfərləri sürücünün şəxsiyyətini və avtobusun hansı marka olduğunu təyin etmək üçün sənədlər axtarırdılar. Camaat arasından acı, kobud mülahizələr yürüdənlər də tapılırdı. Deyirdilər ki, təqsiri ölənin özündə axtarmaq lazımdır, yəqin sərxoş olub, yolunu azıb.

Hadisə yerinə təzəcə axışıb gələnlər bu dəhşətli mənzərəni seyr etdikcə heyrətdən gözləri bərələ qalırdı. Gah ordan, gah burdan nidalar eşidilirdi:

- Ora bax, ey! Lap qoç kimi kəllə-kəlləyə gəliblər.
- Kişidə şir ürəyi var imiş...
- Ciblərində heç bir sənəd-zad yoxdur.
- Keçi can hayında, qəssab piy axtarır. Vaxt tapmısınız!...Kişi ölüm ayağındadır, siz onun soyadını öyrənmək istəyirsiz.
- Sürücü sənədini çox vaxt bardaçokda saxlayır, oranı axtarın...
- Can verir, - deyə leytenant ağır bir sarsıntı içərisində xəbər verdi və var gücünü toplayıb sükanla arakəsmə arasında sıxılıb qalmış sürücünün ağır gövdəsini çıxartmağa cəhd göstərdi. Yanındakı polis nəfəri sürücünün qana bulanmış üzünə baxıb sarsılmış halda əlini yelladı. Sürücü tərəfdə olan qapını çətinliklə aralayıb avtobusun içinə girən ucaboy kişini Səlimə o saat tanıdı. Bu, Ələsgər Adalı idi...

...Ələsgərdən başqa burada baş vermiş hadisəni heç kəs bütün dəqiqliyi və təfsilatı ilə görməmişdi. Baş vermiş bu hadisənin yeganə şahidi məhz Ələsgər Adalı idi. Həmişə olduğu kimi o, yenə də daş barının yanı ilə fikirli-fikirli evinə gedirdi. Birdən ayılıb gördü ki, nəhəng bir avtobus ildırım sürəti ilə onun üstünə şığıyır. Bu dəfə o, hiss etmişdi ki, bu ölüm təhlükəsindən qurtarmağa heç bir imkan tapmayacaq. Keçən dəfə o, imkan tapıb hasarın üstünə tullanmışdı. İndi isə yalnız diksinib təəccüb edə bilmişdi. Hətta bu təəccüb hissinin ölüm qorxusuna, sarsıntısına çevrilməsi üçün də vaxt qalmamışdı. Yalnız quruyub dayanmışdı, sonrakı anda hər şey bitməli idi. Buna görə Ələsgərin heç olmazsa həyatında əziz olan ən şirin, ən qiymətli arzusu, bir istəyi, ən əziz xatirəsi ilə vidalaşmağa ani bir imkanı da olmamışdı. Sonrakı anda məlum olmuşdu ki, bu dəfə də onun taleyini həll edən özü yox, sükanın arxasında oturan adam olmuşdu. Yaşasınmı? Yaşamasınmı...Çünki keçən dəfə də həmin bu adam sükanı vaxtında döndərməsəydi, Ələsgər hasarın üstünə tullanmağa imkan tapmayacaqdı....

Bu dəfə isə, son yüzdə bir saniyədə avtobus Ələsgəri öz odlu nəfəsi ilə sarsıdıb kəskin bir hərəkətlə dönərək zavodun daş barısına çırpılmış, dəmir gurultusu ilə şüşə cingiltisi bir-birinə qarışmışdı. Sonra daha kəskin bir sükut hakim kəsilmişdi. Maşının mühərrikindən yayılan zəhərli qaz və benzin qoxusundan Ələsgərin başı gicəllənməyə başlamışdı. Daha sonra səs-küy, fəryad, motosiklet taqqıltısı onun qulaqlarını batırmağa, həyəcanlı insan sifətləri gözləri qarşısında hərlənməyə başlamışdı. Bu hərcmərclik içərisində kimsə onu silkələyib ayıltmağa, kömək etməyə çağırmışdı. Deyəsən, polis leytenantı idi...

...Nəcəf son zamanlar qulağına təkidlə pıçıldayan səsin əsiri olmuşdu. Bu səsin məsləhəti ilə tez-tez küçələrin, gur prospektlərin ortasında gözlənilmədən sürətlə gələn maşınların yoluna çıxır, yerindəcə mıxlanıb qalır, elə bil, üstünə gələn minik maşını, avtobus sürücülərinin əsəblərinin zəif, ya möhkəm olduğunu yoxlayırdı. Maşınların təkərlərinin tükürpədici qıjıltısı camaatı vəlvələyə salır, Nəcəfinsə üzündə bir əzələ də tərpənmirdi. Sürətlə hərlənib yanından ötən maşınların mühərriklərindən üzünə çırpılan söyüşlərdən Nəcəf sanki həzz alır və səkilərdə axışan camaata qarışıb tələsmədən aradan çıxırdı. Sonuncu dəfə onun yoldan çıxmadığını görən sürücü sükanı elə sərt hərəkətlə burmuşdu ki, avtobus yolun sağında gedən minik maşınına toxunub onu səkiyə atmışdı...

...İndi isə, Nəcəf özü sükan arxasında oturub işıq və kölgə zolaqlarının parçaladığı dar küçə ilə böyük sürətlə şığıyırdı...Beynində, xəyalında bu vaxta qədər mürgüləyən, uyuyan, qəflət yuxusunda olan qəribə lövhələr ildırım sürəti ilə canlanır, ani olaraq görünür, bir-birini əvəz edirdi...Hələ üfüqdən boylanmamış günəşin göyə düşən şəfəqi səhərin bu vaxtında açıq mavi səmaya səpələnmiş, əyrilmiş yuna bənzər buludları boyayır və bu incə, kövrək rənglər yeni, gözəl bir səhərin açıldığını xəbər verirdi... Yam-yaşıl dağ döşündə ağlı-qaralı quzular analarına sarı cumurdu...Səhər mehi mavi dənizin hamar, saf

səthini oxşayırdı...Çiçəklərin zərif, şəffaf yarpaqları...Dağ gülləri...Xallı kəpənəklər...Ağ, mavi, qızıla çalan, tünd-qəhvəyi, narıncı rəngli kəpənəklər...Dəniz kimi dalğalanan yaşıl zəmilər... Nəcəf həyatının, ömrünün hansı anlarındasa seyr etdiyi və biganə qaldığı bu lövhələri çoxdan unutmuşdu. Həyatında, davranışında, insanlarla münasibətində, hərəkətlərində və sözlərindəki aparıcı, həlledici motivlər, vasitələr - qabalıq, sərtlik və rəhmsizlik olmuşdu. İndi isə, ildırım sürəti ilə keçən, alışıb sönən lövhələr nə üçün idi? Elə bil itirdiyi, həzz almadığı, mənən faydalanmadığı, həyatı boyu biganə qaldığı gözəlliklər ona deyirdi: "Biz də mövcud idik, indi də mövcuduq...Sənin üçün də mövcuduq". Nəcəfin daxilində zəif də olsa, bu vaxta qədər ona tanış olmayan qəribə bir hiss, gözəllik eşqi, gözəllik həvəsi oyanmağa və həyat eşqinə qarışmağa başlamışdı. Bu lövhələri yaşatmaq, bu gözəl aləmdə qalmaq arzusu hər an güclənirdi...Bütün ömrü, bax, indiki sürətlə o gözəlliklərin yanından ötüb keçmişdi...İndi isə...dayanmaq, dayanmaq, bu gözəl anları uzatmaq, əbədiləşdirmək istəyirdi, lakin hansısa bir gizli səbəb ona mane olurdu. Odur həmin o səbəb. Daş barının yanı ilə, gah qaranlıq zolaqda itib-batan, gah da işıqlı zolağa çıxan adam necə də tələsmədən addımlayırdı... Tələsmirdi. Ölməyə kim tələsir ki...Lakin aralarındakı məsafə get-gedə amansızcasına qısalırdı...Yenə də Nəcəfin bütün varlığına hakim kəsilən həmin səs təkidlə təkrar edirdi: "Cəld tərpən! Vaxtdır! Döndər sükanı! Döndər!"

Nəcəfin əlləri səsin əmrinə itaət edib sükanı burdu və...bir an içərisindəki zaman uzandı...Birdən Nəcəfin boğazından heyrət qarışıq, dəhşətli bir xırıltı qopdu...Daş barının işıqlı zolağında gurultudan diksinib təəccüblə maşına sarı dönüb baxan adam Ələsgər deyildi. Başqa adam da deyildi. O adam Nəcəfin özü idi. Hər şey öz yerini dəyişmişdi. Sükan arxasında oturan yad bir adam idi. Onun şikarı isə işıq zolağına çıxmış Nəcəf idi. Özü də çox sakit və mətin bir vəziyyətdə dayanmışdı. Üzünün bir əzələsi də tərpənmirdi. Elə bil deyirdi: "Hə, görək kim kimi məhv edəcək..." Səs deyirdi: "Sür, sür onun üstünə! Sür!" Nəcəf eyni sürət və qətiyyətlə bu səsi rədd edirdi: "Mən özüm özümü necə öldürüm?!" Səs deyirdi: "Sür deyirəm! Sən ölməyəcəksən! Sənə ölüm yoxdur!..." Ən son anda Nəcəf özlüyündə bir həqiqəti, öz həqiqətini dərk etdi..."İnsan bu sürətlə özü öz ölümünə doğru tələsir...İnsan özü öz ölümünü tələsdirir. İnsan özünü məhv edir..."

Bu həqiqəti kəşf edən Nəcəf saniyənin yüzdə birində, sükanı burmağa imkan tapmışdı...

...Nəcəf öz daxilində gedən gizli bir mübarizədən xeyli vaxt xəbərsiz qalmışdı. Bu hadisə baş verməmişdən əvvəl özü də dərk etmədən qəribə bir sövq-təbii hisslərini, duyğularını, gələcəkdə baş verə biləcək hadisələri, şüursuz da olsa duymağa, yerbəyer etməyə başlamışdı. Yəqin ki, özünün də xəbəri olmadan daxilində qarşılaşan, çarpışan qarışıq hisslər əsas məsələni saf-çürük etmək üçün çətin bir mübahisəyə girişmişdilər. Kim ölməli, kim qalmalıdır?! Hesabı kiminlə çürütməlidir, Ələsgərlə, yoxsa Səlimə ilə? Nəhayət, Nəcəf yəqin ki, hesabı özü ilə öz arasında, indiki Nəcəflə dünənki Nəcəf arasında çürütməyi üstün tutmuşdu. Nəcəf öz çılğın xasiyyətinə, sərtliyinə, amansızlığına, bütün bu cəhətləri yaşadan güclü, qəddar təbiətinə son ana qədər sadiq qalmışdı. O, həyatın qanunlarını öz hisslərinə, duyğularına tabe etmək istəyirdi. Həyat ona qalib gəlmişdi.

Nəhayət, Ələsgərin qüvvətli çiyninə davam gətirməyən arakəsmə yavaş-yavaş arxaya əyildi və sürücünün ağır gövdəsini mümkün qədər ehtiyatla çəkib eşiyə çıxartdılar. Bu vaxt təcili yardım maşını da özünü hadisə yerinə yetirdi. Sürücünü xəstəyə uzadıb əl-ayağını düzəldənə qədər camaat onu həlqəyə aldı. Bu həlqə get-gedə daralır, tibb işçilərinə mane olurdu. Onu təcili yardım maşınına aparanda həlqənin ön sırasında ilişib qalmış Səlimənin sinəsindən dəhşətli bir çığırtı qopdu. O, öz qanına qəltan olmuş bu adamın Nəcəf olduğunu tanımışdı. Həmin fəryadı eşidən Nəcəf can verə-verə girdə, kipriksiz gözlərini açıb Səliməni axtardı, tapdı və onun gözlərinin giləsində əbədi olaraq heyrət qarışıq təəccüb ifadəsi donub qaldı...

Elmlər Akademiyasının konfrans salonunda elmi sessiya gedirdi. Böyük dairəvi salonda boş yer tapmaq mümkün deyildi. Elmi idarələrin, təbiət və ictimai elmlərlə məşğul olan institutların nümayəndələri çox vacib bir problem ətrafında danışmağa yığışmışdılar. Bu işıqlı salonda Nazirlər Sovetinin, əlaqədar təşkilatların nümayəndələri, Xəzər neftbirliyinin rəhbərləri, Bakı, Sumqayıt və başqa sənaye şəhərlərindəki zavod və fabriklərin direktorları da iştirak edirdilər.

Sessiyanı Elmlər Akademiyasının prezidenti açıb Bakıda, Sumqayıtda, Gəncədə və başqa sənaye şəhərlərində atmosferin hələ də çirklənməsindən, gecə-gündüz bu şəhərlərin səmasını tüstüyə bürüyən məsələlərdən, bütün bu dözülməz səhlənkarlıqların aradan götürülməsi yollarından danışıb bəzi məsləhətlər verdi. Havanı ağırlaşdıran, zəhərləyən avtomobil mühərriklərinin yaxın zamanlarda benzinlə deyil, hidrogenlə işləyəcəyindən danışanda salonda xüsusilə böyük canlanma əmələ gəldi.

Sonra prezident məruzəçiyə söz verdi. Məruzəçi - ətraf mühitin saflığını qoruyan şuranın sədri, tanınmış alim dərin, düşünülmüş nitqində bütün sahələri əhatə edərək ət-

raf mühiti, atmosferi və sututarları çirkləndirənlərin təqsirini bütün açıqlığı ilə aşkara çıxarıb səbəbkarların adlarını vəzifələrindən və rütbələrindən asılı olmayaraq sadaladı. Məruzə bir cəhətdən elmi əsaslarla yazılmış böyük tədqiqi sənəd kimi, digər tərəfdən bəzi səhlənkarlara, təbiəti sevməyənlərə qarşı ittihamnamə kimi səsləndi.

Həbibulla məruzəni diqqətli dinləyirdi. Hərdən isə söhbət ona məlum olan faktlar ətrafında gedəndə salona nəzər salır, tanış və yad adamların üzlərinə baxır, sanki bu adamların məruzədə gətirilən dəhşətli, sarsıdıcı, heyrətamiz misallara necə münasibət bəslədiklərini öyrənmək istəyirdi. Həbibulla salonun kənarda qoyulmuş kreslolardan birində oturmuşdu. Buna görə də dinləyiciləri həmin yerdən yaxşı görürdü. Adları pisliyə çəkilənlər diksinib yan-yörələrinə baxır, yaxud da öz qınlarına çəkilir, başlarını aşağı salıb susurdular.

İki saata yaxın çəkən, əsl vətəndaşlıq mövqeyindən hazırlanan bu dərin məruzə, bütün salondakıları hərəkətə gətirdi. Lakin tək-tük də olsa, aralarında elələri də var idi ki, məruzəyə laqeyd qalıb: "Axı məni bura niyə çağırıblar? Bütün bunların mənə nə dəxli var?! Öz zibilləridi, özləri bilərlər" - deyə düşünürdülər.

Sonra əlavə məruzələr və çıxışlar başlandı. Yüksək elmi kürsüdən gətirilən misalların və faktların çoxu Həbibullaya məlum idi. O, Xəzəri, sututarları, gölləri, çayları, kanalları, hətta kollektorları da qarış-qarış gəzdiyi üçün onların indiki vəziyyətindən yaxşı xəbərdar idi... Gözlənilmədən Həbibullanın nəzərləri bir nöqtəyə ilişib dayandı. Zümrüd!.. O, xitabət kürsüsünün sağ tərəfində başqa stenoqrafçı qadınlarla birgə onlar üçün ayrılmış stolun arxasında oturmuşdu. İndi o, yazmırdı. Növbə başqalarının idi...Həbibullaya baxırdı. Özü də elə həssas bir kədər, təəccüb qarışıq ürək yanğısı ilə baxırdı ki, ilk saniyələr Həbibulla özünü itirən kimi oldu: "Bu da təzə çıxdı, - deyə fikirləşdi; - Elə bil mənə acıyır bu qız. Ümidsiz xəstəliyə tutulan adamlara belə baxırlar. Bəlkə Xəzərin vəziyyəti haqda çıxışlarda deyilənlərə görə mənə belə baxır. Yox, Zümrüdün fikirləri heç vaxt şəxsi hisslərinin, şəxsi problemlərinin, qayğılarının çərçivəsindən kənara çıxmır...Hə, mən, deyəsən, yaman dəyişmişəm...O gün də mənə kənardan baxan qızımın gözləri nədənsə dolmuşdu...Düşmüşəm...Qocalıq haqlayır məni. Bu dəyişikliyi biz özümüz görmürük. Qocalığın ilk çağlarında zarafatla deyilmiş atmacalardan, sonra isə, bax, belə baxışlardan, təəssüflə, ürək ağrısı ilə verilən suallardan başa düşürük: "A kişi, nə tez ağartdın saçı-saqqalı, bu qədər də işləmək olar?! Bir az istirahət elə, özünə bax...Heç xoşuma gəlmirsən...Kəbirə xanıma nə deyim, axır zamanlar sənə pis baxır... və sairə". Belə ağır düşüncələrə qapılmış Həbibulla fikirləşirdi ki, qocalıq da bir növ təbiətin korlanmasıdır..." Bu qəmgin düşüncələr içərisində Həbibulla, çıxış edənlərin kəskin, tutarlı sözlərini də eşidirdi...

-...Beləliklə, Xəzərin ən ümdə problemlərindən biri əvvəlki kimi onun səthinin dəyişkənliyidir. Sahilləri öz əvvəlki yataqlarını dəyişir, daha da dayazlaşır, qiymətli balıqların əvvəllər kürü tökən ucsuz-bucaqsız yerləri quruyur, körfəzlər yoxa çıxır, dəniz gözümüzün qabağında ildən-ilə geri çəkilir.

-...Bu vəziyyət dənizin bir çox yerlərində gəmilərin hərəkətini çətinləşdirir, onların sahilə yaxınlaşması üçün kanallar qazıyan donanmanın işini ildən-ilə artırır.

-...Otuzuncu illərdə Xəzərin səthinin kəskin surətdə aşağı düşməsi balıqçılıq təsərrüfatına, dəniz nəqliyyatına və neft sənayesinə milyardlarla zərər vurdu...

Həbibullanın nəzərləri yenə də salona dikilmişdi. Elm yolunda saç ağartmış nə qədər məşhur alim yığılmışdı bura!...Görəsən, Xəzərlə əlaqədar qaldırılan suallara, məsələlərə cavab verə biləcəklər onlar?...Bu dəfə Həbibullanın diqqəti öz iş yoldaşlarının arasında oturmuş, ortaboylu, qırx beş yaşlarında kişiyə cəlb olundu. Bu möhkəm bədənli kişinin ağıllı, mələhətli sifətində sanki işıq saçırdı. İlk təsadüfdən adamı onun düşüncəli, iti baxışlı gözləri cəlb edirdi. Həmin adam Xəzərin təbii sərvətlərinin kosmik tədqiqi ilə məşğul olan, təzəcə təşkil olunmuş institutun rəhbəri idi. Sədr növbəti çıxış üçün məhz bu adama söz verdi. O, xitabət kürsüsünə qalxanda salonda ani bir canlanma əmələ gəldi. Çox sadə və müxtəsər danışdı. Ona tapşırılan institutun yaxın zamanlarda görəcəyi işlər haqda məlumat verib dedi ki, peyklərdən və hazırda kosmosda işləyən kosmonavtlardan ilk hesablamalar alınmışdır. İndi bu hesablamaların şifrlərini açıb şərh edir və sistemləşdirirlər. O, hərbi dəniz donanmasının instituta göstərdiyi köməklik üçün donanmanın komandanlığına təşəkkürünü bildirdi...

...Həbibullanın diqqətini yuxarı sıralarda oturan ağır, şişman gövdəli kişi cəlb etdi. Tez-tez saatına baxırdı. Hiss olunurdu ki, tənəffüsü gözləyir. Sifətinin ifadəsindən, baxışlarından açıq-aydın görünürdü ki, bura, bu yığıncağa çağırıldığının səbəbini hələ də yaxşı başa düşməyib.

Həbibullaya elə gəldi ki, həmin adamı hardasa görüb, hansı zavodunsa direktorudur. Nəsə xoşagəlməz təəssürat buraxmışdı bu adam Həbibullanın xatirində...Deyəsən, söhbətləri çox sərt keçmişdi...Bəli, həmin Mansurovdur bu adam. Məhz onun təqsiri üzündən zavodun işlətdiyi təmizlənməmiş sular birbaşa dənizə axıdılırdı.

- Yəni cinayətə yol verdiyinizi başa düşmürsünüz? - deyə komissiyanın sədri soruşmuşdu.

- Mən planı yerinə yetirirəm. Camaatı maaşsız qoya bilmərəm.

- Niyə zavodunuzu təmizləmə qurğusuna qoşmursuz?

- Təmizləmə qurğusunda işlətmək üçün mütəxəssisim yoxdur.

- Necə yəni yoxdur?!

- Ona görə ki, təmizləmə qurğularında işləyəcək mütəxəssislər hazırlamırıq. Başqa sahələrdə ali məktəblər planı artıqlaması ilə ödəyir. İndi də bəzi fakültələrin əvəzinə bizə lazım olan mütəxəssislər üçün yer ayrılsaydı, pis olmazdı.

- Göründüyü kimi kvartalın planını, bəlkə də, artıqlaması ilə ödəyəcəksiz. Ancaq Xəzərə vurduğunuz zərər dövlətə, xalqa min dəfə baha başa gələcək.

Bütün bu söhbət indi Həbibullanın gözləri qarşısında canlandı və ona elə gəldi ki, bu insafsız adam, bəlkə də, bu saat xəyalında artıqlaması ilə yerinə yetirilmiş planın mükafatını öz yaxın adamlarının arasında bölüşdürməklə məşğuldur.

Növbəti natiqin odlu, ehtiraslı sözləri eşidildi:

-...Xəzərin səthinin belə kəskin aşağı düşməsinin səbəblərindən biri də onun hovuzundan götürülən suyun miqdarının get-gedə artmasıdır. Belə getsə, yaxın zamanlarda hər il ən azı yüz səkkiz kub kilometr su götürüləcək Xəzərdən. Bundan əlavə, Xəzər çox həssas indikatordur. Havanın temperaturunda əmələ gələn ən cüzi dəyişiklik də o saat onun səthində əks olunur. Orta hesabla illik temperaturun bir dərəcə artması Xəzərə axan suların on iki faiz azalmasına səbəb olur. Bu da dəniz səthinin aşağı enməsinə gətirib çıxarır, Xəzərin səthində güclü buxarlanma əmələ gətirir. Bunların nəticəsidir ki, Xəzərin əlavə sulara böyük ehtiyacı vardır. Bunu nəzərə alaraq şimal çaylarının sularının bir qisminin Volqaya axıdılması nəzərdə tutulmuşdur. Hazırda bu məsələ texniki cəhətdən əsaslandırılmaqdadır. Lap bu yaxınlarda Nazirlər Sovetinin qərarı ilə Qaraboğazgölə külli miqdarda axan Xəzər sularının qarşısını kəsmək üçün bənd tikilməsi ilə əlaqədar təkliflər irəli sürülməsi bir sıra nazirliklərə tapşırılmışdır.

-...Xəzərin səthinin dəyişilməsi ilə bilavasitə bağlı olan vacib problemlərdən biri də onun bioloji məhsuldarlığı ilə əlaqədardır. Məlumdur ki, Xəzərə axan çay sularının azalması bu suların dənizə gətirdiyi planktonların, başqa balıq yemlərinin və mikroorqanizmlərin azalmasına səbəb olur. Dənizə tökülən çay suları azaldıqca kürü tökən balıqların da vəziyyəti ağırlaşır və kürü tökmək imkanı xeyli məhdudlaşır. Məlumdur ki, bu vəziyyət nə ilə nəticələnəcək. Balıq ovunun səviyyəsi xeyli aşağı düşəcək...Dəniz öz əvvəlki sahillərindən uzaqlaşdıqca keçmiş balıq zavodları və vətəkələr istifadəsiz qalıb əhəmiyyətini itirəcək...

Natiq Volqanın ətrafında yaradılmış sututarların Xəzərə göstərdiyi təsirdən də xeyli danışıb samballı faktlar gətirdi...

Fasilə elan olundu. Sessiya öz işini ertəsi gün davam etdirəcəkdi. Həbibulla Elmlər Akademiyasından birbaşa tərsanəyə tələsdi. Motorlu qayıq onu əlli kilometrlikdə lövbər salmış "Dərinlik" gəmisinə aparmalı idi...

Əyyub adəti üzrə nahar fasiləsində özünü evə çatdırırdı. İndi isə balaca Qəzənfər dünyaya gələndən sonra elə bil qanad alıb uçurdu evə. Dəhlizə girib üst paltarını çıxarır, vanna otağında əl-üzünü yuyur, üz-gözünü o qədər silirdi ki, toz zərrəciyi qalmasın. Yalnız bundan sonra, ehmalca, pəncələri üstündə balaca Qəzənfərin taxta çarpayısına yaxınlaşırdı. Çarpayıdan ona dikilən yumru gözlər, saf, incə dodaqlar arasından çıxan, hələlik anlaşılmaz sözlər Əyyubun qəlbini o qədər fərəhləndirirdi ki, bu təmkinli kişi sevincindən az qalırdı uşaq kimi atılıb düşsün. Arabir körpənin dodaqlarında təbəssümə oxşar ifadə görünürdü. Möhkəmcə ağlayan vaxtları da az olmurdu. Səsi gedib qonşulara çatırdı.

- Qoy ağlasın, - deyə Əyyub arvadına təskinlik verirdi: - Deyirlər uşaq nə qədər çox ağlasa, ciyərləri bir o qədər tutumlu olur.

Lətifə dinməzcə başını tərpədirdi. O sevinirdi, lakin uşağın ağlamağına görə yox, ərinin uşağa belə incə məhəbbətlə bağlandığına görə.

- Görəsən, bizim bu körpəmizin aqibəti necə olacaq? Necə adam olacaq bizim Qəzənfərimiz? - deyə, başını çarpayının yanında dayanmış ərinin çiyninə qoyub dalğın halda pıçıldadı.

Əyyub arvadının üzünə təəccüblə baxıb çiyinlərini çəkdi:

- Yəni buna şübhən var? Mən onu tərsanədə, gəmilərin göyərtəsində görürəm. Necə ki, babası Qəzənfər kişinin ömrü tərsanədə keçib, necə ki əmisi Ələsgər Adalının ömrü tərsanədə keçir, necə ki atası Əyyub Qəriblinin bütün həyatı tərsanədə keçəcək, eləcə də bizim Qəzənfər...Uşaq vaxtından tərsanəyə bağlananlar ona heç vaxt vəfasız çıxmırlar.

Əvvəllər Əyyub nahar eləyəndən sonra kürsüyə əyləşib iyirmi dəqiqəyə yaxın mürgüləyirdi. İndi isə Lətifə bələnmiş uşağı gətirib onun qucağına verir və Əyyub bu andan hər şeyi - günün yarısının yorğunluğunu, zavodun çətin problemlərini, tökmə sexini, sula-

rı bulanmış tərsanə sahilini unudurdu. Açığı, ilk vaxtlar uşağı qucağına almağa ehtiyat edirdi, sonralar yavaş-yavaş buna adət etdi. Uşağın bədənindən onun canına yayılan xoş istilik ürəyinə qüvvət verirdi. İndi uşaqla belə vaxt keçirmək onun ən sevimli vərdişlərindən biri olmuşdur. Bu incə təmasdan sonra Əyyub tərsanəyə çox gümrah və hər şeyə səfərbər halda qayıdırdı.

Əyyub Qəribli iş otağına gələndə dəvət etdiyi adamların çoxu artıq bura toplaşmışdı. Qalan bir neçə nəfər də yavaş-yavaş gəlib öz yerlərini tuturdular. Bura yığışanlar əsasən zavodun və sexlərin rəhbərliyini təşkil edirdilər. Bir də ki, həmişə olduğu kimi tərsanənin ağsaqqalları dəvət olunmuşdular.

- Təzə xəbər var? - deyə Anna Borisovna narahat halda Əyyub Qəribliдən soruşdu.

- Əyləşin, - deyə Qəribli üzünü hamıya tutub özü də əyləşdi və selektorun düyməsini basdı.

- Quru hovuz sizi eşidir, - selektordan bir qədər xırıltılı səs eşidildi.

- İşlər nə yerdədir? - deyə Qəribli soruşdu.

- Gəmini indicə rahlayıb qurtardılar, təmirə başlayırıq.

Qəribli soruşdu:

- Qrafik üzrə nə vaxta qurtarmalısınız?

- Qırx beş günə.

- Qırx günə, - deyə Qəribli təklif etdi. Bu təklif əmr kimi səsləndi.

- Yox, yoldaş direktor, mümkün olmayacaq, - xırıltılı səs etiraz etdi. Cırmaq-cırmaq ancaq qırx beş günə qurtara bilərik.

Qəribli dediyinin üstündə dururdu:

- Mənim hesabıma görə qırx gün kifayətdir. Cırmaq-cırmaq otuz beş günə qurtarmaq olar.

- Briqadamız dəst olsaydı sözüm yoxdu. Biri həftəliyə harasa gedib, o birinin xəstəlik kağızı var.

- Bəs necə eləyək? - deyə Qəribli fikrə getdi. - Quru hovuz mənə qırx gündən sonra lazımdır, hökmən lazımdır.

- Söz verə bilmərəm, Əyyub Qəzənfəroviç...Bir halda ki, sizə hökmən lazımdır, gərək bir şey fikirləşək.

- Fikirləşin...

Əyyub o biri düyməni basdı.

- Gəmi yığan sex eşidir sizi, - yoğun kişi səsi eşidildi.

- İşlər necə gedir?

- İşləri dayandırmışıq.

- Niyə?

- Nəzarət norması kalkalarda səhv tapıb.

- Aydınlaşdıra bilmisiz, kimdir təqsirkar?

- Kim olacaq, konstruktor şöbəsinin qızları.

Anna Borisovna həyəcanlı halda yerindən sıçradı:

- Bu qızlar lap kələfin ucunu itiriblər! Dəli olublar, nədir?!

Əyyub Qəribli ahəstə bir səslə öz fikirlərinə qapılıbmış kimi dilləndi:

- Çoxdandır ki, mən konstruktor şöbəsinə göz qoyuram. Çox müşahidə eləmişəm...Elə ki Ələsgər zavodda olur, bu qızlar insafla, ürəklə işləyirlər, yaman canfəşanlıq edirlər, tamaşaçı qarşısında çıxış edən artistlər kimi. Ancaq elə ki, rəisləri Odessaya, Leninqrada, yaxud da xaricə gedir, konstruktor şöbəsində işlər göz görə-görə pozulur, şöbə zavodun ümumi axınından ayrılır, süstləşir, hətta belə məsuliyyətsizliklərə gətirib çıxarır. Cəmi üç gündür ki, Ələsgər alimlərlə öz gəmisində sahildən uzaqlaşıb. Bu üç gündə şöbədə hər şey dəyişib. Qızlar da, elə bil, heç əvvəlki qızlar deyil. Ələsgər burda olanda bir gündə az qala iki günün işini görürdülər...

- Gəmidə işlər necə gedir? - deyə Anna Borisovna bir anlığa bayaqkı mövzudan ayrılıb soruşdu: - Məni Adalının gəmiyə qoyduğu exolot qurğusu maraqlandırır. Bu qədər zəhmət çəkməyimizə dəyərdi?

- Dəyərdi, - Əyyub inamla başını tərpətdi. Əslində o, ilk vaxtlar qardaşının bu təklifinin əleyhinə çıxmışdı. - Əla qurğudur. Belə məsələlərdə Ələsgərlə mübahisəyə girişməyin mənası yoxdur. O, bir qayda olaraq həmişə qalib gəlir. Deyirlər exolot alimlərə çox zəngin material verir. Həbibulla Səmədzadə yaman razıdır...Ancaq bu hələ ilk addımdır. Bundan sonra gərək daha uzaqlara, dənizin dərin yerlərinə getsinlər, Xəzərin cənub, şimal, şərq rayonlarını müayinə etsinlər.

-...Bəs indi fikriniz nədir? - deyə Anna Borisovna bundan əvvəlki mövzuya qayıtdı: - O ağıllarını itirmiş qızların dərslərini verməliyik, ya yox?

Hamı gözləyirdi ki, belə məsələlərdə sərt, barışmaz olan Əyyub Qəribli qızların haqqında öz qərarını verəcək. Lakin belə olmadı. Bu saat Əyyubun fikri daha mürəkkəb məsələ ilə məşğul idi.

- Hələlik onlara əlim çatmır, - deyə alt dodağını dişlədi. - Daha vacib məsələ üçün çağırmışam sizi bura. Necə deyərlər, bir nömrəli məsələ üçün. Camaatın bayaqdan hansı çətinliklərdən şikayət etdiyini hamınız eşitdiniz...

- Briqadaların dəst olmamasından, - deyə bir-iki nəfər birağızdan cavab verdi.

- Belə briqadalar çoxdur. Briqadaların dəst olmaması bizim tərsanənin ən vacib problemine çevrilmişdir.

- Elə bilirsiniz bu problem təkcə bizim zavoda aiddir? - deyə Anna Borisovna yüngülcə etiraz etdi: - Fəhlə qüvvəsi çox yerdə çatışmır.

Əyyub Qəribli burnunun ucunu zərifcə qaşıyıb nə isə xatırlmağa başladı:

- Con Pristlinin bir əsəri var, xırdaca bir povestdir, deyəsən, "Möcüzə yaradan qəhrəman"dır adı. Düzdür, orada söhbət başqa məsələlərdən gedir, ancaq İngiltərənin tərsanələrindəki vəziyyətdən çox təsirli səhnələr, sözlər, təsvirlər var. Qəhrəman qohumlarının yanına gəlir, görür ki, tərsanə çoxdan bağlanıb, oranın təcrübəli, biləcəkli ustaları işsiz qalıb, avara-sərgərdan veyllənirlər...Fikirləşirəm ki, verəydilər o adamları bizə, bizim tərsanədə onların hamısı üçün iş tapılardı...- Əyyub üzünü otağa yığışmış camaata tutub soruşdu: - İndi bizim obyektiv səbəblərimiz var. Briqadalarımız dəst deyil. Nə deyirsiz, bəlkə xahiş eləyək, planımızı aşağı salsınlar?

Bütün bu söhbət vaxtı Anna Borisovna diqqətli nəzərlərini Əyyub Qəriblinin üzündən bir an da ayırmırdı. Ona elə gəlirdi ki, Qəriblinin dedikləri ilə düşündükləri arasında nəsə bir uyuşmazlıq var. Buna görə də gözlənilmədən soruşdu:

- Siz bizə vacib bir söz demək istəyirsiz, eləmi?

Əyyub bir neçə saniyə susdu, özlüyündə nəyi isə yenə də ölçüb biçdi. Nəhayət üzünü camaata tutub mətləbə keçdi:

- Bir qədər bundan əvvəl həmin bura yığışan işçilər sənət-peşə məktəblərinə gedib, əhəmiyyətli iş aparmağa müvəffəq olub. Bu gün səhər mənə zəng vurub xəbər verdilər ki, sabah həmin məktəblərdən bizim tərsanədə işləməyə həvəs göstərmiş dörd yüz nəfər gənc fəhləni bura göndərəcəklər...Gördüyünüz böyük iş üçün sizin hamınıza, hər birinizə təşəkkürümü bildirmək istəyirəm. Həm də xahiş etmək istəyirəm ki, bir halda ki, bu vacib işi başlamısınız, özünüz də bu işi davam etdiresiniz; yəni sabah gələcək qonaqları qarşılayıb onlara hami durasınız...Siz onların xatirində qalmısız. Danışdığınız əhvalatlar, verdiyiniz vədlər onların beyinlərində, ürəklərində iz buraxıb. Onları bura ustaları və müəllimləri gətirəcək. Hər şeydən əvvəl, elə bilirəm ki, biz onları xüsusi diqqətlə qarşılamalıyıq. Sonra qısa məlumat verib onları dəstələrə bölməliyik. Kimin hansı sahəyə maraq göstərdiyini nəzərə alaraq, tənəffüsə qədər tərsanənin müəyyən sahələrini gəzib, qonaqları yeməkxanaya dəvət etməliyik. Nahardan sonra tərsanənin qalan sahələrini də gəzib tanışlığı davam etdirəcəyik...

Parfiri Sergeyeviç hələ də sərtliyini itirməmiş barmaqları ilə cod bığlarına sığal verib soruşdu:

- Bu uşaqlar tərsanəyə işləməyə gəlirlər yoxsa səyahətə?

Əyləşənlər arasında yüngül bir uğultu keçdi.

- İşləməyə! - deyə Əyyub Qəribli nikbin bir səslə cavab verdi. - Düz dörd ay burada sizin əlinizin altında işləyəcək, görüb - götürəcəklər. Onu da nəzərə alın ki, bu cavan fəhlələr tərsanəyə əliboş gəlmirlər. Müəyyən peşə sahibi kimi gəlirlər. Ancaq bu dörd ay ərzində tərsanədə görülən işlərə yaxından bələd olacaqlar, bilmədiklərini öyrənəcəklər.

- Bəs sonra? - deyə sex rəislərindən biri soruşdu.

- Dörd aydan sonra bizim verdiyimiz xasiyyətnamə ilə gedib məktəblərindən vəsiqələrini alacaqlar və həmişəlik tərsanəyə qayıdacaqlar... Bu isə o deməkdir ki, nəinki bu yaxınlarda bizim bütün briqadalar dəst olacaq, hətta əlavə təmir briqadaları yaratmağa da imkan tapacayıq.

Bu şad xəbər, deyəsən, hamının ürəyindən idi. Otaqda təntənəli bir sükut yaranmışdı. Anna Borisovna sükutu pozdu:

- Belə çıxır ki, planı aşağı salmaq haqqında məsələ qaldırmağa ehtiyac olmayacaq...Əlbəttə cavanların bizim kollektivə gəlməsinin əhəmiyyətindən danışmaq artıqdır. Ancaq bir şeyi də nəzərdən qaçırmamalıyıq. İlk zamanlar göstəricilərimiz bəlkə indikindən də bir az aşağı düşəcək. Ancaq yoldaşlar, heç bir vəchlə ruhdan düşmək və bunu xüsusilə cavanlar arasında büruzə vermək olmaz. Bunun nəticəsini ən uzağı yarım ildən sonra görəcəyik. Plan səviyyəsinə də qalxacağıq, hələ o yana da keçəcəyik.

Söhbət son dərəcə əməli xaarkter daşıdığına görə heç kəs əl çalmadı, nə də öz sevincini səs-küylə izhar etmədi. Sadəcə, deyilənləri gələcəkdə rəhbər tutmağı nəzərə alıb hamı öz işinə qayıtdı.

Ertəsi gün, səhər saat onda gəmi təmiri zavodunun qapıları qərbə metal cingiltisi salıb taybatay açıldı. Səliqə ilə cərgəyə düzülmüş, texniki-peşə məktəblərindən gəlmiş boylu-buxunlu oğlanlar və qızlar həyətə addımladılar. Gümrah addımlarla gəlib meydançanın ortasında dayandılar. Öz müəllimlərinin və ustalarının müşayətilə gəlmiş gənc fəh-

lələr ətraf mühitə uyğunlaşırlarmış kimi meydançanı, xüsusilə veteranların şəkilləri vurulmuş lövhəni seyr edir, bir-birlərinə nəyisə göstərir, təəssüratlarını bildirir, bütün bu sehrli aləmə tezliklə, səbirsizliklə bələd olmaq istəyirdilər...Həmin bu anlarda tərsanənin yaxın və uzaq guşələrindən axışıb gələn camaat meydançada qeyri-adi bir qələbəlik yaratmışdı. Demək olar ki, tərsanənin neçə minlik kollektivi gənc fəhlə ordusunun tamaşasına çıxmışdı.

Qonaqlar meydançaya toplaşanların içərisində tanış sifətlər görəndə cəld bir-birlərinə göstərirdilər.

Bu vaxt ayrı-ayrı dəstələrlə dayanmış tərsanə işçiləri arasında müxtəlif söhbətlər gedirdi. Ortayaşlı, qaraqabaq bir kişi qonaqları qısqanc bir nigarançılıqla süzüb, qonşusuna dedi:

- Bu uşaq-muşaq bizi əvəz edəcək?

Qonşusu başını tərpədib təsdiq etdi:

- Qəşəng uşaqlardır...

Qaraqabaq kişi çiyinlərini çəkib əyri-əyri gülümsündü:

- Bundan qabaqkı iş yerimdə kadrlar şöbəsinin bir əzazil müdiri var idi. Kimə rast gəlirdisə, soruşurdu: "Yerinə adam hazırlamısan?". Axırı bir dəfə onun özünə bu sualı verdilər, soruşdular ki, "Yoldaş müdir, öz yerinə adam hazırlamısan?"

- O, nə dedi?

- Yaman pərt oldu...

Qonşusu kişinin qonaqlara nigarançılıqla baxdığını görüb ona təsəlli verdi:

- Qorxma, sənə belə sual verməzlər, hələ çox cavansan...Bir də tutaq ki, lap vaxt gəldi, qocaldın. Kimdir sənə toxunan...Fəhlə qüvvəsi çatışmır. Bilirsən bizim Mirsalam kişi neçə yaşındadır? Kimdir ona, yaxud Parfiri Sergeyeviçə deyən ki, "Gözünün üstündə qaşın var..."

Bir neçə gün sonra tərsanədə qəribə dəyişikliklər əmələ gəlməyə başladı. Fasilə zamanı və əsasən işdən sonra hava qaralana kimi gənc fəhlələr voleybol və basketbol meydançalarını basmış alaq otlarını kökündən çıxarıb idman sahələrini sahmana salır, üzmək və suya tullanmaq hovuzunun suyunu buraxıb oranı səliqə ilə əsaslı təmir edir, bir sözlə, tərsanənin əsil sahibi olacaqlarını indidən nümayiş etdirirdilər. Yaşlı fəhlələr hər gün gözləri qarşısında əmələ gələn bu dəyişikliklərə heyran-heyran baxır, bu uşaqların canfəşanlığına, onlardakı həvəsə, ehtirasa, yorulmazlığa məəttəl qalırdılar. Tezliklə rayonun stadionunda keçirilən futbol oyunları və məşqləri təqvimində dəyişiklik etməli oldular. Tərsanənin gənc fəhlələrinin futbol komandası özünü əməlli-başlı göstərməyə başlamışdı. Gələnlərin içərisində yaxşı boksçular da var idi. İncəsənətin də həvəskarları az deyildi. Bu sahədə xüsusilə qızlar böyük səy göstərirdilər. Bir nəfər də şairləri var idi. Uşaqların belə qızğın fəaliyyət göstərdiklərini müşahidə edənlər elə ilk günlərdən onlara qəribə ad verdilər: "Qırmızı şeytan balaları". Vaxtilə belə bir film var idi. Özü də çox məşhur film idi. Filmin qəhrəmanları, neca deyərlər, od parçası idilər: hər şeyi bacarır, ən çətin vəziyyətlərdən, imtahanlardan bacarıqla çıxır, hamıya, hər şeyə qalib gəlirdilər. Bu uşaqların başçıları kim olsa yaxşıdır? Həmin o arıq cüssəli, uzundraz Turan. İdman, özfəaliyyət dərnəkləri və ictimai işlər sahəsində gənclərin istəkli hamisi - Turan olmuşdu.

Əyyub Qəribli həmişəki kimi iş otağının qapılarını açıq qoyub stol arxasında işləyirdi. Turan Əlizadə katibənin otağına girib açıq qapıdan içəri baxdı və bir müddət donub qaldı. Qəriblinin kağız üzərində əyilmiş üzü ona çox yorğun göründü.

- Əmrinizi eşidib göz qırpımında gəldim, - deyə adəti üzrə gülümsər bir səslə dilləndi.

Əyyub başını bir qədər ləng qaldırıb, boyu qapının çərçivəsinə güclə sığan Turanı gördü.

- Əyləşin, - dedi. Fikri yenə də qarşısındakı kağızlarda cəmləşdi.

Turan onun qənşərindəki kürsüyə əyləşdi. Əyyub xatirə dəftərçəsini açıb təxirəsalınmaz qeydlər etməyə başladı. Turan bir qədər də gözlədi. Əyyub, deyəsən, dəftərçəsindən ayrıla bilmirdi. Nəhayət, Turana elə gəldi ki, direktor onun burada - iş otağında olduğunu unudub. Bir qədər də səbr edib soruşdu:

- Məni çağırmısız?

- Bir dəqiqə, - Əyyub ona sarı baxmadan üzr istəyirmiş kimi yumşaq cavab verdi. - Çağırmışam...Təzə xəbərdən-zaddan nə var?

Turan gülümsündü, yanaqlarında dəcəllik qırışları əmələ gəldi:

- Mənə aid heç nə, - dedi, - amma sizin gözləməniz var...

Əyyub, qeydlərini qurtarmağa çalışır, lakin yeni-yeni, təxirəsalınmaz fikirlər bir-birini üstələyirdi:

- Məsələn, nə gözləmə?

- Tərsanədə səs yayılıb ki, tufan gözlənilir.

Telefon zəng çaldı. Əyyub yorğun hərəkətlə dəstəyi qaldırıb qulaq asdı və dedi:

- Onları mən qeydə almışam. Qoy hələlik səhvlərini düzəltsinlər.

Dəstəyi asıb işinə davam etdi.

Turan Əyyubun onun verdiyi maraqlı xəbəri qulaqardına vurduğuna məəttəl qalmışdı. Düşünürdü ki, bəlkə telefon zəngi onun fikrini yayındırıb. Buna görə də bayaq dediyi sözləri dəqiqləşdirdi:

- Deyilənə görə Nuhbala Qarayev öz yerinə qayıtmaq istəyir. Guya işində cinayət tərkibi tapmayıblar...Gəlib yenə də öz sexinə rəhbərlik edəcək. Sizin qarşıdakı görüşünüz bəzilərini təşvişə salıb; elələri də var ki, ölüm-dirim toqquşması baş verəcəyini gözləyir. Xoruz döyüşünün tamaşasına çıxmağa can atan da tapılacaq...

Əyyub yalnız indi nəzərlərini dəftərçədən ayırıb dalğın halda Turanın gülümsər, həm də bir qədər gərgin sifətinə baxdı və onun dediyi sözlərə yenə də əhəmiyyət vermədi. Bu vəziyyət bir neçə an davam etdi. Sonra Əyyub bir qədər yorğun səslə dedi:

- Məsələ belədir, yoldaş Əlizadə...Xeyli götür-qoy edəndən sonra sizə çox çətin, həm də məsuliyyətli bir iş tapşırmağı qərara almışıq...

Turanın arıq yanaqlarında əmələ gələn şən qırışlara bu dəfə keçirdiyi gərginlik səbəb oldu. Bu, Əyyubun nəzərindən qaçmadı:

- Fikriniz məndədir?

- Qulaqlarımı kökləmişəm, yoldaş Qəribli.

- Həmin Nuhbala Qarayevdən miras qalmış sexi sizə tapşırmaq istəyirik.

Qulaqlarına inanmaq istəməsə də Turan özünü sındırmadı:

- Bütün sexi, yoxsa xırdaca bir güşəsini?

Əyyub Turanın özünü belə qəribə aparmasına əhəmiyyət vermirdi. Hiss edirdi ki, bu reaksiya onun keçirdiyi gərgin vəziyyətdən doğur:

- Bütün sexi...Qəbula hazırlaşın.

Turan hələ də eşitdiklərinə inana bilmirdi. Ehtiyatla soruşdu:

- Bəs Qarayev?

Əyyub nəinki bu adam haqqında danışmaq, hətta onun adını eşitmək belə istəmirdi. Turanın özünü itirdiyini görmürmüş kimi soruşdu:

- Nə deyirsiz?..Bəlkə bizim bu təklifimiz ürəyinizcə deyil?

- Bir yandan baxanda orijinal təklifdir...- Turan köksünü ötürdü: -Dünənki tələbə, ağzından süd iyi gələn bir uşaq, adi fəhlə yerində işləyən - mən, necə deyərlər, fantastik bir sıçrayışla sex rəisi yerini tutur...Bu müdrik qərar hardan gəldi sizin fikrinizə?

- Hm...Elə bilirdim, siz yalnız başqalarına gülə bilirsiz, belə çıxır ki, özünüzdən də razı deyilsiz.

- Özlərindən bədgüman olanlar öz nöqsanlarını görmürlər.

- Əhsən! - Əyyub ona rəğbətlə baxıb soruşdu: - Hə, nə deyirsən?

- Məzəli söhbətdir, - başını itirmiş Turanın dodaqları qaçdı.

Əyyubun üzü ciddiləşdi:

- Çox çətin vəzifə tapşırırıq sizə.. Gərək o böyüklükdə sexin işini təzədən qurasız. Həm də elə işləyəsiz ki, sexin kollektivi sizə inansın, sevsin sizi... Sexdə əməyə münasibət kökündən dəyişməlidir. Ən çətini də elə budur. Sizə inanırıq. Elə bilirik ki, bütün bunların öhdəsindən gələ biləcəksiniz...

Turan, nəhayət, bir qərara gəlmək üçün uzun barmaqları ilə üzünü, alnını ovuşdurdu, yanaqlarında yığışmış şən qırışlar harasa yox oldu:

- Axı, hardandı sizdə bu inam?

- Elə bilirsiz bu neçə vaxtı təkcə siz bu camaatı müşahidə edirdiz? Biz də qəflət yuxusuna getməmişdik. Bircə addımınız da zavod rəhbərliyinin gözündən qaçmırdı.

Bu dəfə Turan özünü lap uşaq kimi itirdi:

- Belə çıxır ki, bayaqdan zarafat etmirsiz...

Əyyub başının işarəsilə təsdiq etdi:

- Əmrinizi hazırlayıram.

- Riskə gedirsiz, - deyə Turan özünə gəlib təklifi qəbul etdiyini bildirdi. -Bacarmasam, işdən çıxarmağa nə var ki. Sizə bələdəm. O biri əmrə də qol çəkəndə əliniz əsməyəcək...

Əyyub Turanı ürəkdən bəyənirdi. Bu dəfə də, eyni inamla dedi:

- Biz sizə inanırıq!..

Səhər, Həbibulla, konfrans salonunda, əvvəlki yerində oturub ətrafına nəzər saldı. Bir az gecikmişdi. Növbəti natiq xitabət kürsüsündə idi:

-...Düzdür, yalnız Xəzərdə yaşayan ağ və qızıl balıqların kökünün kəsilməməsi üçün çox iş görülür: milyonlarla körpə ağ və qızıl balıq dənizə buraxılır. Yoldaşlar! Xəzərin səthi aşağı düşdükdə fauna ehtiyatı da kəskin surətdə azalır. Biz indi də dənizimizin müxtəlif yerlərində zooplanktonların, zoobentosların, qiymətli balıq yemlərinin bu günkü vəziyyətini öyrənir, bu yemləri çoxaltmaq üçün böyük tədqiqat işləri aparırıq. Lakin, yoldaşlar, daha vacib bir problem mövcuddur ki, bu problemi həll etmədən heç bir tədqiqat aparmağın əhəmiyyəti yoxdur. Bu da dənizin çirklənməsidir. Düzdür, elmi şura buna xüsusi diqqət yetirir. Ancaq elmi şura təklikdə belə işdə həlledici rol oynaya bilməyəcək.

Məsələ o qədər vacib və təxirəsalınmazdır ki, bunsuz o biri institutların işləri, müxtəlif tədqiqatları heç bir əhəmiyyət kəsb etməyəcək. Çünki ölü dənizə tədqiqat gərək deyil!...

Həbibullanın diqqətli baxışları bir şeyi qeydə aldı: dünən salonda oturan adamların bir qisminin kürsüsü boş idi. Ötən gün tez-tez, hövsələsiz saatlarına baxan, narahatlıqla yerlərində qurdalanan şəxslər bu gün bura gəlməyi lazım bilməmişdilər. Lazım bilənlər isə bir-birinin ardınca xitabət kürsüsünə qalxıb öz nigarançılıqlarından, müşahidələrindən, apardıqları müxtəlif tədqiqatlardan danışıb qiymətli təkliflər irəli sürürdülər. Vacib məsələlərdən biri də Zaqafqaziya respublikalarının təbiətin saflığının mühafizəsilə məşğul olan təşkilatları arasında müzakirə olunmalı idi. Çünki öz çirkləndirici tullantılarını qonşu respublikanın ərazisinə axıtmaq hallarına da təsadüf olunurdu. Ən təxirəsalınmaz problem isə təmizləmə qurğuları və nəzarət laboratoriyaları üçün mütəxəssislər hazırlanması idi. Bu məsələyə, demək olar ki, bütün natiqlər öz çıxışlarında dönə-dönə qayıdırdılar.

Cərgələr arası ilə ötürülən bükülü kağızı Həbibullaya verdilər. O, karandaşla milə-mil xətlər çəkilmiş kağızdakı sözləri oxudu: "Nə itirmisiniz burada!...Çıxın gedin evə...Gözümə çox yorğun görünürsüz..." Həbibulla, xitabət kürsüsünün aşağısında stenoqrafçılar-çün qoyulmuş stollara sarı baxdı. Gözləri Zümrüdün baxışları ilə rastlaşmadı. Növbə Zümrüdə çatmışdı. O, yazırdı...Çıxış edən Xəzər elmi mərkəzinin nümayəndəsi idi:

-...Bundan əlavə, Xəzər elmi mərkəzində dənizin çirklənməsinə operativ nəzarətə - təyyarələrdə və peyklərdə qurulmuş xüsusi cihazlarla təyin etmək üsuluna keçmişik. Neft mədənlərində və sənaye müəssisələrində çirkli mayeləri dənizə buraxmazdan əvvəl mexaniki və bioloji təmizlənməsi daha da təkmilləşdirilir. Bu üsulla təmizlənmiş suyu akvariuma töküb ora balıq buraxmışıq; iki aydır ki, üzürlər belə sularda. Respublikamızın ictimaiyyəti Nazirlər Sovetinin sənaye sularındakı zərərli qarışıqları təmizləyən "Reagent-44"-ün inşasına başlamaq haqqında qərarını böyük sevinclə qarşıladı.

Salonda əvvəlcə canlanma əmələ gəldi, sonra alqış səsləri qopdu... Sonrakı natiq dünya miqyasında atmosferin, dənizlərin, meşələrin vəhşicəsinə çirkləndirilməsindən, poladəridən və kimya zavodları tullantılarının təbiətə, ətraf mühitə vurduğu zərərdən, İsveç sututarlarının çoxunun ölü sahələrə çevrildiyindən, Baltik dənizinin bəzi yerlərinin dözülməz vəziyyətə düşdüyündən, Sakit okeanın neftə və mazuta batmış sahillərindən, bu sahillərdə məhv olan qiymətli quşlardan, yüzlərlə balina balığının çirklənmiş dənizdən sahilə qaçıb məhv olduğundan danışıb dedi ki: "...Bizim Xəzər dənizi bunların müqabilində toya getməlidir".

İki gün davam edən elmi sessiya göstərdi ki, elm ocaqlarımız Xəzərin taleyi ilə necə yaxından və ciddi məşğul olur. Bu, Xəzərin sabahına daha nikbin ümidlə baxmağa əsas verirdi...

Salon bu natiqi də alqışladı. Sədr növbəti natiqə söz verməyə imkan tapmamış qoca bir alim söz istəmədən ayağa qalxdı.

Sədr bu alimin xasiyyətinə yaxşı bələd idi. Cüzi hallarda çıxış edər, sözçülükdən, artıq danışıqlardan acığı gələrdi. Vacib bir təklifi, yaxud iradı olanda yazılı halda prezidentə və ya lazımi elmi institutlara göndərərdi. Azı doxsan yaşı olardı. Lakin yaşıdlarından fərqli olaraq zehni aydın idi. Elm xadimlərindən kiminsə, onun haqqında dediyi sərrast söz hamının xoşuna gəlmişdi: "Zəkəriyyə Ağayevin beyin əzələləri iyirmi yaşlı oğlanın beyin əzələləri kimi gümrahdır". Çıxışlardan imtina etməsinin bir neçə səbəbi var idi. Birinci o idi ki, ümumiyyətlə iclasdan acığı gəlirdi; elmi sessiyalarda da onu qane etməyən cəhətlər mövcud idi. Çox vaxt belə sessiyalarda təmtəraqla elan olunan perspektivli kəşflər, tədqiqatlar istehsalata çatmadan əhəmiyyətini itirirdi. Zəkəriyyə Ağayev görkəmli kimyagər idi. Böyük Vətən Müharibəsi illərində təyyarələrin sürətini artırmağa imkan verən, göydə düşmən təyyarələri üzərində üstünlük qazandıran müxtəlif yağların və yanacağın kəşfində onun da böyük zəhməti olmuşdu. Çıxış etməkdən boyun qaçırmasının səbəblərindən biri də o idi ki, dili bir az topuq çalırdı. Özü də həmişə bu salonun ilk sırasında otururdu.

- Buyurun, Zəkəriyyə müəllim, - deyə sədr onu xitabət kürsüsünə dəvət etdi.

Zəkəriyyə müəllim dilinin topuq çalacağı anı unudub sakitcə dilləndi:

- Elə buradan da danışa bilərəm.

- Buyurun.

Salondakıların hamısı başlarını döndərib üzünün şəffaf dərisinə qocalıq ləkələri düşmüş, ağ, pırpız bığlı, ucaboy alimin deyəcəyi sözləri diqqət və maraqla gözləyirdi.

- Birinci, - deyə qoca alim sözünə başladı, - müdrik sözlərdən bəzilərini yadınıza salmaq istəyirəm..."Təbiət üzərində qələbə çaldığınıza çox da öyünməyin, təbiət bunun əvəzini sizdən hökmən çıxacaq". Biz çayların yolunu kəsib bəndlər salanda, orda-burda xırda dənizlər yaradanda deyirdik ki, qalib çıxmışıq. Amma bu xırda dənizlər Xəzəri yeyirlər. Bəndlər yolları kəsib nadir cinsli balıqlarımıza nəsillərini artırmağa imkan vermirlər... İkinci, bu yer kürəsi ki var, bütöv, canlı bir orqanizmdir. İnsanın bədəninin bir yeri xəstələnəndə bütün vücudu bundan zərər çəkdiyi kimi, planetimizin də bir yerində baş vermiş bəla, çirklənmə, təbii fəlakət başqa yerlərə də öz ağır təsirini göstərir. Bu səbəbdən də məndən əvvəlki natiqin yer üzərindəki bəlaları sadalayıb onlarla müqayisədə Xəzərin toya getməli olmasına sevinənlərlə şərik deyilәm...Üçüncü, hardasa belə bir cümləyə təsadüf etmişəm: "Bir vaxt gələcək, içməli suyu çox olan ölkə toplu-tüfəngli ölkələrdən güclü sayılacaq..." Suyu və havanı qoruyun, bunların saflığı həyatın, gələcəyin saflığı, sağlamlığıdır...

Zəkəriyyə müəllim sözünü bitirib yerinə əyləşdi. Bütün salonu sükut bürüdü. Heç kəs əl çalmadı. Sədr də bir müddət sükuta dalıb, sonrakı natiqə söz vermirdi...

Sonrakı natiq çirklənmənin qarşısını almaq üçün iki mininci ilə qədər Xəzərdə aparılacaq hidroloji və hidrokimyəvi işlərdən danışdı.

Bundan sonra xitabət kürsüsünə qalxanlar yalnız nikbin xəbərlər verirdilər.

Altı saata yaxın idi ki, sessiya işləyirdi. Həbibulla öz aləmində natiqləri Xəzərin, atmosferin saflığı uğrunda barışmaz mübarizə aparan döyüşçülərə bənzədirdi. Lakin bu döyüşçülərin hamısı eyni dərəcədə səfərbər deyildi: bəziləri ittiham edir, digərləri şikayətlənirdi. Buna görə də Həbibulla özlüyündə onları nikbinlər və bədbinlər cərgəsinə daxil edib yorğun halda gülümsünürdü. Salondakılar da xeyli yorulduqlarına baxmayaraq, çıxışları maraqla dinləyirdilər.

Xitabət kürsüsünə qalxmış gənc okeanoqrafın çıxışı sessiya iştirakçılarının nisbətən gərginləşmiş əsəblərinə, yorulmuş beyinlərinə xoş bir sərinlik gətirdi, hamıya müəyyən dərəcədə istirahət verdi. Çox səmimi danışırdı. Elə bil, şirin arzularını və xəyallarını açıb əziz, doğma adamlarına əyan edirdi. Xəzər muzeyi yaratmaq istəyirdi. Yığdığı maraqlı tarixi sənədlərdən, qəribə faktlardan elə məhəbbətlə danışırdı ki, hamının qəlbində onun bu arzusuna, təklifinə qarşı rəğbət oyanırdı. Nə qədər eksponat yığmışdı, az qala yeniyetmə yaşlarından kimlərlə məktublaşdığından ətraflı danışıb dedi ki, Bakıda yaxın zamanlarda "Xəzər muzeyi", gələcəkdə isə, ümumiyyətlə, böyük dəniz muzeyi təşkil olunmasını xahiş edir...

Həbibulla bu muzeyin eksponatlarını təsəvvüründə nizamlamaq istədi. Yüz il əvvəlki Xəzər milyon illər əvvəlki kimi sadə, məhz dənizlə bağlı sözlərlə, anlayışlarla təsvir olunurdu. Küləklərin istiqaməti və bununla əlaqədar olaraq balıq ovuna səfərə çıxmağın mümkün olub-olmaması, sualtı keçidlər, təhlükəli sualtı qayalar, burulğanlar, dənizin dibindən püskürən vulkanlar, gəmilərin növləri, zəngin, nadir cinsli balıqlar aləmi...Bu gün isə gör Xəzərin indiki vəziyyəti ilə bağlı nə qədər təzə elmi anlayışlar, yüzlərlə elmi-texniki terminlər yaranıb!...Bütün bu sözlər insanların özlərinin törətdiyi problemlərlə əlaqədar olaraq ortaya çıxıb... Nənəsi ona deyərdi: "Bala, qayalıqlarda çimmə, qayaların ağzı var, adamı özünə çəkib udur..." Buralarda küləyin əsdiyi istiqamətlərin hərəsinin öz adı var idi: xəzri, gilavar, "dağ yeli", "Buzovna yeli"... Külək kəskin surətdə dəyişib əks istiqamətdə əsəndə buna gilavar deyirdilər. Gilavar çox hallarda dənizdə təhlükəli burulğanlar əmələ gətirirdi. Şiddətli xəzri küləyi bir neçə gün ara vermədən əsəndən sonra sahil sularının dibi dərə-təpə olurdu. Bu təpəciklərin arasındakı dərinliklər üzə bilməyənlər üçün çox təhlükəli sayılırdı. Yaxşı üzənlər isə dəstə ilə dənizin tünd mavi yerlərinə gedib çıxırdılar, bir də hava qaralanda qayıdırdılar. Camaat o tünd mavi üfüqə "Paroxod yolu" deyirdi. Çünki bəzən o mavi üfüqdə xəyal kimi görünən gəmilər ilğım içərisində görünüb, tezliklə əriyib yox olurdular...Sahildə, lap ləpədöyəndə, xırda balıq sürüləri adamların ayaqlarına dolaşırdı. Uşaqlar köynəklərinin yaxasını düyümləyib bu balıqlardan tutur, çəlləyə salır və gətirib bağdakı hovuza, yaxud quyuya buraxırdılar. Bir neçə il sonra quyu, hovuz suyuna uyğunlaşmış balıqlar böyüyüb əsl dəniz balıqlarına çevrilirdilər. İndi isə, bu iki gün davam edən sessiyada yüzlərlə təzə elmi terminlər sadalanırdı. Özü də bu terminlərin çoxu yaxşılığa çəkilmirdi, çətinliklərlə əlaqədar çəkilirdi.

Sözü Həbibulla Səmədzadəyə verdilər. Çıxışlarındakı kəskinliyə və gərçəkliyə bələd olan salondakılar onu böyük diqqətlə qarşıladılar. Tanınmış okeanoqraf özündən əvvəlki natiqlərin çıxışlarının Xəzərə aid olan hissəsini yekunlaşdırıb, "Dərinlik" gəmisində aparılan elmi-tədqiqat işləri haqda yığcam məlumat verdikdən sonra salondakı həmkarlarını bir daha duyuq salıb dedi ki; "Heç bir vəchlə sayıqlıqlarını itirməsinlər, arxayınlaşmasınlar. Müxtəlif elmi təşkilatlar və mərkəzlər tərəfindən aparılan işlər, əlbət ki, sevindiricidir. Lakin bu işlərin əksəriyyəti bu gün və sabah Xəzərdən necə faydalanacağımıza aiddir. Bəs dənizimizin saflaşması, təmizlənməsi üçün neyləyirik? Xəzərin sağlamlığını özünə qaytarmaq üçün nə kimi qlobal işlər görürük? Bax, bu barədə çox az danışıldı. Bu sahədə nəzərdə tutulmuş işlərin çoxu yalnız çox uzun illərdən sonra nəticə verə biləcək. Bunun da ən ümdə şərti odur ki, çirklənmənin qarşısı məhz indi təxirə salınmadan bu gün alınsın... Dənizimizin çirklənmədən qorunması və təmizlənməsi üçün xeyli zəhmət çəkilir və vəsait buraxılır. Əlbəttə, bunun nəticəsini müəyyən qədər hiss edirik. Lakin tam qələbə üçün bunlar kifayət deyil. Bir hadisə danışmaq istəyirəm. Bakı limanına aiddir..."

Həbibulla, tərsinədə, gəminin altına baş vurmuş dalğıcın dənizin sahil sularının vəziyyəti ilə əlaqədar başlamış acı söhbətini təfsilatı ilə nəql edib, Tərlan Mehdiyevin tənə ilə dediyi: "İynə ilə gor qazırıq..." sözlərini təkrar etdi:

-...Acıdil adamdır. Ancaq doğru sözə nə deyəsən!...Xəzərin saflığını qorumaq üçün yeni, qüdrətli bir təşkilat, birlik yaratmaq vaxtı gəlib çatmışdır. Özü də bu təşkilatın dəniz və hava donanması, hüdudsuz imkanları olmalıdır. O ki qaldı ildən-ilə artan təmizləmə qurğularına, bunu nəzərə alaraq təbiətiqoruma təhsilinə xüsusi fikir verilməlidir...Dəniz neft kəşfiyyatçılarının çətin şəraitdə apardıqları qazıntı işlərini xeyli yüngülləşdirən və Xəzəri əlavə çirklənmədən qoruyan zondlaşdırma üsulu özünü möhkəmcə doğrultmuşdur. Bildiyiniz kimi bu iş peyklərdə qoyulmuş xüsusi cihazlarla görülür. Lakin bu üsulla alınan məlumat əməlli-başlı, böyük dəqiqliklə şərh olunmalıdır. Deməli, bu yeni sahə üçün də mütəxəssislər hazırlanması təcili həll olunmalıdır. SSRİ Ali Sovetinin 1970-ci ildə Xəzərin saflığının qorunması haqda qəbul etdiyi qanun dənizimizin çirklənməsinin qarşısını almaqda xeyli kömək elədi. Ancaq təəssüf ki, bu qanun qəbul olunandan əvvəl çirklənmə prosesi dənizin vəziyyətini ağırlaşdırmışdır. Təmizlənmə sahəsində tam qələbə çalmaq üçün uzun illər gərək olacaq. Bu məqsədlə Xəzərin demək olar ki, bütün guşələri kompleks halda tədqiq olunur. Çirklənmənin dənizin heyvanat və bitki aləminə göstərdiyi təsiri və Xəzərin fitri xüsusiyyətlərindən biri olan özütəmizlənmə prosesinin dinamikası öyrənilir.

Həbibulla bir anlığa sözünə ara verib dayandı, sonra köksünü ötürüb dedi:

- Heç birimiz yer üzərində əbədi yaşamayacağıq. Hamımıza məlumdur bu. Ancaq bunu bilə-bilə yeni şəhərlər tikirik, yollar salırıq, əbədi yaşaya biləcək sənət əsərləri yaradırıq. Çünki təbiətən biz nikbinlərik. Mən üzümü möcüzələr yaradan nikbinlərə tuturam: Xəzəri qoruyaq! Onu bütün bəlalardan mühafizə edək ki, nəvələrimizə, nəticələrimizə, gələcək nəsillərimizə səadət bəxş etsin!..

Turan Əlizadənin sex rəisi təyin olunması Əyyub Qəriblinin direktorluq fəaliyyətinə kəc baxanlara, ümumiyyətlə, başda Tərlan Mehdiyev olmaqla, ondan narazı qalanlara yaman yer elədi: "Ay camaat, ayıq olun, Əyyub Qəribli sizin axırınıza çıxmaq istəyir, yumurtadan təzəcə çıxmış cücələri tərsanəyə buraxıb sizi işdən çıxaracaq. Belə getsə, yaxın zamanlarda, tərsanə büsbütün keçəcək uşaq-muşağın əlinə..." - deyə şikayətlənir, guya camaatı duyuq salmaq istəyir, əslində isə tərsanənin veteranlarını Əyyub Qəriblidən narazı salmağa çalışırdı: "İndi görün, Nuhbala Qarayevin yerinə qoyduğu o yekəbaş uşaq ikicə aya o böyüklükdə sexi necə bərbad edəcək!"

Belə söz-söhbətlər gəlib Turan Əlizadənin qulağına çatırdı. Lakin ruhdan düşmək əvəzinə, Turan daha böyük ehtirasla çalışır, sexin bütün işlərini sahmana salmaq üçün gecə-gündüz düşünüb-daşınır və hamını bu işə səfərbər etmək məqsədilə yoldaşlarının hər birinin qəlbinə, şüuruna təsir göstərməyə yollar axtarırdı.

...Sexdə gərgin iş gedir, ustalar kayut qapaqlarının, çarpayıların, taxtların ölçülərini dəqiqləşdirir, Turan da xronometri qoşub hansı işin nə vaxta başa gəldiyini hesaba alır, sonra da öz dəftərçəsində qeydlər edirdi. Görülən işlərin mərhələləri dəqiqəsinə qədər ölçülüb biçilirdi ki, biri başqasını gözləməli olmasın. Həll olunmamış məsələlər çox idi hələlik...Sexdən gedənləri əvəz etmək üçün texniki peşə məktəblərindən on iki nəfər gənc fəhlə gəlməli idi. Bundan əvvəl gələnləri o biri sexlərə göndərmişdilər; nizam-intizam, əməyə şüurlu münasibət istənilən səviyyəyə qalxmamışdı. Bir də görürdün ki, fəhlələrdən biri alətlərini saymazyana çantasına qabladır. Özü də orta yaşlı samballı bir kişidir. Turan yaxınlaşıb təmkinlə soruşur:

- Hara belə?

Dülgər tələsmədən başını qaldırıb onun üzünə baxır, heyrətlə gözlərini qırpıb cavab verir:

- Dəyməli yerim var...

- İşin qurtarmasına hələ üç saat qalır, - deyə Turan təmkinlə xəbərdarlıq edir.

Dülgər səmimi bir narazılıqla kəkələyir:

- Bu da təzə çıxdı?...Axı mən bu günkü normamı ödəmişəm...

- Görmürsüz ki, sexdə hər şey təzələnir?! Bəli, bu da təzə çıxdı. Bu vaxta kimi siz yarımçıq norma ilə işləyirdiz, indi tam normaya keçəcəksiz, - deyə Turan qətiyyətlə cavab verərək dülgərin üzünə baxır, güclü adamlara xas olan təbəssüm arıq yanaqlarında qırışlar əmələ gətirir:

- Qayıdın iş yerinizə!

Qarabuğdayı qız, pillələrin ikisini-üçünü birdən fəth edə-edə hövlnak sexə girib iri, yumru gözləri ilə kimi isə axtarmağa başladı. Turanı tapıb uzaqdan çığırdı:

- Turan Musayeviç! Sənət məktəbindən bir dəstə uşaq gəlib.

Turan Mahir Muradova yaxınlaşdı:

- Yoldaş Muradov, gənc fəhlələrin təlim-tərbiyəsi ilə siz məşğul olacaqsız...Bir sözlə, sizi onlara hami təyin edirəm...Qarşılayın onları, işə başlayın.

◆ YENİ TƏRCÜMƏLƏR

Zbiqnev HERBERT

(1924-1998)

XX əsr polyak poeziyasının görkəmli nümayəndəsidir. Avropa sənət mühiti onu dövrünün esse ustası hesab edir. Lvovda anadan olub. İntellektual lirik poeziyanın görkəmli nümayəndələrindən olan Herbert bir müddət Fransa, İngiltərə, o vaxtkı Qərbi Almaniya və İtaliyada yarımmühacir həyatı yaşayıb. Polşa PEN klubunun mükafatına (1984), Bruna Şults adına mükafata (1988), Yerusəlim ədəbiyyat ödülünə (1991), T.S.Eliot poeziya mükafatına (1995) və onlarla başqa beynəlxalq ədəbiyyat mükafatlarına layiq görülüb. "Cənab Koqito silsiləsindən" olan şeirləri polyak ədəbiyyatının klassik nümunələri ilə bir sırada dayanır. Azərbaycan dilində ilk dəfə çap olunur.

Tərcüməçi

ZÖVQÜN QÜDRƏTİ

Professor İzidota Dombskayaya

Bizim etirazımız nifaqımız bizim inadımız
əsla heç bir güc istəmirdi bizdən
gərək olan azacıq qocaqlığımız vardı bizim
əslində hər şey aslıydı zövqümüzdən
zövqümüzdən ki
canıydı qanıydı vicdanımızın

Kim bilir bəlkə bizi həblər kimi yastı alyanaq qadınlarla
ya da Bosxun rəsmlərindəki əcaib varlıqlarla
daha gözəl şəkildə ustalıqla başdan çıxarsaydılar
onda ədalət sarayı adlanan o cəhənnəm
o çirkli çuxur döngə qatil yatağı necə görünərdi

(əvəzində) Leninin gödəkçəsini geymiş cecə qoxuyan Mefistofel
"Avroranın" qız nəvələrini
yemişbaş oğlan uşaqlarını
qırmızı əlli-əlcəkli pinti qızcığazları ölkəmizə göndər(ər)di

kasad döyənək olmuş sözlər iki-üç axmaq kəlmə
cəllad dialektikası incəlikdən məhrum fikir
felin lazım formasının gözəlliyindən məhrum sintaksis
Vallah onların bəlağəti olduqca zövqsüzdü
(gorun elə onda çatladı Mark Tuliy)

belə çıxır ki həyatda estetika da gərəkli bir şeymiş
gözəllik haqqında elmə xor baxmaq sən demə lazım deyilmiş

amma bütün bunları təsdiq eləməmişdən əvvəl
memarlıq formalarını barabanların və fitlərin ritmini
rəsmi rəmzləri və qanmazca dəfn mərasimlərini
biz dəqiqliklə tədqiq etməliyik
gözlərimiz və qulaqlarımız itaətdən imtina elədilər
hisslərimizin məğrur şahzadələri sürgün həyatını seçdilər

Heç bir güc lazım deyildi əsla
gərək olan azacıq qoçaqlığımız vardı bizim
!!1 əslində hər şey aslıydı zövqümüzdən
hə zövqümüzdən ki

öyrəndiyimizi acı gülüşümüzü göstərəcəkdi
Ola bilsin başımız - bədənimizin o əvəzsiz saxlancı
çiynimizdən düşəcəkdi

ANA

O qadının dizindən yun kələfi kimi sürüşüb düşdü.
Tezliklə böyüdü və kor-koranə qaçıb getdi.
Qadının əlində idi həyatın başlanğıcı, nazik üzük kimi
barmağına dolamışdı. Qorumaq istəyirdi onu.
O isə dolanbaclardan diyirləndi, dağa dırmandı.
Yenə dolaşdı, qadının yanına gəldi və susdu.
Bir də heç vaxt dizlərin pərqu taxtına qalxmayacaqdı o.

İrəli uzanmış əllər qaranlığın zülmətində
qədim şəhər kimi işıq saçırdı.

DÜYMƏLƏR

Sağ qaldı yalnız düymələr
Ölümlərə atıldılar
Şahid olub dəhşətlərə
Hələ bir sağ da qaldılar (üzə çıxdılar)

Şəhid ömrün Allah yazar
Sonra onları əfv edər
Bəs bədənlər necə qalxar
Gilə qarışıbsa əgər

Gah bulud uçar, gah da quş
yarpaq düşər, bitər bitki
(yarpaq düşər, zoğ cücərər)
yuxarıda sükut sükut
Smolensk meşəsində sis
(meşədə duman tüstülər)

Sağ qaldı yalnız düymələr
Nəğməsitək ölənlərin
Sağ qaldı yalnız düymələr
Qəlpəsitək şinellərin

17.IX

***Yuzef Çapskiyə** **

İşğalçı, mənim köməksiz vətənim səni qəbul edəcək
Yas və Malqosyanın** ayaq döydüyü məktəb yolu
heç vaxt uçuruma çevrilməyəcək

Çaylar çox tənbəldilər sellərə-daşqınlara meyilli deyillər
dağlarda yatan cəngavərlər yenə mürgü döyəcəklər
demək sən ey çağrılmamış qonaq içəri çox asan girəcəksən

Amma bu torpağın övladları gecə toplaşacaqlar
gülməli quşatanlara sarılacaqlar azadlıq aşiqləri
öz müzey silahlarını yağlayacaqlar
quşa və bayrağın iki rənginə əl basacaqlar

*- Yuzef Çapskiy (1896-1993)- polyak rəssamı, yazıçısı, memuar ustası, esseist, ədəbiyyat tənqidçisi və sənətşünas. 1939-cu il sentyabrın 17-də orduda yeken rus hərbçiləri tərəfindən həbs olunmuş, rusların polyak hərbi əsirləri üçün nəzərdə tutulmuş Starobelsk və Qryazovsda məhbus olmuşdur. Sonradan Herbertin şeiri ilə açılan «Daşürəkli torpaqda» kitabını yazmışdır. 1945-ci ildən Parisdə yaşayıb.

**- Yas və Malqosya polyak nağıllarının uşaq qəhrəmanlarıdır; şeirdə onların adıyla bütün polyak uşaqları nəzərdə tutulur

Sonra həmişəki kimi partlayış qızartısı
bir də rəsmlərdən çıxmış oğlanlar yuxusuz komandirlər
arxada məğlubiyyət yükü şöhrətin sarı-paslı səhrası
bir də ayıq-sayıq düşüncə-kömək gəlməyəcək

İşğalçı, mənim köməksiz vətənim səni qəbul edəcək
ağsöyüdün altında bir arşın torpaq da verəcək, səni uyudacaq ki
bizdən sonra gələnlər yenidən vaqif olsunlar
sənətlərin ən çətininə yəni bağışlamaq sənətinə

TƏRƏDDÜD EDƏN NİKA* (və ya Nike)

Nika tərəddüd edəndə
daha gözəl olur
amiranə və gözəl şəkil almış
sağ əli
havaya dayaqlanmış
amma qanadları titrəyir

çünki Nika
hərbi dəmir yoll xətti boyunca
yüyürən tənha yeniyetməni görür
ardıcların və qayalıqların boz peyzajının
kül rəngli tozu arasında

tezliklə həmin gənc öləcək
həlak olacaq
onun qismət tərəzisi pozulacaq
torpağa gömüləcək

Nika cox istərdi
ona yaxınlaşsın
alnına asta bir öpüş bağışlasın

amma qorxdu ki
hələ sığalın şirinliyini dadmamış gənc
onu hiss edən an
döyüş meydanından qaçar-
bunu çoxları etmişdi

bu səbəbdən Nika tərəddüd edir
və nəhayət
heykəltəraşların ona öyrətdikləri duruşu
pozmamağa qərar verir

çünki o anlayır
sabah sübh vaxtı
sinəsi açıq
gözləri qapalı
vətənin ağız büzən gümüşü sikkəsi
qıc olmuş dilinin altında
o oğlan hərəkətsiz torpağa düşəcək

KLASSİKLƏRİN FƏRQİ

(Niyə məhz klassiklər?)

"Pelopennes savaşı"nın IV cildində
Fukidid öz uğursuz yürüşündən danışır

sərkərdələrin uzun nitqləri
vəba və müharibə səhnələri
diplomatik gedişlər arasında
bu hissə
samanlıqdakı iynədir

*Antik miflərə görə müharibələrdə uğur gətirən ilahə

Afina müstəmləkəsi Amfipol
onları dövrələmiş spartalılara təslim oldu
çünki kömək dalınca gedən Fukidid gecikdi

doğma şəhərinə borcunu
o ömürlük sürgünlə ödədi

bütün dövrlərdə sürgün edilmişlər
bunun nə olduğunu yaxşı bilirlər

2.
son savaşlarda generallar
belə bir iş başlarına gəlsəydi
gələcək nəsillərin məhkəməsi önündə
dizi üstə ulayardılar
qəhrəmanlıqlarını
günahsız olduqlarını gözə soxardılar

hər şeyi kiçik zabitlərin
paxıl işçilərin
dəli və yersiz küləklərin üstünə yıxardılar

Fukidid yalnız yeddi gəmidən
hadisənin qışda baş verdiyindən
və bir də tələsdiyindən
danışır

3.
əgər sənətin mövzusu
sınmış bardaq

dərdin sındırdığı qəlb
qəlbin qəmginliyisə

onda bizdən qalan yeganə miras
sübhün şəfəqləri divar kağızlarını ağardanda
çirkli otel otağında
məşuqların hıçqırtısı olacaq

"Cənab Koqito silsiləsindən"

CƏNAB KOQİTO QƏZET OXUYUR

Birinci səhifədə məlumat
120 əsgər öldürülüb

müharibə uzanır
vərdiş eləmək olar *(dözmək olar)*

küncdə kriminal xəbərlər
sensasiyon cinayət
qatilin portreti

cənab Koqitonun
etinasız baxışları
cinayət dəhşətlərinə
ehtirasla qapılmaq üçün
əsgər gurbangahından yayınır

əsəbi depressiyadaykən
otuz yaşlı kəndli
arvadını
və iki uşağını öldürüb

qətlin necə törədildiyini,
cəsədlərin yerdəki vəziyyətini

və başqa məqamları
təfsilatıyla yazırlar

həlak olmuş 120 nəfəri
xəritədə axtarmaq mənasızdı
uzaqlıq onları
cəngəllik kimi gizlədir

sayın çoxluğu
xəyal gücünü korşaldır
sondakı sıfır
onların özünü xəyala çevirir

düşünmək üçün mövzu:
iztirabın cəbri

CƏNAB KOQİTONUN RUHU

Əvvəllər
ürək dayananda
bəlli ki

sonuncu nəfəsi buraxan
ruh sakitcə
səmaların otlağına
çıxıb gedirdi

Cənab Koqitonun ruhu
özünü başqa cür aparır

həyatdaykən bədəndən çıxır
bir söz belə demədən, sağollaşmadan

başqa qitələrdə
cənab Koqitonun sərhədlərindən kənarda
keçirir ayları illəri

onun ünvanını öyrənmək çətindi
xəbər-ətər də yoxdu
əlaqəyə girməkdən qaçır
məktub-filan da yazmır

qayıdacaqmı kimsə bilmir
bəlkə də birdəfəlik gedib
cənab Koqito
alçaq həsəd hissiylə vuruşur

qəlb haqqında yaxşı düşünür
qəlb haqqında mehribanlıqla düşünür

əlbəttə o hökmən
başqa bədənlərdə də olmalıdır

onsuz da ruh qıtlığıdır
bəşər arasında

cənab Koqito qismətinə boyun əyir
başqa yol da yoxdur

hətta özünü inandırmaq istəyir
-ruhum mənim ruhum-

ruh haqqında duyğusallıqla düşünür
ruh haqqında mehribanlıqla düşünür

və qəfildən
ruh geri qayıdırsa

ruhunu nə yaxşı qayıtdın
sözləriylə qarşılamır

eləcə çəp-çəp baxır
güzgü qabağında oturub
pırtlaşıq və ağ saçlarını
darayanda olduğu kimi

CƏNAB KOQİTONUN MİRASI*

Onlar kimi sonadək get
yoxluğun qızıl dərisi olan son mükafatı alanadək get

yalvaranlar asilər
yandırılanlar sırasında dik get

qurtuluş həyat üçün deyil
vaxt azdı gərəkli ol dəlil gətirmək gərəkdi

qorxma ağıl səni azdırarsa ürəkli ol
qiyamətdə vacib olan da budur

alçaldılıb döyülənlərin səsini hər eşidəndə
qoy əziz-xələf Qəzəbin dəniz kimi olsun

xəfiyyələr qorxaqlar cəlladlar üçün
qoy bacın Nifrət səni tərk etməsin sənə qələbə gətirsin,
dəfninə gələcəklər qəbrinə bir ovuc torpaq atacaqlar
onlar o zaman rahat olacaqlar

mərhəmət göstərmə dan yeri ağaranda
xəyanət görənlərin adından bağışlamaq
sənin iqtidarında deyil

lüzumsuz məğrurluqdan özünü gözlə
güzgüdə təlxək sifətinə bax və
mütləq təkrar elə: nədən mən seçilmişəm məndən yaxşısı yoxmuydu
daş qəlbli olma sübhü səhərlərin şırıl-şırıl axan bulağını sev
sev adını bilmədiyin quşu işığı gözəl səmanı
sənin isti nəfəsin olmadan da keçinirlər
və heç kimi səni ovutmaz- söyləmək üçündür onlar

ayıq ol dağdan fənərlə işarə versələr yubanma dur get
nə qədər ki qanın donmayıb damarlarında dur get
təkrar elə qədim ovsunları nağıl və əfsanələri
heç vaxt qazanmayacağın savabı yalnız bu cür qazanacaqsan
təkrar elə o mühüm sözləri inadla ürəklə təkrar elə
qumluqda tələf olan səhra yolçuları kimi

buna görə səni əllərinə ilk keçən şeylə-
gülüşlə ya da zibillikdə qətlə yetirməklə mükafatlandıracaqlar

get yerin yalnız bu cür soyuq kəllələrin arasındadır
beləliklə əcdadların Gilqamış, Hektor və Rolandın-
ucsuz-bucaqsız məmləkətlərin
küllüklərin havadarları olan o adamların
arasında qəbul olunacaqsan
sədaqətli ol get

Tərcümə
Səlim BABULLAOĞLUnundur

*- bu şeir İlahə Kərimovanın sətri tərcüməsi əsasında hazırlanıb.

◆ TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

CƏFƏR CABBARLI VƏ CABBARLIŞÜNASLIQ

(1917-1934-cü illər)

Azərbaycan ədəbiyyatşünaslığının tərkib hissəsi olan cabbarlışünaslıq əsas etibarilə son səksən ildə yaranıb təkamül prosesi keçərək özünün uğur və qüsurları, qabarma və çəkilmələri ilə milli mənəvi dəyərlər arsenalımızın mötəbər qatını, müasir elmi-nəzəri düşüncəmizin müstəqil və aparıcı qolunu təşkil edir. Cabbarlışünaslığın meydana gəlməsi, formalaşması və inkişafında müxtəlif ədəbiyyatşünaslar nəslinin xidmətləri olub. Cəfər Cabbarlı yaradıcılığına nəzəri baxışlar toplusunu özündə əks etdirən tədqiqatları şərti olaraq üç mərhələyə ayırmaq mümkündür. Şübhəsiz ki, "İlk ədəbi müşahidələr dövrü" (1917-1934) adlandırılan birinci mərhələyə müəllifin sağlığında onun yaradıcılığının ayrı-ayrı nümunələri haqqında müxtəlif vaxtlarda söylənilən ədəbi-tənqidi fikirlər, mülahizələr, yazılan rəylər, resenziyalar və elmi məqalələr daxildir. Ayrı-ayrı sənət sahibləri, peşə adamlarının Cabbarlı yaradıcılığına münasibətləri, ilk ədəbi müşahidələri, qənaətləri kifayət qədər geniş, əsaslandırılmış və mükəmməl olmasa da, diqqəti cəlb edir və hörmətə layiqdir. Ədib, mühərrir, münəqqid, maarif və mədəniyyət xadimlərimizdən Kazımoğlu (Seyid Hüseyn), Böyükağa Talıblı, Abdulla Şaiq, Xəlil İbrahim, Seyid Səbri, Əziz Şərif, Akif Kazım, Mustafa Quliyev, Mir Cabbar, Əlisəttar İbrahimov, Qubad, Abbas Mirzə Şərifzadə, Hacıbaba Nəzərli, Hənəfi Zeynallı, Əli Nazim, Mehdi Hüseyn, Süleyman Rüstəm, Rəsul Rza və b. öz dövrünün tanınmış ziyalıları cabbarlışünaslığın yaranması və formalaşmasında fəal iştirak ediblər.

• • •

Cəfər Cabbarlının yaradıcılığı haqqında ilk məqalənin nə vaxt və harada çap olunması barədə dəqiq fikir yürütmək çətindir. Bu da ilk növbədə şübhəsiz ki, Cümhuriyyət dövründən əvvəl türkdilli mətbuat orqanlarının mükəmməl dəstələrinin zəmanəmizə gəlib çatmaması ilə birbaşa bağlıdır. Bununla belə böyük ədibin yaradıcılığının tədqiqat tarixinin mənşəyini onun əsərlərinə göstərilən səmimi diqqətin, ilıq münasibətin və sənətkarlığına verilən obyektiv qiymətin tarixi kimi dəyərləndirsək, fikrimizcə yanılmarıq. Cəfər Cabbarlının ibtidai "7-ci Müsəlmani və rusi məktəbi"ndə oxuduğu 1905-1908-ci illərdə görkəmli pedaqoqlarımızdan Süleyman Sani Axundovun, Abdulla Şaiqin, Rəhim bəy Vəkilovun, Əlimməmməd Mustafayevin ona dərs deməsi, istedad, qabiliyyət və yaradıcılıq nümunələrini xatirə səpkisində olsa da, səmimi dəyərləndirmələri diqqət çəkir.

Hələ ibtidai məktəb illərindən "Abdulla Şaiqin məsləhətilə duzlu şerlər yazan" Cəfərin mövzusu həyatda, cəmiyyətdə müşahidə etdiyi hadisələr idi. O, uşaq həssaslığı ilə seçdiyi mövzunun ən xırda təfərrüatına varır, fikrini oynaq, axıcı bir dil ilə ifadə etməyə çalışırdı. Məktəb, məhəllə və ailədə hazırcavablığı ilə seçilən Cəfər bəzən gördüyü hadisələrə bədahətən şeirlər qoşmaq qabiliyyətinə malik idi. Araşdırmalar təsdiqləyir ki, onun bizə məlum olan ilk mətbu əsərləri 1911-ci ilin noyabr ayında "Həqiqəti-əfkar" qəzetində dərc olunan "Eşidənlərə" və "Şücaətim" sərlövhəli şeirlərdir *(Rüstəmli A.H. Cabbarlının ilk şeirləri. "Azərbaycan" jur., B., 1987, №3, səh.190)*.

Cabbarlı poetik yaradıcılığa erkən yaşlarından başlasa da, pyeslərinin tamaşaya qoyulmasından sona onun əsərlərinə aid ciddi mülahizələrə, mətbu qeydlərə rast gəlirik. Belə məlumatların özü dramaturqun müəyyən əsərinin tamaşaya qoyulma tarixini müəyyənləşdirməkdə etibarlı mənbə rolunu oynayır.

Tiflis Senzura İdarəsi 9 mart 1916-cı ildə Cəfər Cabbarlının "Vəfalı Səriyyə" pyesinin tamaşaya qoyulmasına birinci icazə versə də dramaturqun səhnə təcəssümü tapan ilk pyesi "Solğun çiçəklər" olmuşdur.

Zəmanəsinin tanınmış mühərrir və münəqqidi Seyid Hüseyn Sadıqzadə "Cəfər Cabbarlı haqqında xatirələrim"də yazırdı ki, "Solğun çiçəklər" əsəri o zamankı İsmailiyyə (indiki Azərbaycan Milli Elmlər Akademiyası) binasının salonunda 1916-cı ildə oynanmış idi *(S.Hüseyn.C.Cabbarlı haqqında xatirələr. "Uşaqgəncnəşr", 1960, səh.10).*

O dövrün mətbuatında əsər haqqında ilk qeydlərə 1917-ci ilin yanvarın 21-də "Bəsirət" qəzetinin 186-cı sayında "C.C." gizli imzası ilə verilmiş "Solğun çiçəklər" sərlövhəli məqalədə informativ məlumata rast gəlinir. Bu tarix cabbarlışünaslığın başlanğıcı hesab edilməsə də fakt olaraq diqqəti cəlb edir.

Nəzərə alınsa ki, "C.C." gizli imzası ilə XX yüzilliyin əvvəllərində Cabbar Cıqayev, Cabbar Cabbarov, Cəmo Cəbrailbəyli, Seyid Cəfər Cavadzadə və b. mətbuatda çıxış etmişlər (Məmmədli Q.M. İmzalar. "Azərnəşr", Bakı, 1977, səh.106), onda "Bəsirət"dəki imzanı müəyyənləşdirməyin mürəkkəbliyini təsəvvür etmək çətin olmaz. Lakin onu da istisna etmək mümkün deyil ki, C.Cabbarlı müxtəlif vaxtlarda "Sovqat", "İstiqlal", "Azərbaycan", "Azərbaycan füqərası", "Zəhmət", "Kommunist", "Maarif və mədəniyyət", "Yeni yıldız" qəzet və jurnallarında "C", "C.C." gizli imzaları ilə şeir, hekayə və məqalələr çap etdirmişdir. "Solğun çiçəklər" haqqında müəllifin özünün mətbuata məlumat "sızdırması" ehtimalı təbii və inandırıcı görünməklə yanaşı bu versiyanın birmənalı təsdiqi də mümkünsüzdür.

C.Cabbarlının digər bir əsəri - "Ədirnə fəthi" pyesinin ilk dəfə nə vaxt və harada tamaşaya qoyulması haqqında elmi ədəbiyyatda bir-birini təkzib edən müxtəlif mülahizələr mövcuddur. Ən son tədqiqat əsərlərindən birində yazılır: "Ənvər bəyin Ədirnə fəthi", Cəfər Cabbarzadə. ...Pyesin ilk qurluşunu 1919-cu ilə aid edənlər yanılırlar. Dramın ilkin səhnə təfsiri 1918-ci il fevralın 1-də göstərilib və quruluş da Abbasmirzə Şərifzadəyə məxsusdur" *(İ.Rəhimli. Akademik Milli Dram Teatrı, I cild, Bakı, "Qapp-Poliqraf", 2002, səh., 127).*

Araşdırmalarında istinasız olaraq mötəbər mənbələrə, arxiv sənədlərinə istinad edən sənətşünaslıq doktoru, professor İlham Rəhimli "Ədirnə fəthi"nin ilk tamaşa tarixinin müəyyənləşdirilməsində həmkarlarından irəli getsə də, bu səhnə əsərinə münasibətdə fikrinin dəqiq və qətiliyini iqrar etmək obyektivlikdən kənar olardı. Belə ki, Cəfər Cabbarlının "Ədirnə fəthi" pyesinin ilk səhnə quruluşu 1918-ci il fevralın 1-də yox, 1917-ci ilin dekabrın 15-də Abbas Mirzə Şərifzadənin rejissorluğu ilə ictimaiyyətə təqdim edilmişdir. Fikrimizin dürüstlüyünü təsdiqləyən ən səhih arqument, ən dəqiq fakt - "Açıq söz" qəzetində "Tamaşaçı" imzası ilə çap olunan "Tiatro və musiqi" ümumi başlıqlı "Ədirnə fəthi" məqaləsidir. Müəllif tamaşa haqqında geniş resenziyasında yazır: "Cümə günü, dekabrın 15-də Sənət məktəbi mütəəllimlərindən ... Cəfər Cabbarzadənin yeni yazmış olduğu "Ədirnə fəthi" adlı pyesi Aktyorlar İttifaqı tərəfindən birinci dəfə olaraq mövqeyi-tamaşaya qoyuldu" *(Tamaşaçı. "Ədirnə fəthi", "Açıq söz" qəzeti, 1917, 18 dekabr, № 631, s.4).*

Sitatdan da göründüyü kimi, Bakı Politexnik məktəbinin tələbəsi C.Cabbarlının "Ədirnə fəthi" pyesi məhz 1917-ci ilin dekabrın 15-də, cümə günü "Aktyorlar İttifaqı tərəfindən birinci dəfə olaraq" tamaşaya qoyulmuş və bu tarixin dəqiqliyinə, mötəbərliliyinə heç bir şəkk-şübhə yoxdur. "Tamaşaçı"nın "pyesa o qədər şirin, o qədər ruh qabardacaq bir üslub ilə yazılmışdır ki, doğrudan da bu vəqtə qədər səhnəmiz şirinlik və ruh yüksəkliyi cəhətindən böylə bir əsər görməmişdir" - deyə söylədiyi bu lakonik və sanballı fikirləri bütövlükdə 18 yaşlı gənc dramaturqun yaradıcılığına, istedadına verilən ilk mətbu qiymət, sənət vəsiqəsi də adlandırmaq olar.

Resenziyada C.Cabbarlının "Ədirnə fəthi" əsərinin mədəni mühitə gətirdiyi yenilik hissi və vətənpərvərlik ruhu yüksək qiymətləndirilməklə yanaşı tamaşanın qüsurlu cəhətləri də qədərincə vurğulanmışdır. Tənqidçi müşahidə etdiyi səhnə əsərinin nöqsanları barədə yazırdı: "Əvət, böyük müvəffəqiyyətdən dolayı cavan müəllifi alqışlar və təbriklərlə bərabər gözümüzə çarpan bəzi nöqsanları da bəyan etməyi vəzifəmizdən əd(hesab-A.R.) edəriz.

Əvvəla, nədənsə bu əsərin lisanı bəzən sırf İstanbul lisanı olduğu halda bir də görürsən ki, o dil tamamilə dəyişib bir Azərbaycan dilinə münqələb oldu. Odur ki, diqqətlə baxdıqda bir səhnədə iki şivənin cövlan etməsi və ədəbi lisandan məhrum olan bəzi artistlərimizin dillərinin dolaşığa düşməsi müşahidə olunurdu" *(Tamaşaçı. "Ədirnə fəthi", "Açıq söz" qəzeti, 1917, 18 dekabr, № 631, s.4).*

Ədəbi dilimizin saflığı istiqamətində ziyalı narahatçılığını özündə büruzə verən iradlar dövrün ədəbi-mədəni mühitinə xas xüsusiyyət olsa da, bu problemdən "Tamaşaçı" da xilas ola bilməmişdi. Belə məqamda ötəri maraqdan doğan bir sual yaranır - "Tamaşaçı" kimdir?

Məqalə müəllifinin örtülü imzası o dövr mətbuatımızda tez-tez təsadüf olunan koynonim imzalardandır. "Tamaşaçı" gizli imzasından müxtəlif vaxtlarda mühərrir və münəqqidlərimizdən Hacı İbrahim Qasımov, Dadaş Bünyadzadə, Seyid Hüseyn, Məmməd Qarayev, Məmmədtağı Cəbrayılov, Xəlil İbrahim, Əsəd Tahir və b. faydalanmışlar *(Bax: Məmmədli Q.M. İmzalar. "Azərnəşr", Bakı, 1977, səh.90).*

Koynonim imzanın bu mətbuat xadimlərindən kimə məxsus olduğunu müəyyənləşdirmək çətin olsa da bir gizli işarəyə əsasən C.Cabbarlının "Ədirnə fəthi" əsəri haqqında yazan "Tamaşaçı"nın Seyid Hüseyn olduğunu ehtimal etmək mümkündür. Belə ki, müqtədir tənqidçi və mətbuat xadimi Seyid Hüseyn Sadıqzadə "Azərbaycan" qəzetinin 14, 17 və 18 avqust 1919-cu il tarixli 251, 253 və 254-cü saylarında Kazımoğlu imzası ilə dərc etdirdiyi "Ədirnə fəthi" sərlövhəli eyniadlı məqaləsində Xalid rolu və artistlərin oyunu haqqında əvvəllər kiçik bir fəqərədə yazdığını qeyd etmişdi. Afişalar istisna olunmaqla "Ədirnə fəthi" haqqında və buradakı aktyorların oyunu barədə yalnız "Açıq söz" qəzetində yazılmış və çox güman ki, Kazımoğlu bu işarə ilə həmin resenziyanın ona məxsus olduğunu xatırlatmışdır.

Zəmanəsinin görkəmli tənqidçisi Seyid Hüseyn (Kazımoğlu) "Azərbaycan" qəzetinin üç nömrəsində ardıcıl çıxan "Ədirnə fəthi" adlı irihəcmli silsilə məqaləsini eyniadlı əsərin elmi təhlilinə və səhnə təcəssümünə həsr etmişdi. Onu da qeyd edək ki, "Ədirnə fəthi" məqalələrinin "Açıq söz" və "Azərbaycan" qəzetlərindəki variantları arasında üslub və struktur bənzərliyi güclüdür. Hər iki məqalədə əsərin mündəricəsi yığcam şəkildə oxucunun diqqətinə çatdırılmış və bundan sonra ayrı-ayrı problemlərə münasibət bildirilmişdir. Fərqli xüsusiyyətləri nəzərdən keçirdikdə isə ikinci məqalə birincidən daha geniş və əhatəlidir. "Tamaşaçı" yazısında müsbət, Kazımoğlu isə mənfi məqamları daha çox qabartmışdı. "Açıq söz"də müəllifin gəncliyi, "Azərbaycan"da isə sənətin yüksək tələbləri nəzərə alınaraq "Ədirnə fəthi" haqqında mülahizələr, ədəbi düşüncələr ortaya qoyulmuşdur.

C.Cabbarlının Hökumət Teatrosunda tamaşaya qoyulan "Ədirnə fəthi" faciəsi haqqında yazmağının səbəblərinə toxunan Kazımoğlu məqaləsinin müqəddiməsində göstərirdi: "Müəllif əfəndi, şu gənc mühərrir baləzzət müraciətlə bir qələm təcrübəsi olaraq ilk yazdığı şu əsəri həqqində bir mütaliə, mütalieyi-tənqid yazmamı arzu etdilər" *(Kazımoğlu. Açıq tənqid ("Ədirnə fəthi"), "Azərbaycan" qəzeti, 1919, 14 avqust, № 251).*

Göründüyü kimi, müəllifin arzusu ilə "Ədirnə fəthi" haqqında "Açıq tənqid" qələmə alınsa da, tənqidçinin qeyd etdiyi kimi, bu əsər onun "bir qələm təcrübəsi olaraq ilk yazdığı" deyildir. Məlumdur ki, C.Cabbarlı "Ədirnə fəthi"nə qədər "Vəfalı Səriyyə", "Solğun çiçəklər", "Nəsrəddin şah" və "Ulduz" pyeslərini yazmış və bu

əsərlərin bir qismi dəfələrlə müqtədir aktyorlarımız tərəfindən tamaşaya qoyulmuşdur. Kazımoğlunun Cabbarlı yaradıcılığından xəbərsiz olması da inandırıcı görünmür və onun "Ədirnə fəthi"ni müəllifin ilk yazdığı əsər adlandırması təəccüb doğurur. "Açıq tənqid"in xeyli hissəsinin tənqidin məqsəd və vəzifələrinə, bir qismi isə pyesin pərdələr üzrə məzmununun təsvirinə həsr edilməsi tənqidçini əsas hədəfdən yayındırmışdır. "Ədirnə fəthi" həcm etibarilə üç hissədən ibarət böyük məqalə olsa da, əsərin təhlili və dəyərləndirilməsinə kifayət qədər diqqət yetirilməyib. Qarabağ, Zəngəzur, Göyçə, Borçalı, Dərbənd bölgələri uğrunda mübarizənin şiddətləndiyi dövrdə tamaşaya qoyulan "Ədirnə fəthi"nin aktuallığı və səhnə əsərində vətənpərvərlik hissinin qabarıqlığı, canlı səhnələrin, real tarixi şəxsiyyətlərin təbii boyalarla verilməsi Kazımoğlunun diqqətini cəlb etməmişdir. Uzun-uzadı misallardan sonra məlum olur ki, tənqidçi dramaturqun "məsləki-ədəbisini" müəyyənləşdirməkdə çətinlik çəkir. Bu əsər dövrün mövcud ədəbi qəliblərinə yerləşmir. Kazımoğlu mövcud ədəbi cərəyanların qanunlarını "Ədirnə fəthi"nə tətbiq edərkən çətinlik qarşısında qaldığını özü də etiraf edir. "Cəfər əfəndinin "Ədirnə fəthi" əsərini müəyyən etmək bir qədər gücdür. Zira o nə romantik, nə də həyatın üryan tamaşasından zövq alan realistdir. Olsa-olsa "Ədirnə fəthi" naturalist bir əsərdir. Daha doğrusu bir az naturalist kibi görünüyor" *(Kazımoğlu. Açıq tənqid ("Ədirnə fəthi"), "Azərbaycan" qəzeti, 1919, 17 avqust, № 253).*

Kazımoğlunun "Ədirnə fəthi"ni naturalist bir əsər adlandırmaq fikri həqiqətdən uzaqdır. Görkəmli ədəbiyyatşünas-alim, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədovun qənaətlərinə əsasən "Naturalizm - sözün geniş mənasında, ədəbiyyat və incəsənətdə həyatı ikinci dərəcəli hadisələrin zahiri təsviri, ümumiləşdirilməmiş bir şəkildə əks etdirilməsi yolu ilə göstərmə, ...bədii cəhətdən özünü doğrultmamış xırda təfərrüatlarla dolu olması, hadisələrin və onların əsil mahiyyətinin deyil, səthi, zahiri təmasda göründüyü kimi əks etdirilməsi bir qayda olaraq sənətkar tərəfindən tipikləşdirmə prinsiplərinin pozulması, ...əsərdə adətən təsadüfi məişət səhnələrinin təsvir edilməsi, surətlərin dilində yanlış və kobud ifadələr işlədilməsi"dirsə *(Mirəhmədov Ə.M. Ədəbiyyatşünaslıq (Ensiklopedik lüğət). "Azərbaycan Ensiklopediyası" NPB, Bakı, 1998, səh.152)* "Ədirnə fəthi" bu meyarların əks düşərgəsində dayanır.

Əsərdəki romantik və realist ünsürlərin movcudluğunu inkar edən Seyid Hüseyn "məsləki-ədəbi" seçimində yanıldığı üçün pyesin təhlilində də ciddi qüsurlara yol vermiş, "Ədirnə fəthi"nin ictimai qayəsi, bədii ümumiləşdirmə problemləri barədə idealist mülahizələr irəli sürmüşdür. Fikirlərində tez-tez idealist filosof İppolit Tenə istinad edən Kazımoğlu sxematik nəzəriyyənin canlı tamaşaya tətbiqinə cəhdlər göstərdiyi üçün özü də Tenin subyektiv düşüncələrinin təsirindən xilas ola bilmir.

"Bir qədər də əsərin müsbət cəhətlərindən bəhs edən" Seyid Hüseyn tamaşanın uğurlu və qüsurlu tərəflərinə diqqət yetirərək yazırdı: "Ədirnə fəthi"ndə gənc müəllifin müvəffəqiyyəti tamaşaçılarını məşğul edə bilmək məziyyətidir. Bir müəllif üçün bu böyük müvəffəqiyyətdir. Zira bir kərə qarelərin fikrini, diqqətini kəndinə cəlb edə bilsən, ondan sonra onları istədigin nöqtəyə aparıb çıxara bilərsən. "Ədirnə fəthi"nin mucəb bəhs olan mənfi cəhətlərinə baxmayaraq tamaşaçılarını məşğul edə biliyordu. Onları məşğul edən əsərin şairanə bir tərzdə və füsünkaranə bir şivədə yazıldığı degildi, bəlkə intixab edilən həyəcanlı anlar idi. Tamaşaçılar bunları hər zaman maraqla təqib ediyordular" *(Kazımoğlu. Açıq tənqid ("Ədirnə fəthi"), "Azərbaycan" qəz. 1919, 18 avqust, N 254).*

Əsərin dili haqqında xoş söz söyləməkdən ehtiyat edən tənqidçi tamaşaçısına həyəcanlı anlar yaşadan dramaturqun bu məziyyətini haqlı olaraq obyektiv qiymətləndirmişdir. Cabbarlının müraciəti əsasında yazılan "Açıq tənqid" ("Ədirnə fəthi") məqaləsi sözün geniş mənasında açıq tənqid ruhunda yazılsa da, dramaturqun ədəbi yaradıcılığına təsirsiz ötüşməmişdir. Kazımoğlunun bir sıra subyektiv mülahizələri ilə yanaşı əsərin zəif cəhətlərini tənqid etməsi, ayrı-ayrı obrazların təhlili zamanı obyektiv fikirlər söyləməsi diqqətəlayiqdir. Bütövlükdə

Kazımoğlunun "Açıq tənqid" ("Ədirnə fəthi") məqaləsini əhatəliliyinə, toxunduğu problemlərin aktuallığına və tənqidçi qərəzsizliyinə görə C.Cabbarlı yaradıcılığının tədqiqat tarixində təməl daşı hesab etmək olar.

Cəfər Cabbarlının 1919-1927-ci illər arasında "Bakı müharibəsi"(1919), "Aydın"(1919), "Ulduz və ya Trablis müharibəsi"(1917), "Ədirnə fəthi"(1917), "Oqtay Eloğlu"(1922) əsərləri teatrların repetruarında kifayət qədər sıx yer alsa da Xəlil İbrahimin "Aydın" ("Kommunist" qəzeti, 17 may 1922-ci il) və Seyid Səbrinin "Oqtay Eloğlu" ("Yeni fikir" qəzeti, 23 may 1926) informasiya xarakterli yığcam məqalələri istisna olunmaqla bu pyeslər barədə ədəbi tənqid demək olar ki, susmuşdur. Onun dövri mətbuatda mütəmadi çap olunan şeir və hekayələrinə də demək olar ki, elmi münasibət bildirilməmişdir. Kifayət qədər bədii yaradıcılıqla ciddi məşğul olmadığı 1920-1927-ci illəri C.Cabbarlının tələbəlik dövrü də adlandırmaq olar. Çünki o 1920-23-cü illər Bakı Universitetinin tibb fakültəsində, 1923-24-cü illər Teatr məktəbində və 1924-27-ci illərdə Azərbaycan Dövlət Universiteti Şərq fakültəsinin filologiya şöbəsində təhsil almış, hər üç halda müxtəlif səbəblər ucbatından təhsilini başa vura bilməmişdi. Məhz 1927-ci ildə ADU-da təhsilini yarımçıq dayandırdıqdan sonra bir-birinin ardınca ciddi bədii əsərlər ortaya qoyan dramaturq müzakirə obyektinə, tənqid hədəfinə və diqqət mərkəzinə çevrildi. C.Cabbarlı yaradıcılığına tənqidi münasibətdə biganəlik buzuna ilk od vuran "Od gəlini" oldu. Əsər 1928-ci ilin fevralın 16-da Dövlət Türk Akademik Dram Teatrosunda tamaşaya qoyulduqdan sonra tarixi-romantik pafosu ilə nəinki sükuta qərq olmuş salonları, düyünə düşmüş milli düşüncə tərzini silkələdi. Cabbarlının "Od gəlini" dramını Babək hərəkatının 1100 illiyinə həsr etdiyini vurğulasaq, bəlkə də yanılmarıq. Dramaturq xalq qəhrəmanı Babək Xürrəmi dövrünə müraciət edərkən 1100 illik tariximizin hər iki qütbündə oxşar və fərqli cəhətləri görmüş, yaşadığı zamanın hadisələrinə tarixin gözü ilə baxmışdır.

"Od gəlini" pyesi haqqında ilk müsbət qiymət verənlərdən biri müəllifin uzun illər "Kommunist" qəzeti redaksiyasında birgə çalışdığı tanınmış jurnalist Əsəd Tahirov idi. O əsərin bədii dəyəri və sənətkarlıq xüsusiyyətlərini düzgün qiymətləndirərək yazırdı: "Od gəlini" istər yazılışı, istərsə də quruluşu cəhətcə türk səhnəsində gördüyümüz müvəffəqiyyətli əsərlərdən birisi, bəlkə də ən yaxşısıdır" *(Tahirov Əsəd. "Od gəlini", "Kommunist" qəz., 1928, 4 mart, № 58).*

Bu mövzuda ilk ən geniş məqaləni isə ictimai xadim, Xalq Maarf komissarı, tanınmış tənqidçi, publisist Mustafa Quliyev yazdı. O 1928-ci ildə "İnqilab və mədəniyyət" jurnalının 2-ci sayında çap etdirdiyi "Od gəlini" məqaləsində dramaturqu "ədəbiyyat cığırdaşı" adlandırsa da, əsər əsasən düzgün qiymətləndirilmişdir. "Cəfər Cabbarlı tərəfindən yazılmış "Od gəlini" bugünkü türk ədəbiyyatının az-çox maraqlı və qiymətli əsərlərindən biridir. "Od gəlini" ideoloji nöqteyi-nəzərdən dəxi bizim üçün yararlıdır" *(Quliyev M. "Od gəlini", "İnqilab və mədəniyyət" jur., 1928, №2, səh.33).*

Əsərə dövlət nümayəndəsi və nüfuzlu tənqidçi tərəfindən verilən ilk qiymət mövcud tarixi durumda dramaturqu yersiz hücumlardan sığortalasa da, nəzəri məsələdə məqalə müəllifinin vulqar sosiologizmə meylliliyini müşahidə etməmək mümkünsüzdür. "Od gəlini"nin başlıca ictimai qayəsi xarici işğalçılara qarşı üsyan, azadlıq, istiqlaliyyət uğrunda mübarizə, təcavüzə, zorakılığa, haqsızlığa kütləvi etiraz olsa da "marksist tənqidçi" dramada "ideoloji nöqteyi-nəzərdən" özləri üçün yararlı məqamlar da aşikar etmişdi. Məqsəd "Od gəlini"ni İslam dininə qarşı, ateizm uğrunda silaha çevirmək idi. Əslində bu fikrin tərəfdarları əsəri böyük və qüdrətli qayəsindən təcrid etməklə aşağılayırdılar. Eyni zamanda unutmaq olmaz ki, sovet rejimi çərçivəsində "Od gəlini"ni sosialist ideologiyasının nəzəri prinsipləri əsasında təhlil edərkən Mustafa Quliyev nə qədər qəribə olsa da, Cəfər Cabbarlını ilk növbədə dövrün amansız təzyiq və təqiblərindən müdafiə edirdi. Bolşevik rejiminin Azərbaycanda tüğyan etdiyi, vətənpərvər ziyalıların Solovkiyə - "Buzlu cəhənnəmə" sürgün olunduğu, "Allahsızlar cəmiyyətlərinin" günü-gündən vüsət aldığı qarışıq bir zəmanədə Mustafa Quliyevin

"Od gəlini"nin məzmunu tamamilə dinlərə və dini nəzəriyyələrə və fikirlərə doğru çevrilmişdir" - qənaətinə gəlməsi, əsərin mövcud rejimin ideologiyası üçün yararlı olduğunu və aktuallıq kəsb etdiyini vurğulamaqla Maarif komissarı dramaturq haqqında müsbət rəy yaratmağa cəhdlər göstərirdi.

Lakin, "Od gəlini" dramı ilə bağlı mübahisələr səngimirdi. "Gənc işçi" qəzetinin redaksiyasında 1928-ci ilin aprelin 27-də bu əsər üzərində ədəbi müzakirə keçirildi. Tənqidçi Hənəfi Zeynallı geniş məruzə etdi və mətbuatda qaldırılan problemlərə öz münasibətini bildirdi. "Od gəlini" üzərində növbəti ədəbi məhkəmə 1930-cu ilin yanvarın 17-də "Kommunist" qəzetinin kulubunda keçirildi. Qəzetin 20 yanvar 1930-cu il tarixli sayında "Od gəlini" üzərində ədəbi məhkəmənin nəticələri haqqında bildirilirdi ki, pyesin qəhrəmanı Elxan zəif və iradəsizdir, mənasız rəqslərdənsə əmək səhnələri göstərilməsi lazımdır, tamaşanın quruluşu və traktovkası doğru və düzgün deyildir. Ədəbi məhkəmənin heyəti nəticədə belə bir qərara gəldi: "Od gəlini" və ümumiyyətlə Bədaye Teatrında oynanılan başqa əsərlər haqqında mətbuatımızda göstərilən nöqsanları bir an əvvəl islah etmək məsələsi teatr müdriyyəti və rejissorluq qarşısında qəti olaraq irəli sürülür" ("Od gəlini" haqqında nəticə, "Kommunist" qəz., 1930, 20 yanvar).

Azərbaycanda sovet rejimi dövründə bədii səhnə əsərlərinin üzərində ədəbi məhkəmələrin qurulması adi hal almışdı. Lakin, "Od gəlini"nin iki dəfə ədəbi məhkəməyə cəlb olunması irtica dövrünün özünün tarixində də nadir hadisə idi.

H.Nəzərlinin "İftiraya qarşı həqiqət" *("Kommunist" qəz., 1930, 7 aprel)*, H.Zeynallının "Bizim dramaturqlar" *("Raboçiy zritel" jur., 1930, 20 iyul)*, İ.Cahangirovun "C.Cabbarlının yaradıcılığında əxlaq və ailə məsələləri" *("Kommunist" qəz., 1931, 16,18 yanvar, №13, 14)* və b. məqalələrində "Od gəlini" əsəri subyektiv mülahizələr əsasında kəskin tənqid edilsə də, əsərin milli-mənəvi mahiyyəti, ictimai-fəlsəfi qayəsi və tarixi missiyası müstəqil və realist tənqidi düşüncənin dəyərləndirilməsindən kənarda qalmışdır.

* * *

Cəfər Cabbarlı Azərbaycanın müstəqilliyinə qarşı bolşevizmin siyasi istilasının bədii mənzərəsi kimi "Od gəlini" tarixi faciəsini yaratdısa, Solmazın gen və qan qohumu olan "Sevil"i mədəni-mənəvi təcavüzün faktı kimi ortaya qoydu. "Od gəlini"nin ardınca "Sevil" Azərbaycan tamaşaçılarının qarşısına tamam başqa qiyafədə, özgə əhvali-ruhiyyədə çıxdı. Solmazın Odlar yurdunda cismani məğlubiyyəti onun mənəvi qələbəsi, Sevilin Moskva təhsilindəki "qələbəsi" isə onun yeni ideoloji mühitdə mənəvi məğlubiyyəti idi.

Cəfər Cabbarlı "Sevil" pyesini yaradıcılığının ən coşğun dövründə, 1928-ci ildə yazsa da, mövzu müəllifin diqqətini daha öncə - 20-ci illərin əvvəllərindən cəlb etmişdi. Balaşa məxsus tipik xüsusiyyətlər kolleksiyasına cəmiyyətdə tez-tez rast gələn C.Cabbarlı əvvəlcə "Sevil"in hekayə variantını işləmiş, "Balaca hekayə" sərlövhəsi ilə 1924-cü ildə "Qızıl tələbə" jurnalının 2-3-cü birləşmiş sayında "Sancaq" gizli imzası ilə çap etdirmişdi. Mövzu maraqlı olsa da ədalət naminə deyək ki, "Sevil" pyesi ilk dəfə nəşr olunduğu zaman müsbət qarşılanmamışdı. "Kommunist", "Yeni yol", "Gənc işçi", "Bakinski raboçi" qəzetlərinin səhifələrində Cabbarlını bu əsərə görə müxtəlif mövqelərdən ittiham edənlər az olmamışdı.

Mir Cabbarın elmi təhlildən, ziyalı mövqeyindən uzaq olan, sovet təhlükəsizlik orqanları üçün danosçuluq xarakteri daşıyan yazısı müəllifə qarşı mütəşəkkil hücumlar üçün sosializmin milli havadarlarına istiqamət və ilham verdi. Mir Cabbarın ardınca onun məsləkdaşı Əlisəttar İbrahimov daha kəskin ultimatumlarını bəyan etməkdən özünü saxlaya bilməmişdi: "...vat dövründə belə təbliğatda bulunacaq bir qadı... lar. Sevilin qayırma bir tip olduğu ondan məlumd... propaqandası nəticəsində əri Balaşdan azadlıq... başlayır. Bu hələ azdır. Evindən də çıxıb gedir.

...Hərgah müəllif bunu düzəltməsə, o zaman... səhnəmizdə qoyulub-qoyulmaması məsələsi m... *İbrahimov. Yenə "Sevil" haqqında. "Yeni yol" qə...*

Nüfuzlu mətbuat orqanlarını bürümüş qeyri-... "Sevil"in ədəbi məhkəməsini sürətləndirdi. "Kom... birlər klubunda 1928-ci ilin noyabrın 2-də saat 1... Cəfər Cabbarlının "Sevil" əsərinin mühakiməsi b... bir əsərin tamaşadan məhkəməyə qədərki yolu... İlk tamaşadan üç gün sonra keçirilən ədəbi məh... fikrə dayalı ola bilməzdi. Ümumiyyətlə, bu ədəbi ... kəmələrin siyasi şou olduğunu bir daha təsdiqlə... ləmək, onu "əksinqilabçı" elan etməkdən ibarət i... fəngiyat argumentlər kara gəlmirdi. Ədəbi məhkə... şahidi olan Mustafa Quliyev "İnqilab və mədən... "Sevil" və "tənqid" məqaləsində yazırdı: "Kommu... tərtib edilmiş mübahisə məclisində "marksist t... şəxs" kibi çıxışında bulunaraq Atakişi ilə Babaki... verilməz bir "əksinqilabçılıq" tapdı... Evrika! Ya... Atakişi ilə Babakişi kəndə gedərkən palçığa düş... çı" müəllif bizim Şura yollarımızı tənqid edir. Ha... yolları təmir edir. Mübahisə məclisinə gəlmiş bü... bütün bu sözlərini qəhqəhələr ilə qarşıladılar" *(... "İnqilab və mədəniyyət" jurnalı, 1928, №11-12 (5...*

Əsərdəki rəmzlərin qeyri-peşəkar və yanlış yo... məsi gözlənilən idi. Lakin məqalələr və mühakim... nın "əksinqilabçı" imicini formalaşdırmaq o qədər ... lu gənc dramaturqu M.Quliyev qaragüruh buqələm... lində, C.Cabbarlı və yeni nəsil ədəbiyyat nümayən... rırdı. Maarif komissarı "Sevil" və "tənqid"in türkcəs... nalında, ruscasını isə "Bak.raboçi" qəzetində çap... müəllifi ilə bağlı "tənqid"ləri ümumiləşdirməklə m... sərt mesaj göndərirdi. O, əsərin uğurlu tamaşası... ləri həyəcana gətirən problemlərin sabinə mənalı... man-tənqidçi başqa bir tərzdə düşündü, pyesdə təbliğ olunan "əxlaqs... həyəcana gətirdi. Pyes ətrafında lazımi qədər düşünməyən, tipləri m... dərəcədə nəzərə almayan "tənqid" böyük bir bağırtı ilə bildirdi: "Bak...

...ın ağzını yeddi yerdən cırardı... ...lur ki, Sevil Gülüşün kiçicik bir ... insanlıq rəftarı tələb etməyə ... haman əsərin bundan sonra ...üzakirə olunmalıdır" *(Əlisəttar ...eti, 1928, 15 noyabr, № 265).* ...elmi və qeyri-etik mübahisələr ...munist" qəzetinin əməkçi müx... ...0-da Əli Kərimovun sədrliyi ilə ...aşlandı. Sovet dönəmində heç ...'Sevil" qədər qısa olmamışdır. ...kəmə təbii ki, sanballı tənqidi ...məhkəmə də bütün ədəbi məh... ...di. Əsas məqsəd müəllifi ləkə... ...di. Bunun üçün əsassız və cə... ...mə adı altında qarayaxmaların ...iyyət" jurnalında çap etdirdiyi ...nist" qəzetəsinin təşəbbüsü ilə ...ənqidçilərdən" birisi "alim bir ...şinin bütün sərgüzəştində yol... ...nız mən tapmışam... Nə üçün ...dülər? Bu olmaz. "Əksinqilab... ...lbuki Xalq Yollar Komissarlığı ...ün müxbirlər bu "münəqqidin" ...Quliyev M. "Sevil" və "tənqid". ...9-60), səh.58).

...zumunun gülüş hədəfinə çevril... ...ələr vasitəsilə Cəfər Cabbarlı... ...də çətin deyildi. Kövrək durum... ...unlardan müdafiə edərkən, əs... ...ndələri uğrunda mübarizə apa... ...ini "İnqilab və mədəniyyət" jur... ...etdirməklə "Sevil"lə və onun ...rcabbarlar və əlisəttarlara çox ...fonunda "müsəlman-tənqidçi"... ...zlıq" onu ...ükəmməl ...müəllif fəhişəlik yolu ilə sosializmə getməyi təklif edir..." ...fəhişəlik yolu - işdə türk qadınının azad olmaq üçün keçməsi lazım gəl... ...müəllif məsələni böylə qoyur. M.Quliyev yoldaş da onunla həmavaz olur.

Maraqlı burasıdır ki, Qazinin lirik qəhrəmanı həqiqəti idrak anında, fəlsəfi düşüncə, həqiqi və məcazi eşqi ayırd və onlardan hansını tutmaq məqamında özünü daxili-mənəvi cəhətdən həqiqi eşqə hazır hesab etmir, bu yolu atıb məcazi eşq yolunu tutduğunu və gücünün, dözümünün ancaq buna çatdığını açıqca etiraf edir:

Həqiqətə iricək eşq sənü bən qalmaz,
Bu nəsnəyə döyimməzüz bizə məcaz gərək.

Gözəlin və gözəlliyin tərənnümü Q.Bürhanəddin poeziyasında başlıca yer tutur. Bir qələm sahibi kimi, o, "Hüsnünü vəsf etmək oldu zehnim ənvəri" məntiqindən çıxış edir. Şairin aşağıdakı rübaidə ifadə olunmuş mətləbini onun ümumiləşdirilmiş bədii-poetik rəyi saymaq mümkündür:

Ol göz ki, yüzün görməyə, göz demə ana,
Şol yüz ki, tozun silməyə, yüz demə ana,
Şol söz ki, içində, sənəma, vəsfün yox,
Sən badi-həva tut anı, söz demə ana.

Sənətkar bəzi qəzəllərində gözəlin dolğun bədii məcazlarla boyanmış zahiri portretini yaradırsa, bir çox şeirlərində də onun ayrı-ayrı hüsn ünsürlərini, camal və yaraşıq detallarını, əda və hərəkətlərini, danışıq və əməllərini, işvə və nazını, rəftar və lətafətini və s.-i söz sənətinin təsvir-tərənnüm hədəfinə çevirir. "Bəqüm" rədifli qəzəldən bir parçaya nəzər salaq:

Yanağun bir gül durur ki, sayə pərvərdür, bəgüm,
Ləblərün abi-həyatı həvzi-kövsərdür, bəgüm.
Gərçi rumidür yüzün, fülfül bənun hindudurur,
Bən ana şükr edərəm ki, xali dərxordur, bəgüm.
Zülfün ayağına yüzüm torpağ edərsəm nola,
Çünki sünbüldür otıvü xakü ənbərdür, bəgüm.
Xətti yazmış ləbləriyçün bir bəratı əqlümə
Can qəbul etməz anı çünki muzəvvərdür, bəgüm.
Bən sənün hüsnün görəli nola eşqə talmışam,
Hüsnünün hər yarpağı eşqi-müsəvvərdür, bəgüm.

Əvvəlki 5 beytini verdiyimiz bu qəzəldə (qəzəl cəmi 8 beytdir) sənətkar bədii sözün imkanlarından, həqiqətən, son dərəcə məharətlə yararlanmışdır. Əvvəlki 4 beytdə nigarın bənzərsiz və obrazlı rəsmini dolğun, canlı, inandırıcı boyalarla nəqş edən müəllif tərənnüm obyektinin gözəllik atributlarını göz önünə gətirdikdən, onun sözlə əyani tablosunu yaratdıqdan sonra belə bir hökm verir ki, bu gözəlin hüsnünün hər yarpağı bir rəssam eşqidir. Elə buna görə də mən onun gözəlliyinin eşqinə dalmışam. Deməli, müəllif həm təsvir hədəfinin gözəlliyinə, həm də bu gözələ bəslənilən sevginin çarəsizliyinə və nəhayət, həmin eşqin ülviyyətinə oxucunu inandırır.

Bəzən də bu təsvir səmimi bir sorğu-sualla müşayiət olunur. Məzmun və ideya qalmaqla bədii fənd dəyişdirilir:

Ləbi-lə'lüni sənün can dedilər gerçəkmi?
Xəti-nəsxüni ki, reyhan dedilər, gerçəkmi?
Ləbün andum idi, toldı ağızum şəkkərlə,
Kimə dedüm isə yalan dedilər, gerkçəkmi?
Tutağun şəkkərinun rəngini qızıl gördüm,
Çünki sordum anı, qandan dedilər, gerçəkmi?
Könüli çahı zənəxdanına düşmiş gördüm,
Bunı Yusif, anı zindan dedilər, gerçəkmi?

Şairə görə, dilbərin surətinin gözəlliyi eşqin böyüklüyünə ən inkarolunmaz dəlildir.

O, HƏM DƏ DƏRDLƏ BARIŞDIRIR...

Vaqif Bayatlı Odərin "YUPYUMRU BİR EŞQ İLƏ" şeirlər kitabını oxuyarkən yaşananlar

Sevdiyim nəsnələrin rəsmini cızmaq əlimdən yetərincə gəlmir. Sevdiyim insanların haqqında söz deməyə də həmişə zorlanıram.

Elə şeylər var, istəsən də, istəməsən də, rəsmlərinimi deyim, bir hal kimi ağlasığmaz kölgə-görüntülərinimi deyim, şüurun, hissin qavramağa acizlik etdiyi ilahi səslərinimi deyim - nələrini isə, sinirlərinə çəkib yaşasan da izah edə bilmirsən. Amma qəribə də olsa, bir də ayılıb görürsən, onları haçansa sirli-sirli Can Kətanına köçürmüsən artıq. Bir də görürsən içinin divarlarında sərgilənib, barın-barxanan kimi yükünə dönüb və bunların ömür saxlancına çevrilməsindən məmnunsan. Bunlar qazanc-qismətlərindir, sözlə bəyana gəlməyənlərdir, fırçaya yatmayanlardır, nota düşməyənlərdir. Onların arasında bir üzün işığı da ola bilər, bir duanın sehri də ola bilər, sularda axıb gedən bir gül ləçəyi də, bir şeirin ovqatı da... Qavramda bəyansız qalan bu sürreal ştrixlər, dərinlərə getsən, lap ilahi işarələr kimi də yozular. Amma sən ixtiyar sahibi olmadığın üçün neyləyə bilərsən axı? Şərhdən ötrü qiyam etsən, yozumun urvatsız olar. Bəyanı mümkün olan hər hansı çəkdiyimiz bir yük qeyri-şüuri ola bilər, amma qeyri-hissi ola bilməz heç vaxt. Yəni ağzı bağlı çuvalda nə olduğunu bilməyə bilərsən, amma bu çuval çiyinindədirsə, ağır, ya yüngül olduğunu hiss etməməyin olumsuz bir şey...

Vaqif Bayatlı Odər şeirinin tutumu heç də məna zənginliyi, yəni şüura güclü təsir göstərərək kontakt yaratması ilə deyil, daha çox onun hissi çalarlarının insan ruhunda sərbəst gəzişmələri, oralarda ərköyün uşaq çılğınlığı ilə, necə deyərlər, dinc durmaması, aləmi biri-birinə vurmasıyla ölçülür. Onun şeirləriylə tanış olurkən içində tələtümlər yaşayan oxucunu yalnız bir yol gözləyir: sevgi yolu. O yol da özlüyündə başqa bir yola - barış yoluna aparır.O sevə-sevə sevdirir, sevdirə-sevdirə barışdırır. Sevgi və barış bu ilginc poeziyanın ən mühüm dayaqlarıdır.

Elmi arşınları Vaqif şeirinə tətbiq eləmək çox primitiv görünərdi. Bunu ona görə demirəm ki, bu məsələlərin fərqində olanlar bu gün yox dərəcəsindədir.Yox, sadəcə hər cür "izm"lər onun şeirləri üstünə hayqırıb gələ bilər, amma son nəticədə utanc içində, pərt halda yanından ötüşər. "Niyə"sinin şərhə ehtiyacı yoxdu ki... İlgilənənlər bunu şeirlərdən sorsun gərək. Ən doğru cavab elə şeirlərin özündədir.

Hər şairin bir özək şeiri olur. Qalan bütün şeirləri o özəyin kökündən, budağından su içir əslində. Vaqif Bayatlı Odərin özək şeiri yoxdur. Onun bütün şeirləri qaib bir mənbəyə söykənərək (mücərrəd yox, anlaşılan, duyulan - amma qaib) çox güclü qidalanır, özü də, bu zaman tükənmək bilməyən enerji çağlayanına çevrilir. Öz-özlüyündə o, ortalığa qoyduğu məhsula görə yalnız həmən sirli, qaib ucalığa borcludur. Deyən tapılar ki, onun yaradıcılığında irfanın islamdan öncəki dönəmlərinin, lap antiklərə gedib çıxan çağlarının ahəngləri var. Amma necə? Güclü Tanrıçılıq baxımından bu, kənardan belə görünə bilər. Bu anlamın islamda təsəvvüflə, sufi dünyagörüşləri ilə ka-

milləşdiyini və tarixə azman söz ustaları doğurduğunu nəzərə alsaq, ortada bitkin bir konsepsiya durmalıdır. Hərdən Vaqif Bayatlı Odər şeirində bu dünyagörüşlərinin çox güclü elementləri ortaya çıxsa da, əslində, bir küll halında götürsək, onun yaradıcılığında belə bir konkret konsepsiya yoxdur. Əvəzində belə bir ovqat var: sanki uzaqlara əbədi getdiyini dərk edərək evdən tələsik çıxan mifik bir varlıqdı söz yiyəsi; o, nəyisə unudub evdə qoyduğunu anlayaraq, sürətlə geri dönür, evi ələk-fələk eləyir, amma axtardığını tapır, ya tapmır, bu sirr olaraq qalır. O, yenidən yoluna davam eləyir, yol onu yenidən kərən-kərən həmən ünvana gətirir, yenidən həmən proses təkrarlanır. O, bu gəlim-gedimin sirrini hamıdan gizlədərək, oxucunu intizarda saxlayır. Oxucu isə, öz növbəsində, hər şeyi unudaraq, yalnız o sirri öyrənməyə can atdığı üçün bu ovqata qatılaraq ona tabe olur, özündən xəbərsiz, sözün yaxşı mənasında, itaət edir - sehirlənmənin sadə anlamını təxminən belə yozur: ələk-fələk olunan yalnız və yalnız ucalar ucası, sirlər məkanı Göy Üzüdü. Bəs axtarılan nə idi? Tapıldımı? Bəs bu mübhəm sevda hardan çilənir? Bu sirr açılacaqmı? İnsanı insana, gülü gülə sevdirən bu sirri öyrənmək mümkün olacaqmı? Hara gedir o mübhəm sirlər sahibi? Yenidən Göy Üzünə! İtiyinin ardıyca! Və gərdiş beləcə başlanır Könül Kainatında - dövrə vura-vura, rəqs edə-edə, sonralar özü də etiraf edəcək bunu, hamını bu rəqsə çağıracaq...

Bu hisslərin aurası içində olmaq hər cür kamil, bitkin konsepsiyadan, proqramdan ucalarda dayanır. Bayaq qeyd etdiyim kimi, bir uşaq çılğınlığıyla dinc durmadan aləmi biri-birinə vurmağa bənzəyən bu bədii hökmranlığa olduqca səmimi bağlılıq, əslində, heç şairin düşünülmüş amacı da deyil. Bunu ilk baxışda çox sadə, bənzərsiz, öz təbirincə desək, "qanadlı şeirlər"in özləri diqtə eləyir. Elə buna görə də, V.B.Odər yaradıcılığında şeirin klassik anlamı çökmür və itirmir, çağdaş anlamı isə ucalaraq qazanır. Burda da onun sevdirici və barışdırıcı mövqeyi özünü göstərir. Onun poeziyası, sadə şəkildə izah etsək, nəinki insanların, eləcə də, şeirimizin dünəniylə bu günü arasında sevgi və barış nöqtəsidir. Dünyagirlikdən çox-çox uzaq olan şairin şeirlərində bir damla göz yaşıyla, bir şamla, ya bir gül ləçəyilə üzə çıxan dərdlərdən, sevdalardan şeirə tapınan bütün haqq aşiqlərinə ruh yükü bağlamaq daha asandır, nəinki mücərrədliyin daşqırmaz aynalarında oynaşan dərkolunmaz kabuslardan.

Bütün bu hisslərimi şairin ilk kitabı olan "Şəhli kəpənəklər"ini oxuyanda da keçirirdim, onun axarıncı, haqdan ədəbiyyatımızın uğuru sayıla biləcək "Yupyumru bir eşq ilə" kitabını oxuyanda da.

Olur ki, insan çox vaxt sövq-təbii nəsə cana yaxın bir itkisini axtarmaq durumuna düşür, hisslərin caynağında ümidsizlikdən üzülür. Amma bilmir neyləsin. Bax elədə o, həmişə təzə-tər olan Vaqif Bayatlı Odər şeirinə üz tutsa, uzun illərin müşahidələrindən doğan qənaətimə görə, həm yarası qaysaqlanar, həm də dili şükran dualarına gələr tezliklə. Yəni sehrin bircə düyməsi də olsa qırılıb düşər ovcuna.

O, ayrılıqları da sevdirir - İtkiləri qaytarırmış kimi...

O, həm də dərdlə barışdırır - duyulmadan, "yupyumru bir eşq ilə..."

Zahid SARITORPAQ

◆ KİTAB RƏFİ

QƏZƏNFƏR PAŞAYEV.
NƏSİMİ HAQQINDA ARAŞDIRMALAR.
Bakı, "Qarabağ" nəşriyyatı, 2010.

"Qarabağ" nəşriyyatında işıq üzü görən "Nəsimi haqqında araşdırmalar" kitabında professor Qəzənfər Paşayevin ayrı-ayrı vaxtlarda Nəsimi irsinə həsr etdiyi yazıları yer alıb. "Nəsimi divanının İraq nüsxəsi və naməlum şeirləri", "Nəsiminin həyat və yaradıcılığına yeni baxış", "Axtarışlar", "Şeyx Nəsimi: tarixi həqiqətlər, həyəcanlı anlar", "İraq divanı və biz", "Nəsimi irsinin tədqiqi və nəşr tarixinə bir nəzər" adlı məqalələrdən və "Tarixi şəkillər" bölümündən ibarət bu kitabda görkəmli hürufi şairimiz Şeyx İmadəddin Nəsiminin həyatı və yaradıcılığı istiqamətində mühüm məlumatlar diqqəti çəkir.

Elmi redaktoru və "Bir neçə söz"ün müəllifi akademik Bəkir Nəbiyevdir.

SEVİNC KAZIMOVA. ÖMRÜN İKİ YOLU.
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2010

Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının müəllimi Sevinc Kazımovanın bu kitabında XX əsr Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında böyük xidmətləri olan yazıçı, dramaturq, ssenarist və rejissor Həsən Seyidbəylinin zəngin və çoxşaxəli yaradıcılıq yolu tədqiq edilir, otuz illik ədəbi-bədii yaradıcılığında bir sənətkar kimi ədəbiyyatımıza "Kənd həkimi", "Telefonçu qız", "Cəbhədən-cəbhəyə", "İllər keçir" (İmran Qasımovla birgə), "Çiçək", "Tərsanə" kimi dəyərli əsərlərindən geniş bəhs olunur. Yazıçının yaşayıb-yaratdığı dövrün ədəbi prosesində onun yaradıcılığının özünəməxsus xüsusiyyətləri, hekayə, povest və romanlarının mövzu əlvanlığı, ideya zənginliyi açıqlanır. Topluda, həmçinin, H.Seyidbəylinin publisistik fəaliyyəti, kino-dramaturq, rejissorluq fəaliyyəti haqqında da maraqlı fəsillər var.

Elmi redaktoru filologiya elmləri doktoru, professor Qorxmaz Quliyevdir.

ADİL BABAYEV.
YAŞAMAĞI BACARMIRAM.
Bakı, "Mütərcim", 2010



Adil Babayev XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələrindəndir (1925-1977). Çoxcə-

hətli və rəngarəng yaradıcılığı olan A.Babayev həm gözəl şair, həm dramaturq, həm də tərcüməçi kimi oxucuların rəğbətini qazanmışdı. Bu kitabda Adil Babayevin şeirləri və sonetləri toplanmışdır. Təqdim olunan poetik nümunələr "Kim deyir ki, nahaq yerə yaşadıq?", "Nəğməm, şeirim gözəllikdən yarandı", "Şeir sorağında", "Vaxt ona qızıl idi" və "Sonetlər" başlıqları ilə verilib.

Kitabda həmçinin müxtəlif illərdə A.Babayev yaradıcılığı haqqında söz açan qələm dostlarının yazılarından parçalar da təqdim edilir, mərhum professor Abbas Zamanovun və professor Cəlal Abdullayevin kitabda ön sözləri verilmişdir.

Toplunun redaktoru Vahid Əziz, tərtib edəni Etibar Babayevdir.

F.M.DOSTOYEVSKİ.
KARAMAZOV QARDAŞLARI.
Bakı, "Mütərcim" nəşriyyatı, 2010.

F.Dostoyevskiyə dünya şöhrəti qazandıran roman Azərbaycan dilinə yalnız indi tam tərcümə olunur. Filologiya elmləri doktoru, professor Məmməd Qocayevin kitaba yazdığı geniş və əhatəli "Karamazov qardaşları" romanının Azərbaycan dilinə tərcüməsi münasibətilə" giriş sözündə deyilir: "Kiməsə belə gələ bilər ki, müstəqil Azərbaycanda rus yazıçısının əsərini dilimizə çevirmək o qədər də aktual bir məsələ deyildir. Əslində isə Dostoyevskinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi bizim tərcümə məktəbimizin qeyrət işidir, ziyalılığımızın, elmimizin, mədəniyyətimizin səviyyəsinin göstəricisidir..."

Əsəri dilimizə Bakı Slavyan Universitetinin professoru Telman Vəlixanlı çevirib.

Kitaba tərcüməçi "F.M.Dostoyevskinin "Karamazov qardaşları" romanının Azərbaycan dilinə ilk tərcüməsinə müqəddimə" də yazıb.

ELÇİN HÜSEYNBƏYLİ. ŞİMALLI GƏLİN.
Bakı, "Mütərcim", 2010.

Elçin Hüseynbəylinin bu kitabında Qarabağ mövzusunda yazdığı "Şimallı gəlin" və "Gözünə gün düşür" hekayələri təqdim olunur.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə, "525-ci qəzet"in "525 kitab" seriyasından nəşr edilən kitabın tərtibçisi və redaktoru Səlim Babullaoğludur.

Seriyanın rəhbəri "525-ci qəzet"in baş redaktoru, AYB-nin katibi Rəşad Məciddir.

NİSƏ BƏYİM. ÜRƏK SİMFONİYASI.
Bakı, "Şirvannəşr", 2009

Bu kitaba ədəbi yaradıcılığa keçən əsrin 80-ci illərinin sonlarından başlayan Nisə Bəyimin son illərdə yazdığı şeirləri, "Ürək simfoniyası" və "Çöl" poemaları daxil edilmişdir. Kitabda Nisə Bəyimin "Bütün həqiqətlər sözlərdədir" publisistik yazısı və "Pəncərə" mono-pyesi də təqdim olunur.

ELXAN MUXTAR ELXAN.
NOVRUZUN ULU SƏLƏFİ.
Bakı, "Səda" nəşriyyatı, 2010

"Mən Dədə Qorqud", "Azərbaycan toyu", "Nuhun dabanı", "Məlikməmməd", "Dədə günəş əfsanəsi", "Peyğəmbərlər peyğəmbəri Zərdüşt" və başqa elmi-publisistik kitabların müəllifi Elçin Muxtar Elxanın bu yeni "Novruzun ulu sələfi" toplusunda 5000 il bundan əvvəl əski Mesopotamiya torpaqlarında şumerlərin Yazgüntəni günü keçirdiyi "Əkidu "Zağmuku" yeni il və Günəş bayramından, oradakı tədbirlərdən ətraflı xəbər verilir, bu bayramın bizim Novruz bayramımızın ulu sələfi olduğu bildirilir. Yazılar "Atlantidada Yazgüntəni", "Bayram günləri", "Mübarək nigah", "Sasani Novruzu" və s. başlıqlarda verilib.

VAHİD MƏHƏRRƏMOV.
ERMƏNİ ƏSİRLİYİNDƏN DÖNƏNLƏR.
Bakı, Hərbi nəşriyyat, 2009

"Müharibənin bir ili", "Səngərdə yazılmış sətirlər", "Qələbə naminə", "Ölməzlik zirvəsi" və "Pulemyotçu Nurəddin" publisistik kitablarının müəllifi, hərbi jurnalist Vahid Məhərrəmovun oxuculara təqdim olunan bu yeni kitabında Qarabağ müharibəsi zamanı müxtəlif illərdə, ayrı-ayrı bölgələrdə qanlı döyüşlər zamanı erməni işğalçıları tərəfindən əsir götürülmüş və min cür əzab-əziyyətə məruz qalmış mülki və hərbi vətəndaşlarımızın ağrı-acılı xatirələrinə,

başlarına gətirilən dəhşətli hadisələrə geniş yer ayrılıb. Erməni Araşdırmalar Mərkəzinin sədri jurnalist Qafar Çaxmaqlı kitaba "Əzabkeş insan yaşantılarının toplusu" adlı ön söz yazmışdır.

MÖVLUD TEYMUR. ÜRƏK YANĞISI.
Bakı, "Şirvannəşr", 2009.

"Ürək yanğısı" kitabında Beynəlxalq Rəsul Rza mükafatı laureatı Mövlud Teymurun müxtəlif illərdə qələmə aldığı şeirləri toplanmışdır. Doğma elə, ana torpağa bağlılıq, xalqımızın taleyi, Vətən buradakı şeirlərin əsas qayəsidir. Şeirlər "Döyünən, vuran ürəyim", "Necə yada salmayım" və "Karvan yolu" başlıqları altında təqdim olunur.

QAFAR QƏRİB.
VƏTƏN DAŞDAN BAŞLAYIRMIŞ.
Bakı, ADPU-nun nəşriyyatı, 2009.

Qafar Qərib Naxçıvanda yaşayıb-yaradır. "Gözlərsən məni", "Gözümə döydüyüm şəkil", "İçimizdəki qəhrəman", "Dünya üç bucaq imiş", "Göydən üç alma düşdü" şeir, "İki qapı arasında" nəsr kitablarının müəllifidir. "Vətən daşdan başlayırmış" isə onun oxucularla növbəti görüşüdür. Müxtəlif mövzularda olan şeirlər "Bu eşq bir əfsanə olub qalacaq", "O, bir insan deyildi ki...", "Tanrı, yaman uzaqdasan" başlıqları ilə təqdim olunur. Kitabda, həmçinin, müəllifin Vətənə, yurda bağlılıqdan, tarixi keçmişimizdən bəhs edən "Əlincə" poeması ilə də tanış ola bilərsiniz.

Naxçıvan MR Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar kitaba "O, bir ulduz kölgəsidir" adlı ön söz yazmışdır.

TODUR ZANET. ANA DİLİM.
Bakı, 2010.

Tanınmış Qaqauz şairi Todur Zanetin Azərbaycanda "Ana dilim" adlı kitabı işıq üzü görüb. Kitabda şairin şeirlərindən nümunələr toplanıb. Kitab 31 mart-4 aprel 2009-cu ildə İstanbulda TÜRKSOY tərəfindən təşkil olunan "Türk ləhcələri Arasında Uy-

ğunlaşdırma Çalışmalarının Bugünkü Durumu və Qarşılaşılan Problemlər" mövzusunda Beynəlxalq simpoziumun yekun bəyannaməsinə uyğun olaraq nəşr edilib. Tərtibçi və ön söz müəllifi Ramiz Əskər kitabın girişində Todur Zanetin tərcümeyi-halı və yaradıcılığı ilə bağlı məlumat verib.

Kitaba daxil edilən "Mərz daşı", "Zavallı torpaq", "Əski məzar", "Aclıq", "Bucağım", "Konqar", "Şən oynar qaqauz", "Günaydın evim" şeirləri vətənə, onun keçmişinə və gözəlliklərinə həsr edilib.

KƏMALƏDDİN QƏDİM.
ALLAHDI, ŞEYTANDI, MƏNƏM.
Bakı, "Vektor" nəşrlər evi, 2009.

K.Qədim ədəbiyyata 80-ci illərdə gəlmişdir. İndiyə kimi müəllifin 4 kitabı işıq üzü görüb. "Allahdı, şeytandı, mənəm" kitabı isə onun oxucularla yeni görüşüdür. Kitabda müəllifin müxtəlif mövzularda yazdığı şeirləri və "Yeddi yamaq vuran xanım" və "Danışır qoca" poemaları təqdim olunur. Şair Adil Mirseyid kitaba "Şeirinə bənzəyən şair" adlı ön söz yazmışdır.

RASİM GƏNZƏLİ. QİYAMƏT QOPANDA.
Bakı, "Vektor" nəşrlər evi, 2010.

"Qurdlar və Manqurtlar", "Qara Sevda" kitablarının müəllifi Rasim Gənzəli bu yeni - "Qiyamət qopanda" kitabında çox aktual ictimai-siyasi məsələlərə toxunub. Müəllif bu əsərində erməni riyakarlığının qurbanı olmuş iki ailənin faciəli taleyindən, erməni vəhşiliyinin iç üzündən, törətdikləri vəhşiliklərdən, amansızlıqdan söhbət açır, və insanları ayıq olmağa çağırır.

ŞƏFƏQ SAHİBLİ.
TƏNHA KUĞU (TÜRK DİLİNDƏ).
İstanbul, 2010.

Şəfəq Sahibli müasir poeziyamızın orta nəslinə mənsub şairlərdəndir. Onun müxtəlif illərdə yazdığı şeirləri türk oxucularına da təqdim edilir. "Tənha ku-

ğu" adlanan bu kitabda müəllifin sevgi, Vətən, müasir insan və gerçəklik mövzusunda qələmə aldığı şeirləri toplanmışdır.

ELBƏYİ CƏLALOĞLU.
DAN ÜZÜNÜN RƏNGİ.

Bakı, "Nurlan", 2009.

"Dan üzünün rəngi" Elbəyi Cəlaloğlunun oxucularla üçüncü görüşüdür. Bundan oncə müəllifin "Sənninlə ilk görüşdə" və "Bu köç hara gedir" adlı şeir kitabları çap olunmuşdur.

Yeni kitabında da müəllif xalq şeiri ənənələrinə sadiq qalır. Kitabdakı şeirlər "Dərdimiz dərd olub dərdliyə, qardaş", "Məni sevməməyə nə hünərin var?!", "Sən nəyimsən, ay Allahın bəlası", "Öz ünvanım, öz adımdı saz mənim" başlıqları altında təqdim olunur.

Hazırladı: M.TOFİQ

OXUCULARIN NƏZƏRİNƏ!
2010-cu İL ÜÇÜN
"AZƏRBAYCAN"
jurnalına
abunə yazılışı davam edir.
"AZƏRBAYCAN"
jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,
illik abunə qiyməti 18 manatdır.
İNDEKS: 76300

Qiyməti 1 manat 50 qəpik

ISSN 0134 3408

76300

АЗЕРБАЙДЖАН

ЛИТЕРАТУРНЫЙ ЖУРНАЛ

Адрес: г. Баку, ул. Хагани 25

AZERBAIJAN

LITERARY MAGAZINE

Address: 25 Khagani Str. Baku